В ходе исследования было установлено, что в современных условиях ведущими идеями гуманистического воспитания являются: социализация личности, приобщение ее к национальной культуре, нормам и ценностям общества; новый взгляд на ребенка как субъекта воспитания; регионализация, гуманизация и гуманитаризация образования; создание развивающей среды, школьных воспитательных систем; самосовершенствование, свободное самоопределение, самореализация человека и защита его прав; сотрудничество, взаимодействие и совместная деятельность обучающих и обучающихся; сопровождение и педагогическая поддержка. Приоритетными целями гуманистического воспитания являются: признание личности как ценности, освоение ею основ культуры, развитие конкретной личности, ее индивидуальности, оказание помощи в её жизненном самоопределении (мировоззренческое, духовно-нравственное, гражданское, культурное, физическое, бытийное), создание для этого всех необходимых условий.

Новые гуманистические приоритеты органически вошли в понятие «новое педагогическое мышление».

Истоки нового педагогического мышления заложены в непреходящих общечеловеческих ценностях духовной жизни. К важнейшим формам существования гуманистических ценностей исследователи относят общечеловеческие, социальные, личностные. Система ценностей педагога образует содержательную сторону направленности личности и выражает внутреннюю основу ее отношений к действительности. Овладение педагогическими ценностями осуществляется в процессе педагогической деятельности, в ходе которой происходит их субъективизация.

Исследуя гуманистический подход к формированию профессионализма и компетентности педагога, опираясь на ведущие идеи гуманизма [4;5;7;17;18;19], мы разработали концептуальные основы воспитательной работы в общеобразовательных учреждениях и использовали их в создании программ развития школьных гуманистических воспитательных систем [8]. Под концептуальными основами гуманистического воспитания мы понимаем основополагающий взгляд на личность как самоценность и ее становление в условиях демократического общества. Концептуальные основы включают современное понимание сущности гуманистического воспитания, его ценностей, целей и принципов, форм и методов, вариативных технологий и новых подходов к организации воспитательной практики. Содержание гуманистического воспитания составляет ориентация обучающегося на общечеловеческие ценности, перевод их в личные ценности каждого с учетом национальной культуры, народных традиций и потребностей современного общества.

Для указанных воспитательных систем типичным является наличие собственных концепций гуманистического воспитания, гуманитарная направленность всех учебных предметов, культурологический подход к обучению и воспитанию, развивающее обучение, гуманизация отношений, интеграция и совместное творчество, сотрудничество и самоопределение и др. Вместе с тем

воспитательные системы школ имеют свои особенности в становлении и развитии, свои качественные достижения, выражающиеся в личностном, индивидуальном своеобразии каждого школьника и педагога, их взаимоотношениях и совместной деятельности. Они зависят также от типа школы, окружающей среды, состава учащихся, авторского замысла концепции развития.

Проблема гуманистического профессионального воспитания в вузе в настоящее время связана с подготовкой учителя-профессионала, имеющего современное, сориентированное на гуманистические ценности педагогическое мышление, владеющего вариативными технологиями гуманистического воспитания, способного к инновационной творческой деятельности.

Управлять образованием в контексте реализации гуманистического подхода – значит создавать условия для развития каждого обучающегося, включать его в разнообразную деятельность, в систему гуманистических отношений, стимулировать самопознание, саморазвитие, всемерно поддерживать развивающуюся личность.

Контурными ориентирами гуманистической концепции, на которую должна опираться образовательная система учебного заведения, являются: теория ценностей и целей; психологическая и педагогическая диагностика; теория информации и психология воспитания; теория личности и индивидуальности; теория качества воспитывающего и развивающего обучения; психология и педагогика творчества; инновационные технологии.

Таким образом, чтобы успешно решать задачи гуманистического образования и воспитания в современных условиях, педагог-профессионал, исследователь должен обладать стройным научным мировоззрением, новым педагогическим мышлением, гуманистическим мировосприятием и мироощущением. Каждая школа (высшая, средняя) должна разработать гуманистическую модель обучения и воспитания, создать собственную воспитательную систему на основе ведущих концептуальных идей гуманизма и вариативных технологий сотрудничества.

*Методы исследования*. Автор использует критический анализ литературы и научных изысканий ученых по выбранной проблеме.

**Новизна проблемы.** В статье указываются пути внедрения гуманистических идей в практику школьных воспитательных систем; гуманистический подход к формированию профессионализма и компетентности педагога. Исследование показало, что знание педагогами концептуальных основ гуманистического воспитания способствует разработке теоретических моделей и созданию и внедрению на практике конкретных авторских вариативных воспитательных систем и программ развития (например, школьные системы: глобально-ориентированная, вальдорфская, педагогика общей заботы, сотрудничества, диалога культур, воспитательные системы гуманитарной гимназии, русской классической школы, свободного лицея; вузовские модели: модель воспитания человека культуры, модель педагогической поддержки и сопровождения, модель сотрудничества и взаимодействия, модель инновационного образовательного пространства, модели инновационных образовательных технологий, компетентностные модели современного учителя и преподавателя высшей школы и др.).

**Практическая значимость проблемы.** В статье рассматриваются теоретические подходы к реализации гуманистического подхода в образовании, влияющие на формирование профессионализма и компетентности педагога.

## Литература:


1. Андриенко Е. В. Педагогический профессионализм в образовании: материалы Международной научно-практической конференции, посвящённой 120-летию со дня основания города Новосибирска (21-22 февраля 2013 г.) / под науч. ред. Е.В. Андриенко. Новосибирск: Изд. НГПУ, -2013. Ч. I. -372 с. С. 21.
2. Артамонова Е. И. Развитие образования и науки – путь к культуре мира и здоровому образу жизни // Педагогическое образование и: вызовы XXI века: Материалы Международной научно-практической конференции, посвящённой памяти выдающегося российского учёного-педагога В.А. Сластёнина. 16-17 сентября 2010 г., Москва, МПГУ: В 2-хч. Ч. I. -М.: МАНПО, -2010. -771 с. С. 20.

3. Воспитать человека: Сборник нормативно-правовых, научно-методических, организационно-практических материалов по проблемам воспитания / под ред. В.А. Березиной, О.И. Волжиной, И.А. Зимней. – М.: Вента – на Граф, – 2002. – 384 с.
4. Гребенкина Л.К. Формирование профессионализма учителя в системе непрерывного педагогического образования: монография. Рязань, Ряз. гос. ун-т им. С.А. Есенина, -2006.
5. Гребенкина Л.К., Копылова Н. А. Педагогика сотрудничества: вчера, сегодня, завтра (теория, опыт) монография. 2-е изд. -Рязань, Ряз. гос. ун-т им. С.А. Есенина. – 2010. 5
6. Кубрушко, П. Ф. Подготовка педагогов профессионального обучения к работе в электронной информационно-образовательной среде / П.Ф. Кубрушко, Д.О. Еприкян // Муниципальное образование: инновации и эксперимент. – 2022. № 4. – с. 20-25. DOI 10.51904/2306-8329_2022 _85_4_20.
7. Новикова Г.П. Гуманистический подход к формированию профессионализма и компетентности педагога. /Г.П. Новикова // Муниципальное образование: инновации и эксперимент. 2023. № 2(89). -С. 50-57. DOI: http://dx.doi.org/10.51904/2306-8329_2023_89_2_50.
8. Новикова Г.П. Ориентация на гуманистические традиции и ценности как идеология инновационных образовательных процессов // Педагогическое образование и наука: МАНПО. – М., 2005. № 5. – с. 15-20.
9. Попов Е.Б. Гуманистическая педагогика: идеи, концепции, практика: Из серии «Педагогика и гуманизм» /Учебное пособие, книга вторая. – Оренбург: ИПК ОГУ, – 2003. – 156 с.
10. Русакова, Т. С. Педагогические условия эффективности формирования компетенции сотрудничества молодежи в социальнокультурной деятельности / Т.С. Русакова, С.Б. Серякова // Муниципальное образование: инновации и эксперимент. – 2022. № 4(85). – с. 51-55.
11. Савостьянов, А.И. Гуманизация образования: ценностные ориентиры / А.И. Савостьянов // Муниципальное образование: инновации и эксперимент. – 2010. № 5. – с. 7-9.
12. Сластёнин, В.А. Сластёнин. – М.: Издательский Дом МАГИСТР-ПРЕСС, – 2000. – 488 с.
13. Слепцова, И.Ф. Профессиональный стандарт «педагог» и вызовы современной социокультурной ситуации // Муниципальное образование: инновации и эксперимент. – 2020. № 1. – с. 39-46.
14. Стратегия воспитания в образовательной системе России: подходы и проблемы / под ред. проф. И.А. Зимней. Изд. 2-е. – М.: Агентство «Издательский сервис», – 2004. – 480 с.
15. Федеральный закон РФ «Об образовании в Российской Федерации» (от 29 декабря 2012 г.), ст. 3. (Федеральный закон Российской Федерации от 29 декабря 2012 г. № 273-ФЗ «Об образовании в Российской Федерации» // Российская Газета. 31.12.2012. Федеральный выпуск № 5976 // http://www.rg.ru/2012/12/30/obrazovanie-dok.html )
16. Цупикова, Е.В. Подходы к построению и принципы создания интеллектоемких педагогических технологий / Е.В. Цупикова, М.В. Цыгулева // Муниципальное образование: инновации и эксперимент. – 2023. № 1(88). – с. 60-69. DOI 10.51904/2306-8329_2023_88_1_60.
17. Чувилина, А.Е. Экологическая компетентность студентов вуза: особенности формирования средствами тьюторского сопровождения / А.Е. Чувилина // Муниципальное образование: инновации и эксперимент. 2020. № 6. С. 58-60.
18. Ширяева, В.В. Профессиональный рост педагога как необходимо условие профессионального долголетия / В. В. Ширяева // Муниципальное образование: инновации и эксперимент. 2021. № 5(80). С. 38-48. DOI 10.51904/2306-8329_2021_80_5_38.
19. Яровова, Т.В. Профессионально-личностное развитие обучаемых в стратегии реализации гуманистического подхода / Т.В. Яровова, А.Х. Тиллаев // Педагогическое образование и наука. 2020. № 3. с. 77-80.


**E-mail:** *nochuirot@rambler.ru*

**Рецензент:** *док.пед.н., проф.* **Г.Г. Ахмедов**
**Redaksiyaya daxil olub**:17.10.2023.

*UOT 37.0*

***Aytən Təmraz qızı Daşdəmirova***
*Azərbaycan Dillər Universitetinin*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı,*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi pedaqogika kafedrasının müəllimi*
*https://orcid.org/0009-0006-93-32-5657*

# MÜƏLLİMİN PEŞƏ FƏALİYYƏTİNDƏ PEDAQOJİ DƏYƏRLƏRİN YERİ VƏ ROLU

***Айтен Тамраз гызы Дашдемирова***
*докторант Азербайджанского Университета Языков,*
*преподаватель кафедры общей педагогики*
*Азербайджанского Государственного Педагогического Университета*

# МЕСТО И РОЛЬ ПЕДАГОГИЧЕСКИХ ЦЕННОСТЕЙ В ПРОФЕССИОНАЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ УЧИТЕЛЯ

***Aytan Tamraz Dashdamirova***
*doctorial student in the program of doctor of philosophy of Azerbaijan University of Languages,*
*teacher of the department of General pedagogy at the Azerbaijan State Pedagogical University*

# THE PLACE AND ROLE OF PEDAGOGICAL VALUES IN THE TEACHER'S PROFESSIONAL ACTIVITY

**Xülasə.** Pedaqoji dəyərlər özünün mahiyyət və məzmununa görə müəllimin peşə fəaliyyətində önəmli rol oynayır. Bu dəyərlər müəllim fəaliyyətini nizama salır və onu daha məhsuldar edir. Həmçinin pedaqoji fəaliyyətin məzmun və məqsədinin reallaşmasına əsaslı təsir göstərir. Yetər ki, müəllim bu dəyərləri mənimsəmiş olsun və fəaliyyətində onları reallaşdıra bilsin.

Pedaqoji dəyərlərin formalaşdırılması onun yerinin və rolunun düzgün müəyyənləşdirilməsindən və müəllimlərin onu öz fəaliyyətlərində səmərəli tətbiq etmələrindən çox asılıdır. Məqalədə bu sahədə aparılmış bir çox tədqiqatlara nəzər yetirilmiş, pedaqoji dəyərlərin yeri və roluna dair tədqiqatlar araşdırılmış və bu dəyərlərin məzmununa münasibət bildirilmişdir.

***Aşar sözlər:*** *pedaqoji dəyərlər, fəaliyyət, struktur, müəllim modeli, özünüaktuallaşdırma.*

**Резюме.** Педагогические ценности играют важную роль в профессиональной деятельности учителя в силу своей природы и содержания. Эти ценности регулируют деятельность учителя и делают ее более продуктивной. Это также оказывает существенное влияние на содержание и цель педагогической деятельности. Это также оказывает существенное влияние на содержание и цель педагогической деятельности. Формирование педагогической ценности во многом зависит от правильного определения деятельности, ее места и роли и от эффективного применения ее педагогами в своей работе. В статье рассмотрено множество исследований, проведенных в этой области, изучены труды о месте и роли педагогических ценностей, а также изложено отношение к содержанию этих ценностей.

***Ключевые слова:*** *педагогические ценности, деятельность, структура, модель учителя, самоактуализация*

**Summary**. Pedagogical values play an important role in the teacher's professional activity due to their nature and content. These values regulate teacher activity and make it more productive. It also has a significant impact on the content and purpose of pedagogical activity.

It is enough that the teacher has mastered these values and can realize them in his activities.

The formation of pedagogical values depends very much on the correct definition of its place and role and on teachers' effective application of it in their activities. In the article, many studies conducted in this

field were reviewed, studies on the place and role of pedagogical values were investigated, and the attitude towards the content of these values was reported.

***Key words:*** *pedagogical values; action; structure; teacher model; self-actualization.*

Dəyərlər sistemində xüsusi yeri və rolu olan pedaqoji dəyərlər özünün mahiyyət və məzmununa görə pedaqoji prosesin səmərəliliyinin və keyfiyyətinin təmin olunmasında mühüm yer tutur. Onun reallaşdırılmasıyla əldə olunan nəticələr də özünün miqyasına və tutumuna görə pedaqoji proses üçün bir çox cəhətdən əhəmiyyətli və zəruridir. Bu baxımdan pedaqoji peşə dəyərlərinin mahiyyət və məzmunu haqqında təhsilverənlərin geniş məlumata malik olmaları və onları həyata keçirə bilmək üçün bilik və bacarıqlara, texnoloji vərdişlərə yiyələnmələri olduqca vacibdir.

Pedaqoji peşə dəyərlərinin mahiyyəti və strukturu müəllim peşəsinin mahiyyəti və əsas funksiyası ilə bilavasitə bağlı olduğundan öncə müəllim peşəsinin mahiyyəti və əsas xüsusiyyətlərini nəzərdən keçirək.

Son bir-iki onilliklərdə cəmiyyətin peşə qədər radikal dəyişikliklərə məruz qalmış başqa bir sferası demək olar ki, çox azdır. Peşələrdə olduğu kimi, peşə dəyərlərinin də transformasiyası bütün dünya ölkələrində müşahidə olunur. Yüksək status daşıyan peşə dəyərləri müxtəlif ölkələrdə əsasən eyni məzmunda və dəyərdə qəbul edilir. XXI əsrin peşələri özünün müxtəlif tərəfli xüsusiyyətlərinə görə mobillik, komandada işləmək bacarığı, kommunikativ bacarıqlar və s. kimi metodoloji və sosial bacarıq və vərdişləri tələb edir. Bunlarla yanaşı, bu peşələr bir çox insanlarda fərdilik, şəxsi ləyaqət hissi, özünüinkişaf, özünüreallaşdırma, özünüaktuallaşdırma kimi assosiasiyalar yaradır. Bunlar da peşə sahiblərində müxtəlif peşə dəyərlərin yaranmasına və formalaşmasına tələbatlar yaradır.

Müəllim peşəsində böyük transformasiyalar gedir. Müəllim peşəsi geniş və çoxşaxəli olmaqla yanaşı, həm də cəmiyyət, onun inkişafı və tərəqqisi üçün ən mühüm peşələrdən biridir, çünki bütün peşə sahiblərini müəllim hazırladığı kimi, digər peşələr də müəllimdən. Müəllim peşəsindən asılıdır. İstər həkim, istər hüquqşünas, istərsə də aktyor – hamı təhsilini məktəbdən başlayır, məktəbdə alır. Məktəbin təsirindən heç kim kənarda qala bilməz. Buna görə də digər peşələrlə müqayisədə hər bir insanın taleyini daha çox müəllim peşəsi müəyyən edir. Ulu öndər Heydər Əliyev bu münasibətlə demişdir: "Bizim hamımız həyatımızda əldə etdiyimiz nailiyyətlərə, bütün varlığımıza görə müəllimə borcluyuq. Mən də müəllimə borcluyam, sən də müəllimə borclusan, bu nazirlər də müəllimə borcludurlar. Müəllimə borclu olmayan adam yoxdur,hamı müəllimə borcludur."[1, s.512].

Öz həyatını uşaqlarla işləməyə həsr edən insan çətin yola hazır olmalıdır.

Təhsil sahəsində bir çox yerli və xarici ekspertlər məsuliyyətlə bəyan edirlər ki, hazırda müəllim peşəsindən çətin peşə yoxdur və bunu hətta rəsmi sənədlərdə də görmək mümkündür.

Müəllimlərin üzərinə gələcək nəsillərin savadlandırılması və cəmiyyətə inteqrasiyası kimi mühüm ictimai vəzifələr qoyulmuşdur. Beləliklə, onlar eyni zamanda cəmiyyətin mədəni potensialını həm təkrar istehsal edir, həm də yeniləndirir. Müəllim cəmiyyətin qurulmasında, onun saflaşdırılmasında nəinki iştirak edir, bu prosesin önündə gedir.

Bu vəzifələr müxtəlif əqidə və motivləri olan müəllimlər tərəfindən yerinə yetirilir. Lakin vahid xətt, istiqamət ondan ibarətdir ki, hər bir müəllim üzərinə düşən vəzifələri dərindən dərk edərək onu ləyaqətlə yerinə yetirə bilsin.

Hər kəs müəllim peşəsinin nə dərəcədə çətin bir iş, çətin bir peşə olduğunu bilir. Lakin çox adamlar müəllimlərin, pedaqoji kollektivin hər gün üzləşdiyi real problemləri dərinliyi ilə bilmirlər. Bunu müəllimlər özləri daha dərindən bilirlər ki, bunu da onların bu peşənin incəliklərinə dərindən bələd olmaqla, peşəkar və səriştəli müəllim səviyyəsinə yüksəlməklə həll etmək mümkündür.

Pedaqoji peşə profilinin əsas cəhətlərinin öyrənilməsi, müəllim peşəsinin xüsusiyyətlərinin dəqiq müəyyən edilməsi müəllim hazırlığında mühüm əhəmiyyət kəsb edir. Yalnız faktiki xüsusiyyətlər məlum olduqda, pedaqoji ali məktəb tələbələrinin müəllim peşəsinin incəliklərini öyrənməyə hazırlıq səviyyəsini yüksəltməklə bu sahədə əsaslı irəliləyişlər etmək olar. Bunun üçün bir sıra mühüm məsələlərə diqqət yetirilməsi xüsusilə vacibdir.

Müəllim peşəsi yüksək dözümlülük tələb edən, stressli situasiyalarda dayanıqlıq tələb edən ən mürəkkəb və xeyli təcrübə tələb edən

peşələrdəndir. Müəllimlər sözə qulaq asmayan uşaqlara, mübahisə edən valideynlərə az rast gəlmirlər. Bunlar onlarda stressli və psixoloji gərginlik halları yaradır. Bu hallar bəzi müəllimlərdə bütün həyatı boyu davam edir. Hətta bəzən müəllimlər şagird və valideynlərlə ünsiyyətin çətinliyini aşağı əmək haqqı və ya peşə perspektivlərinin olmaması ilə izah etməyə çalışırlar. Bəzən də müəllim peşəsinin nüfuzunun aşağı olmasını səbəb kimi göstərirlər.

Müəllimlərin əksəriyyəti müəllimlik peşəsini sevərək, həyatlarını ona həsr edərək və daxili motivləri əsasında çalışsalar da, bunu yalnız əməkhaqqı xatirinə edənlər, sadəcə iş yeri kimi ona baxanlar da az deyildir.

Müəllimin fəaliyyəti təkcə pedaqoji fəaliyyət deyil, həm də ödənişli fəaliyyətdir. Müəllim işləyir və bunun müqabilində əməkhaqqı alır. Lakin bir çox ölkələrdə müəllim peşəsi, xüsusən də dövlət müəssisələrində işləyən müəllimlər son dərəcədə az əməkhaqqı alırlar. Məsələn, Rusiyada müəllimin orta əmək haqqı ayda cəmisi 300 ABŞ dolları təşkil edir. ABŞ-da müəllimin əmək haqqı bundan xeyli yüksəkdir, amma burada da müəllimlər dolanmaq üçün əlavə dərs götürmək məcburiyyətində olurlar. Lakin statistik təhlillər göstərir ki, hazırda respublikamızda orta məktəb müəllimlərinin orta əməkhaqqı səviyyəsi 800 manatdan yüksəkdir. Müəllimlərin sertifikasiyasından sonra bu rəqəmin daha da yüksələcəyi proqnozlaşdırılır.

Müəllim işi vaxt aparan işdir. Müəllimlər bir qayda olaraq, ağır iş günündən sonra istirahət etmir, işlərini evdə də davam etdirirlər. Ev tapşırıqlarının yoxlanması, dərsə hazırlaşmaq, müxtəlif inzibati vəzifələr müəllimlərin boş vaxtının çox hissəsini aparır. Bizdə yaxşı haldır ki, dərs həftəsi beş gündür. Bəzi ölkələrdə dərs həftəsi 6 gün davam edir. Bu iki "iş yeri"nin xüsusiyyətləri tamamilə fərqlidir: məktəb üçün dəqiq vaxt intervalları, sabit təşkilati çərçivələr səciyyəvidirsə, evdəki iş yeri mümkün qədər azadlıq verir. "İki aləm" arasında gediş-gəliş müəllimlik peşəsi üçün tipik problemdir. Xüsusən Azərbaycan şəraitində əksəriyyəti qadınlardan ibarət olan müəllimlər bununla yanaşı, dərsdən sonra evin məişət işləri ilə də məşğul olmaq zorunda qalır. Bütün bunlar müəllimlik işinin şəxsi həyatın (evin, ailənin) işləri ilə qarışması kimi mürəkkəb bir problemin yaranmasına gətirib çıxarır. Bütün bunlar isə nəticədə də yüksək stressə gətirib çıxara bilir.

Xarakterik haldır ki, müəllim üzərinə düşən işi təkbaşına həyata keçirir. Sinifdə yaranan problemlərlə də təkbaşına məşğul olur. Bu da bir tərəfdən onun gərgin iş rejimi ilə işləməsinə, digər tərəfdən də bu işlərə çox vaxt sərf etməsinə səbəb olur.

Müəllimin vəzifəsi təkcə dərs keçməklə məhdudlaşmır. Müəllim işi, müəllim peşəsi əlavə vəzifələrlə də bağlıdır. Çox vaxt dərs deməkdən başqa, müəllimlər bir sıra qeyri-formal vəzifələrlə də məşğul olurlar. Məsələn, həm şagirdlər, həm də bəzən onların valideynləri üçün psixoloq qismində çıxış etməklə "çətin" uşaqlarla iş metodlarını axtarıb tapmalı və onlarla işləməli olur. Müasir dövrdə xüsusilə şagirdlərin və tələbələrin biliklərinin monitorinq və yoxlanılmasında müəllimlərin işləri çox olur. Pandemiya dövründə isə müəllimlər daima dəyişən distant təlim proqramlarına uyğunlaşmalı olurdular. COVID pandemiyası dövrünə aid təhlillər və müşahidələr göstərdi ki, müəllimlər istər şagirdlərin, istərsə də tələbələrin tələbatlarını ödəmək üçün daha çox işləməli olmuşlar.

Pandemiya dövründə müəllimlərin rolu müstəsna olmuşdur. Bu dövrdə istər müəllimlərin, istərsə də ictimaiyyətin müəllim peşəsinə baxışlarında bir sıra yeniliklər də özünü göstərdi. Müəllimin özünün və peşəsinin pedaqoji dəyərlər baxımından yüksək qiymətləndirilməsi özünü göstərdi.

COVID-19-n müəllim peşəsinin dəyərlərinə təsiri də hələ bir o qədər dərindən araşdırılmamış və ölçülməmişdir. Məktəblərin bağlanması, sonra da açılması, distant təhsilə keçid, bu dəyişikliklərin şagirdlərin müvəffəqiyyətinə təsirinin qeyri-müəyyənliyi bəlkə də eyni zamanda müəllimlərin dəyərlərində dəyişiklikliyə səbəb olmuşdur. Distant təlimin tələbləri şagirdlərlə müəllimlərin daha sıx əməkdaşlığına da səbəb olmuşdur, çünki məktəb də, ailə də pandemiya dövründə təhsilin simasının dəyişməsinin şahidi oldular.

Müəllim peşəsi qaçılmaz ziddiyyətlərlə bağlıdır Belə ki, ənənəvi təlim metodları ilə təhsilalanlarla kommunikativ qarşılıqlı təsirlər prosesində əhəmiyyətli dəyişikliklərin olması, təlim-tədrisin müxtəlif paradiqmalarının didaktik-metodiki yanaşmaları arasında fərqlərin olması, müəllimlərin yüklənmələrinin yüksək olması, yaradıcı layihələndirmə variantlarının çoxluğu və s.

amillər bu ziddiyyətlərin yaranmasında mühüm rol oynayırlar. Bu ziddiyyətlərə təhsilalanların unikallığının nəzərə alınmamasını, başqa sözlə, bir tərəfdən təhsilalanların fərdi xüsusiyyətlərinin nəzərə alınması, digər tərəfdən isə bütün təhsilalanlara formal olaraq bərabər münasibət göstərilməsi zərurətini [10, s.202-224] və təhsilalanlarla fikir dialoqunun qəbul edilməməsini də aid etmək olar. Peşənin yaradıcı xarakterli, iş gününün zəngin olmasına (uşaqlarla teatr və muzeylərə, ekskursiyalara getmək, məktəb tədbirlərinin, konsertlərin, valideyn yığıncaqlarının təşkili, ixtisası artırmaq və təcrübə mübadiləsini aparmaq üçün konfrans və seminarlarda, treninqlərdə iştirak etmək və s.) və müəllimin öz yaradıcılıq və təşkilati bacarıqlarını nümayiş etdirməsi imkanlarına baxmayaraq, müəllimlərdən çox vaxt ciddi əmrlərin yerinə yetirilməsi tələb olunur. Bundan başqa, məktəblər müxtəlif göstəricilər üzrə, məsələn, yekun yoxlamaların (summativlərin, imtahanların) nəticələri üzrə yarışırlar ki, bu da şagird hazırlığında müəllimlərin diqqətinin biliklərin özündə deyil, imtahan nəticələrində cəmləşdirməsinə səbəb olur.

Müasir dövrdə müəllim peşəsi əvvəllərdə olduğu kimi, yenə də müəllimlərin peşə yüksəlişi üçün imkanların zəif olması ilə xarakterizə olunur. Orta məktəblərdə çox az sayda müəllimlərin real karyera imkanları vardır. Düzdür, xüsusilə son onilliklərdə ölkəmizdə yüksək göstəricilərə nail olan xeyli sayda müəllimlərin əməyi yüksək qiymətləndirilmiş, onlar “Əməkdar müəllim”, “Qabaqcıl təhsil işçisi” kimi fəxri adlarla, “Tərəqqi” medalı və digər bir sıra orden və medallarla təltif olunmuşlar və bu proses yenə də davam edir. Lakin xüsusilə orta məktəblərdə peşə yüksəlişi üçün real perspektivlərin azlığı, habelə müəllimin şəxsi fəaliyyətləri barədə kənar rəylərin demək olar ki, tam yoxluğu müəllimlərdə onların əməyinin yetərincə qiymətləndirilməməsi və ya mükafatlandırılmaması barədə müəyyən təəssürat yaradır. Lakin onu da qeyd etmək lazımdır ki, son bir-iki ildə müəllimlərin sertifikatlaşdırılması sahəsində aparılan işlər bu təəssüratın müəyyən qədər dəyişməsinə səbəb olmuş və müəllimlərin öz peşələrinə, işlərinə daha ciddi, daha məsuliyyətli yanaşmalarına və karyera imkanları haqqında düşünmələrinə, bu sahədə fəaliyyətə qoşulmalarına səbəb olmuş və imkanlar yaratmışdır.

Xalqımız müəllimə, müəllim peşəsinə həmişə hörmət bəsləmiş, bunlara hörmətlə yanaşmışlar. Xalq içərisində böyük hörməti və nüfuzu olan insanlara, öz işi, peşəsi sahəsində yaxşı mütəxəssis kimi tanınan adamlara hörmət əlaməti olaraq “Müəllim” ifadəsi ilə müraciət olunması da bu hörmətdən irəli gəlmişdir. Lakin faktlar və müşahidələr göstərir ki, istər mətbuatda, istər müəyyən televiziya verilişlərində, istərsə də bəzi insanlar arasında müəllimlər haqqında xoşagəlməz ifadələrə tez-tez rast gəlinir. Hətta nə şəxsiyyəti, nə fəaliyyəti, nə də cəmiyyətdə mövqeyi bu peşəyə uyğun olmayan bir çox şəxslərə “Müəllim” kimi müraciət edilməsi də az qala bir dəb halını almışdır. Bu baxımdan Avropa Şurasının bir tədqiqatı maraq doğurur. Həmin tədqiqata görə, hər iki müəllimdən biri əmindir ki, müəllimlərin cəmiyyətdə nüfuzu kifayət qədər pisdir və ya çox pisdir. Belə skeptik baxışı ilk növbədə çoxillik peşə stajı olan müəllimlər bölüşdürürlər (58%). Onlar bunu onunla izah edirlər ki, ictimaiyyətin rəyinə görə, peşənin müstəsnalığını qabardan, bu fəaliyyətlə yalnız hazırlıqlı insanların məşğul olmalı olduqlarını göstərən konkret heç bir şey yoxdur. Başqa sözlə, müəllim peşəsində müəllimlərin peşəkarlığını göstərən heç bir eksklüzivlik yoxdur. Əksər müəllimlər öz peşəsindən imtina edilməsini məqbul variant hesab etməsələr də respondentlərdən 23%-i işdən imtina etmənin mümkünlüyünü bildirmişlər. Sorğuda iştirak edən bütün müəllimlər üçün uşaqlarla işləmək arzusu onları müəllim olmağa təhrik edən əsas motiv olmuşdur. Respondentlərin 81%-i bunu peşə seçimində ən mühüm səbəb hesab etmişlər. Hər beşinci müəllim üçün peşə seçimində əsas amil ildə bayram günlərinin, tətillərin olması, buna görə də boş vaxtı sərbəst planlaşdırmaq imkanının olması olmuşdur [14, s.6].

Müxtəlif nəsillərin müəllimlərin peşə seçimi motivlərinin analizi göstərir ki, müəllim peşəsinin seçiminin səbəbləri demək olar ki, zaman keçdikcə belə dəyişməmişdir. Həm təcrübəli müəllimlərlə, həm də iş stajı az olan müəllimlərlə aparılan sorğular göstərdi ki, müəllimlik peşəsini seçməkdə onlar üçün əsas motiv uşaqlar və gənclərlə işləmək və onlara bilik və bacarıqlar vermək arzusu olmuşdur. Respondentlər bunu müəllim peşəsinin ən böyük üstünlüyü kimi qeyd edərək gənclərin tərbiyələndirilməsinin

özlüyündə faydalı bir iş olduğunu, müəllimlə şagird arasında intellektual əlaqənin, uşaqlar və yeniyetmələrlə ünsiyyətin sevincinin insanda məmnunluq hissini yaratdığını bildirmişdirlər.

Eyni zamanda əhali arasında aparılan sorğularda əhalinin 38%-i ən yüksək qiymətləndirdikləri və hörmət bəslədikləri peşənin müəllim peşəsi olduğunu və onlara böyük ümidlər bəslədiklərini qeyd etmişdir [14, s.10].

Analoji olaraq qeyd etmək olar ki, bu nəticə eyni zamanda bizim region üçün də xarakterikdir.

Müşahidələr və faktlar göstərir ki, müəllimlik peşəsindən başqa bəlkə də heç bir peşədən bu qədər gözləntilər yoxdur. Bu gözləntilərin miqyası çox böyükdür, şagirdlərdən tutmuş, cəmiyyətimizə qədər davam edir. Belə ki:

– şagirdlər gözləyirlər ki, müəllim peşəkardır, öz fənnini gözəl bildiyi üçün onları öyrədəcəkdir. Məsləhətçidir, köməkçidir və nümunədir. Onlarla biliklərini bölüşəcək, məsləhət verəcək və onlara yardım göstərəcək, dəstək verəcəkdir;

– valideynlər gözləyirlər ki, müəllim tədrisdə ekspert olacaq, övladlarına bilik, bacarıq, vərdişlər aşılayacaq, uşaqlarla əməkdaşlıq edəcək, onlara yardımçı, təlimdə köməkçi olacaqdır;

– həmkarları müəllimdən dostluq, dəstək, əməkdaşlıq, qarşılıqlı yardım, həmrəylik gözləyirlər;

– məktəb rəhbərliyi müəllimdən etibarlılıq, əməksevərlik, öz işini ustalıqla yerinə yetirmək və loyallıq gözləyirlər;

– cəmiyyət müəllimdən gələcək nəsil üçün məsləhətlər verməsini, bilik və mədəniyyətin ötürülməsində vasitəçiliyi, gənclərin sosial inteqrasiyasının gücləndirməsini və onları məsləhətçi qismində müşayiət etməsini, cəmiyyət üçün layiqli vətəndaş-şəxsiyyət tərbiyə etməyi gözləyir.

Cəmiyyətin müəllimdən bu gözləntiləri və ümidləri pedaqoji peşəyə bir çağırışdır və ona bir çox tələblərin verildiyinin göstəricisi kimi xarakterikdir.

Məktəb təhsili hər bir insanın sonrakı həyatının təməli olduğundan şagirdlərə bilik verən, onları həyata hazırlayan insanın da nə qədər yüksək əhəmiyyətə malik olmasını təsəvvür etmək yəqin ki, o qədər də çətin deyildir.

Cəmiyyət tərəfindən müəllimlərin lazımınca qiymətləndirilməsi olduqca mühüm əhəmiyyət kəsb edir. Bunsuz müəllim peşəsinin dəyərləndirmək, onun cəmiyyətdəki rolunu düzgün qiymətləndirmək mümkün deyildir. Bunu məzmunlu şəkildə aşağıdakı kimi xarakterizə etmək olar:

Birincisi, aparılmış bir çox tədqiqatlar və bizim tədqiqatımız göstərir ki, müəllim peşəsini seçən şəxslər çox vaxt məhz sevimli müəlliminin ilə bu peşəni seçirlər. Başqa sözlə, sevimli müəllimin təsiri insanları bu və ya digər peşəni seçməyə vadar edir. Bunu təkcə müəllim peşəsinə deyil, başqa peşə və ixtisasların da seçilməsinə aid etmək olar. Müəllimlər təkcə təlim vermir, dərs keçmir, materialı izah etmir, həm də uşağın xarakterini formalaşdırır və onu ruhlandırır. Buna görə də insanın gələcəkdə hansı keyfiyyətlərə malik olacağı bir çox mənada valideynləri ilə yanaşı, müəllimdən də asılıdır.

İkincisi, müəllim peşəsi həm də şagirdlərin hörməti deməkdir. Müəllim tədris ili ərzində şagirdlərlə on ay vaxt keçirir və onlar üçün həyatda ən nüfuzlu insanlardan birinə çevrilir. Bir çox insanlar xoş xatirələrlə sevimli müəllimlərini yad edir və illər keçdikdə belə, onlarla əlaqə saxlayırlar.

Üçüncüsü, müəllimlərin cəmiyyətdə necə qəbul olunması ilə şagirdlərin, gələcək nəsillərin müvəffəqiyyəti arasında güclü müsbət korrelyasiya mövcuddur. Nə qədər çox müəllim özünü cəmiyyət üçün qiymətli hesab edərsə, şagirdlər də nəticələrinə görə ən yaxşılar arasında bir o qədər yüksək yerləri tutarlar [6].

Dördüncüsü, müəllimlərin cəmiyyətdə necə qəbul olunması (o cümlədən müəllimlərin özlərini necə qəbul etməsi) müəllimin pedaqoji fəaliyyətinə, işindən məmnun və ya narazı qalmasına, o cümlədən yeni müəllimlərin işə qəbul edilməsinə və təcrübəli müəllimlərin işdə saxlanmasına təsir göstərə bilər. Müəllimlik peşəsinin nüfuzu yüksək olan ölkələrdə valideynlərin uşaqlarını müəllim olmağa təhrik etmə ehtimalı daha yüksək olur [15]. Beləliklə, müəllim peşəsinə verilən status, hörmət onun gənclər üçün arzuolunan olmasına səbəb olur.

Digər tərəfdən, müəllimin də təlqin nümunəsi olması üçün cəmiyyətdə sosial statusu, nüfuzu çox əhəmiyyətlidir. Deyilənlər tədqiqat mövzumuz üçün ona görə əhəmiyyətlidir ki, müəllimlər cəmiyyətdə nüfuzlarından istifadə edib məqsədyönlü şəkildə peşə dəyərlərini ötürə bilərlər. Yeri gəlmişkən qeyd edək ki, cəmiyyət tərəfindən müəllimlərin qavranılmasında

COVİD-19 nəticəsində istənilən müsbət dəyişikliklərdən istifadə olunması çox vacibdir.

Burada bir məqamı da vurğulamaq istərdik. Apardığımız müşahidə və təhlillər göstərir ki, müəllimlərin bir çoxlarının əslində necə müəllim olmaq haqqında, başqa sözlə necə olmalı olduqdarı və gerçəklikdə nə cür müəllimlərin olduğu barədə məlumatları çox azdır. Bu baxımdan da bəzi müəlliflər ideal müəllim modeli ilə real praktikanın bir-biri ilə üst-üstə düşmədiyini də qeyd edirlər [8]. Məsələn, göstərirlər ki, müəllimlikdə "uşaqlara və gənclərə sevgi"ni müəllimlik peşəsinə olan sevgidən fərqləndirmək lazımdır: uşaqları çox sevib müəllim peşəsini sevməyən və əksinə, uşaqları heç sevməyib pedaqoji fəaliyyəti sevən müəllimlərə də rast gəlmək olur. Amma o da aydındır ki, təhsil sisteminin keyfiyyəti bu sahədə çalışan müəllimlərin keyfiyyətindən yüksək ola bilməz. Çünki bu keyfiyyət müəllimlərin şəxsi və peşə və şəxsi keyfiyyətlərindən bilavasitə asılıdır.

Digər tərəfdən, aparılmış bir sıra tədqiqatlarda pedaqoji peşə dəyərləri bəzən həddindən artıq mücərrəd təsvir edilir. Bunlar müəllimlərlə apardığımız söhbətlərdə də özünü qabarıq şəkildə göstərir. Bəzi müəllimlər öz peşələrində və yaxşı müəllim üçün nələri vacib hesab edirlərsə onları da dəyər adlandırırlar ki, bu da dəyərlərin nələrdən ibarət olduğunu ayırd etməkdə mücərrədlik yaradır. Eyni zamanda bir sıra tədqiqatçılar da müəllimlərin peşə dəyərlərini müzakirə edərkən bir sıra elə dəyərlərin adını, məsələn, özünü inkişaf etdirməyə yönəlişliliyi, humanistliyi və s. bu kimi dəyərləri [7] qeyd edirlər ki, bunları təkcə müəllim peşəsinə deyil, başqa peşələrə də aid etmək olar. Bütün bunlar pedaqoji peşə dəyərlərinin sistemləşdirilməsinə və təsnifatının verilməsinə müəyyən çətinliklər yaradır. Bu müddəalar müəllim peşəsinin dəyərlərinin müəyyənləşdirilməsi məsələsinin çox aktual olduğunu göstərir.

Pedaqoji ədəbiyyatların araşdırmaları bu problemin çox-çox illər ərzində də aktual olduğunu göstərir. Belə ki, XVIII əsrin ortalarından XX əsrin ortalarına qədər təhsildə humanist pedaqogikanın nümayəndələri ideal müəllimi pedaqoji etikaya malik müəllim kimi xarakterizə etmişlər. Bəzi tədqiqatçılar tərbiyəçinin anadangəlmə sosial obrazı formalaşdırılmış, onun əhəmiyyətli keyfiyyətlərinin, peşəyə hazır olma iddialarının və cəmiyyət qarşısında məsuliyyətinin dərk etmə dərəcəsinin səciyyəsi verilmişlər. Elmi pedaqogikanın banilərindən biri olan Yohan Fridrix Herbart professor vəzifəsində çalışdığı ilk günlərdə "pedaqoji etika" anlayışını pedaqogikadan apardığı mühazirələrinə daxil etmişdir. XVIII əsr alman pedaqoqu Y. Felbiqer bu kontekstdə öz peşə vəzifələrini bilən və onları vicdanla yerinə yetirən, şagirdlərinə hörmət bəsləyən, enerjili, səbirli, qənaətli, səliqəli və təvazökar müəllimlərdən bəhs edirdi [9]. Y. Felbiqerin təsəvvürlərində müəllim insan kamilliyinin təcəssümü kimi bütöv bir dəyərlər kataloquna cavab verməli idi. Alman filosofu və psixoloqu V. Dörinq müəllimin anadangəlmə bir çox xüsusiyyətlərə malik olmasını qeyd edir və "anadangəlmə" müəllim aşağıdakı xarakteristikalarını qeyd edirdi: mənəvilik, nümunəvi həyat tərzi, dürüstlük, ədalətlilik, təmkinlilik, dözümlülük, estetiklilik, uşaqları sevmə, insanlara inam, insanpərvərlik, liderliyə can atma, insan kamilliyinin təcəssümü [17].

Müəllim peşəsinə həsr olunmuş bir sıra tədqiqatlarında şəxsiyyət paradiqmasının öyrənilməsi zamanı diferensial psixologiyanın bütöv bir budağı inkişaf etmişdir ki, bu da, xüsusən 1950-ci və ondan sonrakı illərdə istər xarici ölkələrdə, istərsə də bizim respublikamızda çoxsaylı empirik və nəzəri tədqiqatların aparılmasına səbəb olmuşdur. Həmin illərdə respublikamızda bu sahədə akademik M.M. Mehdizadə, professor M.Ə. Muradxanov və b. müəllim peşəsinə, müəllim əməyinə, müəllim nüfuzuna və digər bir sıra keyfiyyətlərə aid yazdıqları məqalələrində müəllim şəxsiyyətinə, o cümlədən müəllimin malik olmalı olduğu dəyərlərə aid faydalı fikirlər irəli sürmüşlər.

1970-ci illərin ortalarında bir sıra xarici dövlətlərdə, xüsusən Almaniyada və İngiltərədə müəllim peşəsinə həsr olunmuş tədqiqatlarda "proses-məhsul" deyilən bir paradiqma təşəkkül tapmışdır. Bu kontekstdə müəllimlərin konkret hərəkətlərinin empirik tədqiqatları da aparılmışdır [16, s. 39-40]. Bu tədqiqatlarda müəllimlərin hərəkətləri şagirdlərin müvəffəqiyyətinə, yəni məhsula ciddi təsir göstərən bir proses kimi nəzərdən keçirilirdi ki, bu da şagirdlərin müvəffəqiyyətini müəyyən edən mühüm bir amil kimi müəllimi reabilitasiya etməyə imkan verdi. 1980-cı illərdə baş vermiş koqnitiv dönüş və

onunla bağlı koqnitiv psixologiyada aparılan tədqiqatlarda uğurlu müəllimin təsvirini vermək cəhdləri edilmişdir. Burada artıq təlim prosesləri deyil, peşə problemlərinin həlli üçün zəruri olan bilik və bacarıqlar diqqət mərkəzində olmuşdur. Söhbət müəllimlərin davranışından deyil, təfəkküründən gedirdi. Emosional və motivasiya aspektləri ümumiyyətlə nəzərdən keçirilmirdi, çünki söhbət ilk növbədə çox bilən və çox fikirləşən müəllimdən gedirdi. Koqnitiv tədqiqatlarda müəllimlik istedadının anadangəlmə deyil, qazanılmış istedad olduğu əsaslandırılır [5, s.304].

Sonrakı tədqiqatlarda diqqət daha çox müəllimin peşəkarlığına yönəldilir. Hesab olunur ki, peşədə spesifik tələblərin uğurla yerinə yetirilməsini məhz peşəkarlıq müəyyən edir [13, s.187]. Lakin müəllimin peşəkarlığı məsələsinə nəzəri və metodoloji yanaşmalar da müxtəlifdir. Belə ki, bəzi müəlliflər peşəkarlığı təcrübə ilə eyniləşdirir [11, s. 303-308]. U. Hermana görə, müəllim onda peşəkar hesab olunur ki, o, təhsilalanların sosial-emosional, idraki-intellektual və mənəvi-mədəni inkişafına töhfə verə və daima özündə ekspert statusunu motivasiya edə bilir [12, s. 408-428]. Yalnız bu yolla müəllim onların Mən-konsepsiyasının formalaşmasına həlledici təsir göstərə bilər. S. Re pedaqoji peşəkarlığı refleksiyada, yəni müəllimin öz peşə hərəkətlərinin və ya davranışının ətrafdakılar tərəfindən necə qəbul olunduğunu dərk edib, onları tənqidi təhlil etmək qabiliyyətində görür. Bu fikir başqa müəlliflər tərəfindən ümumi şəkildə belə ifadə olunur ki, pedaqoqun əsas iş aləti onun öz şəxsiyyətidir [4].

1970-ci illərdən sonra respublikamızda bu sahədə aparılan tədqiqatlarda demək olar ki, bu tədqiqatların izi aydın görünməkdədir. Bir çox tədqiqatçılarımız müxtəlif illərdə apardıqları tədqiqatlarda müəllimin daha çox biliyə malik olmasını, çox bilib, çox öyrətmək istəməsini, müəyyən dövrdə isə tədris prosesini maraqlı təşkil edə bilməsini, şagirdlərin motivasiyasına nail ola bilməyi, son illər isə müəllim şəxsiyyətini önə çəkməyi əsas götürmüş, apardıqları tədqiqatlarda bunlara önəm vermişlər. 2013-ci ildən, yəni "Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası" qəbul edildikdən sonra aparılan tədqiqatlarda isə yeni bir xətt, xarici ölkə pedaqoq və psixoloqlarının hazırda daha çox önəm verdikləri müəllim peşəkarlığı və səriştəliliyi əsas yer tutur [prof. Ə.X. Paşayev, prof. F.A. Rüstəmov (3), prof. M.İ. İlyasov (2) və b.].

Beləliklə, nəticə olaraq demək olar ki, pedaqoji peşə dəyərləri özünün mahiyyət və məzmununa görə müəllim peşəsində xüsusi yer tutmaqla yanaşı, həm də müəllim hazırlığı prosesində xüsusi diqqət verilməli problemlərdən biridir.

**Problemin aktuallığı.** Pedaqoji dəyərlər pedaqoji prosesdə əhəmiyyətli yerlərdən birini tutur. Müəllimin bu dəyərləri öz peşə fəaliyyətinə gətirməsi onu bir peşəkar və səriştəli müəllim kimi xarakterizə edən ən mühüm keyfiyyətlərdəndir. Pedaqoji peşə dəyərləri öz mahiyyət və məzmununa görə tədris prosesinin özünə dəyərli münasibəti təmin etməklə yanaşı, onun gözlənilməsi həm də pedaqoji peşənin nüfuzunun yüksəlməsinə, müəllim əməyinin nə dərəcədə vacib və əhəmiyyət daşıdığının göstəricisinə çevrilməsinə səbəb olur. Bu dəyərlərin pedaqoji tədqiqatların obyektinə çevrilməsi də məhz onun özünün pedaqoji prosesi dəyərli bir proses səviyyəsinə qaldıra bilməsi olmuşdur. Bu cəhətdən bu mövzu həmişə aktuallıq kəsb etmiş və bu gün də aktualdır.

**Problemin yeniliyi.** Pedaqoji peşə dəyərlərinə aid bir sıra tədqiqatlar a müraciət olunmuş, pedaqoji tədqiqatlarda bu dəyərlərə olan münasibətlər öyrənilmiş və onun pedaqoji prosesdə roluna, əhəmiyyətinə, bu dəyərlərin mahiyyət və məzmununu nələrdən ibarət olması ümumiləşdirilmiş və sistemləşdirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, burada aparılan araşdırmalar peşə dəyərlərinin pedaqoji prosesdə hansı mahiyyət daşıdığını, onların yeri və rolu və bu sahədə aparılan tədqiqatların əsas istiqamətlərinin nələrdən ibarət olduğunu aydınlaşdırmağa əlverişli dərəcədə kömək edə biləcəkdir. Bunları tətbiq etməklə müəllimlər özlərinin peşə fəaliyyətlərinin daha məzmunlu, daha səmərəli keçməsini və yüksək nəticələr əldə etmələrini aydın hiss edə, görə bilərlər.

## Ədəbiyyat:


1. Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. – Bakı: Təhsil, – 2002.
2. İlyasov, M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin problemləri / M. İlyasov – Bakı: Elm və təhsil, – 2018.
3. Paşayev, Ə.X. Pedaqogika. / Ə.X. Paşayev, F.A. Rüstəmov. – Bakı: Elm və təhsil, – 2017.

4. Александрова Ю.Ю. Парадоксы профессиональной идентичности у психологов / Ю. Ю. Александрова, Е.В. Камнева, М.В. Полевая, Н.С. Пряжников, Е.Ю. Пряжникова // Организационная психология. 2020. Т. 10. № 3. с. 225-245; Серый А.В. Осмысленное отношение к профессиональной деятельности как условие развития профессионально значимых качеств психологов-практиков // Вестник КемГУ. 2005. № 2. С. 158-162.
5. Щербина А.И., Гребенникова В.М. Структура ценностных ориентаций личности едагогов дошкольных образовательных учреждений // Непрерывное образование. 2015. № 1 (11). С. 57-60; Набиуллин Л.Г. Роль педагогических ценностей в формировании профессиональной культуры педагога // Человек и образование. 2013. № 4. С. 94-98.
6. Burns, D., & Darling-Hammond, L. (2014). Teaching around the world: What can TALIS tell us? Stanford Center for Opportunity Policy in Education. https://edpolicy.stanford.edu/sites/default/files/publications/teaching-around-world-what-can-talis-tell-us_3.pdf; Viac, C., & Fraser, P. (2020). Teachers’ well-being: A framework for data collection and analysis (Issue 213). OECD Education Working Papers 213, OECD Publishing. https://doi.org/10.1787/c36fc9d3-en; Gonski, D., Arcus, T., Boston, K., Valerie, G., Johnson, W., O’Brien, L.,
7. Bromme, Rainer, Rheinberg, Falko, Minsel, Beate, Winteler, Adi, Weidenmann, Bernd (2006): Die Erziehenden und Lehrenden. In: Krapp, Andreas, Weidenmann, Bernd (Hrsg.): Pädagogische Psychologie. 5. vollständig überarbeitete Auflage. (Beltz) Weinheim, 269-355. C.304.
8. Cramer, C. (2012). Entwicklung von Professionalität in der Lehrerbildung. Empirische Befunde zu Eingangsbedingungen, Prozessmerkmalen und Ausbildungserfahrungen Lehramtsstudierender. Bad Heilbrunn: Klinkhardt.
9. Felbiger, Johann I. von (1900/1915): Eigenschaften, Wissenschaften und Bezeigen rechtschaffener Schulleute. 4. Auflage. (Schönigh) Paderborn.
10. Helsper, Werner [Hrsg.]; Tippelt, Rudolf [Hrsg.]: Pädagogische Professionalität. Weinheim u.a. : Beltz 2011, S. 202-224. - (Zeitschrift für Pädagogik, Beiheft; 57)
11. Helsper, Werner Pädagogische Professionalität als Gegenstand des erziehungswissenschaftlichen Diskurses. Einführung in den Thementeil Zeitschrift für Pädagogik 50 (2004) 3, S. 303-308.
12. Hermann, Ulrich (1999): Lehrer – professional, Experte, Autodidakt. In: Apel, Hans J., Horn, Klaus-Peter, Lundgreen, Peter, Sandfuchs, Uwe (Hrsg.): Literatur 370 Professionalisierung pädagogischer Berufe im historischen Prozess. (Klinkhardt) Bad Heilbrunn/Obb., 408-428.
13. Kunter, M., Baumert, J., Blum, W., Klusmann U., Krauss, S., & Neubrand, M. (Hrsg.) (2011a). Professionelle Kompetenz von Lehrkräften. Ergebnisse des Forschungsprogramms COACTIV. Münster: Waxmann; Voss, T., Kunina-Habenicht, O., Hoehne, V., & Kunter, M. (2015). Stichwort Pädagogisches Wissen von Lehrkräften: Empirische Zugänge und Befunde. Zeitschrift für Erziehungswissenschaft, 18, p. 187–223.
14. Lehre(r) in Zeiten der Bildungspanik Eine Studie zum Prestige des Lehrerberufs und zur Situation an den Schulen in DeutschlandDüsseldorf, 24. April 2012. S.6.
15. Perry, L.-A., & Roberts, M. (2018). Through growth to achievement: Report of the review to achieve educational excellence in Australian schools. Commonwealth of Australia. https://docs.education.gov.au/node/50516
16. Helsper, Werner Pädagogische Professionalität als Gegenstand des erziehungswissenschaftlichen Diskurses. Einführung in den Thementeil Zeitschrift für Pädagogik 50 (2004) 3, S. 303-308.
17. Weber, Ernst (1919): Die Lehrerpersönlichkeit. 2. Auflage. (Zickfeldt) Ostewieck a. H., Leipzig.

**E-mail:** aytentt@icloud.com
**Rəyçilər:** *ped.elm.dok., prof.* **M.İ. İlyasov**
*ped.elm.dok., prof.* **H.H. Əhmədov**
**Redaksiyaya daxil olub:** 27.11.2023

*UOT 37.0*

***Elvin Səfər oğlu Səmədov***
*AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun fəlsəfə doktoru proqramı üzrə doktorantı,*
*Lerik rayon Piran kənd tam orta məktəbinin direktoru*
*Orcid cod: https://orcid.org/my-orcid?orcid=0009-0003-9902-4749*

# TƏHSİLDƏ DƏYƏR VƏ İNAMIN ƏHƏMİYYƏTİ

***Эльвин Сафар оглы Самедов***
*докторант по программе доктора философии Института Языкознания имени Насими*
*Национальной Академии Наук Азербайджана,*
*директор полной средней школы села Пиран Лерикского района*

# ЗНАЧИМОСТЬ ДОВЕРИЯ И ЦЕННОСТЕЙ В ОБРАЗОВАНИИ

***Elvin Safar Samadov***
*doctoral student at the Nasimi Institute of Linguistics,*
*affiliated with the  Azerbaijan National Academy of Sciences,*
*director of the Piran village middle school, located in the Lerik district*

# THE IMPORTANCE OF FAITH AND VALUES IN EDUCATION

**Xülasə.** Məqalədə təhsiln dəyəri, təhsilə inam haqqında danışılmış, ilk olaraq bu iki anlayışın izahı verilmiş, sonra isə təhsildə bu anlayışların əhəmiyyətindən danışılmışdır. Təhsilin dəyər və inamının formalaşması üçün lazım olan imkanlar araşdırılmış, həlli yolları barədə məlumat verilmişdir. Eləcə də dəyər və inamın azalmasının yarada biləcəyi çətinliklərdən söhbət açılmlşdır. Burada təhsili dəyərli edən amillər göstərilmiş və onların funksiyaları barədə izahlar edilmişdir. Həmçinin təhsilin əmək bazarı ilə olan münasibətləri barədə söhbət açılmış, əmək bazarının, bununla bərabər digər məsələlərin təhsilin dəyər və inamını artıra biləcək imkanlarına toxunulmuşdur. Məqalədə qeyd edilənlərlə bərabər təhsilin dəyərinin yüksək olmasının cəmiyyətə verdiyi faydalardan danışılır.
***Açar sözlər:*** *Təhsil, təhsildə dəyər, inam, təhsilin əhəmiyyəti, təhsilin faydalılığı, əmək bazarı, təhsilin vəzifəsi, müəllim nüfuzu*

**Резюме.** В статье повествуется о ценностях и доверии к образованию, вначале было дано объяснение этих двух понятий, а затем обсуждалось их значение в образовании. Исследованы возможности, необходимые для формирования вышеупомянутых, дана информация о способах решения. Также обсуждаются трудности, которые могут быть вызваны уменьшением тех самых ценностей и доверий. Здесь показаны факторы, которые делают образование важным и объяснены их функции. В тоже время обсуждалась связь между образованием и рынком труда, а также были затронуты возможности рынка труда и другие вопросы, которые могут повысить необходимость к образованию. Помимо упомянутого в статье обсуждаются преимущества высокой ценности образования для общества.
***Ключевые слова:*** *образование, ценности в образовании, доверие, важность образования, полезность образования, рынок труда, задача образования, авторитет учителя*

**Summary.** The article discusses the value of education and belief in education. First, an explanation of these two concepts is provided, and then the importance of these concepts in education is discussed. The article explores the resources required for the formation of the value and belief in education and provides information about possible solutions. Additionally, it delves into the difficulties that can lead to a decrease in value and belief. The factors that enhance the value of education are identified, and their functions are explained. Furthermore, the article addresses the relationship between education and the labor market,

highlighting the potential opportunities the labor market and other related issues can offer to increase the value and belief in education. The article concludes by discussing the benefits that a high value of education brings to society.

***Key words:*** *Education, value in education, confidence, importance of education, usefulness of education, labor market, task of education, teacher reputation.*

Bildiyimiz kimi, təhsil-təlim formasında bilik, bacarıq və vərdişlərin təhsilalanlara (müxtəlif yaş qruplarında) ötürülməsinin ümumi məcmusudur. Qeyd etdiyimiz bu fikir təhsilin elmilik xüsusiyyətini, əhəmiyyətini özündə ifadə edir.

İlk olaraq mövzunun əhəmiyyətinin mühümlüyünü və cəmiyyət üçün önəmliliyini çatdırmaq üçün dahi yunan filosofu Aristotelin fikirləri ilə başlamaq istərdik. Aristotel özünün *"Siyasət. Böyük etika" əsərində qeyd edir: "Bir halda ki, biz gördüyümüz kimi hər bir dövlət özündə bir növ münasibəti təmsil edir, bütün münasibətlər isə hər hansı rifah naminə təşkil edilirsə (axı hər bir fəaliyyət ehtimal olunan rifahı nəzərdə tutur), onda aydındır ki, bütün münasibətlər bu və ya digər rifaha doğru yönəlir, bununla belə hamıdan çox və bütün rifahlardan ən yüksəyinə o münasibət can atır ki, o hamısından daha çox vacibdir və özündə bütün münasibətləri əhatə edir."* [1, s.7]. Demək, buradan məlum olur ki, hər bir fəaliyyət özlüyündə bu və digər formada faydalı olmalı və faydalı olan isə rifaha xidmət edən hər nə isə vacib bir məsələdir. Qeyd olunanlardan belə çıxır ki, təhsili cəmiyyət üçün vacib bir məsələyə çevirmək mütləqdir. Çünki inkişaf onun adı ilə bağlıdır.

Bildiyimiz kimi, təhsil həm də cəmiyyətin inkişafını təmin edəcək ən əsas amildir, həmçinin təhsil cəmiyyətin estetik, mənəvi aləmini, eləcə də dəyərlərin formalaşmasını, nəsillərə ötürülməsini təmin edə biləcək bir amildir. Bunlar da təhsilin həyat üçün vacib bir məsələ olduğunu göstərmiş olur. Bu qeyd edilən fikirlər isə təhsilin sosial faktor olmasını göstərən prinsiplərdir. Bu fikirlərlə bərabər digər bir məsələ – təhsildə dəyər və inam məsələsidir ki, bu da təhsilin cəmiyyətdəki rolunu, əhəmiyyətini artırmış olur və bu qeyd edilənlərin olması təhsilin öz funksiyasını cəmiyyətdə daha effektiv və faydalı olaraq icra edə bilməsinə dəstək olacaqdır. Sözsüz ki, təhsilin rolu, işlənmə dairəsi geniş olan cəmiyyətlər mədəni və sosial cəhətdən həmişə daha çox inkişaf etmişlər və həyat rifahları yüksək olmuşdur. Buna görə də dövlət və cəmiyyətdən təhsilə daha çox önəm verməsi və ona həssas yanaşması tələb olunur. Belə olduqda, bu zaman sual çıxır: "Dəyər nədir? Necə yaranır? Təhsil necə dəyərli ola bilər?" Əvvəlcə, dəyər məsələsinin izahına fikir verək. "Dəyər, dəyərlər" ifadəsi gündəlik həyatımızda istifadə etdiyimiz bir anlayışdır. Bu ifadəni bir-birinə yaxın olan iki mənada anlaya bilərik, ilk olaraq deyək ki, "dəyər" ifadəsi hər bir xalqın, müəyyən qrupun, dövlətin, hətta kiçik bir ailənin özünəxas, əsrlərdən, illərdən bəri yaşatdığı, qoruyub-saxladığı bir ənənə, mənəvi irs toplusudur ki, bu da inkişafa, sosial həyata müsbət təsir edən bir məsələdir və belə olmalıdır. Təhsilin qarşısında duran əsas vəzifələrdən də biri bunları qorumaqdır.

Digər mənada isə dəyər müəyyən qədər bu anlayışın üzərində qurulan faydalılıq, müsbət mənada maddi və mənəvi *"qazanc"* anlamını daşıyır.

Təhsilin cəmiyyətdəki rolunun artması bu qeyd edilən hər iki ifadə ilə sıx bağlıdır. Birinci anlayışla əlaqədar qeyd etmək yerinə düşər ki, təhsil xalqın milli-mənəvi, əsrlərdən bəri gələn faydalı dəyərlərinə hörmətlə yanaşaraq onun qorunub-saxlanılmasında öz xidmətini göstərmiş olur. Əlbəttə ki, belə olduqda cəmiyyət tərəfindən təhsilə olan diqqət və rəğbət yüksələcək, onun cəmiyyətdə nüfuzu artmış olacaqdır. Beləcə, təhsil cəmiyyətin həyatında öz funksiyasını daha effektiv yerinə yetirə biləcək və bu zaman təhsilin özünün dəyəri artacaqdır. Həmçinin digər millət və xalqların dəyərlərinə, bunlarla bərabər ümumbəşəri dəyərlərə hörmət təhsilin qlobal bir fenomen olmasına böyük töhfə vermiş olacaqdır. Təhsilin vəzifəsi bunlara təkcə hörmətlə yanaşmaq deyil, eləcə də onları qoruyub-saxlamaq, gələcək nəsillərə ötürməkdən ibarətdir. Təhsilin üzərində ən vacib vəzifələrdən biri də bu baxımdan yüksək, intellektual dəyərlər formalaşdırmasını təmin etməkdir.

İndi isə təhsilin dəyər məsələsinə qeyd etdiyimiz ikinci aspektdən yanaşaq. Bu qeyd edilən istiqamət də birinci kimi, bəlkə də müəyyən məqamlarda ondan daha çox əhəmiyyət daşımaqdadır. İlk olaraq qeyd edək ki, təhsilin bu mənada dəyərsizləşməsi çox təhlükəli, kütləvi savadsızlığa gətirib-çıxara bilən, qorxu yarada-

caq bir məsələdir ki, dayanıqlı, təhlükəsiz cəmiyyətin qurulmasına maneə yarada bilər.

Həqiqi baxışla fikrimizi qeyd etsək, deməliyik ki, hər bir məsələ öz əhəmiyyətini faydalı olduğu zaman artırmış olur. Bu onun istər mənəvi, estetik, istər sosial, istər maddi cəhətdən faydalı olması ilə bağlı olan bir məsələdir. Bu zaman o, cəmiyyət üzvü üçün cəlbedici olur, əhəmiyyət və vacibliyi ilə bağlı olaraq dəyərli olur, qarşı tərəfin maraq və diqqətini özünə cəlb edir. Təhsilalan həmçinin təhsilə mənəvi zövqünün təminedici mənbəyi kimi inanmalı və təhsil də öz növbəsində bütün funksiyası ilə bunu təmin etmək potensialına sahib olmalıdır və bu təhsilalan və təhsil arasında bir "bağ" kimi mühüm rol oynamalı, təhsilalanın cəmiyyətin faydalı üzvünə çevrilməsində xidmət göstərməlidir.

Bu məsələ müəyyən məqamlarda mənəvi-estetik zövqün təmin olunması ilə əlaqələnirsə, müəyyən məqamlarda isə artıq maddi, sosial-iqtisadi təminatla bağlı olan bir məsələdir. *"Təhsil artıq neçə əsrlərdir ki, cəmiyyətin bir tam halında mövcudluğunu və inkişafını təmin edən əsas sosial institutlarından biridir. Hər bir ölkənin ictimai təşkilatlanma səviyyəsi ilk növbədə təhsilin keyfiyyətlərindən asılıdır. Cəmiyyəti təmsil edən şəxslərin hamısı: dövlət xadimləri də, yaradıcı ziyalılar da, iş adamları da və s. ilk sistemli bilikləri təhsil ocaqlarında almış, onların şəxsiyyət kimi yetişməsi də, dövlətçilik təfəkkürləri də, vətəndaşlıq duyğuları da əsasən məktəblərdə formalaşmışdır. Yəni bu gün hansı səviyyədədirsə, on il sonra da cəmiyyət də həmin səviyyədə olacaqdır."* [2, s. 5].

Təhsillə məşğul olan bir fərd üçün təhsilin ona verdiyi faydalılığına görə təhsilin dəyəri artmış olur. Bu isə birbaşa olaraq təhsilin cəmiyyətdə oynaya bildiyi potensial rolu və əmək bazarı ilə qarşılıqlı bağlılıqdan asılı olan bir məsələdir. Təhsil əmək bazarında özünü nə qədər daha çox rola sahib olaraq göstərə bilirsə, əhəmiyyəti, dəyəri və cəlb olunması bir o qədər artmış olur. *"Yeni təlim texnologiyalarını aktuallaşdıran aşağıdakı şərtlərə əməl olunmalıdır.*

*1. İnsanların bazar iqtisadiyyatı (kapitalizm) cəmiyyətində yaşaması və hər kəsin özünü bu cəmiyyətdə yaşaya bilmək üçün hazırlaya bilməsinin önəmliliyi.*

*2. Uşaqların 20-30 il əvvəlki zamana görə dünyagörüşünün, sosial, texniki məlumatlılıq səviyyəsinin xeyli yüksək olması. Təlimin məzmun və metodlarının uşağın istəyini təmin etməyin vacibliyi"* [4, s. 55].

Böyük ölçüdə təhsillə məşğul olmaq əgər əmək bazarında öz mövqeyini tutmağa birbaşa olaraq kömək etmiş ola bilmirsə, bu zaman təhsilin cəmiyyətdə rolu və dəyəri azalmış olacaq ki, bu da çox təhlükəli bir tendensiyadır. Belə olduqda cəmiyyət getdikcə öz inkişaf və intellektuallığını itirmiş olacaqdır. Bu də cəmiyyət üçün heç də müsbət bir göstərici deyildir. Sonrakı mərhələlərdə, hətta bu məsələ ümumbəşəri dəyərlərə hörmətlə yanaşmağın azalmasına, insani keyfiyyətlərin ucuzlaşmasına səbəb olacaqdır. Bu və digər səbəblərə görə istər bütün ölkələrin, istərsə də bütün beynəlxalq təşkilatların əsas vəzifəsi, borcu təhsilin dəyərinin yüksək tutulmasını və onun dəyərdə qalmasını təmin etməkdir. Bunun üçün də əmək bazarında olan münasibətlər şəffaf və düzgün qurulmalı və təhsilin buradakı dəyəri qiymətləndirilməlidir.

Sadə bir nümunə ilə fikrimizi ifadə edək; əgər hər hansı bir rəssam yaratdığı əsərin əmək bazarında dəyərləndirilməsini görə bilmirsə, bu təhsilin dəyərinə və ona olan inamın azalmasına gətirib-çıxaracaqdır. Verilən bu məsələdə digər bir incə məqama da xüsusi diqqət yetirmək vacibdir. Cəmiyyətin yüksək sənət əsərinə dəyər verə bilməməsinin digər bir səbəbi də intellekt səviyyəsinin kifayət qədər olmaması ilə əlaqədar ola bilir ki, dolayısı ilə bu da təhsilin dəyərinin azalmasından ortaya çıxır. Çünki təhsil öz əhəmiyyətini cəmiyyət arasında itirdiyindən intellektual düşüncəyə sahib ola bilən cəmiyyətin yaradılmasında əziyyət çəkmiş olacaqdır.

Təhsilin cəmiyyətdəki mövqeyinin, rolunun böyük olması üçün əsas şərtlərdən biri də təhsilə olan inamın güclü olması ilə bağlıdır. Təhsili təhsilalanlar üçün vacib, əhəmiyyətli amilə çevirmək, dəyərli olmasını təmin etmək təhsilə olan inamın təmin edilməsinin əsas prinsipidir desək, heç də yanılmarıq. Təhsilə olan inamı artıran əsas şərtlərdən biri də fərdin öz arzularını, potensialını, özünün gələcəyini qura bilməsini təhsilin köməkliyi ilə formalaşdıra bilməsindədir. *"Təhsil həyatın müxtəlif çağırışlarına hazırlıq üçün uzunmüddətli və çoxşaxəli öyrənmə prosesidir. Başqa sözlə, təhsil fərdlərə ötürdüyü əsaslı bilik və bacarıqlarla onların öz arzu və amallarını necə ifadə etməsini və həyata*

*keçirməsini müəyyənləşdirir, həm də onları öz icmalarının həyatında fəal iştirak edən düşüncəli vətəndaş kimi yetişdirir"* [5, s. 134-135].

Belə olduqda təhsilə olan baxış, təhsilə olan yönəlmə artacaq və hər bir fərd daha çox təhsilə üz tutmağa başlayacaqdır. Əlbəttə ki, burada qazanan tərəf ümumilikdə cəmiyyətin özüdür. Təhsilə olan inam təkcə onun əmək bazarında olan rolunu artıraraq dəyərli olmasına çevirməkdən ibarət deyil. Burada çoxlu kompleks məsələlər təmin olunmalıdır. İlk olaraq təhsilin keyfiyyətinin yüksək olmasının təmin edilməsi ona inamı artıracaqdır. Bundan başqa, təhsil ocaqlarının yüksək keyfiyyətli maddi-texniki baza ilə təmin edilməsi əsas şərtlərdəndir. Bu, təhsilalanların təhsillə yüksək dərəcədə məşğul ola bilməsinin təmin olunması deməkdir ki, təhsilalan təhsil alarkən, tədqiqat və praktiki işlərlə məşğul olarkən hər hansı çətinliklə uzlaşmadan, rahat şəkildə təhsilini davam etdirə bilmə imkanına sahib olduğundan təhsilə olan inamının yüksək olmasına gətirib-çıxaracaqdır. *"Belə ki, keyfiyyətli təhsil insanın əmək fəaliyyətinin başlanğıcından sonunadək məhsuldar həyatı və davamlı təhsili üçün zəmin yaradır "* [5, s. 149].

Xüsusən, təhsilin hər bir vətəndaş üçün əlçatanlığı, dayanıqlı, demokratik mühitdə təşkili, yüksək dəstəkləyici mühitin mövcudluğu, təhsilin inkişaf üçün təminatlı olması kimi məsələlər təhsilə olan inamın yaranmasına kömək etmiş olur. Bununla yanaşı təhsildə təhsilalanların öz bilik və bacarıqlarını nümayiş etdirmək üçün təqdimat və praktiki olaraq imkanlarının olması, həm də layihələr həyata keçirmək kimi fürsətlərinə sahib olmaları onlarda təhsilə olan inamı yüksəldəcək, motivasiya edəcəkdir. Digər ciddi bir məsələ isə təhsilalanların öz "məhsulunun" (bilik, bacarıq) faydasını görə bilmək kimi imkanlarının təşkil edilməsi təhsilə olan maraq və inamı gücləndirəcəkdir.

Digər önəmli bir məsələ müəllimin – təhsilverənlərin yüksək nüfuza sahib olması ilə bağlıdır. Müəllimin həm şəxsi davranış məsələsi, cəmiyyətdə yeri, sosial rifahının təminatlı olması kimi məsələlər təhsilə olan inamı təmin edən məsələlərdəndir. Cəmiyyətin, dövlətin təhsilə, məktəbə və müəllimə olan münasibətinin müsbət olması təhlilə olan inam üçün önəmlidir. Cəmiyyət təhsilə, müəllimə, təhsilalana hörməti, diqqəti özündə vərdiş halına gətirməlidir.

Ümumilikdə qeyd etmək lazımdır ki, təhsilin dəyər və keyfiyyəti, mahiyyəti daima qorunub saxlanılmalıdır. Bu əlamətlərin olması təhsilin cəmiyyətdə əhəmiyyətini, funksiyasını çoxaltmış olacaqdır ki, bu zaman qazanan tərəf cəmiyyət olacaqdır. Təhsildə dəyərin, inamın yüksək olması təhsilin kütləviliyinə gətirib çıxarır ki, bunun da ən müsbət cəhəti dayanıqlı cəmiyyətin formalaşmasına, mövcud olmasına şərait yaratması, kömək etməsidir. İnsan cəmiyyətinin ən vacib xüsusiyyətlərindən birincisi onun inkişafa doğru addımlamasına ehtiyaclı olmasındadır. İnkişaf isə ilk olaraq təhsillə baş verən bir prosesdir. Təhsilin düzgün istifadəsə, funksiallaşdırılması təhsilin cəmiyyətdədki rolunu yüksəltmiş olur, bu zaman isə təhsil dəyəri mütləq şəkildə artacaq və ona olan inam güclü olacaqdır.

Təhsilalanlar, həqiqətən, inanmalıdırlar ki, uğura, zirvəyə gedən yol, məhz təhsillə gedilən yoldan keçir. Əlbəttə ki, belə olduqda və buna inanaraq addımlayan cəmiyyət sağlam, ziyalı bir cəmiyyətə çevriləcək, xoş rifah halında yaşayacaqdır. *"Şagirdin maraq göstərdiyi peşənin mahiyyətini, çətinliklərini, tələblərini, ona yiyələnməyin mümkünlüyünü, gələcək perspektivlərini şüurlu olaraq dərk etməsi peşəyönümü işində kortəbiiliyin, təsadüfiliyin qarşısını alır, onlarda bu sahəyə inamlı münasibətin yaranmasına, peşə yönümünün və həyat yolunun dəqiqləşməsinə və əqidənin formalaşmasına səbəb olur"* [3, s. 300].

Təhsilin ən böyük dəyəri, həyatı, dünyanı dərk etməyi insana öyrətməsi və təhsilin sayəsində sahib olduğu potensialını həyatına tətbiq edə bilməsindədir. Bu təhsilin nə qədər dəyərli olmasını insana xatırlada bilən ən böyük dəlillərdəndir. Məlum məsələdir ki, ağır, gərgin bir proses olan təhsil insanı yora bilir və bəzən insan təhsildən bu səbəbə görə uzaqlaşa da bilər. Lakin təhsilin dəyəri və ona yaranmış olan inamın böyüklüyü bu çətinliklərin öhdəsindən gəlmək üçün ən böyük motivasiya olacaqdır.

**Problemin aktuallığı.** Təhsildə dəyər və inam məsələsi təhsilin cəmiyyətdə rolunun, əhəmiyyətinin güclü olması üçün önəmli bir məsələdir. Təhsilin dəyəri çox olan və təhsilə inamı çox olan cəmiyyətlər həmişə yüksək inkişafa nail olmuşlar. Məlum bir haldır ki, istənilən dövr üçün təhsilin təhsilin dəyərli olması və ona olan inamın yüksək olması cəmiyyətin daha intellektual olmasına gətirib çıxarır. Bu da mövzunun aktual olmasına bir nümunə olaraq göstərilə bilər. Məqalədə bu və digər istiqamətlərdə fikir-

lər qeyd edilmiş, eləcə də təhsildə dəyər və inamın formalaşması üçün lazım olan məsələlər araşdırılaraq verilmişdir.

**Problemin elmi yeniliyi.** Məqalədə mövzu dəyər və inam olaraq ayrı-ayrılıqda verilir və bu iki anlayışın bir-birinə olan münasibəti qarşılıqlı olaraq izahlı şəkildə verilmişdir. Həmçinin verilən mövzuya baxış bir neçə istiqamətdən toxunulmuşdur ki, bu da mövzunun yeniliyi kimi qeyd edilə bilər. Məqalədə qoyulan problem sadəcə olaraq səsləndirilməmiş, həmçinin onun həlli yolları da planlı formada göstərilmişdir ki, bu da mövzunun bu formada işlənilməsi üçün bir ilk addım kimi hesab edilə bilər. Bununla bərabər mövzunun əmək bazarı ilə bağlı problemləri daha geniş formada qabardılmışdır ki, bu da mövzuya fərqli bir baxış kimi qeyd olunası məsələdir.

**Problemin praktik əhəmiyyəti.** Müasir dövrdə təhsilin cəmiyyətdə dəyər və inamı məsələsi olduqca aktual məsələlərdəndir ki, məqalədə bu problem araşdırılmış və müəyyən formalarda onun izahları verilərək, bu problemi yaradan səbəblər araşdırılmışdır. Bu da məqalənin praktiki əhəmiyyətini yüksəldir, xüsusən təhsil insanları, müəllimlər üçün onu önəmli edir. Həmçinin mövzuda verilən problem və onun yaradan səbəblər, eləcə də görülməli olan işlərin verilməsi məqalədən elmi səviyyədə istifadə etmək üçün imkan yaradır ki, bu da məqalənin praktiki əhəmiyyətini artıran bir amildir.

## Ədəbiyyat:


1. Aristotel. Siyasət. Böyük etika. – Bakı: Qızıl Şərq, – 2006. – 432 s.
2. Xəlilov, S.S. “Təhsil, təlim, tərbiyə” / S.S. Xəlilov – Bakı: Azərbaycan Universiteti nəşriyyatı, – 2005. – 650 s.
3. İbrahimov, F. “Pedaqogika, 2 cilddə. II cild. / F. İbrahimov, R. Hüseynzadə – Bakı: Mütərcim, – 2012. – 548 s.
4. Nəzərov, A.M. Müasir təlim texnologiyaları: Dərs vəsaiti / A.M. Nəzərov. – Bakı: ADPU-nun nəşriyyatı, – 2012. – 103 s.
5. https://www.undp.org/sites/g/files/zskgke326/files/migration/az/5.pdf


**E-mail:** esmes_tx@list.ru.
**Rəyçilər:** *ped.elm.dok., prof.* **R. L. Hüseynzadə**
*filol.ü.fəls.dok., dos.* **H.A. Mirzəyev**
**Redaksiyaya daxil olub:** 27.11.2023

*UOT 37.0*

***Səyarə Sahib qızı Cəfərova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*ORCID: https://orcid.org/0000-0002-7765-9378*

# TƏHSİLİN DƏYƏRLƏRLƏ HƏYATA KEÇİRİLMƏSİ TƏLƏBİ

***Саяра Сахиб гызы Джафарова***
*докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# ОБРАЗОВАНИЕ КАК ТРЕБОВАНИЕ ДЛЯ РЕАЛИЗАЦИИ ЦЕННОСТЕЙ

***Sayara Sahib Jafarova***
*doctorial student in the program of doctor of philosophy*
*İnstitute of Education of the Republic of Azerbaijan*

# EDUCATION AS A REQUIREMENT TO IMPLEMENT VALUES

**Xülasə.** Şübhə yoxdur ki, dəyər, dəyər təhsilinin yaranması müasir fəlsəfənin, xüsusən də sənaye inqilabının sonu ilə üst-üstə düşür. Dəyərin insan və onun fərdi və ictimai fəaliyyətləri elmlərində bu qədər güclü önə çıxmasının səbəbi, dəyərlərin insan üçün mövcud olması və insanın öz inkişaf etdirdiyi elm və texnologiya qarşısında bəşəri dəyərləri itirməsidir. Bu gün istər dünyada, istərsə də ölkəmizdə dəyərlərin varlığı və yox olması deyilən prosesləri yaşayırıq. Dəyərlər dünyada sürətlə xərclənir və onların boşaldıldığı açıq-aydın görünür. Bunun səbəblərindən biri dəyərlərin ictimai həyatdan çıxarılması ilə sosial tarazlığın itirilməsidir. İnsanı dəyərli və insan edən xüsusiyyətlərin ictimai həyatda, təhsildə qeyri-funksional olması nəticəsində təhsilə ehtiyacı şübhə altına almalıyıq. Bu mənada dəyər təhsilini vacib edən, dəyərsizləşmiş insanı yenidən dəyərli etmək cəhdidir.

***Açar sözlər:*** *dəyər, təhsil, insan, sosial, məktəb*

**Резюме:** Без сомнения, что возникновение ценностного образования совпадает с концом современной философии, особенно промышленной революции. Причина, по которой ценность так сильно выделяется в науках о человеке и его индивидуальной и общественной деятельности, заключается в том, что ценности существуют для человека и человек теряет эти ценности перед лицом науки и техники, разработанной им самим. Сегодня и в мире, и в нашей стране мы переживаем процесс так называемого существования и исчезновения ценностей. Ценности расходуются в мире стремительно, и ясно видно, что они опустошаются. Одной из причин этого является потеря социального баланса с изъятием ценностей из общественной жизни. Мы должны поставить под сомнение необходимость образования в результате того факта, что черты, которые делают людей ценными и человечными, становятся дисфункциональными в социальной жизни и образовании. В этом смысле то, что делает обучение ценностям важным, – это усилия, направленные на то, чтобы снова сделать обесцененного человека ценным.

***Ключевые слова:*** *ценность, образование, человек, социальное, школа*

**Summary.** There is no doubt that the emergence of value, value education coincides with the end of modern philosophy, especially the industrial revolution. The reason why value stands out so strongly in the sciences of man and his individual and social activities is that values exist for man and man loses human values in the face of science and technology developed by himself. Today, both in the world and in our country, we are experiencing the process of the so-called existence and disappearance of values. Values are being spent in the world rapidly, and it is clear that they are being emptied. One of the reasons for this is the loss of social balance with the removal of values from public life. We must question the need for education

as a result of the fact that the traits that make people valuable and human become dysfunctional in social life and education. In this sense, what makes value education important is the effort to make the devalued person valuable again.

***Key words:*** *value, education, human, social, school*

Tarixin hər dövründə olduğu kimi bu gün də təhsil insanların ən əsas problemlərindən biri olmuşdur. Bu problem son zamanlar dəyərlər təhsilində kilidlənib. Xüsusilə, Brahma Kumarisin hazırlanmış Birləşmiş Millətlər Təşkilatı tərəfindən "Yaşayan Dəyərlərin Təhsili Layihəsi" adı ilə tətbiq edilən bir layihə olaraq dünya ölkələrində böyük marağa səbəb olmuşdur. Layihənin məqsədi daha yaxşı bir dünya üçün dəyərlərimizi bölüşməkdir. Bu layihə 12 ümumbəşəri dəyərə yönəlib: əməkdaşlıq, azadlıq, xoşbəxtlik, dürüstlük, sevgi, təvazökarlıq, sülh, hörmət, məsuliyyət, tolerantlıq, sadəlik və birlik. Dünya dəyərlərinə olan bu maraq bizdə də gücləndi. Ancaq bəzi tətbiqlərin başlaması ilə bir sıra suallar beynimizi məşğul etməyə başladı. Bu suallardan birincisi Dəyərlər Təhsili niyə gündəmimizdədir? Dəyərlər Təhsili niyə lazımdır? Dəyərlər Təhsilinin bir layihə kimi həyata keçirilməsinin əsas səbəbləri nələrdir? Dəyərlər Təhsili bizə yeni təhsil modeli təklif edir, yoxsa itirilmiş təhsil anlayışını təhsilə qaytarır və onu öz mahiyyətinə qaytarır?

İnsani dəyərlərin zəiflədiyi, saxta dəyərlərin doğru kimi təqdim edildiyi, fərdlərin bədbəxt olduğu, ailələrin narahat olduğu, cəmiyyətlərin parçalanmağa başladığı, təbiətin çirkləndiyi qlobal bir dünyada yaşayırıq [4]. Dəyərlərin yoxa çıxmasında iman və əxlaqın ayrılması böyük rol oynayır. Onlar ayrı-ayrı şeylər deyil, bir bütünü tamamlayan elementlərdir. İmanın zəifləməsi mənəvi və insani dəyərlərin itirilməsi deməkdir. Son iki əsrdə dünya ölkələrində təhsil və təlimdə kəmiyyət və keyfiyyət baxımından çox mühüm irəliləyişlər olsa da, bəşəriyyət hələ də arzuladığı sülh və xoşbəxtliyə çatmamış, hətta daha mürəkkəb və qeyri-müəyyən bir dövrə girmişdir. Bunun səbəbi pozitivist və dünyəvi dünyagörüşünün məhsulu olan müasir təhsil anlayışıdır [3]. Dəyərlər Təhsilin mənbəyində sosial sülhü və bu insanların təhsilini pozan və təhdid edən insanların mövcudluğu dayanır. Müasir təhsil anlayışları və modellərinin təhsildə, yəni fərddə olan uğursuzluqları bizi yenidən təhsilə və dəyərlərə yönəldib. Həyatda təhsilin əksi yoxdur. Həyatımıza məna verən, bizi formalaşdıran, bir yerdə saxlayan dəyərlər bir çox sahələrdə olduğu kimi təhsil sahəsində də yox olub, mənasını itirib. Problem ondadır ki, dəyərlər davranışa çevrilmir və buna görə də təhsil öz məqsədinə çata bilmir.

Dəyər subyektin hadisəyə münasibətini ifadə edir. Bu mənada dəyər insanın arzu olunan şeyə, hadisəyə münasibətidir. Dəyərin arzulanan və lazım olana qarşı məqsəd olması, dəyəri insan davranışına məhdudiyyət gətirən bir meyar edir. Dəyər insanın necə davranmalı olduğu sualına verdiyi cavabdır. Bu mənada dəyər həm də olması lazım olanı ifadə edir. Dəyər təriflərinə əsaslanaraq bir sıra ümumi anlayışlar ön plana çıxır. Bunlar; inanc, mühakimə, meyar, bələdçi, məqsəd, hədəf, prinsip, qayda, dəyər, hiss, təfəkkür, münasibət və davranışdır [1]. Dəyərlər insanların münasibət və davranışlarına, məqsəd və vəzifələrinə təsir edir və istiqamətləndirir. Bu, insana təkcə öz davranışlarını mühakimə etməyə kömək etmir, həm də ondan nə gözlənildiyini bilmək imkanı verir. Cəmiyyətin və insanın şəxsiyyəti dəyərlər üzərində qurulur. Bu, qurulmuş dəyərləri olan insanları yetişdirmək işidir. Təhsil insan olma prosesinin bir hissəsidir. Sahib olunan və qurulmuş dəyərlərin davranışa çevrilməsi təhsil vasitəsilə baş verir.

Dəyərlər Təhsili ömür boyu dəyər qazanma prosesi kimi müəyyən edilir. Bu, dəyərlərin aydın və şüurlu şəkildə öyrədilməsi prosesidir və onların mənsub olduqları fərd və cəmiyyətlə ahəngdar şəkildə hərəkət etmələri üçün zəruri olan bilik və bacarıqların mənimsənilməsi, onların anlayış və biliklərini təkmilləşdirməklə həyata keçirilən fəaliyyət kimi müəyyən edilir. Ədəbiyyatda dəyərlər tərbiyəsi anlayışının əxlaq tərbiyəsi, xarakter tərbiyəsi, vətəndaşlıq tərbiyəsi, hüquq tərbiyəsi və dini təhsil kimi istifadə edildiyini tez-tez görürük. Bu mənada dəyərlər təhsili əxlaq, ruh və məna, ağıl, davranış, harmoniya və birlikdə yaşamaq üçün zəruri olan qaydalara riayət etmək tərbiyəsidir.

Birlikdə yaşayan insanlar yalnız ağıldan istifadə edərək hərəkətlərini istiqamətləndirmirlər. Həmçinin, başqaları üçün qayğı və ehtiyacdan asılı olaraq yaxşı-pis, doğru-yanlış kimi dəyər və qiymətləndirmələr insanlara yol göstərir.

Bu qiymətləndirmə hər bir cəmiyyətdə mövcud olan bir sıra emosional meyllər, oturuşmuş düşüncələr, inanclar, adət-ənənələr, vərdişlər və ənənələr əsasında aparılır.

Müasir dövr ənənəvi dəyərdən başqa öz dəyərlərini də yaratmışdır. İndiki insanlar maddi, eqoist, istehlaka əsaslanan həyat tərzi sürür və ənənəvi dəyərlərə bələddirlər. Dəbdəbəli həyatın hər bir sahəsində nümayişkarlıq hökm sürür. Lüks nə deməkdir? İstehlakda irəliləyiş istehlak sivilizasiyası deməkdir. İstehlak sivilizasiyası vəhşilikdir [6]. İstehlak həm də təqlid zehniyyətinin məhsuludur, insanın özündən və mədəniyyətindən uzaqlaşmanın göstəricisidir. Gözəl və dəbli paltarlar uşaqlara yaraşmır, onlar təmiz və sadə paltarları onlar üçün kifayət kimi qəbul etməlidirlər [5]. Vahid geyimin məqsədini vahid insan modelinin yaradılması kimi düşünmək olmaz. Bu əməl fərdin özünü bəyənməsinə, özü ilə öyünməsinə, israf etməyə imkan vermir. O, fərdlər arasında iqtisadi bərabərsizliyi tarazlayır və nifrətin qarşısını alır.

İlk növbədə, dəyərlərin qurulmasına fərddən başlamaq lazımdır. İnsan əvvəlcə özünü dəyərli görməli və öz dəyərini dərk etməlidir. Bu tələb insanların başqalarını dəyərli görməsi üçün vacibdir. Dəyər təhsilində insanlar həyatın mərkəzindədir. Bu baxımdan dəyərlər təhsili humanizmdir. Lakin modernləşmə prosesi cəmiyyətdə insan mərkəzli bir anlayış yaratsa da, bu anlayış yüksək gözləntilərə malik, iddialı, eqoist, həddən artıq istehlakçı, israfçı, iddialı, tənbəllik, rahatlıq, duyarsızlıq kimi bir sıra mənfi anlayışların formalaşmasına səbəb olmuşdur. Bu vəziyyət Tanrı-insan, kainat-insan, zaman-məkan, yer-göy, subyekt-obyekt vəhdətini pozmuşdur.

Bu gün dəyərlər təhsili bütün növ dini dəyərlərdən asılı olmayaraq demokratik təhsilin bir hissəsi kimi qəbul edilmiş və bunun yaxşı vətəndaşlar yetişdirmək üçün zəruri olduğu hesab edilmişdir. Vətəndaşlıq və dövlət arasında siyasi bağ, millətə, dövlətə mənsub olmaq, vəzifə və məsuliyyət təhsilin məqsədləri arasında idi. Demokratik dövlət anlayışı və onun əksi kimi görülən müasir təhsil daha çox fərdi və azadlığı ön plana çıxarsa da, təhsil arzuolunan səviyyələrə çatmayıb. Müasir dünyanın dəyərləri olan fərdilik və azadlıq fərd üçün zərərli hala gəlib. Azadlıq mühiti şəxsiyyətin və dəyərlərin inkişafı üçün daha yaxşı imkan yaratmaq əvəzinə bu dəyərlərin dəyərsizləşməsinə gətirib çıxarıb və bu vəziyyət fərdi və cəmiyyəti daha çətin vəziyyətə salıb. Fərd öz azadlığını qeyri-məhdud və hədsiz dərəcədə öz maraqlarına uyğun yaşayır. Jean M. Twenge bu fərdiliyin yaşandığı nəsli “Mən Nəsli” adlandırır. Bu nəslin şəxsiyyət xüsusiyyətləri: öz ehtiyaclarını birinci yerə qoymaq, özündən razı olmaq, sirr saxlamadan hər şeyi paylaşmaq, ictimai razılığa ehtiyac yoxdur, özünə hörmət, əyləncə, təxəyyül, televiziya, internetlə virtuallaşma, anormal geyim, pul qazanmaq, seksuallıq faydalı dost hesab olunur. Dini üslubların mənimsənildiyi, dini qavrayışların zəif olduğu, həyatın gündəlik yaşandığı, ictimai dəyərlərdən uzaqlaşma, maddiyyat, zorakılıq, başqaları üçün fədakarlıq qadın üçün zəiflik və zülm kimi görülən bir vəziyyətə çevrilib. Bunun təhsil baxımından mənası belədir: “Biz artıq şagirdlərin heç nə öyrənməsini istəmirik. Nə qədər ki, şagirdlər özlərini yaxşı hiss edirlər”. Məqsəd sosial qaydaları pozmaq və fərdiliyi gücləndirməkdir. Azadlıq cəmiyyətin hər yerində, hətta filmlərdə belə istifadə olunan ən mühüm anlayışdır. Sosial qaydalara uyğun gəlməyən, amma xoşbəxt olduğu hər şeyi etməyə icazə verilən anlayış müasir cəmiyyətdə yetişdirilir. Bu gün ölkəmizdə azadlıq hüdudsuzluq və məsuliyyətsizlik kimi başa düşülür və istifadə olunur.. Əgər insana qeyri-məhdud azadlıq verirsə, onu bütün ömrü boyu qaydasızlıq, qanunsuzluq təqib edəcək və bu qaydasızlıq və qanunsuzluq diqqətdən kənarda qalacaqsa, həyatın başqa sahələrində düzəldilə bilməz. Çünki fərdi azadlıq narkotik kimi zehni ictimai azadlıqdan, ictimai şüurdan uzaqlaşdırır. Bir insanın dəyər sahibi olması üçün şüur lazımdır. Sokratın “Özünü tanı”, Yunus Əmrənin “Elm özünü tanımaqdır / Özünü tanımırsan / Axı, necə oxumaq lazımdır?” misraları bu həqiqətin vurğunudur.

Təhsildə fərdilik və azadlıqdan sui-istifadə edilir. Bu hərəkət kursunun həddindən artıq olması dəyərləri korlayır. Dəyərlər təhsilinin məqsədlərindən biri də problemləri humanist şəkildə və zorakılığa əl atmadan həll etmək bacarığını inkişaf etdirmək olmalıdır. Halbuki fərd azadlığı təkcə şikayət etmək deyil, fərdi eqosunu təmin edən, qarşısındakı insanı çətin vəziyyətə salan bir hüquq kimi görür.

“Təhsildə ilk növbədə intizamı tabe etmək lazımdır. İntizam insanın heyvani təbiətini, nara-

hatlığını məhdudlaşdıran təsirdir" [2]. İntizam təhsildən əvvəl gəlməlidir. Dəyərlər Təhsilində tətbiq olunan azadlıq fərdə bir nizam-intizam gətirməli, boşboğazlığı və nizamsızlığı aradan qaldırmalı və şəxsiyyətin üzərinə məsuliyyət qoymalıdır. İnsan dəyər yaradan varlıqdır. Şagirdlər bu anda öz mənfəətləri üçün icad etdikləri dəyərləri bir kənara qoyub, fərdiliklərindən kənarda ümumi dəyərlərin qurulmasına töhfə verməli, ideal insan davranışlarını ortaya qoymalıdırlar.

Dəyərlər təhsilinin vacibliyindən başqa bir amil bu gün onun yalnız tədris yönümlü olmasıdır. Fərd öz inkişafını məlumat əldə etməyə və saxlamağa yönəldib və fərdi uğur yeganə məqsəd olub. Bu müvəffəqiyyət anlayışı ailələri də akademik uğura yönəltdi. Bu diqqət mərkəzində məktəb və müəllim sadəcə bir vasitəyə çevrilib. Təhsil müəssisələrində öyrənilən yalnız bilikdir. Beləliklə, bilik özəl kurslar və özəl tədris müəssisələri ilə biznes sektoruna çevrildi. Məhz bizim dini, əxlaqi, bəşəri, mədəni dəyərlərimiz bilik baxımından unudulub. Bunda təbii ki, ictimai həyatda, siyasi, mədəni, iqtisadi sahədə baş verən dəyişikliklər təhsil sahəsində dəyişiklikləri məcburi edən bəzi məcburiyyətlərə səbəb olmuşdur. Çünki informasiya cəmiyyətində biliyə əsaslanan dəyişiklik hərəkatları və yeni təhsil imkanları fərdlərin təhsildə gözləntilərini dəyişib. Belə olan halda təhsil fərdin özünə uyğun öyrənmə mühitinin yaradılması prosesinin adına çevrilmişdir.

Dəyərlər Təhsili necə verilməlidir? Dəyərlər Təhsilində müəyyən edilmiş əsas dəyərlər bizim üçün nə dərəcədə uyğundur? Problemlərimizə nə qədər həll yolu gətirir? Aydındır ki, bu gün dəyərlər təhsili adı altında müzakirə olunan anlayışlar müasir dünyadan gətirilib. Bizim bir çox dəyərlərimiz, o cümlədən dəyər anlayışı indi kökdən məhrumdur. Biz dəyərlərimizi öz mədəni torpaqlarımızdan, öz kökümüzdən yenidən böyütməliyik. Dini, əxlaqi və mədəni dəyərlərimizin həyatın bütün sahələrində, ailədə, məktəbdə, mediada, internetdə, küçədə, məsciddə öz yerini tutmasına imkan verilməlidir və bu dəyərlər becərilməlidir. O, şəxsiyyətin davranışında dəyərlərin mövcudluğunu hiss etməli və özünü onlara uyğun yönləndirməlidir. Aydındır ki, dəyərlər təhsili nümunəvi modellərdə dəyərlərə malik olmalıdır. Çünki məktəblərdə müəllimlərin şagirdlərə təsiri yetərli deyil. Rahatlıq təkcə məktəbdə deyil, məktəbdən kənarda da həyat tərzinə çevrilərək, əxlaqi prinsip və dəyərlərin hüdudlarını aşıb. Müəllimlərlə yanaşı, cəmiyyətdə olan rəhbərlərin, müəllimlərin, yazıçıların, şairlərin, filosofların, sənət adamlarının da şəxsiyyətə təsiri şübhəsizdir. Bunu edərkən fərd öz dəyərləri və vicdanı ilə tək buraxaraq, təklif, inandıraraq empatiya qurmağı, hiss etməyi bacarmalı və bu cür nəzəri təhsil praktikaya, yəni davranışa çevrilməlidir. Fərdlərə uşaqlıqdan dəyərlərin tanıdılması, təcrübə yolu ilə mənimsənilməsi, davranışa çevrilməsi və praktikada tətbiqi dəyərlərin tərbiyəsi məqsədinə nail olunmasının göstəricisidir.

**Problemin aktuallığı.** Müasir cəmiyyətdə dəyərlər demokratik təhsilin ayrılmaz hissəsi kimi qəbul edilmiş və bunun vətənə, dünyaya faydalı insan yetişdirmək üçün zəruri olduğu hesab edilmişdir.

**Problemin yeniliyi.** Məqalədə dəyərlərimizin yaşadılması, inkişaf etdirilməsi və qorunması ilə bağlı fikirləri diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə qeyd olunan fikirlər gənc tədqiqatçılar, ali təhsil, ümumtəhsil məktəblərində dərs deyən müəllimlər və geniş ictimaiyyət üçün aktualdır.

**Ədəbiyyat**:

1. Əhmədov H. Azərbaycan məktəbi və pedaqoji fikir tarixi. Bakı: Təhsil, 2001.
2. Kant I. Eğitim Üzerine, 3. Baskı, (Çev: Ahmet Aydoğan), Say Yayınları, -2013. -33-36
3. Keskin Y. Değerlere Genel Bakış: Tanımı, Özellikleri, İşlevi ve Sınıflandırılması, Teoriden Pratiğe Değerler Eğitim, (Editör: Mustafa Köylü), 1.Basım, -Ankara: Nobel Akademik Yayıncılık, -2016, -19-52
4. Mehrabov A.O., Azərbaycan təhsilinin müasir problemləri, -Bakı: Mütərcim, -2007. -448 s.
5. Məmmədzadə R.H. Yaşlıların təhsili XXI əsrin açarıdır // Azərbaycan məktəbi, -2003, № 1,
6. Şeriati A. Bilim ve Eşekleştirme, (çev: Murat Demirkol). -Ankara: Fecr Yayınları, -2016

**E-mail:** seyyare.ceferova@bk.ru
**Rəyçilər:** *ped.elm.dok., prof.* **H.H. Əhmədov**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub:** 24.11.2023

*UOT 378*

***Samirə Feyruz qızı Hacıyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Quba filialının Kitabxana və elektron resurslar şöbəsinin müdiri*
*https://orcid.org/0009-0001-6496-0137*

# ALİ MƏKTƏB KİTABXANALARINDA ELEKTRON RESURSLARDAN İSTİFADƏNİN TƏLİMİN KEYFİYYƏTİNƏ TƏSİRİ

***Самира Фейруз гызы Гаджиева***
*заведующий отделом библиотеки и электронных ресурсов Губинского филиала Азербайджанского Государственного Педагогического Университета*

# ВЛИЯНИЕ ИСПОЛЬЗОВАНИЯ ЭЛЕКТРОННЫХ РЕСУРСОВ НА КАЧЕСТВО ПРЕПОДАВАНИЯ В ВУЗОВСКИХ БИБЛИОТЕКАХ

***Samira Feyruz Hajiyeva***
*Head of the Library and electronic resources department of the Guba branch of Azerbaijan State Pedagogical University*

# THE EFFECT OF THE USE OF ELECTRONIC RESOURCES ON THE QUALITY OF TEACHING IN HIGH SCHOOL LIBRARIES

**Xülasə**. Hər bir ali məktəbin nüfuzu yüksək səviyyəli təhsillə bərabər, onun əməkdaşlarına və tələbələrə elmi-metodik xidmət göstərən kitabxana sisteminin fəaliyyətindən daha çox asılıdır. Hazırda kitabxanaların qarşısında olduqca böyük vəzifələr durur ki, bu da orada çalışan əməkdaşlardan işə, xidmətə daha məsuliyyətlə yanaşmağı tələb edir. Bu mənada müstəqil Azərbaycanın gələcəyini təmin edəcək bacarıqlı mütəxəssislərin hazırlanmasında ali məktəb kitabxanasında elektron resurslardan istifadənin təlim prosesinə təsirinin əhəmiyyətini xüsusi qeyd etməliyik.

Məqalədə də məhz bu kimi aktual məsələyə toxunulur, ali məktəb kitabxanasının müasir tələblərə uyğun fəaliyyətinin əsas istiqamətləri konkret nümunələr əsasında ümumiləşdirilir.

***Açar sözlər:*** *elektron kitabxana, ədəbiyyat, İKT, elektron kataloq, ali məktəb, tədris prosesi, elektron resurslar, informasiya mənbələri*

**Резюме.** Репутация каждого высшего учебного заведения, наряду с высоким уровнем образования, в большей степени зависит от деятельности библиотечной системы, которая оказывает научно-методическое обслуживание своим сотрудникам и студентам. В настоящее время перед библиотеками стоят огромные задачи, которые требуют от работающих в них сотрудников более ответственно подходить к работе и обслуживанию. В этом смысле следует особо отметить важность использования электронных ресурсов в библиотеке высшей школы в образовательном процессе при подготовке квалифицированных специалистов, которые обеспечат будущее независимого Азербайджана.

В статье также затрагиваются многие актуальные проблемы, на конкретных примерах обобщаются основные направления деятельности университетской библиотеки в соответствии с современными требованиями.

***Ключевые слова***: *электронная библиотека, литература, ИКТ, электронный каталог, высшая школа, учебный процесс, электронные ресурсы, источники информации*

**Summary**. The reputation of each higher education institution, along with high-level education, depends more on the activity of the library system, which provides scientific-methodical services to its employees and students. At present, libraries are faced with enormous tasks, which require employees working there to approach work and service more responsibly. In this sense, we should especially mention

the importance of the use of electronic resources in the higher school library on the educational process in the preparation of skilled specialists who will ensure the future of independent Azerbaijan.

The article also touches on such an actual issue, the main directions of the operation of the university library in accordance with modern requirements are summarized on the basis of concrete examples.

***Key words**: electronic library, literature, ICT, electronic catalog, higher school, educational process, electronic resources, information sources*

Məlumdur ki, hər bir ali məktəbin fəaliyyəti onun təhsil sahəsində qazandığı təhsil göstəricilərinin keyfiyyəti və təlimdə yeni innovativ metodlardan bacarıqla istifadə etmək imkanları ilə seçilir. Bu işdə təhsil ocağının demək olar ki, bütün strukturlarının üzərinə eyn səviyyədə məsuliyyət düşür. Bu baxımdan bu gün ali məktəb kitabxanasının, o cümlədən orada elektron resurslardan istifadənin təlimin keyfiyyətinə təsirini xüsusi qeyd etməliyik. Nəzərə alsaq ki, kitabxana təhsil ocağının təlim-tərbiyə və elmi tədqiqat prosesini, eləcə də zəruri ədəbiyyatla və informasiya materialları ilə təmin edən və bilikləri yayan intellektual əlaqələrin təmin edilməsinin əsas mənbəyidir, onda dediklərimizi xüsusi vurğulamağa bəlkə də ehtiyac olmaz.

Təhsil ocağının nüfuzunu şərtləndirən əsas amillərdən biri də kitabxananın əməkdaşlara, tələbələrə, deməli, bütün oxuculara göstərdiyi xidmətlə bağlıdır. Burada xidmət zamanı müasir texnologiyalara müraciət və onlardan istifadə vəziyyətin kökündən dəyişməsinə, daha dəqiq desək, oxuculara maksimum səviyyədə yanaşa biləcək yeni xidmət forma və üsullarının yaranmasına gətirib çıxaracaq. Eyni zamanda, kitabxanada mövcud iş mexanizminin daha da təkmilləşməsi qısa zaman kəsiyində yeni xidmət modelinin üstün cəhətlərini göstərmiş olacaq. Başlıca məqsəd kitabxananın gələcək fəaliyyətinin daha da zənginləşməsinə nail olmaqdır. Məhz belə bir şəraitdə yeni yanaşma və informasiya məlumatlarını elmə tətbiqinə, oxucuların qabaqcıl informasiya imkanlarına yiyələnmək mümkündür.

Təcrübə göstərir ki, yuxarıda qeyd etdiyimiz həlli vacib məsələlərin reallaşması ali təhsil müəssisəsində kitabxana sisteminin fəaliyyətinin yeni, müasir tələblər səviyyəsində təşkil olunması ilə bərabər, birbaşa olaraq təlimin keyfiyyətinə təsir göstərən ən başlıca amillərdəndir. Nəzərə alsaq ki, artıq bütün kitabxanalar elektronlaşdırılıb onda yeni modelin aktuallığını ilk baxışdan duymaq olar. Təbii ki, elektron kitabxananın təşkili və elektron resurslardan istifadə məsələsinin təmin olunmasını ali məktəblərdə təlimin keyfiyyətini müəyyənləşdirən əsas şərt kimi qəbul etmək olar. Bu zaman tələbələr kitab və elektron materiallardan istifadə etməklə onlara lazım olan informasiyaları əldə edə bilirlər. Bu mənbələr onlarda daha zəruri bilik və bacarıqlar qazanmağa imkan verir. Bunlar olmadan nəinki hər hansı bir ali məktəbdə, təhsil müəssisəsində, ümumilikdə təhsil sistemində keyfiyyət məsələsindən danışmaq ən azından sadəlövhlük olardı.

Müasir kitabxana sistemində əsas mənbə kifayət qədər informasiyanı özündə əks etdirən və istifadə olunmasını təmin edən internet və kompüter sistemlərinin mövcudluğudur. Amma bu kim vacib bir məsələnin həyata keçirilməsi heç də asan məsələ deyil. Bunun üçün ilk növbədə ən vacib məsələ həmin məlumatların mühafizəsinin təminatı məsələsinə nail olmaq və işlənməsi prosesini təşkil etməkdir. Qeyd olunan prosesin reallaşması isə bu məlumatların xüsusiyyətlərinin açıq şəkildə göstərilən təsvirləri olmadan mümkün deyil. Belə təsvirlər bu funksiyaları yerinə yetirən proqram təminatı üçün, eləcə də istifadəçilər üçün onlardan mövcud vəziyyətlərdə istifadə etmək, qiymətləndirmək, şərh etmək və təhlil etmək üçün lazımdır. Bu tip təsvirlərə kitabxanaşünaslıqda metaverilən deyilir. Onlar xüsusilə hazırkı informasiya məkanında mühüm əhəmiyyət kəsb edir. Metaməlumatların xüsusiyyətləri, tərkibi və funksiyaları daha çox istifadə olunduqları sistemlərin tətbiqetmə texnologiyalarından, göstərdikləri mənbələrin xüsusiyyətlərindən, həm də onların əhatə dairəsindən və s. asılıdır. Metaverilənlər bütövlükdə kitabxananın məzmununu, onu təşkil edən informasiya resurslarını, kolleksiyalardakı fərdi mənbələri, onların təsnifçiləri, kitabxananın informasiya ehtiyatlarına sahib olan təşkilatlar, istifadəçilər, bir sıra digər informasiya obyektləri və bu kimi sistemlərin xidmətlərini təsvir edir. Təsadüfi deyil ki, metaverilənlər hazırda həm informatika, həm də kitabxana-biblioqrafiya sahəsində tədqiqata cəlb olunan əsas mövzulardan-

dır. Bütün bunlar isə son nəticədə xidmət istifadəçiləri üçün məlumatların əlçatanlığına imkan yaratmaqla onlar arasında informasiya mübadiləsinin təmin etmiş olar. Bütün bunlara nail olmaq üçün kitabxana əməkdaşları da oxucularla münasibətdə daha həssas, səmimi və işgüzar olmalıdırlar. Eyni zamanda, kitabxanada elektron fondun yaradılması, elektron kataloqun təşkili, belə bir kitabxana vasitəsilə xidmətin fəaliyyətini daha da təkmilləşdirmək və onların müasir tələblər səviyyəsində qurulmasına nail olmaq lazımdır. Digər tərəfdən, xidmətdə aparılan islahatlar müqabilində xidmətdə elektron inventarlaşma təmin, beynəlxalq kitabxana sisteminə məlum olan qabaqcıl texnologiyaların mənimsənilməsi təmin edilməlidir.

Ali məktəb kitabxanasında elektron resurslardan istifadənin təlimin keyfiyyətinə təsir edən əsas amillərdən biri də məlumat araşdırma bacarıqlarının təmin olunmasıdır. Bu həm də təhsil sahəsində yüksək nəticənin əsas şərtlərindəndir. Bunun üçün kitabxana əməkdaşlarından oxucuların müraciətlərinə daha diqqət və qayğı ilə yanaşmaq, hətta bir çox hallarda həssas olmaq tələb edilir. Bu zaman əməkdaşlar oxucuların maraq və istəklərinə xüsusi yanaşmalı, onlara elektron kitabxanada mövcud olan bütün xidmət növlərindən istifadə etmələrinə hərtərəfli şərait yaratmalıdırlar. Müraciət edən hər bir oxucunu maraqlandıran informasiya mənbələrini araşdırıb tapmaqla onların kitabxanada geniş istifadə olunmasını təşkil etmək lazımdır. Veb-sayt vasitəsilə oxucular üçün gərəkli sayılan elektron kitablar və nəşrlər, digər mənbələr sisteminə giriş əlçatan olmalıdır. Bu hər şeydən əvvəl tədris prosesində müəyyən problemlərlə üzləşərək kitabxanaya üz tutan tələbə və müəllimlərin bu xidmətə olan etibar və inamını da artırmış olur.

**Problemin aktuallığı**. Müasir ali məktəb kitabxanasının qarşısındakı əsas vəzifələrdən biri də bu xidmət sahəsinin fəaliyyətini təkmilləşdirməklə elektron tipli modelə uyğun olaraq yeni sistemin formalaşdırmasıdır. Bu kimi vacib məsələnin həlli ilk növbədə təhsil ocağında təlimin keyfiyyətinə təsir edən amillərdən hesab olunur. Məqalənin də aktuallığı onun məhz belə bir vacib mövzuya həsr edilməsi ilə bağlıdır.

**Problemin yeniliyi**. Məqalədə informasiya mənbələrinin ən vacib növü hesab edilən metainformasiya konsepsiyasına toxunulmuşdur. Onların mahiyyəti, xüsusiyyətləri və funksiyaları barədə məlumat verilmişdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalədən ali məktəblərlə yanaşı, digər təhsil müəssisələrinin də kitabxana sisteminin əməkdaşları yararlana bilərlər.

**Ədəbiyyat:**


1. İsmayılov, X.İ. Kitabxana işinin təşkili və idarə edilməsi: Dərslik. / X.İ. İsmayılov. – Bakı, 2009. – 392 s.
2. Kitabxanaşünaslıq və biblioqrafiya. Elmi-nəzəri, metodik və təcrübi jurnal. Azərbaycan Respublikası Təhsil Nazirliyi və BDU-nun birgə nəşri, 2012, № 1.
3. İsmayılov, N. M.F. Axundzadə adına Azərbaycan Milli Kitabxanasının biblioqrafik verilənlər bazaları. / N. İsmayılov, N. Xəlilova. // "Elektron kitabxanaların təşkili və formalaşması problemləri" mövzusunda onlayn respublika elmi konfransının materialları. – Naxçıvan, 2021.
4. C. Əliyeva. Universitet həyatında kitabxananın rolu. ADU-nun informasiya bülleteni. – Bakı, 2019, 19 sentyabr.


**E-mail:** samira.gadziyeva.79@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.* **L.A. Məmmədli**,
*ped.ü.fəls.dok., dos.* **N.Ş. Muradova**
**Redaksiyaya daxil olub:** 30.10.2023

***TƏRBİYƏ TEXNOLOGİYALARI***
***ВОСПИТАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ***
***UPBRİNGİNG TECHNOLOGIES***

*UOT 371*

***İradə Böyükağa qızı Əmirəliyeva***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*
*https://orcid.org/0000-0002-3319-7466*

***Lalə Akif qızı Məmmədli***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı mütəxəssisi*
*https://orcid.org/ 0000-0003-0686-3627*

# ERMƏNİSTAN DÖVLƏTİ NECƏ YARADILDI? BU BARƏDƏ ŞAGİRDLƏRƏ MƏLUMATLARIN VERİLMƏSİNİN VACİBLİYİ

***Ирада Боюкага гызы Амиралиева***
*доктор философии по педагогике*
*ведущий научный сотрудник Института Образования Азербайджанской Республики*

***Лала Акиф гызы Мамедли***
*доктор философии по педагогике,*
*ведущий специалист Института Образования Азербайджанской Республики*

# КАК БЫЛО СОЗДАНО ГОСУДАРСТВО АРМЕНИЯ? ВАЖНОСТЬ ПРЕДОСТАВЛЕНИЯ ИНФОРМАЦИИ ОБ ЭТОМ УЧАЩИМСЯ

***Irada Boyukagha Amiraliyeva***
*doctor of philosophy in pedagogy*
*leading scientific worker at the Institute of Education of the Republic of Azerbaijan*

***Lala Akif Mammadly***
*doctor of philosophy in pedagogy*
*leading specialist at the Institute of Education of the Republic of Azerbaijan*

# HOW WAS THE STATE OF ARMENIA CREATED? OBLIGATION TO PROVIDE INFORMATION ABOUT THIS TO STUDENTS

**Xülasə.** Erməni dövləti 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin razılığı ilə yaradılıb. Ermənilərin azərbaycanlılara qarşı qırğınların, Azərbaycana qarşı ərazi iddialarının qarşısını almaq üçün İrəvan və bəzi Azərbaycan torpaqları ermənilərə güzəştə gedilib. Lakin buna baxmayaraq, ermənilər ərazi iddialarından, xalqımıza qarşı soyqırımdan əl çəkməyiblər. Məqalədə erməni dövlətinin neçə yaranmasından danışılır. Bu barədə şagirdlərə məlumatların verilməsi məsləhət bilinir.
***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyyəti, qondarma erməni dövləti, ermənilərin azərbaycanlılara qarşı soyqırımı, şagirdlərə məlumatların verilməsi, ərazi iddiaları*

**Резюме.** Армянское государство было создано в 1918 году с согласия Азербайджанской Демократической Республики. Чтобы предотвратить резню азербайджанцев со стороны армян и их территориальные претензии к Азербайджану, Иреван и некоторые азербайджанские земли уступили армянам.

Однако, несмотря на это, армяне не отказались от своих территориальных претензий и геноцида против нашего народа. В статье повествуется о создании Армянского государства. Рекомендуется проинформировать об этом учащихся.

***Ключевые слова:*** *Азербайджанская Демократическая Республика, так называемое Армянское государство, геноцид армян против азербайджанцев, предоставление информации учащимся, территориальные претензии*

**Summary.** The Armenian state was created in 1918 with the consent of the Azerbaijan Democratic Republic. To prevent Armenian massacres against Azerbaijanis and territorial claims against Azerbaijan, Iravan and some Azerbaijani lands were granted concessions to the Armenians. However, despite this, the Armenians did not give up their territorial claims and genocide against our people. The article talks about the creation of the Armenian state. It is recommended that students be informed about this.

***Key words:*** *Azerbaijan Democratic Republic, so-called Armenian state, Armenian genocide against Azerbaijanis, provision of information to students, territorial claims*

Atalarımızın belə bir məsəli var: "Yersiz gəldi, yerli qaç". Bu "yersiz" sözü tam çılpaqlığı ilə ermənilərə aiddir. Heç bir zaman özünəməxsus torpağı, özünün dövləti olmayan bu dırnaqarası "xalq" yalaqlanmaq, ağlayıb-sıtqamaq, xəyanət etməklə, satqınlıq, yaltaqlıq, başqa millətlərə qul, nökər olmaq hesabına torpaq qapıb, dövlət qurub. Azərbaycan, Türkiyə, Gürcüstan, Rusiya ərazilərində özünə yer eləməklə, həmin dövlətlərin, həmin xalqların, həmin millətlərin üzünə ağ olub, onlara xəyanət edib.

"Ağ olmaq" azdır. Ermənilər onlara sığınacaq, qida, verənləri, dərdlərinə dərman olanları məhv etməklə məşğul olublar. Çünki canlarında insan, adam xisləti olmayıb, olmayacaq da. Onlar vicdan, namus, ismət, şərəf, ləyaqət kimi əsas keyfiyyətlərdən məhrumdurlar!

1918-ci ilədək dövləti olmayan ermənilər bizə məxsus torpaqların hesabına özlərinə dövlət qurublar. Bu şəraiti onlara Azərbaycan Xalq Cümhuriyyəti yaradıb.

Şagirdlərin:

– Bu necə olub? Niyə Azərbaycan Xalq Cümhuriyyəti onlara güzəştə gedib? Bizim torpaqlarımız hesabına özlərinə dövlət qurmağa imkan verib?

Bu suala yaxşı cavabı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev vermişdir. Cənab İlham Əliyev 2022-ci il dekabrın 24-ü tarixində "Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bu məsələyə aydınlıq gətirmişdir. Diqqət yetirək: "Tariximizdə şanlı səhifələr də olub, qara səhifələr də. Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti haqqında mən dəfələrlə öz fikirlərimi bildirmişdim. Azərbaycan Demokratik Respublikasının qurucularının fəaliyyətini yüksək qiymətləndirmişdim. Bu, dünya miqyasında, müsəlman aləmində ilk respublika idi. Ancaq biz tariximizin qara səhifələrini də ört-basdır etməməliyik. Birincisi, tarixi həqiqət təhrif olunmuş formada təqdim edilməməlidir. İkincisi, bu faciəvi hadisə hamımız üçün dərs olmalıdır.

O vaxt bu qərarı müxtəlif səbəblərlə izah etməyə çalışanlar da olub, bu gün də var. Ancaq hesab edirəm ki, heç bir izahat qəbul edilən deyil, çünki ermənilər bu addımla kifayətlənməmişlər. Əgər kimsə hesab edirdi ki, İrəvanı orada yaşayan insanlardan xəbərsiz öz doğma diyarından məhrum etməklə Ermənistan və ermənilər kifayətlənəcək, böyük səhv edirdi və sonrakı tarix bunu bir daha göstərdi. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə idi. Digər tərəfdən, Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi.

Yəni, görün, cəmi iki il ərzində xalqımızın başına nə qədər böyük bəlalar gətirildi. Əgər kimsə hesab edirdi ki, 1918-ci ildə İrəvanı Ermənistana verməklə biz hansısa daha böyük bəlalardan özümüzü sığortalamış ola bilərdik, bax, Zəngəzurun Ermənistana verilməsi bir daha onu göstərir ki, bu, çox yanlış, səhv addım idi. Bununla Qərbi azərbaycanlıların faciələri bitmədi" [1].

İyirminci yüzilliyin əvvəllərinə aid arxiv sənədləri ilə tanışlıqdan görünür ki, 1918-ci ildə Cənubi Qafqaz Seymi süquta uğrayan ərəfə-

də bölgədə əsas rola malik olan Osmanlı dövlətinin baş naziri Tələt paşa və hərbi nazir Ənvər paşa Cənubi Qafqazda yalnız iki dövlətin – gürcü və müsəlman dövlətinin yaradılmasını məqsədəuyğun sayırdılar. Onlar erməni dövlətinin yaradılmasına qarşı çıxırdılar. Bu ən düzgün qərar idi. Bu qərara görə, ermənilərin məskunlaşdıqları yerlər müsəlmanlarla gürcülər arasında bölüşdürüləcəkdi. Beləliklə, erməni problemi, erməni iddiası deyilən “çibanı kökündən kəsiləcəkdi”.

Fəqət Batum konfransındakı Seym heyətinin gürcü və Azərbaycan nümayəndələri erməni dövlətinin yaradılması tərəfdarları kimi çıxış edirdilər. Osmanlı hökuməti gürcü nümayəndələrinin təklifini qəbul etməsələr də, Azərbaycan nümayəndələri israrlı idilər. Ermənilərin dövlət yaratmalarını mümkün hesab edirdilər. Əlacsız qalan Osmanlı dövləti ermənilərin qarşısına bəzi öhdəliklər qoymaqla, Osmanlı dövlətinin yeni sərhədləri ilə Göyçə gölü arasında erməni dövlətinin yaradılmasına icazə verdi.

Ermənilər Azərbaycana və gürcülərə ərazi iddiaları irəli sürür, Azərbaycan ərazilərində qırğınlar törətməkdən əl çəkmirdilər. Azərbaycan Xalq Cümhuriyyəti bu iddialarından çəkinmək, qırğınları dayandırmaq müqabilində ermənilərə güzəştə getmişdilər. Lakın sonralar yanıldıqlarını anladılar.

İstanbul konfransında iştirak edən Məmməd Əmin Rəsulzadə Osmanlı rəsmiləri ilə görüşündə etiraf etmişdi ki, Azərbaycan Xalq Cümhuriyyəti başçıları Tələt paşa və Ənvər paşanın sözlərinə nahaq məhəl qoymamış, mövqelərin müdafiə etməmişlər. Bu millət düzələn deyil. Azərbaycan əraziləri hesabına özləri üçün dövlət yaratsalar da, Azərbaycana qarşı ərazi iddialarından, xəyanətdən yenə də əl çəkməmişlər və çəkmək fikrində də deyillər.

AXC-in baş naziri Fətəli xan Xoyski xarici işlər naziri Məmməd Həsən Hacınskiyə müraciətlə bəyan edirdi: “Biz ermənilərlə bütün mübahisələrə son qoyduq, onlar ultimatumu qəbul edəcək və müharibəni qurtaracaqlar. Biz İrəvanı onlara güzəştə getdik”.

O zaman – 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti erməni dövlətinin yaradılmasına razılıq versə də, əslində o dövlətin yaradılmasının hüquqi əsası yoxdur. 1918-ci il Batum konfransında mərkəzi İrəvan şəhəri olmaqla erməni dövlətinin yaradılmasına dair qərarın qəbulundan sonra konfransdakı Azərbaycan nümayəndələrinin (M.H. Hacınski və M.Ə. Rəsulzadə) məsləhətinə əsasən hüquqi prosedurları həyata keçirməkdən ötrü Azərbaycan Milli Şurasının 1918-ci il mayın 29-da keçirilən iclasında İrəvanın Ermənistana güzəştə gedilməsi məsələsi müzakirə edildi (İclasa sədrliyi Həsən bəy Ağayev edirdi). Əslində bu iclasın keçirilməsi üçün yetərsay yox idi. Lakin buna baxmayaraq, məsələ səsə qoyuldu. “İrəvanın ermənilərə güzəştə gedilməsi” ilə bağlı müsbət qərar qəbul edildi.

Azərbaycan Milli Şurası həmin vaxtlar parlament funksiyası rolunu oynayırdı. Hökumətin imzaladığı müqavilə, saziş və razılaşmalar Milli Şurada təsdiq olunduqdan sonra qanuni qüvvəyə minirdi. Batumdakı erməni-Azərbaycan danışıqlarında tərəflər arasında bu məsələ ilə əlaqədar əldə olunan razılaşmalar heç bir müqavilə ilə rəsmiləşdirilməyib.

Həm də Azərbaycan Milli Şurasının 1918-ci il mayın 29-da keçirilən iclasında Milli Şuranın 44 nəfər üzvünün yalnız 20-si iştirak etmişdi. Həmin 20 nəfərin 16 nəfəri İrəvanın güzəştə gedilməsi təklifi lehinə, 1 nəfəri əleyhinə səs vermiş, 3 nəfər bitərəf qalmışdı.

Bundan başqa, İrəvan şəhər əhalisinin böyük əksəriyyəti azərbaycanlılardan ibarət idi. Onların rəyi öyrənilmədən şəhərin ermənilərə verilməsi məsələsi müzakirəyə çıxarılmışdı.

**Problemin aktuallığı**. Erməni dövlətinin necə yaranması barədə şagirdlərdə düzgün məlumatı alması aktuallığı ilə seçilir.

**Problemin yeniliyi**. Erməni dövlətinin necə yaranması barədə şagirdlərdə zəruri məlumat verilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılarda maraq doğuracaqdır.

**Ədəbiyyat:**

1. 24 dekabr 2022-ci il tarixdə Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə İlham Əliyevin nitqi. https://president.az/az/articles/view/58470

2. V. Qafarov. İrəvanın ermənilərə verilməsi haqqında tarixi həqiqətlər https://science.gov.az/az/news/open/23494
3. H. Həsənov. İrəvanın ermənilərə güzəştli və məcburi verilməsi — Dövrün tarixi faktları, Milli Şura və Osmanlının atdığı addımlar http://goyce.az/news.php?id=615

**E-mail**: amiraliyeva_i @mail.ru
lale23@mail.ru
**Rəyçilər**: *ped.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **R.S. Əliyev**
**Redaksiyaya daxil olub:** 11.10.2023

UOT 371

**Emilya Rafiq qızı Hüseynova**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# ŞAGİRDLƏRDƏ FƏAL VƏTƏNDAŞLIQ MÖVQEYİNİN FORMALAŞDIRILMASI TƏHSİL MÜƏSSİSƏSİNİN MÜHÜM VƏZİFƏSİ KİMİ

**Эмилия Рафиг гызы Гусейнова**
*доктор философии по педагогике, доцент*
*Азербайджанский Государственный Педагогический Университет*

# ФОРМИРОВАНИЕ АКТИВНОЙ ГРАЖДАНСКОЙ ПОЗИЦИИ У УЧАЩИХСЯ КАК ВАЖНАЯ ЗАДАЧА ОБРАЗОВАТЕЛЬНОГО УЧРЕЖДЕНИЯ

**Emilya Rafig Huseynova**
*doctor of philosophy in pedagogy, associate professor*
*Azerbaijan State Pedagogical University*

# FORMATION OF AN ACTIVE CIVIC POSITION IN PUPILS AS AN IMPORTANT TASK OF AN EDUCATIONAL INSTITUTION

**Xülasə.** Təhsil müəssisələrinin, o cümlədən ümumtəhsil məktəbinin üzərinə bir sıra vəzifələr qoyulur. Həmin vəzifələr sırasında vətəndaşlıq tərbiyəsi çox böyük rola malikdir. Fəal vətəndaşlıq tərbiyəsi insanlardan, şagirdlərdən öz hüquqlarını bilmələrini və vəzifələrini yerinə yetirmələrini, azərbaycançılıq ideyalarına sadiq qalmağı, fəal həyat mövqeyinə sahib olmağı, vətənpərvər, yurdsevər olmağı, Vətəninin müdafiəsini özü üçün mühüm bir borc olduğunu anlamasını və bu sahədə fəaliyyət göstərməsini tələbata çevirir.

Bu məqalədə şagirdlərdə fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması təhsil müəssisəsinin mühüm vəzifəsi kimi nəzərdən keçirilir.

***Açar sözlər:*** *yuxarı sinif şagirdləri, fəal mövqe, fəal vətəndaşlıq mövqeyi, fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması, azərbaycançılıq*

**Резюме.** На образовательные учреждения, в том числе общеобразовательные школы, возлагается ряд задач. Среди этих обязанностей очень большую роль играет гражданское воспитание. Активное гражданское воспитание требует от людей и учащихся знать свои права и выполнять свои обязанности, быть верными идеям азербайджанства, иметь активную жизненную позицию, быть патриотичными, понимать, что защита своей Родины является для них важным долгом.

В данной статье формирование активной гражданской позиции у учащихся рассматривается как важная задача образовательного учреждения.

***Ключевые слова:*** *старшеклассники, активная позиция, активная гражданская позиция, формирование активной гражданской позиции, азербайджанство*

**Summary.** Educational institutions, including secondary schools, are assigned a number of tasks. Among these responsibilities, civic education plays a very important role. Active civic education requires people and students to know their rights and fulfill their responsibilities, to be faithful to the ideas of Azerbaijanism, to have an active life position, to be patriotic, and to understand that defending their homeland is an important duty for them. and act in this area.

In this article, the formation of an active civic position among students is considered as an important task of an educational institution.

***Key words:*** *high school students, active position, active civic position, formation of an active civic position, azerbaijanism*

Yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması aktuallığı ilə diqqət mərkəzinə gəlir. Hazırda ümumtəhsil məktəbinin partası arxasında əyləşən şagird necə bir vətəndaş olacaqdır? Bu onunla aparılan təlim-tərbiyə işlərinin keyfiyyətindən asılıdır. Yuxarı sinif şagirdinin fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması cəmiyyətimizin son dərəcə mühüm mənəvi, ruhi, iqtisadi və ideya-siyasi vəzifəsidir. Dövlətin təhsil siyasəti bu istiqamətdə məqsədyönlü, sistemli və ardıcıl işlərin aparılmasını zərurətə çevirir.

Məktəblilərin, o cümlədən yuxarı sinif şagirdlərinin fəal vətəndaşlıq mövqeyi onun yaradıcı fəaliyyəti ilə sıx surətdə bağlıdır. Ona görə də təhsilalanların yaradıcı fəaliyyəti zamanı tələbatları ödənilməlidir ki, onlar cəmiyyətin, insanların mənafeyi naminə əmək sərf etdikləri zaman öz vətəndaşlıq mövqelərini aydın hiss etsinlər. Məhz yaradıcılıq nümayiş etdirməklə, bu yaradıcılığın köməyi ilə ətraf aləmi, bəşəriyyətin keçmişini və bu gününü, maddi və mənəvi zənginlikləri dərk edirlər.

Şagirdlərin tərbiyə olunması vətəndaşlıq mövqeyini bərqərar etməklə onlarda cəmiyyətin həyatında fəal iştiraketmə tələbatı yaratmaqdır. Vətəndaşlıq mövqeyinin səmərəli formalaşdırılması üçün yuxarı sinif şagirdlərində vətəndaşlıq məsuliyyətinin, Vətən qarşısında müqəddəs borcun tərbiyə olunmasını tələb edir.

Vətəndaşlıq məsuliyyəti özündə aşağıdakı cəhətləri birləşdirir: şagirdin öz hüquq və vəzifələrinə dərk olunmuş və müsbət münasibəti; bu hüquq və vəzifələri cəmiyyətin tələbləri ilə uzlaşdırmağa daxili tələbatı. Əxlaqa zidd hərəkətləri bəyənməmək və onlara qarşı çıxmaq, qarşılıqlı yardım, asosial təzahürlərlə mübarizəyə özünü və başqalarını səfərbər etmək bacarığı və s. məsuliyyətin obyektiv göstəriciləri kimi özünü göstərir.

Vətəndaşlıq məsuliyyəti vətəndaşlıq borcu hissi ilə qırılmaz tellərlə əlaqəlidir və öz təzahürünü onda tapır.

Şagirdlərdə fəal vətəndaşlıq mövqeyinin tərbiyə olunması özündə aşağıdakıları birləşdirir: böyüyən nəsildə vətəndaşlıq şüurunun və vətəndaşlıq təfəkkürünün, vətəndaşlıq dünyagörüşünün və vətənpərvərlik hisslərinin formalaşdırılması ilə bağlı olan bir sıra tərbiyəvi vəzifələr; fəal vətəndaşlıq mövqeyi; ölkəmizin əsas qanunu – Konstitusiyası ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməsi və Azərbaycanın milli maraqlarının müdafiəsi zamanı vətəndaşın və vətənpərvərin mənəvi-psixoloji keyfiyyətlərinin tərbiyə və inkişaf etdirilməsi.

Məktəbdə haqqında söz açılan keyfiyyətlərin formalaşdırılması və inkişaf etdirilməsi böyük zəhmət və məsuliyyət tələb edən bir işdir.

Ümummilli liderimiz Heydər Əliyevin sözləridir: "Fəal mövqe şəxsiyyətin əqidəsini, onun iradə zənginliyini, ideya-mənəvi düşüncələrini ifadə edərək, insana yeni-yeni məsələləri irəli sürüb həll etməkdə, çətin şəraitdə özünü itirməməkdə, qətiyyətli hərəkət etməkdə, öz üzərinə məsuliyyət götürməkdə kömək edir. Fəal mövqe bəşəriyyətin hazırladığı bütün mənəvi sərvətlər ilə öz daxili aləmini daim zənginləşdirməyi tələb edir".

Həmin sözlərdə dərin həqiqət vardır.

Vətəndaşlıq mövqeyinin formalaşdırılması zamanı üç məsələ diqqət mərkəzində dayanmalıdır. İlk növbədə yuxarı sinif şagirdlərində dünya, cəmiyyət, özü haqqında səhih bilik və məlumatlar olmalıdır. Bu bilik və məlumatlar cəmiyyətdə mövcud olan davranış normaları və insanların hərəkətlərini arasındakı əlaqə və asılılıqları yaxşı dərk etmək üçün lazımdır. İkincisi, şagirdin fasiləsiz özünütəyini prosesində ictimai-faydalı fəaliyyət prosesində ictimai münasibətlərin formalarının mənimsənilməsi mühüm əhəmiyyət daşıyır.

Üçüncüsü, məktəblilər ünsiyyət təcrübəsinə və mədəniyyətinə yiyələnirlər ki, bu da onların həmyaşıdları və digər şəxslərlə qarşılıqlı münasibətlərinin və qarşılıqlı fəaliyyətini asanlaşdırır və təkmil edir.

Yuxarı sinif şagirdlərində vətəndaşlığın təşəkkülü onun həyatının və fəaliyyətinin bütün tərzi ilə, ətraf aləmlə real-sosial əlaqələrin yaradılması ilə müəyyən olunur.

Tərbiyəvi təsirin təşkilində məqsədəyönəlmişlik, fasiləsizlik, ardıcıllıq və sistemlilik gözlənilməlidir. Bunlar olmadıqda, üstəlik tərbiyəvi təsir metodlarının necə gəldi seçilməsi, tərbiyənin prinsiplərindən lazımınca faydalanmadıqda, əxlaqi meyarlara laqeyd yanaşdıqda fəaliyyətdə səmərəliliyin təmin edilməsi mümkün olmur. Əxlaq normalarının mövcudluğu mühüm siyasi dəyərə malik vəzifədir. Bu vəzifə yuxarı sinif şagirdlərində fəal vətəndaşlıq mövqeyinin for-

malaşdırılması üzrə iş sisteminin elə təşkilini nəzərdə tutur ki, bu zaman məktəblinin sosial fəaliyyətinin ayrı-ayrı növlərində iştirakı onun mənəvi baxımdan təşəkkülünə şərait yaradır, fəal vətəndaşlıq mövqeyinin tərbiyə olunması şagirdin fəaliyyətinin digər sahələrində də reallaşır.

Pedaqoji ədəbiyyatda vətəndaşlıq mövqeyinin formalaşdırılması sisteminin başlıca istiqamətləri təxminən aşağıdakı kimi verilir:

1. Özünə münasibətdə vətəndaşlıq mövqeyinin formalaşdırılması.

2. Öz ailəsinə münasibətdə vətəndaşlıq mövqeyinin formalaşdırılması.

3. Təhsil aldığı məktəbə münasibətdə vətəndaşlıq mövqeyinin formalaşdırılması.

4. Vətənə münasibətdə vətəndaşlıq mövqeyinin formalaşdırılması.

5. Yer planetinə münasibətdə vətəndaşlıq mövqeyinin formalaşdırılması.

Vətəndaşlıq mövqeyinin tərbiyə olunması üzrə ailədə uşağın kiçik yaşlarından başlanan iş sonradan uşaq bağçasında və məktəbdə davam etdirilir. Pedaqojiyönlü tərbiyələndirici, təhsilləndirici və inkişafetdirici fəaliyyətin sistemi belədir. Ailə vətəndaşlıq mövqeyinin formalaşdırılması üzrə fəaliyyətin ilk məktəbi, valideynlər isə bu işin ilk təşkilatçıları və ilk tərbiyəçiləridir. Aparılmış məqsədyönlü, sistemli, fasiləsiz, ardıcıl və mütəşəkkil iş yuxarı sinif şagirdinin vətəndaşlıq davranışını şərtləndirir.

Fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması işinə, təbii ki, uşaqlar hələ kiçik yaşlarında olarkən başlamaq lazımdır. Bu mövqeyin əsasını şəxsiyyətin dünyagörüşü, mənəvi-ruhi inamı və ictimai borca münasibəti təşkil edir.

Fəal vətəndaşlıq mövqeyinin göstəricilərinə aşağıdakılar aid oluna bilər:

– məktəblilərin, o cümlədən X-XI sinif şagirdlərinin fəaliyyətinin məqsədyönlü, sistemli və şüurlu olması;

– fəaliyyətin bu və ya digər növlərində fəallıq və məsuliyyət;

– yuxarı sinif şagirdinin fəaliyyətinin və sosial fəallığının fəaliyyətin növünün tələblərinə və cəmiyyətdə həyat şəraitinə uyğun gəlməsi;

– şəxsiyyətin real fəaliyyəti və həyat tərzi və s.

Vətəndaşlıq mövqeyi anadan olduğumuz, böyüyüb-başa çatdığımız, yüksək məqama çatdığımız, maddi və mənəvi sərvətlərindən bəhrələndiyimiz, varlığına görə iftixar hissi keçirdiyimiz doğma və əziz Vətənimizlə sız bağlılığımızdan ibarətdir. Türk dünyasının böyük şəxsiyyəti Mustafa Kamal Atatürkün aşağıdakı sözlərinə diqqət yetirək: *"Ölmək istəyən bir milləti heç bir qüvvə xilas edə bilməz. Türk milləti ölmək istəməz. O daim yaşayacaqdır!* [1, s. 100]… *Milli müdafiəmizi düşmənlərin bayraqları babalarımızın ocaqlarından çəkilənə qədər davam etdirəcəyik* [1, s. 100] *...Ölkəmizin əllidə biri deyil, hər tərəfi məhv olsa, hər tərəfi odlar içində yansa da, biz bu torpaqların üstündə hər bir təpəyə çıxacağıq və orada müdafiə ilə məşğul olacağıq* [1, s. 102] ... *Əgər dünyanın bizə hörmət etməyini istəyiriksə, hər şeydən əvvəl özümüzün öz məmləkətimizə və öz millətimizə olan hörmətimizi həyatda istəklərimizlə, mənəviyyatımızla, bütün iş və hərəkətlərimizlə sübut edək və başa düşək ki, milli mənliyi olmayan millətlər başqa millətlərin ovudur* [1, s. 122].

Böyük türkün fikirləri, vətənpərvərliyə, yüksək vətəndaşlıq mövqeyinə yiyələnməyə çağırışdır. İnsan yalnız özünü düşünməməli, xeyirxah işlərin iştirakçısı olmalı, özündən sonra yaxşı iz qoymalı, özü, ailəsi ilə yanaşı daim Vətəni, milləti, xalqı, ölkəsinin rifahı barədə düşünməli və həm də sadəcə düşünməli deyil, əməli fəaliyyət göstərməlidir. Atatürkün bu xüsusda deyirdi: *"Mənim aciz vücudum bir gün, əlbəttə, torpaq olacaqdır. Fəqət Türkiyə Respublikası sonsuzluğa qədər yaşayacaqdır"* [1, s. 113].

Diqqət mərkəzinə gətirdiyimiz sözlərdə dərin həqiqət vardır.

Fəal vətəndaşlıq mövqeyinin tərbiyə olunması sahəsində yuxarı sinif şagirdləri ilə təlim-tərbiyə işlərinin səmərəli qurulması məqsədilə göstərilən dərslərdə və sinifdənxaric tədbirlərdə müəllimlərin, sinif rəhbərlərinin, tərbiyə işləri üzrə direktor müavininin tarixi şəxsiyyətlərlə bağlı yuxarı sinif şagirdlərində hansı həcmdə məlumatlar çatdırdıqlarını və onları tərbiyəvi cəhətdən necə yönəltdiklərini, məktəblilərin tarixi şəxsiyyətlərə münasibətlərini, bu şəxslərin hansı müsbət keyfiyyətlərinin həmin insanlara xoş gəldiyini, bu dəyərli şəxsiyyətlərin nümunələrinin gənc nəslin davranış və rəftarında, xarakterində, şəxsiyyətlərarası münasibətlərdə necə bir müsbət təsir göstərdiyini müəyyənləşdirmək vacibdir.

Tarixi şəxsiyyətlərə aid materiallarla tanışlıq sahəsində işlərin aşağıdakı sistemlə görülməsi məsləhətdir:

1. Təlim prosesində fənlərin tərbiyəedici imkanlarının diqqət mərkəzində dayanması, tarixi şəxsiyyətlərin həyatına və fəaliyyətinə aid, eyni zamanda onun öz əsərlərinin öyrənilməsi.

2. Bu və ya başqa mövzu keçilməzdən əvvəl məktəblilər tarixi şəxsiyyətlə bağlı bədii, elmi-kütləvi əsərlərlə tanış olur və ya onun (alimin, yazıçı və şairin və b.) əsərlərini mütaliə edirdilər. Mövzunun tədrisi zamanı bu məlumatlar da diqqət mərkəzində olmalıdır.

3. Qəzet və jurnal məqalələrindən, televiziya verilişlərindən, kino və teatr tamaşalarından, bədii və sənədli filmlərdən alınan məlumatlar dərsdə dinlənilməlidir.

4. Sinifdənxaric tədbirlər nəzərdə tutularkən yuxarı sinif şagirdləri yeni ədəbiyyatlarla tanış olmalıdırlar.

Tədqiqatla bağlı gəldiyimiz nəticə ondan ibarətdir ki, tarixi şəxsiyyətlərə hörmət böyük məktəb yaşlı şagirdlərdə fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması amili kimi özünü göstərir. Həzrəti Məhəmməd, Atilla, Nizami Gəncəvi, Nəsirəddin Tusi, İmaməddin Nəsimi, Əmir Teymur, Şah İsmayıl Xətai, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Nəriman Nərimanov, Mustafa Kamal Atatürk, Heydər Əliyev və b. nümunəsində tərbiyə fəal vətəndaşlıq mövqeyinin təşəkkülünə imkan verir.

**Problemin aktuallığı**. Böyüyən nəsildə fəal vətəndaşlıq mövqeyinin formalaşdırılması aktuallığı ilə seçilir.

**Problemin yeniliyi**. Şagirdlərdə fəal vətəndaşlıq mövqeyinin formalaşdırılmasına təhsil müəssisəsinin mühüm vəzifəsi kimi yanaşılır.

**Problemin praktik əhəmiyyəti**. Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Qocatürk, U. Atatürk / U. Qocatürk. – Bakı: Elm, – 1991. – 212 s.
2. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. – Bakı: Mütərcim, – 2021. – 464 s.


**E-mail:** emilya.huseynova95@gmail.com
**Rəyçilər:** *ped.elm.dok., prof.* **A.N. Abbasov,**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub:** 19.10.2023

*UOT 159.9*

***Gülarə Hüseynağa qızı Kərimova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Bakı Dövlət Universiteti*

# ŞAGİRDLƏRİN MİLLİ-MƏNƏVİ RUHDA FORMALAŞDIRILMASINDA DÜZLÜK VƏ DOĞRUÇULUQ TƏRBİYƏSİNİN ROLU

***Гюлара Гусейнага Каримова***
*доктор философии по педагогике*
*Бакинский государственнный университет*

# РОЛЬ ВОСПИТАНИЯ ЧЕСТНОСТИ И ПРАВДИВОСТИ В ФОРМИРОВАНИИ НАЦИОНАЛЬНО-ДУХОВНОГО ДУХА УЧАЩИХСЯ

***Gulara Huseynagha Karimova***
*doctor of philosophy in pedagogy*
*Baku State University*

# THE ROLE OF UPBRINGING OF HONESTY AND TRUTHFULNESS IN THE FORMATION OF NATIONAL-SPIRITUAL SPIRIT OF STUDENTS

**Xülasə.** Şagirdlərdə milli-mənəvi ruhun formalaşdırılmasında önəmli rol oynayan milli-mənəvi dəyərlərin öz yeri vardır. Məqalədə milli-mənəvi dəyərlərimizdən sayılan düzlük və doğruçuluq tərbiyəsindən bəhs olunmuş, şagirdlərin bu ruhda tərbiyəsi imkanları göstərilmişdir. Eyni zamanda düzlük və doğruçuluğun komponentləri, onun atributları şərh olunmuşdur. Göstərilmişdir ki, müasir dövrdə düz adam hansı keyfiyyətləri ilə fərqlənir və onun xüsusiyyətləri nədən ibarətdir. Öyrənilən problemlə bağlı görkəmli pedaqoq alimlərin fikirlərinə müraciət olunmuş, oradan nümunələr gətirilmişdir.
***Açar sözlər:*** *milli, mənəvi, dəyər, şagird, düzlük, doğruçuluq, inam, validеyn*

**Резюме.** Свое место имеют национально-нравственные ценности, которые играют важную роль в формировании национально-нравственного духа у студентов.В статье говорится о воспитании честности и правдивости, которое считается одной из наших национальных и нравственных ценностей, и показаны возможности воспитания школьников в этом духе. При этом объяснялись составляющие прямолинейности и правдивости, ее атрибуты. Показано, какими качествами обладает натурал в современности и каковы его характеристики. Были обращены мнения видных ученых-педагогов по изучаемой проблеме, и приведены примеры оттуда.
***Ключевые слова:*** *народ, нравственность, ценность, ученик, честность, правдивость, вера, родитель*

**Summary.** National-moral values, which play an important role in the formation of national-moral spirit in students, have their place.The article talks about the education of honesty and truthfulness, which is considered one of our national and moral values, and shows the possibilities of educating students in this spirit. At the same time, the components of straightness and truthfulness, its attributes, were explained. It has been shown what qualities a straight man has in modern times and what are his characteristics. The opinions of eminent pedagogic scientists regarding the studied problem were addressed, and examples were brought from there.
***Key words:*** *people, morality, value, student, honesty, truthfulness, faith, parent*

Tərbiyənin təməli millilik zəmini üzərində qurulur. Onun təşkili *və* həyata keçirilməsi vətəndaşın gələcək normal inkişafını təmin edir. Milyon illərin təcrübəsindən irəli gələn bu fikir elmi pedaqogikada özünə hüquqi yer qazandırmışdır. Aristotel, Sokrat, H.Bəhmənyar, N.Tusi,

N.Gəncəvi, M.M.Nəvvab, M.T.Sidqi və s. görkəmli şəxsiyyətlər bu məsələləri əsərlərində bu və ya digər dərəcədə əsaslandırmışlar. Sistemli olmasa da, bu problemin elmi əsaslarını şərh edə bilmişlər.

Xalqın tarixi köklərindən süzülüb gələn milli-mənəvi dəyərlərindən biri düzlük və doğruçuluqdur. Doğru olmaq, mövcud həqiqətləri, obyektiv gerçəklikləri olduğu kimi görməkdir, onu bilmək və başqalarına eyni ilə çatdıra bilməkdir. Xalqımız özünün milli tərbiyəsində doğruçuluq və düzlüyə xüsusi diqqət vermiş və onun əhəmiyyətini qeyd etmiş, ali keyfiyyət kimi nəsillərə çatdırmağa çalışmışlar. Doğruçuluq əxlaqın çəki vahidi, milli-mənəvi dəyərlərimizin əsas anlayışlarından biridir. Tarixən insanlar doğruçu və düzlüyü ilə daim dəyərləndirilmiş və hörmətlilik rəmzinə çevrilmişdir. Belə adamlar el arasında sözüdüz, əməli saf, əqidəsi təmiz şəxs kimi dəyərləndirilirlər. Təsadüfi deyildir ki, xalqın tarixi qaynaqlarından sayılan el ədəbiyyatında bu məsələyə geniş yer verilmişdir. “Doğruya zaval yoxdur”, “Doğru yolla gedən yorulmaz”, “Düzlük dost qalasıdır” və s. bu qəbildəndir.

Aparılan araşdırmalar onu deməyə əsas verir ki, təbiətdə, cəmiyyətdə və insan təfəkküründə baş verən dəyişiklikləri, onların səbəblərini öyrənmədən, bilmədən fikir söyləmək qəbahət sayılır. Çünki, həqiqi olmayan fikirləri dinləyənlər onları həqiqət kimi qəbul edə bilərlər. Bu isə insanların həqiqətdən uzaq düşməsinə imkan yarada bilir. Ona görə də insanlar doğruçuluq və düzlük mənəvi tərbiyənin sahibi olmaları ilə xalqın gözlərində yüksəlmiş ola bilirlər. Deməli, doğruçuluğun əsas şərtlərindən biri hadisələr, cisimlər, insanlar haqqında düzgün məlumatlar toplamaq, obyektiv, düzgün nəticələr çıxarmaqdır. Başqa formada desək, həqiqi elmə yiyələnməkdir.

Prof. Z.Qaralov deyirdi: “Həqiqi elmi, biliyi olmayan bir şəxs hadisələri öz başa düşdüyü (ağlına gələn) şəkildə şərh etməyə səy göstərəcək, beləliklə də adamları çaşdıracaqdır. Belə adamlar yalançılardır”. (3, s. 132). Doğruçuluq tərbiyəsi dedikdə, əsasən düz danışmaq, həqiqətləri təhrif etmədən başqalarına çatdırmaq bacarığını formalaşdırmaq nəzərdə tutulur. Düzlük və doğruçuluq milli-mənəvi dəyərləri həm də ümumbəşəri xarakteri daşıyır. Lakin bu dəyərlər Azərbaycan xalqının mənəviyyatının ən başlıca göstəricilərindəndir. A.Bakıxanov yazırdı:

*Düzlükdən qüdrətli bir dövlət yoxdur,*
*Ey Qüdsi, düzlükdə səadət çoxdur”*
(2, s. 107).

Doğruçuluğun əsasında inam dayanır. İnam olmasa insanlar hər şeyə şübhə ilə yanaşar, tez-tez öz fikrini dəyişər, mövqeyini müəyyən edə bilməz. İnam olarsa insan tərəddüd etmədən, çəkinmədən fikrini ifadə edə bilər. İnam düzgün olarsa insanın doğruçuluğu şübhə altında olmaz. Böyük Nizami düzlüyü doğruçuluğun təməl daşı, ürəyin düz olmasını isə ədalətin əsası hesab edirdi. İnsanları düzlüyə çağıran Nizami Gəncəvi deyirdi:

*Əyri gülü tikan qucar, aldadar.*
*Bil ki şəkər qamışı düzlüyündən bal dadar”*
(6, s. 196).

Düzlük və doğruçuluğun bir sıra komponentləri vardır. Bu sıraya daxildir:

– Valideyn doğruçuluğu. Uşağın qəbul etdiyi ilk şirin səs valideyn nitqidir. Valideynin nəvazişli sözləri, səsləri, qayğısı altında uşaqlar böyüyür, valideynləri ən müqəddəs varlıq kimi qəbul etdikləri üçün böyüdükcə onların sözlərinə inanır və o sözləri varlıqlarına köçürürlər. Valideyn necə danışırsa, hərəkət edirsə uşaq onun daşıyıcısına çevrilirlər. Uşaqları düzgün tərbiyə etmək üçün ailə düzlük-doğruçuluq abuhavasını ailədə yaratmağı vacib məsələ saymalıdır. Bunun üçün ailədə ilk növbədə qarşılıqlı hörmət, səmimiyyət, etibar və inam hissi yaradılmalıdır. Belə olan halda ailədə düzlük və doğruçuluğun olması qaçılmazdır. Digər tərəfdən ailədə inamsızlığa, sərtliyə, qorxuya, xudbinliyə yol verilməməlidir. Digər tərəfdən, əgər ailədə yalan danışmağın olduğunu gördükdə onun həmin an üstünü açmamalı, üsyankarcasına onu açıqlamamalı, yalan danışana onun aydın göründüyünü tədricən başa salmaq lazımdır.

– Müəllimin doğruçuluğu. Bildiyimiz kimi müəllim məktəbdə aparıcı qüvvə, əsas simadır. Buna görə də müəllim daim şagirdlərə nümunədir. Müəlliminə yaxından bələd olan şagird onun səmimiyyətinə, düzlüyünə hörmət edir, ona oxşamağa çalışır. Müəllimin istər dərsdə, istərsə də dərsdən sonrakı tədbirlərdə sözündə düzlüyü, doğruçuluğu, hərəkətində onlara sadiqliyini ifadə etməsi şagirdlərin bu ruhda tərbiyə olunmalarına stimul verir.

– Dostlarının doğruçuluğu. Şagirdin ünsiyyət qurduğu şəxslərdən biri də dostlarıdır. Dostunu düzlükdə, doğruçuluqda sınayan şagird özünün prototipini gördükdə ona sadiq olur və əsl dostunu tapdığına sevinir. Bir-birinə hörmətlə yanaşır və işə çəkinmədən birlikdə rəvac verirlər.

– Sosial həyatda doğruçuluq. Təbiidir ki, düz və doğruçu olan adamlar bütün illərdə irəli çəkilir, tez-tez tərifllənir, gördükləri işlər işıqlandırılır, onların xidmətləri dəyərləndirilir. Düzlük və doğruçuluğun daşıyıcısı olan şəxs onların fəaliyyətinə verilən dəyərlərdən qürurlanır, yaxınlarını da belə görməyə çalışırlar. Onlar bilirlər ki, düzlük və doğruçuluq şöhrətə və hörmətə gedən yoldur. Bu baxımdan da ailədə böyütdükləri uşaqların da bu ruhda tərbiyə olunmalarına və bu ruhda böyüməlarinə çalışırlar. Nizami Gəncəvi doğru danışanları möhtəşəm şəxs hesab edirdi. Doğruçuluq azərbaycanlıların müqəddəs kredosudur. Fikrimizi fransız yazıçısı Aleksandr Dümanın "Qafqaz" kitabından gətirdiyimiz bir nümunə ilə aydınlaşdıraq: O, göstərirdi ki, Bakıda üç xalqın arasında azərbaycanlılar sözübütövlükdə, düzlükdə seçilən ən möhtəşəm xalqdır. O, yazırdı: "Farsla həmişə ehtiyatlı olun, onun tək imzası sizə inam yox, ehtimal verə bilər. Erməni biləndə ki, doğru söz demək ehtiyatsızlıqdı, bu ehtiyatsızlıq onu iflas edə bilər, dilsizə və saxtakara çevrilib dünənki himayədarı bu gün bərk ayaqdadırsa ona nankorluq edər. Tatarın – azərbaycanlının imzasına ehtiyac yoxdur. Bircə sözü bəs edər. Düzlüklə doğruçuluq bir-birindən ayrılmaz əkiz qardaşlardır. Onları bir-birindən ayrı götürmək və fərqləndirmək çox çətindir. Doğruçu adama çox zaman düz adam kimi yanaşılır və ya təhlil edilir. Düzlük saflıqdır, təmkinlilikdir. Düz adam nəfsinin toxluğu, müdrik fikirləri ilə hamının sevimlisinə çevrilir. Düz adam bir sıra keyfiyyətləri özündə birləşdirir. Bunlardan biri insaflı olmaqdır. İnsaflı adam halallığı gözləyən şəxsdir. Belə şəxs görülən hər bir işdə halallıq axtarır, həmişə şahidliliyini düşünür, insafsız olmaqdan qorxur. N.B.Vəzirov yazırdı: "Yer üzündə cənnət mümkündür, hərgah zəhər olsa, insaf olsa, vicdan olsa". "Quranın "Əl Bəqərə" surəsinin 280-ci surəsində göstərilir ki, əgər sizə borclu olan şəxs çətin vəziyyətdə olarsa, ona vəziyyəti yaxşılaşıncaya qədər möhlət verin. Əgər bilmək istəyirsinizsə borcu ona bağışlamağınız daha yaxşıdır". İnsaflı adam mənsəbindən, əqidəsindən, peşəsindən asılılığı inkar edir. Vəziyyətindən, gördüyü işlərdən asılı olmayaraq daim Allahdan qorxur. Düz şəxsin xarakter xüsusiyyətləri sırasında nəfs də mühüm yer tutur. Nəfis insanı çox halda pis əməllərə sövq etdirir. N.Tusi "Əxlaqi Nasiri" əsərində bu məsələyə geniş yer vermişdir. O, göstərdi ki, nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapmalıdır. Onu (günaha) batıran isə əlbəttə, ziyana uğrayandır. A.A. Bakıxanov övlad üçün mal-dövlət, pul, qızıl, altun yığan valideynləri ittiham edirdi. Atanın varı özü üçün və öz istedadı üçün yığılmışdır. O, dövlətdən oğula pay düşmür. Nəfisi tərbiyə etmək, onu şagirdlərə aşılamaq, şagirdləri gözütoxluğa, xeyirxahlığa, səxavətliliyə yiyələndirmək lazımdır. Sədi Şirazi göstərirdi ki,

*Kini razı salsan qul olar sənə,*
*Nəfsi razı salsan əsir olarsan.*

Düz şəxsin xarakter xüsusiyyətlərindən biri də şərəf və ləyaqət hissinin olmasıdır. Uzaq keçmişlərdə Azərbaycan torpağında məbədlərin qapısına iri hərflərlə insanlığa çağırış kimi səslənən kəlamı yazılmışdır. Kəlamlardan biri belə idi. Dünyaya vəkil edilmiş mələk deyir: dünyada xeyir də vardı, şər də. Elələri vardır ki, nə xeyirdir, nə də şərdir. Kim bu üç şeyin üçünü də lazım olduğu kimi tanısa, canını mənim əlimdən qurtaracaq və sağ qalacaqdır, tanımasa onu ən əziyyətli şəkildə öldürəcəyəm. Bu o deməkdir ki, mən onu tədriclə, yavaş-yavaş, uzun müddət içərisində məhv edəcəyəm. Bu kəlamları qeyd etməkdə məqsəd şagirdləri insanlığa, xeyirxahlığa, ədalətliliyə, şərəfli, ləyaqətli ömür sürməyə yönəltməkdən ibarət idi. Bunları erkən yaşlardan şagirdlərin malına çevirmək üçün onlarda möhkəm əqidə formalaşdırmaq lazımdır. Bu sırada namuslu olmaq mühüm şərtlədən biridir.

Namus insan saflığının, müdrikliyin, ləyaqətin nəhəng daşıdır. O, insanı düzlüyə, sözübütövlüyə, məsuliyyətliliyə, vicdanlı olmağa təhrik edir. Namus insanı daim paklığa, xeyirxahlığa, düz əməllərə sövq etdirir. Azərbaycanın böyük və tanınmış şairi M.Ə. Sabir "Uşaq və pul" şeirində namuslu olmağın insan üçün mühüm şərt olduğunu gündəmə gətirərək göstərir ki, uşaq qoca bir kişinin yoldan keçərkən yerə saldığı pulu görüb onu götürür və sahibinə vermək əvəzinə evə gətirir.

Bunu görən ana oğlunu nəsihət edərək vicdanlı, namuslu olmasına səsləyir. O, deyir:

*Gərçi pul çox fərəh fəzadır, oğul!*
*Leyk namus pak bahadır, oğul!*

Namusluluğun ifadə formaları abır, həya, ismətdir. Abır-həya Azərbaycan xalqının soykökündən gələn dəyərlərdəndir. Azərbaycanlılar öz geyimləri, danışıqları, yemək stolu arxasında, böyüklərlə münasibətində və s. özünü təzahür etdirir. Tarixən xalq öz milli geyimi ilə, üzlərini örpəyə bürüməklə bu keyfiyyəti təcəssüm etdirmişlər. Bu gün bu qeyd olunanlar kölgədə qalsa da, milli soykökümüzdən gələn bu dəyər özünü qoruyub saxlamaqdadır. Yenə də böyüklər danışanda kiçiklər susar, gəlinlər böyüklərin yanında övladlarına süd verməz, qucaqlarına alıb yedizdirmək, xoşagəlməyən sözlər işlətməzlər.

Abır-həyalı adam ağıl və hisslərinə əsaslanaraq oturub-durmağını, gülüşünün yerini, əl-qol ilə danışığını dərk edir, lüzumsuz hərəkətlərə yol vermir. Təsadüfi deyildir ki, xalq pedaqogikasında bu məsələyə geniş yer verilmişdir. Xalq demişdir: "Abır harda çörək orda", "Abrını abırsızdan saxla", "Abrını yeyib, həyəcanı da belinə bağlayıb", "Abırlı olmaq el-oba yanında üzü ağ olmaq deməkdir" və s. Düzlük və doğruçuluğu əks etdirən xüsusiyyətlərdən biri də alicənablıqdır. Uşaqların valideynlərlə qarşılıqlı ünsiyyəti, ailə üzvlərinin səmimi rəftarı həm də alicənablıq üzərində köklənir. Müəllimin şagirddə gördüyü ən kiçik nöqsanı belə görüb, onu böyük nöqsanla uzlaşdırıb çox şişirtməməsi, onun qüsurlarını görüb köməklik göstərilməsi alicənablığın formalarıdır.

Alicənab adamlarda geniş ürək, işıqlı təbəssüm, sözübütövlülük özünü açıq-aşkar göstərmiş olur. Onların başlıca məramı insanlar arasında əmin-amanlığı qorumaq, insanların firəvan yaşamasına sevinmək, ədalətli mövqe tutmaq, şərdən, pislikdən, paxıllıqdan uzaq olmaqdır. Düz adam mülayim, həlim, mehriban, səmimi, təvazökar, sadə və xeyirxah olur.

Aparılan araşdırmalar göstərir ki, doğruçuluq və düzlük tərbiyəsinin bir sıra cəhətləri vardır ki, onların məktəblilərə aşılanması zəruri məsələlərdən biridir. Bu sıraya daxildir:

- Sözlə əməlin vəhdəti doğruluğun atributlarındandır.
- Doğruluq milli-mənəvi dəyərlərdəndir.
- Doğruluq ağıla əsaslanır ki, o da adil insan olmağın ilkin şərtidir.
- İnsana doğru, insanlıq yolunu göstərən düzlükdür.
- Doğruçu adamın sözü ilə özü birdir.

Şagirdlərdə düzlük və doğruçuluq hisslərinin şagirdlərə necə aşılandığını öyrənmək məqsədilə orta məktəbin V-IX siniflərində dərs deyən ədəbiyyat, tarix, coğrafiya müəllimləri ilə sorğuların keçirilməsini məqsədəuyğun saydıq. İlk növbədə müəllimlərə "düzlük və doğruçuluq" anlayışını şagirdlərə necə aşılayırsınız? Sualı ilə müraciət etdik. Müəllimlərin cavabları çox da qaneedici olmasa da, fikirlərindən bu problemi az-çox mənimsəmələri, yeri gəldikcə onlardan qaynaqlana bilmələri aydın göründü. Lakin dərsdə onları necə tətbiq etmələri haqda heç bir söz demək istəmədilər. Buradan belə qənaətə gəlmək olur ki, müəllimlər düzlük və doğruçuluğun mahiyyətini bilsələr də, onu şagirdlərin təfəkkür məhsullarına çevirmələri haqda heç fikirləşməmişlər.

Aparılan araşdırmalardan belə qənaətə gəlinmişdir ki:

- Şagirdlərin milli-mənəvi dəyərlərə məhəbbət ruhunda tərbiyə olunmaları üçün düzlük və doğruçuluğu daim gündəmdə saxlamaq lazımdır.
- Düzlük və doğruçuluğun insanın başıuca olmasında əsas şərt olması şagirdlərə başa salınmalıdır.
- "Düz adam kimi hesab etmək olar" – fikri ilə uşaqlara müraciət etməli və onların mahiyyətini şagirdlərə öyrətmək lazımdır.
- Problem baxımından özlərini xarakterizə etmələrinə şərait yaradılmalıdır.
- Uşaqlarda düzlük və doğruçuluğun tərbiyə edilməsi üçün bütün vasitələrdən maksimum istifadə edilməlidir.
- Uşaqlarda düzlük və doğruçuluğun tərbiyə edilməsi üçün nümunələr gətirilməli, bu xüsusiyyətləri daşıyan şəxslərlə şagirdlərin ünsiyyətinə nail olunmalıdır.

**Problemin aktuallığı.** Tarixin inkişafı gedişində insanların intellektual səviyyələri xeyli artmış, iqtisadi və sosial şəraitlər müxtəlif tarixi mərhələlərdə artıb-azalmış, məktəblərin və müəllimlərin, tərbiyə müəssisələrinin sayı və şəbəkələri genişlənmiş, məktəb və ailələrin tərbiyə vasitələri sırasına yeni informasiya vasitələri qoşulmuşdur. Bütün bunlar, bö-

yüyən nəslin təlim-tərbiyəsinə əsaslı təsir göstərmiş və göstərməkdədir. Məhz bu baxımdan uşaqların milli-mənəvi dəyərlər ruhunda tərbiyəsinin daim gündəmə gətirilməsi aktual və vacib məsələlərdən biri sayılmışdır. Milli-mənəvi ruhun formalaşmasına təsir göstərən dəyərlərimizin öyrənilməsi zəruri məsələlərdəndir. Çünki, milli-mənəvi dəyərləri ilə xalq seçilir, tanınır. Onun böyüyən nəslin yaddaşında yaşatmaq əsas məsələlərdəndir. Milli-mənəvi ruhun şagirdlərdə formalaşdırılmasında milli-mənəvi dəyərlərimiz önəmli yer tutur.

**Problemin yeniliyi.** Məqalədə düzlük, doğruçuluq tərbiyəsinin ali keyfiyyətlərdən biri olduğu əsaslandırılmış, onun başlıca şərtləri açıqlanmış və ümumiləşdirilmişdir. Eyni zamanda şagirdlərdə düzlük və doğruçuluq tərbiyəsinin həyata keçirilməsinin imkan və yolları müəyyənləşdirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə yeniləşən dünyamızda yeniyetmələrin formalaşdırılması işində müəllim və ailəyə köməklik göstərə biləcək, həmçinin bu sahədə tədqiqat aparanlar üçün mənbə rolunu oynaya biləcəkdir. Dərslik və dərs vəsaitlərinin tərbiyə nəzəriyyəsi bilməsinin məzmununun zənginləşməsində gərəkli material olacaqdır.

## Ədəbiyyat


1. Abbasov A, L.Məmmədli, İ.Əmirəliyeva. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik. – Bakı: Mütərcim, – 2022. – 464 s.
2. Bakıxanov A. Bədii əsərləri. – Bakı: Azərnəşr, – 1973.
3. Qaralov Z. Tərbiyə. II cild. Bakı, – 2003.
4. Qasımova L, Mahmudova R. Pedaqogika: Ali təhsil müəssisələri üçün dərslik. Bakı, – 2021.
5. Qasımova L.N Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. Bakı, – 2004.
6. Nizami Gəncəvi. Lirika, Sirlər xəzinəsi, Şərəfnamə. Bakı, – 1988.
7. Fətəliyev X. Ailədə milli tərbiyə. Bakı, – 1966.


**E-mail:** mansur.manerov@mail.ru

**Rəyçilər:** *ped.elm.dok., prof.* **L.N. Qasımova,**
*ped.ü.fəls.dok., dos.* **N.B. İmamverdiyeva**
**Redaksiyaya daxil olub:** 06.12.2023

UOT 371

**Gülbəniz Adil qızı Həsənova**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi
Orcid:0009-0000-3654-8463

# FİZİKİ TƏRBİYƏNİN MAHİYYƏTİ, ƏHƏMİYYƏTİ VƏ VƏZİFƏLƏRİ

**Гюльбениз Адиль гызы Гасанова**
старший преподаватель
Азербайджанского Государственного Педагогического Университета

# СУЩНОСТЬ, ЗНАЧЕНИЕ И ЗАДАЧИ ФИЗИЧЕСКОГО ВОСПИТАНИЯ

**Gulbeniz Adil Hasanova**
senior lecturer at
Azerbaijan State Pedagogical University

# THE ESSENCE, IMPORTANCE AND TASKS OF PHYSICAL EDUCATION

**Xülasə.** Elmi məqalədə ilkin olaraq fiziki tərbiyənin mahiyyəti açıqlanmışdır. Daha sonra fiziki tərbiyənin başlıca yollarından biri olan səhər gimnastikası və onun şagirdlər və tələbələr üçün zəruriliyi irəli sürülmüşdür. Bədən tərbiyəsi məşğələləri və onun dərəcələri göstərilmişdir. İnsan orqanizmini fiziki cəhətdən möhkəmləndirən idmanın növləri: futbol, voleybol, basketbol, badminton, tennis, xokkey, ağırlıqqaldırma, güləş, üzgüçülük və onların təşkili qaydaları izah olunmuşdur. İnsan orqanizminin möhkəmləndirilməsində və bir sıra faydalı mənəvi keyfiyyətlərin formalaşdırılmasında milli oyunların əhəmiyyəti göstərilmişdir. Sağlamlığın möhkəmləndirilməsinə, fiziki bacarıq və keyfiyyətlərin gənc nəslə aşılanmasına yardım vasitələrinin faydaları göstərilmişdir.
***Açar sözlər:*** *fiziki, idman, oyun, tərbiyə, təlim, turizm*

**Резюме.** В научной статье раскрыта сущность физического воспитания. Выдвинута идея утренней гимнастики, являющейся одной из основных способов физического воспитания, и ее необходимости для школьников и студентов. Указаны классы физического воспитания и их степени. Изложены виды спорта, укрепляющие организм человека физически: футбол, волейбол, баскетбол, бадминтон, теннис, хоккей, тяжелая атлетика, борьба, плавание и правила их организации. Показано значение национальных игр в укреплении организма человека и формировании ряда полезных нравственных качеств. Показана польза средств для укрепления здоровья, привития подрастающему поколению физических навыков и качеств.
***Ключевые слова:*** *физический, спорт, игра, воспитание, тренировка, туризм*

**Summary.** The essence of physical education is explained in the scientific article. Then morning gymnastics, which is one of the main ways of physical education, and its necessity for pupils and students were put forward. Physical education classes and their degrees are indicated. Types of sports that strengthen the human body physically: football, volleyball, basketball, badminton, tennis, hockey, weightlifting, wrestling, swimming and the rules of their organization are explained. The importance of national games in strengthening the human body and forming a number of useful moral qualities has been shown. The benefits of aids for strengthening health, imparting physical skills and qualities to the young generation have been shown.
***Key words:*** *physical, sport, game, education, training, tourism*

Azərbaycan xalqı tarixən fiziki cəhətdən möhkəm olmağa cəhd edən, ağlı ilə gücünü birləşdirib mübarizə aparan xalq olmuşdur. Fiziki tərbiyə anlayışı bir anlayış olaraq pedaqoji ədəbiyyatda əsasən " bədən tərbiyəsi" və " fiziki tərbiyə" şəklində işlənmişdir. Keçmiş SSRİ dö-

nəmində bu anlayış rus ədəbiyyatında “telesnoe vospitaniye” “fiziçeskoe vospitaniye”, “fiziçeskoe kultura” şəklində işlənmişdir. Bu terminlərin təsiri altında da Azərbaycan pedaqoji ədəbiyyatında “bədən tərbiyəsi” “fiziki tərbiyə” “fiziki mədəniyyət” anlayışları işlənmişdir. Fiziki tərbiyə ilə əlaqədar olan dərslər, məşğələlər isə bir qayda olaraq “İdman dərsi”, “idman məşğələləri”, “bədən tərbiyəsi dərsi”, “bədən tərbiyəsi məşğələləri”, “fiziki mədəniyyət məşğələləri” şəkilində izah edilmişdir. F. Sadıqov yazır: “Fiziki tərbiyə tərbiyənin tərkib hissələrindən biri olub yetişən nəslin sağlam, çevik, cəld, dözümlü, qıvraq, möhkəm, güclü, sürətli, elastik, qüvvətli, qaməti şux, yaraşıqlı, əzmkar, qələbəsevər, cəsur, yarışmağı sevən, məğlubedilməz kimi keyfiyyətləri özündə əks etdirən adamlar kimi böyüməsini, ən ümdəsi kamil bir şəxsiyyət kimi formalaşmasını təlqin edir”. (4, s. 429)

Fiziki tərbiyə qarşısındakı vəzifələr bir sıra yollar və vasitələrlə icra olunur. Fiziki tərbiyənin başlıca yolları bunlardır: səhər gimnastikası, bədən tərbiyəsi məşğələləri, idman və milli oyunlar.

Səhər gimnastikası həm bəzi uşaq bağçalarında, həm məktəbdə, həm də ailə şəraitində təşkil edilir. Ümumtəhsil məktəblərində dərs başlayana qədər məktəbin həyətində şagirdlər idman müəlliminin rəhbərliyi altında səhər gimnastikası ilə məşğul olurlar. Səhər gimnastikası hamıya, o cümlədən şagirdlər və tələbələr üçün də zəruridir. Yaşadığı yerdən asılı olmayaraq hər kəs səhər gimnastikası ilə məşğul olmalıdır. Təcrübə göstərir ki, səhər gimnastikası idman alətləri ilə də, alətsiz də mümkündür.

Sevindirici haldır ki, Azərbaycanın bütün təhsil müəssisələrində bədən tərbiyəsi bir fənn kimi tədris olunur. Bədən tərbiyəsi məşğələləri ümumtəhsil məktəblərində yaş dövrləri üzrə təşkil edilir və dörd dərəcəyə bölünür. Birinci dərəcə “Yürüşə hazıram” adlanır və I-IV sinif şagirdlərini, ikinci dərəcə “Cəsurlar və cəldlər” adlanır və V-VII sinif şagirdlərini, üçüncü dərəcə “İdman sahəsində əvəzçilər” adlanır və VIII-IX sinif şagirdlərini, dördüncü dərəcə “Qüvvət və igidlik” adlanır və X-XI sinif şagirdlərini əhatə edir.

Fiziki tərbiyənin təsirli yollarından biri də idmandır. İnsan orqanizmini fiziki cəhətdən möhkəmləndirən idmanın növləri isə çoxdur: futbol, voleybol, basketbol, badminton, tennis, xokkey, ağırlıqqaldırma, güləş, üzgüçülük və s.

İnsan orqanizminin möhkəmləndirilməsində və bir sıra faydalı mənəvi keyfiyyətlərin formalaşdırılmasında milli oyunların rolu az deyil. Uşaqlarımız, yeniyetmə gənclərimiz arasında geniş yayılmış milli oyunlarımızı şərti olaraq iki qrupa ayırmaq olar: qrup halında oyunlar. “Vur nağara, çıx qırağa”, “Əl üstə kimin əli”, “Bənövşə bəndə düşə”, Gizlənpaç”, Dəsmal aldı qaç”, Dirədöymə”, Beş Daş”, “Evcik-evcik”, “Üstən hoppanma” kimi milli oyunlar birinci qrupa aiddir. Bu cür oyunlar iştirakçılarda fiziki bacarıqların və fiziki keyfiyyətlərin formalaşmasına, habelə ətraf mühitin diqqətlə öyrənilməsinə, görüş dairəsinin genişlənməsinə kömək edir.

Məlumdur ki, təlim prosesi uşaqlardan gərgin zehni fəaliyyət tələb edir, müəyyən təlim saatlarından sonra uşaqlarda zehni yorğunluq əmələ gəlir. Bu baxımdan açıq havada keçirilən oyunlar da mühüm əhəmiyyət daşıyır. Belə ki, oyun uşaqlarda dərketmə, qavrama, yadda saxlama, nəticə çıxarma, qərar qəbuletmə, təhlil etmə kimi mühüm keyfiyyətlər tərbiyə edir. Oyunların əksəriyyəti tapşırıq səviyyəli və komandalı oyunlardır. ”Şən startlar” da və digər yarışlar zamanı keçirilən oyunlarda bir komandanın tərkibində ayrı-ayrı məktəblərin, yaxud siniflərin şagirdləri oynayırlar. Bu tədbirlərdə onları bir məqsəd birləşdirir, yaxşı, əlbir səy göstərmək, öz kollektivinə qələbə qazandırmaq, məktəbinin şərəfini qorumaq. Bununla bağlı olaraq B. Quliyev yazır:” Uşaqlar qovur, qaçır, tullanır, hoppanır, sürünür, axtarır. Bu zaman onlarda diqqət, qavrama, eşitmə, görmə, cəldlik, çeviklik, dözümlülük, qətiyyət, mətanət və s. keyfiyyətlər aşılanır. Vaxt keçdikcə bu keyfiyyətlər inkişaf edir, təkmilləşir. “ ( 2,s. 10)

Sağlamlığın möhkəmləndirilməsinə, fiziki bacarıq və keyfiyyətlərin gənc nəslə aşılanmasına yardım vasitələri bunlardır: gün rejimi, turizm, təbii amillər, zərərli adətlərə qarşı mübarizə, psixoloji amillərin nəzərə alınması.

Gün rejimi müxtəlif rejimlərin: yemək rejiminin, yuxu rejiminin, iş (təhsil) rejiminin, istirahət rejiminin, idman rejiminin, gigiyena rejiminin birliyindən əmələ gəlir. Hər gün eyni vaxtda yuxudan qalxmaq və eyni vaxtda yatmaq: hər gün eyni vaxtda səhər gimnastikası ilə məşğul olmaq; hər gün eyni vaxtda səhər, eyni vaxtda axşam yeməyinə əyləşmək; hər gün eyni vaxtda işə (məktəbə) getmək; hər gün eyni vaxt-

da istirahət etmək; hər gün eyni vaxtda yuyunmaq və dişləri təmizləmək və s.

Turizm fransızca gəzinti, səfər deməkdir. Azərbaycan dilində də həmin mənada işlədilir. Turizm adamın fiziki inkişafına yardım edir, doğma təbiətlə, vətənimizin görməli yerləri ilə tanış olmağa imkan yaradır, əhvalını yaxşılaşdırır, müşahidəçilik qabiliyyətini gücləndirir. Turizm bu cur geniş inkişaf imkanlarına malik olduğunu hər bir şəxsin, xüsusən hər bir gəncin bilməsi və bu imkanlardan istifadə etməsi özünün xeyrinədir.

Təbii amillərin: suyun, havanın və günəşin (günəş şüalarının) fiziki sağlamlığa bilavasitə dəxli var. Təmiz içməli suyun orqanizm üçün əhəmiyyətini isbat etməyə ehtiyac yoxdur. Çirkli su isə xəstəliklər mənbəyidir. Vaxtlı-vaxtında çimmək, səhərlər bədəni yaş dəsmalla silmək sağlamıq üçün zəruridir.

Təsadüfi deyildir ki, ata-babalarımız milli oyunları açıq havada, həmdə musiqi sədaları altında keçirmişlər. Nəticədə hava amili fiziki və estetik amillərə qovuşmuşdur.

Su və hava amilləri günəş amili ilə birləşdirildikdə isə insan orqanizminə onların sağlamlaşdırıcı təsiri xeyli artır. Bu səbəbdən də insanlar xüsusən yay aylarında çay, göl və dəniz kənarlarına tez-tez gedir və günəş vannası qəbul edirlər.

Təbii amillər tədris müəssisələrində də nəzərə alınmalıdır: sinif otaqlarına günəş şüaları düşməli, otaqların havası təmiz olmalı, bina su ilə normal təmin edilməlidir.

Fiziki tərbiyə qarşısında duran vəzifələrdən biri də sağlamlığa ziyan vuran adətləri dəf etməkdən ibarətdir. Sağlamlığın düşmənləri arasında alkoqollu içkiləri, narkomaniyanı, qəmqüssəni, əsəbliliyi, düşünməmiş qidalanmağı xüsusi qeyd etmək lazımdır.

**Problemin aktuallığı.** Ölkəmizdə xalqın, millətin fiziki mədəniyyəti inkişafa doğru müsbət bir yönüm almış, milli xüsusiyyətlərin, milli-mədəni dəyərlərin mühüm vasitəsi olan fiziki tərbiyə, idman və oyunlar tərəqqi etmiş, gənclərimiz kütləvi surətdə bu işə cəlb olunmuşdur. İdmançılarımızın Dünya və Avropa çempionatlarında, Olimpiya oyunlarda, beynəlxalq Qran-Pri yarışlarında, I Avropa oyunlarında uğurları Azərbaycana şan-şöhrət gətirməklə, həm də onun idman dövləti olmasını dünyaya tanıtdırmışdır.

**Problemin yeniliyi.** Elmi məqalədə fiziki tərbiyənin başlıca yollarından biri olan milli uşaq oyunlarının məqsədi, vəzifələri, məzmunu, eləcə də fiziki tərbiyənin sağlamlığın möhkəmləndirilməsinə, fiziki bacarıq və keyfiyyətlərin gənc nəslin aşılanmasına yardım vasitələri: gün rejimi, turizm, təbii amillər, zərərli adətlərə qarşı mübarizə, psixoloji amillərin nəzərə alınması da öz əksini tapmışdır.

**Problemin praktik əhəmiyyəti.** Elmi məqalədə irəli sürülmüş dəyərli fikirlərdən elmi-tədqiqat işlərində, fənn kuriklulumlarının təkmilləşdirilməsində, təhsil müəssisələrində, sağlamlıq, kütləvi idman tədbirlərində, asudə vaxtlarda, ailə şəraitində, gəzinti və ekskursiyalarda məktəblilərin idraki və hərəki fəaliyyətlərini artırmaqla şəxsiyyət kimi formalaşdırılmasında istifadə etmək olar.

**Ədəbiyyat:**


1. Həşimov, Ə.Ş. Azərbaycan xalq pedaqogikası. / Ə.Ş. Həşimov, F. B. Sadıqov. – Bakı: Patronat, – 1993. – 275 s.
2. Quliyev, B.S. Azərbaycan milli uşaq oyunları: Monoqrafiya. / B.S. Quliyev. – Bakı: Xəzər Universiteti, – 2016. – 144 s.
3. Müslümov, Z. Pedaqoji təmayüllü ali məktəb tələbələrinin mənəvi tərbiyəsi / Z. Müslümov. – Bakı: – 1996. – 90 s.
4. Sadıqov, F.B. Pedaqogika. Dərs vəsaiti. / F.B.Sadıqov. – Bakı: Adiloğlu, – 2009. – 600 s.


**E-mail:** gulbeniz.hasanova@bk. ru
**Rəyçilər:** *ped.elm.dok., prof.* **Ə.Ə. Mehdiyev**
*ped.ü.fəls.dok.* **L.İ. Əsgərov**
**Redaksiyaya daxil olub:** 10.10.2023

***Aytən İlqar qızı Nağızadə***
*Cəmşid Naxçıvanski adına Hərbi liseyin ingilis dili müəllimi,*
*Milli Müdafiə Universitetinin Hərbi Elmi Tədqiqat İnstitutunun adyunktu*
*https://orcid.org/0009-0006-7387-1212*

# DÖVLƏT MÜSTƏQİLLİYİNİ ŞƏRTLƏNDİRƏN ƏSAS AMİLLƏRDƏN BİRİ KİMİ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN QORUNMASI VƏ GƏNC NƏSLƏ AŞILANMASI

***Айтен Ильгар гызы Нагизаде***
*учитель английского языка Военного лицея имени Джамшида Нахчыванского,*
*адъюнкт Военного научно-исследовательского института национального университета обороны*

# ЗАЩИТА И ПРИВИТИЕ МОЛОДОМУ ПОКОЛЕНИЮ НАЦИОНАЛЬНО-НРАВСТВЕННЫХ ЦЕННОСТЕЙ КАК ОДИН ИЗ ГЛАВНЫХ ФАКТОРОВ, ОБУСЛАВЛИВАЮЩИХ НЕЗАВИСИМОСТЬ ГОСУДАРСТВА

***Ayten Ilgar Naghizader***
*English teacher at the Military Lyceum named after Jamshid Nakhchivan,*
*adjunct of the Military Research Institute of the National Defense University*

# PROTECTION AND PROTECTION OF THE YOUNG GENERATION OF NATIONAL AND PEOPLE'S VALUES AS ONE OF THE MAIN FACTORS DETERMINING THE INDEPENDENCE OF STATES

**Xülasə.** Məqalədə dövlət siyasətində mühüm rol oynayan amillərdən biri olan milli-mənəvi dəyərlərdən söz açılmışdır. Ümummilli lider Heydər Əliyevin milli-mənəvi dəyərlərə verdiyi önəmdən danışılmışdır. Milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə ötürülməsi ön plana çəkilmişdir.
***Açar sözlər:*** *milli-mənəvi dəyərlər, müstəqillik, cəmiyyət, tarix, siyasət, gənc nəsil*

**Резюме.** В статье повествуется о национально-нравственных ценностях, которые являются одним из факторов, играющих важную роль в государственной политике. Обсуждалось значение общенационального лидера Гейдара Алиева для национальных и нравственных ценностей. Приоритетом является защита национальных и моральных ценностей и их передача подрастающему поколению.
***Ключевые слова:*** *национально-нравственные ценности, независимость, общество, история, политика, молодое поколение*

**Summary.** The article talks about national and moral values, which are one of the factors that play an important role in state policy. The national leader Heydar Aliyev's importance given to national and moral values was discussed. The protection of national and moral values and their transmission to the younger generation has been prioritized.
***Key words:*** *national moral values, independence, society, history, politics, the younger generation*

Müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda böyük nailiyyətlərə, mütərəqqi dəyişikliklərə yol açsa da, bu proseslərin tarixi-mədəni irsə, ənənələrə müəyyən təhlükə meylləri də özünü qabarıq göstərir. Milli-mənəvi dəyərləri qorumaq və onları gələcək nəsillərə ötürmək, dəyişən və dəyişməyən dəyərlərlə bağlı məsələlər bütün dövrlərdə fəlsəfi fikrin diqqət mərkəzində dursa da, müasir dövrdə onları tədqiq etməyin aktuallığı daha da artır. Hər bir insan və hər bir millət hər şeydən əvvəl öz xalqının milli-mənəvi dəyərlərinə sahib çıxmalı, öz mədəniyyətini, adət-ənənəsini, mentalitetini qorumalıdır.

Azərbaycan Respublikası milli müstəqilliyinə nail olaraq, beynəlxalq aləmin tam və bərabər hüquqlu üzvü kimi müstəqil daxili və xarici siyasət xəttini həyata keçirməkdədir. Əvəzsiz ta-

rixi nailiyyətimiz olan ərazi bütövlüyümüzün tam bərpa olunmuş və o zamana qədər dövlət suverenliyimizin demokratik, hüquqi dövlət quruculuğu istiqamətində əsaslı islahatlar aparılmış, sivilizasiyalı beynəlxalq aləmə inteqrasiya sahəsində mühüm siyasi-iqtisadi tədbirlər görülmüşdür. Ölkəmizdə həyata keçirilən demokratikləşdirmə prosesinin dönməzliyi, dövlət müstəqilliyinin qorunub saxlanılması, cəmiyyətdə beynəlxalq prinsiplərin və hüquqi normaların bərqərar edilməsi Azərbaycan Respublikasının daxili və xarici siyasətinin başlıca istiqamətlərindəndir. Sözsüz ki, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, vətəndaşların hüquq və azadlıqlarının beynəlxalq standartlara uyğun olaraq tənzimlənməsi, gənc nəslin milli-mənəvi dəyərlərə bağlı şəkildə yetişdirilməsi bu siyasətin üstün istiqamətidir. Bunsuz cəmiyyətdə ictimai-siyasi sabitliyə, demokratik birgə yaşayışa nail olmağın, eyni zamanda sivilizasiyalı dünyaya qovuşmağın mümkünsüzlüyü müasir Azərbaycan siyasətində aydın dərk olunur və bu sahədə mühüm, ardıcıl tədbirləri həyata keçirir. [6, s. 160]

Azərbaycanın milli maraqlarının qorunmasını təmin edən digər strateji amil xalqımızın milli həmrəyliyinin təmin olunmasıdır. Tam yəqinliklə deyə bilərik ki, qısa müstəqillik tarixində ölkəmizin uğurlu inkişafını şərtləndirən amillər sırasında cəmiyyətdəki həmrəylik, milli birlik müstəsna rol oynayıb. Azərbaycan dövlətinin ideoloji təməl prinsipini xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyası təşkil edir. O, ölkəmizə rəhbərlik etdiyi 34 illik bir vaxt ərzində Azərbaycanın hərtərəfli inkişafı, qüdrətlənməsi, əzəmətli yüksəliş yolu keçməsinə nail olmuş, xalqımızın və dövlətimizin müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində fəaliyyət göstərmiş, müasir dövr və gələcək onilliklər, yüzilliklər üçün böyük əhəmiyyət kəsb edən strateji xəttinin işlənib hazırlanmasına nail olmuşdur. [1, s. 11].

Müdrik dövlət xadimi Heydər Əliyev azərbaycançılığı gənc dövlətimizin ideoloji əsası kimi müəyyənləşdirərkən milli maraqları əsas götürüb. Azərbaycançılıq ölkə vətəndaşlarını, əlalxüsus da gəncləri dövlət maraqları, ümummilli mənafe, Vətənə məhəbbət, tarixdən gələn ənənələrə, bizim bir xalq kimi identikliyimizi şərtləndirən amillərə sədaqət ruhunda tərbiyə edən dəyərlər sistemidir. Zəngin dəyərlər sistemi olan azərbaycançılıq ideologiyasının ölkənin hər bir vətəndaşına sirayət etməsi son nəticədə Azərbaycanın gücünü artırır, cəmiyyətin enerjisini ümummilli məqsədlərə, inkişafa yönəldir. Dünyada gedən proseslərlə müqayisələr apardıqda Azərbaycandakı mənzərənin, sabitliyin və vətəndaş həmrəylinin necə böyük əhəmiyyət daşıdığını yəqin etmək mümkündür. Son illərdə biz ayrı-ayrı ölkələrdə cəmiyyətlərin müxtəlif imperialist güc mərkəzlərindən ötürülən dağıdıcı ideyaların əsirinə çevrildiklərinin şahidi olmuşuq. Belə ölkələrdə proseslər sabitliyin, insanların dinc həyatlarının pozulması, yaşayış şərtlərinin ağırlaşması, sərvətlərin talanması ilə, müqayisəyəgəlməz dağıntılarla müşayiət olunub. Həmin ölkələrin milli inkişafına, dövlətçilik ənənələrinə, xalqların genefonduna ciddi xələl gəlib və bu hadisələrin işıqlı sonluğu olmayacağı görünür.

Respublikamızda davamlı sabitlik hökm sürür ki, bunun əsas səbəblərindən biri isə Azərbaycan cəmiyyətinin ideoloji baxımdan yetkinliyi ilə bağlıdır. Ulu Öndərimizin əsasını qoyduğu və ötən dövrdə Prezident İlham Əliyevin səyləri ilə daha da möhkəmlənən, əvəzolunmaz dövlətçilik ideologiyası səviyyəsinə yüksələn, dərsliklərdə, bədii ədəbiyyatda, filmlərdə, kütləvi informasiya vasitələrində geniş şəkildə təbliğ olunan azərbaycançılıq yolumuzu mayak kimi işıqlandırır. Azərbaycançılıq ideologiyası ölkəmizdə milli həmrəyliyin təməlində dayanan əsas amildir və bizi düşmən qüvvələrə qarşı yumruq kimi birləşdirir. Azərbaycan ötən il sentyabrın 27-dən noyabrın 10-dək son üç onillik ərzində ərazilərimizin 20 faizini işğal altında saxlayan, beynəlxalq hüquqa arxa çevirən Ermənistana qarşı “Dəmir yumruq” əməliyyatı həyata keçirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün əməliyyatları uğurla həyata keçirən Silahlı Qüvvələrimiz 44 günlük müharibədə şanlı Zəfərə imza ataraq ölkəmizin ərazi bütövlüyünü təmin etdi. Ordumuz 300-dən çox yaşayış məntəqəsini döyüş meydanında işğaldan azad etdi. Müharibədə acınacaqlı məğlubiyyətə uğrayan Ermənistan onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalamaq məcburiyyətində qaldı və bu sənədlə üzərinə götürdüyü öhdəliklərə əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz ölkəmizə təhvil verdi. Prezident İlham Əliyev müharibə dövründə

30-dan çox populyar transmilli media qurumuna verdiyi müsahibələrində, xalqa müraciətlərində və postkonflikt mərhələdə ayrı-ayrı auditoriyalardakı çıxışlarında "Dəmir yumruq" əməliyyatı barədə ətraflı bəhs edib və onun mahiyyətinə diqqət çəkib. "Dəmir yumruq" bir tərəfdən Azərbaycanın gücünün, digər tərəfdən isə cəmiyyətimizin yenilməz həmrəyliyinin rəmzidir. Azərbaycan müharibəni son 17 ildə ölkəmizdə qurulan güclü iqtisadi bazaya, məqsədyönlü şəkildə möhkəmləndirilən Ordusunun gücünə əsaslanmaqla apardı və qalib gəldi. Azərbaycan ordusunun yüksək dərəcədə milli-mənəvi tərbiyəsi bu Zəfərin əldə olunmasında müstəsna rol oynadı. Xatırladaq ki, müharibənin elə ilk günlərindən gənclərimizin könüllü şəkildə orduya qoşulması, cəbhə üçün xalqımızın əlindən gələni əsirgəməməsi yüksək mənəvi birliyin ifadəsidir. Eyni zamanda, müharibədə cəmiyyətin ayrı-ayrı təbəqələri, ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri fəal şəkildə iştirak etdilər. 44 günlük müharibə Azərbaycan cəmiyyətinin həmrəyliyini və gücünü bütün dünyaya nümayiş etdirdi. Xatırlatmaq yerinə düşər ki, müharibənin ilk günlərindən Ermənistan KİV-lərində çirkin təbliğata rəvac verildi və ölkəmizdə yaşayan ayrı-ayrı xalqlara xitabən milli-etnik zəmində çağırışlar edildi. Ancaq Azərbaycanın tamhüquqlu vətəndaşları olan müxtəlif xalqların təmsilçiləri düşmənin belə çağırışlarına məhəl qoymayaraq silaha sarıldılar, səngərlərdə azərbaycanlılarla çiyin-çiyinə vuruşdular və ümumi qələbəmizin təmin olunmasına öz töhfələrini verdilər.

Milli dəyərlərimizin qorunması və inkişafı ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Milli dəyərlərimizə, soykökümüzə qayıdışın, milli hisslərimizin oyanışının xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu sahəni diqqət mərkəzində saxlayan ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə xalqımızın milli oyanışının əsası qoyulmuşdur. Ulu öndər Heydər Əliyev 13 avqust 2001-ci ildə milli-mənəvi dəyərlərin qorunması ilə bağlı bəyanatında demişdir: "Hər xalqın öz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun böyük sərvətidir. Heç vaxt iki xalq bir-birinə bənzəməz. Heç vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir". [4, s. 348]

Ümummilli lider Heydər Əliyev milli dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan ulu öndər deyirdi: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Milli dəyərlərimizə dərindən bələd olan ümummilli lider xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərində onlara harada yaşamalarından asılı olmayaraq azərbaycançılıq ideologiyasına sadiqliyi, xalqımıza xas olan adət-ənənələrimizi yaşatmağı, təbliğ etməyi tövsiyə edirdi: "Bizim hamımızın bir Vətəni var – bu, Azərbaycandır. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır". Məlumdur ki, dinimiz bizim milli-mənəvi dəyərlərimizin ən önəmli ünsürlərindən biridir. Xalqımız 70 il kommunist rejimdə ateist təbliğatın aparıldığı bir şəraitdə yaşasa da öz dini dəyərlərini unutmamış, onları gizli də olsa yaşatmışdır. Lakin bununla belə o dövrdə dini dəyərlərimizin zədə aldığı da bir reallıqdır.

Təsadüfi deyildir ki, Sovetdən əvvəl Azərbaycanda neçə min məscid, mədrəsə, olduğu halda müstəqilliyimizi yenidən əldə edəndə cəmi 17 məscidimiz vardı. Bu, Sovet rejiminin dinlə mübarizəsinin nə qədər amansız olduğunu göstərir. Dini ibadətgahlarımızın və abidələrimizin bərpası və yenidən inşası da Ulu Öndərin müstəqil Azərbaycanın prezidenti olduğu dövrə təsadüf edir. Məhz bu dövrdə yüzlərcə ibadətgah inşa və yaxud da bərpa edilmiş, dini dəyərlərimiz yenidən canlanmışdır. Xalqımızın əsrlərcə ziyarət yeri olan, lakin Sovet rejimi tərəfindən dağıdılan Bibi Heybət məscidi və ziyarətgahının Heydər Əliyevin əmri ilə dövlət hesabına yenidən inşa edilməsi onun bu sahədəki xidmətlərinin bir göstəricisidir. Belə misalların sayı olduqca çoxdur. Heydər Əliyev İslamı bizim milli-mənəvi kimliyimizin ayrılmaz bir hissəsi kimi

qəbul edirdi. “Dinimiz xalqımızın milli-mənəvi sərvətidir” sözləri onun dinə baxışını çox gözəl bir şəkildə xülasə edir. Ulu Öndər dinimizin ilahi əxlaqi dəyərlər sistemi olaraq mənimsənilməsinin xüsusilə gənclərin formalaşmasında müsbət bir funksiya icra edəcəyini düşünürdü.

Xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı, bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu təməldir. Bu mənada, azərbaycançılıq millətindən asılı olmayaraq özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir. Bu ideologiyanın pozitiv xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur. Azərbaycançılıq dilindən, millətindən, irqindən, sosial mənsubiyyətindən asılı olmayaraq bütün ölkə vətəndaşlarını ümumi vətən naminə həmrəyliyə dəvət edir. Milli-dini mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşın bu torpaq üçün milli yiyəlik hissini yaşaması isə torelantlığın bariz təzahürüdür. Əslində, dini və etnik tolerantlıq Azərbaycan xalqının qanında, canında, kökündə var. Milli ənənələrimizdə, mentalitetimizdə, habelə sosial, mənəvi və dini düşüncələrimizi özündə yaşadan folklorumuzda başqa dinlərə, millətlərə dözümlü münasibət özünü yaşadır.

Hər bir xalqın mövcudluğunun əsas göstəricisi olan adət və ənənələr, milli-mənəvi dəyərlər onun tükənməyən ən qiymətli sərvətidir. Milli-mənəvi dəyərlər bizim tariximiz, dilimiz, dinimiz, adət-ənənələrimiz, mentalitetimiz, mədəniyyətimiz, ədəbiyyat və incəsənətimizdir. Adət-ənənənin milli dəyər kimi yaşaması ailədən başlayır və cəmiyyət tərəfindən qəbul edilir, millətin, dövlətin atributuna çevrilərək gələcək nəsillər tərəfindən qorunur.

Milli-mənəvi dəyərlərimizin kökü əməlisalehlik və əxlaqi saflıqdır; mənəvi təmizlik və büllurluqdur; halallıq və gözütoxluqdur; xeyirxahlıq və mərdanəlikdir...Bunların hamısının zirvəsində isə adil vicdan dayanır. Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir. Milli-mənəvi dəyərlərimiz xalqımızın simasında zaman-zaman yaşamışdır. Bizi başqa xalqlardan, millətlərdən fərqləndirən də elə bir çox məqamda milli-mənəvi dəyərlərimiz, mədəniyyətimiz, mənəviyyatımızdır. Bu mənada Azərbaycan ailəsi də başqa ailələrdən fərqlənir. Ailələrimizdə böyüyə hörmət, ata-anaya sevgi, ehtiramla davranmaq, kiçiklərə qayğı, diqqət əsas göstəricilərdəndir. Bizim gələcək nəsillərə örnək olan əxlaq, tərbiyə simvolu, məhəbbət etalonu kimi daim hörmətlə anılan nümunəvi ailələrimiz çoxdur. Bu ailələr Azərbaycan xalqına sözün həqiqi mənasında böyük şəxsiyyətlər, dahilər bəxş etmişdir. Azərbaycan müasirləşən, Avropa və dünya birliyinə sürətlə inteqrasiya edən ölkədir. Təbii ki, müasir dünyada sürətlə davam edən qloballaşma prosesləri bizim də ölkədən yan keçməyib. Buna baxmayaraq, qloballaşma adı altında öz milli dəyərlərimizi unutmamalı və bu dəyərlərə sadiq olmalıyıq. Hər bir ölkə və xalq üçün onun milli dəyərləri hər şeydən üstün tutulmalı və digər xalqların dəyərləri ilə ziddiyyət təşkil etməməlidir. Bu baxımdan biz qloballaşma deyəndə Azərbaycanda beynəlxalq əməkdaşlığı, xoş münasibətləri, səmimi dostluğu nəzərdə tuturuq. Biz hər zaman qloballaşma adı altında digər xalqların adət-ənənələrinə zidd olan, milli mentalitetə xas olmayan dəyərlərə qarşı mübarizə aparmalıyıq. Təbii ki, bu mübarizədə milli mənliyimizi qorumaq ən vacib şərtlərdəndir.

Ümummilli Liderimiz Heydər Əliyev məruzə və çıxışlarında, habelə gənclərlə, ordu sıralarında xidmət edən əsgərlərlə görüşlərində gənc nəslin milli ruhda tərbiyə olunmasında mədəniyyətimizin, mənəvi dəyərlərimizin müsbət təsirini xüsusi vurğulayaraq demişdir. “ Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıblar və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir”. O, Azərbaycan Respublikası gənclərinin I forumundakı məruzəsində qürurla söyləmişdir: “Öz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər heç vaxt vətəninə, xalqına ögey münasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir-

lər. Gənclərimiz bizim tariximizi , dilimizi, keçmişimizi, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz.” Bu fikirlər bir daha göstərir ki, milli-mənəvi dəyərlər xalqın mənəvi sərvəti, mənəvi xəzinəsidir. Gənc və yeniyetmələrin dünyagörüşünün, mənəvi aləminin, vətənpərvərlik hisslərinin inkişaf etdirilməsində milli-mənəvi dəyərlərin rolu çox böyükdür. [7, s. 32]

Biz gəncləri daim inkişafa, sivil ənənələri mənimsəməyə, malik olduğumuz müstəqil Azərbaycanımızı göz bəbəyi kimi qorumağa səsləyən də məhz milli ruhumuzdur. “– Ey türk oğuz bəyləri! Türk milləti eşidin! Üstdən göy çökmədikcə, altdan yer dəlinmədikcə, bil ki, türk ulusu, türk yurdu, türk dövləti, türk törəsi pozulmaz” deyən Bilgə Kağana da, —”Biz əzəldən ta əbəd meydanə gəlmişlərdəniz “ deyən, Azərbaycan dövlətçiliyi tarixinə şanlı Səfəvi dövlətini bəxş edən Şah İsmayıl Xətai də, qanlı Sovet rejiminin ən güclü dövrlərində — “ Millətimizin köləlik zəncirlərini qıraraq milli müstəqilliyini bərpa edəcəyi gün o qədər də uzaqda deyil” deyən Məmməd Əmin Rəsulzadəyə də, XX yüzilliyin sonunda Azərbaycan xalqına qüdrətli dövlət quran, —” Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam” deyən Böyük Öndər Heydər Əliyevə də tükənməz güc verən, məhz milli ruhumuz olmuşdur. Millətini sevmək, torpağını sevmək, onu hər şeydən üstün tutmaq bu gün Azərbaycan insanının, ən əsası Azərbaycan gəncliyinin ən ümdə borcudur. Bu borcun qarşılığı isə bizlərin ilk növbədə yüksək səviyyədə təhsil almağımız, elmi biliklərə dərindən yiyələnməyimiz, bəşəriyyətin sürətlə inkişaf etdiyi bir zamanda daima hərtərəfli axtarışda olmağımızdır.

Bu gün Azərbaycan Avropaya inteqrasiya edən, bir sıra çağdaş standartları və yenilikləri əldə etməyə çalışan ölkələr sırasındadır. Lakin Avropaya inteqrasiya heç də o demək deyil ki, çağdaş dünyanın tələbləri fonunda Azərbaycana məxsus milli-mənəvi dəyərlər, uzun tarixi yol keçmiş ənənələr arxa planda qalmalıdır. Azərbaycan Avropaya öz dəyərlərini saxlamaqla inteqrasiya etməlidir. Lakin bu gün cəmiyyətdə müşahidə edilənlər bir sıra hallarda milli dəyərlərin qorunub saxlanılması ilə bağlı bir qədər narahatçılıqlar doğurur ki, bu da əsasən çağdaş gəncliyin avropalaşması istiqamətdə gedən proseslərlə daha çox bağlıdır.

Qərblə Şərqin arasında bir körpü olan Azərbaycanda milli ideologiya necə olmalıdır, bu gün milli ideologiya ilə bağlı baxışlar necədir? Əslində bizim cavab axtardığımız bu suallar bu gündən doğan, ortaya çıxan məsələlər deyil. Hələ ötən yüzilliyin əvvəllərində Azərbaycan tarixində xüsusi yeri və çəkisi olan böyük ziyalılarımız da milli ideologiya ilə bağlı düşüncələrini ortaya qoymağa, insanları bu dəyərlər ətrafında birləşdirməyə çalışırdılar. O zamanlar M.Ə. Rəsulzadə, Ü. Hacıbəyli, Ə. Ağaoğlu, Ə. Hüseynzadə və digər Azərbaycan aydınları insanlarda milli əqidənin formalaşması, insanların kütlə düşüncəsindən çıxaraq ziyalı düşüncəsini əldə etməsi üçün çox işlər görüblər.

O zamanlar Azərbaycan Xalq Cümhuriyyətinin baniləri millətçilik, dövlətçilik, türkçülük əqidəsindən çıxış edərək ortaya kifayət qədər aydın bir konsepsiya qoymuşdu. Azərbaycan gənclərinə müraciətində də onları türkləşmək, islamlaşmaq və çağdaşlıq dəyərləri ətrafında birləşməyə çağıran böyük ictimai-siyasi xadimin bu ideologiyası müsavatçılıq adı altında inkişaf etsə də bu dəyərlər əslində bu günkü Azərbaycanımızın da sütun dəyərləridir. Hansı ki, Xalq Cümhuriyyətinin varlığına son qoyan “qırmızı imperiya” belə insanların düşüncəsindən və tarixin səhifələrindən bunu silə bilmədi. Ötən yüzilliyin 70-ci illərində Milli lider Heydər Əliyevin “qırmızı imperiya” daxilində bir azərbaycançılıq fəlsəfəsini ortaya qoymasının özü də kifayət qədər uzaqgörən və sağlam məntiqin nəticəsi idi. 90-cı illərin əvvəllərində keçmiş SSRİ-nin dağılması bütün post-sovet ölkələri kimi Azərbaycanın da qarşısında bir sıra cavabı açıq qalan suallar qoymuşdu. Bunlardan biri ölkənin bundan sonrakı siyasi taleyi ilə bağlı idisə, digər ən önəmli məsələlərdən biri Milli düşüncə tərzinin formalaşması ilə bağlı idi. O zamanlar cəmiyyətin daxilində kifayət qədər problemlərin və daxili parçalanmaların olmasına baxmayaraq, Milli lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı azərbaycançılıq ideologiyasının möhkəmlənməsində də öz sözünü dedi. bu gün Azərbaycanda Milli ideologiyanın necə olması axtarışına çıxmaq lazım deyil. Sadəcə biz özümüzdə olan dəyərləri qorumaq və onu gələcək nəsillərə ötürməliyik. Gənclərin Milli ideologiyanın daşıyıcı-

larına çevrilməsi üçün də kifayət qədər işlər görülməlidir. Bu gün Azərbaycan gəncliyi özünü Avropalaşmış bir məkanda hiss etməklə yanaşı, həm də öz düşüncəsində türkçülük, islamçılıq və çağdaşlıq dəyərlərini yaşatmalıdır. [8, s. 118]

Azərbaycanda gənc nəslin hərtərəfli inkişafının təmin edilməsi dövlət siyasətinin mühüm tərkib hissələrindən biridir. Bu siyasətin əsas məqsədi gənclərin fiziki, əqli və mənəvi inkişafına şərait yaratmaq, onların intellektual potensialından səmərəli istifadə etmək, sosial-iqtisadi məsələlərinin həllinə və s. dəstək verməkdən ibarətdir. Gənclər siyasətinin əsas vəzifələrini gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsiplərinə söykənməklə, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması və s. təşkil edir.

Qeyd edək ki, gənclərin inkişafına dövlət səviyyəsində diqqət və qayğının nəticəsi özünü Vətən müharibəsində bir daha göstərdi. Azərbaycan gənclərinin müharibə başlayarkən könüllü və kütləvi şəkildə hərbi çağırış məntəqələrinə müraciət edərək, döyüşlərdə iştirak etmək istəkləri yüksək vətənpərvərlik əhval-ruhiyyəsinin ifadəsi idi. Vətən müharibəsində şanlı qələbənin əldə edilməsində Azərbaycan gənclərinin şücaət və qəhrəmanlığının böyük rolu olmuşdur.

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan igidlərimiz əsasən gənclərdən ibarətdir. Onlar Vətənimizi, xalqımızı, onun qürurunu, bayrağını ucaltdılar və ən ali məqama yüksəldilər. Xalqımıza Zəfər sevincini yaşadan Azərbaycan Silahlı Qüvvələrinin zabit-əsgər heyətinə, müharibədə sağlamlığını itirən cəsur qazilərimizə, şəhidlərimizə və onların yadigarlarına ömür boyu minnətdar və borcluyuq. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən şəhid ailələrinə, qazilərimizə göstərilən qayğı hər birimiz üçün örnək olmalıdır. Xüsusilə, 27 sentyabr – Anım Günündə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Prezident İlham Əliyev və birinci vitse-prezident Mehriban Əliyevanın iştirakı ilə həyata keçirilən yürüşü xatırlatmaq istərdim. Dərin məna daşıyan bu aksiya ölkə rəhbərliyi səviyyəsində Azərbaycan xalqının öz şəhidlərinin əziz xatirəsinə verdiyi yüksək dəyərin nümunəsi idi.

Şəhidlərimizin əziz xatirəsi Azərbaycanda fəaliyyət göstərən dini məbədlərdə - Heydər məscidi, Təzəpir məscidi, "Jen Mironosits" pravoslav kafedral kilsəsi, Bakının Avropa Aşkenazi Yəhudi Sinaqoqu, Ağdam Cümə məscidi, Kəlbəcərdəki Xudavəng məbədi, Laçındakı Ağoğlan məbədi, Şuşadakı Yuxarı Gövhər Ağa məscidi və digər məscidlərdə, kilsələrdə, sinaqoqlarda da dərin ehtiramla yad edilmişdir. Dini ibadət yerlərində Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunub, dini ayinlər icra olunub, həmçinin ölkəmizdə və bütövlükdə dünyada əbədi sülhün bərqərar olması üçün dualar edilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondu şəhid ailələri ilə bağlı bir çox layihələr həyata keçirir. Fondun xətti ilə şəhidlərin doğum günlərində və bayramlarda onların ailələrinin ziyarət edilməsi, "Şəhid yadigarları", "Biz Zəfərin övladıyıq" kimi tədbirlərin həyata keçirilməsi mütəmadi xarakter daşıyır və bu gün bu nümunəvi addımlar gənc nəslin milli ruhda tərbiyə olunmasında əvəzsiz rola malikdir.

Müasir gənclərimizdə milli-mənəvi dəyərləri dərindən formalaşdırmaq üçün siyasi və ictimai tərbiyə işinin səmərəliliyini artırmaq, sosial əhəmiyyət kəsb edən ideyaların, normaların və prinsiplərin mənimsənilməsinə yönəldilmiş fəallığı stimullaşdırmaq vacib məsələlərdən biridir. Çünki, milli-mənəvi dəyərlərə bağlılıq insanda ilk vaxtlarda vətənpərvərlik hisslərini gücləndirir və sonrakı mərhələlərdə onun dövlətin müstəqilliyi, gələcəyi naminə çıxış edən əsl vətəndaş kimi yetişməsini şərtləndirən əsas amil kimi çıxış edir.

**Problemin aktuallığı.** Prezident İlham Əliyevin siyasətində gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması məsələsi xüsusi yer tutur. Azərbaycan gənclərinin inkişafı ilə bağlı Dövlət proqramlarının uğurla həyata keçirilməsi gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin xidmətlərinin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

**Problemin elmi yeniliyi.** Azərbaycan xalqı bu günədək məhz milli mənəvi dəyərlərinə sadiqliyi sayəsində özünün mövcudluğunu, milli özünəməxsusluğunu qoruyub saxlaya bilib. Xalqımızın ən böyük sərvətlərindən biri onun zəngin milli mədəni, maddi, ədəbi, dövlətçilik irsinə sahib olmasıdır. Bu zəngin

mənəvi irs xalqımız tərəfindən əsrlər boyunca yaradılıb və onun böyük bir hissəsi bu günədək qorunub saxlanıb. Bu baxımdan, milli dövlətin formalaşması və əbədiyaşar olması onun mənəvi əsaslarının milli dəyərlərlə nə dərəcədə səsləşməsindən asılıdır.

**Problemin praktik əhəmiyyəti.** Milli-mənəvi dəyərlər insanı cəmiyyətdə formalaşdıran, təkamülə aparan davranış qaydalarıdır. Bu qaydalar dünya sivilizasiyasının təməli qoyulandan yaranmağa başlamışdır. Dəyərlərin formalaşması prosesi nəticədə dünyada hər bir fərdin haqlarını daha dolğun təsdiq edən xüsusiyyətlər yaradır. Hər bir xalqın, millətin mövcudluğu onun ana dilinə, adət-ənənələrinə, öz mədəniyyətinə, ədəbiyyatına, tarixinə bağlılığından asılıdır.

## Ədəbiyyat


1. Heydər Əliyev və ordu quruculuğu. – Bakı: Adiloğlu, – 2006, – 480 s.
2. Mirkazım Seyidov, Məmməd Rzayev. Zamanı qabaqlayan dahi. – Bakı: “Vektor” Nəşrlər Evi, – 2008, – 315 s.
3. Abdulla Qurbani. “Qanadlan şahinim! Haydı, cəsurlar!”. – Bakı: Hərbi nəşriyyat, – 1998. – 136 s.
4. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 35-ci kitab. – Bakı: Azərnəşr, – 2011. – 504 s.
5. Milli-mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu. M. F. Axundov adına Milli kitabxana. – Bakı, 2011. -85 s.
6. Müstəqil dövlətimiz və parlamentimiz. Azərbaycan Respublikası Milli Məclisinin Nəşri. – Bakı, 2001. – 552 s.
7. Milli-mənəvi dəyərlərimizi qoruyaq və nəsillərə çatdıraq. F. Köçərli adına Respublika Uşaq Kitabxanası. – Bakı, – 2014. – 36 s.
8. Milli-mənəvi dəyərlərə elmi yanaşma. “Gənc elektron elm”: elektron kitab, № 106, – Bakı: YYSQ, – 2014. – 156 s.
9. Sərkərdə ömrü. – Naxçıvan: “Əcəmi”. – 2015, – 96 s.


**E-mail:** aytanagizada@gmail.com
**Rəyçilər:** *ped.elm.dok., prof.* **H.H. Əhmədov,**
*ped.el.dok., prof.* **İ.H. Cəbrayılov**
**Redaksiyaya daxil olub:** 01.12.2023

*UOT 371*

***Samirə Mürşüd qızı Yasinova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində*
*Azərbaycan Dövlət Pedaqoji Kollecinin*
*Pedaqogika və psixologiya fənn birləşmə komissiyasının müəllimi*
https://orcid.org/0009-0000-3045-7114

# MÜƏLLİMİN ŞƏXSİ KEYFİYYƏTLƏRİ VƏ PEŞƏ QABİLİYYƏTLƏRİ

***Самира Мюршюд гызы Ясинова***
*преподаватель Комиссии объединённых предметов педагогики и психологии*
*Азербайджанского Государственного Педагогического Колледжа при Азербайджанском*
*Государственном Педагогическом Университете*

# ЛИЧНОСТНЫЕ КАЧЕСТВА И ПРОФЕССИОНАЛЬНЫЕ СПОСОБНОСТИ УЧИТЕЛЯ

***Samira Murshud Yasinova***
*teacher of the Pedagogy and psychology Subject unification commission*
*of the Azerbaijan State Pedagogical College under the Azerbaijan State Pedagogical University*

# PERSONAL CHARACTERISTICS AND ABILITIES OF THE TEACHER

**Xülasə.** Müəllimin şəxsi keyfiyyətləri ilə peşə qabiliyyətlərinin vəhdəti onun peşəkar və səriştəli müəllim obrazını yaradır və pedaqoji fəaliyyətində mühüm rol oynayır. Şəxsi keyfiyyətlərlə peşə qabiliyyətləri bir-birinə təsir etməklə həm də müəllimi bir şəxsiyyət kimi xarakterizə edir. Buna görə də müasir müəllimdə bunların hər ikisi də yüksək səviyyədə olmalı və biri digərini tamamlamalıdır. Təqdim edilən məqalədə bu keyfiyyətlərə toxunulur və peşəkar müəllim şəxsiyyətinin formalaşmasında onların müsbət təsirindən bəhs edilir.

***Açar sözlər:*** *metodika, keyfiyyət, qabiliyyət, bilik, dünyagörüşü, yaradıcılıq, təşkilatçılıq, ünsiyyət, diqqət, qayğıkeşlik, nikbinlik, humanizm.*

**Резюме.** Единство личных качеств и профессиональных способностей учителя создает его имидж профессионального и компетентного педагога и играет важную роль в педагогической деятельности. Личностные качества и профессиональные способности влияют друг на друга, и характеризуют педагога как личность. Поэтому у современного учителя и то, и другое должно быть на высоком уровне, одно должно дополнять другое. В данной статье затрагиваются эти качества и обсуждается их положительное влияние на формирование личности профессионального педагога.

***Ключевые слова:*** *методика, качество, способности, знания, мировоззрение, творчество, организованность, общение, внимание, забота, оптимизм, гуманизм.*

**Summary.** The unity of the teacher's personal qualities and abilities creates the impression that they are a determined and talented educator, playing a crucial role in pedagogical activities. Personal qualities and abilities mutually influence and characterize the teacher as a personality. Consequently, a modern teacher must excel in both areas, with each complementing the other. This article explores these conditions and highlights the positive impact of a successful teacher on the development of students.

***Key words:*** *methodology, quality, ability, knowledge, outlook, creativity, organization, communication, attention, caring, optimism, humanism.*

Müəllimlik, təhsil sahəsində ən əhəmiyyətli və vacib işlərdən biridir. Müəllim olmaq sadəcə bir iş seçimi deyil, həm də bir həyat tərzi və məsuliyyətdir.

Haqlı olaraq əsl müəllimin işini cərrah işi ilə müqayisə edirlər. Cərrah əməliyyat edərək insanı düçar olduğu bəladan qurtarır. Müəllim isə insanın mənəvi dünyasının mühəndisi kimi

şərəfli və çətin bir missiyanı yerinə yetirir. Müəllim insanın paklığının keşiyində həmişə sərvaxt dayanır. O, günəşə bənzər ömrü ilə minlərlə, milyonlarla insanın həyat yoluna şəfəq saçır. Dünya şöhrətli yazıçı Ç. Aytmatov müsahibələrinin birində demişdir. "Əgər ac adama bir çörək versən o, bir gün tox olar, on çörək versən on gün tox olar, ona çörək qazanmağın yolunu öyrətsən o, ömür boyu tox olar" Əsl müəllim də buna çalışır. Çünki çörək qazanmağın yolunu gərgin zəhmətdən, halal əməkdən, gecə-gündüz çalışmaqdan keçdiyini yetirmələrinə inandırmaq, onlara başa salmaq o qədər də rahat məsələ deyil.

Yaxşı müəllim nədir sualına V.A. Suxomlinski belə cavab verirdi. O, ilk növbədə uşaqları sevən insandır, onlarla ünsiyyətdən sevinc tapır, inanır ki, hər bir uşaq yaxşı insan ola bilər, uşaqlarla dostluq etməyi bacarır, uşaqların sevincini və kədərini ürəyinə sala bilir, uşağın qəlbini oxuyur və heç vaxt unutmur ki, özü də vaxtı ilə uşaq olub. İkinci, yaxşı müəllim tədris etdiyi fənnin elmini yaxşı bilir, ona vurğunluqla onun inkişaf üfüqlərini – yeni kəşfləri, tədqiqatları, nailiyyətləri izləyir, o elmin problemlərindən də xəbərdardır. Yaxşı müəllim ota məktəbin tədris proqramında nəzərdə tutulanlardan daha çox şey bilir. Dərin bilik, geniş dünya görüş şagirdlər qarşısında elmin, biliyin, fənnin, tədris prosesinin cəzbedici qüvvəsini aşa bilmək üçün vacibdir. Şagirdlər müəllimin simasında ağıllı, bilikli, düşüncəli sənətinə vurğun bir insan görməlidir. Üçüncüsü, yaxşı müəllim psixologiya və pedaqogika elmlərini bilən, tərbiyə haqqında elmləri bilmədən uşaqlarla işləməyin mümkünsüzlüyünü hiss və dərk edən insan olmalıdır. Dördüncüsü, yaxşı müəllim öz peşəsinin ustadı olmalıdır. Belə bir deyim vardır ki, adi müəllim-tərif edir; yaxşı müəllim-izah edir; ustad müəllim-göstərir; dahi müəllim-ruhlandırır.

Yaxşı məktəbləri yaxşı müəllimlər yaradırlar. Onlar müxtəlif funksiyaları yerinə yetirməklə şagirdlər üçün aşağıdakı üç əsas məqsədi yerinə yetirirlər.

**İlham vermək** – müəllim öz fənninə duyduğu ehtirasla şagirdlərinə ilham verir, potensiallarını mümkün olan ən yüksək səviyyədə gerçəkləşdirmək üçün onları ruhlandırır.

**Özünə əminlik** – müəllim şagirdlərinə özünə əminlik, eləcə də bilik və səriştələrini inkişaf etdirməyi davam etdirmək üçün müstəqil öyrənmə qabiliyyəti qazanmağa, gərəkli bilik və bacarıqları əldə etməyə yardım göstərir.

**Yaradıcılıq** – müəllim şagirdlərinə təcrübə aparmaq, sorğulamaq, sual vermək, orijinal düşünmə bacarıqlarını və istedadlarını inkişaf etdirmək imkanı qazandırır.

"Mükəmməl müəllim öyrənməyi sevir". Çox dərin cavabdır, çünki hamının dilində əzbər olan bir cümlədə kiçik bir hərf dəyişikliyi insanı düşünməyə vadar edir. Öyrətməyi deyil, öyrənməyi sevir mükəmməl müəllim şagirdin düşüncəsinə görə. Çünki müəllim tələbəsinə ən böyük nümunədir. Onu öyrədənin özünün də həvəslə yeni şeylər öyrəndiyini, nələrisə araşdırdığını, özünü təkmilləşdirdiyini görən tələbə, şübhəsiz ki, o müəllimin izi ilə gedəcək.

Kurikulum üzrə mütəxəssis Yuliya Kərimova yazır ki, şagird nailiyyətinin yüksəlməsi üçün məktəblər təkmilləşməlidir, məktəbin təkmilləşməsi üçün müəllim keyfiyyəti təkmilləşməlidir, müəllim keyfiyyətinin təkmilləşməsi üçün isə müəllimin peşəkarlıq standartları olmalıdır.

Ölkəmizdə təhsil keyfiyyəti gündəmə gələndə bir çox amillər qeyd olunur və müzakirə edilir. Məsələn: Dərsliklərin keyfiyyəti, məktəbə qəbul qaydaları, şagirdlərin nailiyyətləri, xarici dillərdə təhsilin vacib olub-olmaması və bir çox amillər. Amma bir amil hər dəfədə kölgədə qalır. Bu, müəllim keyfiyyəti amilidir. Müəllim keyfiyyəti məsələsi ilk dəfə rəsmi olaraq 2009-cu ildə "Makenza" şirkəti tərəfindən qeyd olundu. Bu hesabat xarakterli məqalədə qeyd olunurdu ki, təhsil sisteminin keyfiyyəti müəllim keyfiyyətindən yüksək ola bilməz. Həmin tarixdən müxtəlif ölkələrdə müəllim keyfiyyətinin yüksəldilməsi məsələsi ön plana keçdi. Müəllimin keyfiyyəti necə ifadə edilir. Adi bir cəmiyyət üzvünün gözü ilə baxsaq, ailədə uşaq var və o uşağın məktəbə getmək vaxtı çatmışdır və təbii ki valideynlər yaxşı məktəb axtarışındadır. Məktəbin axtarışında qərar verilməsi üçün iki meyar var:

1) məktəbin yerləşdiyi ərazi (evə yaxın olması, valideyn üçün rahat olması);

2) müəllim. Kimsə yaxşı müəllim axtarır və o, yaxşı müəllimin harada çalışmasından asılı olmayaraq onun ardınca gedir.

Soruşsaq ki, siz yaxşı müəllim nəyi nəzərdə tutursunuz, valideyn bu suala belə bir cavab verəcək: Biz savadlı və təcrübəli müəllim axtarı-

rıq. Bu nə deməkdir? Demək hər bir sahədə çalışan insan peşəkar sayılması üçün hansısa meyarlara və normalara cavab verməlidir. Hər hansısa bir sahəni peşəkar sahə adlandırmaq üçün bir neçə vacib meyarlar olmalıdır. Bunlar əsasən aşağıdakılardan ibarətdir.

1. Bu peşənin sahibləri ən az 3-5 il ərzində çox ciddi nəzəri, akademik hazırlıqdan keçməlidirlər.

2. Təcrübəli və savadlı mütəxəssislərin rəhbərliyi altında ciddi təcrübə keçməlidirlər.

3. Qanun tərəfindən təsdiq olunmuş kvalifikasiya əldə etməlidirlər.

4. Dövlətdən müstəqil olaraq fəaliyyət göstərən assosiasiyaların, qurumların üzvü olmalıdır.

5. Hər bir peşə sahəsinin etik davranış qaydaları olmalı və hər kəs bu qaydalara uyğun hərəkət etməlidir.

6. Hər bir peşə sahibi öz həmkarlarının rəyi ilə hesablaşmalıdır.

Hər bir müəllim müəyyən pedaqoji bacarıqlara və qabiliyyətlərə malik olmalıdır. Pedaqoji ədəbiyyatlarda onların aşağıdakılardan ibarət olduğu göstərilir:

***1. Didaktik qabiliyyət.*** Bu şagirdlərə tədris materialını çatdırmaq, vermək bacarığıdır ki, burada materialı uşaqlara aydın və anlaşıqlı şəkildə çatdırmaq, fənnə maraq yaratmaq, şagirdlərdə fəal müstəqil fikir oyatmaq bacarıqları nəzərdə tutulur. Didaktik qabiliyyətə malik olan müəllim lazım olduqda tədris materialını müvafiq şəkildə dəyişməyi, mürəkkəb olanı sadələşdirməyi, çətin olanı asanlaşdırmağı, ayın olmayanı aydınlaşdırmağı bacarmalıdır.

***2. Şəxsi qabiliyyət.*** Şəxsi pedaqoji qabiliyyətlər dedikdə, adətən, şəxsiyyətin xarakterik əlamət və keyfiyyətləri ilə bağlı olan qabiliyyətlər nəzərdə tutulur**.** Uşaqlara hüsn rəğbət göstərməyi, hörmət və ehtiramla yanaşması, təmkinli olması, özünü idarə edə bilməsi, həmişə şagirdlərlə iş aparmaq üçün optimal vəziyyət yarada bilməsi, müəllim şagird münasibətlərini tarazlaması müəllimin şəxsi qabiliyyətlərinə aiddir.

***3. Elmi qabiliyyət.*** Bu bacarıqlar elmlərin müvafiq sahələrinə uyğun olan bacarıqlar deməkdir. Bacarıqlı müəllim nəinki fənni tədris proqramı həcmində bilir, o, həm də bu elm sahəsində daha geniş və dərin düşüncəyə, fikrə, informasiyaya malikdir, daim elmdə olan kəşflərə nəzarət edir, onları nəzərdən keçirir, materialı son dərəcə sərbəst şəklində çatdıra bilir və materialın çatdırılması böyük həvəs və maraq göstərməklə, həm də müvafiq tədqiqat işi aparır.

***4. Anlama (perceptual) qabiliyyəti.*** Bu bacarıqlar şagirdlərin, tərbiyə olunanların daxili aləminə girə bilmək bacarığıdır ki, burada psixoloji müşahidəçilik, şagird şəxsiyyətinin daxili aləmini dərk etməklə bağlı olan müşahidəçilik qabiliyyəti və onun müvəqqəti psixi ziddiyyətini dərindən dərketmə bacarığıdır. Qabiliyyətli pedaqoq cüzi xarici əlamətlərə görə şagirdin daxili vəziyyətini hiss etməyi bacarır

***5. Nitq qabiliyyəti.*** Öz fikir və hisslərini, düşüncəsini nitqinin mimika və pantomimikasının köməyi ilə ifadə etmə qabiliyyətidir. Pedaqoqun nitqi daim daxili gücü, inamı çatdırılan faktların canlılığı və s. ilə fərqlənməlidir. Onun nitqi şagirdlər üçün aydın, sadə və anlaşıqlı olmalıdır.

***6. Təşkilatçılıq qabiliyyəti.*** Bu qabiliyyət şagird kollektivini mühüm məsələlərin həllinə səfərbər etmək qabiliyyətidir. Bu həmdə müəllimin öz şəxsi işinidüzgün təşkil etmək bacarığıdır. Təcrübəli müəllimlər işlərini vaxta görə son dərəcə düzgün bölüşdürür və müvafiq lazımi zaman cədvəllərində işlərini sahmanlaya bilirlər.

***7. Avtoritar qabiliyyət.*** Şagirdlərə emosional iradi təsir etmə bacarığıdır. Avtoritar qabiliyyətlər müəllimin bir sıra şəxsi keyfiyyət komplekslərindən və xüsusən onun iradi keyfiyyətlərindən çox asılıdır və eyni zamanda məktəblilərin təlim və tərbiyəsi ilə bağlı xüsusi məsuliyyətindən, inamlı olmasından asılıdır.

***8. Ünsiyyət (kommunikativ) qabiliyyəti.*** Adamlarla qarşılıqlı münasibət yaratmaq qabiliyyətində ifadə olunur. Bu qabiliyyətə yiyələnmiş müəllim şagirdlərlə düzgün ünsiyyət yarada bilir. Bu uşaqlarla ünsiyyətə girmə, şagirdlərə yanaşmanın düzgün müəyyənləşdirilməsi bacarığı onlarla məqsədyönlü pedaqoji nöqteyi-nəzərdən qarşılıqlı münasibət pedaqoji takt əsasında qurulan qabiliyyətdir. Pedaqoji takt müəllimin şagirdə səmərəli təsir vasitələrini tapıb tətbiq etməsi, bu zaman müəyyən ölçü hissi gözləməklə düzgün ünsiyyət qurması qabiliyyətidir. Pedaqoji takt ünsiyyətdə müəyyən hədd gözləməkdə, həddi aşmamaqda “qızıl orta xətt” tapmaqda ifadə olunur. K.D. Uşinski bu münasibətlə yazırdı ki, məktəbdə zarafata yol verən ciddilik, şitliyə keçməyən mülayimlik, yersiz irada və qərəzçiliyə çevrilməyən ədalətlilik, həddini aş-

mayan xeyirxahlıq, xırdaçılığa keçməyən qayda-qanun və ən başlıcası isə müntəzəm ağıllı fəaliyyət hökm sürməlidir.

***9. Pedaqoji təsəvvür, təxəyyül (yaxud proqnozlaşdırma) qabiliyyəti.*** Bu öz hərəkətlərinin əvvəlcədən görünməsində ifadə olunan xüsusi qabiliyyətlərdir. Şagird şəxsiyyətinin, tərbiyəsinin planlaşdırılmasında bu çox mühümdür. Bu, şagirdin gələcəyini təmin edə bilər. Bu isə onun keyfiyyətlərini, inkişafını proqnozlaşdırmaq qabiliyyəti deməkdir.

***10. Diqqətin bölüşdürülməsi qabiliyyəti.*** Bu eyni zamanda fəaliyyətin bir neçə növü arasında gedir və müəllim işi üçün xüsusi əhəmiyyətə malikdir. Bacarıqlı, təcrübəli müəllim daim materialın izahında müvafiq forma və məzmunu izləyir, ona diqqət yetirir. Öz fikrinin necə inkişafı etməsini (yaxud şagirdin fikrinin necə inkişaf etməsini) və eyni zamanda, bütün şagirdlərin davranışını diqqət mərkəzində saxlayır və şagirdlərin yorulmasına, diqqətsizliyinə, dərk etmələrinin zəifləməsinə çevik şəkildə diqqət yetirir, onların intizamlarında gedən hər hansı pozuntulu halları aşkarlayır, müəyyənləşdirir və nəhayət, öz davranışına (duruşu, mimikası, pantomimikası, yerişi) bütün nə varsa – hamısına diqqət yetirir.

**Müəllimin şəxsi keyfiyyətləri** Müəllimin pedaqoji fəaliyyəti onun şəxsi keyfiyyətlərindən ayrılmazdır. Başqa peşə sahələrindən fərqli olaraq müəllimin şəxsiyyəti onun işinə – pedaqoji prosesə bilavasitə təsir göstərir. Müəllim, ilk növbədə öz şəxsiyyəti ilə tərbiyə edir. Buna görə də o, əsl mənada şəxsiyyət olmalı, kamil şəxsiyyət səviyyəsinə yüksəlməlidir. Müəllimin şəxsi keyfiyyətləri çoxdur. Onları bir neçə qrupda birləşdirmək olar:

**1. Müəllimin ideya və vətəndaşlıq keyfiyyətləri**. Buraya müəllimin ideya inamı məslək və əqidəsi, vətəndaşlıq yetkinliyi, siyasi şüurluluğu, elmi dünyagörüşü, sosial fəallığı, yüksək ziyalılığı kimi keyfiyyətlər daxildir. Müəllim yüksək əqidə, məsləksahibi, müəllim-Vətəndaş olmalıdır. O, xalqın, vətənin problemləri ilə yaşamalı, gəncliyi də bu ruhda yetişdirməlidir.

**Müəllimin peşə keyfiyyətləri.** Buraya müəllimin dərin zehni biliklərə malik olması, yüksək ixtisas və peşə hazırlığı, pedaqoji psixoloji və metodik ustalığı, təlim-tərbiyə işini yüksək səviyyədə həyata keçirmək bacarığı, nikbinlik, tələbkarlıq, məsuliyyət hissi, pedaqoji mərifət, şagird psixologiyasına bələdlik, onlarla düzgün qarşılıqlı münasibətlər qurmaq bacarığı, şagirdlərdə tədris etdiyi elmə maraq yaratmaq bacarığı və s. daxildir. Müəllimin ən başlıca keyfiyyəti öz elmini dərindən bilməsi və sevməsidir.

Pedaqoji peşəkarlıq müəllimdən bir sıra peşə keyfiyyətləri tələb edir:

**Ünsiyyətçilik** – tələbənin daxili aləminə nüfuz etməyə imkan verir;

**Özünü ələ almaq bacarığı** – müəllimə öz hisslərini idarə etməyə, özünə nəzarət etməyə imkan verir;

**Təkidlilik** – qarşıya qoyulmuş məqsədə çatmağa, prinsipial olmağa kömək edir;

**Qarşılıqlı anlaşma** – müəllim və tələbə bir-birini başa düşməyəndə ünsiyyətdə soyuqluq, bəzən də münaqişə yaranır;

**Qayğıkeşlik** – gənclərin qəlbinə qayğı ilə yanaşdıqca onlar tərbiyəçi üçün açıq olur yalnız özünü sevər eqoist müəllim yaxşı tərbiyəçi ola bilməz;

**Nikbinlik və yumor hissi** – kollektivdə nikbin, şən ovqat yaratmağa imkan verir.

Bu keyfiyyətlərlə yanaşı peşəkar müəllim yeni pedaqoji təfəkkürə yiyələnməli, idrak və praktik məsələlərin həllinə yaradıcı şəkildə yanaşmağı bacarmalıdır, tələbələrdə müstəqil, tənqidi, yaradıcı, dialektik təfəkkürün inkişafı qeydinə qalmalıdır.

**3. Müəllimin şəxsi mənəvi keyfiyyətləri.** Buraya ədalətlilik, xeyirxahlıq, humanizm, düzlük, doğruçuluq, sadəlik, təvazökarlıq, vicdanlılıq, məsuliyyətlilik, mədənilik, pedaqoji etika və b. keyfiyyətlər daxildir.

Müəllimin şəxsi keyfiyyətləri onun təlim-tərbiyə işinə təsirsiz qalmır.

Yaxşı müəllim, hər şeydən əvvəl, yaxşı tərbiyəçidir, nəcib, alicənab, mədəni insandır. Müəllim peşəsi peşə sahibinin şəxsiyyəti ilə bilavasitə vəhdət təşkil edən, biri digərini tamamlayan peşələr sırasına daxildir. Bəlkə də ikinci elə bir peşə yoxdur ki, onun sahibinin şəxsiyyəti ilə bu qədər əlaqəli, bağlı olmuş olsun. Müəllim elə bir saflıq, təmizlik rəmzidir ki, onun şəxsiyyətində özünü göstərən müəyyən çatışmazlıqlar dərhal nəzərə çarpır və qınaq obyektinə çevrilir. Buna görə də çətin ki, başqa elə bir peşə, sənət tapılsın ki, onun sahibinin şəxsiyyətinə bu qədər çox tələbkarlıq göstərilsin və tələb verilmiş olsun. Bu

da səbəbsiz deyildir. Çünki, müəllim öyrədəndir, tərbiyəçidir, təbliğatçıdır, nümunədir.

**Müəllimlik humanist peşədir.** Tərbiyənin məqsədi – insanlıq, vasitəsi isə – insana qayğı, hörmət və sevgidir. Humanizm xeyirxahlıqla, ədalətliliklə, tələbkarlıqla vəhdət təşkil edir. Ədalət – pedaqoji mədəniyyətin əsasıdır:

"Ədalət insan qəlbini nəcibləşdirir, ədalətsizlik isə kobudlaşdırır, qəddarlıq doğurur" (V.A.Suxomlinski). Buna görə də ədalət ruhu hər sahədə, xüsusən pedaqoji işdə hakim olmalıdır.

Müəllim əxlaqi saflıq nümunəsi olmalıdır, çünki bunsuz tərbiyəçi kimi fəaliyyət göstərməyə onun mənəvi haqqı çatmaz. Əxlaqi cəhətdən səbatsız insana gənc nəslin tərbiyəsi kimi çox məsuliyyətli işi tapşırmaq olmaz, çünki müəllim özündə olmayan keyfiyyətləri başqalarına verə bilməz. Buna görə də müəllim tərbiyə işinə özündən başlamalı, müntəzəm olaraq özünütərbiyə ilə məşğul olmalıdır.

Müəllimin pedaqoji peşə mədəniyyəti humanizmə əsaslanan, humanist münasibətlərdən qaynaqlanan bir mədəniyyətdir. Müəllimin uşaqlara humanist münasibəti, onların gələcəyinə ümidlə baxması, gələcək cəmiyyətin məhz onların əli ilə qurulacağını dərindən dərk etməsi pedaqoji peşə mədəniyyətini istiqamətləndirən amillər kimi əhəmiyyətlidir, təsirlidir. Bu baxımdan müəllimin pedaqoji peşə mədəniyyəti həm də onun bir vətəndaş kimi Vətən, xalq, millət qarşısında öz borcunu və vəzifəsini ləyaqətlə yerinə yetirməli olduğuna inamlı olması və onu yerinə yetirməsidir.

**4. Müəllimin iradi-emosional keyfiyyətləri.** Pedaqoji fəaliyyətin və ünsiyyətin səmərəsi müəllimin iradi-emosional keyfiyyətlərindən də çox asılıdır. Müəllim iradəli, səbirli, təmkinli olmalı, öz hissi-emosional halını idarə etməyi bacarmalıdır.

Müxtəlif xarakterli, müxtəlif səviyyəli tələbələrlə işləmək nə qədər çətin olsa da müəllim öz hisslərinə, danışığına, hərəkətlərinə nəzarət etməli, hər şeydən ötrü əsəbiləşib özündən çıxmamalıdır. Əsəbilik, hay-küy, qışqırıq, hədə-qorxu, cəza müəllimin pedaqoji səriştəsizliyinin göstəricisidir: qışqırıq, hay-küy olan yerdə kobudluq, anlaşılmazlıq olur.

Müəllim üçün vacib keyfiyyətlərdən biri də tələbələr yanında nüfuza malik olmasıdır. Dərin bilik, mədənilik və mənəviyyat nümunəsi olan müəllimin nüfuzu da yüksək, olur. Nüfuzu qazanmaq çətin, itirmək isə asandır: yersiz hərəkət, ədalətsiz münasibət ehtiyatsız söz müəllimi nüfuzdan sala bilər. Buna görə də hər bir müəllim sözlərinə və hərəkətlərinə məsuliyyətlə yanaşmalı, öz nüfuzunun keşiyində durmalıdır. Müəllim sözü müqəddəs deyil, müqəddəs olan müəllimlikdir. Yəni müqəddəs olanlar öz vəzifələrini layiqincə yerinə yetirən insanlardır. Müəllim gənc nəslin formalaşmasında böyük rol oynayır. Uşaqkən bizə qələm tutub yazmağı öyrədən, hər il keçdikcə öz bildiklərini bizimlə bölüşən dəyəli varlıqlardır müəllimlər.

**Problemin aktuallığı.** Ən şərəfli peşə olan müəllimlik özünün mahiyyəti və yerinə yetirdiyi müqəddəs vəzifəyə görə daim təkmilləşmə, yeniliklər və yaradıcılıq tələb edir. Müəllimin şəxsi keyfiyyətləri ilə peşə qabiliyyətlərinin bir-birini tamamlaması bu peşə üçün vacib olan xüsusiyyət olduğundan müəllimin bunlara ciddi yanaşması və bu keyfiyyətlərə malik olması həmişə olduğu kimi, müasir dövrümüzdə də aktuallıq kəsb edən problemlərdən və mövzulardandır.

**Problemin elmi yeniliyi.** Müəllim mövzusu həmişəyaşar mövzu olmaqla yanaşı, ona müraciət edilməsi həmişə müəyyən yeniliklərin olmasını tələb edir. Məqalədə müəllimin şəxsi keyfiyyətləri ilə onun peşə qabiliyyətlərinin bir-birini tamamlamasına vurğu edilməsi və bunların müəllimin peşə səriştəliliyinin əsas amillərindən biri olduğunun əsaslandırılması məqalənin elmi yeniliyini təşkil edir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə təsvir və təqdir olunan müəllimin şəxsi keyfiyyətlərinin və peşə qabiliyyətlərinin hər bir müəllim tərəfindən mənimsənilməsi və pedaqoji fəaliyyətlərində onları nəzərə alması pedaqoji prosesin keyfiyyətinin yüksəldilməsində əsas amillərdən birini təşkil edir.

## Ədəbiyyat:


1. Əlizadə, Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. / Ə. Əlizadə. – Bakı: Ozan, – 1998.
2. Həmzəyev, M. Pedaqoji psixologiya. / M. Həmzəyev – Bakı, 1992.
3. İlyasov, M. Müəllimin pedaqoji ustalığı. / M. İlyasov – Bakı: Elm və təhsil, – 2013.
4. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. – Bakı: Elm və təhsil, – 2018.

5. Müəllimlərin etik davranış qaydaları. – Bakı, 2014.
6. Paşayev, Ə. Pedaqogika. / Ə. Paşayev , F. Rüstəmov. – Bakı: Nurlan, – 2017.

**E-mail:** samireyasinova@gmail.com
**Rəyçilər:** *ped.elm.dok., prof.* **M. İ. İlyasov,**
*filol.ü.fəls.dok.* **M.Y. Məmmədova**
**Redaksiyaya daxil olub:** 16.11.2023

*UOT 371*

***Gülnar Bəhram qızı Məmmədova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Quba filialının Humanitar elmlər kafedrasının laborantı*

***Vəfa İlqar qızı Bayramova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Quba filialının Riyaziyyat və informatika kafedrasının laborantı*
*https://orcid.org/0009-0003-1067-6485*

# TƏLİM PROSESİNDƏ KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN MƏNƏVİ TƏRBİYƏSİNİN TƏŞKİLİ TƏCRÜBƏSİNDƏN

***Гюльнар Бахрам гызы Мамедова***
*лаборант кафедры Гуманитарных наук Губинского филиала*
*Азербайджанского Государственного Педагогического Университета*

***Вафа Ильгар гызы Байрамова***
*лаборант кафедры Математики и информатики Губинского филиала*
*Азербайджанского Государственного Педагогического Университета*

# ИЗ ОПЫТА ОРГАНИЗАЦИИ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ МЛАДШИХ ШКОЛЬНИКОВ В ПРОЦЕССЕ ОБУЧЕНИИ

***Gulnar Bahram Mammadova***
*Azerbaijan State Pedagogical University*
*laboratory assistant at the department of Humanities of Guba branch*

***Vafa Ilgar Bayramova***
*Azerbaijan State Pedagogical University*
*laboratory assistant at the department of Mathematics and Informatics of the Guba branch*

# THE EXPERIENCE OF ORGANIZING JUNIOR SCHOOL CHILDREN'S MORAL UPBRINGING OF DURING THE TRAINING PROCESS

**Xülasə.** Şagirdlər təhsil ocağında təkcə biliklər qazanmır, eyni zamanda tərbiyə alırlar. Deməli, ümumtəhsil məktəbinin başlıca vəzifəsi həm də məktəblilərin tərbiyəsi, o cümlədən mənəvi tərbiyəsi üzrə iş aparmasıdır. İbtidai siniflərdə tədris olunan fənlərin demək olar ki, hər birinin şagirdlərdə mənəvi keyfiyyətləri formalaşdırmaq və inkişaf etdirmək baxımından zəngin imkanları vardır. Məqalədə təlim prosesində kiçikyaşlı məktəblilərin mənəvi tərbiyəsinin təşkili məsələlərindən danışılır. Azərbaycan dili və Həyat bilgisi fənlərinin materialları əsas götürülür.

***Açar sözlər:*** *təlim prosesi, mənəvi tərbiyə, mənəvi tərbiyənin təşkili, mənəvi keyfiyyətlər, kiçik yaşlı məktəblilər*

**Резюме.** Учащиеся не только получают знания в учебном заведении, но и воспитываются. Поэтому основной задачей общеобразовательной школы является проведение работы по воспитанию школьников, в том числе по их нравственному воспитанию. Практически каждый из предметов, преподаваемых в начальных классах, обладает богатыми возможностями в плане формирования и развития нравственных качеств учащихся. В статье говорится о вопросах организации нравственного воспитания младших школьников в процессе обучения. За основу взяты материалы предметов Азербайджанский язык и Познание мира.

***Ключевые слова***: *учебный процесс, нравственное воспитание, организация нравственного воспитания, нравственные качества, школьники младшего возраста*

**Summary.** Pupils not only gain knowledge at the educational institution, but also receive an upbringing. Therefore, the main task of a comprehensive school is to carry out work on the upbringing of schoolchildren, including their moral upbringing. Almost every subject taught in primary school has rich opportunities in terms of the formation and development of moral qualities of students. The article talks about the issues of organizing the junior schoolchildren's moral upbringing in the teaching process. The basis is taken from materials from the subjects of the Azerbaijani language and knowledge of life

***Key words:*** *educational process, moral upbringing, organization of moral upbringing, moral qualities, junior schoolchildren*

İbtidai təhsil ümumtəhsil sistemində ilkin pilləni təşkil edir və özünəməxsus rola malikdir. Böyüyən nəslin təşəkkül tapıb formalaşmasında, təhsillənməsində, tərbiyələnməsində ailə ilə yanaşı məktəb də əhəmiyyətli yer tutur. Şagird məktəbdəki başlıca bilik, bacarıq və vərdişlərə məhz IIV siniflərdə yiyələnir. Bu sinifləri məktəblilərin təhsillənmə, tərbiyələnmə və inkişafetməsinin təməli hesab etmək mümkündür. İbtidai siniflərdə necə oxuması, özünü necə aparması sonrakı siniflər üçün də baza, əsas rolunu oynayır.

Şagirdlər təhsil ocağında təkcə biliklər qazanmır, eyni zamanda tərbiyə alırlar. Deməli, ümumtəhsil məktəbinin başlıca vəzifəsi həm də məktəblilərin tərbiyəsi, o cümlədən mənəvi tərbiyəsi üzrə iş aparmasıdır. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanununun 4-cü maddəsinə ölkəmizdə təhsilin əsas məqsədi aşağıdakı kimi müəyyənləşdirilmişdir: "1) Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

2) milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktik biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis-kadrlar hazırlamaq;

3) sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq" (1).

İbtidai siniflərdə tədris olunan fənlərin demək olar ki, hər birinin şagirdlərdə mənəvi keyfiyyətləri formalaşdırmaq və inkişaf etdirmək, mənəvi tərbiyə üzrə işin aparılması baxımından zəngin imkanları vardır.

Mənəvi tərbiyə nədir? Prof. A.N. Abbasov yazır: "İnsanın ağlını, təfəkkürünü inkişaf etdirmək (*əqli tərbiyə*) nə qədər vacibdirsə, şəxsiyyətin mənəvi aləminin, mənəviyyatının, müsbət əxlaqi keyfiyyətlərinin formalaşdırılması bir o qədər mühüm və zəruridir. ...Mənəvi tərbiyə dedikdə, şagirdlərin şüuruna, hiss və duyğularına davranışına sistemli məqsədyönlü, mütəşəkkil təsir göstərməklə onlarda əxlaqi keyfiyyətlərinin, vətəndaşlıq yetkinliyinin, fəal həyat mövqeyinin formalaşdırılması başa düşülür. Bu isə mənəvi inkişafa şərait yaradır" (2, s. 273).

Biz I-IV siniflərin Azərbaycan dili dərslikləri ilə tanış olduq. II sinfin dərsliyində "Yaxşılıq" mətni var. Hekayənin məzmunu belədir: Elxan yaxşı bir iş görmək istəyir. Amma bilmir ki, həmin iş nədən ibarət olmalıdır. Bilməyərəkdən, düşünmədən yaxşı işləri bir kənara qoyur. Yəni?

1-ci şagird: – Balaca Leyla Elxanın onunla oynamasını istəyir. Elxan onunla oynamır.

2-ci şagird: – Nənəsi Elxana toyuqlara dən verməyi tapşırır. Lakin Elxan işinin olduğunu bəhanə gətirərək, toyuqlara dən vermir.

3-cü şagird: – Toplan quyruğunu bulaya-bulaya Elxana yaxınlaşır. Hiss olunur ki, o, su istəyir. Elxan ona əhəmiyyət vermir.

Bütün bu yaxşılıqları etməyərək, yaxşılıq etmək barədə fikirləşir. Tapa bilmir. anasından soruşur:

"– Anacan, yaxşı iş görmək üçün nə etmək lazımdır?

Anası gülümsəyib dedi:

– Leyla ilə oynaya bilərsən. Toyuqları yemləyə, Toplana su verə bilərsən". (3, s. 58-59).

Yalnız bundan sonra Elxan yaxşılığın nə demək olduğunu anlayır.

Müəllim ümumiləşmə aparır:

– Uşaqlar, yaxşılıq, xeyirxahlıq mənəvi keyfiyyətlər arasında özünəməxsus yer tutur. Bizim hər birimiz insanlara fayda verməyə, yaxşılıq etməyə çalışmalıyıq. Yaxşılıq heç zaman itmir, nə zamansa adamın özünün, onun övladlarının qarşısına çıxır.

Şagirdlər II sinifdə eyni zamanda “Balaca məktəbli” şeiri ilə tanış olurlar. Uşaq divarı tabaşirlə yaza-yaza evə sarı gedir. Birdən səs eşidir: “ Necə gözəl xəttin var”. Balaca məktəbli geri döndükdə öz müəllimini görür. Başa düşür ki, müəllim “Necə gözəl xəttin var” deməklə onun hərəkətini təqdir etmir, əslində ona irad tutur. O, öz səhvini başa düşür, utanır: “

O tutduğu bu işdən
Utandı birdən-birə.
Tabaşiri əlindən
Yavaşca saldı yerə (3, s. 64)

III sinfin “Azərbaycan dili” dərsliyində “Dünyanı dəyişmək istəyən qız” mətni var. Dərsdə həmin mətnlə yaxından tanış olan şagirdlər fikir yürüdürlər.

1-ci şagird: Güclü külək əsdiyindən dənizin dalğaları çoxlu balığı sahilə atmışdı. Səhər tezdən atası ilə dəniz sahilinə gələn Aygün qumlu sahildə çabalayan balıqları görüb onlara yazığı gəlir. Aşağı əyilib bir-bir onları dənizə atır. Atası onun hərəkətini təqdir etsə də, öz fikrini bildirir:

“– Qızım, sahildə nə qədər balıq var. Sənin əziyyətin heç nəyi dəyişməyəcək.

Aygün əyilib yerdən növbəti balığı götürdü və dedi:

– Yox, ata, mənim əziyyətim bu balıq üçün hər şeyi dəyişəcək.

Aygün bunu deyib əlindəki balığı dənizə atdı. Ata gülümsəyib qızının başını sığalladı” (4, s.7).

1-ci şagird: Bu hekayətdə Aygünə məxsus müsbət keyfiyyətlər diqqət mərkəzinə gətirilir.

2-ci şagird: Aygün – rəhmdildir. Güclü küləyin təsirindən dəniz kənarındakı qumun üzərinə düşmüş balıqlara yazığı gəlir. Deməli, o, qayğıkeşdir. İstəmir ki, onlar məhv olsunlar, həyatları yarımçıq qalsın.

3-cü şagird: Atası Aygünə deyəndə ki, “Sənin əziyyətin heç nəyi dəyişməyəcək”, o zaman qızın cavabı belə olur: “Ata, mənim əziyyətim bu balıq üçün hər şeyi dəyişəcək”.

4-cü şagird: Ata qızının hərəkətini bəyənir.

Kiçikyaşlı məktəblilərin mənəvi keyfiyyətlərinin inkişaf etdirilməsində Həyat bilgisi fənni özünəməxsus rola malikdir. I-IX siniflərin Həyat bilgisi dərsliklərində bu baxımdan zəngin materiallar, mövzular vardır. I sinfin dərsliyində “Mən azərbaycanlıyam”, “Ünsiyyət”, “İntizam”, “Mən və yoldaşlarım”; II sinfin dərsliyində “Nəzakət qaydaları”, “Yaxşı xüsusiyyətlər”, “Yanlış davranışlar”; III sinfin dərsliyində “Ünsiyyət mədəniyyəti”, “Müsbət və mənəvi xüsusiyyətlərimiz”, “Fövqəladə hallarda davranış qaydaları”; IV sinfin dərsliyində “Mənəvi keyfiyyətlərimiz”, “Mənəvi borc”, “Dini dəyərlər” və s. mövzular nümunə göstərilə bilər.

I sinifdə “Mən azərbaycanlıyam” mətni ilə (5, s. 14) tanışlıq zamanı ilk növbədə yüksək məna kəsb edən “8 noyabr – Zəfər günüdür” sözləri diqqət mərkəzinə gətirilir. Məktəblilər “8 noyabrda biz hansı bayramı qeyd edirik?”, “Həmin bayram necə əmələ gəlib?” suallarına cavab verirlər.

Birincilər böyük həvəslə, ruh yüksəkliyi ilə 44 günlük müharibədə qazandığımız tarixi qələbədən, Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun ermənistan ordusunu darmadağın etməsindən, torpaqlarımızı düşmən tapdağından xilas etməsindən söz açırlar.

Beləliklə, dərsdə mənəvi tərbiyənin mühüm tərkib hissəsi olan vətənpərvərlik, hərbi vətənpərvərlik tərbiyəsi üzrə iş aparılır. Kiçikyaşlı məktəblilərin vətənpərvərlik, yurdsevərlik, düşmənə nifrət, Vətənin müdafiəsi, torpaqlarımızın qorunması uğrunda mübarizlik hissləri inkişaf edir.

Məktəblilərlə mənəvi tərbiyə istiqamətində iş aparılarkən təhsilalanlar da mənəvi keyfiyyətlərin, mənəvi simanın, mənəvi cəhətdən sağlamlığın, əxlaqı saflığın nə demək olduğunu bilməlidirlər. Şagirdlər IV sinifdə Həyat bilgisi fənni üzrə digər mövzularla yanaşı eyni zamanda “Mənəvi keyfiyyətlərimiz” mövzusu ilə tanış olurlar. Öyrənirlər ki, “İnsan ağlı, nitqi, düşünmə bacarığından başqa həm də mənəvi keyfiyyətləri digər canlılardan fərqlənir. Mənəvi keyfiyyətləri müsbət və mənfi xüsusiyyətlərin toplusudur. Onlar bizim davranışımıza, başqalarına münasibətimizə, hadisələrə yanaşmağımıza da təsir göstərir. Vətənpərvərlik, dürüstlük, vicdanlı olmaq, ailə qarşısında məsuliyyət hiss etmək, insanlara hörmətlə yanaşmaq, yaşlıların və özündən kiçiklərin qayğısına qalmaq müsbət mənəvi keyfiyyətlərdir... Laqeydlik, xəsislik, sevgisizlik, hörmətsizlik isə insanın mənfi keyfiyyətləridir” (8, s. 58).

Bu şəkildə aparılmış məqsədyönlü, sistemli iş, ayrı-ayrı fənlərin və mövzuların tərbiyələndirici, inkişafetdirici və təhsilləndirici imkanlarının nəzərə alınması kiçikyaşlı məktəblilə-

rin Vətənimizə, cəmiyyətimizə ləyaqətli insanlar kimi yetişmələrinə öz köməyini göstərir.

**Problemin aktuallığı.** Məqalədə mənəvi təkmilləşmə, əxlaqi saflıq kimi məsələlərdən danışılır.

**Problemin yeniliyi.** Məqalədə təlim prosesində kiçikyaşlı məktəblilərin mənəvi tərbiyəsinin təşkili məsələləri diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

## Ədəbiyyat:


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. – Bakı: Hüquq ədəbiyyatı, – 2009.
2. Abbasov, A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərs vəsaiti / A.N. Abbasov. – Bakı: Mütərcim, – 2015.
3. İsmayılov, R. Azərbaycan dili (dövlət dili): Ümumi təhsil məktəblərinin 2-ci sinifləri üçün dərslik / R. İsmayılov, Ü. Nurullayeva, A. Rüstəmova. Bakı, 2021.
4. Azərbaycan dili (tədris dili): Ümumi təhsil məktəblərinin 3-cü sinifləri üçün dərslik. / R. İsmayılov, Ü. Nurullayeva, Ş. Zahidova, İ. Bayramova [və b.] – Bakı, 2022.
5. Həyat bilgisi: I sinif dərsliyi. / E. Yunusov, G. Mehdiyeva, E. Kazımzadə [və b.] – Bakı: Şərq-Qərb, – 2023.
6. Cabbarlı, N. Həyat bilgisi: II sinif dərsliyi. / N. Cabbarlı, H. Abbasova, S. Məmmədova. – Bakı: Şərq-Qərb, – 2021.
7. Cabbarlı, N. Həyat bilgisi: III sinif dərsliyi. / N. Cabbarlı, K. Mahmudova, F. Əzizova. – Bakı: Şərq-Qərb, – 2022.
8. Cabbarlı, N. Həyat bilgisi: IV sinif dərsliyi. / N. Cabbarlı, K. Mahmudova, F. Əzizova. – Bakı: Şərq-Qərb, – 2023.


**E-mail:** pedkafedraquba@gmail.com
vafa.bayramova.2017@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.* **L.A. Məmmədli**,
*ped.ü.fəls.dok., dos.* **N.Ş. Muradova**
**Redaksiyaya daxil olub:** 16.10.2023

*UOT 159.9*

***Nərmin Mərdan qızı Əliyeva***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Dövlət Universiteti*

## AZƏRBAYCAN GEYİM MƏDƏNİYYƏT TARİXİNDƏN

***Нармин Мардан гызы Алиева***
*докторант по программе доктора философии*
*Бакинский государственный университет*

## ИЗ ИСТОРИИ КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНСКОЙ ОДЕЖДЫ

***Narmin Mardan Aliyeva***
*doctorial student in the program of doctor of philosophy*
*Baku State University*

## THE HISTORICAL CULTURE OF AZERBAIJANI CLOTHING IS ANCIENT

**Xülasə.** Azərbaycan xalqının geyim mədəniyyətinin tarixi qədimdir. Geyim mədəniyyəti əsrlər boyu formalaşmış və dövrünə uyğunlaşdırılmışdır. Məqalədə xalqın geyim mədəniyyəti dövrlər üzrə tədqiq edilmiş, onun dəyişmə, yeniləşmə imkanları təhlil olunmuşdur. Aparılan qazıntılar nəticəsində əldə edilən tapıntılara əsaslanaraq xalqın geyim mədəniyyəti haqqında fikir söylənilmişdir. Azərbaycan qadınının zaman-zaman bəzək əşyalarının, geyim formalarının növlərindən məqalədə bəhs olunmuş, tarixi şəraitlə onların bağlılığı uzlaşdırılmışdır. Məqalə yeni tədqiqat aparanlar, tariximizi öyrənənləri tariximizdən gələn geyim formaları ilə məlumatlandırır.
***Açar sözlər:*** *Azərbaycan, geyim, mədəniyyət, tarix, mənbə, qazıntılar, şəhər*

**Резюме.** История культуры одежды азербайджанского народа древняя. Культура одежды азербайджанских народов формировалась на протяжении многих веков и приспособилась к этим периодам. В статье исследована культура народной одежды разных эпох и проанализированы возможности ее изменения и обновления. В результате археологических раскопок по находке было дано представление о национальной костюмной культуре. В статье речь идет об азербайджанских женских украшениях и украшенной одежде разного времени, различных видах одежды, тесно связанной с ее историей.
***Ключевые слова:*** *Азербайджан, одежда, культура, история, источник, раскопки, город*

**Summary.** Clothing culture of Azerbaijani peoples has formed for many ages and adjusted to these periods. In this article the culture of the people's dressing was researched for different ages and was analyzed its changing and renewing possibilities. As a result of archaeological excavation according to the finding was given a view about the national costume culture. The article deals with the Azerbaijani women's jewelry and decorated garments for different times, various kinds of dressing, it is closely connected to its history besides, in this article it is informed about our national clothes for a new researchers and learners our history
***Key words:*** *Azerbaijan, clothes, culture, history, source, excavation, city*

Azərbaycan geyim mədəniyyəti əsrlər boyu formalaşıb təkmilləşməsində xalqın dünyagörüşü, adət və ənənələri, psixoloji-ideoloji milli-əxlaqi baxışları, sosial-iqtisadi və mədəni həyatı əhəmiyyətli rola malik olmuşdur. Belə ki, Azərbaycan milli geyimi daim-uzun və mürəkkəb tarixi inkişaf yolu qət edərək xalqın zəngin mədəniyyətinin nəticəsidir.

Tariximizdən gələn geyim mədəniyyəti milli-mənəvi dəyərlərimizin ifadə formalarından biridir. Onun qorunması zəruri məsələlərdəndir. Azərbaycan xalqının ümummilli lideri, Ulu Öndər Heydər Əliyev gənclərimizi xalqımızın

milli-mənəvi dəyərlər, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi. O gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyələndirilməsindən bəhs edərək demişdir*: "...Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik" (47).*

Geyim mədəniyyətinin böyük təkamül və inkişaf yolu keçməsində xalqın yaradıcı əməyinin, empirik bilik və təcrübəsinin, nəsillərdən-nəsillərə əmanət kimi ötürülən peşə-sənət vərdişlərinin rolu böyükdür.

Ənənəvi xalq geyim kompleksinin meydana gəlməsi uzun sürən tarixi inkişaf prosesinin nəticəsi olduğundan o, xalqın etnogenezi probleminin öyrənilməsində də vacib mənbələrdən biri hesab olunur. Digər tarixi mənbələrlə bərabər, geyimlərə aid olan materiallar da hər bir xalqın mədəni-tarixi əlaqələrinin, milli xüsusiyyətlərinin müəyyən edilməsinə və etnogenez probleminin həllinə cəlb oluna bilər.

Mütəxəssislər geyim mədəniyyətinin başlanğıcını eramızdan əvvəl 40-25-ci minilliklərə aid edirlər. Azıx mağarasından əldə edilmiş maddi mədəniyyət nümunələri, xüsusilə daşdan düzəldilmiş əmək alətləri sübut edir ki, burada – Qarabağda yaşamış insanlar hələ Quruçay mədəniyyətinin ilk dövrlərində müəyyən geyim elementlərindən istifadə etmişlər. Tarixi inkişafın gedişində sosial-iqtisadi həyat şəraitinin dəyişməsi geyim tiplərində əsas dəyişikliklərə səbəb olmuş, yeni-yeni geyim tipləri meydana çıxmışdır.

Xalq geyim mədəniyyətinin inkişaf tarixini erkən orta əsrlər dövrü təşkil edir. Arxeoloji qazıntıların nəticələrindən də aydın olur ki, Qarabağ bölgəsində erkən orta əsrlərdə toxuculuq sənətinin inkişafı üçün real imkanlar olmuşdur.

Qədim Mingəçevirin küp və çiy kərpic qəbirlərindən parça, sap qalıqları və piləklərin, eləcə də eramızdan əvvəl I minilliyə aid edilən sadə toxuculuq dəzgahlarının ayrı-ayrı hissələrinin aşkar edilməsi söyləməyə imkan verir ki, toxuculuq antik Albaniyanın inkişaf etmiş sənətlərindən biri olmuşdur.

Erkən orta əsrlər dövrünə aid Mingəçevir qazıntılarından aşkar edilmiş Çin parçaları ilə yerli parçaları müqayisə edərək bu qənaətə gəlmək olur ki, ki, bu bölgədə toxuculuqla hələ eradan əvvəl III minillikdən məşğul olmağa başlanmışdır. Bu parçalardan ən qədimi kətan və yun parçalar olmuşdur.

Azərbaycanda arxeoloji qazıntılardan çoxsaylı sümük və gil əyirici alətlərin, balaca bıçaqların, ip kələflərinin və s. əldə edilməsi də toxuculuğun inkişafından soraq verir.

1987-ci ildə Bərdənin ikinci qazıntı sahəsində (köhnə qala divarları yanında) arxeoloji qazıntılar apararkən qırmızı rəngli pambıq parça materialları aşkar edilmişdir ki, onun üzərində şüşə sağanağa yerləşdirilmiş tunc düymələr olmuşdur. Bu təbəqədə həmçinin Ərəb xəlifələrindən olan əl-Aminin (809-813-cü illər), Abdulla əl-Möminin (813-823-cü illər) və əl-Mötəsimin (833-842-ci illər) adından zərb edilmiş bir neçə mis sikkə də aşkar edilmişdir.

İpək parça istehsalına gəldikdə qeyd etmək lazımdır ki, ipəkçiliyin ana vətəni Qədim Çin olmuş, eradan əvvəl III minillikdən burada ipəkçilik inkişaf etdirilməyə başlamış və əsrimizin ilk illərindən ipək istehsalı Qərbi Asiyaya və Böyük İpək Yolu vasitəsilə hətta Avropaya da yayılmışdır. Tədqiqatlar göstərir ki, ipəkçilik Azərbaycanda eramızın III-IV əsrlərindən mövcud olmağa başlamışdır. Mingəçevir qazıntılarından çoxlu miqdarda Çin və yerli istehsala məxsus ipək parça qalıqlarının aşkar edilməsi [3,səh. 84-85], Qarabağda və Azərbaycanın digər bölgələrində ipəkçiliyi inkişaf etdirmək üçün təbii bazanın olması ilkin orta əsrlərdə Azərbaycanda bu sənət sahəsinin mövcudluğunu əyani faktlarla təsdiq edir.

Azərbaycanın geyim tarixinə nisbətən müfəssəl elmi-pedaqoji ekskurs, yazılı mənbələr XVI əsrə aid məlumatlarla başlayır. Ondan əvvəlki dövrün geyim mədəniyyəti haqqındakı qısa məlumatlara rast gəlmək olur. Geyim mədəniyyətimiz orta əsr miniatürlərində, tətbiqi incəsənət nümunələrində, xüsusilə Şəki xan sarayı freskalarında geniş əks olunub.

XIX əsrdə Azərbaycanın Bakı, Şamaxı, Şəki, Gəncə, Qazax, Naxçıvan və s. şəhərlərini gəzib orada milli geyimlərin naturadan şəkillərini çəkmiş rus rəssamları V.V. Vereşşagin və Q.Q. Qaqarinin əsərləri də müəyyən məlumat verici əhəmiyyətə malikdir.

Ölkəmizdə aparılan arxeoloji qazıntılar zamanı Tunc dövrünün əvvəllərinə aid (eradan əvvəl III minillik) tuncdan düzəldilmiş əşyala-

rın, eradan əvvəl III-IV əsrlərə aid qızıldan hazırlanmış bəzək əşyaları və gildən olan ayaqqabı formasında qabların tapılması Azərbaycanın qədim sakinlərinin özlərinə paltar tikməyi bacardıqlarını, hələ çox qədim zamanlardan yüksək maddi mədəniyyətə malik olduqlarını sübut edir.

XVII əsrdə Azərbaycanın həm ticari məntəqə, həm də parça istehsalı baxımından Yaxın Şərqin böyük ipəkçilik bölgəsi kimi tanınması isə məmləkətimizin geyim mədəniyyətinin hansı səviyyədə olması haqqında əlavə şərhə yer qoymur. “Danışan” parçalar Parça xalqın mədəniyyətini əks etdirən elementlərdən biridir. Parçaların naxışı və rəngləri həm bir xalqı başqasından ayırmağa, həm də eyni xalqın içərisində müxtəlif sinfi təbəqələrin nümayəndələrini fərqləndirməyə imkan verirdi.

Qadın paltarları əsas etibarilə ipək parça və məxmərdən tikildiyi halda, kişi geyimləri əksər hallarda mahuddan və evdə toxunan şal parçadan hazırlanırdı. Geyimlər onu geyən şəxsin yaşını, ailə və ictimai vəziyyətini də büruzə verirdi. Keçmişdə cavan qızın və ailəli qadının geyimlərində nəzərəçarpacaq qədər fərqlər olurdu.

Gənc qızlar gözəl, cavan gəlinlər həm gözəl, həm də zəngin geyinərdilər. Yaşlı qadınlar isə diqqətçəkən parçalardan, bəzək şeylərindən az istifadə edərdilər.

“Haralısan?” sualına ehtiyac qalmırdı. Mübaliğəsiz demək olar ki, geyiminə görə bu və ya digər şəxsin hansı tarixi-etnoqrafik zonaya məxsusluğu haqqında dəqiq məlumatlanmaq mümkün idi. Toy və bayram paltarları adətən qiymətli parçalardan tikilməklə bərabər, gündəlik və iş paltarlarından fərqli olaraq müxtəlif qızıl və gümüş bəzəklərlə də zinətləndirilirdi.

Qadınların baş geyimləri rənginə, gözəlliyinə və rəngarəngliyinə görə olduqca cəlbedici və maraqlı idi – ipək kəlağayılar, çalmalar, narnazı, təsək, ləçək, örpək, çadra və s. Kəlağayılar, naz-naz və qaz-qaz ipəklər xüsusilə geniş yayılmışdı. Bəzi yerlərdə qadınlar baş örtüyünün altından araqçın qoyardılar. Çox vaxt bu araqçınların üstünə qızıldan kəsilmiş müxtəlif formalı çaxma bəzəklər tikərdilər.

Şəhərlərdə və şəhərətrafı kəndlərdə qadınlar evdən çıxarkən bütün bədəni örtən çadra geyirdilər. Kəndli qadınlar çadranı çox nadir hallarda, yalnız hərdən kənddən uzaq məsafəyə gedəndə örtürdülər. Adətən baş üçün yaylıqla (yaşmaq) ağız və burunun bir hissəsini örtməklə kifayətlənirdilər.

Varlı qadınlar atlaz, kasıblar isə sətin, bez və ya dama-dama sarpinkadan (nazik pambıq parça) müxtəlif çalarda çadralar örtürdülər. Çadrayla yanaşı, şəhərlərdə qadınlar hərdən üzlərini krujevalı rübəndlə də bağlayırdılar. Baş geyimlərinin geniş yayılmış növlərindən biri olan ipək kəlağayının örtülməsində yaş və sosial fərqlər mövcud idi: yaşlı qadınlar – ağ, bej (açıq-sarı-qəhvəyi), açıq-mavi rəngli kəlağayı örtürdülər. Kəlağayıları müxtəlif cür bağlayırdılar.

Digər qadın baş geyimi təsək (onu qadın papağı adlandırırlar) idi. Təsəyi bəzəyən naxışın növündən asılı olaraq onun müxtəlif adları mövcuddur: mirvari papaq, qızıl papaq, ay-ulduz. Təsəyin bir neçə funksiyası vardı: saç düzümünü qoruyub saxlamaq, saçları yad gözlərdən gizlətmək, əsas təyinatı isə ondan ibarət idi ki, üstdən bağlanmış ipək yaylıq sürüşməsin. Təsəyin üstündən böyük ipək və ya pambıq yaylığın bir ucunu sallayıb qalan uclarını arxada düyünləyirdilər.

Qadın geyiminin elementlərindən biri də xüsusi baş sarğısı – cutqu idi ki, tündrəngli parçadan (qara və ya tünd-göy sətin, atlaz, çit və s.) tikilirdi. O hər iki tərəfdən açıq, ensiz örtük şəklində idi, başın ətrafında (eyni zamanda alın hissəni də örtərək) ensiz lent şəklində bağlanırdı. Cutquyla saçları və ya hörükləri yığaraq onları arxadan sallayırdılar. Belə ev və çöl işləri zamanı rahat olurdu. Beləliklə, həm gigiyenik, həm də utilitar əhəmiyyət daşıyırdı. Üstündən, bir qayda olaraq, yaylıq, ya da ipək və ya pambıq örtüklər (çarşab, örpək, şal və s.) örtürdülər. Cutqu Azərbaycanda XX əsrin 40-ci illərinədək mövcud olmuşdur.

Qış vaxtı qadınlar isti şalla möhkəm bürünər və ya çiyinin üzərinə sallayırdılar. Onlar isti üst qış geyimini əvəz edirdi. Digər baş geyimləri ilə müqayisədə çalma və dingə daha az yayılmışdı. Belə ki, onların bağlanması qadınların vaxtını çox alırdı. Çalmanı başa bağlanmış yaylığa və ya araqçına sarıyırdılar. Onun üstündən bir yaylıq da örtürdülər.

Bəzi regionlarda çalma başda xüsusi sancaqlarla bərkidilirdi. Yalnız Şirvanda çalmanın sarınmasının bir neçə üsulu məlum idi. Dingənin bağlanması üçün şaldan istifadə olunurdu. O da çalma kimi başda sancaqla bərkidilirdi və çalmadan daha mürəkkəb baş geyimi idi. Qadın baş geyiminin ən sadə elementi ləçək (düzbucaq və

ya üçbucaqşəkilli yaylıq) idi. Ləçəyi ev işləri zamanı, eləcə də saça xına qoyanda bağlayırdılar.

Erkən orta əsrlərin Azərbaycan kişi və qadın geyimləri barəsində geniş formada məlumatları "Kitabı-dədə Qorqud" dastanından daha yaxşı əldə etmək mümkün olur. Sözü gedən mənbədəki şivə qadın geyimlərindən cübbə ("samur cübbə"), şalvar ("mahudlu şalvar"), kömlək (köynək), çuxa, qurşaq ("altundan kətan incə bezlər"), kaftan (qolları uzun yaxud qısa, yaxa hissəsi açıq, ağ və qırmızı parçadan ərsəyə gətirilən üst geyimi), niqab, duvaq, xanların tacı, bəylərin baş sangı (çalma), külah və çənbərin (dingə); ayaqqabı olaraq başmaq, ədık (uzunboğaz kişi ayaqqabısı) və sərmezənın (qadın ayaqqabısı) xalqın geyim fondunda əsas üstünlük təşkil etməsi aydınlaşır.

Sasanilər səcərəsinin ilk şahları hesab edilən qədim farsların enli və eyni zamanda uzun geyimlərinə oxşar libaslardan geniş istifadə etmişdilər. Azərbaycan torpaqlarının xilafət tərəfindən ələ keçirilməsi geyimlərin formalarına nəzərə çarpacaq dərəcədə fərqliliklər gətirdi.

Ta qədim zamanlardan bu günə kimi gəlib çatmış köynək, şalvar, kaftan, cübbə olan geyimlərin estetik olaraq görkəmini zərif ornamental parçalar və onların üzərində tətbiq edilən və qoşma bəzəklər daha cəlbedici və baxımlı edirdi. Vurğulamaq olar ki, orta əsr ünsürləri ən çox Səfəvi geyimində özünü göstərirdi.

XV-XVI əsrlərdə Azərbaycan geyimi daha çox inkişaf etməyə başladı. Araşdırmalardan məlum olur ki, bu dövr ərzində milli geyimin əsl məktəbi yaranmışdır. Belə ki, geyimə görə insanın hansı yaşda olduğunu, nə işlə məşğul olduğunu, ixtisasını, eyni zamanda sosial mənsubiyyətini aşkar etmək mümkün idi

XVI-XVII1əsrin qadın baş geyimləri də fərqliliyi ilə digərlərindən seçilirdilər. Sözü gedən əsrdə faydalanılan qadın baş örtükləri əsasən yeddi növə bölünür. Misal olaraq əlvan naxışlı örtükləri, zərif araq çınlar, xəzdən və yaxud məxmərdən hazırlanan papaqları göstərmək olar.

XVI-XVII əsrlərdə qadın baş geyimlərindən ən çox istifadə olunanı araqçınlar hesab edilirdilər ki, bu araqçınlar da qadın eyni zamanda qız araqcınlarına ayrılırdılar. Belə baş örtüklərini qadınlar, həyətdə, evdə, eyni zamanda qonaqlıqda taxardı.

XVI-XVII əsrlərdə Azərbaycan ərazisində qadın üst geyimləri də yetərincə fərqli formada idi. Ancaq biçimə görə qadın geyimi eyni dövrün kişi libaslarını xatırladırdı.

Qadınlar (xüsusən də imkanlı nümayəndələri), kişilərdə olduğu kimi çiyinlərinə sırf yaraşıq məqsədilə olan qolu uzun xələtlər atırdılar. Ancaq qadın libasları öz zərifliyi və zərin, daşqaşın azlığı ilə fərqlənirdilər.

Qadınlar arasında ən geniş yayılmış geyim növü arxalıq idi. Çəpkən kimi arxalıq da astarlı tikilirdi, biçimi isə, bədəndə bel nahiyəsinə kimi kip otururdu. Əvvəlki dövrlərdə olduğu kimi, XVIII yüzilliyin qadın baş örtükləri müxtəlifliyi ilə seçilirdi. Saçlarını yığmaq üçün qadınlar tənzifdən və kətandan istifadə edirdilər. Bu vasitələr tərin hopdurulmasına kömək edirdi (Naxçıvanda belə – baş örtükləri "təşbənd" adlandırılırdı). "Çuna" adı ilə tanınan baş geyimi ağrəngli pambıq parçadan hazırlanırdı. "Çartaq" adlı qadın baş geyimi isə narıncı və ya açıq çəhrayı rəngdəydi, bəzən lentlə bağlanırdı. Rəngbərəng kəlağayılar böyük populyarlıq qazanmışdır.

Bu dövrün ən geniş yayılmış növlərindən biri araqçın idi. Lakin bu araqçınlar XVI-XVII əsrlərdə geniş yayılmış eyni adlı baş geyimlərindən onunla seçilirdilər ki, bunların arxa hissəsində toxunma "torba"lar yox idi.

XIX-XX əsrin əvvəllərində gündəlikdə istifadə olunan ənənəvi geyim dəstinin bəzi komponentlərini arxeoloji sübutlarla müqayisəsi müəyyən ölçüdə onun müxtəlif formalarının yaranmasını və təşəkkül etməsini izləməyə şərait yaratmışdır. İndiki dövrə qədər gəlib çatmış bir sıra köhnə geyim komponentləri araşdırılarkən onlar Azərbaycanın təkibindəki ayrı-ayrı xalqların geyim komplektlərinə aid edilmiş, qalanlarıdar lokal xarakterdə olmuşdur.

Məlum olmuşdur ki, qadın geyimi tamamilə başqa yöndə təşəkkül tapırdı. Buna səbəb qadının müsəlman cəmiyyətindəki fəaliyyətinin məhdudlanması idi. Belə ki, qadının bütün əyləncələri nişan və toy, həmçinin ayrı-ayrı dini mərasimlərin qeyd edilməsinə enmişdir. Qadın, öz ərinin -maddi nöqteyi-nəzərdən digərlərindən seçilən tacirinin, fabrik sahibinin, işbazın cəmiyyətdə mövcud olduğu mövqeyinin təcəssümünə çevrilir.

Uzun illər ötdükcə təkmilləşən XIX əsrin müasir qadın geyim kompozisiyaları, fasonların-

da, koloritində, xarici quruluşunda da yeniliklərə uğrayırdı və hər zaman cəlbedici, rahat və rəngbərəng idi.

Bu geyimlərin mühüm və parlaq səciyyəvi özəlliklərini bir-biri ilə ciddi şəkildə əlaqəli olan zərif zövq və mühakiməli anlam əhatə edirdi. Sözügedən geyimlərin o qədər növləri var idi ki, istənilən mühitdə, fərqli insan məşğuliyyəti zamanı məqsədyönlü idi və insanın bədən quruluşunun, yaşının, xarici görünüşünün gözə çarpan xüsusiyyətlərinə cavab verirdi.

Azərbaycan milli geyimi yaş fərqinə görə də təsriflənirdi. Muzey kolleksiyalarında saxlanılan geyim və təsviri sənət nümunələrindən əldə olunan məlumata görə uşaqlar üçün nəzərdə tutulan oğlan və qız geyimləri ilə böyüklərin geyimlərində elə bir fərq yox idi. Balaca qızlar da eyni biçimli tuman, köynək, arxalıq, araqçın geyinər, örpək örtərdilər. Fərq yalnız tumanların nisbətən qısa, yəni topuğa qədər olması ilə və bəzək əşyalarının azlığı ilə nəzərə çarpırdı. Eyni fərqi oğlan uşaqlarının geyimində də müşahidə edə bilərik.

**Problemin aktuallığı.** Azərbaycan xalqının özünəməxsus geyim forması və davranış mədəniyyəti olmuşdur. Tarixi keçmişimizdən süzülüb gələn bu mədəniyyətin necə yaranması və formalaşması diqqəti o qədər də cəlb etməmişdi. Böyüyən nəslin xalqımızın geyim mədəniyyətini öyrənməsi və onu yaşatması, unudulmasına yol verməməsi üçün geyim tariximizi öyrənməsi zəruri məsələlərdəndir. Hər zaman aktuallığı ilə seçilən Azərbaycan qadınlarının geyim mədəniyyəti bu gün formalaşan yeniyetmə qızlarımızın əxlaq tərbiyəsində önəmli yer tutur. Bu baxımdan Azərbaycan xalqının geyim mədəniyyətinin öyrənilməsi zərurəti gündəmə gəlir.

**Problemin yeniliyi.** Məqalədə tarixən Azərbaycan qadınlarının geyim və davranış müəyyən edilmiş, dövrümüzə qədər onun inkişaf yolu öyrənilib ümumiləşdirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqat işi ilə məşğul olan hər bir kəs bu problemdən bəhrələnmək imkanı əldə edə biləcəkdir. Qadınlarımızın geyim formaları, dövr üçün onun formalaşması, yeni məzmun alması və ona müvafiq olaraq davranış mədəniyyətinin gündəmə gətirilməsi qadın geyimlərinin tarixinin öyrənilməsinin zəruriliyini artırır.

**Ədəbiyyat:**


1. Azərbaycan qadını ensiklopediyası.– Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyat-poliqrafiya birliyi, – 2002. – 402 s.
2. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika: Ali məktəblər üçün dərs vəsaiti. – Bakı: Renensans, – 2000, – 202 s.
3. Dünaymalıyeva S.Ş. Azərbaycan geyim mədəniyyəti tarixi. – Bakı: Elm, – 2013. – 181 s.
4. Əliyev H.Ə. Fəal həyat mövqeyinin formalaşdırılması: mənəvi tərbiyənin təcrübəsi və aktual problemləri. – Bakı: Azərnəşr, – 1979.
5. Əlizadə Ə.Ə. Qadın psixologiyası. – Bakı: Təhsil, 2015, – 416 s.
6. Hacıyeva, S.B. Azərbaycan ailəsində qız tərbiyəsinin etnopsixoloji xüsusiy-yətləri: / Psixologiya üzrə fəlsəfə doktoru dis. / –Bakı, 2005. – 133 s.
7. Hüseynzadə R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. – Bakı: ADPU, – 2020, – 538 s.
8. Qasımova L.N. Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən. – Bakı: Nurlan, – 2004, – 220 s.
9. Məmmədli Y. Davranış və nəzakət qaydaları. Goranboy, – 2020, – 187 s.


**E-mail:** Nnnnermin@mail.ru

**Rəyçilər:** *ped.elm.dok., prof.* **L.N. Qasımova,**
*ped.elm.dok., prof.* **R.L. Hüseynzadə**
**Redaksiyaya daxil olub:** 07.12.2023

## *AZƏRBAYCANIN ELM VƏ TƏHSİL XADİMLƏRİ*
## *ДЕЯТЕЛИ НАУКИ И ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНА*
## *FIGURES OF THE SCIENCE AND EDUCATION OF AZERBAIJAN*

## Vaqif Tapdıq oğlu Qurbanov – 80

*UOT 371*

# AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ METODİKASI ÜZRƏ GÖRKƏMLİ ALİM



### Doğulduğu rayonun dünəni və bu günü

Vaqif Tapdıq oğlu Qurbanov 1943-cü il may ayının 18-də də Əli Bayramlı rayonunun (hazırda Şirvan şəhəri ) Qarabağlı kəndində doğulmuşdur.

Əli Bayramlı rayonu 8 avqust 1930-cu il avqustun 8-də yaradılmışdı. Rayon 1952-ci il aprelin 3-dən 1953 aprelin 23-dək Bakı vilayətinə daxil olmuşdu. Əli Bayramlı 1963-cü ilədək rayon statusunda fəaliyyət göstərirdi. Kənd təsərrüfatı rayonu idi. Pambıqçılıq inkişaf etmişdi. Mən də Əli Bayramlı rayonda doğulmuş, əvvəlcə 1 nömrəli, sonra 2 nömrəli məktəblərində təhsil almışam. 6-cı sinifdə oxuyarkən bizi də – 2 nömrəli məktəbin şagirdlərini də rayonun Qarabağlı kəndinə – Vaqif Qurbanovun anadan olduğu kəndə pambıq yığımına aparmışdılar. Təbii ki, o zamanlar Vaqifi tanımırdım, tanıya da bilməzdim. Həm də o məndən 7 yaş böyük idi və orta məktəbi artıq bitirmişdi.

Vaxtilə pambıq palanını doldurmaq üçün kənd əməkçiləri ilə yanaşı rayon mərkəzində yaşayan, işləyən, məktəblərdə təhsil alan şagirdləri də bu işə cəlb edirdilər.

Əli Bayramlıda eyni zamanda sənaye obyektləri yaradılmaqda, tikinti-abadlıq işləri genişləndirilməkdə idi. Bir yandan neft yataqlarının tapılması və neft, digər yandan elektrik istehsalı rayonun əhəmiyyətini günü-gündən artırmaqda idi. Rayonda Avropada – birinci, dünyada ikinci yeri tutan ilk açıq tipli elektrik stansiyası fəaliyyət göstərirdi. Stansiyanın I mərhələsinin inşasına 1959-cu ildə başlanmışdır. Dövlət elektrik stansiyasının istismara verilməsi respublikamızda elektrik enerjisinə olan tələbatı tam şəkildə ödəyirdi.

Əli Bayramlı 1963-cü ilədək rayon idi. Sənayenin sürətli inkişafı, yeni-yeni iş yerlərinin açılışı rayonun şəhər statusu alması ilə nəticələndi. 1963-cü il yanvarın 4-də Əli Bayramlı rayonu ləğv edildi, ərazisi Sabirabad və Salyan rayonları və Əli Bayramlı şəhər soveti arasında bölüşdürüldü. Həmin ildən etibarən Qarabağlı kəndi Salyan rayonunun ərazisinə daxil oldu.

Bu il Əli Bayramlının şəhər statusu almasının 60 illiyi qeyd olunacaq. Şəhərin adı dəyişdirilərək Şirvan şəhəri adlandırılmışdır.

Respublikamızın müxtəlif rayon və şəhərlərindən buraya işləməyə gəlir və burada fəaliyyət göstərməyə, yaşamağa başlayırdılar. Əhali də artmaqda idi.

"**Çataram mən sizə bir gün vaxt olar, arzular, şirin-şirin arzular**" *(bir mahnıdan)*

Əli Bayramlı (hazırda Salyan) rayonunun Qarabağlı yeddiillik kənd məktəbində təhsilə başlayan Vaqif, Kərimbəyli kənd orta məktəbini bitirdi. Hələ IX sinifdə oxuyarkən Azərbaycan dili və ədəbiyyat müəllimi olacağına qərar vermişdi. Doğma dilini də, ədəbiyyatını da çox sevirdi. Azərbaycan tarixinə və coğrafiyasına da sevgisi, məhəbbəti böyük idi. Azərbaycan dili və ədəbiyyat müəllimi ixtisasının üzərində dayansa da, xalqımızın tarixi, adət-ənənələri, maddi və mənəvi sərvətləri, tarixi şəxsiyyətlər, dövlət xadimləri barədə zəngin məlumatlara yiyələnməkdə idi. Şirin-şirin arzularına çatmaq üçün sənədlərini o zamankı V.İ. Lenin adına APİ-yə (indiki ADPU-ya) verdi. İmtahanlara yaxşı hazırlaşmışdı. Gecəsini gündüzünə qatıb zəruri biliklərə yiyələnməsi onu arzusuna qovuşdurdu.

**"Gələcəyə inanan, tələbə, tələbə, tələbə"** *(Cabir Novruzdan).*

Vaqif instituta 1961-ci ildə qəbul olunmuş lakin ali təhsilini 1969-cu ildə başa vurmuşdu. Bu, səbəbsiz deyildi. Təhsil illərində ordu sıralarına çağırılmış, 3 il orduda xidmət etmişdi. Ordudan qayıtdıqdan sonra təhsilini davam etdirmişdi. İnstitutda oxuyarkən müxtəlif fənlər üzrə seminar məşğələlərinə ciddi, məsuliyyətlə hazırlaşaraq, şüurluluğu və fəallığı ilə seçilirdi. Həm orta, həm də ali məktəbdə oxuyarkən tədris materialının əzbərlənməsi kimi hallara yol verməmiş, sonralar öz şagirdlərindən də bunu tələb etmiş, onları başa salmışdı ki, şurlu öyrənilməyən material, qiymət və tərifləmək xatirinə əzbərlənənlər həqiqi bilik deyil, tez unudulur, o, bacarığa, vərdişə çevrilmir, onu həyatda tətbiq etmək qeyri-mümkün, yaxud çətin olur.

"**Müəllimlik sənəti şərəfli bir sənətdir**" *(Ümummilli Lider Heydər Əliyev demişdir)*

Vaqif Qurbanov pedaqoji fəaliyyətə Bakı şəhəri 179 nömrəli məktəbdə başlamışdı. Məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimi işləmiş, öz bilik və bacarığını şagirdlərdən əsirgəməmiş, dərsləri canlı, əyanilik üzərində qurmuş, məktəblilərin müstəqilliyini, fəallığını, şüurluluğunu diqqət mərkəzində saxlamışdır. Hələ o zamanlar o, şagirdlərinə pedaqoji prosesin bərabərhüquqlu üzvləri kimi yanaşır, onlara təlim-tərbiyə prosesinin obyekti ilə yanaşı eyni zamanda subyekti kimi baxırdı. Bunun nəticəsi idi ki, şagirdlərin Azərbaycan dili və ədəbiyyat fənnindən bilik və bacarıqları hiss olunacaq dərəcədə fərqlənir, onlar yüksək nəticələr göstərir, ali və orta ixtisas məktəblərinə daxil olarkən çətinlik çəkmirdilər.

Vaqif Qurbanov işlədiyi müddətdə məktəbin, rayonun və şəhərin fəal müəllimi kimi tanınmış, elmi-praktik konfranslarda və müşavirələrdə çıxışları ilə fərqlənmiş, "Qabaqcıl maarif əlaçısı" fəxri adına layiq görülmüşdü.

1975-ci ildə o, respublika səviyyəli elmi-praktik konfransda dörd ən yaxşı müəllimdən biri kimi diqqəti cəlb etmişdi. Onun dərslərindən bəzi məqamlar lentə alınmış, 12 dəqiqəlik tədris materialı hazırlanmış, eyni zamanda Bakı Şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutunda foto-sərgisi təşkil edilmişdi.

**"Elmi beşikdən qəbirədək öyrənin"** *(həzrəti Məhəmməd peyğəmbərin hədislərindən)*

Vaxtilə və hazırda ali təhsil müəssisələrində, Milli Elmlər Akademiyasında, digər elmi müəssisələrdə çalışan, yüksək elmi dərəcəyə və elmi ada yiyələnən şəxslər hamısı bu yolu keçib. Orta məktəbdə, hansısa müəssisə və idarədə çalışıb, sonra elmin enişli, yoxuşlu yolları onları cəlb etdiyindən, çətinliklərə baxmayaraq həmin yola çıxıb. Mənim kimi, Vaqif Qurbanov kimi.

Vaqif orta məktəblərdə tədrisini davam etdirməklə yanaşı 1975-ci ildə o zamankı Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutuna (hazırda Təhsil İnstitutu) pənah gətirib, elmi işlə məşğul olmaq istədiyini bildirib.

İnstitutda işləməyə başlayanda professor N.M. Kazımov direktor vəzifəsini icra edirdi, Zahid Qaralov direktor müavini idi. 1976-cı ildən instituta görkəmli pedaqoq Zahid Qaralov rəhbərlik etməyə başladı. Uzun illər bu vəzifədə işlərdi. Bir müddət Maarif nazirinin müavini, daha sonralar ki çağırış Milli Məclisin deputatı, komissiya sədri oldu.

Vaqif müəllim professor görkəmli dilçi və Azərbaycan dilinin tədrisi metodikası üzrə məşhur alim professor Əziz Əfəndizadənin rəhbərlik

etdiyi şöbədə çalışırdı. Kiçik elmi işçi vəzifəsinə qəbul olunmuşdu, sonralar həm də institutun dissertantı oldu, namizədlik (hazırda fəlsəfə doktoru) dissertasiya üzərində işlədi. Elmi rəhbər kimi professor Əziz Əfəndizadə təyin olundu. Əziz müəllim bir çox elmlər namizədi, elmlər doktoru yetişdirmişdi. Onların arasında Vaqif müəllim seçilirdi. Tədqiqatçılıq səriştəsinə, şəxsiyyət bütövlüyünə görə, öz fikri, sözü olmasına, öz elmi mövqeyini, elmi ideyalarını müdafiə edə bilməsinə görə. Vaqif Qurbanovu o zamanlar da, indinin özündə də professor Əziz Əfəndizadə məktəbinin layiqli davamçısı hesab edirlər.

Professor Fikrət Xalıqov 2013-cü il may ayının 31-də "Azərbaycan müəllimi" qəzetində V.T. Qurbanova həsr və dərc etdirdiyi məqaləsinə məhz belə ad verib: "Əziz Əfəndizadə məktəbinin layiqli davamçısı".

Vaqif müəllim özü bu haqda belə deyir: "Mən Əziz Əfəndizadə linqvometodika məktəbinin davamçısıyam; bu adı daşımaqla fəxr edirəm".

Vaqif Qurbanov 1986-ci ildə "Azərbaycan dilinin sistematik kursunda söz birləşmələri tədrisinin linqvodidaktik əsasları" mövzusunda dissertasiya müdafiə edərək, pedaqoji elmlər namizədi alimlik dərəcəsi, bir müddət sonra dosent elmi adı aldı. Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutuna (hazırda Təhsil İnstitutu) tədqiqatlarını davam etdirməkdə idi. Professor Əziz Əfəndizadənin məsləhəti ilə doktorluq dissertasiya mövzusu təsdiq etdirdi.

Hələ 1986-ci ildə Əziz müəllim Vaqif Qurbanovun dissertasiyasına elmi rəhbər rəyi yazarkən həmin rəydə belə bir fikir öz ifadəsini tapmışdı: "Vaqif Qurbanov artıq didakt kimi formalaşmışdır".

Bu, təbii ki, gənc tədqiqatçı üçün böyük dəyər idi. Vaqif müəllim həmin rəyi xatırlayaraq deyir: "Bu mənim üçün həm yüksək qiymət oldu, həm də kredo, daim öyrənmək, öyrənmək, yenə də öyrənmək kredosu".

Sonra Vaqif müəllim mənə müraciətlə dedi: "İndi də ki siz mənə layiq olduğum qiyməti verirsiniz, deməli, mən xoşbəxtəm və 80 ili, Ənvər müəllimin vaxtilə dediyi kimi, küləyə verməmişəm. Həmçinin də sizin kimi dostlarım var".

Vaqif Qurbanov 2015-ci ildə "Azərbaycan dili təlimində fəndaxili əlaqələrdən istifadə üzrə işin sistemi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək pedaqogika elmləri doktoru elmi dərəcəsi aldı.

**Müxtəlif vəzifələrdə işləməyə dəvətlər aldı**

Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu (hazırda Təhsil İnstitutu) burada çalışan əməkdaşlar üçün "tramplin" rolunu oynayıb. Daha doğrusu, burada yüksək uğurlar qazandıqlarına görə çoxları müxtəlif ali məktəblərə, başqa nüfuzlu təhsil müəssisələrinə, rəhbər vəzifələrə, Maarif (hazırda Təhsil) nazirliyi sistemində işə dəvət olunublar. SSRİ EA-nın müxbir üzvü, Azərbaycan EA-nın həqiqi üzvü, respublika EA-nın Fəlsəfə İnstitutunun direktoru olmuş Aleksandr Osipoviç Makovelski, professor Komarovski, akademiklər Mehdi Mehdizadə, professorlar Nurəddin Kazımov, Əhməd Seyidov, Mərdan Muradxanov, Əjdər Ağayev, Yusif Talıbov, Aben Kərimov və başqaları institutda işləmiş, sonralar müxtəlif təhsil müəssisələrində öz fəaliyyətlərini davam etdirmişlər.

Vaqif Qurbanov da diqqət mərkəzində idi. Odur ki, dəvətlərə əsasən, "Azərbaycan məktəbi" jurnalının baş redaktor müavini (1987-1999), "Ana sözü" jurnalının baş redaktor müavini (1990-1992), Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasında Humanitar və ictimai elmlər şöbəsinin rəis müavini (1992-1996) vəzifələrində işlədi.

**Azərbaycan Müəllimlər İnstitutunda işə dəvət olundu**

Azərbaycan Müəllimlər İnstitutunda Azərbaycan dilinin tədrisi metodikası ixtisası üzrə mütəxəssisə ehtiyac vardı. Rəhbərliyə Vaqif Qurbanovu məsləhət gördülər. Vaqif müəllim dəvəti qəbul etdi və burada dosent vəzifəsində (1999-2016) çalışmağa başladı. İnstitutda "Azərbaycan dili tədrisinin aktual problemləri", "Azərbaycan dilinin tədrisi metodikası" və "Nitq mədəniyyəti" fənlərini tədris etdirdi.

Pedaqoji kollektivin üzvləri də, rəhbərlik də, tələbələr də Vaqif müəllimdən razılıq edir, onun səriştəli müəllim olduğunu, öz fənnini nəzəri və metodik baxımdan əla bildiyini, müəllimin etik davranış qaydalarını yüksək səviyyədə yerinə yetirdiyini, müəllim-tələbə münasibətlərini, pedaqoji əməkdaşlıq məsələlərini tələb olunan səviyyədə qurduğunu etiraf edirdilər.

Azərbaycan Müəllimlər İnstitutu fəaliyyətini dayandırdıqdan sonra Vaqif müəllim Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasında (2016-cı ildən) çalışır. "Oxu təlimi" və "Dil qaydaları təlimi" fənlərindən mühazirələr oxuyur.

**Vaqif müəllimin elmi-pedaqoji yaradıcılığı**

Vaqif Qurbanov iki ay olardı ki, Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutuna işə qəbul olundu. Professor Əziz Əfəndizadə etimad göstərərək, "Orta məktəbdə Azərbaycan dili tədrisi" adlı vəsaitin II hissəsində fel bəhsinin tədrisi ilə bağlı material hazırlamağı ona tapşırdı. Bu inamı, bu etimad Vaqif müəllimi elmi yaradıcılığa həvəsləndirdi, özünə inamı artırdı.

O, 150-dən çox elmi-metodik əsərin müəllifidir. Təkcə doktorluq dissertasiyasının məzmunu, əsas elmi ideyaları və tədqiqatın nəticələri ilə bağlı 85 elmi-metodik əsər nəşr etdirmişdir. Həmin elmi əsərlərdən 16-sı Rusiya, Ukrayna və Qazaxıstan respublikalarının nüfuzlu jurnallarında çap olunub.

**Əsas elmi əsərləri:**

1. Azərbaycan dilinin tədrisi metodikası: Dərslik. Bakı, 2015.
2. Azərbaycan dili təliminin aktual problemləri. Bakı, 2009.
3. Söz birləşmələri tədrisinin linqvodidaktik əsasları. Bakı, 2015.
4. Dil tədrisinin aktual məsələlərinə dair. Bakı, 2010.
5. Nitq mədəniyyəti və üslubiyyat. Bakı, 2012, 2013, 20140cü il nəşrləri.

**Dərslikləri**:

1. Azərbaycan dili təlimində fəndaxili əlaqələr. Bakı, 2008.
2. Azərbaycan dili: Təlim rus dilində olan məktəblərin I sinifləri üçün.
3. Azərbaycan dili: Təlim rus dilində olan məktəblərin 7-ci sinifləri üçün.
4. Azərbaycan dili: Təlim rus dilində olan məktəblərin 8-ci sinifləri üçün.
5. Azərbaycan dili: Təlim rus dilində olan məktəblərin 9-cu sinifləri üçün.
6. Ədəbiyyat: Ümumtəhsil məktəblərinin 6-cı sinifləri üçün.

Vaqif Qurbanov hazırda Azərbaycan dili fənn kurikulumu metodologiyası sahəsində inteqrasiya problemi ilə məşğul olur. Azərbaycan Respublikası Təhsil Nazirliyində yeni dərsliklərin yaradılması üzrə şura üzvü kimi də ictimai fəaliyyət göstərir.

**Professor Vaqif Qurbanovun etirafları**:

"Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda çalışdığım ilk iki ildə buradakı alimlərdən, xüsusilə Əziz müəllimdən çox şey öyrəndim. Nizamlı-səliqəli cümlələr qurmaq, sərbəst və məntiqli danışmaq və yazmaq, tədqiqatçılıq səriştəsi, xeyirxah əməllər, əvəzini gözləmədən yaxşılıqlar etmək, insanlar arasında fərq qoymamaq, gənclərə inanmaq, əsl elmi rəhbər, əsl yoldaş, əsl insanlığı zinətləndirmək o dövr alimlərinin həyat şüarı idi. Əziz müəllimin dediklərini həmişə nəzərə almışam və xeyrini görmüşəm. Ustadım məndən razılıq edirdi: "Vaqif müəllim iki ildən gec olmayaraq müdafiə etməlidir. Dərslərini çox bəyənmişik, yaxşı metodist alim olacaq". Həmin sözləri indi həyəcansız dilimə gətirə, yaza bilmirəm.

Hazırda çalışdığım Azərbaycan Dövlət Pedaqoji Universitetin rəhbərliyindən də özümə qarşı hörmət və diqqət görürəm. Belə bir diqqət mənə vaxtilə Əziz müəllim Əfəndizadədən və sizlərdən olub, təbii ki. Universitet rəhbərliyi mənim professor seçilməyimə şərait yaratdı, əmrlə professor vəzifəsinə təyin etdi. Heç kəsdən, heç nədən şikayətim yoxdur. İmanlı insanlarla əhatə olunmuşam. Filologiya fakültəsinin təşəbbüsü ilə 80 illiyim qeyd olundu.

Nə şərəfə, nə şöhrətə meylim var. Mənə uğur gətirən "Nitq mədəniyyəti" fənni üzrə mühazirələrim olub. Kitablarımda "Natiqlikdə", "Nizami Gəncəvi kursu" "İmaməddin Nəsimi kursu", "Məhəmməd Füzuli kursu", "Mirzə Ələkbər Sabir kursu", "Hüseyn Cavid kursu", "Səməd Vurğun kursu", "Heydər Əliyev siyasi natiqlik kursu" kimi bölmələrim var. Hər biri də 2 dərs saatlıq. M.Ə. Sabir yaradıcılığından min misradan çox əzbər şeir deməyim də var. Tələbələrə öyrətmək üçün. Filoloq tələbələrə. Daha özünü tərifdən çıxıram... Metodist və didakt alimlərin elmə gətirdiklərindən də yazmışam. Onların dil təliminin qanunları, prinsipləri, metodları haqqında da fikirlərini də bir-bir sadalayıb, şərh edirəm. Mənim azdan-çoxdan başım çıxan bir şey varsa, o da dərs fəlsəfəsidir. Ona didaktika fəlsəfəsi deyilir.

Klassik didaktikaya, "Böyük didaktika"ya da bələdəm. Y.A. Komenskiyə də, Nəsirəddin

Tusiyə də. Nəsirəddin Tusi Aristotel davamçısıdır. Amma nə qədər sadə alim olub və yazıb:

“Mən bəhs etdimsə, bir çox elmdən,
Onları ürəkdən şərh etdimsə mən,
Əqlimin gözü ilə baxanda gördüm,
Dünyada heç bir şey bilməmişəm mən”.

İndi görürsən ki, mən nə üçün özünütərifdən uzağam. Şeyx Sədi pedaqogikası da belədir:

“Alimlər o qədər sadə olurlar,
Özlərinə alim demirlər onlar” .

Eqoizmdən uzağam (başqalarına baxanda, əlbəttə).

Müasir təlim metodologiyasına dair didaktik mülahizələr söyləyə bilərəm. (Ancaq özünü tərifdən qorxuram).

**Vaqif Qurbanovun didaktik fikirləri:**

1. Dil təliminin 4 məzmun xətti əsasında qurulması dərin metodologiyasıdır. Ənənəvi isə, bir məzmun xətti üzərində qurulardı. Odur ki, 4 at gücü bir at gücündən, əlbəttə ki, mükəmməl olmalıdır.

2. Müasir dil təliminin nitq praktikası üzərində qurulması obyektiv reallıqdır. Dil dərsləri mətnlərlə, yəni nümunə kimi nitq parçası ilə başlayır. Mətnlər üzərində fonetik, leksik... üslubu işlər həyata keçirilir. Bu dinamik nitq-dilnitq formulasıdır. Belə bir formula inkişafetdirici təlim nəzəriyyəsidir. Mən belə düşünmüşəm.

3. Dil təlimində təlim məqsədi, nəticələri və standartları şagirdlərin nitqini zənginləşdirdikcə onların təfəkkürü zənginləşir, təfəkkürü dərinləşdikcə, dünyagörüşü genişlənir.

4. Azərbaycan dilindən dərsliklərdə verilən əsas və dinləmə mətnləri, hesab elə ki, ifadə mətnidir. Onların nəticə etibarilə inşaya çevirmək şagirdlərin yaradıcı fəaliyyətini təmin edirsə, mətnlərin məna və məzmununun aşılanması tərbiyəedici təlim və ya müasir didaktika hesab olunur.

5. Dinləyib-anlama və danışma kurikulumda birinci məzmun xəttidir. Ona görə ki, dinləməsən anlamaz, anlamasan, danışa bilməzsən. (Nədənsə biz dinləməni-başqalarına qulaq asıb öyrənməyi mədəniyyət səviyyəsinə qaldıra bilmirik).

**Vaqif Qurbanovla tanışlığım:**

1973-1975-ci illərdə mən Sabirabad rayonunun Şıxsalahlı və Qaragüney kənd məktəblərində ingilis dili müəllimi işləyirdim. “Azərbaycan müəllimi” qəzetində bir elana rast gəldim. Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu (hazırda Təhsil İnstitutu) yeni yaradılmış Tərbiyənin ümumi problemləri şöbəsində kiçik elmi işçi vəzifəsini tutmaq üçün müsabiqə elan etmişdi. Elmi işlə məşğul olmaq mənim də böyük arzum idi. Sənədlərimi müsabiqəyə təqdim etdim və müsabiqədən keçdim. O vaxtdan bu institutda çalışıram. Az qala 50 il ola. Vaqif Qurbanovla burada tanış olmuşam. İllər keçdi. Münasibətlərimiz həmişə yaxşı olub. Vaqifi xeyirxah, ədalətli, zəhmətkeş insan, gözəl alim, sədaqətli dost, bel bağlayası yoldaş, güclü məntiqə, elmi təfəkkürə malik bir şəxs kimi tanımışam və tanımaqda davam edirəm.

İllərə nə var ki. İllər keçir, amma səni sınaya-sınaya. Çətinliyə sala-sala, iradəni yoxlaya-yoxlaya. Qoyub getdiyin izləri vərəqləyə-vərəqləyə. Xoşbəxt o adamdır ki, özündən sonra yaxşı iz qoyur. Bu mənada dostum, pedaqogika elmləri doktoru, professor Vaqif Tapdıq oğlu Qurbanov öyünə bilər. İllərin sınağından yaxşı çıxıb. İllərin arxasını yerə vura-vura gəlib 80 yaşına çatıb. Amma, göz dəyməsin ona, heç 80 yaşında kişiyə oxşamır. Şuxdur, çevikdir, zarafatlarından qalmır, nikbindir, qayğıkeşdir. Övladlarını yerbəyer edib. Nəvələri var. Onlar da bir yandan xoşbəxtliyini artırır, həyatın gözəlliklərindən zövq almasına, ömrünün daha da uzanmasına kömək göstərir. İş yoldaşlarının da, dostlarının da bu sahədə özünəməxsus payı var. Biz Vaqifin xətrini çox istəyir, bir dost, yoldaş, alim kimi onu çox sevirik. O bizi çox sevir. Deyir mən ailəmin, dostlarının əhatəsində xoşbəxtəm, ömrümün uzanmasının səbəbi, səbəbkarı da bunlardır.

Əziz dost 80 yaşın mübarək!!!

**Akif Abbasov**,
*Azərbaycan Respublikasının Təhsil İnstitutun elmi katibi, pedaqogika elmləri doktoru, professor, Əməkdar müəllim*

***Natiq Lyutfik oğlu Axundov – 70***

*UOT 371*

# PEDAQOJİ ELMİN LAYİQLİ NÜMAYƏNDƏSİ, *"BAŞQALARININ HALINA FAYDALI OLAN"* İNSAN



**"Başqalarının halına faydalı olan"**

Həzrəti Məhəmməd peyğəmbərin belə bir kəlamı var: "Ən yaxşı insan – başqalarının halına daha faydalı olandır". Həmin kəlam rastıma çıxanda bir anlıq Natiq yadıma düşür. Hansı Natiqi deyirəm? Axundov Natiqi. Bizim institutun baş mütəxəssisi Natiqi. Niyə Natiqi xatırlayıram? O, elmlə məşğul olmaqla, ümumtəhsil məktəbləri üçün dərsliklər yazmaqla yanaşı həm də institut həmkarlar təşkilatının sədridir. Həmkarlar təşkilatı işçilərin pənahıdır, dayağıdır, iş yerində onların əmək, sosial, iqtisadi hüquqlarının qoruyucusu, qanuni mənafeyinin müdafiəçisidir. El arasında belə söz var: "Mən gözümü açandan..." Mən də gözümü açandan Natiq aparıcı elmi işçi, şöbə müdiri, baş mütəxəssis işləyə-işləyə həmkarlar təşkilatına da sədrlik edib və indi də təşkilatın sədridir. İşləri avand olsun!

Onun həmkarlar təşkilatındakı fəaliyyəti barədə çox da geniş danışmıram. Əsas fəaliyyəti kölgədə qalmasın deyə.

**Elm öyrənmək və onu başqalarına öyrətmək**

Peyğəmbərimizin belə bir kəlamı da var: "Ən dəyərli sədəqə müsəlmanın elm öyrənməsi və onu başqalarına öyrətməsidir". Natiq müəllim uzun illərlədir bu yolu tutub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin fizika fakültəsini bitirərək (1974) təyinat üzrə Bakı şəhəri 67 nömrəli orta texniki peşə məktəbində fizika müəllimi işləmiş, 1979-cı ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutunda (sonralar Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu, hazırda Azərbaycan Respublikasının Təhsil İnstitutu) kiçik elmi işçi, Əmək təlimi və peşəyönümü şöbəsinin müdiri, Əmək təlimi və texniki peşə təhsili şöbəsinin müdiri, Ali və orta ixtisas şöbəsinin aparıcı elmi işçisi, Kurikulum Mərkəzinin İncəsənət və texnologiya fənlərinin təlimi bölməsinin müdiri vəzifəsində çalışmışdır. Hazırda Təlimin nəzəriyyəsi və metodikası şöbəsinin baş mütəxəssisi vəzifəsində işləyir. Bu instituta onu elmi işə maraq gətirib çıxarıb.

Çelyabinsk şəhərində T.T. Şevçenko adına Dövlət Pedaqoji Universitetində "Orta məktəbin fizika kursunda "Mexaniki rəqslər" və "Elektromaqnit rəqsləri" bölmələrinin məzmununun və tədrisi metodikasının təkmilləşdirilməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək (1989) pedaqoji elmlər namizədi elmi dərəcəsi almışdır. Daha sonra dosent elmi adına layiq görülmüşdür.

Dissertasiya işində orta məktəbin fizika kursunda "Mexaniki rəqslər" və "Elektromaqnit rəqsləri" bölmələrinin məzmununa və tədrisi metodikasına ənənəvi yanaşma tamamilə yenilənmiş, rəqsləri və rəqsi sistemləri səciyyələndirən kəmiyyətlər *kinematik, xarakteristik və parametrik* olaraq qruplaşdırılmışdır;

N.L. Axundov tərəfindən *sürtünmə, ətalət, elastiklik* kimi parametrik anlayışlara uyğun olaraq ilk dəfə *sürtünmə müqaviməti, ətalət müqaviməti, elastiklik müqaviməti* kimi politexnik anlayışlar daxil edilərək uyğun mövzular və onların təqdimatının yeni məntiqi şərhi hazırlanmış və rəqsi sistemlərin tədrisində vahid kəmiyyət qiymətləndirməsi üsulu öz əksini tapmışdır.;

Yeni daxil edilmiş parametrlər üzrə rəqsi və qeyri-rəqsi sistemlərin fərqləndirilməsi ideyası irəli sürülmüş, bunun təzahürü masa üzərindəki kitabın, lövhə üzərində tabaşirin, silindrdəki porşenin məcburi rəqsi hərəkəti ilə aydınlaşdırılaraq təsdiqlənmiş və yaylı rəqqas, avtomobil amortizatoru nümunələri ilə ümumiləşdirilmişdir.

Dissertasiyada rəqsi sistemlərin kəmiyyət təhlili üçün tam və ümumi müqavimət əvəzinə *"Kompleks müqavimət"* kimi elmi anlayışdan istifadə olunmuş, hər bir paraqraf üçün faktiki materialın sistemləşdirilməsini və möhkəmləndirilməsini təmin etmək məqsədilə suallar hazırlanmışdır.

Aparılan tədqiqatın praktik əhəmiyyəti ondan ibarət idi ki, təklif olunan metodika şagirdlərin elmi dünyagörüşündə tamamilə yeni keyfiyyət yaradır, onların fiziki, riyazi və qrafik təfəkkürünü inkişaf etdirərək politexniki hazırlığın elementləri ilə zənginləşdirir.

Natiq respublika Prezidentinin yanında AAK-ın ADPU-nun nəzdində fəaliyyət göstərən FD 02.061; FD 2.15 və B/D 02.061 dissertasiya şuralarının üzvü olmuşdur.

**Tədqiqatları**

Tutduğu vəzifədən asılı olaraq elmi yaradıcılığını şagirdlərin politexnik təhsilinə sərf edən Natiq müəllimin "Texnologiya fənninin tədrisində formativ qiymətləndirmə mexanizminin hazırlanması" adlı elmi tədqiqat işində şagirdlərin şifahi cavablarının, praktik işlərinin, praktik işi icra etdikdə təhlükəsizlik texnikası və sanitar-gigiyena qaydalarına əməl edilməsi tələbləri və layihələrin təqdimatının qiymətləndirilməsi üzrə meyarlar işlənilmişdir. Bu tədqiqat işində şagirdlərin bilik və bacarıqlarının test üzrə qiymətləndirilməsi meyarlarının işlənilməsi texnologiya müəllimlərinə qiymətləndirmə sahəsindəki çətinlikləri aradan qaldırmağa imkan verir.

"İbtidai siniflərdə texnologiya fənninin tədrisində şagirdlərin estetik tərbiyəsinin inkişaf etdirilməsi" adlı əsərində alim şəxsiyyətin hərtərəfli inkişafında estetik tərbiyənin rolundan bəhs edərək, texnologiya dərslərində estetik inkişaf, estetik zövq, estetik ideal, estetik hiss kimi anlayışların izahını vermişdir. O, bu elmi işində ibtidai siniflərin texnologiya dərslərində şagirdlərin estetik tərbiyəsinin əsas şərtlərinin əlverişli iş şəraitinin yaradılmasından, işin məqsədinin müəyyənləşdirilməsindən, əmək obyektinin seçilməsindən və hazırlanacaq məmulatların estetik təhlilindən ibarət olması nəticəsinə gəlmiş və bu şərtlərin mexanizmini müəllimlərə izah etmişdir.

**Pedaqoji fəaliyyəti**

Elmi işlə yanaşı eyni zamanda ümumtəhsil və ali məktəblərdə, Qərb universitetinin nəzdindəki orta ümumtəhsil məktəbində, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbində, Bakı Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması və Respublika Müəllimləri Təkmilləşdirmə İnstitutlarında müəllimlik etmişdir.

Təhsillə bağlı müxtəlif təşkilatların təşkil etdikləri kursların iştirakçısı olmuşdur. Çoxsaylı sertifikatları vardır.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin şəhər və rayon müəllimləri üçün "Yeni fənn kurikulumlarının tətbiqi" layihələri üzrə 10 günlük kurslarda 2009-cu ildən etibarən təlimçi kimi fəaliyyət göstərmişdir.

I sinif müəllimləri üçün yeni fənn kurikulumlarının tətbiqi ilə bağlı Bərdə, Hacıqabul, Kürdəmir, Salyan, Ağdam, İmişli, Sabirabad, Ucar, Göyçay, Tərtər, Ağcabədi, Qusar, Yevlax rayonlarında təşkil edilmiş kurslarda, eyni zaman da UNİCEF-in Bakı Avropa Liseyində, V-VI sinif şagirdlərinə texnologiya fənni üzrə dərs deyəcək müəllimlər üçün yeni fənn kurikulumları üzrə Samux, Qazax, Goranboy, Yardımlı, Biləsuvar, Neftçala, Beyləqan rayonlarındakı təhsil kurslarında təlimçi olmuşdur (2012-2014).

**Təltifləri**

Azərbaycan təhsilinin inkişafındakı səmərəli fəaliyyətinə görə "Qabaqcıl maarif xadimi", SSRİ maarif əlaçısı, "Qabaqcıl maarif əlaçısı" Azərbaycan Respublikasının Əməkdar müəllimi fəxri adları almışdır.

**Dərsliklər müəllifi kimi**

Natiq Axundov 2006-ci ildən etibarən Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin texnologiya fənn kurikulumu üzrə işçi qrupunun sədridir.

O, 254 sayda məqalə, dərslik, dərs vəsaiti, metodik vəsait, şagird üçün iş dəftəri və proqramların müəllifidir. Ümumtəhsil məktəblərinin I-IX sinifləri üçün “Texnologiya” dərsliklərinin və Texnologiya fənni üzrə müəllim vəsaitlərinin müəllifi və həmmüəllifidir. Dərslikləri Azərbaycan, rus, gürcü və ingilis dillərində nəşr olunmuşdur.

“Texnologiya” dərslikləri (birinci müəllif N.L. Axundov, ikinci müəllif H.H. Əhmədov olmaqla) həmmüəlliflərlə yazılmışdır. İ-IX siniflərin dərsliklərində özünə yer almış bəzi bölmələri diqqət mərkəzinə gətirək: “Məişət mədəniyyəti”, “Plastilinlə yapma”, “Aplikasiya”, “Mozaika”, “Kağızla iş” və s. (I sinifdə); “Kağızqatlama, hörmə, tikmə və naxıştikmə”, “Modelləşdirmə” və s. (II s.); “Ağac və metalın bədii emalı texnologiyası”, “Sadə təmir işləri”, “Elektrotexniki işlər”, “Qida məhsulların emalı texnologiyası”, “Parçanın emalı texnologiyası” və s. (III s.); “Texnologiyalar və texnoloji vasitələr”, “ “Kağız və karton emalı”, “Müxtəlif materiallardan quraşdırma” və s. (IV s.); “Qrafik savad elementləri”, “Ərzaq məhsullarının emalı texnologiyası” və s. (V s.); “Oduncağın emalı texnologiyası”, “Metalların emalı texnologiyası”, “Parçanın emalı texnologiyası və naxıştikmə” və s. (VI s.); “Elektrotexniki işlər”, “Parçanın emalı texnologiyası” və s. (VII s.); “Ağac və metalın bədii emalı texnologiyası”, Qida məhsullarının emalı texnologiyası” və s. (VIII s.), “Konstruksiya materiallarından məmulatların hazırlanması texnologiyası”, “Sadə təmir işləri” və s. (IX s.).

**Respublika Elm və Təhsil Nazirliyinin tapşırığı ilə gördüyü işlər**

Respublika Təhsil nazirinin əmri ilə dəfələrlə bir çox ali və orta ixtisas məktəblərində Texnologiya fənni üzrə Dövlət İmtahan Komissiyasının sədri olmuş, respublikamızın bir sıra rayonlarında Təhsil işçilərinin sentyabr (əvvəllərdə avqust) konfranslarında Təhsil Nazirliyin nümayəndəsi kimi iştirak və çıxış etmişdir.

**İctimai işləri**

Natiq müəllim Azərbaycan Respublikası Uşaq fondunun “Təhsil və səhiyyə” qrupunun üzvüdür.

**Əsas əsərləri**

1. Azərbaycan Respublikasının məktəblərinin təhsil standartları. “Texnologiya” (həmmüəlliflərlə).
2. Əmək təlimi: 5-ci siniflər üçün dərslik (həmmüəlliflərlə).
3. Texnologiya: I-IX siniflər üçün dərsliklər (müxtəlif illərdə, Azərbaycan, rus, gürcü və ingilis dillərində, həmmüəlliflərlə).
4. Texnologiya dərsliklərinə metodik rəhbərliklər (müəllim üçün vəsaitlər) – müxtəlif illərdə, həmmüəlliflərlə və s.

**Təbrikimiz**

1953-cü il avqustun 15-də Göyçayda qulluqçu ailəsində doğulan Natiq Axundov 1970-cı ildə Bakıdakı 176 №-li məktəbi bitirmişdir. 1974-75-ci illərdə SSRİ Ordusunun Almaniyadakı Hərbi Hava Qüvvələri sıralarında hərbi xidmətdə olmuşdur. Bu il onun 70 yaşı tamam olur. Biz pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Əməkdar müəllim Natiq Lyutfiq oğlu Axundovu yubileyi münasibəti ilə səmimi qəlbdən təbrik edir, ona yeni yaradıcılıq uğurları, can sağlığı, uzun ömür arzulayırıq.

**Akif Abbasov,**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi,*
*pedaqogika elmləri doktoru, professor, əməkdar müəllim*
**Redaksiyaya daxil olub:** 28.11.2023

## *MƏKTƏB VƏ PEDAQOJİ FİKİR TARİXİ*
## *ИСТОРИЯ ШКОЛЫ И ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ*
## *HISTORY OF SCHOOL AND PEDAGOGICAL THOUGHT*

*UOT 371*

***Afaq Umudvar qızı Hüseynzadə-Kiçikbəyova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Quba filialının Humanitar elmlər kafedrasının müəllimi*

# ƏLİ BƏY HÜSEYNZADƏNİN İCTİMAİ-SİYASİ GÖRÜŞLƏRİ VƏ MƏDƏNİ FİKİRLƏRİ

***Афак Умудвар гызы Гусейнзаде-Кичикбейова***
*Преподаватель кафедры Гуманитарных наук Губинского филиала*
*Азербайджанского Государственного Педагогического Университета*

# ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ВЗГЛЯДЫ И КУЛЬТУРНЫЕ МЫСЛИ АЛИ-БЕЯ ГУСЕЙНЗАДЕ

***Afag Umudvar Huseynzader-Kichikbayly***
*teacher of the department of Humanities at the Guba branch*
*of the Azerbaijan State Pedagogical University*

# PUBLIC POLITICAL VIEWS AND CULTURAL THOUGHTS OF ALI BEY HUSEYNZADE

**Xülasə.** Məqalə Azərbaycanın filosofu, ədibi və ədəbiyyat tənqidçisi, XX əsr Azərbaycan-türk ictimai fikrinin ən görkəmli simalarından biri olan, həmçinin uzun müddət həkim, alim, rəssam, şair, tənqidçi, tərcüməçi, jurnalist, müəllim kimi fəaliyyət göstərən hər birində öz izini, irsini qoymuş Əli bəy Hüseynzadənin ictimai-siyasi görüşlərinə həsr olunmuşdur. XX əsr Azərbaycan ictimai fikir tarixinin görkəmli nümayəndəsi Əli bəy Hüseynzadənin Azərbaycan məktəb və pedaqoji fikir tarixinin öyrənilməsində, xalqımızın milli oyanışında, milli məfkurənin yaranmasında, milli özünüdərk və dirçəlişində, milli dövlətçiliyimizin formalaşmasında, milli maarifçilik hərəkatının tərəqqisində, mətbuat və mədəniyyətimizin inkişafında müstəsna xidməti vardır.
***Açar sözlər:*** *Əli bəy Hüseynzadə, türkçülük, islamçılıq, turançılıq, müasirlik*

**Резюме.** В данной статье прослеживается наследие одного из известных азербайджанских философов, писателей и литературоведов, виднейшего деятеля азербайджано-турецкого общественного мнения XX века, а также врача, ученого, художника, поэта, критика, переводчика, журналиста, преподавателя. Статья посвящена общественно-политическим собраниям Али бека Гусейнзаде. Али Бек Гусейнзаде, видный представитель истории азербайджанского общественного мнения XX века, внес исключительный вклад в изучение истории азербайджанской школы и педагогической мысли, национального пробуждения нашего народа, формирования национальной идеологии и национального самосознания.
***Ключевые слова:*** *Али бек Гусейнзаде, тюркизм, исламизм, туранизм, современность*

**Summary.** This article traces the legacy of each of the Azerbaijani philosophers, writers and literary critics, one of the most prominent figures of the twentieth century Azerbaijani-Turkish public opinion, as well as a doctor, scientist, artist, poet, critic, translator, journalist, teacher. It is

dedicated to the socio-political meetings of Ali bey Huseynzade. Ali Bey Huseynzade, a prominent representative of the history of twentieth-century Azerbaijani public opinion, has an exceptional contribution to the study of the history of Azerbaijani schools and pedagogical thought, the national awakening of our people, the formation of national ideology, national consciousness and revival, the formation of our national statehood.

***Key words:*** *Ali bey Huseynzade, Turkism, Islamism, Turanism, modernity*

Görkəmli pedaqoq, mütəfəkkir, elm xadimi, publisist, şair, nasir, tənqidçi, tərcüməçi, filosof Əli bəy Hüseynzadə həmçinin istiqlaliyyət mübarizəsi, milli qurtuluş hərəkatının carçısı olmuşdur. Görkəmli mütəfəkkirin həyatında olan bu hadisələr təsadüfi olaraq baş verməmişdi. Belə ki, XIX əsrdən başlayaraq Şərq ölkələrinin imperialist dövlətlər tərəfindən istismar olunması, milli təklənmənin baş verməsi, müstəmləkə olunmuş millətlərin milli varlığının, milli dilinin, milli mədəniyyətinin ayaqlar altına sərilməsi, əzilməsi, müsəlman torpaqlarının parçalanmasından sonra belə bir ehtiyac lazım olmuşdur.

1889-cu ildə Əli bəy Hüseynzadə gənc türklərlə əlaqə saxlamaq üçün gənc türklər hərəkatının özəyi olan "İttihadi-Osmani" adlı gizli cəmiyyətinin əsasını, özülünü qoyur. Lakin Əbdülhəmid mütləqiyyəti türkçülük ideologiyasının yayılmasına qarşı olur. Əbdülhəmid türkçülüyə türk olmayanlarla türklər arasında nifaq salan bir ideologiya kimi baxırdı. Ona görə də türkçülük ideologiyası həmin dövr ərzində Türkiyədə gizli şəkildə təbliğat olunurdu.

Osmançılıqdan-türkçülüyə vətənpərvərlikdən-millətçiliyə keçid az da olsa yavaş-yavaş hiss olunurdu. Bu fikirlər "İttihadi-Osmani" təşkilatının ideya-siyasi istiqamətinə təsir göstərdiyinə görə, 1894-cü ildən bu təşkilatın adı dəyişdirilərək "İttihad və tərəqqi" adlanmağa başlanıldı. Adı dəyişilmiş bu yeni təşkilatın keçdiyi tarixi inkişaf yolu haqqında sonralar Ziya Göyalp bu cəmiyyətin sakit bir şəkildə inqilabı təlqin və irşadlar sayəsində tam yeni məfkurəli cəmiyyətə çevrildiyini yazmışdır.

Əli bəy Hüseynzadənin əsil turançılıq fəaliyyəti XX yüzilliyin başlanğıcında Azərbaycana döndükdən sonra baş verir. O, əsərlərində müstəmləkəçi, imperialist dövlətləri insanların, bəşəriyyətin düşməni kimi ifşa etməklə yanaşı, azadlıq, istiqlaliyyət uğrunda mübarizəyə səsləmiş, türk və müsəlman xalqlarının vahid ideya ətrafında birləşməsini istəmişdi. Görkəmli maarifçi bu yaradıcılığına görə hələ sağlığında təkcə Azərbaycanın deyil, bütün türk aləminin haqq elçisi, mücahidi kimi tanınmışdı. Əli bəy Hüseynzadə yalnız Azərbaycanın, mənsub olduğu xalqın siyasi və milli əsarətdən xilas olması uğrunda çalışmamış, bütün müsəlman və türk aləmi üçün çalışmışdır.

Əli bəy Hüseynzadə ümumtürk mənəvi dəyərlərini tədqiq və təbliğ etmiş, türkün tərəqqisi naminə öz istedadını bütün gücü ilə ortaya qoymuşdur. Türkiyədəki təqiblərdən qaçıb Azərbaycana üz tutan Əli bəy Hüseynzadə əməkdaşlığa öncə "Kaspi" qəzeti ilə başlamışdır. O, burada publisistik yazılarını, əsərlərini dərc etdirmişdir. "Gənc türkçülük nədir?" adlı məqaləsi ilə türk tənzimat hərəkatının mahiyyətini açıb göstərmişdir. Əli bəy Hüseynzadə bu dövrdə islahatçı-reformist ideya insanı kimi tanınmağa başlayır. O, məşhur teoloq alim, publisist və ictimai xadim Əhməd bəy Ağaoğlu ilə bir yerdə milyonçu Hacı Zeynalabdin Tağıyevin gücü ilə "Həyat" qəzetinin çapına başlayır. "Həyat" qəzeti Əli bəy Hüseynzadəni "ağır başlı" filosof, "sədrə şəfa verən" sözlər (ağla qida verən sözlər) söyləyən mütəfəkkir, ziyalı kimi Azərbaycana tanıdır. "Həyat" qəzetinin səhifələrində Əli bəy Hüseynzadə əsərlərini dərc etdirməklə ictimai-mədəni mühitə yeni abı-hava gətirir, xalqının dünyagörüşünü yeni ideyalarla zənginləşdirir.

XX əsrin əvvəllərində ictimai-siyasi ideyalogiyanın təşkili və tənzimlənməsində, informasiya mühitinin qurulmasında milli mətbuat öz yerini və rolunu almışdır. Jurnalistikanın ictimai fikir meydanına çevrilməsi bu tarixi mərhələnin məhsuludur. Bu tarixi mərhələdə diqqətəlayiq yer tutmuş "Füyuzat" jurnalı, həmçinin onun redaksiya heyətinin də xüsusi xidmətləri olmuşdur. Çünki onlar yalnız jurnal nəşr etdirməklə qalmamış, füyuzatçılıq hərəkatının öz inkişaf xəttini, "Füyuzat" jurnalistika məktəbini də yaratmışdılar.

Əli bəyin məqsədi turançılıq ideologiyası ilə türk xalqlarını rus inqilabından ayırmaq, milli-azadlıq hərəkatının türkçülük xarakterini ver-

mək idi. Əli bəy Hüseynzadənin turançılıqla bağlı yazdığı "məktubi- məxsusi" məqaləsi türkçülüyün mühüm sənədinə çevrilir. O, bu məqaləni Misirdə turani imzası ilə nəşr etdirir. Məqalə türk ziyalılarının diqqətini dərhal cəzb edir. Çünki məqalə milli azadlıq uğrunda türk xalqlarını birliyə səsləyirdi.

"Siyasəti-fürusət" adlı irihəcmli əsərində əsas tənqid hədəfi olaraq çarizmin birinci rus inqilabından sonra Şərq xalqlarında oyanan istiqlal, azadlıq hərəkatına qarşı yeridilən siyasət idi. Görkəmli pedaqoq bu əsərdə milli əsarətə qarşı kəskin etirazını vermişdir. Əli bəy düşüncələrini Paskeviç obrazı ilə təqdim etmişdi ki, həmin Paskeviç çar Rusiyasının şovinist dövlət adamı idi.

XIX yüzilliyin sonu XX yüzilliyin əvvəllərində Azərbaycan xalqının milli oyanışında, əsası Axundzadə və Zərdabi tərəfindən inşa edilən maarifçilik hərəkatının, islamçılıq və avropaçılıq ideya və fikirlərinin davam etdirilməsində, millətimizin islam ümmətçiliyindən islam milliyətçiliyinə və oradan da türk milliyətçiliyinə keçidin əsas ideya və təməl rəhbərlərindən biri olan Əli bəy Hüseynzadə "türkləşmək, islamlaşmaq, avropalaşmaq" düsturu ilə türkçülüyün siyasi formulunu və elmi nəzəri əsaslarını vermişdir. Müasirlərinin dediyi kimi o, milli istiqlal hərəkatının "Ana Yasa"sını verməklə milli tariximizdə "türkçülüyün atası" kimi öz yerini almışdır.

Onun ideyası üçrəngli bayrağımızda Azərbaycan Xalq Cümhuriyyətinin milli dövlətçilik ideologiyasına çevrilən üçlük rənglər palitrası vasitəsilə əbədiləşdi. 1918-ci ilin 28 mayında müstəqil dövlət elan edilən Azərbaycan Xalq Cümhuriyyətinin ideoloji banisi Əli bəy Hüseynzadə Cümhuriyyətin qurulmasında, dövlətin təşəkkülündə iştirakı ilə bağlı xeyli materiallar vardır.

1917-ci illərin sonlarından başlayaraq Türkiyənin ədəbi-bədii, siyasi və hərbi çevrələrində nüfuza malik olan Əli bəy Hüseynzadə Əhməd bəy Ağaoğlu ilə bir yerdə Azərbaycanın müstəqil Cümhuriyyət mövzusunu işıqlandırır və yetərincə dəstək qazanır. Yunis Hadi, Ziya Göyalp, Əhməd Rəfiq kimi ziyalılar sayəsində Türkiyənin mətbu orqanları olan "İqdam", "Təsviri-əfkar", "Tan"-da Azərbaycanın müstəqilliyi ideyasını gündəmə gətirir. Cənubi Qafqazda türk dövlətinin qurulması ilə bağlı siyasi dəstəyin verilməsi təbliğatı aparılırdı. Yaranmış əlverişli siyasi tarixi şəraitdən məharətlə istifadə edən Əli bəy Hüseynzadə 1918-ci ildə Sofiya, Berlin, Vyana və Budapeştə gedərək çar Rusiyasının siyasi çöküşünün qaçılmaz olduğunu bildirir. Rusiyadakı türklərin haqq və hüquqlarının qorunması, milli mədəniyyəti, milli və müstəqil dövlət qurmaq istəklərini Avropaya səyahət edib bəyan etmişdir.

Məhəmməd Əsəd bəy Çələbizadənin, Mükəmmədin Baxçalının, Yusif Akçuranın və Əli bəy Hüseynzadənin rəhbərliyi ilə Rusiya müsəlmanları türk-tatar millətlərinin müdafiə cəmiyyəti quruldu. Əli bəy Hüseynzadə 1918-ci ilin iyunun 4-də Batumda Türkiyə və Azərbaycan arasında "Dostluq və əməkdaşlıq" müqaviləsinin hazırlanmasında, danışıqların aparılmasında birbaşa iştirak etmişdi. Əli bəy Hüseynzadə 1918-ci ilin iyul ayında Batum və Gəncəyə getdiyi Samət Ağaoğlunun "Babamın xatirələri "memuarında qeydə alınıb. Əli bəyin özü də xatirələrində Əhməd bəy Ağaoğlu ilə birgə Batuma getdiyini və sonra AXC-nin müvəqqəti paytaxtının Gəncədə olduğunu qeyd edir. Gəncəyə getdiyi zamanda Qafqaz İslam Ordusu komandanı Nuru Paşa ilə görüşmüş, ziyalılarla birlikdə Cümhuriyyətin quruluş məsələləri ilə bağlı müzakirələr aparır.

Həmin dövrdə Əhməd bəy Ağaoğlu Qafqaz İslam Ordusu komandanı Nuru Paşanın siyasi müşaviri kimi fəaliyyət göstərirdi. Əli bəy Gəncədə olduğu zaman Azərbaycanın müstəqilliyi, istiqlalı və milli-azadlığı uğrunda səngərdə əsgərlərlə birgə çiyin-çiyinə düşmənə qarşı savaşırdı. Bu azadlıq mücadiləsini Əli bəy Hüseynzadə 1918-ci il 24 iyulunda Türkiyənin Hilali-Əhmər qəzetində "Azərbaycanda düşündüklərim" adlı məqaləsində qeyd edir. Bu məqalənin giriş hissəsində, redaksiya qeydində görkəmli mütəfəkkir Əli bəy Hüseynzadənin bir qədər öncə Azərbaycanda olması və "Hilali-Əhmər" qəzeti üçün məqalə yazdığı vurğulanır. Əli bəy Hüseynzadə gənc dövlətimizin müvəqqəti paytaxtı olan Gəncəni bir müddət öncə tərk etdiyini, buranın müvəqqəti paytaxt olduğunu məqaləsində qeyd edir.

Azərbaycanın paytaxtının Bakı olduğunu və bunu Azərbaycan xalqına çox görən şəxslərin Azərbaycan xalqının mənfur düşməni olduğunu qeyd edirdi. Beləliklə, məqaləsindən aydın olur ki, Əli bəy Hüseynzadə uzaqgörən siyasəti ilə

Almaniya, Böyük Britaniya və Sovet Rusiyasının Bakını Azərbaycandan ayırıb başsız bədənə çevirmək siyasətinə yaxından bələd idi və buna qarşı çıxırdı. Birinci Dünya Müharibəsində Almaniya Türkiyənin müttəfiqi idi, bu müttəfiqliyin əleyhinə olaraq Almaniya Sovet Rusiyası ilə anlaşma imzaladı. Almaniya Bakını Sovet Rusiyasının öhdəliyinə buraxaraq Brest-Litovski sazişinə əlavələr edərək neftin dörddə birini əldə etmək istəyirdi.

Türkiyənin İstanbul şəhərində olan Rəsulzadə bu sazişin əleyhinə mətbuatla nota verdi. Bakını "müttəfiqlərin neytral bir bölgəsi" kimi Azərbaycandan ayırmaq istəyənlər Azərbaycanın istiqlal savaşına öz qardaş köməyini göstərən Türkiyəyə qarşı diplomatik təzyiqlər həyata keçirirdilər. Əli bəy Hüseynzadə də əsasən məqalələrində bu mövqeyə qarşı çıxırdı.

Bu gün başımızın üstündə dalğalanan, işğaldan azad olunmuş torpaqlarımızda, həmçinin mədəniyyət paytaxtı olan Şuşada dalğalanan Azərbaycanın üçrəngli bayrağında "türkləşmək, islamlaşmaq, avropalaşmaq" triadası öz əksini tapmışdır. Əli bəy Hüseynzadənin fikrincə, azərbaycanlıların millət məfkurəsi türkləşmək, dini məfkurəsi islamlaşmaqdırsa, mədəni, iqtisadi, sosial-siyasi məfkurəsi avropalaşmaq olmalıdır.

Ziya Göyalp Türkiyədə türkçülüyün əsas simalarından biri, böyük ideoloqu kimi tanınan Əli bəyi öz ustadı sayır və sonralar həmin üçlüyü sosioloji baxımdan "millətini tanı, ümmətini tanı, mədəniyyətini tanı" mənasını verən "türk millətindənəm, islam ümmətindənəm , Batı mədəniyyətindənəm" şəklində təsvir etmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövründə Əli bəy Hüseynzadənin nurlu ideyasının təməli, özülü qoyuldu. Fenomenal şəxsiyyət olan Əli bəy Hüseynzadə türk tarixində böyük izlər qoymuşdur. Təəssüflər olsun ki, Azərbaycanın ictimai-siyasi və mədəni fikir tarixindəki roluna, müasirləri tərəfindən yüksək dəyər verilməmişdir. Lakin sovet dönəmində kommunist ideologiyasına zidd olduğu üçün başqa milli-mənəvi dəyərlər kimi, böyük şəxsiyyət olan Əli bəy Hüseynzadə fenomenini də yaddaşlardan çıxarmaq, unutdurmaq, onun uzaqgörən əməllərini xalqın yaddaşından silmək, onun tarixi müstəsna xidmətlərini saxtalaşdırmaq istəyənlər olmuşdur. Əli bəy Hüseynzadənin adına cürbəcür –burjua millətçisi, pantürkist və s. iftiralar edildi. Əli bəy Hüseynzadənin yaxınları, qohumları – qırmızı terrora məruz qaldı. Əsrin ideologiya öncüsünün əsərlərinin nəşrinə qadağalar qoyuldu.

**Problemin aktuallığı.** XIX əsrin sonu XX əsrin əvvəllərində türk islam dünyasının yetişdirdiyi Əli bəy Hüseynzadə nadir fenomen şəxsiyyət, görkəmli dahi mütəfəkkir, böyük maarifçi və ictimai xadim idi. Əli bəy Hüseynzadənin haqq dünyasına köçməsindən 82 il keçsə belə onun ideyaları bu günümüzdə də yaşamaqdadır. Onun yazıb yaratdığı əsərləri, parlaq fikirləri bu gündə öz aktuallığını qoruyur. Böyük korifeyin üçrəngli bayrağımızda öz ideyaları əbədiləşmişdir.

**Problemin yeniliyi**. Azərbaycan filosofu, ədəbiyyat tənqidçisi, XIX yüzilliyin sonu XX yüzilliyin birinci yarısında yaşamış, yaratmış görkəmli mütəfəkkir, böyük ustad, ədib, şair, alim olan Əli bəy Hüseynzadənin ictimai-siyasi fikirləri, görüşləri ətraflı araşdırılıb, sistemli şəkildə öyrənilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə pedaqogika tarixi üzrə tədqiqat aparan gənc tədqiqatçılar üçün elmi əhəmiyyət daşıyır. Universitet tələbələri, müəllimlər, müəlliflər bu məqalədən istifadə edə bilər. Azərbaycanda ali pedaqogikanın tarixinin öyrənilməsi sahəsində əhəmiyyətli rol oynaya bilər.

**Ədəbiyyat:**


1. Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri. / Ə. Hüseynzadə. – Bakı, 2007
2. Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri: [2 cilddə ] / Ə. Hüseynzadə. – Bakı, 2008,
3. Füyuzat (1906-1907). Bakı,2006 (Transliterasiya edəni, çapa hazırlayanı və ön sözün müəllifi Ofeliya Bayramlı).)
4. Azər Turan. Əli bəy Hüseynzadə. – Moskva, 2008
5. Ziya Göyalp. Türkçülüyün əsasları. – İstanbul, 1996
6. Yusuf Akçura. Türkçülüyün tarixi. – Bakı, 2006
7. Manaf Süleymanov. Eşitdiklərim, oxuduqlarım, gördüklərim... / M. Süleymanov. – Bakı, 1996.
8. Əsgər Quliyev. Əli bəy Hüseynzadə Azərbaycan maarifçiliyinin karifeylərindən biri kimi. "Azərbaycan məktəbi" 2014, № 2

9. Rasim Mirzə. Türkçülüyün Babası. – Bakı: Elm, – 2000.
10. Hüseyn Əhmədov. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. / H. Əhmədov. – Bakı: Elm və təhsil, – 2014 s. – 282
11. Əli bəy Hüseynzadə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar. / Ə. Hüseynzadə. – Bakı: Azərbaycan, – 1996. – s. 1
12. T. Abdin. Əli bəy Hüseynzadə – 150. “525 qəzet”, 2014, 22 fevral, s.20.
13. Ə. Quliyev. Bayrağımızdakı simvolikanın memarı, böyük maarifçi. “Azərbaycan müəllimi” qəz., 2014, 7 fevral , s. 5.
14. T. Abdin. Ah İstanbul... İstanbul... – Bakı: Avropa, 2005, -s. 87.
15. Ə. Quliyev. Əli bəy Hüseynzadə: Türkçülüyün atası və böyük maarifçi “525-ci qəzet”. – 2014. – 7 fevral. –№ 22. – s.7.
16. A. Turan. Əli bəy Hüseynzadə. Həyatı, mübarizəsi, yaradıcılığı, şəcərəsi. – Bakı, 2014.

**E-mail:** afaqhuseynzade81@gmail.com
**Rəyçilər:** *ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva,**
*biol.ü.fəls.dok.* **Q. Əliyev**
**Redaksiyaya daxil olub:** 30.11.2023

## MƏKTƏBƏQƏDƏR TƏHSİL VƏ TƏRBİYƏ
## ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ
## PRESCHOOL EDUCATION AND UPBRINGING

UOT 373.2

**Arzu Əli qızı Əhmədova**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi
Orcid:0009-0005-2408-7600

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARLA MƏŞĞƏLƏLƏRDƏ YENİ İNTERAKTİV TEXNOLOGİYALARDAN İSTİFADƏ İMKANLARI

**Арзу Али гызы Ахмедова**
преподаватель Азербайджанского Государственного Педагогического Университета

# ВОЗМОЖНОСТИ ИСПОЛЬЗОВАНИЯ НОВЫХ ИНТЕРАКТИВНЫХ ТЕХНОЛОГИЙ НА ЗАНЯТИЯХ С ДОШКОЛЬНИКАМИ

**Arzu Ali Ahmedova**
teacher at Azerbaijan State Pedagogical University

# POSSIBILITIES OF USING NEW INTERACTIVE TECHNOLOGIES IN CLASSES WITH PRESCHOOL CHILDREN

**Xülasə.** Elmi məqalədə məktəbəqədər yaşlı uşaqlarla aparılan təlim prosesində interaktiv metod və texnologiyalardan istifadə imkanları üzə çıxarılmışdır. İnnovativliyi və tamlığı qorunmaqla istifadə olunan iş formaları və üsulları göstərilmişdir.

***Açar sözlər:*** *təlim, interaktiv, metod, texnologiya, tərbiyəçi, məktəbəqədər*

**Резюме.** В научной статье раскрыты возможности использования интерактивных методов и технологий в процессе обучения с детьми дошкольного возраста. Показаны используемые формы и методы работы при сохранении их инновационности и завершенности.

***Ключевые слова:*** *обучение, интерактивный, метод, технология, воспитатель, дошкольное*

**Summary.** The scientific article revealed the possibilities of using interactive methods and technologies in the learning process with preschool children. The work forms and methods used are shown while preserving their innovativeness and completeness.

***Key words:*** *training, interactive, method, technology, educator, preschool*

Şəxsiyyətyönlü təhsil sistemində pedaqoji prosesin mərkəzində dayanan tərbiyəçi-müəllim və uşaqların funksiyaları dəyişir. Onların fəaliyyəti əvvəlcədən müəyyən olunmuş nəticələrə əsasən qurulur. Tərbiyəçi-müəllim təlim prosesində yeni texnologiyaların içərisindən ən münasibini seçir. Bu texnologiyaların müəyyən olunmasında tərbiyəçi-müəllim və uşaq şəxsiyyəti təlimin aparıcı subyekti kimi çıxış edir. Münasibətlər "subyekt – subyekt" formuluna uyğun qurulur. Bu zaman uşaqlar öz təfəkkürünün, düşüncəsinin, tərbiyəçi-müəllimlər isə uşağın inkişafı üçün şəraitin təşkilatçısı olur. Tərbiyəçi-müəllimlərin rəhbərlik funksiyası dəyişir, informasiya vermək sahəsindəki fəaliyyəti məhdudlaşır. O daha çox qrup şəraitində təlim fəaliyyətini əlaqələndirən, istiqamətləndirən məsləhətçi kimi uşaqların müstəqil idraki fəaliyyətini, yaradıcılığını təşkil edən subyektə çevrilir, uşaqlar isə müstəqil axtarışlar aparmağa, yaradıcı fəaliyyət göstərməyə sövq edilir.

Təlim mühiti planlaşdırılmış və plansız şəkildə fəaliyyət göstərə bilər. Planlaşdırılmış fəaliyyət günün əsas hissəsini təşkil edir. Rejim

anlarında təlimdən kənar fəaliyyətlərə məktəbəqədər yaşlı uşaqlar üçün zəruri olan stabillik və tanışlıq, öyrənmə fəaliyyətləri məzmun sahələrinə və böyüklər tərəfindən planlaşdırılan xüsusi məqsədlərə malikdir. Planlaşdırılmış və plansız fəaliyyətlər üçün xoş, təhlükəsiz mühit, sağlam, təmiz, isti və stimullaşdırıcı sahələr yaradılır ki, bu sahələrdə tənqidi düşüncə bacarıqları, müxtəliflik, çoxmədəniyyətlilik kimi məsələlər formalaşdırılır və öyrənmə bacarıqlarının genişləndirilməsi və formalaşdırılması üçün şərait yaradılır. Mühit "üçüncü tərbiyəçi" hesab edilir.

– Açıq havada və qrup otağında inkişaf və təlim mühiti bütün yaşlar üçün eyni dərəcədə əhəmiyyətlidir;

– Açıq havada uşaqlar üçün tədqiqat aparmaq, kəşflər etmək və öyrənmək üçün mühüm imkanlar mövcuddur;

– Açıq havada mühitin "canlılığı' və "bənzərsizliyi" hər gün uşaqların təcrübədən keçirə biləcəkləri yeni kəşflərlə zəngin olur;

– Uşaqların hərəkət etmələri (qaçmaları, tullanmaları, dırmanmaları, oynamaları) üçün yerlər; çevik və uşaqların asanlıqla idarə edə bildikləri materiallarla təminat; estetik cəhətdən gözəl olan yerlər, heyvanlar üçün yerlər, uşaqların asanlıqla ünsiyyət yarada bilmələri üçün şərait, təsviri fəaliyyət üçün yerlər nəzərdə tutulmalıdır. Erkən dövrdə mühit inkişafetdirici xarakter daşımalıdır. "İnkişafetdirici və dəstəkləyici mühitin yaradılması üçün məktəbəqədər təhsil müəssisələrində müxtəlif guşələr (fəaliyyət mərkəzləri) təşkil olunur. Bu guşələr inkişaf sahələri üzrə qurulur və uşağın inkişafını təmin edir." (1, s.35)

Müəllifin dediyi fəaliyyət mərkəzləri (guşələr) dedikdə, əsasən, aşağıdakılar nəzərdə tutulur:

1. riyaziyyat guşəsi;
2. kitab guşəsi;
3. stolüstü oyunlar guşəsi;
4. elm guşəsi;
5. təsviri fəaliyyət guşəsi;
6. qum və su guşəsi və s.

1-3 yaşlı uşaqlarla öyrənmə prosesində onun innovativliyi və tamlığı qorunmaqla aşağıdakı iş formalarından istifadə edilir:

– fərdi
– yarımqruplarla
– kollektiv

3-6 yaşa qədər uşaqlarla iş formaları fərdi, cütlərlə, qruplarla və kollektiv iş nəzərdə tutulur. Pedaqoji proses ətraf mühitin və əşya aləminin fəal tədqiqi prosesində uşağın bütün inkişaf sahələri üzrə fəaliyyət növlərinin kompleks inkişafı üzərində qurulmalıdır. Müxtəlif fəaliyyət növlərinin qarşılıqlı əlaqəsi şəraitində təşkil olunmalıdır. Pedaqoji proses şəxsiyyətyönlülük prinsipi əsasında təşkil olunmalıdır. 3-6 yaşa qədər uşaqlarla iş zamanı təhsildə yaradıcı düşünən, müstəqil mühakimə yürüdə bilən demokratik dünyagörüşünə malik şəxsiyyət formalaşdırmaqda geniş imkanları olan əqli hücum, tap-tapmaca, nağıletmə, müzakirə, şaxələndirmə (klaster), problemli vəziyyət, oyunlar, suallar, söz assosiasiyası kimi təlim üsullarından istifadə edildikdə müsbət nəticələr əldə etmək mümkündür.

İnteraktiv təlim metodları uşaqlarda inam hissi tərbiyə etməklə yanaşı, yaradılan mühit onlarda tədqiqatçılığa, təşəbbüskarlığa maraq oyadır. Bundan başqa interaktiv təlim metodları uşaqlarda əməkdaşlıq etməyi, başqalarını dinləməyi, təhlil etmək qabiliyyətini inkişaf etdirir. Məşğələ zamanı interaktiv təlim metodlarının tətbiqi uşaqlarda müstəqil düşünmək, sərbəst rəy söyləmək, hər hansı problem barədə başqalarının fikrinə münasibət bildirmək, çoxluğun qərarını qəbul etmək kimi keyfiyyətlər yaradır. İnteraktiv təlim zamanı daha çox istifadə olunan qruplarla iş formasıdır. Bu iş forması uşaqlarda problemin birgə həll edilməsini, müstəqil işləməyi, əməkdaşlıq etməyi və sərbəst fikir söyləmək kimi keyfiyyətləri tərbiyə edir. Tərbiyəçi uşaqları onların bilik səviyyəsini, xarakterini nəzərə alaraq 4-5 nəfərdən ibarət kiçik qruplara ayırır. Qabiliyyətli uşaqlar rəqib kimi deyil, qrupun lideri kimi qəbul olunurlar.

Qruplarda iş aşağıdakı qaydada aparılır:

1. Hər bir qrup bir masanın arxasında əyləşir;
2. Uşaqlar gördükləri işi təqdim etmək üçün öz aralarında 1 nəfəri lider seçirlər. Həmin uşaq qrupun işinin nəticəsini təqdim edir.
3. Tərbiyəçi mövzu ilə əlaqədar tapşırıq verir, işin görülməsi müddətini müəyyən edir.
4. Tərbiyəçi qruplar arasında gəzib, işləri müşahidə edir, suallara cavab verir, ehtiyac olduqda əlavə məlumat verir.
5. Müəyyən edilmiş müddət başa çatdıqdan sonra tərbiyəçi işi dayandırır və nəticələri bildirməyi xahiş edir.
6. Tərbiyəçi qrup liderlərinin təqdimatını dinləyib ümumiləşdirir.

Qruplarla iş formasını müxtəlif variantlara ayırmaq olar:

1. Bütün qruplar ümumi mövzu ətrafında müxtəlif materiallarla işləyirlər;

2. Bütün qruplar eyni vaxtda bir tədris materialı üzərində işləyirlər;

3. Eyni material üzərində qruplar növbə ilə işləyirlər.

Müasir təlim texnologiyalarının, interaktiv təlim metodlarının tətbiqi təcrübəsi göstərir ki, bu metodlar uşaqların idrak fəallığının və məntiqi təfəkkürünün inkişafına zəmin yaradır. Bu gün məktəbəqədər təhsil müəssisələrində istifadə olunan interaktiv təlim uşaqlardan çox tərbiyəçidən böyük məharət tələb edir. Tərbiyəçi elə fəal olmalıdır ki, uşaqları istiqamətləndirə bilsin. İnteraktiv təlim metodları bütün məşğələlərdə tətbiq olunduğu kimi sadə riyazi təsəvvürlərin inkişafı məşğələlərində də geniş tətbiq olunur. İnteraktiv təlimin əsas xüsusiyyəti olan problem situasiyanın yaranması riyaziyyat məşğələlərində müxtəlif məsələlərin həllində, əyləncəli, düşündürücü testlərin, inkişafetdirici təlim tapşırıqlarının, hesablamaların aparılmasında məntiqi əyləncəli tapşırıqların yerinə yetirilməsində həyata keçirilir. Sadə riyazi təsəvvürlərin inkişafı məşğələlərində daim problemli suallar olur, uşaqların diqqəti bu sualların həllinə yönəldilir. İnteraktiv təlim məntiqi təfəkkürə əsaslanan təlim metodudur. Riyaziyyat məşğələlərində uşaqların məntiqi təfəkkürü daha yaxşı inkişaf edir. Əşyaları uzunluğuna, eninə görə ölçmək, müqayisə etmək, oxşar olanları qruplaşdırmaq, əşyaları rənginə, formasına, ölçüsünə görə fərqləndirmək kimi verilən inkişafetdirici tapşırıqlar məntiqi təfəkkürün inkişafına müsbət təsir edir. Kompleks məşğələlərdə verilən idrakı inkişaf etdirən çalışmalar uşaqların fəallığını xeyli artırır. Motivasiyanın yaranması uşaqlara təqdim olunmuş məsələnin həlli yolunu müəyyən etməyə imkan verir. Müqayisə metodu ilə uşaqlar "azdır, çoxdur, bərabərdir, uzundur, qısadır, ucadır, alçaqdır, hündürdür, enlidir, ensizdir, tamdır hissədir" kimi anlayışları öyrənirlər. Uşaqlar əşyaları, həndəsi fiqurları rənginə, ölçüsünə, formasına görə qruplaşdıra bilirlər. İstifadə olunan əqli hücum, beyin həmləsi, yeni mövzunun izahından əlavə çalışmaların yerinə yetirilməsi zamanı tətbiq olunur.

Sadə riyazi təsəvvürlərin inkişafı məşğələlərində əsasən aşağıdakı interaktiv təlim metodlarından istifadə olunur:

Rollu oyunlar. Məktəbəqədər yaşlı uşaqlarda məşğələlərdə istifadə olunan ən fəal təlim metodudur. Rollu oyunlardan, demək olar ki, bütün məşğələlərdə istifadə etmək olar. Rolları ifa edən uşaqlar yaşlıları təqlid edirlər . Məs. "Gəlinciyə məktəb forması alaq" oyununda uşaqların bəziləri satıcı, bəziləri isə alıcı rolunda oynayırlar və s. Əqli hücum. Bu metoddan məşğələlərdə uşaqların fəallığının artırılması, konkret problemin həlli və qoyulan suala cavabın axtarılması zamanı tez-tez istifadə edilir. Əqli hücum daha çox yeni mövzunun öyrənilməsinə başlanarkən giriş müsahibəsində motivasiya yaradılarkən və ümumiləşdirmə aparılarkən təşkil olunur. Söz assosiasiyaları. Bu metodu tətbiq edərkən məşğələnin əvvəlində tərbiyəçi öyrəniləcək mövzu ilə əlaqədar bir söz deyir, sonra uşaqlara tapşırır ki, sözü eşitdikdə ağıllarına gələn sözləri dərhal desinlər. Məs. Hündür-uşaqların cavabı: bina, ağac, ev, hasar və s. Klaster (şaxələndirmə). Hər hansı bir mövzu və ya fikrin müəyyən qədər açılmasına, uşaqların bu mövzu ətrafında geniş, sərbəst düşünmələrinə şərait yaradan metoddur. Məs. Həndəsi fiqurlar.

Beləliklə, sadə riyazi təsəvvürlərin inkişafı məşğələlərində tətbiq olunan interaktiv təlim metodları 5 yaşlıların keyfiyyətli məktəb təlimində müvəffəqiyyət qazanmalarına imkan verir.

**Problemin aktuallığı.** Bütün məktəbəqədər yaşlı uşaqların məktəbəqədər təhsillə əhatə edilməsi, onların hərtərəfli inkişafı, uşaqların idraki fəallığı, inteqrativ və interaktiv təlimi, tərbiyəçi-müəllimin səriştəliliyi, təhsilin demokratik prinsiplərlə idarə edilməsi qanunauyğunluqları şəxsiyyətyönlü təhsil sistemində pedaqoji prosesin mərkəzində dayanan tərbiyəçi-müəllim və uşaqların funksiyalarını dəyişir. Bu baxımdan elmi məqalə aktualdır.

**Problemin elmi yeniliyi** ondan ibarətdir ki, burada məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafına, bütün həyatı boyu ona lazım olacaq sosial kompetensiyaların formalaşmasına təsir edən yeni texnologiyalar, bu texnologiyaları həyata keçirməkdən ötrü bizə lazım olan üsul və metodlar üzə çıxarılmışdır.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, irəli sürülən ideya və təkliflərdən məktəbəqədər təhsil işçiləri, pedaqoq-müəllimlər və məktəbəqədər tərbiyə sahəsində təhsil alan bakalavrlar bəhrələnə bilərlər.

**Ədəbiyyat:**

1. Ağayev, Ş.O. Məktəbəqədər kurikulum: nəzəriyyə və təcrübə./ Ş.Q. Ağayev, S.S. Rzayeva. – Bakı: MM-S, – 2017. – 304 s.
2. Həsənova, P. Məktəbəqədər təhsildə pedaqoji ünsiyyət və onun müasir problemləri // – Bakı: Məktəbəqədər və ibtidai təhsil, – 2022. № 2, – s. 48-56.
3. Məktəbəqədər təhsilin kurikulumu (Layihə). / – Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutu, – 2017. – 117s.
4. Nəzərov, A. Müasir təlim texnologiyaları (Mühazirə xülasələr): Dərs vəsaiti. / A. Nəzərov. – Bakı: ADPU, – 2012, – 103 s.
5. Uşağınızın dünyasına bələdsinizmi? / Tərt. ed. B. Mikayıllı. – Bakı: – 2008. – 46 s.

**E-mail:** arzu.ahmadova880@gmail.com
**Rəyçilər:** *ped.ü.fəls.dok.* **G. Eminova,**
*ped.ü.fəls.dok., dos.* **P.M. Həsənova**
**Redaksiyaya daxil olub:** 30.10.2023

## *İBTİDAİ TƏHSİL*
## *НАЧАЛЬНОЕ ОБРАЗОВАНИЕ*
## *ELEMENTARY EDUCATION*

*UOT 372.3/.4*

***Adilə Rasim qızı Xəlilova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*İbtidai təhsilin pedaqogikası kafedrasının müəllimi*
*https://orcid.orq/0009-0002-2789-3198*

# İBTİDAİ SİNİFLƏRDƏ İNNOVATİV FƏALİYYƏTİN MƏZMUNU VƏ STRUKTURU

***Адиля Расим гызы Халилова***
*преподаватель кафедры Педагогики начального образования*
*Азербайджанского Государственного Педагогического Университета*

# СОДЕРЖАНИЕ И СТРУКТУРА ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Adilya Rasim Khalilova***
*teacher at department of Pedagogy of primary education of*
*Azerbaijan State Pedagogical University*

# CONTENT AND STRUCTURE OF INNOVATIVE ACTIVITIES IN PRIMARY SCHOOL

**Xülasə**. Məqalədə ibtidai sinif müəlliminin innovativ fəaliyyətinin əsas məqamları açıqlanır. İbtidai məktəbdə yeniliklər kiçik yaşlı məktəblilərin tərbiyə və təhsilinin keyfiyyətinin yüksəldilməsinə yönəlib. Təşəkkülün müxtəlif dövrlərində bu yeniliklər müxtəlif məqsəd, vəzifə, məzmun və təzahürlərə malikdir. Müasir dövrdə müəllimlərin fəaliyyətinə yeni tələblər irəli sürülür. Bunlar arasında ən əsası innovativ metod və texnologiyalardan məcburi istifadədir. Müəllimlər ibtidai siniflərdə innovativ pedaqoji ideyaların həyata keçirilməsinin səmərəli yollarını seçməklə üzləşirlər. Müəllim daha məlumat mənbəyi deyil: şagirdlər bilikləri müstəqil şəkildə əldə edir və təcrübədə sınaqdan keçirirlər.
***Açar sözlər**: innovbasiya prosesləri, innovasiya fəaliyyəti, yenilik, innovativ texnologiyalar, ibtidai məktəb, texniki yenilik, təhsil innovasiyaları*

**Резюме**. В статье раскрыты основные моменты инновационной деятельности учителя начальной школы. Нововведения в начальной школе направлены на повышение качества воспитания и образования младших школьников. В разные периоды формирования эти инновации имеют разные цели, задачи, содержание и проявления. В настоящее время современным педагогам предъявляются новые требования, главным из которых является обязательное использование инновационных методов и технологий. Перед учителями стоит выбор эффективных способов реализации инновационных педагогических идей в начальных классах. Учитель больше не является источником информации: учащиеся приобретают знания самостоятельно и проверяют их на практике.
***Ключевые слова**: инновационные процессы, инновационная деятельность, инновации, инновационные технологии, начальная школа, технические инновации, образовательные инновации*

**Summary.** The article reveals the main points of innovative activity of a primary school teacher. Innovations in primary schools are aimed at improving the quality of upbringing and education of younger

schoolchildren. In different periods of formation, these innovations have different goals, objectives, content and manifestations. Modern teachers are faced with new requirements, the main one of which is the mandatory use of innovative methods and technologies. Teachers are faced with the choice of effective ways to implement innovative pedagogical ideas in primary grades. The teacher is no longer the source of information: students acquire knowledge on their own and test it in practice.

***Key words:*** *innovative processes, innovative activity, innovation, innovative technologies, primary school, technical innovation, educational innovation*

Müasir təhsil sistemi öz dövrünün tələblərinə cavab verməlidir. Tədris prosesinin inkişafı proqramının əsas məqsədi yüksək intellektə malik şagird hazırlamaqdır. Buna əsaslanaraq ibtidai sinif müəllimi şagirdin hər birinə fərdi şəkildə tətbiq olunan psixoloji texnikaları mənimsəməlidir; şagirdlərlə dərsdə və dərsdənkənar vaxtda ünsiyyət qura bilməlidir; yenilikləri öz peşə fəaliyyətlərində tətbiq etməyi bacarmalıdır.

Pedaqoji universitetlərin qarşısında tələbələri yaradıcı pedaqoji fəaliyyətə hazırlamaq, tədris prosesində yaradıcı xarakterli problemləri həll etməyə hazır olduqlarını formalaşdırmaq vəzifəsi durur. İntellektual əməyin nüfuzunun və cəmiyyətdə məktəbin sosial institut kimi rolunun azalması tendensiyası şəraitində ibtidai sinif müəlliminin innovativ fəaliyyətə hazır olan şəxsiyyət kimi formalaşması xüsusi əhəmiyyət kəsb edir. Beləliklə, indiki dövrdə məktəbin qarşısında duran mürəkkəb vəzifələr pedaqoji ünsiyyət mədəniyyətinə sahib olan, sözlərlə təsir göstərməyi bacaran, nitqini idarə edən, innovasiyaları tətbiq edə bilən müəllim yetişdirmək problemini gündəmə gətirir.

İbtidai məktəbdə yeniliklər kiçik yaşlı məktəblilərin tərbiyə və təhsilinin keyfiyyətinin yüksəldilməsinə yönəlib. Təşəkkülün müxtəlif dövrlərində bu yeniliklər müxtəlif məqsəd, vəzifə, məzmun və təzahürlərə malikdir. Müasir müəllimlərə irəli sürülən əsas tələblər arasında innovativ metod və texnologiyalardan istifadəni qeyd etmək olar. Müəllimlər ibtidai siniflərdə innovativ pedaqoji ideyaların həyata keçirilməsinin səmərəli yollarını seçməklə üzləşirlər. Müəllim daha biliklərin ötürücüsü deyil, çünki şagirdlərə müstəqil şəkildə bilik əldə etmək və onları təcrübədə sınaqdan keçirmək imkanı yaradılır.

İbtidai məktəbdə innovasiyanın inkişafında aşağıdakı sahələr vurğulanır:

– təhsilin fərdiləşdirilməsi və diferensiallaşdırılması məqsədilə yeni tipli məktəblərin yaradılması;

– estetik fənlərə diqqət yetirilməsi;

– yeni hazırlıq kurslarının yaradılması və həyata keçirilməsi, təhsilin məzmununda dəyişikliklər;

– ekoloji mədəniyyətin formalaşmasına böyük diqqət yetirmək;

– dərsliklərin, dərs vəsaitlərinin, proqramların hazırlanması;

– innovativ texnologiyaların tətbiqi;

– eksperimental meydançaların, siniflərin yaradılması;

– tədris prosesinə kompüter texnologiyalarının tətbiqi.

İbtidai məktəblərdə innovasiyaların tətbiqi kiçik yaşlı məktəblilərin öyrənməyə həvəsinin artırılmasına, təhsil texnologiyalarının yenilənməsinə, təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə və dövlət sifarişlərinin yerinə yetirilməsinə kömək edir. Müasir təhsil sistemi öz dövrünün tələblərinə cavab verməlidir. Təhsil prosesinin inkişafı proqramının əsas məqsədi yüksək intellektli şagird hazırlamaqdır. Buna əsaslanaraq ibtidai sinif müəllimi hər bir şagirdə fərdi şəkildə tətbiq olunan psixoloji texnikaları mənimsəməlidir; şagirdlərlə dərsdə və dərsdən kənar vaxtda ünsiyyət qura bilmək; yenilikləri öz peşə fəaliyyətində tətbiq etməyi bacarmalıdır.

İnnovasiyalar məzmununa və təzahür formalarına görə müxtəlifdir:

1. fəaliyyət növünə görə: pedaqoji, idarəetmə;

2. edilən dəyişikliklərin xarakterinə görə: radikal kombinator, modifikasiya olunmuş;

3. edilən dəyişikliklərin miqyasına görə: yerli, modul, sistemli;

4. istifadə miqyasına görə: tək, diffuz;

5. baş vermə mənbəyinə görə: zahiri, daxili.

İnnovativ fəaliyyət aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunur:

1. ibtidai sinif müəllimi təhsil prosesində intellektual məhsul, yəni özü və şagirdlər üçün yeni olan bir şey tətbiq edir;

2. əsas və əlavə təhsil fəaliyyəti bir birinə inteqrasiya olunmalıdır;

3. kiçik yaşlı məktəblilər arasında öyrənməyə marağın artırılmasına kömək etməlidir.

İbtidai məktəbdə yeniliklər, ilk növbədə, kiçik yaşlı məktəblilərin tərbiyə və təhsilinin keyfiyyətinin yüksəldilməsinə yönəlib. Lakin formalaşmasının müxtəlif dövrlərində bu yeniliklər müxtəlif məqsədlər, vəzifələr, məzmun və təzahürlərə malikdir.

Son onilliklərdə respublikada məktəb təhsili sistemində, o cümlədən ibtidai siniflərdə pedaqoji innovasiya proseslərinin və innovasiyaların öyrənilməsinə ciddi diqqət yetirilir. Müasir ibtidai sinif müəllimi tədris prosesində yeni metod və texnologiyalardan istifadə etməyə hazır olmalıdır.

İnnovativ fəaliyyətə texniki, təhsil (dərs) və dərsdənkənar yeniliklər daxildir.

Texniki innovasiya fəaliyyətlərinə İKT texnologiyaları, elektron təhsil resursları və interaktiv lövhələr daxildir. Effektiv innovativ fəaliyyətin həyata keçirilməsi üçün müasir ibtidai sinif müəlliminə bu fəaliyyətin xüsusiyyətlərini dərk etməsi və həyata keçirilməsi üçün zəruri olan pedaqoji bacarıqlara yiyələnməsi vacibdir.

İbtidai siniflərdə tədris prosesində fəal və interaktiv təlim metodlarından istifadə innovativ hesab olunur. Bir çox ibtidai sinif müəllimləri innovasiya prosesinin tərkib hissəsi kimi dərsin xülasəsindən deyil, həm müəllimlərə, həm də şagirdlərə tövsiyələr verən texnoloji xəritədən istifadə edirlər. Texnoloji xəritə ibtidai məktəb şagirdlərinin öyrədilməsinin əsas məqsədinə – necə öyrənməyi öyrətmək məqsədinə nail olmağa yönəldilmişdir.

Dərsin təşkilindəki yenilik də innovativ prosesin bir hissəsidir. Dərs yeni sxem üzrə planlanır və tədris olunur. Əgər əvvəllər ön plana materialın sadə izahı və onun möhkəmləndirilməsi çıxırdısa, indi şagird təlim prosesinin iştirakçısına çevrilir, yəni şagirdlərlə müəllim arasında qarşılıqlı əlaqəyə diqqət yetirilir.

İbtidai siniflərdə innovasiya prosesinə sinifdənkənar tədbirlər də daxil edilməlidir. Bu gün uşaqları dərsdən sonra fəaliyyətə cəlb etmək vacibdir, çünki bu, dərsdənkənar fəaliyyəti təhsil və tərbiyə üçün tam hüquqlu bir mühitə çevirməyə imkan verir. Hazırda müəllim innovativ texnologiyalardan istifadə etməklə şagirdlər üçün dərsdənkənar işləri yeni üsulla qurmaq imkanına malikdir.

İbtidai məktəblərdə innovativ fəaliyyətə texniki, tədris və məktəbdənkənar yeniliklər daxildir. Müasir həyat şəraiti məktəbin tədris prosesinə yeniliklərin daxil edilməsini diktə edir – bu öz növbəsində peşəkar müəllimin ən vacib keyfiyyətidir, çünki onun sayəsində yüksək pedaqoji məharətə nail olmaq mümkündür.

Təhsilin yeniləşməsi və yeni məzmunu ilə əlaqədar olaraq metodyönlü və problemyönlü innovativ proseslər fərqlənir.

Metodolojiyönlü innovasiya prosesləri təhsil texnologiyaları və texnikalarından istifadəni nəzərdə tutur. Bunlar müasir informasiya texnologiyaları, layihə əsaslı təlim, modul təlim, inkişaf etdirici təlim, problemli təlim, diferensiallaşdırılmış təlim, proqramlaşdırılmış təlim və s.

Problemyönlü innovasiya prosesləri insanın öz şəxsiyyətini və özünün sosial əhəmiyyətini həyatda və cəmiyyətdə dərk etməyə yönəlmiş müəyyən məsələləri həll etmək üçün nəzərdə tutulmuşdur.

Daha əvvəl qeyd edildiyi kimi, ibtidai sinif müəlliminin innovativ fəaliyyəti yeni forma, metod və təlim üsullarından istifadəni nəzərdə tutur. Yaxın vaxtlara qədər ibtidai məktəb şagirdləri dərslərdə nümunələrdən istifadə edərək eyni üsulla təhsil alırdılar. İndi müasir dünyada çoxlu təhsil metodları və proqramları var. Təhsil sisteminin müasirləşdirilməsinin məqsədi təhsili təkmilləşdirmək, istedadı və şəxsiyyət xüsusiyyətlərini inkişaf etdirmək, həmçinin şagirdin sağlamlığına qayğı göstərməkdən ibarətdir. Dövlət təhsil standartlarına keçiddən sonra bütün məktəblərdə təhsil öyrənmək bacarığının inkişaf etdirilməsi və özünütənzimləmənin inkişafı prosesinə çevrilir.

Yeniliklərdən biri də ibtidai siniflərdə kompüterdən istifadədir. Kompüter ibtidai sinif müəllimlərinə təlim prosesini asanlaşdırmağa və onu cəlbedici etməyə imkan verir. Ondan şəkilli, videolu və audio müşayiətli təhsil layihələri yaratmaq üçün istifadə etmək olar. Kompüterdən istifadə edərək rəqəmsal təqdimatlar və portfoliolar yaratmaq, videolar hazırlamaq mümkündür. Onun tədris prosesində istifadəsi kurikulumun tələblərinə tam cavab verir.

Müəllimlər savad və kompüter əsaslı yazı dərslərində kompüterdən istifadə edə bilərlər. O, ibtidai məktəb şagirdlərinin nitqinin zənginləşməsinə və inkişafına, yaradıcı və riyazi bacarıq-

ların, alqoritmik təfəkkürün formalaşmasına, multimedia texnologiyalarının və proqramlaşdırmanın əsaslarının, eləcə də komandada işləmək bacarıqlarının formalaşmasına kömək edir.

Müəllimin şagirdlərlə ünsiyyəti və qarşılıqlı əlaqəsi şəxsiyyətin formalaşması və psixoloji quruluşunun inkişafı üçün dərin bir əsasdır. Müəllimin sosial funksiyası gənc nəsli sosial təcrübə ilə tanış etməkdir. Real həyatda müəllim öyrəndiyi davranış modellərini, sosial normaları və dəyərləri əyani şəkildə nümayiş etdirir. Lakin fərdi təsir məsələsi də ciddidir. Müəllim innovativ fəaliyyətini və təşəbbüskarlığı stimullaşdırmaq üçün uşağın şüuruna, hisslərinə, davranışına məqsədyönlü təsir göstərir, sosial hədəflərin fərdi qavrayış səviyyəsinə köçürülməsinə kömək edir, uşaqların təhsil potensialından səmərəli istifadə etməyə çalışır, hər bir uşaqda özünü inkişaf etdirmək arzusunu inkişaf etdirir, ən əsası da, bir şəxsin sahib olduğu fərdi qabiliyyətlərinin tam reallaşdırılması üçün əlverişli şəraiti təmin edir. Məktəbdə müəllim-şagird münasibətləri əsnasında şagird müəllimin müşahidə etmək, qavramaq və qiymətləndirmək bacarıqlarını müşahidə edir, müəllim isə şagirdə özünün fərdiliyini və şəxsiyyət olma qabiliyyətini nümayiş etdirməklə onda zəruri ehtiyac və bacarıqların formalaşmasına, mənəvi anlayışlarını genişləndirməyə imkan verir.

Bəs müəllimləri innovativ fəaliyyətə cəlb edən nədir? Hər bir müəllim üçün innovativ fəaliyyət çətindir. Yaradıcı müəllim üçün bu xüsusən çətindir, çünki yaradıcı müəllim nəinki göstərişlərə əməl etməli, həm də müstəqil surətdə elmi, metodik, publisistik ədəbiyyatı araşdırmalıdır ki, bu məlumatı öz (və başqalarının) təcrübəsi ilə birləşdirərək, lazım olan dəqiq texnika və texnologiyaları tapsın və səmərəli istifadə etsin. Nə üçün tədrisə innovativ yanaşma müasir müəllimin peşəkarlığının məcburi tərkib hissəsinə çevrilib? Aydın səbəbə görə: müasir uşaqlar o qədər tez dəyişirlər ki, onları köhnə üsulla öyrətmək sadəcə işləməyəcək. Müasir məktəblilərin müəllimi başa düşməsi və qəbul etməsi üçün onu yeni texnika, texnologiya, metodlar axtarmağa və tapmağa məcbur edir. Müəllimin yeniliklərdən kənar qalması sadəcə qeyri-mümkün olub. Müəllim tərəqqiyə can atır, fəaliyyətini yaxşılığa doğru dəyişmək istəyir – məhz bu proses yenilikdir. İnnovativ dərsdə müəllimin ixtiraçılıq fəaliyyəti müxtəlif qeyri-adi tapşırıqlarda, qeyri-adi üsullarda, konstruktiv təkliflərdə, əyləncəli məşqlərdə, dərsin gedişatının tərtib edilməsində, təlim vəziyyətlərinin, didaktik materialın yaradılmasında, elmi faktların seçilməsi və yaradıcılığın təşkilində özünü göstərir.

İstənilən pedaqoji innovasiyalar yaradıcılığı əhatə edir, çünki dəyişən insan həmişə unikal və misilsizdir. Əgər müəllim pedaqoji prosesin yalnız informasiya tərəfi ilə məhdudlaşır və yaradıcılığı unudur, onda pedaqoji proses qaçılmaz olaraq çökür. Beləliklə, yaradıcılıq innovativ pedaqoji prosesin əvəzedilməz şərtidir, müəllimin fəaliyyətində isə obyektiv peşə zərurətidir.

**Problemin aktuallığı**. Məqalə günün tələbinə cavab verir, çünki peşəkar və yüksək pedaqoji məharətli müəllimin ən mühüm keyfiyyəti məktəbin tədris prosesinə yeniliklərin daxil edilməsidir. İbtidai məktəblərdə innovasiyaların tətbiqi kiçik yaşlı məktəblilərin öyrənməyə həvəsinin artırılmasına, təhsil texnologiyalarının yenilənməsinə, təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə və dövlət sifarişlərinin yerinə yetirilməsinə kömək edir.

**Problemin elmi yeniliyi.** İntellektual əməyin nüfuzunun və cəmiyyətdə məktəbin sosial institut kimi rolunun azalması tendensiyası şəraitində ibtidai sinif müəlliminin yaradıcı innovativ şəxsiyyət kimi formalaşması xüsusi əhəmiyyət kəsb edir. Məqalədə qeyd olunur ki, yaradıcılıq ibtidai sinif müəlliminin innovativ fəaliyyətinin zəruri bir hissəsidir. Yaradıcılıq prosesində bütöv bir baxışı, fikirləri, elmi konsepsiyası, yenilikçi təfəkkürü, pedaqoji mədəniyyəti olan və yaradıcı düşünən bir mütəxəssis formalaşır.

**Problemin praktik əhəmiyyəti.** Müəllim şagirdin yaradıcılıq fəaliyyətinin təşkili prosesində onun intellektinə, hisslərinə, əxlaqi əsaslarına müxtəlif təsir formalarından istifadə edir. Məktəbdə tədris prosesinin yaxşılaşdırılması əsasən müəllimin keyfiyyətləri və pedaqoji qabiliyyətləri, şagirdlərə təsiri vasitələri ilə, dərsdə emosional yaradıcı bir mikroiqlim yaratmaq və dərsdə innovasiyalardan istifadə etmək bacarığı ilə təmin olunur. Buna görə də müəllim üçün tədris və tərbiyənin psixoloji, didaktik, motivasiya proseslərini ön plana çəkən məqalələri, yazıları və s. oxumaq və onlardan bəhrələnmək vacibdir.

**Ədəbiyyat:**

1. Григорьева С.Г. Принципы и особенности инновационной деятельности учителя современной общеобразовательной школы. // Вектор науки Тольяттинского государственного университета. Серия: педагогика, психология. – 2011. – № 2. – С. 66-69.
2. Беловицкая С.И. Инновационная деятельность учителя начальных классов как условие профессионального роста. // Педагогический журнал. – 2016. – Том 6. – № 5 А. – С. 268-275.
3. Павлова Е.П. Педагогические условия развития инновационной деятельности учителя начальных классов в процессе модернизации образования. Дис. ... канд. пед. наук / -Якутск, 2009. – 182 с.
4. Ходырева Е.А. Инновационная деятельность в образовании: основные тенденции и приоритеты [Электронный ресурс. Научнометодический электронный журнал «Концепт». – 2016. – № 1. – С. 46-50. http://e-koncept.ru/2016/76010.htm.

**E-mail:** adelya.khalil@bk.ru
**Rəyçilər:** *psixol.elm.dok., prof.* **Q.N. Qəhrəmanova**
*ped.elm.dok.* **T.Ə. Vahabova**
**Redaksiyaya daxil olub:** 21.11.2023

*UOT 372.3/.4*

***Lalə Vladimir qızı Cahangirova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Gəncə Dövlət Universitetinin Təsviri incəsənət kafedrasının baş müəllimi*
*https://orcid.org/0009-0007-2838-2601*

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ƏSASLANDIRILMIŞ MÜHAKİMƏLƏRİNİN ELMİ-NƏZƏRİ MAHİYYƏTİ

***Лала Владимир гызы Джахангирова***
*доктор философии по педагогике,*
*старший преподаватель кафедры изобразительного искусства*
*Гянджинского Государственного Университета*

# НАУЧНО-ТЕОРЕТИЧЕСКАЯ СУЩНОСТЬ ОБОСНОВАННЫХ СУЖДЕНИЙ УЧАЩИХСЯ НАЧАЛЬНЫХ КЛАССОВ

***Lala Vladimir Jahangirova***
*doctor of philosophy in pedagogy,*
*senior lecturer at the department of Fine arts of*
*Ganja State University*

# SCIENTIFIC AND THEORETICAL ESSENCE OF REASONABLE JUDGMENTS OF PRIMARY CLASS STUDENTS

**Xülasə.** Məqalədə özünümüşahidə, özünütənqid, özünüdərk, özünənəzarət və s. kimi pedaqoji anlayışlar təhlil olunub. Onların elmi nəzəri mahiyyəti açıqlanıb. Bu anlayışlar sistemi əsaslandırılmış mühakimələrin əsas komponentini təşkil edən “sübut etmə”, “əsaslandırma” kimi məfhumun mahiyyətini açmağa tam imkan verir.
***Açar sözlər:*** *əsaslandırılmış mühakimə, özünütərbiyə, özünütənqid, kiçikyaşlı məktəblilər*

**Резюме.** В статье проанализированы такие педагогические понятия как: самонаблюдение, самокритика, самосознание, самоконтроль и другие. Объяснена их научно-теоретическая сущность. Данная система понятий в полной мере позволяет раскрыть сущность понятия «доказательство», «обоснование», являющихся основным компонентом аргументированных суждений.
***Ключевые слова:*** *аргументированное суждение, самовоспитание, самокритика, младшие школьники*

**Summary.** The article analyzes such pedagogical concepts as: self-observation, self-criticism, self-awareness, self-control and others. Their scientific and theoretical essence is explained. This system of concepts fully allows us to reveal the essence of the concept of “evidence”, “justification”, which are the main components of reasoned judgments.
***Key words:*** *reasoned judgment, self-education, self-criticism, primary schoolchildren*

Əsaslandırılmış mühakimə anlayışının elmi-pedaqoji məfhum kimi mahiyyətini açmaq üçün bir sıra pedaqoji, fəlsəfi-psixoloji, elmi-pedaqoji və metodik ədəbiyyata müraciət edən zaman məlum olur ki, “əsaslandırılmış mühakimə” məfhumu birbaşa “mülahizə”, “mülahizə olan və mülahizə olmayan fikirlər”, “məntiqi mühakimə”, “mühakimənin məntiqi quruluşu”, “özününizamlama”, “özünütənqid”, “özünüdərk”, “özünənəzarət” və digər məfhumlarla bağlıdır. Araşdırmalar zamanı məlum oldu ki, bir çox ədəbiyyatda müəlliflər bu anlayışları təhrif olunmuş şəkildə verir, anlayışların oxşar və fərqli əlamətləri düzgün ayırd edilmir, sonda bu anla-

yışlarlardan istifadə düzgün seçilmir, qarışdırılır. Bu isə dolaşıq fikirlərin, cümlə və mühakimələrin yaranmasına səbəb olur.

Bu məfhumların mahiyyəti "Pedaqoji lüğət"də açıqlanır. Məsələn, göstərilir ki, "Özünənəzarət – çoxmənalı məfhumdur. Pedaqoji prosesdə nəzarətin müxtəlif üsulları şagirdlərdə əsaslandırılmış mühakimələr yürütmək bacarıqlarının inkişafına yönəldilir. Nəticədə şagird yol verdiyi nöqsanları tapmağa, onların səbəblərini öyrənməyə və səbəbləri aradan qaldırmağa tədricən alışır" [3, s.168].

Lüğətdə o da qeyd olunur ki, "özününizamlama", "özünənəzarət" – müxtəlif mənalar daşıyan məfhumlardır. Təlim və tərbiyə prosesində özünənəzarət, özününizamlama uşaqlarda əsaslandırılmış mühakimələr yürütmək bacarıq və vərdişlərinin formalaşdırılmasına istiqamətləndirilir. Belə yanaşma sonda uşaqların yol verdiyi səhvləri, nöqsan və qüsurları, onların səbəblərini və aradan qaldırma yollarını müəyyən etməyə imkan yaradır [1, s. 168].

"Özünümüşahidə – adamın öz hiss və həyacanlarını idarə etməyin yollarından biridir. Pedaqoji prosesdə müəllim nəinki şagirdlərin (tələbələrin) necə qulaq asdıqlarını, necə düşündüklərini, nə ilə məşğul olduqlarını, necə işlədiklərini, həm də özünün psixoloji durumunu müntəzəm olaraq izləməyə, güclü və zəif cəhətlərini müəyyənləşdirməyə alışmalıdır" [1, s.169].

"Özünü ruhlandırmaq – çoxmənalı məfhumdur. Pedaqoji prosesdə müəllim və ya tərbiyəçi daim nikbin olmalı, gələcək müvəffəqiyyətinə inanmalı, ruhdan düşməməlidir. Özünə, öz uğuruna inam müəllimin gücünü artırır, inamsızlıq isə mənəvi cəhətdən zəiflədir".

"Özünütərbiyə – tərbiyəçilərin bilavasitə nəzarəti olmadan, lakin onların məsləhətlərinə əsasən şəxsin cəmiyyət üçün faydalı keyfiyyətləri məqsədyönlü və planlı surətdə mənimsəməsi prosesidir" .

"Özünütənqid – davranışında, fəaliyyətində, nitqində özünü göstərən nöqsanları adamın etiraf etməsi və öz təşəbbüsü ilə məqsədyönlü şəkildə islah etməsi, aradan qaldırmasıdır".

"Özünə göstəriş vermək – emosional vəziyyətində nöqsanın görən, onun varlığını etiraf edən, səbəbini müəyyənləşdirərək aradan qaldırılması üçün şəxsin öz qarşısına vəzifə qoymasıdır" [1, s. 168; s. 2; s. 238].

Deyilənləri ümumiləşdirərək "əsaslandırılmış mühakimələr yürütmək" anlayışına ilk aydınlığı belə vermək olar: Təlim prosesində əsaslandırılmış mühakimələr yürütmək şagirdin necə fikirləşdiyinə, nə düşündüyünə, öz fikirlərini cümlələrlə necə ifadə etdiyinə, öz psixoloji vəziyyətinə nəzarət etməyə, özünün zəif tərəflərini müəyyənləşdirməyə alışmalarıdır.

Məlumdur ki, uşaq, nitqi açıldığı ilk gündən öz fikirlərini müxtəlif cümlələrlə ifadə edirlər. Bu cümlələr ilk günlərdə yarımçıq, sonradan isə tam cümlələr olmaqla müəyyən mənanı ifadə edir. Uşaqların, o cümlədən kiçikyaşlı məktəblilərin istifadə etdikləri fikirlər məzmun etibarılə bir-birindən fərqli olsalar belə, onların hamısını xarakterizə edən bir ümumi əlamət var.

Məktəbə qədəm qoyduqları ilk gündən etibarən uşaqlar müntəzəm olaraq mülahizəli formada olan cümlələr eşidir və özləri də həm məişətdə, həm də pedaqoji prosesdə belə cümlələrdən istifadə edirlər. Riyaziyyatda dəyişənlərə konkret qiymətlər verərək, Azərbaycan dili, həyat bilgisi fənlərində isə qeyri müəyyənlikləri aradan qaldıraraq, onları mülahizəyə çevirirlər. Məsələn: □+3=9, x<8, "Azərbaycan ... ölkələrlə həmsərhəddir", "İnsan həyatı ... dövrə bölünür", "Qalın saitlər incə saitlərdən çoxdur, yoxsa az?", "Yer üzündə ən böyük ürəyi olan canlı nədir?" və s. Belə tip cümlələrlə ifadə olunmuş fikirlərin doğru və ya yalan olmasına birbaşa hökm etmək mümkün olmadığından onlar mülahizə deyil, lakin dəyişənlərin konkret natural qiymətlərində, nöqtələrin yerinə konkret sözlər yazdıqda, suala konkret cavab verdikdə, həmin cümlələr mülahizəyə (mənaca doğru və yaxud yalan cümləyə) çevrilir:

Mülahizəli formada olmayan cümlələri isə ümumiyyətlə mülahizəyə gətirmək mümkün deyil. Belə cümlələrlə də ibtidai sinif şagirdləri daim rastlaşırlar. Məsələn: "9 ədədi 7-dən böyükdürmü?", "Yaşasın Azərbaycanın qəhrəman Milli Ordusu!", "Azərbaycan Respublikasının Milli Kitabxanası harada yerləşir?" və s.

Məntiqdə mülahizələrin özləri də quruluşca iki qrupa bölünür: sadə və mürəkkəb mülahizələr. Bir mülahizə digər mülahizələrə bölünmədikdə o sadə mülahizə, bir neçə sadə mülahizəyə bölündükdə isə o, mürəkkəb mülahizə adlanır. İbtidai siniflər üzrə fənn dərsliklərində verilən mürəkkəb mülahizələr əsasən "və", "və ya",

"əgər..., onda..." bağlayıcıları vasitəsilə düzəldilir. Mürəkkəb mülahizələrin doğruluğu onu təşkil edən sadə mülahizələrin doğruluğundan asılı olur. Ona görə də, A.M. Pışkalonun qeyd etdiyi kimi, ibtidai sinif şagirdləri mürəkkəb mülahizələrin tərkibindəki sadə mülahizələrə əsasən həmin mülahizənin doğru olub-olmadığını sübut etməyi öyrənməlidirlər [5, s.103].

Araşdırmalardan belə bir ümumi nəticəyə gəlmək mümkündür ki, "əsaslandırılmış mühakimələr yürütmək" məfhumunun əsasında "sübut etmənin", "əsaslandırmanın", "isbatın" məntiqi quruluşu ilə bilavasitə bağlı olan "əgər ..., onda..." bağlayıcısının köməyilə düzələn mürəkkəb mülahizələr dayanır. Ona görə də "əgər..., onda..." yaxud ".....sa (sə), ....." bağlayıcılarının köməyilə düzələn mürəkkəb mülahizələrin üzərində xüsusi dayanmaq lazım gəlir.

"Əgər..., onda...", "Əgər.....sa(sə), .....", ".....sa(sə), ....." şəklində olan eyni mənalı bağlayıcının köməyilə düzələn və yaxud, mülahizəyə gətirilə bilən fikirlərdən sual cümlələrindən də bütün fənlərin tədrisi zamanı istifadə olunur. Məsələn, "Əgər insanın əhvalı pisdirsə, onun üzü gülə bilərmi? Cavabınızı izah edin". [6, s.61], "Əgər yaddaşınızı itirsəniz, nə baş verə bilər?" [6, s. 63], "İnsanlar arasında ünsiyyət olmasa, nə baş verə bilər?" [7, s.69] və s.

Məntiq elmində "Əgər ..., onda...." bağlayıcısı vasitəsilə düzəldilən mürəkkəb mülahizələr verilmiş sadə mülahizələrin implikasiyası adlandırılır. Sadə mülahizələr p və q ilə, onların implikasiyası isə p→q kimi işarə edilir, "p-dən q çıxır" kimi oxunur. P mülahizəsi p→q implikasiyasının şərti, q mülahizəsi isə nəticəsi adlandırılır. Riyazi məntiqdə p→q implikasıyası yalnız və yalnız o vaxt doğru olmayan mülahizə hesab olunur ki, p mülahizəsi doğru, q mülahizəsi isə doğru olmayan mülahizə olsun.

Beləliklə, bu anlayışlar sistemi əsaslandırılmış mühakimələrin əsas komponentini təşkil edən "sübut etmə", "əsaslandırma" kimi məfhumun (qeyd edək ki, öz təlim nəticələrinin doğruluğunu sübut etmək əsaslandırılmış mühakimələr yürütməyin (prof. H.N. Ağayev) əsaslandırılmış mühakimələr yürütmək isə özünütərbiyənin (prof. Ə.S. Bayramov) əsas komponentidir) mahiyyətini açmağa tam imkan verir. "Sübut etmək" termin kimi məntiqdə "mühakimə" mənasında işlənir. Mühakimə isə bu və ya digər bir mülahizənin doğruluğunu müəyyən etməkdir [4, s.105].

F.F. Pritulo isbata [8, vıp.1, E.21 ] belə bir tərif verir: "Sübutetmək" təfəkkür prosesi olub, əvvəlcədən məlum olan həqiqi mülahizələrin tətbiq edilməsi yolu ilə verilən mülahizənin doğruluğunun əsaslandırılmasıdır [8, vıp.1, E.21, s.5].

Bu təriflərdən belə çıxır ki, "sübutetmə", "əsaslandırma" verilmiş mülahizənin yalnız doğruluğunun əsaslandırılmasıdır. Ona görə də sübut etməyə verilən mülahizənin doğruluğunun və yaxud doğru olmadığının əsaslandırılması, kimi tərif vermək, güman edirik ki, daha düzgün olardı. Məntiqdə mülahizənin doğru olub-olmadığının əsaslandırılması əsasən iki məqsəd güdür:

a) Təklifin doğru və yaxud yalan olub-olmadığına haqq qazandırmaq.

Bu o deməkdir ki, həmin təkliflə onun doğru olub-olmadığını müəyyən edən dəlillər (arqumentlər, şərtlər) arasındakı məntiqi əlaqə izah edilsin. Yəni, qəbul olunmuş şərtlərdən müvafiq nəticənin alınmasının bütövlüyü, zəruriliyi əsaslandırılsın.

b) Doğruluğu əsaslandırılan təklifin digər təkliflər arasındakı yerini aydınlaşdırmaq.

Yəni, təklifin doğru olub-olmadığının əsaslandırılması üçün əvvəlcədən hansı ilk zəruri anlayışların lazım olduğu aydınlaşdırılmalıdır.

F.F. Pritulonun riyazi isbata verdiyi mexanizmə istinad edərək əsaslandırmanın məntiqi quruluşunu üç hissədən ibarət hesab etmək olar [8, vıp.1, E.21,]. Əsaslandırılacaq əsas fikri (təklifi) tezis, əsaslandırma prosesində istinad ediləcək fikirləri isə arqument adlandırsaq, onda arqumentin doğruluğundan tezisin doğruluğuna gəlmək prosesini əsaslandırmanın üsulu hesab etmək olar. Bəzi nəzəri-riyazi ədəbiyyatda bu prosesi arqumentdən tezisə giriş adlandırılır və hər üç şərti qısa və sadə şəkildə belə ifadə edilir:

1. Tezis – nə isbat olunur.
2. Arqument – nə ilə isbat olunur.
3. Sübut etmə üsulu – necə isbat olunur.

O qeyd edir ki, kiçikyaşlı məktəblilərin təlimi prosesində əvvəlcədən uşaqlar sadə tezis və arqumenti dəqiq və aydın şəkildə həm başa düşməli, həm də ifadə etməlidir.

F.F. Pritulo isbat zamanı meydana çıxan səhvləri də ümumiləşdirmiş və qruplaşdırmışdır. O, isbat zamanı üç qrup səhvlərin meydana çıxdığını aşkar etmişdir:

1. Tezisə nisbətən səhvlər.
2. Arqumentdə (əsasda) buraxılan səhvlər.
3. İsbat zamanı meydana çıxan səhvlər.

Əsaslandırma üsulunda bir və yaxud, bir neçə məntiqi nəticəyə gəlmə varsa, onda belə əsaslandırma "mürəkkəb əsaslandırma" adlanır. Əsaslandırma zamanı gəlinmiş aralıq nəticələr sonuncu məntiqi nəticəyə nisbətən arqument olur.

İbtidai təlim prosesində istifadəsi tez-tez müşahidə olunan "fikrin əsaslandırılması" ("doğruluğunun sübuta yetirilməsi") ifadələrin özləri də prosesinin özü də təbiətinə görə müxtəlif növlərə ayrılır.

I. Düzünə əsaslandırma. Düzünə əsaslandırma elə mühakimə formasıdır ki, burada arqument bilavasitə tezisin doğruluğunu sübut edir. Düzünə əsaslandırma Analitik və sintetik olmaqla iki növə ayrılır.

II. Tərsinə əsaslandırma. Tərsinə əsaslandırma elə mühakimələr ardıcıllığıdır ki, tezisin doğru olmasından digər başqa arqumentlərin yalan olması sübut olunur. Tərsinə əsaslandırmanın özü də iki növə ayrılır: əksini qəbul etməklə və bölünmə yolu ilə əsaslandırma.

Əksini qəbul etməklə əsaslandırma verilən mülahizənin (tezisin) doğruluğu ona əks olan mülahizənin (antitezisin) doğru olmamasının göstərilməsi yolu ilə aparılır. Bu belə izah olunur. Tutaq ki, əsaslandırmaq lazımdır ki, "S doğrudursa, onda P də doğrudur". Düzünə əsaslandırmada S əsasından P tezisinin necə çıxdığı axtarılmalıdır. Əksini qəbul etməklə sübut etmədə isə əks mülahizənin (antitezisin) yalan olması sübut ediləcəkdir. Yəni, "S doğrudursa, onda P (P tezisi P tezisinin antitezisidir) doğru deyil". Əgər bu antitezisin doğru olduğu izah edilsə, onda verilən tezisin doğruluğu əsaslandırılmış olur.

**Problemin aktuallığı.** Məqalənin əsas məqsədi əsaslandırılmış mühakimələrin əsas komponentini təşkil edən "sübut etmə", "əsaslandırma" kimi məfhumun mahiyyətini açmaqdır.

**Problemin elmi yeniliyi.** "Əsaslandırılmış mühakimələr" məhfumunun bağlı olduğu anlayışların mahiyyətinə verilən aydınlıq baxımından məqalə diqqəti cəlb edir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaq.

## Ədəbiyyat:


1. Azərbaycan milli izahlı ensiklopedik pedaqoji lüğət / tərt. ed. N.M. Kazımov. –Bakı: OKA Ofset, – 2005, – s. 167-169.
2. İsmayılov, R.Ə. Azərbaycan dili-1. Dərslik. / R.Ə. İsmayılov, S.Y. Abdullayeva, G.Y. Orucova [və b.] – Bakı: Altun kitab, – 2016. –160 s.
3. Пышкало, А. Сборник упражнений и проверочных работ по математике I – III классы / А.М.Пышкало, Н.Г.Уткина. – М.: Просвещение, – 1998. – 207 с.
4. Теоретические основы начального курса математики. / Сост. А.М. Пышкало и др./ – М., Просвещение, 2008, с.68-187
5. Riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu) / – Bakı: – 2013, http://www.kurikulum.az; "Riyaziyyatın ibtidai kursunun nəzəri əsasları" proqramı. – Bakı: 2007, – 16 s.
6. Mehdiyeva, G.Ə. Həyat bilgisi – 4. Dərslik. / G.Ə.Mehdiyeva, B.Ə. Kərimova. – Bakı: Aspoliqraf, – 2017. – 103 s.
7. Mehdiyeva, G.Ə. Həyat bilgisi – 3. Dərslik. / G.Ə.Mehdiyeva, F.H. Bayramova. – Bakı: Aspoliqraf, – 2018. – 96 s.
8. Притуло, Ф.Ф. О воспитании потребности в доказательстве на уроках // В кн.: Учение записки Северо–восточного пед. инс-та, 1977, вып.1, Е.21, – с.41-48.


**E-mail:** lale.cahangirova@mail.ru
**Rəyçilər:** *ped.ü.fəl.dok., prof.* **M.M. Məmmədov,**
*ped.ü.fəl.dok., dos.* **A.Ə. Hüseynov**
**Redaksiyaya daxil olub:** 20.11.2023

*UOT 372.3/.4*

***Səidə Maarif qızı Əliyeva***
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı*
*Bakı Qızlar Universitetinin baş müəllimi*
*ORCİD 0000-0002-6570-4039*

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİ İLƏ APARILAN LÜĞƏT ÜZRƏ İŞLƏRİN MƏZMUNU VƏ MƏNBƏLƏRİ

***Саида Маариф гызы Алиева***
*докторант по программе доктора философии*
*Института Образования Азербайджанской Республики*
*старший преподаватель Бакинского Университета для Девушек*

# СОДЕРЖАНИЕ И ИСТОЧНИКИ СЛОВАРНОЙ РАБОТЫ, ПРОВОДИМОЙ С УЧЕНИКАМИ НАЧАЛЬНЫХ КЛАССОВ

***Saida Maarif Aliyeva***
*doctoral student in the PhD program at the*
*Institute of Education of the Republic of Azerbaijan*
*senior lecturer at the Baku University for Girls*

# CONTENT AND SOURCES OF WORK ON VOCABULARY WITH PRIMARY SCHOOL STUDENTS

**Xülasə.** Məqalədə dərs prosesində lüğət üzrə işlərin məzmun və mənbələrindən bəhs edilir. Belə ki, dərslik və dərs vəsaitləri, sinifdənxaric oxu materialları, məktəb və ailədəki nitq mühiti, televiziya və radio verilişləri, teatr və kino tamaşalarının bu istiqamətdəki fəaliyyəti təhlilə cəlb olunur.
***Açar sözlər:*** *dərs, lüğət, məzmun, mənbə, söz, şagird*

**Резюме.** В статье рассматриваются содержание и источники словарной работы в учебном процессе. Так, к анализу привлекаются учебники и учебные пособия, материалы для внеклассного чтения, школьная и семейная речевая среда, теле- и радиопередачи, театральные постановки и киноспектакли данного направления.
***Ключевые слова:*** *урок, словарь, содержание, источник, слово, ученик*

**Summary.** The article discusses the content and sources of dictionary work in the teaching process. Thus, textbooks and teaching aids, extracurricular reading materials, school and family speech environment, television and radio programs, theater and film performances in this direction are involved in the analysis.
***Key words:*** *lesson, dictionary, content, source, word, student*

Şagirdlərin nitq vərdişlərinə yiyələnməsi işinin əsasını onun lüğət ehtiyatına yüksək səviyyədə sahib olması təşkil edir. Öz ana dilində lazımi nitqə yiyələnməsi üçün öyrənənlərin minimum lüğət ehtiyatı olmalıdır.

Böyük pedaqoq və metodistlər şagirdlərin lüğət ehtiyatını zənginləşdirmək işinə həmişə əhəmiyyət vermişlər. Onlar belə hesab etmişlər ki, şagirdlərin lüğət ehtiyatını genişləndirmədən və həmin sözlərin mənasını qrammatika dərsləri ilə əlaqələndirmədən dili mənimsətmək olmaz.

Lüğət üzrə işin əsasını uşağın dil açdığı dövrdən onun nitqinə sözlərin daxil olması təşkil edir. Əlbəttə ki, bu sözlərin düzgün formada ifadə olunması mühüm məsələdir. Çünki uşaq lüğət ehtiyatında olan sözləri mərhələlərlə qazanır: əvvəlcə ailə, daha sonra bağça və məktəb bu sıraya aiddir. Ailə dönəmində eşitdiyi sözlər

onun bu sahədə işinin ilkin təməlini qoyur. Bağçada qazandığı biliklər bu baxımdan yeniliklərin olması ilə seçilir. Məktəb dönəmində isə onun lüğət ehtiyatı həqiqətən zənginləşmiş olur.

"Lüğət üzrə iş zamanı müxtəlif metod və priyomlardan istifadə olunmalıdır. Məsələn, lüğət üzrə işdə əsas məsələ sözün mənasını izah etmək və şagirdin lüğət fondunu zənginləşdirməkdir. Azərbaycandili dərslərində söz yaradıcılığı üzrə aparılan praktik işlər üçün sözdüzəldici şəkilçilərin praktik imkanlarını müəyyənləşdirməklə başlamaq lazımdır. Məsələn, üzümçü, üzgüçü, məktəbli, suçu və s. bu kimi düzəltmə sözlərdə söz kökünün ifadə etdiyi mənalar şagirdlərə tanışdır. Bu zaman şagirdlərə aşağıdakı tipli çalışmalar vermək onların idraki fəallığını artırır:

Çalışma 1. Uyğun gələn sözlərdən istifadə etməklə mətni zənginləşdirin.

Çalışma 2. Aşağıdakı sözlərdən sifət düzəldib cümlədə işlədin. Səliqə, sevinc, fərəh, nəzakət, şücaət və s.

Çalışma 3.Verilmiş sözlərdən birləşmələr düzəldib yazın [1].

Şagirdlərin lüğət ehtiyatını zənginləşdirməyə kömək edən bir sıra mənbələr vardır ki, müəllim bu mənbələri əvvəlcədən bilməli və onlara xüsusi diqqət yetirməlidir. Həmin mənbələrdən bəzilərinin üzərində dayanmağı məqsədəuyğun hesab edirəm.

Şagirdlərin lüğət ehtiyatını zənginləşdirməyə kömək etmək baxımından imkanı olan mənbələr, əsasən, sinifdənxaric oxu materiallarından, dərslik və dərs vəsaitlərindən, məktəb və ailədəki nitq mühitindən, televiziya və radio verilişlərindən, teatr və kino tamaşalarından ibarətdir.

Sinifdənxaric oxunun bu işdə əhəmiyyəti böyükdür. Belə ki, burada əsas məqsəd I-IV sinif şagirdlərinin oxu və yazı vərdişlərinin təkmilləşdirilməsini təmin etməkdir. Eyni zamanda təbiət və ictimai həyat haqqında onların dərsliklərdən aldıqları bilikləri genişləndirmək, təfəkkürünü bədii obrazlarla zənginləşdirmək, nitqini, fantaziyasını inkişaf etdirmək, Vətənə, xalqa, ana dilinə, elmə qarşı məhəbbət hissləri tərbiyə etmək, humanist hisslər aşılamaq, onlarda kitabla müstəqil işləmək və ona böyük həvəs yaratmaqdır.

Dərs vəsaitləri mənbə baxımından xüsusilə seçilir. Belə ki, şagirdin dərsliklərdən əlavə oxuduğu kitablar da lüğət ehtiyatının zənginləşdirilməsində xüsusilə seçilir. Çünki kitab oxusu zamanı yeni sözlərin lüğət fonduna daxil olması və yadda saxlanılması prosesi baş verir.

Gələcəyimiz olan uşaqların təlim və tərbiyəsində əsas bilik mənbəyi olan dərsliklər, demək olar ki, bütün dövrlərdə təhsil sisteminin inkişafı üçün həyati əhəmiyyət daşımışdır. Ölkəmizdə dərslik siyasəti dünya təcrübəsinə əsaslanaraq təkmilləşdirilmiş və müasirləşdirilmişdir. Şagirdlərin lüğət ehtiyatlarının artırılması, öyrəndikləri yeni sözlərin mənalarının açılması, aktiv lüğət ehtiyatına gətirilməsi, yeni fikir və mülahizələrin yaradılması üçün nəzərdə tutulan çalışmalar Azərbaycan dilinin məzmun xətti və təlim nəticələrinin formalaşdırılmasına xidmət edir.

Bütün iş prosesində şagird özünə tanış olmayan yeni sözləri eşidir, onların mənasını anlamağa çalışır, sözlərin yeni ünsiyyət şəraitində kəsb etdiyi yeni məna çalarlarını praktik olaraq dərk etməli olur.

Şagird dərsləri oxuyarkən, elmi materialı dərk etməyə, onun məzmununu mənimsəməyə çalışır. Əgər bu prosesdə hər hansı söz mənaca dərk edilirsə, şagird həmin sözün mənasını öyrənməyə müstəqil surətdə istiqamətlənmiş olur.

Bu mənbələr üzrə işlər həm şüurlu, həm də qeyri-ixtiyari şəkildə gedə bilər. Əlbəttə, birinci hal lüğət ehtiyatını zənginləşdirmək işi üçün daha faydalı və səmərəlidir.

Şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi mənbələrindən biri onların yoldaşlarının – şagird kollektivinin nitqidir. I-II sinif şagirdləri günün 4-5 saatını şagird kollektivində keçirirlər. Onlar dərsdə, tənəffüsdə, oyun zamanı bir-birini eşidir, sual verir, ünsiyyətdə olurlar. Bu prosesdə onlar yoldaşlarını yamsılayır, eşitdikləri yeni söz və ifadələri öz nitqlərində işlədirlər. Yoldaşları ilə birgə fəaliyyətdə şagirdlərin lüğəti daha sürətlə zənginləşir. Lakin bu proses qeyri-bərabər gedir. I-II siniflərdə şagirdlər qrammatik kateqoriyalarla yenicə tanış olduqlarından həmin kateqoriyaların xarakterindən asılı olaraq, onların lüğət mənimsəmələri əsaslı dərəcədə dəyişir. Bu dövrdə uşaqlar mürəkkəb nitq ifadələrini ayırmaq üçün dərinə getmirlər. Lakin təcrübə göstərir ki, şagirdlərin qarşısında müəyyən məqsəd qoyulduqda onlarda nitqə, dilə maraq meydana çıxır. O zaman uşaqlar həssas, tələbkar, tənqidçi, nitq incəliklərinə fikir verən olmağa çalışırlar.

Ünsiyyət də lüğət ehtiyatının zənginləşdirilməsi üçün əsas mənbələrdən biridir. Ünsiyyət zamanı hər bir ünsiyyət iştirakçısı müsahibinin söz bazasından öz lüğət ehtiyatına yeni sözlər əlavə etmiş olur. Əgər öz ana dilimizə aid lüğət ehtiyatınızı artırmaq istəyiriksə, o zaman dostlarımız, tanışlarımız və ən əsası müəllimlərimiz ilə daha çox ünsiyyətdə olmağa çalışmaq lazımdır.

Müxtəlif dərsliklərdə lüğət üzrə iş aparmaq zəruridir. Belə ki, I sinfə gələn şagirdlər doğma dili tamamilə başqa şəkildə öyrənirlər. Savad təlimi dövründə uşağın nitq inkişafının səviyyəsi, onun məntiqi təfəkkürünün inkişafı mühüm əhəmiyyətə malik olmaqla, qiraət və yazı vərdişlərinin yaranması üçün həlledici amil hesab edilir.

Lüğətin genişlənməsində və dəqiqləşməsində mühüm rol oynayan köməkçi mənbələrdən biri də televiziya və radiodur. Bu günkü 4-5 yaşlı uşaqlar, demək olar ki, ekran qarşısında olurlar. Onlar ekranda yeni gördükləri əşyaların adlarını öz istədikləri, öz maraqları dairəsində öyrənirlər. Onlar rast gəldikləri əşya və hadisələrin mənalarını öyrənməyə can atır və bu məsələlərdə valideynlərin köməyindən istifadə etməyə çalışırlar.

"Ekrandan səslənən şifahi nitqin bir çox özəllikləri vardır və bununla bağlı yaranan tələblər televiziyada xüsusi əhəmiyyət kəsb edir. Məsələn, bu dilin normativ və kütləvi olması terminlərdən istifadəni məhdudlaşdırır, jarqonları kənara qoyur, cümlələrin xüsusi quruluşunu, görüntü ilə uzlaşmanı, sözlərin düzgün tələffüzünü, aparıcıların zəngin söz ehtiyatına yiyələnməsini tələb edir. Televiziyada nitq həm də bir növ psixoloji təsir vasitəsidir. Ona görə də bu nitqə, onun elementlərinə xüsusi tələblə yanaşmaq lazım gəlir. Həmin tələblər gözlənilməyəndə ekran nitqində ciddi nöqsanlar ortaya çıxır" [2].

Müəllim məktəblilərin bu sahədəki işlərini də nəzarətdən kənarda qoymamalıdırlar. Müəllim öz uşaqlarının xatirinə belə olsa, televiziyadakı uşaq verilişlərini izləməli, bu işlə əlaqədar olaraq sinifdə müzakirələr açılmasına çalışmalıdır.

Məlum olduğu kimi, mobil telefonlar gündəlik həyatımızda ən çox işlətdiyimiz texnoloji alətlərdən birinə çevrilibdir. Bunu da unutmayaq ki, həddindən artıq "dəyər" verdiyimiz bu texnoloji alətlərin nə qədər xeyirli tərəfi varsa da, bir o qədər də ciddi və təhlükəli tərəfləri var.

İnsanların gündəlik olaraq telefondan həddən artıq istifadəsini nəzərə alsaq, onun müsbət zəmin yaratması, işimizi asanlaşdırması ilə yanaşı, sağlamlıq baxımından bəzi çətinliklər törətdiyini də unutmaq olmaz. Uşaqların nitq inkişafı baxımından bir məqamı qeyd etmək istərdim ki, telefona həddən artıq aludə ünsiyyət, fikirlərini ifadə etməkdə bəzən problemlər də yaradır.

Lüğət üzrə işlər hər bir dərsdə xüsusi diqqətlə həyata keçirilməlidir. Məsələn, Azərbaycan dili dərslərində şagirdlərin lüğəti terminlər hesabına zənginləşməklə bərabər, tapşırıqlardakı sözlərin mənaları üzrə işə də xüsusi diqqət yetirilməlidir. Müəllim bədii və elmi-kütləvi mətnlərdən bütün sözlərin mənasının şagirdlər tərəfindən anlaşılmasına diqqət yetirməlidir. Sözlərin mənalarının izahı zamanı sözə müvafiq izah formaları seçilməlidir. Müəllim öz təcrübəsində özünü daimi göstərən bütün izah yollarından yerində və məqamında istifadə etməyi bacarmalıdır.

Bütün ibtidai sinif şagirdlərində aşağıdakı hadisəni istər I, istərsə də IV sinif şagirdləri arasında müşahidə etmək olar. Belə ki, mətndəki bəzi sözlər şagirdlərə tanış olmadığından və ya fəal lüğətində möhkəmlənmədiyindən onlar həmin sözləri ya işlətmir, ya da başqa sözlərlə əvəz edirlər. Məsələn, bir çox şagirdlər çox genişdir əvəzinə böyükdür, məktəblilər əvəzinə uşaqlar, ilk bahar əvəzinə yaz və s. sözlərini işlədirlər.

Hər bir sözdə konkret məna olur. Ona görə də uşaq hər bir sözü onun konkret məzmunu ilə bağlamağı öyrənməlidir.

Nitqin dəqiqliyi fikrin dəqiq və düzgün ifadə olunmasını təmin edir. Hər hansı əşya və hadisə haqqında düzgün mühakimə və mülahizə yürütmək üçün fikir dəqiq olmalıdır. Nitqin dəqiqliyini inkişaf etdirməyin əsasını şagirdlərin fəal lüğətində söz ehtiyatının çoxluğu, bu sözlərin mənasının başa düşülməsi və fikri ifadə etmək üçün dəqiq dil vasitələri seçə bilmək bacarığı təşkil edir.

Adətən, müəllimlər mənası şagirdlərə məlum olmayan və ya az məlum olan sözləri izah etməklə kifayətlənir, məzmunun şüurlu mənimsənilməsi üzrə işi bununla məhdudlaşdırır, əsərin obrazlı şəkildə qavranılması qayğısına qalmırlar.

Yeni mövzunun tədrisi zamanı mətndə olan yeni sözlərin izahı ilə işi bitmiş hesab etmək olmaz. Bunun üçün izah ediləcək sözü ge-

niş mənada həmin sözün omonimi, sinonimi və antonimi ilə əlaqələndirməklə başa salmaq daha düzgün olar.

Beləliklə, müəllim sözə həssas münasibət yaratmalı və özü də o mövqedən yanaşmalıdır. Şagirdlər bədii mətnlərin içərisində olan bütün sözlərin həqiqi və məcazi mənalarını anlamalıdırlar ki, onlardan öz nitqlərində istifadə etməkdə çətinlik çəkməsinlər.

**Problemin aktuallığı**. Kiçikyaşlı məktəblilərin təlim prosesində özlərini ifadə etmələrində, təlimə cəlb olunmalarında, dünyagorüşlərinin formalaşmasında habelə şagirdyönlü təlim prosesinin fəal iştirakçıları olmalarında zəngin lüğət ehtiyatlarına sahib olmaları başlıca şərtlərdən biridir. Müasir dövr bacarıqları və bu bacarıqları öz səlis nitqləri ilə ictimailəşdirən şagirdlər yetişdirmək müasir təhsilimizin əsas məqsədidir.

**Problemin elmi yeniliyi**. Şagirdlərin lüğət ehtiyatlarının müxtəlif üsul və vasitələrlə zənginləşdirilməsi və bunu aktiv lüğət bazasına gətirilməsi üçün fənlərüstü inteqrativ yanaşmalardan istifadə olunmuş, habelə kiçikyaşlıların lüğət ehtiyatlarının inkişafına mane olan problemlərə toxunulmuşdur.

**Problemin praktik əhəmiyyəti**. Məqalədə irəli sürülən fikirlər ali və ümumtəhsil məktəblərində pedaqoji prosesin təşkilində müəllimlər və digər təhsil prosesinin iştirakçıları üçün aktualdır

**Ədəbiyyat:**


1. http://genderi.org/oxu-derslerinde-luget-uzre-isin-teskili-yollari.
2. https://www.azerbaijan-news.az/posts/detail/telekanallarda-edebi-dilin-bezi-problemleri-haqqinda-1619209745
3. Kərimov Y.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. / Y.Ş. Kərimov. – Bakı, 2009. – 319 s.
4. Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. / A.N. Rəhimov. – Bakı, 2015. – 408 s.


**E-mail:** saida.edupimary@gmail.com
**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **B.O. İbadova,**
*ped.ü.fəls.dok.* **E.F. Məmmədova**
**Redaksiyaya daxil olub:** 27.11.2023

# UNİVERSİTET HƏYATI
# УНИВЕРСИТЕТСКАЯ ЖИЗНЬ
# UNIVERSITY LIFE

UOT378

**Nərmin Ələddin qızı Hüseynova**
*Azərbaycan Dillər Universitetinin müəllimi*
*https://orcid.org/0009-0005-4159-6458*

## ALİ TƏHSİL SİSTEMİNDƏ UĞURLU İSLAHATLAR

**Нармина Аладдин гызы Гусейнова**
*преподаватель Азербайджанского университета языков*

## УСПЕШНЫЕ РЕФОРМЫ В СИСТЕМЕ ВЫСШЕГО ОБРАЗОВАНИЯ

**Narmin Aladdin Huseynova**
*teacher of Azerbaijan University of Languages*

## SUCCESSFUL REFORMS IN THE HIGHER EDUCATION SYSTEM

**Xülasə.** Məqalədə Azərbaycan gəncliyinin maarifləndirilməsində düzgün təhsil strategiyasının həyata keçirilməsi istiqamətində dövlət siyasətinin əsas prioritetləri öz əksini tapmışdır. Hal-hazırda cəmiyyətin, əmək bazarının tələbatı əsasında yüksək ixtisaslı mütəxəssis hazırlığını təmin edən dövlət və özəl ali təhsil müəssisələrinin fəaliyyəti, qabaqcıl ölkələrin ali təhsil müəssisələrində təhsil alan azərbaycanlı gənclərin uğurları, eləcə də ali təhsil üzrə ölkəmizə üz tutan xarici ölkə vətəndaşlarının təhsilinə dair məlumatlar yer almışdır.
***Açar sözlər:*** *təhsil, islahat, perspektiv, nailiyyət*

**Резюме.** В статье отражены основные приоритеты государственной политики в направлении реализации правильной образовательной стратегии в воспитании молодежи Азербайджана. В настоящее время имеется информация о деятельности государственных и частных высших учебных заведений, обеспечивающих подготовку высококвалифицированных специалистов исходя из потребностей общества и рынка труда, успехах азербайджанской молодежи, обучающейся в высших учебных заведениях передовых стран, а также информация об образовании иностранных граждан, приезжающих в нашу страну для получения высшего образования.
***Ключевые слова:*** *образование, реформа, перспектива, достижение*

**Summary.** The article reflects the main priorities of state policy in the direction of implementing the correct educational strategy in educating the youth of Azerbaijan. Currently, there is information on the activities of public and private higher educational institutions that provide training for highly qualified specialists based on the needs of society and the labor market, the successes of Azerbaijani youth studying in higher educational institutions in advanced countries, as well as information on the education of foreign citizens coming to our country for higher education.
***Key words:*** *education, reform, prospect, achievement*

Dünyada ilk təhsil ocağı Qədim Yunan filosofu Platon tərəfindən eramızdan əvvəl IV əsrdə yaradılmışdır. Akademiya adlanan bu təhsil ocağında elmi problemlər müzakirə olunurdu. Platonun tələbəsi Aristoteldə bu Akademiyanın tələbələrindəndir.

425-ci ildə Avropada imperator naibi III Michael tərəfindən təsis edilən "Konstantinopol

Universiteti" bir tələbə qurumu kimi təsis edilmişdir. 849 tələbədən ibarət ilk ali təhsil müəssisəsi 848-ci ildə universitet statusu almışdır.

Dünyada yarandığı gündən fəaliyyət göstərən ilk ali təhsil ocağı isə 859-cu ildə Mərakeşin Fəs şəhərində təsis edilən Əl-Qarauin Universitetidir. Əsası Fatimə əl-Fihri tərəfindən qoyulmuşdur. Əvvəllər sadəcə təbiət elmləri tədris olunurdu, 1957-ci ildən etibarən fizika, riyaziyyat, kimya, xarici dillər və s. tədris edilməyə başlamışdır. "Dünyanın fasiləsiz fəaliyyət göstərən ən qədim ali təhsil müəssisəsi" kimi Ginnesin rekordlar kitabına düşmüşdür [5].

Hal-hazırda dünyada 10 ən güclü ali təhsil müəssisələri sırasında Harvard Universiteti (ABŞ, 1636), Massaçusets Texnologiya İnstitutu (ABŞ, 1861), Stanford Universiteti, Kembric Universiteti (ABŞ, 1891), Oxford Universiteti, Kaliforniya (Böyük Britaniya, 1096), Berkli Kaliforniya Universiteti (ABŞ, 1868), Prinston Universiteti (ABŞ, 1746), Yal Universiteti (ABŞ, 1701), Kolumbiya Universiteti (ABŞ, 1754), Kaliforniya Texnologiya İnstitutunu (ABŞ, 1891) qeyd etmək olar [6].

Ölkəmizdə, 1918-ci ildə Azərbaycan Cümhuriyyətinin dövlət vəsaiti hesabına Zaqafqaziya Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazax şəhərinə köçürülür. Beləliklə də Qazax Müəllimlər Seminariyası Azərbaycanın ilk ali təhsil ocağı hesab olunur [7].

2021-ci ildə ADA Universiteti "Bir müəllimin manifesti" adlı layihə çərçivəsində Qazax Müəllimlər Seminariyasının təhsil missiyasını davam etdirmək məqsədilə seminariyanın tarixi binasında bərpa işlərinə başlamışdı. 2023/2024-tədris ili üzrə Qazax Müəllimlər Seminariyası/ADA Universitetinin Qazax Mərkəzi ayda 2 dəfə həftə sonu (4 tam gün) əyani şəkildə, digər vaxtlarda isə "Blackboard" öyrənmə platforması üzərindən onlayn tədris həyata keçirəcəkdir .

Azərbaycanda ikinci ali təhsil müəssisəsi olan Bakı Dövlət Universiteti 1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyəti parlamenti tərəfindən təsis edilmişdir. Xalq Maarif Naziri Həmid bəy Şahtaxtinski dövlət universitetinin təşkili komissiyasına sədr olaraq professor V.İ. Razumovskini, üzvləri prof. N.A. Dubrovskini, A.M. Levini, İ.Ş. Sitoviçi və L.A. İşkovdananı təyin edir. Universitet Tibb və Tarix-Filologiya fakültələri ilə fəaliyyətə başlayır [4].

Müstəqillik illərinə qədər Azərbaycanda 20-yə yaxın ali təhsil müəssisəsi fəaliyyət göstərmişdir. Müstəqillik illərindən sonra isə bu say 50-yə yaxındır.

Azərbaycanda ali təhsil müəssisələrində ilk islahat ikipilləli ali təhsilə keçid ilə bağlıdır (bakalavr, magistratura). 1993-cü ildə ilk dəfə bakalavr pilləsinə 23 ali təhsil müəssisəsində 80 istiqamət olmaqla 300-dən çox ixtisas üzrə tələbə qəbul olmuşdur. 1997-ci ildə bakalavr pilləsi üzrə buraxılışdan sonra magistratura səviyyəsinə 9 özəl və 23 dövlət ali təhsil müəssisələri üzrə qəbul aparılmışdır. Bu gündə davamlı olaraq 5 ixtisas qrupu üzrə 50-dən çox özəl və dövlət ali təhsil müəssisələrinə bakalavr və magistratura ixtisası üzrə tələbələrin qəbulu davam etdirilir və müəyyən struktur dəyişiklikləri aparılır [1].

Ali təhsil müəssisələrində 1999-cu ildə aparılan "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nın məqsədi təhsil sisteminin strukturunun, məzmununun, kadr hazırlığı və təminatının, tədris, elmi-metodiki və informasiya təminatının, maddi-texniki bazasının siyasi, iqtisadi və sosial əsaslarla dövlət siyasətinə uyğunlaşdırılmasıdır [2].

Azərbaycan ali təhsil sistemində aparılan digər əsaslı islahat Bolonya prosesinin tətbiqi məsələsidir. Bolonya prosesinə qoşulan dünyanın qabaqcıl ölkələri Albaniya, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Moldova, Niderland, Norveç, Polşa, Portuqaliya, Makedoniya, Böyük Britaniya və s. sırasında Azərbaycanı da görmək olar. 1999-cu ildə Bolonya şəhərində 29 Avropa ölkəsinin razılığı əsasında imzalanan bu saziş müqayisəli şəkildə yüksək ixtisaslı, rəqabətqabiliyyətli mütəxəssislərin hazırlanmasını təmin edir. Bolonya sistemi üzrə ölkəmizdə aşağıdakı islahatlar həyata keçirilmişdir [3]:

- ✓ kredit sisteminin tətbiqi:
  - – ali təhsil müəssisələrində mənimsənilmiş fənlərin digər təhsil müəssisəsi tərəfindən tanınması.
  - – təhsilalma trayektoriyasını tələbə tərəfindən müəyyənləşdirilməsi.
- ✓ təhsilin keyfiyyətinə nəzarətin gücləndirilməsi.
- ✓ tələbə və müəllim mobilliyinin genişləndirilməsi.
- ✓ ixtisasların və diplomların qarşılıqlı tanınması.

- ✓ diploma əlavələrin Avropa ölkələrinin ali təhsil haqqında müvafiq sənədlərinə uyğunlaşdırılması.
- ✓ məzunların işlə təminatına nail olunması.
- ✓ Avropa təhsil sisteminin cəlbediciliyinin təmin edilməsi və s.

"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın məqsədi ali təhsil müəssisələrində insan kapitalının dayanıqlı inkişafının təmin edilməsi, aparıcı ölkələrin ali təhsil standartları çərçivəsində keyfiyyətli təhsil almaq imkanının yaradılmasıdır. Proqram çərçivəsində dünyanın 32 ölkəsində Harvard Universiteti, Oksford Universiteti, Yel Universiteti, Bristol Universiteti, Bilkənd Universiteti, Sorbonna Universiteti, Toronto Universiteti, Heydelberq Universiteti, Kioto Universiteti, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda və s. 3558 azərbaycanlı gənc təhsil almaq hüququ qazanmışdır. Həmin gənclər BMT, NASA, "Microsoft", "Google", "Bloomberg", "Samsung", "LG" və s. kimi tanınmış şirkətlərdə təcrübə keçmişdir. Təhsillərini uğurla başa vuran tələbələrin 60 faizi özəl sektorlarda, 40 faizi isə dövlət sektorunda iş fəaliyyətinə başlamışdır [8; 9]

Universitetlərarası beynəlxalq partnyorluq əlaqələrinin təmin edilməsi istiqamətində aşağıdakı fəaliyyətlər həyata keçirilmişdir:

- Bakı Ali Neft Məktəbinin Böyük Britaniyanın Heriot-Vat Universiteti ilə 3 texniki ixtisas üzrə birgə bakalavriat səviyyəsi üzrə kadr hazırlığı;
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetində "Birgə Azərbaycan-Fransız Universiteti (UFAZ)" layihəsi çərçivəsində 4 texniki ixtisas üzrə birgə bakalavriat proqramı.
- "ADA" Universiteti ilə Niderland Krallığının Maastrixt Menecment Məktəbinin "Biznesin idarə olunması" ixtisası üzrə 2 illik birgə magistratura layihəsi buna misaldır.

Qeyd edək ki, 2000-ci ildən etibarən Azərbaycanlı gənclər dünyanın müxtəlif ölkələrində, xarici ölkə vətəndaşları isə ölkəmizə təhsil üçün gəlir. Cədvəl 1-də qarşılıqlı təhsil mübadiləsi aparılan ölkələr qeyd olunmuşdur.

**Cədvəl 1.**
**Xarici ölkələrdə və ölkəmizdə təhsil alanlar**

| **Xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan Azərbaycan vətəndaşlarının sayı** | **Dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində bakalavr və magistr səviyyəsində təhsil alan xarici vətəndaşların sayı** |
|---|---|
| | |
| 1. Belarusda | 1. Belarusdan |
| 2. Qazaxıstanda | 2. Qazaxıstandan |
| 3. Qırğızıstanda | 3. Qırğızıstandan |
| 4. Rusiyada | 4. Rusiyadan |
| 5. ABŞ-da | 5. ABŞ-dan |
| 6. Amerika Samoasında | 6. Amerika Samoasından |
| 7. Almaniyada | 7. Avstraliyadan |
| 8. Avstraliyada | 8. Almaniyadan |
| 9. Böyük Britaniyada | 9. Böyük Britaniyadan |
| 10. Çexiyada | 10. Çexiyadan |
| 11. Çin Xalq Respublikasında | 11. Çin Xalq Respublikasından |
| 12. Estoniyadan | 12. Estoniyadan |
| 13. Finlandiyada | 13. Finlandiyadan |
| 14. Fransada | 14. Fransa |
| 15. İsveçdə | 15. İsveçdən |
| 16. İspaniyada | 16. İspaniyadan |

| | |
|---|---|
| 17. İtaliyada | 17. İtaliyadan |
| 18. Kanadada | 18. Kanadadan |
| 19. Kiprdə | 19. Kiprdən |
| 20. Koreya Respublikasında | 20. Koreya Respublikasından |
| 21. Latviyada | 21. Latviyadan |
| 22. Litvada | 22. Litvadan |
| 23. Macarıstanda | 23. Macarıstandan |
| 24. Misirdə | 24. Misirdən |
| 25. Niderlandda | 25. Niderlanddan |
| 26. Norveçdə | 26. Norveçdən |
| 27. Pakistanda | 27. Pakistandan |
| 28. Polşada | 28. Polşadan |
| 29. Türkiyədə | 29. Türkiyədən |
| 30. Yaponiyada | 30. Yaponiyadan |

**Mənbə:** https://www.stat.gov.az/source/education/

**Cədvəl 2-də ayrı-ayrı ölkələr üzrə qeyd olunmuşdur**

| Xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan Azərbaycan vətəndaşlarının sayı | Dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində bakalavr və magistr səviyyəsində təhsil alan xarici vətəndaşların sayı |
|---|---|
| 1. Ukraynada<br>2. Avstriyada<br>3. Belçikada<br>4. Burunduda<br>5. Fransa Polineziyasında<br>6. İrlandiya<br>7. İsveçrədə<br>8. Malayziyada<br>9. Maltada<br>10. Rumıniyada<br>11. Serbiyada<br>12. Sinqapurda<br>13. Slovakiyada<br>14. Yeni Zelandiyada | 1. Moldovadan, 2. Özbəkistandan, 3. Tacikistandan,<br>4.Türkmənistandan, 5. Ukraynadan, 6. ABŞ-dan Vircin adalarından,<br>7. Anqoladan, 8. Argentinadan, 9. Çaddan,<br>10. Bahamdan adaları, 11. Banqladeşdən, 12. Barbadosdan,<br>13. Birləşmiş Ərəb Əmirliklərindən, 14. Bolqarıstandan,<br>15. Bosniya və Herseqovinadan, 16. Danimarkadan,<br>17. Britaniyadan Vircin adaları, 18. Gürcüstandan,<br>19. Ficidən, 20. Efiopiyadan, 21. Ekvadordan, 22. İrandan,<br>23. Eritreyadan, 24. Tailand, 25. Əfqanıstandan,<br>26. Əlcəzairdən, 27. Fələstindən, 28. Filippindən,<br>29. İraqdan, 30. Hindistandan, 31. İordaniyadan,<br>32. İsraildən, 33. İndoneziyadan, 34. Kolumbiyadan,<br>35. Kamerundan, 36. Kenyadan, 37. Koreya XDR,<br>38. Küveytdən, 39. Qambiyadan, 40. Qanadan,<br>41. Lesotodan, 42. Livandan, 43. Liviyadan, 44. Liberiya,<br>45. Malaviyadan, 46. Maldiv Respulikasından, 47. Perudan<br>48. Mavrikiyadan, 49. Monqolustandan, 50. Monteneqrodan<br>51. Meksikadan, 52. Mərakeşdən, 53. Mozambikdən,<br>54. Myanmadan, 55. Malayziyadan, 56. Makedoniyadan,<br>57. Mavritaniyadan, 58. Nigeriyadan, 59. Omandan,<br>60. Sent-Vinsent və Qrenadindan, 61. Sloveniyadan,<br>62. Səudiyyə Ərəbistanından, 63. Suyerra Leonidən<br>64. Somalidən, 65. Sudandan Surinamdan, 66. Suriyadan,<br>67. Şri Lankadan, 68. Svazilenddən, 69. Tanzaniyadan,<br>70. Tunisdən, 71. Uqandadan, 72.Vyetnamdan,<br>73. Yəməndən, 74. Yunanıstandan, 75. Zambiyadan,<br>76. Zimbabvedən, 77. Xorvatiyadan |
| **Mənbə:** https://www.stat.gov.az/source/education/ | |

Cədvəllər üzrə müqayisəli təhlil onu deməyə əsas verir ki, 30 ölkə ilə qarşılıqlı əməkdaşlıq, 14 ölkə üzrə Azərbaycan, 77 ölkədən isə Azərbaycanda ali təhsil almaq üçün müraciət olunmuşdur.

Cədvəl 3-də xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan Azərbaycan vətəndaşlarının sayı, cədvəl 4-də isə dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində bakalavr və magistr səviyyəsində təhsil alan xarici vətəndaşların sayı göstərilmişdir.

**Cədvəl 3.**
**Xarici ölkələrin ali təhsil müəssisələrində dövlət xətti ilə təhsil alan Azərbaycan vətəndaşlarının sayı**

| **İllər** | 2000/2001 | 2005/2006 | 2007/2008 | 2008/2009 | 2009/2010 | 2010/2011 | 2011/2012 | 2012/2013 |
|---|---|---|---|---|---|---|---|---|
| **say** | 919 | 1182 | 1256 | 1625 | 2041 | 2055 | 2096 | 2270 |
| | | | | | | | | |
| **İllər** | 2013/2014 | 2014/2015 | 2015/2016 | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2021/2022 |
| **say** | 3035 | 2911 | 2998 | 2197 | 1800 | 751 | 807 | 717 |

**Mənbə:** https://www.stat.gov.az/source/education/

**Cədvəl 4.**
**Dövlət və qeyri-dövlət ali təhsil müəssisələrində bakalavr və magistr səviyyəsində təhsil alan xarici vətəndaşların sayı**

| **İllər** | 2000/2001 | 2005/2006 | 2007/2008 | 2008/2009 | 2009/2010 | 2010/2011 | 2011/2012 | 2012/2013 |
|---|---|---|---|---|---|---|---|---|
| **say** | 1870 | 3073 | 5014 | 5585 | 5285 | 4723 | 4231 | 3926 |
| | | | | | | | | |
| **İllər** | 2013/2014 | 2014/2015 | 2015/2016 | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2021/2022 |
| **say** | 3971 | 3698 | 3425 | 3370 | 3784 | 4262 | 4688 | 5256 |

**Mənbə:** https://www.stat.gov.az/source/education/

Cədvəl 3 və cədvəl 4-ün müqayisəli təhlili onu deməyə əsas verir ki, təhsil üçün ölkəmizə üz tutan tələbələrin sayı daha çox üstünlük təşkil edir. 2000/2001-ci tədris ilində gedənlərin sayı 919, gələnlərin sayı 1870, 2021/2022-ci tədris ilində gedənlərin sayı 717, gələnlərin sayı 5256 olmuşdur.

Ali təhsil sistemində aparılan uğurlu təhsil islahatları üzrə normativ-hüquqi sənədlər toplusunun təhlili onu deməyə əsas verir ki, ali təhsil müəssisələrinin Avropa ölkələrinə inteqrasiyasi daim dövlət siyasətinin bir parçası olmuşdur. İnteqrasiyanın təmin olunması istiqamətində bir sıra addımlar atılmışdır. Azərbaycan gəncləri dünyanın qabaqcıl ölkələrində təhsil alma hüququ qazanır. Eyni zamanda hər il müxtəlif xarici ölkələrdən təhsil üçün ölkəmizə gələn tələbələrin sayı daha çox üstünlük təşkil edir. Lakin buna baxmayaraq hələ də Azərbaycan diplomlarının beynəlxalq sferada tanınmasına müvəffəq olmamışıq. Bu sahədə geniş tədqiqatların aparılmasına, problem və çatışmazlıqların müəyyənləşdirilməsinə, keyfiyyət təminatı şəbəkəsinin yaradılmasına ehtiyac vardır.

**Problemin aktuallığı.** Aparılan geniş miqyaslı islahatların məqsədi elm və istehsal sahələri arasında əlaqələrin qurulmasını, elmi potensialın inkişafını təmin etməyə istiqamətlənmişdir. Lakin ali təhsil diplomlarının beynəlxalq sferada tanınmaması hələdə aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** Ali təhsil sahəsində uğurlu islahatların nəticələrinin cəmiyyətə təqdim olunması, gənclər arasında təhsil motivasiyasının yaradılmasıdır.

**Problemin praktik əhəmiyyəti.** Ali təhsil sahəsində təsdiqlənmiş normativ-hüquqi sənədlərin mahiyyətinin, məqsədinin ümumiləşdirilməsi müəllim və tələbələr üçün məlumat bazasıdır.

**Ədəbiyyat:**


1. Ali və orta ixtisas təhsili. URL: https://edu.gov.az/upload/file/Ali-ve-orta-ixtisas/umumi-melumatt.pdf
2. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. URL: https://e-qanun.az/framework/5363).
3. Bolonya sistemi və Azərbaycan təhsili. URL: https://celt.az/bolonya-sistemi-v%C9%99-az%C9%99rbaycan-t%C9%99hsili/
4. BDU-nun təsis olunması. URL: http://bsu.edu.az/az/content/tarxmz
5. Dünya üzrə ilk yaranan universitetlər hansılardır? URL: https://azedu. az/az/news/31497-dunya-uzre-ilk-yaranan-universitetler-hansilardir-arasdirma
6. Dünyanın 10 ən güclü universiteti. URL: https://www.bbc.com/azeri/ international/2016/05/160505_top_universities
7. Mikayılova K. Qarabağın təhsil tarixi. Bakı: Orxan, 2021, 136 s.
8. 2007-2015-ci illərdə xaricdə 3558 azərbaycanlı təhsil alıb/ URL: https: //azedu.az/az/news/8603-2007-2015-ci-illerde-xaricde-3558-azerbaycanli-tehsil-alib-
9. “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. URL: https://e-qanun. az/framework/40711


**E-mail:** nnarmihuseynova@gmail.com
**Rəyçilər:** *ped.elm.dok.* **Z.B. Muradova,**
*ped.ü.fəl.dok., dos.***N.E. Zeynalova**
**Redaksiyaya daxil olub:** 01.11.2023

*UOT378*

***Nigar Vəli qızı Ramazanova***
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Gəncə Dövlət Universiteti*
*https://orcid.org/0009-0001-1276-8186*

# PEDAQOJİ TƏCRÜBƏ X-XI SİNİF ŞAGİRDLƏRİNDƏ SAĞLAM HƏYAT TƏRZİNİN FORMALAŞDIRILMASI VASİTƏSİ KİMİ

***Нигяр Вели гызы Рамазанова***
*диссертант по программе доктора философии*
*Гянджинский Государственный Университет*

# ПЕДАГОГИЧЕСКИЙ ОПЫТ КАК СРЕДСТВО ФОРМИРОВАНИЯ ЗДОРОВОГО ОБРАЗА ЖИЗНИ УЧАЩИХСЯ X-XI КЛАССОВ

***Nigar Vali Ramazanova***
*doctorial student in the program of doctor of philosophy*
*Ganja State University*

# PEDAGOGICAL EXPERIENCE AS A MEANS OF FORMING AT STUDENTS' HEALTHY LIFESTYLE IN CLASSES 10-11

**Xülasə**. Tələbələr pedaqoji təcrübədə olarkən həm seçdikləri ixtisaslar üzrə dərs keçir, həm də təlim prosesinin təhsilləndirici, inkişafetdirici və tərbiyələndirici vəzifələrini uğurla yerinə yetirməyə, sinifdənxaric tədbirlərdə şagirdlərlə tərbiyəvi tədbirləri həyata keçirməklə onların mənəvi keyfiyyətlərini, bədii, estetik zövqünü inkişaf etdirir, onlarda fiziki mədəniyyətin, ekoloji, hüquqi, iqtisadı mədəniyyət formalaşdırılması qayğısına qalırlar.
***Açar sözlər:*** *pedaqoji təcrübə, sinifdənxaric tədbirlər, təlim prosesi, fəal həyat tərzi, sağlamlıq, sağlam həyat tərzi*

**Резюме.** Находясь на педагогической практике, студенты проходят занятия по избранным специальностям, успешно выполняют учебно-развивающие и воспитательные задачи учебного процесса, развивают свои нравственные качества, художественно-эстетический вкус путем проведения воспитательной работы со школьниками во внеклассной деятельности, таким образом формируется их физическая, экологическая и экономическая культура.
***Ключевые слова:*** *педагогическая практика, внеклассная деятельность, учебный процесс, активный образ жизни, здоровье, здоровый образ жизни.*

**Summary**. While on teaching practice, students take classes in their chosen specialties, successfully carry out educational, developmental and educational tasks of the educational process, develop their moral qualities, artistic and aesthetic taste by conducting educational work with students in extracurricular activities, develop their physical education, environmental, legal, care about the formation of economic culture.
***Key words:*** *teaching practice, extracurricular activities, educational process, active lifestyle, health, healthy lifestyle.*

Nəzəriyyə təcrübənin, təcrübə nəzəriyyənin mövcudluğunu tələbata çevirir. Nəzəriyyə olmalıdır ki, onun əsasında, onun başlıca müddəaları rəhbər götürülərək tətbiq olunsun. Bu mənada pedaqogika elmi də nəzəriyyə və təcrübənin sız vəhdətini tələb edir. Tələbələr mühazirə və seminar məşğələlərində öyrəndikləri bilik və məlumatları təcrübədə, həyatda tətbiq etmək üçü, bir növ yer, bir meydan, bir sahə axtarırlar. Jurnalistika fakültəsində təhsil alanlar üçün bu – qəzet, jurnal redaksiyaları, radio və televiziya verilişləri komitələri, birlikləri; hüquqşünaslıq ixtisasını

seçənlər üçün bu – məhkəmə və prokurorluq orqanları; həkim olmaq arzusunda olanlar üçün bu – xəstəxanalar, poliklinikalar və s. ola bilər.

Müəllimlik peşəsini seçənlər üçün bu – ümumtəhsil məktəbləri, uşaq bağçaları, kolleclər, texniki peşə məktəbləri, hətta institut və universitetlər olar.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli 221 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə"sində təcrübənin aşağıdakı əsas növləri göstərilir:

"1. tədris təcrübəsi;

2. istehsalat (pedaqoji) təcrübəsi, o cümlədən diplomqabağı təcrübə" (1).

Əsasnamədə göstərildiyi kimi, tədris təcrübəsi mütəxəssis hazırlığının xüsusiyyətləri hesaba alınmaqla, təhsil müəssisələri tərəfindən dövlət təhsil standartlarına uyğun müəyyən edilir.

İstehsalat (pedaqoji) təcrübəsi, adətən peşə hazırlığı və diplomqabağı təcrübədən, magistratura səviyyəsində isə elmi-tədqiqat və elmi-pedaqoji mərhələlərini özündə birləşdirir. Təlimin yekun mərhələsi sayılan diplomqabağı təcrübə nəzəri dərslər və digər təcrübə növləri tamamı yetdikdən sonra həyata keçirilir.

"Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında" Əsasnamənin tələblərini nəzərə alaraq pedaqoji universitet (Azərbaycan Dövlət Pedaqoji Universiteti və onun filialları) və pedaqoji institutun (Naxçıvan Müəllimlər İnstitutu), başqa ali təhsil müəssisələrinin pedaqoji fakültələrinin tələbələri üçün pedaqoji təcrübənin başlıca vəzifələrini belə müəyyənləşdirmək mümkündür:

- tələbənin universitetdə, institutda yiyələndiyi nəzəri bilikləri möhkəmləndirmək və dərinləşdirmək, sonrakı əmək fəaliyyətində tətbiqini təmin etmək;
- tələbələri yeni texnologiyalarla, iş üsulları, elmi-tədqiqatlarla və digər məsələlərlə tanış etmək;
- tələbələrdə işgüzarlıq, təşkilatçılıq və kommunikativ vərdişlər yaratmaq;
- tələbələri kompüter texnologiyaları sahəsindəki biliklərlə əhatə etmək və həmin bilikləri təkmilləşdirmək qayğısına qalmaq;
- tələbələrdə pedaqoji peşəyə olan meyil və marağı möhkəmləndirmək, təlim-tərbiyə işlərini yaradıcılıqla həyata keçirmək bacarığını inkişaf etdirmək.

Tələbələr pedaqoji təcrübədə olarkən həm seçdikləri ixtisaslar üzrə dərs keçir, həm də təlim prosesinin təhsilləndirici, inkişafetdirici və tərbiyələndirici vəzifələrini uğurla yerinə yetirməyə, sinifdənxaric tədbirlərdə şagirdlərlə tərbiyəvi tədbirləri həyata keçirməklə onların mənəvi keyfiyyətlərini, bədii, estetik zövqünü inkişaf etdirir, onlarda fiziki mədəniyyətin, ekoloji, hüquqi, iqtisadı mədəniyyət formalaşdırılması qayğısına qalırlar.

Tələbələr ümumtəhsil məktəbləri şagirdləri ilə bir çox mövzularda tərbiyə işləri aparırlar. Sağlam həyat tərzinin formalaşdırılması istiqamətində iş həm təlim prosesində, həm də sinifdənxaric tədbirlərdə həyata keçirilir. Sağalam həyat tərzinin formalaşdırılması ilə bağlı ümumtəhsil məktəbində işlərini səmərəli qurmaq üçün ilk növbədə təhsil aldıqları institut və universitetlərdə ayrı-ayrı fənlər üzrə mühazirə və seminar məşğələlərində zəruri bilik və məlumatlara yiyələnirlər. Bu sahədə pedaqogika və psixologiya fənlərinin rolu böyükdür.

Biz ali təhsil müəssisələri üçün yazılmış bir sıra "Psixologiya" dərslikləri ilə (Ə.S. Bayramov və Ə.Ə. Əlizadənin, S.İ. Seyidov və M.Ə. Həmzəyevin, R.İ. Əliyevin və b.) tanış olduq. Bu məqalədə nəzərdən keçirdiyimiz problemlə bağlı professorlar S.İ. Seyidov və M.Ə. Həmzəyevin elmi redaktorluğu ilə nəşr olunmuş "Psixologiya" dərsliyində aşağıdakı mövzular diqqətimizi cəlb etdi: "İlk gənclik yaşı dövrünün psixoloji xüsusiyyətləri" adlı XXII fəsli üzrə: "Gənclik yaşının ümumi xarakteristikası", "İlk gənclik yaşında şəxsiyyətin inkişafı", "Böyük məktəblilərin təlim fəaliyyəti və idrak proseslərinin inkişafı" (s. 483-495); Tərbiyə psixologiyası" fəsli üzrə (XXIII fəsil, (s. 496-520): "Şəxsiyyətin formalaşması tərbiyə psixologiyasının əsas problemi kimi", "Məktəbyaşı dövründə şəxsiyyətin formalaşmasının psixoloji şərtləri. Tərbiyəvi tədbirlərin psixoloji cəhətdən əsaslandırılması və məktəblilərin tərbiyəlilik səviyyəsinin müəyyənləşdirilməsi problemi", "Şəxsiyyətin özünütərbiyəsinin psixoloji əsasları Şagirdlərin əxlaq tərbiyəsinin psixoloji əsasları", "Çətin" uşaqlar və onlarla aparılan işin xüsusiyyətləri"; "Təlim psixologiyası" fəsli üzrə (XXVI fəsil, (s. 521-561): "Təlim prosesi pedaqoji psixologiyanın nəzəri və tətbiqi problemi kimi Tə-

lim və psixi inkişaf", "Öyrənməyə qabillik problemi və mənimsəmə", "Öyrənmənin müvəffəqiyyətini təmin edən amillər", "Təlim prosesində motivasiya-tələbat sahəsinin formalaşması", "Dərsin təşkilinin psixoloji şərtləri", "Təlimin fərdiləşməsi və diferensiasiyası".

Pedaqoji fəaliyyətin və müəllim şəxsiyyətinin psixologiyası" adlı XXV fəsil üzrə (s. 562-615): "Pedaqoji fəaliyyətin psixoloji xüsusiyyətləri", "Müəllim şəxsiyyətinin psixologiyası və müəllimin pedaqoji ustalığının psixoloji əsasları", "Pedaqoji ünsiyyətin psixoloji mexanizmləri haqqında", "Şagird şəxsiyyəti və sinif kollektivinin öyrənilməsi və onlara psixoloji xarakteristika tərtibinin prinsipləri", "Pedaqoji kollektiv və ona rəhbərliyin bəzi psixoloji məsələləri".

"Məktəbə psixoloji xidmətin əsasları" fəsli (XXVI fəsil, s. 616-625) üzrə: "Məktəbə psixoloji xidmətin məqsəd və vəzifələri", "Məktəbə psixoloji xidmətin prinsipləri və həyata keçirilmə mərhələləri", "Məktəbə psixoloji xidmətin funksiyaları və əsas istiqamətləri".

"Pedaqogika" dərslikləri də araşdırıldı "Psixologiya" dərslikləri və dərsləri kimi "Pedaqogika" dərslikləri və dərsləri də sağlam həyat tərzinin formalaşdırılması ilə bağlı tələbələrin şagirdlərlə təhsil-tərbiyə işləri aparması üçün material verir. Başqa sözlə onları nəzəri biliklərlə silahlandırır. Diqqət yetirək: "Tərbiyənin prinsipləri" fəsli (XI fəsil) üzrə: "Tərbiyənin prinsipləri" anlayışı və tərbiyənin prinsiplərinin xarakteristikası", "Tərbiyədə məqsədaydınlığı prinsipi", "Tərbiyə işinin həyatla, əməklə və Azərbaycan Respublikasında dinc quruculuq işləri ilə əlaqələndirilməsi prinsipi", "Yaş xüsusiyyətlərinin nəzərə alınması prinsipi", "Şagirdin şəxsiyyətinə hörmətlə düzgün tələbkarlığın uzlaşdırılması (tərbiyədə hörmət və tələbkarlıq)" prinsipi "Tələblərdə vahidliyin gözlənilməsi prinsipi", "Tərbiyə prosesinə kompleks yanaşma prinsipi", "Kollektivdə, kollektiv vasitəsilə və kollektiv üçün tərbiyə prinsipi".

"Tərbiyənin metodları" (XII fəsil) fəsli üzrə: "Tərbiyənin metodları" anlayışı", "Şüura, ağıla, idraka təsir göstərən metodlar (başqa sözlə, "inandırma metodları")", "Fəaliyyəti təşkil edən və mənəvi davranışı formalaşdıran metodlar (başqa sözlə, "alışdırma metodları")", Şagirdlərin hiss və münasibətlərini, fəaliyyət və davranışını stimullaşdıran metodlar (başqa sözlə, "rəğbətləndirmə və cəzalandırma metodları"), "Müəllimin şəxsi nümunəsi", "Tərbiyədə nəzarət, özünənəzarət, özünüqiymətləndirmə (başqa sözlə, tərbiyə prosesinə nəzarət və onun səmərəliliyinin təşkili) metodu", "Tərbiyənin priyomları (tərzləri) və vasitələri".

Digər "Pedaqogika" dərsliyində "Sinif rəhbərinin işinin məzmunu və fəaliyyətinin səciyyəvi xüsusiyyətləri" (X fəsil) və XI FƏSİL. Sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə təşkilatçı, onun vəzifələri, işinin məzmunu və peşəsinə verilən pedaqoji tələblər" (XI fəsil, s. 351-395) fəsilləri diqqətimizi cəlb etdi. Bu fəslə aşağıdakı məsələlər aid edilib: "Sinif rəhbəri vəzifəsi haqqında", "Sinif rəhbərinin işinin məzmunu və əsas istiqamətləri", "Sinif müəllimi və sinif rəhbəri", "Sinif rəhbərinin işinin səciyyəvi xüsusiyyətləri", Sinif rəhbərinin işində pedaqoji diaqnostikanın əhəmiyyəti", "Sinif rəhbərinin hüquq və vəzifələri", "Sinif rəhbərinin şagirdlərlə apardığı praktik işlər", "Sinif rəhbərinin valideynlərlə apardığı işin məzmunu", "Valideynlər arasında pedaqoji maarifləndirmə", "Sinif saatı", "Sinif rəhbərinin tərbiyəvi iş planı", "Sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə təşkilatçının vəzifələri, işinin məzmunu, forma və metodları".

Dərslikdəki XI fəsil "Sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə təşkilatçı, onun vəzifələri, işinin məzmunu və peşəsinə verilən pedaqoji tələblər" adlanır. Bu fəslə daxil olan mövzular bunlardır: "Sinifdənxaric və məktəbdənkənar tərbiyə işləri üzrə təşkilatçının iş planı və tərtibinə verilən pedaqoji tələblər".

Başqa bir "Pedaqogika" dərsliyini də araşdırdıq. Tələbələr pedaqoji təcrübədə olarkən yuxarı sinif şagirdləri ilə sağlam həyat tərzinin formalaşdırılması sahəsində işin aparılması üçün onlara lazım olan nəzəri məlumatları müəyyənləşdirdik. Diqqət yetirək.

Dərsliyin XVII fəsli ("Öyrənmə motivasiyası" ( s. 229-271) üzrə:

"Motivlər idrakın hərəkətverici qüvvələridir", "Motivlər öyrənilməsi və formalaşdırılması", "Öyrənmə fəaliyyətinin stimullaşdırılması", "Şagirdlərə inam müvəffəqiyyətlərin rəhnidir", "Müəllimlərə tövsiyələr", "Səmərli və səmərəsiz rəğbətləndirmə".

XVIII fəsil ("Təlim prosesində şagirdlərin diaqnostikası") üzrə: "Şagirdlərin təlimdə yetirməsinə nəzarət", "Şagirdlərin oxumağa qabilliyinin diaqnostikası".

XIX fəsil ("Dərsdənkənar təhsil-tərbiyə prosesinin mahiyyəti və məzmunu" (s. 284-311) üzrə: "Dərsdənkənar təhsil-tərbiyə prosesinin xüsusiyyətləri", "Dərsdənkənar təhsil-tərbiyə prosesinin dialektikası", "Dərsdənkənar təhsil-tərbiyə prosesinin sistemi və strukturu", "Dərsdənkənar təhsil-tərbiyə prosesinin ümumi qanunauyğunluqları", "Dərsdənkənar təhsil-tərbiyə prosesinin məzmunu", "Təhsil və tərbiyəlilik səviyyəsinin diaqnostikası", "Dərsdənkənar təhsil-tərbiyə işini təşkil etmə məharəti və texnologiyası (s. 327-328).

Ali təhsil müəssisəsində mühazirə, seminar məşğələsi və praktik məşğələlərdə tərbiyə texnologiyalarını, pedaqoji prosesin qanunauyğunluqlarını, tərbiyə və təlimin prinsipləri, metodları, vasitələri və priyomlarını öyrənən, sinifdənxaric və məktəbdənkənar tədbirlərin təşkili yollarına bələd olan tələbələr pedaqoji təcrübədə olarkən yuxarı sinif şagirdlərində sağalam həyat tərzinin formalaşdırılması kimi mühüm işi uğurla həyata keçirirlər.

Belə ki, Gəncə şəhəri 10 nömrəli məktəbin X sinfində (ədəbiyyat müəllimi Pərvanə Məmmədova) "Azərbaycan şifahi xalq yaradıcılığı" mövzusunun tədrisi zamanı təcrübəçi tələbə mövzunu eyni zamanda sağlamlıq, həyat tərzi, sağlam həyat tərzi məsələləri ilə üzvi surətdə əlaqələndirmişdir. Təcrübəçi tələbənin tapşırığına əsasən şagirdlər aşağıdakı atalar sözlərini diqqət mərkəzinə gətirmişlər.

- Sağlığı olanın umudu, umudu olanınsa hər şeyi var deməkdir.
- Xəstə yatan ölməz, əcəli yetən ölür.
- Sağlıq varlıqdan irəlidir.
- Hər işin başı sağlıqdır.
- Xəstə olmayan sağlığın dəyərini bilməz.
- Sağlıqdan böyük zənginlik yoxdur.
- Təmiz bir vicdan qədər yumşaq yastıq yoxdur.
- Sağ baş yastıq istəməz.
- Sağlıq kimi dost, xəstəlik kimi düşmən, çocuq sevgisi kimi şirin, aclıq kimi acı yoxdur.

Təcrübəçi tələbə "Azərbaycan şifahi xalq yaradıcılığı" mövzusunun tədrisi zamanı eyni zamanda bayatılar, nağıllar, dastanlar, oxşamalar, əzizləmələr, laylalar haqqında da məlumat verir, yeri gəldikcə sağam həyat tərzi ilə bağlı nümunələrə müraciət edirdi. Bu zaman aşağıdakı fikirləri səslənirdi: Sağlam həyat tərzi keçirmək hər bir şəxsin arzusudur. Çünki sağlamlıq xoşbəxtliyin başlıca şərti və təminatı hesab edilir. Bir sıra hallarda psixoloji gərginlik, köklük, az hərəkətdə olmaq, necə gəldi qidalanma, siqaretə və spirtli içkilərə aludəçilik, yoluxucu xəstəliklərə tutulma və s. sağlamlıq üçün təhlükə yaradır. Ona görə də zərərli vərdişlərdən uzaq durmaq lazımdır. Ataların belə misalı var: "Bel nə qədər nazik olsa, ömür o qədər uzun olar"

Sağlamlığımızın qayğısına qalmaq nəticəsində ömrümüz uzun olar, fəal həyat tərzi keçirərik.

**Problemin aktuallığı**. insan hər yaşda sağlam olmalıdır. Bu bizdən öz sağlamlığımızı qorumağı tələb edir. Ailədə, uşaq bağçasında böyüməkdə olan nəsildə sağlam həyat tərzinin formalaşdırılması vacibdir. Bu mənada təqdim olunan məqalə öz aktuallığı ilə seçilir.

**Problemin yeniliyi**. Yuxarı sinif şagirdlərində sağam həyat tərzinin tərbiyə olunması vacib məsələ kimi irəli sürülür, ümumtəhsil və ali məktəbin qarşılıqlı əlaqə ilə reallaşır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə". https://e-qanun.az/framework/15508
2. Psixologiya: Ali pedaqoji məktəblərin bakalavriat pilləsi tələbələri üçün dərslik / Prof. S.İ. Seyidov və prof. M.Ə. Həmzəyevin elmi redaktorluğu ilə. -Bakı, 2007.
3. İbrahimov F.N. Pedaqogika. Dərslik. / F.N. İbrahimov, R.L. Hüseynzadə. – Bakı: Mütərcim, – 2012.
4. Abbasov, A.N. Pedaqogika: Müntəxəbat: Ali təhsil müəssisələri üçün dərs vəsaiti / A.N. Abbasov, R.R. Məmmədzadə, L.A. Məmmədli. – Bakı: Mütərcim, – 2022. – 608 s.
5. Abbasov, A.N. Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik / A.N. Abbasov, L.A. Məmmədli, İ.B. Əmirəliyeva. – Bakı: Mütərcim, – 2023. – 464 s.
6. Abbasov, A.N. Pedaqogika: Orta ixtisas təhsili müəssisələri üçün dərs vəsaiti. / A.N. Abbasov. – Bakı: Mütərcim, – 2015. – 360 s.


**E-mail**: nigar_92@list.ru

**Rəyçilər:** *ped.elm.dok., prof.* **A.N. Abbasov**,
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub**: 01.11.2023

# *TƏLİM TEXNOLOGİYALARI*
# *ОБУЧАЮЩИЕ ТЕХНОЛОГИИ*
# *LEARNING TECHNOLOGIES*

*UOT 37.0*

***Məlik Şixbala oğlu Məlikov***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Şamaxı filialının Pedaqogika və psixologiya kafedrasının müdiri*
ORCID 0000-0002-3354-1992

## TƏLİM MƏZMUNUNUN SEÇİLMƏSİ VƏ QURULUŞUNUN YARADILMASININ İNNOVATİV PRİNSİPLƏRİ

***Мелик Шихбала оглы Меликов***
*доктор философии по педагогике*
*заведующий кафедрой педагогики и психологии Шамахинского филиала*
*Азербайджанского государственного педагогического университета*

## ИННОВАЦИОННЫЕ ПРИНЦИПЫ ПОДБОРА И СТРУКТУРЫ СОДЕРЖАНИЯ ОБУЧЕНИЯ

***Malik Shikhbala Malikov***
*doctor of philosophy in pedagogy*
*head of the department of Pedagogy and psychology of the Shamakhi branch of the*
*Azerbaijan State Pedagogical University*

## INNOVATIVE PRINCIPLES OF SELECTION AND STRUCTURE OF TRAINING CONTENT

**Xülasə.** Məqalədə təlimin innovativ-didaktik prinsipləri gözdən keçirilir. Ənənəvi təlim prinsiplərindən fərqli olan fəaliyyət prinsipi, dünya haqqında vahid fikir prinsipi, minimaks prinsipi, psixoloji komfortluq prinsipi, variativlik prinsipi, yaradıcılıq prinsipi (kreativlik), sistemləşdirmə prinsipi. Bu prinsiplərin qarşılıqlı əlaqəsi və onların həyata keçirilmə qaydaları tədqiq olunur.

***Açar sözlər:*** *innovativ prinsiplər, fəaliyyət prinsipi, dünya haqqında vahid fikir komfortluq prinsipi, variativlik prinsipi, yaradıcılıq prinsipi, sistemləşdirmə prinsipi.*

**Резюме:** В статье рассматриваются инновативные дидактические принципы обучения, принцип действия, отличающийся от принципов традиционного обучения, принцип единого представления о мире, принцип минимакса, принцип психологического комфорта, принцип вариативности, принцип творчества (креативности), принцип систематизации. Изучена взаимосвязь принципов и правил их реализации.

***Ключевые слова:*** *инновационные принципы, принцип действия, принцип единого представления о мире, принцип минимакса, принцип психологического комфорта, принцип вариативности, принцип креативности, принцип систематизации*

**Summary.** The article discusses specific didactic principles of teaching, a principle of action that differs from the principles of traditional teaching, the principle of a unified idea of the world, the principle of a unified idea of the world, the minimax principle, the principle of psychological comfort, the principle of

variability, the principle of creativity, the principle of systematization. The relationship between the principles and rules for their implementation has been studied.

***Key words:*** *innovative principles, principle of action, principle of a single view of the world, principle of a single view of the world, principle of minimax, principle of psychological comfort, principle of variability, principle of creativity, principle of systematization.*

Didaktik prinsiplər bir neçə alt sistemdən ibarət olan mürəkkəb, açıq, zamanla inkişaf edən bir sistemdir. Bu məqalənin məqsədləri arasında təlimin məzmununun seçilməsini və strukturlaşdırılmasını tənzimləyən innovativ prinsiplərə ayrılmalıdır.

Bəzi müəlliflərin digər sistemlərə, o cümlədən peşəkar təhsilə aid etdikləri innovativ təlim prinsiplərini təhlil edək.

**1. Fəaliyyət prinsipi**

Son illərin psixoloji-pedaqoji tədqiqatlarının gəldiyi əsas nəticə ondan ibarətdir ki, şagird şəxsiyyətinin formalaşması və onun inkişafda irəliləməsi hazır bilikləri qəbul etdiyi zaman deyil, onun özünün yeni biliyin "kəşf edilməsinə" yönəlmiş fəaliyyəti prosesində həyata keçirilir.

Beləliklə, inkişaf etdirici təlimin məqsəd və vəzifələrinin həyata keçirilməsini təmin edən əsas mexanizm uşağın təlim – idraki fəaliyyətinə daxil edilməsidir. Elə fəaliyyət prinsipi də bundan ibarətdir. Fəaliyyət prinsipini həyata keçirən təlimi fəal yanaşma adlandırırlar.

**2. Dünya haqqında vahid fikir prinsipi**

Y.A. Komenski "Böyük didaktika" əsərində hadisələri pərakəndə şəkildə deyil, qarşılıqlı əlaqədə öyrənmək lazım olduğunu qeyd edirdi. Bu gün qeyd olunan tezis daha böyük əhəmiyyət kəsb edir. O deməkdir ki, uşaqda dünya (təbiət – cəmiyyət – özü) və hər bir elmin elm sistemindəki yeri və rolu haqqında ümumiləşdirilmiş, tam təsəvvür formalaşdırılmalıdır. Təbii ki, bu zaman şagirdlərdə formalaşan biliklər elmi biliklərin dilini və strukturunu əks etdirməlidir.

Fəaliyyət yanaşmasında dünyanın vahid mənzərəsinin yaradılması prinsipi ənənəvi sistemdəki elmilik didaktik prinsipi ilə sıx bağlı olsa da ondan daha dərindir. Burada söhbət təkcə dünyanın elmi mənzərəsinin formalaşdırılmasından deyil, həm də şagirdlərin əldə etdikləri biliklərə şəxsi münasibətindən, həmçinin onları öz praktiki fəaliyyətlərində tətbiq etmək bacarıqlarından gedir.

**3. Fasiləsizlik (davamlılıq) prinsipi**

Fasiləsizlik prinsipi metodologiya, məzmun və metodika səviyyəsində tədrisin bütün mərhələləri arasında varislik **davamlılıq** deməkdir.

**4. Minimaks prinsipi**

Bütün uşaqlar fərqlidir və hər biri özünəməxsus tempdə inkişaf etdir. Bununla yanaşı, kütləvi məktəbdə təhsil zəif uşaqlar üçün çox yüksək və daha güclü olanlar üçün açıq-aydın qeyri-kafi olan bir növ orta səviyyəyə yönəldilmişdir. Bu, həm güclü, həm də zəif uşaqların inkişafını tormozlayır.

Çıxış sadədir: yalnız iki səviyyəni qeyd etmək gərəkdir – uşaqların ən yaxın inkişaf zonası tərəfindən müəyyən edilən *maksimum* və tələb olunan *minimum*. Minimaks prinsip aşağıdakıları özündə ehtiva edir: məktəb şagirdə təhsilin məzmununu maksimum səviyyədə təqdim etməlidir, şagird isə bu məzmunu minimum səviyyədə mənimsəməlidir.

Görünür, minimaks sistemi fərdi yanaşmanın həyata keçirilməsi üçün optimal sistemdir. Çünki bu özünütənzimləyici sistemdir. Zəif şagird minimum ilə məhdudlaşacaq, güclü isə – hər şeyi alacaq və daha da irəli gedəcəkdir. Bütün digərləri öz qabiliyyətlərinə və imkanlarına uyğun olaraq bu iki səviyyə arasında yerləşəcəklər – onlar özləri öz səviyyələrini mümkün olan maksimum qədər seçəcəklər.

**5. Psixoloji komfortluq prinsipi**

Psixoloji komfortluq prinsipi imkan daxilində tədris prosesinin bütün stress yaradan amillərinin aradan qaldırılmasını, məktəbdə və dərsdə elə bir atmosfer yaratmağı nəzərdə tutur ki, bu atmosferdə onlar özlərini "evdəki kimi" hiss edirlər.

**6. Variativlik Prinsipi**

Müasir həyat insandan seçim etmək bacarığını tələb edir – mal və xidmətlərin seçimindən tutmuş dostların və həyat yolunun seçiminə qədər. Variativlik prinsipi şagirdlərdə variativ təfəkkürün, yəni məsələnin həlli üçün müxtəlif variantların mümkünlüyünü və variantların sistematik şəkildə müəyyənləşdirilməsini nəzərdə tutur. Variativlik prinsipinin həyata keçirildiyi təlim şagirdlərdə səhvdən yaranan qorxunu aradan qaldırır, uğursuzluğu faciə kimi deyil, onun düzəldilməsi üçün siqnal kimi qəbul etməyi öyrədir. Problemlərin həllinə, xüsusilə çətin vəziyyətlərdə bu cür yanaşma həyatda da vacibdir:

uğursuzluq halında isə məyusluğa düşməmək, konstruktiv yol axtarmaq və tapmaq lazımdır.

Digər tərəfdən, variativlik prinsipi müəllimin tədris ədəbiyyatının, iş formalarının və metodlarının seçilməsində sərbəstlik hüququnu, onların tədris prosesində adaptasiya dərəcəsini təmin edir. Bununla belə verilən hüquq müəllimin fəaliyyətinin son nəticəsi olan tədrisin keyfiyyəti üçün böyük məsuliyyət də yaradır.

**7.Yaradıcılıq prinsipi (kreativlik)**

Yaradıcılıq prinsipi şagirdlərin tədris fəaliyyətinin maksimum yaradıcı başlanğıca istiqamətlənməsini, yaradıcılıq fəaliyyətinin şəxsi təcrübələrinin əldə edilməsini nəzərdə tutur. Burada sadəcə analogiyaya uyğun şəkildə tapşırıqların "uydurulmasından" getmir. Burada, hər şeydən əvvəl, şagirdlərin əvvəllər qarşılanmamış məsələlərin həllini müstəqil şəkildə tapmaq bacarığının formalaşması, onların yeni fəaliyyət üsullarını müstəqil "kəşf etməsi" nəzərdə tutulur.

Yeniliyi yarada bilmək, həyat problemlərinin qeyri-standart həllini tapmaq bacarığı bu gün hər bir insanın real həyat uğurunun ayrılmaz tərkib hissəsinə çevrilib. Buna görə də yaradıcılıq qabiliyyətlərinin inkişafı müasir dövrdə ümumi təhsil əhəmiyyəti kəsb edir.

Təklif olunan bütün innovasiya prinsipləri arasında **funksional tamlıq prinsipi** daha çox diqqətə layiqdir ki, bu prinsip "məzmunda... onun bütün baza komponentləri, təhsil alanların inkişafını təmin edən, onların maraqlarını, informasiya fəaliyyətinə olan qabiliyyətlərini və tələbatlarını nəzərə alan təhsilin fərdiləşdirilməsi və diferensiallaşdırılmasını təmin etməlidir". Maraqlı faktdır ki, təhsilin məzmununun funksional tamlığı ideyası O.V. Romanovadan xeyli əvvəl akademik V.S. Lednev tərəfindən irəli sürülsə də, ona didaktik prinsip statusu verilməmişdi.

Fikrimizcə, L.Z. Svetanova-Çurukovanın təklif etdiyi **sistemləşdirmə prinsipinə** də diqqət yetirmək lazımdır. Müəllif onu yeni multimedia tədris texnologiyasının tərkib hissəsi kimi şəxsiyyətyönlü və inteqrativ yanaşmalar kontekstində nəzərdən keçirir. O, məqalənin əvvəlində yazır: "sistemləşdirmə altında biz öyrənilən obyektlərin müəyyən sisteminin təşkili ilə bağlı tədris materialının rasional işlənməsini başa düşürük. Sistemləşdirmə sayəsində öyrənilən biliklər yaxşı strukturlaşdırılmış qnoseoloji bütövlüyə inteqrasiya olunur. Tədris materialının məzmununun iyerarxik açıqlanması baş verir, yəni əsas, tədris məzmununun əsas fraqmentlərini özündə ehtiva edən biliklər özəyi formalaşır ki, bunun fonunda ikinci dərəcəli və əhəmiyyətsiz komponentlərdən istifadə olunur".

Bu yanaşma prinsip etibarı ilə tədrisin məzmununun seçilməsinə və strukturlaşdırılmasına yönəldilə bilər, lakin bu iş üçün xüsusi tədqiqat tələb olunur. Seçimdə didaktik prinsiplərin germenevtika mövqeyindən məzmunun strukturlaşdırılması problemlərinin araşdırılması maraqlı və bəlkə də məhsuldar görünür. V.A. Kiselyovun haqlı olaraq yazdığı kimi, "germenevtika düzgün izahat vermək məqsədi ilə yad nitqin başa düşülməsi sənəti olmalıdır, fikirlərdə əks olunan digər məzmunlu interpretatorun nəzərinə çatdırılmalıdır".

İnnovativ didaktik prinsiplərin məzmununun təhlili göstərir ki, doğrudan da innovativ və həqiqətən didaktik olaraq yalnız Q. V. Dorofeyevin təklif etdiyi prinsipləri tanımaq olar. Başqa hər şey – oxucuya yeni terminlərdə təqdim edilən "yaxşı unudulmuş köhnə"lərdir.

**Problemin aktuallığı.** Şagirdin təliminin keyfiyyətinin və səmərəliliyinin yüksəldilməsi bilavasitə mövzuya və situasiyaya ən uyğun olan müxtəlif təlim prinsiplərinin məharətlə seçilməsindən və istifadə edilməsindən, eləcə də bütün tədris prosesində subyekt-obyekt münasibətlərinin aktivləşdirilməsindən asılıdır. Təlim prinsiplərinin seçimi, ilk növbədə, müxtəlif fənlərə tətbiq olunan tədris materialının məzmunu və təlim məqsədləri ilə müəyyən edilir. Niyə biz təlim prosesində innovativ tədris metodlarından istifadənin zəruriliyi ilə bağlı mövqe tuturuq? Birincisi, ona görə ki, müasir dövr yeniliklər dövrüdür. Hər gün yeni mal və məhsullarla, yeni biliklərlə, yeni ideyalarla qarşılaşırıq. Həm təlim prosesi, həm də təlim prinsipləri buna uyğun olmalıdır.

İkincisi, innovativ tədris prinsiplərinə vərdiş etmək və onlardan daimi istifadə şagirdlərin təfəkkürünü yeniliyə açıq etməyə və onları fəal işləməyə öyrətməyə imkan verir, çünki bu keyfiyyətlər innovativ tədrisin xüsusiyyətləridir. üçüncüsü, innovativ təlim metodları və təlim prinsipləri aktiv təlim metodları və prinsipləridir. Bir çox mütəxəssislər öz tədqiqatlarında təlim prosesində onların üstünlüklərini təsdiqləyir.

**Problemin yeniliyi.** Məqalədə innovativ təlimin konseptual əsasları – pedaqoji innovasiya nəzəriyyəsi, pedaqogika elminə müasir yanaşmalar; tədqiqatçılar tərəfindən sınaqdan keçirilmiş və hazırlanmış yeni təlim prinsiplərinin böyük dəsti daxil edilmişdir; Təlim materialının strukturlaşdırılmasında innovativ tələb və fikirlərdən istifadə etmə təklif olunur.

**Problemin praktik əhəmiyyət.** Didaktik prinsiplər- istər ənənəvi, istərsə də innovativ zaman keçdikcə inkişaf edir. Onlar bir neçə alt sistemdən ibarət olan mürəkkəb, açıq sistemlərdirlər. Bu məqalənin praktik əhəmiyyəti təlimin müasir inkişaf səviyyəsində onun məzmununun seçilməsini və strukturlaşdırılmasını tənzimləyən alt sistemlərin rolunu vurğulamaqdır.

**Ədəbiyyat:**

1. Апиш Ф.Н. Проектирование содержания учебного материала и формирование мотивации учебной деятельности студента // Вестник Адыгейского государственного университета, – 2005. № 4, – с. 193-195.
2. Вахрушева Н.В. Принципы отбора содержания профильного курса по финансовым вычислениям для общеобразовательных учреждений // Вестник Адыгейского государственного университета. Серия
3. Педагогика и психология. – 2008. № 5, – с.157-161.
4. Гвоздева А.В. Дидактические принципы в концепции интегративного подхода к дифференцированному обучению // Знание. Понимание. Умение. – 2007. № 3, – с. 34-38.

**E-mail:** melikmelikov1960e@mail.ru
**Rəyçilər:** *filol.ü.fəls.dok., dos.* **T.H. Ağayeva,**
*tar.ü.fəls.dok., dos.* **M .S. Alıcanov**
**Redaksiyaya daxil olub:** 20.11.2023

*UOT 37.0*

***Aynur Yaqub qızı Mahmudova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*https://orcid.org/0009-0000-7602-818X*

# TƏLİM FƏALİYYƏTİNDƏ MÜƏLLİM-ŞAGİRD QARŞILIQLI MÜNASİBƏTLƏRİ

***Айнур Ягуб гызы Махмудова***
*преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

# ВЗАИМООТНОШЕНИЯ УЧИТЕЛЯ И УЧЕНИКА В УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ

***Aynur Yakub Makhmudova***
*teacher of*
*Azerbaijan State Pedagogical University*

# INTERACTION BETWEEN TEACHER AND STUDENT IN EDUCATIONAL ACTIVITIES

**Xülasə.** Məqalədə təlim fəaliyyətində müəllim-şagird qarşılıqlı münasibətlərinin həlledici məqamları barədə danışılır. Müəllim və şagird arasındakı səmərəli münasibət, təhsil və tərbiyə prosesində uğur qazanmağa yardım edir. Pedaqoqa qarşı pozitiv münasibət təlimə marağı, şagirdlərin biliklərə yiyələnmə istəyini artırır. Bu zaman müəllim nəyin korreksiyaya ehtiyacı olduğunu, mənimsənildiyini və özünün nəyə əsaslanacağını müəyyənləşdirə bilir. Bu mənimsəmə prosesləri öz-özünə baş vermir. Formalaşan şagird şəxsiyyəti müəllimin onu dəstəkləməsi nəticəsində digər insanların nəzər nöqtəsini, davranış və əməllərini nəzərə almağın vacibliyinə nəzər yetirir. Məqalədə eyni zamanda müəllim və uşaq arasındakı qarşılıqlı münasibətlər sisteminə nüfuz edən əsas komponentin hər bir şagirdin şəxsiyyətinə hörmətdən ibarət olduğu məsələləri barədə fikir açıqlanır.

***Açar sözlər:*** *qarşılıqlı münasibətlər, şəxsiyyət, qabiliyyət, məntiqi təfəkkür, əməkdaşlıq, təlim marağı, öyrədən və öyrənən.*

**Резюме.** В статье рассказывается о важнейших моментах взаимоотношений учителя и ученика в учебной деятельности. Эффективные взаимоотношения между учителем и учеником помогают добиться успеха в процессе обучения и воспитания. Позитивное отношение к учителю повышает интерес к обучению и стремление учащихся к получению знаний. В это время учитель может определить, что необходимо исправить, что усвоено и на что следует опираться. Эти процессы усвоения не происходят сами по себе. В результате поддержки учителя формируется личность ученика, учитывающая важность учета чужой точки зрения, поведения и действий. При этом в статье высказывается мнение, что основным компонентом, пронизывающим систему взаимоотношений учителя и ребенка, является уважение к личности каждого ученика.

***Ключевые слова:*** *взаимоотношения, личность, способности, логическое мышление, сотрудничество, учебный интерес, обучающий и обучаемый*

**Summary.** The article describes the most important moments of interaction between teacher and student in educational activities. Effective relationships between teacher and student help to achieve success in the learning process. A positive attitude towards the teacher increases students' interest in learning and desire to acquire knowledge. At this time, the teacher can determine what needs to be corrected, what has been learned and what to build on. These assimilation processes do not happen on their own. As a result of the teacher's support, the student's personality is formed, taking into account the importance of considering others' points of view, behavior and actions. At the same time, the article expresses the opinion that the main component that permeates the system of relationships between the teacher and the child is respect for the personality of each student.

***Key words:*** *interaction, personality, abilities, logical thinking, cooperation, learning interest, teacher and student*

Son illər aparılan məqsədyönlü və planlı islahatlar nəticəsində təhsilimizdə ciddi dəyişikliklər baş vermişdir. Təhsilin məzmunu, qiymətləndirmə sistemi yenilənmiş, İKT-nin təhsilə tətbiqi sürətlənib, maddi-texniki baza möhkəmlənmiş, müasir məktəb binaları yenilənərək müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Bütün bunlar, təbii ki, təlim prosesinin, tədris metodikası və üsullarının da dəyişməsini, yenilənməsini şərtləndirir. Öyrətmə-öyrənmə prosesini daha səmərəli etməyə imkan yaradan müasir, interaktiv dərs müəllimlərin tədris fəaliyyətində aparıcı yer tutmağa başlamışdır. Müəllimlərin peşəkarlıq səviyyəsi hiss olunacaq dərəcədə yüksəlmiş, müəllim-şagird münasibətlərində köklü dəyişiklik baş vermişdir. Bütün bu münasibətlər səmərəli əməkdaşlıq müstəvisinə keçmişdir.

Hal-hazırda müəllim peşəkarlığının yeni müstəviyə çıxarılması, şagirdlərə yanaşmanın dəyişilməsi, müəllim-şagird münasibətində əməkdaşlıq, qarşılıqlı inam, birgə nəticə əldə olunmasına səy və sairə kimi faktorlar isə tədris prosesinin, nəticə etibarı ilə təhsilin keyfiyyətinin artmasına müsbət təsir göstərir.

Tədris-təlim prosesində müəllim-şagird arasında olan qarşılıqlı münasibətlər ən vacib amillərdən biri hesab edilir. Müəllim-şagird münasibətlərinin əsasında isə humanist prinsipinin tələbləri dayanır. Bu tələblər təlim prosesinin psixopedaqoji əsası kimi xüsusi əhəmiyyət daşıyır. Professor Əbdül Əlizadə qeyd edirdi ki, "İnsanın ancaq subyekt və şəxsiyyət kimi dialoqu üçün insan münasibətləri mənəvi ölçülərə söykənməli; adamlar bir-birini şəxsiyyət kimi qavramalı; qarşılıqlı dialoq birgə əməkdaşlıq və birgə yaradıcılıq aləmini əhatə etməlidir". Həqiqətən də düzgün qurulmuş müəllim-şagird münasibətləri insanın həyati normalar çərçivəsində fəaliyyətinin tənzimlənməsində həlledici rol oynayır.

Müəllim-şagird münasibətlərinin düzgün qurulması, ilk növbədə, müəllimlərdə pedaqoji fəaliyyətdə zəruri olan bir sıra qabiliyyətlərin müasir dövrün əsas tələbi kimi qarşıya qoyulur: məsələn, təşkilatçılıq qabiliyyəti; təlim (öyrətmə) qabiliyyətləri; perseptiv qabiliyyətlər; kommunikativ (ünsiyyət) qabiliyyətlər; suqqestiv (təlqinedici) qabiliyyətlər; tədqiqatçılıq qabiliyyəti; elmi-idraki qabiliyyətlər və sairə. Müəllimə məxsus olan bu qabiliyyətlər müəyyən müddət keçdikcə dəyişə, tələblərin sayı arta və ya əksinə olaraq azala bilər.

Müəllim-şagird qarşılıqlı münasibətləri mövcud prosesdə iştirak edənlərin qarşılıqlı anlaşmasını şərtləndirməlidir. Bu zaman davranışın qarşılıqlı korreksiyası baş verir. Təlim prosesində təzahür edən pedaqoji-psixoloji yönlü şəxsiyyətlərarası münasibətlər təlim və tərbiyə məsələlərinin həllində əsas rol oynayır. Qarşılıqlı əməkdaşlığın əsasında təlim prosesinin iştirakçıları arasında pozitiv dialoji münasibətlərin qorunması prosesi baş verir.

Müəllimin təlim prosesində şagirdin fəaliyyətinə məharətlə rəhbərlik etməsi sayəsində səmərəli vaxt effektli təzahür edir. Müəllim və şagird arasında münasibətlərin qurulması vəziyyəti ünsiyyət və qarşılıqlı təsir vasitələrinin xarakterinə birbaşa təsir edir. Sinifdə olan hər bir şagird tərəfindən müəllimə pozitiv münasibət bilavasitə şagirdin öyrənmə sahəsində uğurunu şərtləndirir.

Təlim prosesin zamanı müəllim tərəfindən şagirdin bütün şəxsi keyfiyyətlərinin nəzərə alınması əsas şərtlərdən biri hesab edilir. Bu, təlimin tempini və keyfiyyətini dəyişməyə bilavasitə imkan verir.

Müəllim ilə şagird arasında baş verən əməkdaşlıq təlim-tədris metod və vasitələrinin tətbiqi ilə yanaşı, təlim prosesində baş verən qarşılıqlı əlaqənin təzahürüdür. Müəllim ötürdüyü biliyin şagirdləri tərəfindən qəbul edilməsinə, özününküləşdirməsinə xüsusi şərait yaratmalıdır. Bu mənəvi əlaqə emosional, qiymətləndirici və iradi xarakter daşıyır.

Müəllim təlim fəaliyyətinin moderatoru və aparıcısı hesab edilir. Eyni zamanda bu prosesdə müəllim aparıcı, eyni zamanda təşkiledici, idarəedici istiqamətləndirici rola malikdir. Müəllim üzərinə düşən bu məsuliyyətli prosesi və vəzifənin daha uğurlu yerinə yetirilməsi üçün, hər bir şeydən əvvəl ayrı-ayrı şagirdləri, bütünlükdə sinif kollektivini yaxından duymalı, hiss etməli, başa düşməli və kifayət qədər tanımalıdır.

Pedaqoji prosesdə müəllim-şagird münasibətlərində müəllimin pedaqoji mərifəti özünü daha çox göstərir. Müəllimin pedaqoji mərifəti onun pedaqoji ustalığının əsasını təşkil edir. Bunlara müşahidəçilik; diqqətlilik; hörmət və tələbkarlıq, qayğıkeşlik, inam; ədalətlilik; səbirlilik; təmkinlik; şərəf və ləyaqəti qorumaq, güləruz, mehriban ünsiyyətlilik, xoş rəftar, və sairə keyfiyyətlər daxildir.

Yüksək pedaqoji qabiliyyətlərə və müvafiq psixoloji duyuma malik olan hər bir müəllim təbii ki, planlaşdırdığı dərsi yeni müasir prinsiplərin tələbinə uyğun demokratik şəraitdə qurmağa səy göstərir. Belə şərait isə öz növbəsində şagird fəallığına imkan yaradır. Şagird müəllimin istiqamətverici tövsiyələri, göstərişləri əsasında potensial gücünü səfərbər edərək səmərəli fəaliyyət göstərməyə can atır.

Müəllim-şagird münasibətlərinin yüksək olması öyrənmə prosesində keyfiyyətli nəticələrin əldə olunması ilə müəyyənləşir. Müəllim-şagird münasibətlərinin öyrətmə-öyrənmə mexanizmi məhz bu prosesdə meydana çıxır. Həm müəllimlər, həm də şagirdlər özlərinin fəaliyyət potensialını bu şəraitdə təzahür etdirirlər. Real proses müəllim-şagird tərəfdaşlığının eyni bir müstəvidə olmasını, təlimin səmərəliliyi istiqamətinə yönəlməsini və hər iki tərəfin qarşılıqlı münasibəti vəzifələrini qarşıya qoyur.

Yeni pedaqoji prosesdə öyrədən və öyrənənlərin münasibətləri əməkdaşlıq baxımından şagirdlərin fəallaşdırılmasında daha qabarıq nəzərə çarpır. Şagirdlər təlim prosesində tədqiqatçılığa cəlb olunur, mövzu ətrafında araşdırmalar aparır, öyrəndiklərini tətbiq edir, müqayisələr və təhlillər yolu ilə fakt və hadisələri məntiqi təfəkkür süzgəcindən keçirərək real qiymətləndirirlər. Dərs prosesində şagirdlərin mühakimə yürütməsi, düşünərək müstəqil nəticə çıxarmağa çalışması – müasir dərsin səmərəli atributlarıdır.

Bütün bunlar isə şagirdlərin təlim prosesində məntiqi tapşırıqlar üzərində daha çox işləmələrini və yaradıcı fəaliyyət göstərmələrini tələb edir. Müasir psixopedaqoji araşdırmalarda bu ideya müasir təhsil nəzəriyyəsində aparıcı rol oynayır. Dərs zamanı pedaqoji əməkdaşlığın inkişafı üçün:

- bir-birini dinləmək;
- birgə qərar qəbul etmək;
- bir-birinə inanmaq;
- qrup işində iş zamanı öz məsuliyyətini anlamaq vacib amillərdəndir.

Müəllim – şagird münasibətlərindəki qarşılıqlı fəaliyyət mahiyyət etibarı ilə müasir vəzifələrə cavab verən yeni bir təlim şəraitinin meydana çıxması ilə müşayiət olunur. Fəal öyrənmə adlanan bu proses şagirdlərə gələcək peşələrində, fəaliyyətlərində, şəxsi və ictimai həyatlarında məqsədlərinə çatmaqda, kamil insan kimi formalaşmaqda kömək edən zəruri öyrənmə prosesidir. Fəal öyrənmə eyni zamanda koqnitiv (idraki) xarakterli olub, problemin həlli şəraitini, yenilikləri, axtarışları, kəşf xarakterli öyrənməni əhatə edən, çoxsaylı məqsədləri yerinə yetirməyə imkan verən faydalı bir prosesdir.

Müəllim-şagird arasında qarşılıqlı fəaliyyətin yaranması təbii öyrənmə prosesinin formalaşması ilə nəticələnəcəkdir. Bu, ənənəvi təlim prosesinə məxsus amirlik ab-havasının əməkdaşlıqla əvəz olunmasına gətirib çıxarır. Bu zaman müəllim və şagird arasında işgüzar bir əlaqə formalaşır. Belə şəraitdə hər kəs təbii olaraq qarşısına qoyduğu məqsəd üçün çalışır.

Əslində, pis müəllim və ya pis şagird yoxdur. Müəllim və şagird arasında yaxşı və ya pis münasibət vardır. Məktəbdə yaxşı və ya pis münasibətin qurulması şagirdin deyil, müəllimin məsuliyyətindədir. Müəllim şagirdi ilə arasında olan pis münasibətə görə heç bir bəhanə irəli sürməməlidir. Sadəcə, həmin şagirdin ailəsi ilə əməkdaşlıq edərək köməyini əsirgəməməlidir. Hər şeydən əvvəl problem yaşayan və yaşadan şagirdlərlə sinif içərisində deyil, fərdi olaraq iş aparılmalıdır. Onları yoldaşlarının içərisində danlamaq, onun özünə inamını sarsıdır.

Ona görə də müəllim dərs dediyi şagirdlərinə bilik, bacarıq aşılamaqdan başqa, eyni zamanda onlara sevgi, hörmət, sədaqət, dostluq, intizam, qayda-qanun kimi anlayışları da qazandırmalıdır.

Müəllim-şagird arasında səmərəli qarşılıqlı fəaliyyətin yaranması həm də ənənəvi olaraq məktəblə valideyn arasında əlaqələrin yeni məzmunda qurulmasına təsir göstərir. Valideynlər məktəbdə təlim prosesi və gündəlik təlim fəaliyyəti ilə daha yaxından maraqlanmağa, onların təhsil prosesinə daha artıq nüfuz etməyə çalışırlar. Müəllimlərin valideynlərlə əlaqələri daha da möhkəmlənir. Valideynlər uşaqlarının təlim fəaliyyətinin bilavasitə fəal iştirakçısına çevrilir, onların problemləri ilə daha yaxından tanış ola bilirlər.

Bu məqsədlə məktəblərdə yaradılan yüksək mənəvi-psixoloji mühit və kommunikasiya sistemi təhsil sisteminin özünün sağlam olmasına xidmət edəcəkdir.

Təhsil həyatında məktəb rəhbərliyi, psixoloq, müəllim, şagird, eləcə də digər işçilər arasında qarşılıqlı hörmət və etibar əsasında formalaşan münasibət – kommunikasiya prosesləri şa-

girdlərin hərtərəfli inkişafında və təhsil nailiyyətlərində təzahür edəcəkdir.

**Problemin aktuallığı**. Təlim fəaliyyətində müəllim-şagird qarşılıqlı münasibətlərinin psixoloji mahiyyətinin əsas təzahürlərini müəyyənləşdirmək və müasir psixologiyanın elmi-nəzəri tələbləri səviyyəsində onların psixoloji təhlilini verməklə bağlıdır.

**Problemin elmi yeniliyi.** Təlim fəaliyyətində müəllim-şagird qarşılıqlı münasibətlərinin pedaqoji və psixoloji mahiyyətinin izahı, bir – birini anlamaq, başa düşmək, dəyərləndirmək kimi fikir və ideyaları müəyyənləşdirməkdən ibarətdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, pedaqoqlar, psixoloqlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilər.

**Ədəbiyyat:**


1. Bayramov, Ə.S. Sosial psixologiya. / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. – Bakı: Qamma – servs, – 2003.
2. Əliyev, R.İ. Tərbiyə psixologiyası. / R.İ. Əliyev – Bakı: Nurlan, – 2006.
3. Əliyev, B.H. Pedaqoji psixologiya. Dərslik. / B.H. Əliyev. – Bakı: Təhsil, – 2011.
4. Əliyeva Sədaqət. Ünsiyyət mədəniyyəti. Dərslik. / Sədaqət Əliyeva – Bakı: Gənclik, – 2013.
5. Əlixanova G.H. Təlim fəaliyyətində temperament tiplərinin nəzərə alınması: Metodik vəsait. – Bakı: ADPU-nun nəşriyyatı, – 2019.
6. Андреева, Г.М. Социальная психология. / Г.М. Андреева. – М.: Аспект Пресс, – 2012.
7. Клапаред, Э. Психология ребенка и экспериментальная педагогика. – М.: Изд. ЛКИ, – 2007.


**E-mail:** aynurmahmudova@gmail.com

**Rəyçilər:** *psixol.ü.fəls.dok.* **G.H. Əlixanova,**
*ped.ü.fəls.dok., dos.* **Q.Q. Əzizov**
**Redaksiyaya daxil olub:** 09.10.2023

*UOT 37.0*

***Xanım Məmmədrasul qızı Hacıyeva***
*Zaqatala şəhəri Vətən Müharibəsi Qəhrəmanı İsmayıl Səmədov adına*
*5 nömrəli tam orta məktəbin direktoru*
*https://orcid.org/0009-0002-5454-732X*

## MÜASİR MƏKTƏB VƏ DƏRS ŞAGİRDLƏRDƏ MÜHÜM BACARIQLAR FORMALAŞDIRIR

***Ханым Мамедрасул гызы Гаджиева***
*директор Загатальской полной средней школы № 5*
*имени Героя Отечественной войны Исмаила Самедова*

## СОВРЕМЕННАЯ ШКОЛА И УРОК ФОРМИРУЕТ У УЧАЩИХСЯ ОСНОВНЫЕ НАВЫКИ

***Xanim Mammadrasul Hajiyeva***
*director of secondary school № 5 named after Ismayil Samadov of Zagatala city,*
*Hero of the Patriotic War*

## MODERN SCHOOL AND LESSON FORMATION OF BASIC SKILLS IN STUDENTS

**Xülasə.** Müasir məktəb şagirdlərə bilik və fəaliyyət üsullarını mənimsəmək üçün böyük imkanlar, həmçinin əldə edilmiş bilik və bacarıqların gələcək praktik həyatda tətbiqi üçün yeni üfüqlər açır. Bu, əsasən tədris prosesinin nə qədər yaxşı təşkil olunduğundan, müəllimlərin şagirdlərin özünütəhsil ehtiyacını şüuruna çatdıra bilib-bilməməsindən və uşaqlara müxtəlif mənbələrdən bilik əldə etməyi öyrətməsindən asılıdır. Müasir məktəbin əsas vəzifələri hər bir şagirdin qabiliyyətini üzə çıxarmaq, maarifləndirməkdir. Məktəb təhsili elə qurulmalıdır ki, məzunlar müstəqil şəkildə fəaliyyət göstərə bilsinlər

***Açar sözlər:*** *müasir məktəb, bilik, bacarıq, vərdiş, məqsəd, məzmun, müəllim, şagird, yaradıcılıq, qeyri-standart dərs, tolerantlıq.*

**Резюме.** Современная школа открывает перед учащимися большие возможности овладения знаниями и методами деятельности, а также новые горизонты применения полученных знаний и умений в будущей практической жизни. Во многом это зависит от того, насколько хорошо организован учебный процесс, способны ли учителя донести до учащихся необходимость самообразования и научить детей получать знания из различных источников. Главные задачи современной школы – просветить и выявить способности каждого ученика. Школьное образование должно быть построено таким образом, чтобы выпускники могли проявлять деятельность самостоятельно.

***Ключевые слова:*** *современная школа, знания, умения, навыки, цели, содержание, учитель, ученик, творчество, нестандартный урок, толерантность*

**Summary.** The modern school opens up great opportunities for students to master knowledge and methods of activity, as well as new horizons for the application of acquired knowledge and skills in future practical life. It mainly depends on how well the teaching process is organized, whether teachers are able to convey the need for self-education to students and teach children to acquire knowledge from various sources. The main tasks of the modern school are to reveal and enlighten the abilities of each student. School education should be structured in such a way that graduates can function independently

***Key words****: modern school, knowledge, skill, habit, goal, content, teacher, student, creativity, non-standard lesson, tolerance*

Pedaqoji prosesin müasir hədəfinin həyata keçirilməsi, yəni uşaq şəxsiyyətinin öz həyat strategiyasının subyekti kimi inkişafı tərbiyəçi-müəllimdən öz fəaliyyətində İKT-dan istifadə etməyi tələb edir. Uşağın fəaliyyət subyekti kimi ən vacib xüsusiyyətləri onun müstəqilliyi, fəaliyyəti, təşəbbüskarlığı və idrak, ünsiyyət, oyun və mümkün işdə yaradıcılığının təzahürüdür. Buna görə, pedaqoji prosesin təşkili üçün İKT-dan istifadə müasir təhsilin ən aktual problemləri ilə bir səviyyəyə qoyulur.

İKT-dan istifadə məktəbəqədər yaşlı uşaqların idrak, sosial və emosional bacarıqlarını inkişaf etdirməyə və onları gələcək təhsilə hazırlamağa kömək edir. Bundan əlavə, uşaqların yaradıcılıq və əməkdaşlıq imkanlarını da təmin edir.

Bununla belə, məktəbəqədər təhsildə İKT-nın tətbiqi texnologiya inteqrasiyasının uğurunu təmin etmək üçün diqqətli planlaşdırma, müvafiq texnologiya seçimi və səmərəli müəllim hazırlığını tələb edir.

Məktəbəqədər təhsil uşaqların inkişafına və gələcək öyrənmə fəaliyyətinə hazırlamaq məqsədi daşıyan təhsilin mühüm mərhələsidir. Keçmişdə məktəbəqədər təhsil oyun əsaslı öyrənmənin, sosiallaşmanın və əsas bacarıqların inkişafına diqqət yetirirdi. Cəmiyyətdə texnologiyadan istifadənin artması ilə məktəbəqədər yaşlı uşaqların tərbiyəsinə və təhsilinə İKT inteqrasiya etməyə başlamışdır. İKT-nın məktəbəqədər təhsilə inteqrasiyası təhsilin keyfiyyətini yüksəltmək və uşaqlar üçün yeni təlim imkanları təmin etmək potensialına malikdir.

İKT məktəbəqədər təhsilə çoxlu faydalar gətirə bilər. İKT məktəbəqədər yaşlı uşaqların idraki inkişafını gücləndirə bilər. Məsələn, İKT-da olan oyunlar və proqramlar uşaqlarda savad, hesablama, problem həll etmə və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməyə kömək edə bilər. Bundan əlavə, İKT virtual sahə səfərləri, onlayn resurslar və interaktiv multimedia məzmunu kimi ənənəvi məktəbəqədər təhsil müəssisələrində mövcud olmayan yeni öyrənmə imkanlarını təmin edə bilər. Məktəbəqədər yaşlı uşaqların İKT-dan istifadəsi onları gələcək öyrənmə prosesinə hazırlamağa kömək edə bilər. Bununla da, məktəbəqədər təhsil müəssisələri İKT-nı kurikuluma uğurla inteqrasiya edə və məktəbəqədər yaşlı uşaqları rəqəmsal dünyaya hazırlaya bilərlər.

Məktəbəqədər təhsil müəssisələrində İKT-dan istifadənin əsas məqsədi təfəkkürün inkişafı və əqli fəaliyyət metodlarının formalaşdırılmasıdır:

- məktəbəqədər təhsil müəssisəsinin imkanlarını uşağın qabiliyyətlərinin inkişafının ən yaxşı və ən uğurlu həyata keçirilməsinə qədər genişləndirmək;
- intellektual, yaradıcılıq qabiliyyətlərinin və məktəbəqədər yaşda çox vacib olan müstəqil olaraq yeni biliklər əldə etmək bacarığının inkişafı;
- uşağın şəxsiyyətinin zəngin inkişaf potensialının yaradılması.

Universitet tələbələrinin uşaq bağçası fəaliyyətinə hazırlanmasında İKT-nın istifadəsi bir sıra üstünlüklərə malikdir. Birincisi, bu, tələbələrə tənqidi düşünmə və problem həll etmək kimi mühüm idrak bacarıqlarını inkişaf etdirməyə kömək edə bilər. Məsələn, onlayn səfərlər və simulyasiyalar tələbələrə real dünya ssenariləri təqdim etməklə və həll yollarını tapmaqla problemi həll etmə bacarıqlarını inkişaf etdirməyə kömək edə bilər.

İkincisi, İKT tələbələrdə uşaq bağçasında uğur qazanmaq üçün vacib olan sosial və emosional bacarıqların inkişafına kömək edə bilər. Məsələn, İKT tələbələrə uşaq bağçasında işləmək üçün vacib olan ünsiyyət və əməkdaşlıq bacarıqlarını inkişaf etdirməyə kömək edə bilər.

Üçüncüsü, İKT tələbələrə onlayn kitabxanalar və akademik məlumat bazaları kimi zəngin təhsil resurslarına çıxışı təmin edə bilər. Bu, tələbələrə uşağın inkişafı, erkən uşaqlıq təhsili və pedaqogikanın uşaq bağçası fəaliyyəti ilə bağlı sahələrində tədqiqat aparmağa və biliklərini genişləndirməyə kömək edə bilər.

Məktəbəqədər təhsil müəssisələrində İKT-dan istifadənin üstünlüklərinə baxmayaraq, onun tətbiqi ilə bağlı problemlər də mövcuddur. Əsas problemlərdən biri də bir çox məktəbəqədər təhsil müəssisələrində texnologiyaya çıxışın olmamasıdır. Bir çox məktəbəqədər təhsil müəssisələrinin İKT avadanlıqlarının alınması və ya saxlanması üçün resursları olmaya bilər ki, bu da məktəbəqədər təhsildə texnologiyadan istifadəni məhdudlaşdırır.

Kompüter texnologiyası tərbiyəçi müəllimin qarşısına qoyduğu məqsəd və vəzifələri reallaşdırmaq üçün vasitədir. Materialın aydınlığı onun uşaqlar tərəfindən assimilyasiyasını artırır, çünki bu zaman uşaqların qavrayışının bütün kanalları – vizual, motor, eşitmə və duyğu əlaqələndirilir. İnformasiya texnologiyalarından istifadə edilən məşğələlər nəinki uşaqların əldə etdikləri bilikləri genişləndirir və möhkəmləndirir, həm də yaradıcılıq və intellektual potensialını əhəmiyyətli dərəcədə artırır. İnformasiya texnologiyalarından istifadə edilən məşğələlər yalnız təhsil prosesini canlandırmaqla kifayətlənmir, həm də öyrənmə motivasiyasını artırır. Uşaq daim axtarışda, öyrənməyə ehtiyac duyan, yorulmaz, yaradıcı və çalışqan olur.

Tərbiyəçi-müəllim hər bir uşağın bacarıqlarının öz istəyi ilə və maraqla məşğul olduğu fəaliyyətlərdə inkişaf etdiyini unutmamalıdır. Tərbiyəçi-müəllim işində İKT-nı tətbiq edərək, uşaqların fərdi xüsusiyyətlərini nəzərə almaqla təlim prosesinin müasirləşdirilməsinə, təlimin fərqləndirilməsinə imkan yaradır.

Universitet tələbələrini uşaq bağçası fəaliyyətlərinə hazırlamaqda İKT-dan istifadənin faydaları əhəmiyyətli olsa da, İKT-nın inteqrasiyası ilə bağlı problemlər də var. Ən böyük problemlərdən biri texnologiyaya çıxışda bərabərsizliyin olmasıdır. Əlverişsiz təbəqədən olan tələbələrin lazımi texnologiyaya çıxışı olmaya bilər ki, bu da öyrənmə və uşaq bağçası fəaliyyətlərinə hazırlıq baxımından əlverişsiz vəziyyət yarada bilər.

Başqa bir problem ehtiyaca uyğun texnologiya seçimidir. Mövcud olan bu qədər texnologiya alətləri və resursları ilə universitet tələbələrinə uşaq bağçası fəaliyyətlərinə hazırlamaq üçün ən uyğun olanları seçmək çətin ola bilər. Texnoloji vasitələrin seçilməsi onların kurikuluma uyğunluğuna, lazımi bacarıq və səriştələrin inkişafını dəstəkləmək qabiliyyətinə, istifadənin asanlığına və əlçatanlığına əsaslanmalıdır.

Digər problem tərbiyəçi-müəllim hazırlığında dəstəyinin olmamasıdır. Bir çox məktəbəqədər sahədə çalışan tərbiyəçi-müəllimlər İKT-nı kurikuluma effektiv şəkildə inteqrasiya etmək üçün bacarıq və biliyə malik olmaya bilər. Məktəbəqədər təhsil müəssisələrində İKT-nın tətbiqində texnologiyalardan istifadə imkanlarının məhdudluğu, tərbiyəçi-müəllim hazırlığının yaxşı olmaması və texnologiyanın kiçik yaşlı uşaqların inkişafına təsiri ilə bağlı problemlər də mövcuddur. Əlavə olaraq, texnologiyanın uşaqların inkişafına təsiri ilə bağlı narahatlıqlar, mə-

sələn, fiziki aktivliyin və sosial qarşılıqlı əlaqənin azalması ola bilər.

İKT-nı məktəbəqədər təhsil proqramına uğurla inteqrasiya etmək üçün bir neçə strategiya həyata keçirilməlidir. İlk növbədə, məktəbəqədər təhsil müəssisələri onların təhsil məqsəd və vəzifələrinə uyğun gələn aydın texnologiya planı hazırlamalıdır. Texnologiya planına avadanlığın alınması və saxlanması üçün büdcə, həmçinin tərbiyəçi-müəllim hazırlığı və dəstək planı daxil edilməlidir.

Məktəbəqədər təhsil müəssisələri uşaqların yaşlarına uyğun, interaktiv və cəlbedici olan müvafiq texnologiya alətləri və resurslarını diqqətlə seçməlidir. Texnologiya onun təhsil dəyərinə və məktəbəqədər təhsil kurikulumunun məqsədlərinə uyğunluğuna əsasən seçilməlidir.

Təhsilin informasiyalaşdırılması tərbiyə, təhsil və korreksiya proseslərinin innovativ ideyalarının həyata keçirilməsinə yönəlmiş yeni metodiki işlərin təcrübəyə geniş tətbiq olunmasında tərbiyəçilər üçün yeni imkanlar açır. Adi texniki təlim vasitələrindən fərqli olaraq uşağı təkcə çox sayda hazır, ciddi seçilmiş, uyğun təşkil olunmuş biliklərlə təmin etməyə deyil, həm də intellektual, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə və bu yaşda onlara çox vacib olan müstəqil olaraq yeni biliklər əldə etməyə imkan verir.

İKT-nın inteqrasiyasının universitet tələbələrinin sosial və emosional inkişafına müsbət təsirini qeyd etdik. İKT sosial və emosional bacarıqların inkişafına kömək edə bilsə də, texnologiyadan həddindən artıq istifadənin sosial və emosional inkişafa mənfi təsir göstərə biləcəyi ilə bağlı narahatlıq da var. Bu problemi araşdırmaq və universitet tələbələri arasında texnologiyadan sağlam və düzgün istifadəni təşviq etmək üçün effektiv strategiyaları müəyyən etmək lazımdır.

Məktəbəqədər təhsil müəssisələri İKT-nı təhsilə səmərəli şəkildə inteqrasiya etmək üçün tərbiyəçi-müəllimlərin hazırlığına davamlı dəstək verməlidir. Tərbiyəçi-müəllimlər texnoloji vasitələrdən necə istifadə etmək, onları kurikuluma inteqrasiya etmək və onların effektivliyini qiymətləndirmək üçün təlim keçməlidir. Bundan əlavə, tərbiyəçi-müəllimlərə texnologiya inteqrasiyası prosesi zamanı yaranan hər hansı problemləri həll etmək üçün davamlı dəstək təmin edilməlidir.

Məktəbəqədər təhsil müəssisələri valideynləri texnologiyanın inteqrasiyası prosesinə cəlb etməlidir. Valideynlər məktəbəqədər təhsildə texnologiyanın istifadəsi üçün dəyərli rəy və dəstək verə bilərlər. Bundan əlavə, məktəbəqədər təhsil müəssisələri valideynlərə uşaqlarının evdə texnologiya ilə öyrənməsinə kömək etmək üçün resurslar və təlimlər təmin edə bilər.

Universitet tələbələrini uşaq bağçası fəaliyyətlərinə hazırlamaqda İKT-dan istifadə idraki inkişafa və təhsil resurslarına çıxış kimi əhəmiyyətli faydalar verə bilər. Bununla belə, İKT-nın uğurlu inteqrasiyası diqqətli planlaşdırma, müvafiq texnologiya seçimi, davamlı təlim və dəstək tələb edir. Bu addımları atmaqla tələbələri uşaq bağçası şəraitində və ondan kənarda uğura hazırlamağa kömək edə bilər. İKT-nın inteqrasiyası, inkişaf etməkdə olan texnologiyaların və yeni tədris yanaşmalarının potensialı universitet tələbələrinin uşaq bağçası fəaliyyətlərinə hazırlanmasına, onların akademik və sosial uğurlarına uzunmüddətli və mühüm təsir göstərə bilər.

Universitet tələbələrinin uşaq bağçası fəaliyyətlərinə hazırlığını artırmaq üçün virtual reallıq kimi yeni texnologiyaların potensialından istifadə etmək lazımdır. Məsələn, uşaq bağçası şəraitini simulyasiya edən və idarə olunan mühitdə bacarıqlarını inkişaf etdirməyə imkan verən şəraiti yaratmaq mümkündür.

Uğurlu İKT inteqrasiyası üçün başqa bir strategiya innovasiya və təcrübə mədəniyyətini inkişaf etdirməkdir. Buna tələbələrə yeni texnologiyalar və tədris metodları ilə təcrübə imkanları verməklə, həmçinin onları öz innovativ layihələrini və ideyalarını inkişaf etdirməyə həvəsləndirmək yolu ilə nail olmaq olar.

Qeyd etmək vacibdir ki, universitet tələbələrinin uşaq bağçası fəaliyyətinə hazırlanmasında İKT-nin inteqrasiyası ənənəvi tədris metodlarını və təcrübələrini əvəz etməməlidir. Əksinə, İKT mövcud tədris təcrübələrini tamamlamaq və təkmilləşdirmək, tələbələrə daha müxtəlif və cəlbedici öyrənmə təcrübəsi təqdim etmək üçün istifadə edilməlidir.

Gələcək tərbiyəçi-müəllimlər üçün potensial sahələrdən biri uşaq bağçasında fəaliyyət zamanı zəruri bacarıq və səriştələrin inkişafı üzrə İKT-ya əsaslanan təlim və tədris metodlarının effektivliyidir. Tələbələrlə təlim nəticələri və bacarıqların inkişafı baxımından ənənəvi tədris metodlarının İKT əsaslı tədris metodlarına qarşı effektivliyini qiymətləndirmək üçün müqayisələr aparıla bilər.

Gələcək tərbiyəçi-müəllimlər İKT vasitəsilə uşaq bağçası fəaliyyətləri üçün yeni tədris təcrübələrinin və yanaşmalarının inkişaf potensialını araşdıra bilər. İKT-nin istifadəsi həm də daha fərdiləşdirilmiş və interaktiv olan yeni qiymətləndirmə metodlarının inkişafına kömək edə bilər.

İKT-dan istifadə tələbələrə gələcək fəaliyyətlərində imkan verir:

- Məşğələlər üçün illüstrasiya materialının və qrup otağını bəzəmək üçün stendlərin seçimi (skan, internet, printer, təqdimat);
- Məşğələlər üçün əlavə idrak materialının seçilməsi, digər tədbirlərin ssenariləri ilə tanışlıq;
- Təcrübə mübadiləsi, dövri nəşrlərlə və xaricdəki tərbiyəçilərin inkişaf prosesi ilə tanışlıq;
- Qrup sənədlərinin, hesabatlarının qeydiyyatı. Kompüter hər dəfə hesabat yazmamağa imkan verəcək, ancaq diaqramı bir dəfə yazmaq və sonra yalnız lazımi dəyişiklikləri etmək kifayətdir;
- Valideyn görüşləri prosesində uşaqlarla təhsil fəaliyyətinin səmərəliliyini və valideynlərin pedaqoji səriştəsini artırmaq imkanı;
- Power Point proqramında təqdimatların yaradılması.

Yaxşı seçilmiş diaqnostik material uşaqların bilik səviyyəsini izləməyə və gələcək işləri planlaşdırmağa kömək edir. Pedaqoqlar uşaqlar ilə birlikdə İKT-dən istifadə etməklə layihə və tədqiqat fəaliyyətləri həyata keçirə bilər.

İnformasiya və kommunikasiya texnologiyalarından istifadə zamanı bəzən səhvlər meydana gəlir:

- müəllimin metodiki hazırlığının çatışmazlığı;
- İKT-nın didaktik rolunun və yerinin səhv tərifi;
- İKT-nın planlaşdırılmamış, təsadüfi istifadəsi;
- nümayişlərlə həddindən artıq yüklənmiş məşğələlər.

Yekun olaraq qeyd edək ki, universitet tələbələrinin uşaq bağçası fəaliyyətlərinə hazırlanmasında İKT-nın inteqrasiyası əhəmiyyətli faydalar verə bilər və bu, təhsil resurslarına çıxışı təşviq etmək üçün dəyərli strategiyadır. Bununla belə, İKT-nın inteqrasiyası ilə bağlı müvafiq texnologiya seçimi kimi problemləri həll etmək üçün aydın plan, resurslara çıxış və davamlı təlim kimi effektiv strategiyaların həyata keçirilməsi vacibdir.

**Problemin aktuallığı.** Gələcək tərbiyəçi-müəllimlərin uşaq bağçası fəaliyyətlərinə hazırlanmasında İKT-dan istifadə zəruridir və dövrün tələbidir.

**Problemin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, gələcək tərbiyəçi-müəllimlərin uşaq bağçası fəaliyyətlərinə hazırlanmasında İKT-nın əhəmiyyəti, strategiyaları və istifadə yolları göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti.** İnkişaf etməkdə olan İKT-nın və yeni tədris yanaşmalarının potensialı və təhsil prosesinə ineqrasiyası gələcək tərbiyəçi-müəllimlərin akademik uğuruna müsbət təsir göstərə bilər.

## Ədəbiyyat:


1. Ağayev Ə.Ə. Təlim prosesi: Ənənə və müasirlik. – Bakı, 2006
2. Ağamalıyev R., Əhmədov İ. Tədris prosesində modul təlim texnologiyasından istifadənin imkan və yolları. Pedaqoji texnologiyalar. – Bakı, 2006
3. Bunyadova F., Abdulla B. Təlim və tərbiyədə interaktiv texnologiya. – Bakı, 2000
4. Əliyeva Ş.Q. Məktəbəqədər təhsildə müasir pedaqoji texnologiyalar. – Bakı, 2020
5. Əliyeva S.A. Məktəbəqədər təhsildə müasir təlim texnologiyaları. – Bakı, 2022
6. Nəzərov A., Mollayeva E. Müasir dövrün təhsilproblemləri. – Bakı, 2011
7. Nəzərov A. Müasir təlim texnologiyaları: Mühazirə xülasələri: Dərs vəsaiti. – Bakı, 2012


**E-mail:** aliyevasedaqet.29@mail.ru
**Rəyçilər:** *ped.elm.dok., prof.* **Ş.A. Əliyeva,**
*ped.ü.fəls.dok., dos.* **T. Sadıqova**
**Redaksiyaya daxil olub:** 10.10.2023

*UOT 37.01.*

***Lalə Kamal qızı Rəhimova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Gəncə Dövlət Universitetinin müəllimi*
*https://orcid.org/0000-0002-7731-9728*

# GƏLƏCƏK İBTİDAİ SİNİF MÜƏLLİMLƏRİNİN İKT SƏRİŞTƏLİYİNİN FORMALAŞMASI ÜZRƏ İŞİN SİSTEMİ

***Лала Камал гызы Рагимова***
*докторант по программе доктора философии,*
*преподаватель Гянджинского государственного университета*

# СИСТЕМА РАБОТЫ ПО ФОРМИРОВАНИЮ ИКТ-КОМПЕТЕНТНОСТИ БУДУЩИХ УЧИТЕЛЕЙ НАЧАЛЬНЫХ КЛАССОВ

***Lala Kamal Rahimova***
*doctoral student in the program of doctor of philosophy,*
*teacher of Ganja State University*

# SYSTEM OF WORK ON DEVELOPING ICT COMPETENCE OF FUTURE PRIMARY SCHOOL TEACHERS

**Xülasə.** Müasir müəllim peşəsinin əsas səriştələrindən biri İKT səriştəliyidir. İKT-nin tətbiqi sayəsində fənlərin tədrisi keyfiyyəti yüksəlir, təlim prosesi fərdi xarakter alır və səmərəli olur. Müəllimin fərdi peşəkarlığının yüksəlməsi üçün əsas onun İKT bacarıqlarını mənimsəməsi, İKT səriştələrinə sahib olması mühümdür. Məqalədə İKT səriştəsinin formalaşması üçün məzmun yanaşması əsasında metodik sistemin layihələndirilməsi və qurulması nəzərdən keçirilir. İKT sahəsində peşə hazırlığının hər bir kursu üzrə cari və yekun nəzarətin həyata keçirilməsi, eləcə də gələcək ibtidai sinif müəllimlərinin İKT sahəsində peşə hazırlığına kompleks yanaşma vacibdir.

***Açar sözlər:*** *müəllim, peşə səriştəsi, tədris proqramları, metodik sistem, informasiya cəmiyyəti, İKT savadlığı, İKT səriştəliyi*

**Резюме.** Одной из основных компетенций современной педагогической профессии является ИКТ-компетентность. Благодаря применению ИКТ в учебном процессе повышается качество преподавания предметов, процесс обучения становится индивидуализированным и эффективным. Для профессионалной карьеры учителя важно овладеть ИКТ-компетенциями. В статье рассматривается проектирование и построение методической системы на основе содержательного подхода формирования ИКТ-компетентности. Важное значение имеет осуществление текущего и итогового контроля каждого курса профессиональной подготовки в области ИКТ, а также комплексный подход к профессиональной подготовке будущих учителей начальных классов в области ИКТ.

***Ключевые слова:*** *педагог, профессиональная компетентность, учебные программы, методическая система, информационное общество, ИКТ-грамотность, ИКТ-компетентность*

**Summary.** One of the main competencies of the modern teaching profession is ICT competence. Thanks to the use of ICT in the educational process, the quality of teaching subjects improves, the learning process becomes individualized and effective. For a teacher's professional career, it is important to master ICT competencies. The article discusses the design and construction of a methodological system based on a substantive approach to the formation of ICT competence. It is important to carry out ongoing and final monitoring of each professional training course in the field of ICT, as well as an integrated approach to the professional training of future primary school teachers in the field of ICT.

***Key words:*** *teacher, professional competence, curriculum, methodological system, information society, ICT literacy, ICT competence*

Müasir İKT səriştəliliyi konsepsiyası bir çox ölkələrin təhsil standartlarında xüsusi yer tutur. Bu sənədlərdə qeyd edilir ki, müəllim səriştəsinin əsas göstəricilərindən biri İKT səriştəsidir. İKT səriştəliyinin formalaşdırılması üçün xüsusi olaraq metodik sistem yaratmaq lazımdır. Bu metodik sistemin layihələndirilməsi pedaqoji layihələndirmə prosesinin mərhələlərinə uyğun olaraq hazırlanmalıdır. Bu aşağıdakı addımları əhatə edir:

- tədris planı və tədris proqramları üçün nəzərdə tutulmuş təlim məzmununun seçilməsi;
- müəllimin təlimdə prioritet məqsədlər seçməsi: konkret fənnin tədrisi prosesində tələbələrdə hansı peşə və şəxsi keyfiyyətlərin formalaşacağının təyin edilməsi;
- bir sıra məqsədlərə və ya bir prioritet məqsədə yönəldilmiş texnologiyanın seçimi;
- təlim texnologiyasının işlənib hazırlanması.

Öz növbəsində, təlim texnologiyası təlim prosesinin təşkilini, idarə edilməsini və nəzarətini əhatə edir. Yəni bu, sistem kateqoriyasıdır, onun struktur komponentləri bunlardır: təlimin məqsədləri, məzmunu, pedaqoji qarşılıqlı əlaqə vasitələri (təlim vasitələri və motivasiya), təlim prosesinin təşkili, şagird-müəllim fəaliyyətinin nəticəsi (peşə hazırlığı səviyyəsi). Beləliklə, ən ümumi formada hər hansı bir pedaqoji texnologiyanın dizayn məntiqi aşağıdakı kimi təqdim edilə bilər:

- ümumi məqsədlərin qoyulması və onların tələb olunan məzmuna uyğunluğunun dəqiqləşdirilməsi;
- proqnozlaşdırıla bilən və planlaşdırılan nəticələrə nail olmaq üçün xüsusi didaktik məqsədlərin formalaşdırılması;
- təlimin optimal üsul, forma və vasitələrinin seçilməsi;
- tədris prosesinin təşkili;
- qarşıya qoyulan məqsədlərə nail olunmasını təmin etmək üçün cari nəticələrin qiymətləndirilməsi və zəruri hallarda tədris prosesinə düzəlişlər etmək.

Yuxarıda göstərilənlərə əsaslanaraq, gələcək ibtidai sinif müəllimlərinin İKT səriştəsinin formalaşması üçün metodik sistemin layihələndirilməsi mərhələlərinə baxaq:

1. Gələcək ibtidai sinif müəlliminin İKT səriştəsi məzmununun öyrənilməsi, məqsədin müəyyənləşdirilməsi.

2. İKT sahəsində peşə hazırlığının diaqnostik məqsədlərinin müəyyən edilməsi (gözlənilən didaktik nəticənin ölçülə bilən parametrlərlə təsviri), ibtidai sinif müəlliminin İKT səriştəsinin əsas, peşəkar səviyyələrinin göstəricilərinin müəyyənləşdirilməsi və səriştələr (mikro məqsədlər) dilində təsviri.

3. İKT sahəsində gələcək ibtidai sinif müəllimlərinin səriştələr sisteminə (mikro məqsədlərə) uyğun olaraq həyata keçirilən peşə hazırlığı məzmununun əsaslandırılması və işlənib hazırlanması.

4. İşlənmiş məzmuna uyğun olaraq aktiv metodların, təşkilati formaların və tədris vəsaitlərinin seçilməsi. Pedaqoji qarşılıqlı əlaqənin təşkili məntiqinin müəyyən edilməsi. Tələbələrin elmi-tədqiqat işlərinin, real peşə fəaliyyətinin təşkili.

5. İKT səriştəsinin formalaşma səviyyələrinin monitorinqi və ölçülməsi prosedurlarının seçimi, təhsil fəaliyyətinin fərdi korreksiyası üsulları.

Aşağıda, müəyyən mərhələlərə uyğun olaraq, pedaqoji yönlü ATM-də, gələcək ibtidai sinif müəllimlərinin peşə hazırlığında, praktiki istifadə səviyyəsinə çatdırılması lazım olan İKT səriştəsinin formalaşması üçün hazırlanmış model təsvir edilmişdir. İbtidai sinif müəllimlərinin İKT səriştəsinin formalaşması üçün metodik sistemin layihələndirilməsi və qurulmasının ilk və ən vacib mərhələsi, məqsədi müəyyənetmə (konkretləşdirmə) mərhələsidir.

Məqsədi müəyyənetmə (konkretləşdirmə) didaktik prosesin ən vacib kateqoriya xarakteristikası kimi qəbul edilmişdir. Lakin təhlillərin göstərdiyi kimi, bu problemin elmi inkişaf dərəcəsi və onun hazırkı vəziyyəti mürəkkəb və ziddiyyətli olaraq qalır. Bu, ilk növbədə, onun həllinə hazırda mövcud olan yanaşmaların əhəmiyyətli müxtəlifliyi ilə bağlıdır.

Tədqiqatımızda İKT sahəsində peşə hazırlığının məqsədlərini müəyyən etmək üçün səriştə əsaslı yanaşmaya üstünlük verilir. Bunun əsas üstünlüyü ibtidai sinif müəlliminin informasiyalaşmanın müasir mərhələsində fəaliyyəti nəticəyə – İKT səriştəsinə çevirmək bacarığıdır. Bu da gələcək ibtidai sinif müəllimlərinin səriştələr sistemini müəyyən etmək deməkdir. Beləliklə, gələcək ibtidai sinif müəllimlərinin İKT səriştəliyinin formalaşdırılması metodik sistemində hə-

yata keçirilən peşə hazırlığının məqsədi onların İKT səriştəliyinin formalaşdırılmasıdır.

Peşə təhsilinin məqsədi təlim məqsədlərinə qoyulan əsas tələblərə cavab verir: həyati zərurət (sosial tələbat), real şəkildə əldə edilən (real şərait nəzərə alınmaqla), dəqiq (parametrlər vasitəsilə təsvir), yoxlanıla bilən (göstəricilər vasitəsilə təsvir), sistemləşdirilmiş və artıqlıq olmadan tam diaqnostik, yəni diaqnoz qoyulmuş keyfiyyətin birmənalı seçilməsi üçün meyarın olması, ölçmə nəticələrinə əsasən onun qiymətləndirilməsi şkalası təyin edilmişdir.

Bu tələblər əsasında biz gələcək ibtidai sinif müəlliminin səriştələrinin siyahısını, qiymətləndirmə meyarlarını və İKT səriştəsinin formalaşma səviyyələrini müəyyən etdik. İKT sahəsində peşəkar hazırlığı səriştə əsaslı yanaşma nöqteyi-nəzərindən nəzərdən keçirərək biz İKT səriştəsini nəticə olaraq və eyni zamanda, İKT sahəsində ibtidai sinif müəllimlərinin peşəkar hazırlığının məqsədi olaraq müəyyən edirik. İKT səriştəliyi məqsədəuyğun, məhsuldar, optimal tədris prosesinin nəticəsi kimi səriştələrin sintezidir. Bu proses çərçivəsində onların ardıcıl mənimsənilməsi baş verir və təlim məqsədinə nail olmağa kömək edir. Bu baxımdan prosesin mərhələlərinə uyğun olaraq İKT səriştə səviyyəsinin mövcud səviyyədən daha yüksək səviyyəyə dəyişməsindən danışmaq olar. Bu şəkildə baş verən İKT səriştəliyinin formalaşması ibtidai sinif müəlliminin peşə səriştəsinin formalaşmasının ümumi prosesinin tərkib hissəsi, özünü tənzimləmə prosesi kimi, yəni daxili zəruri hərəkət, gələcək müəllimin "öz hərəkəti" kimi təqdim olunur.

Bu yanaşmaya əsasən, didaktik məqsədləri sistem məqsədləri (ali təhsilli müəllimə verilən tələblər), fənn məqsədləri (hər bir konkret fənn üzrə məqsədlərin formalaşdırılması), modul məqsədləri (məqsədlərin mövzu, bölmə səviyyəsində strukturlaşması) və müəyyən dərsin məqsədləri olaraq təsnif etmək məqsədəuyğundur.

"Məqsədlər ağacı" zirvəsi ümumi didaktik məqsədlər olan bir qrafik kimi başa düşülməlidir, onun xüsusi təlim problemlərinin həlli üçün iyerarxik strukturlaşması daha aşağı səviyyələrdə baş verir.

Təlim prosesi insan fəaliyyətinin istənilən növü kimi məqsəd-vasitə-nəticə kateqoriyalarının müəyyən nisbəti ilə xarakterizə olunur. Məqsəd yalnız onun praktiki həyata keçirilməsi üçün zəruri vasitələrlə qarşılıqlı əlaqədə reallığı dəyişdirən qüvvəyə çevrilə bilər. İKT sahəsində gələcək ibtidai sinif müəllimlərinin peşə hazırlığının "məqsəd ağacının" bu hazırlığın məzmunu ilə qarşılıqlı əlaqəsini səriştə əsaslı və məzmun yanaşmalar nəzərə alınmaqla göstərək.

Göstərilən nisbətə əsasən belə qənaətə gəlmək olar ki, əgər İKT sahəsində peşə hazırlığının ümumi məqsədi İKT səriştəsinin formalaşdırılmasıdırsa, alt məqsədlər İKT səriştəsinin əsas səviyyəsinin (fənn-peşə məzmununun) və İKT səriştəsinin peşəkar səviyyəsinin (sosial məzmunun) formalaşmasıdır.

Bu məqsədlərə çatmaq üçün müvafiq məzmun seçmək lazımdır. Təhsilin məzmunu problemin həllinə yanaşmalar, sosial sifarişdən, təhsil və təlimin məqsədlərindən asılıdır. Təhsilin məzmunu cəmiyyətin müasir inkişaf mərhələsində üstünlük təşkil edən amillər nəzərə alınmaqla qurulur. Bu gün həmin amillər bunlardır:

- bir elm kimi informatikanın məntiqinə uyğunluq;
- məzmunun tədris prinsipləri (elmilik, ardıcıllıq, sistemlilik və s.) ilə qane olma dərəcəsi;
- şagirdin fərdi xüsusiyyətlərinin nəzərə alınması;
- fərdin təhsilə olan ehtiyacları (diferensiallaşdırılmış, təshihedici, profil təlimi).

Təhsilin məzmununun əsaslandırılması didaktikanın ən mühüm və ənənəvi problemlərindən biridir. İKT sahəsində gələcək ibtidai sinif müəllimlərinin peşə hazırlığının məzmunu gələcək ibtidai sinif müəlliminin, məqsədi informasiya cəmiyyətində şagird şəxsiyyətinin inkişafına şərait yaratmaq, peşə fəaliyyətini səmərəli həyata keçirməsi üçün İKT səriştələri sistemi kimi müəyyən edilə bilər.

Gələcək ibtidai sinif müəllimlərinin İKT səriştəsinin formalaşdırılması üçün hazırlanmış metodik sistem çərçivəsində həyata keçirilən sinif müəllimlərinin İKT sahəsində peşə hazırlığının məzmunu fənn-peşə və sosial məzmuna böləndüyünü nəzərə alaraq, onların hər birinin inkişafını ayrıca nəzərdən keçirəcəyik.

Fənn-peşə məzmununun işlənib hazırlanması, bu məzmun səviyyəsində gələcək ibtidai sinif müəllimlərinin İKT sahəsində hazırlanma-

sını bu kontekstdə həyata keçirilməlidir. Burada məqsəd İKT səriştəliyinin əsas səviyyəsinə nail olmaqdır. Aparıcı fəaliyyətlər bunlardır: təhsil və kvazi-peşəkar.

Gələcək ibtidai sinif müəllimlərinin İKT sahəsində peşə hazırlığının fənn-peşə məzmununun tərkib elementlərini "Təhsildə İKT" fənni təşkil edir. Kurs iki qarşılıqlı əlaqədə olan blokdan (nəzəri və praktiki hissələrdən) ibarətdir. Nəzəri hissənin məzmunu əsasən ibtidai sinif müəlliminin İKT səriştəsinin koqnitiv komponentinin formalaşmasına kömək edir. Kursların praktik hissəsinin məzmunu İKT səriştəsinin əməliyyat komponentidir və laboratoriya işləri toplusu və tədris-pedaqoji tapşırıqlar sistemi ilə təqdim olunan metodiki tövsiyələr vasitəsilə həyata keçirilir.

"Təhsildə İKT" fənni üzrə laboratoriya məşğələsinin keçirilməsi üçün hazırlanmış metodiki tövsiyələr ibtidai sinif müəlliminin peşə fəaliyyətinin xüsusiyyətləri nəzərə alınmaqla yaradılmışdır: şagirdlərin təhsil fəaliyyətinin formalaşdırılması, kiçik yaşlı şagirdlər tərəfindən fəaliyyətin bilik və təcrübə sisteminin mənimsənilməsi üzərində işləmək, şagirdlərin qabiliyyətlərini aşkar və inkişaf etdirmək üçün çalışmaq, uşağı məktəbə uyğunlaşdırmaq, uşaqların tədqiqat və yaradıcılıq fəaliyyətinin təşkili, məktəbdaxili sosial mühiti inkişaf etdirmək.

Tədris – pedaqoji vəzifələr sisteminin işlənib hazırlanması Y.K. Osipovanın tədqiqatlarını nəzərə alaraq həyata keçirilmişdir (6). Həmin tədqiqat əsasında tədris – pedaqoji tapşırıqların mətn şərtləri hazırlanmış və seçilmiş, tədris –pedaqoji tapşırıqların təqdim edilməsinin məntiqi gələcək ibtidai sinif müəllimlərinin ATM-də İKT üzrə peşə hazırlığının məzmununa uyğun olaraq müəyyən edilmişdir.

Tədris – pedaqoji vəzifələrin inkişafı üçün əsas ibtidai sinif müəlliminin peşə vəzifələri oldu. Həmin vəzifələr Y.K. Osipova tərəfindən təklif olunan müəllimin peşə vəzifələrinin təsnifatına uyğun olaraq müəyyən edilirdi (6). Bu təsnifat ibtidai sinif müəlliminin fəaliyyətinin xüsusiyyətləri və müasir informasiyalaşma mərhələsinin xüsusiyyətləri nəzərə alınmaqla dəqiqləşdirilmişdir. Beləliklə, təqdim olunan vəzifələr toplusu məktəbin normativ sənədlərində təqdim olunan və "İbtidai təhsilin pedaqogika və metodikası" ixtisası üzrə təhsil standartında qeyd edilmiş bütün aspektləri əhatə edir.

Təqdim olunan təsnifata, Y.K. Osipovanın (6) müəllimin çoxpilləli funksional vəzifələr kompleksinin həlli prosesinə, pedaqoji vəzifələrin icrasını təsvir edən nəzəriyyəyə əsasən deyə bilərik ki:

1. pedaqoji informasiyaların axtarışı, qiymətləndirilməsi, işlənməsi ilə əlaqədar peşə vəzifələri mahiyyət etibarilə idraki, konstruktiv və layihə xarakterlidir;

2. ibtidai məktəbin tədris prosesinə İKT-nin tətbiqi ilə bağlı peşə vəzifələri təşkilati və kommunikativ vəzifələrdir. Bu fakt gələcək ibtidai sinif müəllimlərinin İKT sahəsində peşə hazırlığının məzmunu hazırlanarkən nəzərə alınmalıdır.

Beləliklə, "İbtidai təhsilin pedaqogika və metodikası" ixtisası üzrə İKT sahəsində peşə hazırlığının fənn-peşə məzmunu üçün tədris-pedaqoji vəzifələrin təqdim edilməsinin məntiqi aşağıdakı kimi müəyyən edilmişdir.

Tədris və pedaqoji tapşırıqların mətn şərtləri peşə tapşırıqları əsasında, həmçinin aşağıdakı tələblər nəzərə alınmaqla hazırlanmışdır:

• tapşırıqlar ibtidai sinif müəlliminin gələcək peşə fəaliyyətinin bütün aspektlərini əhatə etməlidir;

• Ali təhsil müəssisəsində "Təhsildə İKT" fənni tədris edilərkən pedaqoji tapşırıqlar tədris prosesinə daxil edilməlidir;

• problemlərin həlli gələcək ibtidai sinif müəlliminin İKT səriştəsinin baza səviyyəsinin formalaşmasına töhfə verməlidir.

"Təhsildə İKT" fənninin bir neçə mövzusu üzrə tədris-pedaqoji tapşırıqların mətn şərtlərindən nümunələr göstərək. Bu fənn üzrə laboratoriya, kompüter praktikumu dərslərində tədris və pedaqoji tapşırıqların istifadəsi bir sıra xüsusiyyətlərə malikdir:

1. Həlli yalnız funksional tapşırıqlar kompleksini nəzərdə tutan pedaqoji tapşırıqlardan istifadə olunur.

2. Hər bir mövzu üzrə laboratoriya məşğələsində tələbə pedaqoji tapşırığı seçir və peşə tapşırığı həllinin layihəsini tərtib edir.

3. Layihənin tərtibi zamanı tələbə dərsin mövzusuna uyğun olaraq İKT vasitələrindən istifadə etməklə layihənin həllinə daxil edilmiş

hər hansı funksional məsələnin həllinin mümkünlüyünü müəyyən etməlidir.

Bilavasitə pedaqoji tapşırıqların nümunələri (Tapşırıq layihəsini həyata keçirərkən İKT vasitələrindən istifadə edin):

1. Bir dərs ili üçün kiçik yaşlı şagirdlərin ana dilinə emosional – dəyər münasibəti, ana dilini öyrənərkən onun unikallığını və saflığını qoruyub saxlamaqla bu dilə sahiblik hissi yaratmaq vəzifəsinin həllinə dair layihə hazırlayın.

2. Bir illik təhsil müddətində riyaziyyat və informatikanın öyrənilməsində kiçik yaşlı şagirdlərin məntiqi təfəkkürünün inkişafı probleminin həlli layihəsini hazırlayın.

3. "Ətraf aləm" fənnini bir il ərzində öyrənərkən insan və onun təbiətdə, cəmiyyətdə yeri haqqında ümumi təsəvvürlərin formalaşdırılması probleminin həlli layihəsini hazırlayın.

4. "Rəsm" fənnini bir illik təhsil müddətində öyrənərkən plastik sənət dünyası, xüsusən də bədii sənətkarlıq haqqında ilkin biliklərin mənimsənilməsi probleminin həlli layihəsini hazırlayın.

5. "Texnologiya" fənnini bir illik təhsil müddətində öyrənərkən peşələr dünyası haqqında ilkin təsəvvürlərin formalaşdırılması probleminin həlli layihəsini hazırlayın.

Fənn-peşə məzmunun praktiki komponentini optimallaşdırdıqdan sonra bu məzmunun həyata keçirilməsi üçün zəruri olan üsul və formaları seçmək lazımdır. Kontekstual yanaşmanın ideyalarını nəzərə alaraq, passiv və aktiv tədris metodlarının adekvat inteqrasiyasını həyata keçirmək məqsədəuyğundur, forma olaraq nəzəri məzmunu həyata keçirmək üçün mühazirələr (problemli mühazirələr), seminarlar (müzakirələr, seminar-konfrans, dəyirmi masa), praktiki komponenti həyata keçirmək üçün laboratoriya kompüter seminarı.

Gələcək ibtidai sinif müəlliminin İKT səriştəsinin formalaşması modelinin elementlərində idarəetmə, bilik və bacarıqlar Y.K. Osipovanın metodu ilə həyata keçirilir. "Yaxşı tərbiyəçi" istiqamətləndirici olub, hər bir tədris-pedaqoji tapşırığa nəzarət edir, az səmərəli nəticə əldə edildikdə təkrarən dəfələrlə yerinə yetirilirdi. İdarəetmə proqramı qismində Y.K. Osipovadan (6) əxz edilmiş tapşırıqların həlli proseslərinə uyğun olan, evristik təlimat müddəaları sistemindən, habelə müəyyən bir pedaqoji problemin həllində İKT alətini seçməyə imkan verir.

Məzmun yanaşması əsasında İKT səriştəsinin formalaşması üçün metodoloji sistemin layihələndirilməsi və qurulmasında mühüm və məsuliyyətli mərhələ İKT səriştəliyi səviyyəsinin qiymətləndirilməsi və monitorinqi mərhələsidir. İKT səriştəsi səviyyəsinə nəzarət və qiymətləndirmənin bütün tələbələr qrupunu əhatə etməklə sistemli şəkildə aparılması məqsədəuyğundur. İKT sahəsində peşə hazırlığının hər bir kursu üzrə cari və yekun nəzarətin həyata keçirilməsi, eləcə də gələcək ibtidai sinif müəllimlərinin İKT sahəsi üzrə peşə hazırlığının başa çatdırılması vacibdir. Cari nəzarəti kompüter otağında, imtahanlar və sınaqlar zamanı yekun nəzarəti həyata keçirmək rahatdır.

Müəyyən edilmiş göstəricilərə və formalaşmış İKT səriştəsi səviyyələrinə əsaslanaraq, biz səriştələrin qiymətləndirilməsi üçün mövcud metodları təhlil etdik. İKT səriştəsi səviyyəsinin qiymətləndirilməsi sistemini, o cümlədən aşağıdakı üsulları təklif etdik: motivasiya-dəyər və əks etdirici diaqnostika üçün test, layihə göstəriciləri, dərketmə göstəricisinin kompüter testi, diaqnostik təhsil və pedaqoji tapşırıqlar sistemi - əməliyyat göstəricisi.

Sosial məzmunun işlənib hazırlanması gələcək ibtidai sinif müəllimlərinin İKT sahəsində bu məzmun səviyyəsində hazırlanması məqsədi ilə həyata keçirilməlidir. Bu məqsəd İKT səriştəsinin peşəkar səviyyəsinə nail olmaqdır, onun əsas xüsusiyyəti isə İKT səriştənin olması, İKT-nin ibtidai məktəbin tədris prosesinə tətbiqi üsullarına sahib olmasıdır.

Aparıcı fəaliyyət növü, tələbənin real peşə problemlərinin həlli ilə üzləşdiyi zaman çətinliklərdir. Bu zaman tələbə sosial və peşəkar qarşılıqlı əlaqə mühitində olur, burada hansı səriştələrin onun üçün kifayət etmədiyini və ya mövcud olanların lazımi səviyyədə formalaşmadığını aydın şəkildə müəyyənləşdirir.

Gələcək ibtidai sinif müəllimlərinin İKT sahəsində peşə hazırlığının təhlili təlimin sosial məzmununa olan tələbləri müəyyən etməyə imkan verdi:

- İKT-dən istifadə etməklə ümumtəhsil fənləri tədrisinin metodik əsaslarının daxil edilməsi;
- müəllimlərin real praktik axtarışının nəticəsi kimi İKT-nin peşə fəaliyyətinə tətbiqi üçün elmi və praktiki əsasların daxil edilməsi;

– "yaradıcı fəaliyyətdə təcrübə" və "emosional-dəyər münasibətlərinin həyata keçirilməsi təcrübəsi" nin daxil edilməsi.

Birinci tələbə əməl edərək biz ali təhsil səviyyəsi üçün "İnformatika tədris metodikası ilə" fənni hazırlamışıq. "İnformatikanın ibtidai siniflərdə tədrisi metodikası" fənni üzrə tədris materialları əsasında ibtidai sinif müəllimlərinin ixtisasartırma kursları çərçivəsində sınaqdan keçirilmiş "İbtidai siniflərdə informatikanın tədrisi metodikası" əlavə təlim kursu proqramı yaradılmışdır.

İKT sahəsində ibtidai sinif müəllimlərinin peşə hazırlığına elmi-praktik əsasların tətbiqi məqsədilə "Pedaqoji fəaliyyətdə İKT-dən istifadə" adlı elmi-praktik seminarı, peşə fəaliyyətdə İKT-dən istifadə üzrə problem qrupları təşkil etdik. Üçüncü tələbə əməl etmək üçün ibtidai sinif müəllimləri üçün tədris-metodiki işlərin müsabiqələri və kiçik yaşlı şagirdlər üçün müsabiqə təşkil edilmişdi. Əlavə olaraq tələbələr "Kiçik yaşlı məktəblilər üçün kompüter savadlığı kursları" çərçivəsində real peşə fəaliyyətinə cəlb edilmişdir (müəllim qismində).

Sosial məzmuna aşağıdakı interaktiv metod və formaların istifadəsi uyğundur: tələbələrin elmi-tədqiqat işi, onlayn təhsil, əlavə təlim kursları, elmi-praktik seminarlar, müsabiqələr və s. Şagirdlərin idrak fəaliyyətinin idarə edilməsi ya "adekvat idarəetmə" qapalı, yönəldilmiş, avtomatik və ya "məsləhətçi", yəni açıq, yönləndirilmiş, sadə idarəetmə formasına malikdir.

Daha sonra gələcək ibtidai sinif müəlliminin İKT səriştəliyinin peşə səviyyəsinin monitorinqi və qiymətləndirilməsi kimi mühüm məsələsinin təqdimatı keçirilir. Fikrimizcə, gələcək ibtidai sinif müəllimi İKT səriştəsinin əsas səviyyəsinə malik olduğu halda İKT səriştəsinin peşəkar səviyyəsinə nail olur və bu, zəruri şərtdir.

Gələcək ibtidai sinif müəllimlərinin İKT səriştəsinin peşəkar səviyyəsinə nail olmasına nəzarət etmək və qiymətləndirmək üçün biz fəaliyyət nəticələrinin keyfiyyətcə qiymətləndirilməsi metodunu seçmişik. Şagirdlərin keçirilən tədbirlərdə (müsabiqələrdə, kurslarda və s.) iştirakının nəticələrini təhlil edərkən biz fəallığa, təşəbbüsə, faktiki yekun nəticələrə, o cümlədən tələbələrin tədbirlərdə iştirak tezliyinə diqqət yetirmişik, nəticədə hər bir iştirakçı tələbənin İKT səriştəsinin peşəkar səviyyəsinə nail olub-olmaması barədə nəticələr çıxarılmışdır.

**Problemin aktuallığı.** Müasir İKT səriştəliyi konsepsiyası bir çox ölkələrin təhsil standartlarında xüsusi yer tutur. Bu sənədlərdə qeyd edilir ki, müəllim səriştəsinin əsas göstəricilərindən biri İKT səriştəsidir. İKT səriştəliyinin formalaşdırılması üçün xüsusi metodik sistemin yaradılması zəruridir. Bu metodik sistemin layihələndirilməsi pedaqoji layihələndirmə mərhələlərinə uyğun olaraq həyata keçirilir. Pedaqoji yönlü ATM-də gələcək ibtidai sinif müəllimlərinin keyfiyyətli peşə hazırlığı üçün İKT səriştəsinin formalaşması xüsusi model əsasında reallaşa bilər. İbtidai sinif müəllimlərinin İKT səriştəsinin formalaşması üçün belə metodik sistemin layihələndirilməsi və tətbiqi vacibdir. Məqalədə bu aktual məsələlər araşdırılır.

**Problemin elmi yeniliyi.** İKT sahəsində müəllimin peşə hazırlığı məqsədlərini müəyyən etmək və onu praktik reallaşdırmaq üçün son illər səriştə əsaslı yanaşmaya üstünlük verilir. İbtidai sinif müəllimlərinin təhsilin müasir inkişafı mərhələsində pedaqoji fəaliyyətinin səmərəsi onun İKT səriştəsi səviyyəsindən xeyli dərəcədə asılıdır. Bu məqsədlə gələcək ibtidai sinif müəllimlərinin İKT səriştələri sistemini müəyyən etmək, onların ali məktəbdə hazırlanması prosesində bunu nəzərə almaq məqsədəuyğundur. Bu məqsədlə məqalədə gələcək ibtidai sinif müəlliminin İKT səriştəsinin formalaşması üzrə metodik sistem araşdırılır və bəzi tövsiyələr verilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədəki ideyalardan ibtidai sinif müəllimlərinin İKT səriştəsini yüksəltmək, bu səriştələrin monitorinqi və praktik qiymətləndirilməsi üçün istifadə etmək olar. Bu məqsədlə metodik sistem təklif edilir. Məqalədən pedaqoqlar, ümumtəhsil məktəbi müəllimləri və magistrlər istifadə edə bilərlər.

## Ədəbiyyat:

1. Əzimzadə Y.M. Səriştəli müəllim kadrlarının hazırlığı təhsilin keyfiyyətinin yüksəldilməsinin mühüm amili kimi. Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. – Bakı, 2021.
2. İlyasov, M.İ. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri / M.İ.İlyasov. – Bakı: Elm və təhsil, – 2018, – 208 s.
3. Босова, Л.Л. Развитие методической системы обучения информатике и информационным технологиям младших школьников [Текст]: автореф. дис.... д-ра. пед. наук / Л.Л.Босова. – М., 2010. – 47 с.

4. Быков, С.А. Формирование информационно-коммуникационной компетентности будущих учителей начальных классов [Текст]: автореф. дис. ... канд. пед. наук / С.А. Быков. – Новокузнецк, 2009. – 23 с.
5. Кюршунова, В.В. Становление информационной компетентности будущего учителя начальных классов [Текст]: автореф. дис. ... канд. пед. наук / В.В. Кюршунова. – Петрозаводск, 2006. – 23 с.
6. Осипова, О.П. Формирование ИКТ-компетентности учителя начальных классов [Текст] / О.П. Осипова // Дополнительное образование. – 2006. – №6. – с. 34-39.
7. Ершова, Н.А. Формирование компетентности учителя начальных классов в области информационно – коммуникационных технологий в педагогическом колледже [Текст]: автореф. дис. ... канд. пед. наук / Н.А. Ершова. – Волгоград, 2009. – 24 с.

**E-mail:** rahimova.lala@yandex.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **İ.B. Əhmədov**,
*fiz.riy.ü.fəls.dok., dos.* **Ə.Ə. Aslanov**
**Redaksiyaya daxil olub:** 13.11.2023

*UOT 37.01.*

***İsmət Məmməd qızı Məmmədova***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

***Türkan Mübariz qızı Süleymanova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# TƏHSİLALANLARIN BİLİK VƏ BACARIQLARININ FORMALAŞDIRILMASININ MONİTORİNQİ

***Исмет Мамед гызы Мамедова***
*доктор философии по педагогике, доцент*
*Азербайджанский государственный педагогический университет*

***Тюркан Мубариз гызы Сулейманова***
*Азербайджанский государственный педагогический университет*

# МОНИТОРИНГ ФОРМИРОВАНИЯ ЗНАНИЙ И УМЕНИЙ ОБУЧАЮЩИХСЯ

***İsmet Mammad Mammadova***
*doctor of philosophy in pedagogy, associate professor*
*Azerbaijan State Pedagogical University*

***Turkan Mubariz Suleymanova***
*Azerbaijan State Pedagogical University*

# MONITORING THE FORMATION OF KNOWLEDGE AND SKILLS OF STUDENTS

**Xülasə.** Təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi ənənəvi olaraq onların əldə etdikləri bilik, bacarıq və dəyərlərin kəmiyyətcə qiymətləndirilməsinə əsaslanır. Lakin şagirdlərin təlimin nəticələrini müəyyən edən şəxsi keyfiyyətlərinin qiymətləndirilməsi sistemi mövcud deyildir. Daha təəccüblüsü budur ki, təlimin məqsədlərini əks etdirən sənədlərin hamısında təlim-tərbiyə prosesində formalaşmalı olan müxtəlif şəxsi keyfiyyətlərdən bəhs olunur. Ola bilsin bu onunla əlaqədardır ki, şəxsi keyfiyyətlərin kəmiyyətcə qiymətləndirilməsi praktik olaraq həyata keçirilməsi çətin olan bir məsələdir. Buna baxmayaraq, ancaq şəxsi keyfiyyətlərin qiymətləndirilməsi təlim prosesinin yekunları haqqında tam təsəvvür yaratmağa imkan verə bilər. Bu sahədə məktəbdə psixoloji xidmətin üzərinə mühüm vəzifələr düşür. Bununla əlaqədar olaraq şagird nailiyyətlərinin qiymətləndirilməsi prosesinə aid məsələlərindən ən başlıcasını onun şəxsi keyfiyyətlərinin diaqnostik yolları və metodlarının işlənib hazırlanması təşkil edir.

***Açar sözlər:*** *bilik və bacarıq, keyfiyyət, monitorinq*

**Резюме.** Оценивание достижений обучающихся традиционно базируется на количественной оценке приобретенных ими знаний, умений и ценностей. Однако не существует системы оценивания личных качеств учащихся, определяющих результаты обучения. Еще более удивительно то, что во всех документах, отражающих цели обучения, упоминаются различные личностные качества,

которые должны формироваться в процессе обучения. Возможно, это связано с тем, что количественная оценка личностных качеств является делом труднореализуемым на практике. Тем не менее, только оценка личностных качеств может дать полное представление о результатах процесса обучения. В этой области перед школьной психологической службой стоят важные задачи. В связи с этим одним из важнейших вопросов, связанных с процессом оценивания достижений учащихся, является разработка способов и методов диагностики его личностных качеств.

***Ключевые слова:*** *знания и навыки, качество, мониторинг*

**Summary.** The evaluation of the achievements of the learners is traditionally based on the quantitative evaluation of their acquired knowledge, skills and values. However, there is no system for evaluating students' personal qualities that determine the results of training. What is more surprising is that all the documents reflecting the goals of the training mention various personal qualities that should be formed in the training process. Perhaps this is due to the fact that the quantitative assessment of personal qualities is a difficult matter to implement in practice. Nevertheless, only the assessment of personal qualities can provide a complete picture of the results of the training process. In this field, the school psychological service has important tasks. In this regard, one of the most important issues related to the process of evaluating student achievements is the development of diagnostic ways and methods of his personal qualities.

***Key words:*** *knowledge and skills, quality, monitoring*

Elmi-metodik ədəbiyyatlarda bilik və bacarıqların formalaşdırılmasının vacibliyindən, formalaşdırılması zamanı baş verən problemlərdən, həmin problemlərin həll olma imkanlarından söhbət açılıb.

Pedaqoji fikirlərin əsasını qoymuş klassik pedaqoq kimi tanınan G.Y. Rutso, A.İ. Suxomlinski, İ.A. Pestalotsi, K.D. Uşinski, G.A. Komenski və başqaları ekoloji bilik və bacarıqların vacibliyi barədə öz fikirlərini söyləmişdilər. Azərbaycan pedaqoqlarından bəziləri – R.B. Əfəndiyev, A.A. Bakıxanov, F.B. Köçərli də klassik pedaqoqların bu fikirlərini təsdiqləyən fikirlər bildirmişdir.

Təlim prosesində müvafiq əks əlaqənin təmin edilməsi üçün şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin olması çox mühümdür. Bu sistemə aşağıdakılar daxildir:

- qiymətləndirmə üsulları (onların çeviklik, uyğunluq, fərqləndirilmə dərəcəsi və s. )
- qiymətləndirmənin ümumi meyarlarının məzmunu.

Ənənəvi təlimdə şagird nailiyyətlərinin qiymətləndirilməsi üçün istifadə olunan əsas formalar yoxlama yazı işləri ( və ya testlər) və şifahi cavablardır. İki qiymət növü mövcuddur: cari və yekun qiymət. Cari qiymət ayrı-ayrı mövzu və bölmələrin şagird tərəfindən mənimsənilməsini yoxlayır, yekun qiymət isə tədrisin nəticələrini ümumiləşdirir.

Nəticəyönlü təlimdə isə vəziyyət başqa cürdür. Belə ki, burada şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdlərin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir və aşağıdakı məqsədlərə xidmət edir:

- şagirdin irəliləyişlərinin (geriləmələrinin) izlənilməsi (monitorinqi);
- təlim prosesində qərarların qəbulu;
- şagirdin təlim nəticələrinin qiymətləndirilməsi. (2,101)

Qiymətləndirmə və təlim prosesləri təhsilin qarşılıqlı əlaqədə olan iki tərəfi kimi götürülməlidir. Sistemli proses olan qiymətləndirmə-təlim nəticələri ilə maraqlı tərəflər arasında səmərəli əks-əlaqə vasitəsi kimi aşağıdakı komponentləri əhatə etməklə qurulur.

1) Qiymətləndirmə məlumatları. Bunlara şagirdlərin nailiyyətlərini və təlimə münasibətlərini, müəllimin hazırlıq səviyyəsini, fənn kurikulumlarının səciyyəvi cəhətlərini, təlim resurslarının bölgüsünü əks etdirən məlumatlar və fəaliyyətlərin icra mexanizmləri daxildir.

2) Məlumatların toplanması. Bu proses test yoxlamalarının keçirilməsi, şagird tapşırıqlarının yoxlanılması, sinifdə müsahibələrin aparılması, layihələrin yerinə yetirilməsi, şagirdlərin və müəllimlərin fəaliyyətlərinin müşahidəsi, qiymət cədvəlləri və digər məktəb sənədlərinin təhlili kimi üsullarla həyata keçirilir.

3) Qiymətləndirmə nəticələri. Həmin nəticələrdən tədris prosesinin planlaşdırılması və istiqamətləndirilməsi, qiymət ballarının hesablanması, müqayisələrin aparılması, təhsil sənədlərinin və lisenziyaların verilməsi, təhsilin bir pillə-

sindən digərinə keçilməsi, pedaqoji nəzəriyyələrin formalaşdırılması, təhsil siyasətinin qurulması və onun təsirliliyinin monitorinqinin aparılması, təlim resurslarının bölgüsü, təhsilin keyfiyyətinin dəyərləndirilməsində istifadə olunur, eyni zamanda geniş ictimaiyyəti məlumatlandırmaq məqsədi daşıyır.

4) Qiymətləndirmə standartları. Bu standartlar təhsilin keyfiyyətini qiymətləndirmək üçün əsas meyarları təyin edir, şagird nailiyyətlərinin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi üçün istifadə olunan qiymətləndirmə üsulları və vasitələrinin keyfiyyətini təsvir edir, qiymətləndirmə prosesinin qanuniliyinə zəmanət verir.

Bütün növ qiymətləndirmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunur:

- məqsədəuyğunluq;
- nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi;
- toplanmış məmulatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin olunması;
- qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;
- təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması. (4)

Müasir təlimdə əsas qiymətləndirmə növləri:

Məzmun standartlarının mənimsənilməsi istiqamətində, əsasən, aşağıdakı qiymətləndirmə növlərindən istifadə olunur və onların hər biri aşağıda qeyd edilən müvafiq məsələlərə aydınlıq gətirmək məqsədi daşıyır:

1) İlkin səviyyənin qiymətləndirilməsi (diaqnostik qiymtələndirmə). Şagirdlər əsas bilik və bacarıqlara müəyyən dərəcədə malikdirlərmi? Onlar tədris olunmuş materialın hansı hissələrini bilirlər və ya bilmirlər?

2) İrəliləyişlərin monitorinqi (formativ qiymətləndirmə). Standartların mənimsənilməsinə doğru şagirdlər hansı səviyyədə irəliləyə bilmişlər?

3) Yekun (summativ qiymətləndirmə). Şagirdlər verilmiş standartlar və standartlar qrupunda müəyyən edilmiş məqsədlərə çatmışlarmı?

Qiymətləndirmənin bu növləri hər bir fənnin məzmun standartlarında göstərilən əsas bilik və bacarıqların əldə olunmasına yönəlmiş fəaliyyət istiqamətləri ilə təmin edir.

1. İlkin səviyyənin qiymətləndirilməsi (diaqnostik qiymətləndirmə).

2. Şagirdlərin artıq nələri bildiyini müəyyən edir və təlim prosesinin düzgün qurulmasında müəllimə köməklik göstərir. Təlim prosesində düzgün istiqamətləndirilmiş şagird öyrənilmiş materialın təkrarına vaxt itirmir, həmçinin onun üçün başa düşülməyən və ya tanış olmayan material qalmır.(3)

İlkin səviyyə qiymətləndirilməsinin sualları bir biri ilə elə əlaqələndirilib tənzimlənməlidir ki, onların bəziləri şagirdin hansı biliklərə malik olduğunu, digərləri isə yeni materialı mənimsədiyi güman olunan şagirdləri müəyyən etsin. Əgər ilkin səviyyə qiymətləndirilməsi şagirdlərin sinifdəki fəaliyyətini müqayisə etmək və ya sonrakı inkişafının qiymətləndirilməsi üçün məlumat bazasını yaratmaq məqsədilə istifadə olunursa, onda bu suallar əsas psixometrik tələblərə cavab verməlidir.

2) Şagird irəliləyişlərinin monitorinqi (formativ qiymətləndirmə) vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsi həyata keçirilir, alternativ üsul və mənbələrdən istifadə və ya şagirdin daha irəliyə addım atması üçün ona əlavə impulsun verilməsi barədə ehtiyaclar müəyyənləşdirilir.

Qəbul edilmiş standartların reallaşmasına istiqamətlənən irəliləyişlərin monitorinqi (formativ qiymətləndirmə) sinifdə hər bir şagirdin inkişafının hərəkətverici amilinə, təlimin həlledici komponentinə çevrilir. Müəllim yalnız belə monitorinq vasitəsilə təlim prosesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zamanda uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək onlara əlavə köməklik göstərir. Bu mənada şagirdlərin faktik fəaliyyətlərinin nəticələri müəllim üçün real indikatorlara çevrilir.

Monitorinqlər müəyyən anlayışların mənimsənildiyini müşahidə etmək və ev tapşırıqlarını nəzərdən keçirməklə, yaxud daha formal qiymətləndirmə tipindən istifadə etməklə aparıla bilər. Monitorinqlərin hansı formada aparılmasından asılı olmayaraq onlar müntəzəm xarakter daşımalıdır. Bundan əlavə, hər altı həftədən gec olmayaraq, şagirdlərin standartlar üzrə nailiyyətlərinin daha ümumi monitorinqi təşkil edilməlidir.

Növbəti mərhələdə monitorinq şagirdlərin əldə etdiyi nailiyyətlərin mövcud standartlara uyğunluğunu öyrənmək məqsədilə aparılır. Bu prosesdə toplanmış məlumatlar tədris prosesinin tənzimlənməsində mühüm əhəmiyyətə malikdir.

3) Yekun (summativ) qiymətləndirmə təlim materiallarında müəyyən olunmuş məqsədlərə şagirdlərin hansı səviyyədə nail olduqlarını müəyyən edir. Yekun (summativ) qiymətləndirmə aşağıdakı suallara cavab verir:

– Şagird materialı bilir və başa düşürmü?
– Bildiklərini tətbiq edə bilirmi?
– Daha irəliyə getmək üçün lazımi səviyyəyə çatmışdırmı?

Yekun (summativ) qiymətləndirmə materialların mənimsənilməsi istiqamətində şagirdin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə növü mövzunun, bəhs və bölmənin, yaxud da tədris ilinin sonunda eyni qaydada həyata keçirilir. Yekun (summativ) qiymətləndirmənin ən mühüm cəhəti şagirdlərin mənimsədiklərini tətbiqetmə qabiliyyətinə nə dərəcədə malik olduqlarını aşkara çıxarmaqdır.

Şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi prosesinin təkmilləşdirilməsi qiymətin iki əsas funksiyasını nəzərə almalıdır:

– şagirddə öz nailiyyətlərini yüksəltmək həvəsini saxlamaq məqsədilə bu və ya digər bilik sahəsində irəliləyiş dərəcəsi barədə şagirdlərə, onun müəllimlərinə və valideynlərə bildirmək (formativ);
– şagirdlərin tədris proqramında qoyulmuş təlim məqsədlərinə/nəticələrinə nail olması dərəcəsi haqqında məlumat vermək (summativ). (4)

Təəssüf ki, qiymətləndirmənin ənənəvi praktikası ancaq cəmləyici qiymətə əsaslanır. Həm yekun qiyməti, həm də cari qiymət cəmləyici xarakter daşıyır. Bundan başqa qiymətləndirmənin əsas problemlərindən biri yekun qiymətinin cari qiymətdən asılılığıdır. Yekun qiymətinin verilməsi praktikası şagirdin bütün cari qiymətlərinin ortalanmasından ibarətdir. Bu halda cari qiymət özünün biliklərə doğru hərəkətdə yeni məqsəd və vəzifələrin formalaşdırılması funksiyasını itirir, çünki biliklərin əsl səviyyəsini əks etdirmir. Cari qiymət dəyişməz xarakter alır və şagirdlərin nailiyyətlərinin gələcək qeyri-obyektiv mənzərəsini "formalaşdırmağa" başlayır.

Şagirdin uğursuz öyrənilmiş materialı yenidən cavab verməyə ( bununla da əvvəlki cari qiyməti ləğv etməyə) imkanının olmaması aşağıdakılara gətirib çıxarır:

– keçmiş kurs üzrə bilik, bacarıq və dəyərlərin təkmilləşdirilməsinə meylin əvvəlcədən azalmasına;
– dərs materialının uzunmüddətli deyil, operativ yaddaşa arxalanmaq vərdişinə (biliklərin ümumi, tam mənzərəsini yaratmaq yox, ancaq yaxın dərsə hazırlaşmaq vərdişinə) əsaslanan hissə-hissə mənimsənilməsinə;
– nailiyyətləri sabit olmayan şagirdlərə "məhkumluq" hissinin əmələ gəlməsinə, qiymətləndirmənin qeyri-obyektivliyinə və nəticə etibarilə romantik dona salınmış "qəhrəman-ikialan" rolu, dərsə biganəlik, və s. kimi psixoloji mühafizə mexanizmlərinin meydana gəlməsinə.

Bütün bu çatışmazlıqlar cari dərs fəaliyyətinə görə verilən cəmləyici qiymətdən fərqli olaraq dəyişən olub təkrar cavabla düzələ bilən formalaşdırıcı (formativ) qiymət vasitəsilə aradan götürülür.

Summativ qiymətləndirilmənin üsulları daha çevik və diferensiallaşdırılmış olmalıdır. Onlar imkan daxilində qiymətləndirmə təcrübəsində mövcud olan yoxlamalar və ya testlərlə məhdudlaşmamalıdır. Fənnin xüsusiyyətlərindən asılı olaraq yaradıcı, nəzəri və ya praktiki kompleks tapşırıqlar, məsələn, layihələr, referatlar, inşalar, tədqiqatlar və s. istifadə oluna bilər.

Məktəb hər bir uşağa özünü tam mənada şəxsiyyət hiss etmək kimi həyatın ən əsas tələbatını həyata keçirmək üçün yol açmalıdır.

Bütün uşaqların müvəffəqiyyətlə oxuya bilməsi və öz imkanlarını aşkara çıxarması üçün müəllim və tədris prosesinin başqa iştirakçıları tərəfindən nailiyyətlərə həvəsləndirən dayağın olması, onların xeyirxahlığının, uşağın şəxsən maraqlı olmasının əhəmiyyəti az deyildir.

Təlimə müsbət həvəsləndirici təsirin yaradılması təbii idrak tələbatının formalaşması, yarış həvəsinin oyadılması kimi üsullara istinad edilir.

Təəssüf ki, təlim prosesində qiymətin rolu o dərəcədə böyükdür ki, o yeganə təlim motivinə çevrilir. Halbuki qiymət ilk növbədə şagird üçün özünüqiymətləndirmə və özünənəzarət vasitəsi kimi çıxış etməlidir. Özünüqiymətləndirmə vərdişlərini yaratmaq üçün bütün sinif və müəllimin iştirakı ilə qiymətin şagirdin özü tərəfindən qoyulması, eləcə də şagirdlərin bir-birinin işinə qiymət verilməsi üsulunu tətbiq etmək faydalı olar.

Qeyd olunmalıdır ki, interaktivliyə əsaslanan təlim prosesində şagirdlərin özünü və sinfi, hətta bütövlükdə dərsin özünü qiymətləndirməsi imkanları çox genişdir. Yeni təlim metodları ilə

işləyən müəllimlər bu qiymətləndirmə üsulundan müntəzəm istifadə edir və çox yaxşı nəticələr əldə edirlər.

Bu üsulun tətbiqi nəticəsində şagirdlərdə:

- müstəqillik və özünəinam bacarıqları formalaşır;
- obyektivlik, özünə və yoldaşlarına qarşı tələbkarlıq vərdişləri inkişaf edir;
- ədalətli, əməksevər və özünəgüvənən iradi keyfiyyətlər yaranır.

Qiymətləndirmənin əsas problemlərindən biri obyektiv qiymətin təmin edilə bilməsinin çətinliyidir: şagird qiymətin obyektivliyinə əmin olmalıdır və qiymətin tədris prosesinin real tənzimləyicisi ola bilməsi üçün onun nəyə görə verildiyini dəqiq təsəvvür etməlidir.

Obyektiv qiymət verilməsinə mane olan amillər aşağıdakılardır:

kəmiyyət xarakterli qiymətlərin verilməsi üçün dəqiq olmayan (şərti) normativlərin mövcudluğu;

Şagirdə daha obyektiv əks əlaqə həyata keçirməyə imkan verən qiymətləndirmənin kəmiyyət meyarlarının diferensiallaşdırılmış və daha dəqiq sisteminin işlənib hazırlanmaması.

Formalaşdırıcı (formativ) qiymətin alınmasına yönəlmiş işlər:

- yazılı və şifahi sorğu;
- referatlar;
- yaradıcı işlər şəklində ola bilər. (1)

Formalaşdırıcı (formativ) qiymətin tətbiq olunması üsullarından biri müasir pedaqogikada mövcud olan fərdi tədrisin dinamikasını əks etdirən və aşağıdakı xüsusiyyətləri əhatə edən metoddur:

Hər bir şagirdin müəyyən fənn üzrə tədris proqramına əsasın müəllim tərəfindən nəzərdə tutulmuş uzun dövr üçün (rüb, semestr) kompleks tapşırığı vardır;

Bu tapşırıqların yerinə yetirilməsi vaxtı dəqiq müəyyən edilməmişdir: şagird onları cari materialın öyrənilməsi gedişində ondan tez və ya sonra da yerinə yetirə bilər. Əgər şagird hər hansı bir səbəbdən ev tapşırığını vaxtında yerinə yetirməyibsə, o bu tapşırığı sonra yerinə yetirə bilər və ya heç yerinə yetirməyə bilər. Bu azad seçiminə görə məsuliyyəti o özü daşıyır və bununla nailiyyətlərinin istədiyi səviyyəsini müəyyən edir;

Tapşırıqların yerinə yetirilməsinin fərdi dinamikası haqqında məlumat sinifdə lövhədən asılır və müəllim orada kimin nə qədər tapşırıq yerinə yetirdiyinin qeyd edir. Qiymətləndirmənin meyarını (neçə tapşırığa görə hansı qiymət verildiyini) bilərək nəzərdə tutulmuş dövrün sonunda hər bir şagird özünün qiymətini əvvəlcədən bilir;

Hər bir şagirdin nailiyyətlərinin aşkar olması və bu səbəbdən şagirdin sinifdə yüksək qiymət almağa təbii olaraq can atması (sinifdaxili yarış) tədris proqramının yerinə yetirilməsi üçün psixoloji stimuldur. Beləliklə seçim azadlığına və real meyarlara əsaslanan qiymət özünün formalaşdırıcı funksiyasını yerinə yetirir.

**Problemin aktuallığı.** Təlim prosesində təhsilalanların şəxsi keyfiyyətlərinin qiymətləndirilməsi aktuallaşdırılır.

**Problemin elmi yeniliyi.** Şəxsi keyfiyyətlərin qiymətləndirilməsi təlim prosesinin yekunları haqqında tam təsəvvür yaratmağa imkan verir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi prosesinə aid məsələlərindən ən başlıcasını onun şəxsi keyfiyyətlərinin diaqnostik yolları və metodlarının işlənib hazırlanması təşkil edir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə təhsilverənlərin təlim prosesində təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsində faydalı olacaqdır.

## Ədəbiyyat:

1. Adıgözəlov, A.S. Orta məktəbdə riyaziyyatın tədrisi metodikası. Dərs vəsaiti. / A.S. Adıgözəlov. - Bakı: ADPU, -2015. -230 s.
2. İbrahimov F.A. Ümumtəhsil məktəblərində riyaziyyatın tədrisi metodikası. –Bakı: Mütərcim, – 2014. – 201 s.
3. Paşayev, Ə.X. Pedaqogika. Yeni kurs. / Ə.X. Paşayev, F.A. Rüstəmov – Bakı: Çaşıoğlu, – 2002. – 512 s.
4. Колягин Ю.М. Методика преподавания математики в средней школе. – М.: Просвещение, – 1977. – 480 с.
5. Əliyev, R.İ. Psixologiya. / R.İ. Əliyev. – Bakı: ADPU, – 2008. – 120 s.

**Rəyçilər:** *ped.ü.fəls.dok.* **H.V. İlyasov,**
*ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**
**Redaksiyaya daxil olub:** 17.11.2023

***MAGİSTRATURA TƏHSİLİ***
***МАГИСТЕРСКОЕ ОБРАЗОВАНИЕ***
***MASTER'S EDUCATION***

*UOT 37.01.*

***Günay Sədrəddin qızı Məmmədova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Gəncə Dövlət Universiteti*
*https://orcid.org/0009-0009-5111-7931*

# MAGİSTRANTLARIN MÜSTƏQİL İŞİNİN TƏŞKİLİNDƏ İKT-dən İSTİFADƏ

***Гюнай Садреддин гызы Мамедова***
*докторант по программе доктора философии*
*Гянджинский государственный университет*

# ИСПОЛЬЗОВАНИЕ ИКТ В ОРГАНИЗАЦИИ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ МАГИСТРАНТОВ

**Gunay Sadreddin Mamedova**
*doctorial student in the program of doctor of philosophy*
*Ganja State University*

# USE OF IKT IN ORGANIZING INDEPENDENT WORK OF MASTER’S STUDENTS

**Xülasə.** Magistrlərin müstəqil işinin (MMİ) təşkilində məqsəd onlarda müstəqil tədqiqat və araşdırma bacarığının formalaşdırmaqdır. MMİ zamanı onlara İKT-dən istifadə imkanları və bacarıqları yaratmaq təhsilin mühüm şərtlərindəndir. Bunun üçün universitetlər müəyyən hazırlıq işləri aparılmalı, proqram-texniki və metodiki təminat məsələlərini həll edilməlidir, tədris aparan müəllimlər və magistrantlar bu imkanlarla tanış edilməlidir. İlkin hazırlıq işləri görüldükdən sonra magistrlərin müstəqil işlərinin təşkilində İKT-dən istifadə səmərəli ola bilər. MMİ-nin təşkilində “Elektron təhsil platformaları”ndan istifadə, o cümləfdən virtual kurslar yaratmaq üçün Moodle, Google Classroom və ya Blackboard kimi platformalardan istifadə etmək, magistrin istənilən vaxt sistemə daxil olub öyrənməsi üçün onlayn mühazirələr, təqdimatlar, məqalələr və digər materialların vaxtında ATM tərəfindən yerləşdirilməsi zəruridir. Bu məsələlər beynəlxalq təcrübədə özünü müsbət tərəfdən göstərmişdir.

***Açar sözlər:*** *universitet, magistr, müstəqil iş, İKT, platforma, Moodle*

**Резюме.** Целью организации самостоятельной работы магистров (СРМ) является формирование у них умений и навыков самостоятельно вести исследования по специальности. Одним из важных условий эффективной организации СРМ является использования ИКТ. Для этого вузы должны провести определенную подготовительную работу, решить программно-технические и методические вопросы, обучить преподавателей и магистров этим навыкам и умением. После проведения первоначальной подготовительной работы использование ИКТ при организации СРМ может быть эффективным. Использование «Электронных образовательных платформ» при организации СРМ, в том числе применение виртуальных курсов, использование таких платформ, как Moodle, Google Classroom или Blackboard для предоставления контента, онлайн-лекций, презентаций. Эти вопросы эффективно решены в международном опыте.

***Ключевые слова:*** *университет, магистр, самостоятельная работа, ИКТ, платформа, Moodle*

**Summary:** The goal of the organization of independent work of masters (CPM) is the formation of their skills and abilities to conduct independent research in their specialty. One of the important conditions of

the effective organization of SRM is the use of ICT. For this, universities must conduct certain preparatory work, solve software-technical and methodological issues, train teachers and masters with these skills and abilities. After the initial preparatory work, the use of ICT in the organization of SRM can be effective. The use of “Electronic educational platforms” in the organization of SRM, including the use of virtual courses, the use of such platforms as Moodle, Google Classroom or Blackboard for the provision of content, online lectures, presentations. These issues have been effectively resolved in international experience.

***Keywords:*** *university, master, independent work, ICT, platform, Moodle*

## 1. Müstəqil iş tədris prosesinin ən mühüm forması kimi

Müstəqil iş – magistrlərin auditoriyadan kənar (auditoriya) vaxtda müəllimin tapşırığı ilə və metodiki rəhbərliyi altında, lakin onun birbaşa iştirakı olmadan yerinə yetirilən planlı tədris, tədris-tədqiqat, elmi-tədqiqat işidir.

Ali təhsil müəssisəsində (ATM) tələbələrin müstəqil işi magistrin tədris və elmi fəaliyyətinin mühüm növüdür. Təhsil alanların müstəqil işinin təşkili təhsil modelinin səriştəli həyata keçirilməsində ən vacib məsələlərdən biridir. Bu, təkcə tədris fənlərinin mənimsənilməsi zamanı müstəqil işin payının artırılması ilə deyil, həm də təhsilin şəxsiyyətin həyat strategiyası kimi qavranılması ilə bağlıdır. Fasiləsiz təhsilə motivasiya, ümummədəni və peşəkar səriştələr əmək fəaliyyətinə uğurla daxil olmaq və öz həyati planlarını həyata keçirmək üçün şəxsiyyətin zəruri resursuna çevrilir. Magistraturada tədrisin əsas vəzifəsi özünüinkişafa, özünütəhsilə, innovativ fəaliyyətə qadir magistrantın yaradıcı şəxsiyyətinin formalaşdırılmasından ibarətdir.

Magistrlərin müstəqil işinin rolunun gücləndirilməsi ATM-də təlim-tərbiyə prosesinin təşkilinin əsaslı surətdə yenidən baxılması deməkdir. Təlim-tərbiyə prosesi elə qurulmalıdır ki, öyrənmək, müasir dünyada peşə fəaliyyətinə uyğunlaşma üsullarını mənimsəmək bacarığını inkişaf etdirə bilsin. Bu, biliklərə aktiv surətdə yiyələnmə metodlarına, yaradıcı qabiliyyətlərin inkişafına, şəxsiyyətin tələbatları və imkanları nəzərə alınmaqla “konveyer” üsulundan fərdi təlimə keçidə istiqamətlənməni nəzərdə tutur. Magistraturada təhsil magistrantların təhsil prosesində geniş iştirakını, onların akademik azadlıqlarının reallaşdırılması imkanını, kollektiv tədris formasından fərdi tədris formasına keçidi, nəticələrə görə məsuliyyətin artırılmasını nəzərdə tutur. [1].

Cəmiyyət müasir mütəxəssisə qarşı kifayət qədər geniş tələblər irəli sürür. Bunların arasında məzunlarda müxtəlif mənbələrdən müstəqil surətdə bilik əldə etmək, əldə etdiyi məlumatı sistemləşdirmək, konkret maliyyə vəziyyətini qiymətləndirmək qabiliyyəti və bacarıqları mühüm əhəmiyyət kəsb edir. Belə bacarığın formalaşması bütün tədris dövründə magistrlərin praktiki dərslərdə iştirakı, yoxlama tapşırıqları və testlərin yerinə yetirilməsi, kurs və buraxılış ixtisas işlərinin yazılması vasitəsilə baş verir. Eyni zamanda magistrlərin müstəqil işi bütün tədris prosesində həlledici rol oynayır.

Magistrlərin müstəqil işinin formaları müxtəlifdir. Bunlara aşağıdakılar daxildir:

- tədris, elmi və metodiki ədəbiyyatın, rəsmi, statistik, dövri və elmi məlumatın elektron vasitələrindən istifadə etməklə dövri nəşrlərin materiallarının öyrənilməsi;
- məruzələrin və referatların hazırlanması, buraxılış ixtisas işlərinin yazılması;
- konfransların, kompleks elmi tədqiqatların işində iştirak.

Müstəqil iş magistrləri elmi yaradıcılığa, aktual müasir problemlərin axtarışına və həllinə cəlb edir.

## 2. Magistrantların müstəqil işinin (MMİ) məqsədi və əsas vəzifələri

MMİ-nin təşkili və həyata keçirilməsində əsas məqsəd magistrin təhsilinin – magistrin hazırlığının məqsədi ilə üst-üstə düşməsidir. MMİ-nin təşkili zamanı vacib və zəruri şərt fəaliyyət üçün müstəqil işləmək bacarığının formalaşdırılmasıdır.

Magistrlərin müstəqil işinin məqsədi fundamental biliklərə, peşə səriştələrinə, profil üzrə fəaliyyət bacarıqları və vərdişlərinə, yaradıcılıq, tədqiqat fəaliyyəti təcrübəsinə yiyələnməsidir. Magistrantların müstəqil işi müstəqilliyin, məsuliyyətin və intizamlığın, tədris və peşəkar səviyyəli problemlərin həllinə yaradıcı yanaşmanın inkişafına kömək edir.

MMİ-nin vəzifələri aşağıdakılardır:

- magistrlərin əldə olunan nəzərə bilik və praktiki bacarıqlarının sistemləşdirilməsi;

- nəzəri biliklərin dərinləşdirilməsi və genişləndirilməsi;
- normativ, hüquqi, sorğu-məlumat sənədləri və xüsusi ədəbiyyatından istifadə bacarıqlarının formalaşdırılması;
- tələbələrin idraki bacarıq və fəallıqlarınınyaradıcı təşəbbüsünün, müstəqilliyinin, məsuliyyətinin və intizamlılığının inkişaf etdirilməsi;
- müstəqil təfəkkürün, özünüinkişaf, özünütəkmilləşdirmə və özünüreallaşdırma qabiliyyətinin formalaşdırılması;
- tədqiqatçı bacarıqlarının inkişaf etdirilməsi;
- yekun məqbul və imtahanlara səmərəli hazırlıq üçün seminarlarda, praktiki və laboratoriya dərslərində, kurs işlərinin və buraxılış ixtisas işlərinin yazılması zamanı toplanmış və əldə olunmuş materialdan istifadə.

Müstəqil işin uğurluluğu bir sıra şərtlərlə müəyyən olunur. Onlara aşağıdakıları aid etmək olar:

- məqsədyönlü planlaşdırma və səmərəli təşkiletmə;
- magistrlərin tapşırıqları yerinə yetirməyə motivasiyası;
- səmərəli məsləhət dəstəyi;
- müstəqil işin növləri və formalarının müxtəlifliyi;
- müstəqil işin yaradıcılıq prosesinə çevrilməsi məqsədilə magistrantların lazımi metodiki və informasiya resursları ilə təmin edilməsi.

## 3. Magistrlərin müstəqil işin növləri

ATM-nin təhsil prosesində iki növ müstəqil iş fərqləndirilir: müəllimin rəhbərliyi ilə auditoriya işi və auditoriyadan kənar iş. Bu iş növlərinin sıx qarşılıqlı əlaqəsi onun yerinə yetirilməsi nəticələrinin fərqləndirilməsini və səmərəliliyini nəzərdə tutur, bu isə tədris prosesinin təşkilindən, məzmunundan, məntiqindən (fənlərarası əlaqələrdən, perspektiv biliklərdən və s.) asılıdır.

Fənn üzrə auditoriya müstəqil işi tədris dərslərində müəllimin bilavasitə rəhbərliyi altında və onun tapşırığı əsasında yerinə yetirilir. [2].

Auditoriyadan kənar müstəqil iş magistr tərəfindən müəllimin tapşırığı ilə, lakin onun bilavasitə iştirakı olmadan yerinə yetirilir.

Magistrlərin müstəqil işinin (müəllimin iştirakı olmadan) əsas növləri aşağıdakılardır:

- İnformasiya təhsil resursları (elektron dərsliklər, elektron kitabxanalar və s.) daxil olmaqla mühazirəçinin tövsiyə etdiyi tədris ədəbiyyatı bazasında mühazirələrin konspektinin (məzmununun) formalaşdırılması və mənimsənilməsi;
- referatların yazılması;
- seminarlara və laboratoriya işlərinə hazırlıq, onların tərtib edilməsi;
- bilik sahələri (pedaqoji, psixoloji, metodiki və s.) üzrə müvafiq jurnallardan izahlı məqalələr siyahısının tərtib edilməsi;
- məqaləyə, vəsaitə rəylərin hazırlanması;
- mikrotədqiqatların yerinə yetirilməsi;
- praktiki layihələrin hazırlanması;
- ayrı-ayrı məsələlərin həlli, nümunə hesablamaların, fənlərin məzmununun ayrı-ayrı bölmələri üzrə hesablama-kompüter və fərdi işlərin aparılması və s.;
- elektron tədris və attestasiya testləri bazasında kompüterlə cari özünüyoxlama və müvəffəqiyyət dərəcəsinin yoxlanılması.

Magistrlərin müəllimlərin iştirakı ilə müstəqil işinin əsas növlərinə aşağıdakılar aid edilir:

- cari məsləhətləşmələr;
- kollokvium (fənlərin məzmunca mənimsənilməsinin yoxlanılma forması kimi, tədris planında nəzərdə tutulan məsləhət saatlarında);
- ev tapşırıqlarının qəbulu və yoxlanılması (praktiki dərslər samanı);
- laboratoriya işlərinin qəbulu və müdafiəsi (laboratoriya işlərinin keçirilməsi zamanı);
- fənlər çərçivəsində layihələrin yerinə yetirilməsi (rəhbərlik, məsləhət və müdafiə, tədris planı ilə nəzərdə tutulan saatlarda);
- tədris-tədqiqat işinin yerinə yetirilməsi (rəhbərlik, konsultasiya və müdafiə);
- təcrübələrin keçirilməsi və nəticələrin tərtibi (rəhbərlik, peşə bacarıq və vərdişlərin formalaş səviyyəsinin qiymətləndirilməsi);
- Buraxılış ixtisas işinin yerinə yetirilməsi (rəhbərlik, məsləhət, buraxılış ixtisas işlərinin müdafiəsi) və s.

## 4. Magistrlərin müstəqil işin təşkili

Magistrlərin müstəqil işinin təşkili metodikası öyrənilən fənnin strukturu, xarakteri və xüsusiyyətlərindən, onun öyrənilməsinə sərf

olunan saatların həcmindən, magistrlərin müstəqil işi üçün tapşırıqların növündən, magistrlərin fərdi keyfiyyətlərindən və tədris fəaliyyətinin şəraitindən asılıdır. [2].

Magistrlərin müstəqil işinin təşkili prosesinə aşağıdakı mərhələlər daxildir:

- hazırlıq mərhələsi (məqsədlərin müəyyən edilməsi, proqramın tərtib edilməsi, metodiki təminatın hazırlanması, avadanlığın hazırlanması);
- əsas mərhələ (proqramın həyata keçirilməsi, informasiya axtarışı, biliklərin mənimsənilməsi, emalı, tətbiqi, ötürülməsi üsullarından istifadə, nəticələrin qeydə alınması, iş prosesinin özünütəşkili);
- yekun mərhələ (nəticələrin əhəmiyyətinin qiymətləndirilməsi və təhlili, onların sistemləşdirilməsi, proqramın və iş üsulları səmərəliyinin qiymətləndirilməsi, əməyin optimallaşdırılması istiqamətləri haqqında nəticələr).

Magistrlərin müstəqil işinin təşkilini aşağıdakılar təmin edir: fakültə, kafedra, tədris-metodiki şöbələr, müəllim, kitabxana, texniki tədris vasitələri, İKT, nəşriyyat və s.

Müstəqil iş prosesində magistr özünütəşkil, özünüyoxlama, özünüidarəetmə, özünürefleksiya vərdişləri qazanır və tədris fəaliyyətinin aktiv müstəqil subyektinə çevrilir. [2].

Müəllimin nəzarəti altında müstəqil işi yerinə yetirərkən magistr aşağıdakıları etməlidir:

□ magistrlərin müstəqil işinə daxil edilən və müəllim tərəfindən həmin fənn üzrə Ali peşə təhsili üzrə təhsil standartlarına uyğun olaraq təklif edilən minimum məzmunu öyrənməli;

□ müstəqil işi müəllim tərəfindən təklif olunan qrafikə uyğun planlaşdırmalı;

□ magistr müstəqil işi tədris planı və müəllimin iş proqramı ilə nəzərdə tutulan təşkilati formalarda yerinə yetirməli;

□ müstəqil işi yerinə yetirməli və onun nəticələrinin təqdim edilməsi qrafikinə, magistrlərin müstəqil işi üzrə hesabat növlərinə və müddətlərinə uyğun hesabat verməlidir.

Magistr müəllim tərəfindən həmin fənn üzrə dövlət təhsil standartlarına uyğun olaraq təklif edilən minimum məzmundan əlavə aşağıdakıları edə bilər:

□ materialın məzmununun işlənmə səviyyəsini (dərinliyini) müstəqil surətdə müəyyən etmək;

□ müstəqil işləmək üçün əlavə mövzu və suallar təklif etmək;

□ müstəqil işin yerinə yetirilməsi qrafiki çərçivəsində MMİ və onun yekunları üzrə hesabatın əsaslandırılmış fərdi qrafikini təklif etmək;

□ müstəqil işin təşkili formalarına dair öz variantlarını təklif etmək;

□ müstəqil iş üçün müəllimin təklif etdiyi siyahıdan əlavə metodiki vəsaitlərdən, tədris vəsaitlərindən, layihələrdən istifadə etmək;

□ müəllim tərəfindən təklif olunan və ya müstəqil şəkildə müəyyən olunan özünüyoxlama metodlarına uyğun olaraq müstəqil işin nəticələrinin yoxlanılması və özünüyoxlamadan istifadə etmək.

Magistrlərin müstəqil işi gələcək mütəxəssisin şəxsiyyətinin formalaşmasına mühüm təsir göstərməlidir. Bu magistr tərəfindən müstəqil surətdə planlaşdırılır. Hər bir magistr öz iş rejimini və hər bir fənn üzrə dərsin məzmununun mənimsənilməsinə sərf olunan əməyin miqdarını (həcmini) müstəqil surətdə müəyyən edir. Auditoriyadankənar işi fərdi planı üzrə, öz hazırlığından, vaxtından və digər şərtlərdən asılı olaraq yerinə yetirir.

## 5. İKT-dən istifadə etməklə magistrlərin müstəqil işinin təşkili

Magistrlərin İKT-dən istifadə etməklə müstəqil işlərinin təşkili müasir təhsilin mühüm istiqamətlərindəndir. Bunun üçün ATM və ya ölkə səviyyəsində mərkəzləşdirilmiş formatda (ETN) müəyyən hazırlıq işləri aparılmalı, proqram-texniki və metodiki təminat məsələləri həll edilməlidir. Daha sonra magistratura təhsil pilləsində tədris aparan müəllimlər və magistrantlar bu imkanlarla tanış edilməlidir. Yalnız belə ilkin hazırlıq işləri görüldükdən sonra magistrlərin müstəqil işlərinin təşkilində İKT-dən istifadə səmərəli ola bilər. Bu məsələlər beynəlxalq təcrübədə özünü müsbət tərəfdən göstərmişdir. Əgər belə hazırlıq işləri olmadan magistrlərin müstəqil işlərinin təşkilində İKT-dən istifadə nəzərdə tutulursa, onda kafedra daxili imkanları hesabına sadə texnologiyalar hazırlayaraq müəyyən addımlar ata bilər. [3].

Magistrlərin müstəqil işlərinin təşkilində İKT-dən istifadəyə dair bəzi strategiya və yanaşmalara diqqət edək:

1. Elektron təhsil platformalarından istifadə:

- Virtual kurslar yaratmaq, materiallar və tapşırıqları təmin etmək üçün Moodle, Google Classroom və ya Blackboard kimi platformalardan istifadə etmək.
- Magistrin istənilən vaxt sistemə daxil olub öyrənməsi üçün onlayn mühazirələr, təqdimatlar, məqalələr və digər materialların vaxtında ATM tərəfindən yerləşdirilməsi zəruridir.

2. Vebinarlar və onlayn mühazirələr:

- İnteraktiv öyrənmə üçün videokonfrans platformalarından (məsələn, Zoom, Microsoft Teams) istifadə edərək vebinarlar təşkil etmək mümkündür.
- Mürəkkəb mövzuları ətraflı izah etmək üçün onlayn mühazirələrin keçirilməsi.

3. Qrup layihələri:

- Google Sənədlər, Trello və ya Slack kimi layihələrdə əməkdaşlıq üçün müasir alətlərdən istifadə.
- Problemləri həll etmək və bilikləri bölüşmək üçün virtual komandaların təşkili.

4. Elektron tədris materialları:

- Materiallara çıxışı asanlaşdırmaq və onların mənimsənilməsi üçün elektron kitabların, tədris videolarının, interaktiv fəaliyyətlərin hazırlanması.

5. Qiymətləndirmə və əlaqə sistemləri:

- Mətnlərin və ya onlayn sınaq platformalarının orijinallığını yoxlamaq üçün Turnitin (antiplagiat proqramı kimi bir sistemdir) kimi rəy və qiymətləndirmənin təmin edilməsi üçün elektron sistemlərdən istifadə.

6. Mobil Proqramlar:

- Magistrlərə istənilən yerdə və istənilən vaxt məzmunu öyrənməyə imkan verən mobil öyrənmə proqramlarının hazırlanması və ya istifadəsi.

7. Forumlar və Sosial Şəbəkələr:

- Problemləri müzakirə etmək və ideyaları bölüşmək üçün Reddit və ya sosial media kimi platformalarda virtual öyrənmə icmalarının olması.

8. Fərdi təlim:

- magistr və tələbələrin fərdi ehtiyaclarına uyğunlaşa bilən, onlara fərdiləşdirilmiş öyrənmə təcrübəsini təmin edən adaptiv texnologiyalardan istifadə.

Bu metodlardan müxtəlif kombinasiyalarda istifadə təhsil prosesini daha çevik, interaktiv edir, müxtəlif resursları magistrlər üçün əlçatan edir, onların müstəqil öyrənmələrini asanlaşdırır. [4], [5], [6].

Magistrlərin İKT-dən istifadə edərək müstəqil işlərinin təşkili onların təlimində mühüm rol oynayır, onların əsas bacarıqlarını inkişaf etdirməyə və öz fənn sahələrini daha dərindən öyrənməyə imkan verir. İKT-dən istifadə edərək magistrlərin müstəqil işinin təşkili üçün müxtəlif üsul və vasitələr var:

**1. Elektron resurslar:**

- Elektron kitabxanalar və məlumat bazaları: Magistrlər öz tədqiqat mövzuları üzrə aktual məlumatları tapmaq üçün müxtəlif elektron resurslardan istifadə edə bilərlər.
- Elmi jurnallar və məqalələr: sahə üzrə bilikləri yeniləmək və ədəbiyyatın tənqidi rəylərini hazırlamaq üçün akademik resurslardan istifadəni dəstəkləmək.

2. Onlayn kurslar və vebinarlar:

- Elektron təhsil platformaları: Coursera, edX, Udacity kimi platformalardan istifadə edərək magistrlərə əlavə sahələrdə biliklərini genişləndirmək imkanı yaranır.
- Vebinarlar və Canlı Mühazirələr: Aktual məsələləri müzakirə etmək üçün ekspertlər və pedaqoqlarla onlayn tədbirlər təşkil edilə bilər.

3. Komanda işi:

- Əməkdaşlıq platformaları vasitəsilə layihələri qruplaşdırın: Google Sənədlər, Microsoft Komandaları, Slack-dən istifadə v. s. Layihələr üzərində birgə iş və fikir mübadiləsi aparmaq.
- Forumlar və Müzakirələr: Təcrübələri bölüşmək və trend mövzuları müzakirə etmək üçün virtual müzakirələr yaratmaq olar.

4. Tətbiq və proqramlardan istifadə:

- Tədqiqat Vasitələri: Magistrlərə və tələbələrə məlumatların təhlili, statistika və bu məlumatların vizuallaşdırılması üçün proqramlardan istifadə etməyi öyrətmək.
- Proqramlaşdırma və İnkişaf: Öz sahəsində problemləri həll etmək üçün proqramlaşdırma və inkişaf alətlərindən istifadə etməyi öyrət.

5. Onlayn sınaq və qiymətləndirmə sistemləri:

- Test Platformaları: Tələbələrin biliyini yoxlamaq və rəy bildirmək üçün onlayn test sistemlərindən istifadə edin.
- Elektron portfoliolar: Magistrlərin öz nailiyyətlərini və layihələrini nümayiş etdirə biləcəkləri e-portfellərin yaradılmasını dəstəkləyin.

6. Monitorinq və əks əlaqə:

- Onlayn məsləhətləşmələr: Müəllimlər və mentorlarla onlayn məsləhətləşmələr üçün imkanlar təmin edin.
- Əlaqə Sistemləri: Tapşırıqlar və layihələr haqqında rəy bildirmək üçün elektron sistemlərdən istifadə edin.

Bu elementlərin inteqrasiyası magistrlərin texnoloji mənada zəngin tədris prosesində fəal iştirakını və inkişafını təmin etməklə yanaşı, onların müstəqil işi üçün əlverişli mühit yarada bilər. [7]. [8].

**Problemin aktuallığı.** Magistr təhsil pilləsi təhsilimiz üçün nisbətən yeni sahədir. Təhsilin bu pilləsi elmi tədqiqat mövzusu olaraq da çox az tədqiq edilmişdir. Magistrlərin müstəqil işinin düzgün təşkili onların tədqiqatçı kimi formalaşmasında çox mühüm amildir. Məqalə magistrlərin müstəqil işlərinin təşkilinə, bu prosesdə İKT-nin tətbiq imkanlarına həsr edilmişdir. Bu mövzuda ölkəmizdə aparılan ilk tədqiqatdır.

**Problemin yeniliyi**. Məqalə təhsilin rəqəmsallaşması dövründə magistrlərin müstəqil işinin İKT üzərindən təşkili kimi yeni, az tədqiq edilmiş məsələlərə həsr edilmişdir. Məqalədə müstəqil işin təşkili üçün istifadə edilən İKT alətləri barədə də məlumat verilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə magistratura təhsilinin təşkilatçıları üçün, o cümlədən təhsilin informatlaşması, təhsilin rəqəmsallaşması problemləri ilə məşğul olan tədqiqatçılar və pedaqoqlar üçün maraq kəsb edir.

## Ədəbiyyat:


1. Омелаенко Н.В. Методика и организация самостоятельной работы студентов. https://top-technologies.ru/ru/article/view?id=35669
2. Антипина О.А. Организация самостоятельной работы студентов. https://www.informio.ru /publications/id4676/Organizacija-samostojatelnoi-raboty-studentov
3. Кузьминов Я.И. Ярослав Кузьминов о цифровом будущем университетов. 2015. [Электронный ресурс, 5.03.2018]. URL: http://www.edutainme.ru/post/Kuzminov-interview/
4. Уваров А.Ю. Образование в мире цифровых технологий: на пути к цифровой трансформации – Изд. дом ГУ-ВШЭ, М.: 2018. – 168 с.
5. Высшее образование для XXI века: Цифровая трансформация общества: новые возможности и новые вызовы: XVI Международная научная конференция, МосГУ, 18-19 ноября 2020 г.: доклады и материалы: в 2 ч. Ч. 1. / под общ. ред. И. М. Ильинского. – М. : Изд-во Моск. гуманит. ун-та, 2020. – 685 с. Режим доступа: http://publications.mosgu.ru/index.php/main/catalog/book/23
6. Əhmədov, İ.B. İsmayılova Ç., Muradova G. Ali təhsildə kompüter texnologiyaları // – Bakı: Təhsildə İKT, – 2016. №3, – s. 235-251.
7. Əhmədov, İ.B. İnnovativ Universitetdə Distant Təhsil // – Bakı: Təhsil, – 2012. № 5-6. – s. 42-57.
8. Əhmədov, İ.B. Təhsil innovasiyalarının idarə edilməsi // – Bakı: Təhsildə İKT, – 2013. № 3, – s. 158-171.


**E-mail:** gunay.nur1303@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **İ.B. Əhmədov,**
*fiz.riy.ü.fəls.dok., dos.* **Ə.Ə. Aslanov**
**Redaksiyaya daxil olub:** 15.11.2023

***PSİXOLOGİYA***
***ПСИХОЛОГИЯ***
***PSYCHOLOGY***

*UOT 159.9.*

***Gülnarə Həmzəbəyovna Əlixanova***
*psixologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*https://orcid.org/0000-0002-5241-0250*

## TƏHSİL KONSEPSİYASINDA TƏXƏYYÜL İNKİŞAFI MƏRHƏLƏSİ

***Гюльнара Гамзабековна Алиханова***
*доктор философии по психологии, старший преподаватель*
*Азербайджанского государственного педагогического университета*

## СТАДИЯ РАЗВИТИЯ ВООБРАЖЕНИЯ В КОНЦЕПЦИИ ОБРАЗОВАНИЯ

***Gulnara Kamzabekuly Alikhanova***
*doctor of philosophy in psychology senior lecturer of*
*Azerbaijan State Pedagogical University*

## THE STAGE OF IMAGINATION DEVELOPMENT IN THE CONCEPT OF EDUCATION

**Xülasə.** Təxəyyül ali psixi funksiyalardan biri kimi diqqəti cəlb edir. İnsan təlim və əmək fəaliyyətində təkcə öz yaddaşına əsaslanmır. O, öz fəaliyyətinə yaradıcı şəkildə yanaşır, yaddaşında olan təsəvvürləri dəyişdirir, yeni qaydada birləşdirir, yeni surətlər yaradır və fəaliyyət göstərir. Yeninin yaradılması ilk əvvəl ideal şəkildə, fikirdə həyata keçirilir və sonra maddi, əməli şəkildə reallaşdırılır. İnsanın öz təsəvvürlərinin ideal şəkildə fikirdə birləşdirilməsi, dəyişdirilməsi və bu əsasda yeni surətlərin yaradılması təxəyyül prosesidir.

Təxəyyülün köməyi ilə insan nəyi isə yaradır, özünün fəaliyyətini planlaşdırır və onu idarə edir. Demək olar ki, bəşəriyyətin yaratdığı maddi və mənəvi dəyərlər insan təxəyyülünün məhsuludur. Təxəyyül insanı hal-hazırdakı vəziyyətdən kənara çıxarır, ona keçmişi daha əyani şəkildə görməyə kömək edir, onu gələcəyə aparır. İnsan öz təxəyyül fəaliyyətinin vasitəsilə ayrı-ayrı orqanlarının fəaliyyətinə təsir edə bilir. Bundan autotreninq təcrübələrində, psixoterapiyada təxəyyül obrazlarının yaradılmasında geniş istifadə olunur.

***Açar sözlər:*** *təhsil, təxəyyül, konsepsiya, təfəkkür, intellekt, inkişafı texnologiyası, fundamental*

**Резюме.** Воображение привлекает внимание как одна из высших психических функций. Человек не полагается только на свою память в обучении и работе. Он творчески подходит к своей деятельности, изменяет идеи в своей памяти, соединяет их в новом порядке, создает новые копии и действует. Создание нового сначала осуществляется идеально, в идее, а затем реализуется материально, практически. Это процесс воображения, направленный на идеальное объединение и изменение собственных идей и создание на этой основе новых копий.

С помощью воображения человек что-то создает, планирует свою деятельность и контролирует ее. Можно сказать, что материальные и духовные ценности, созданные человечеством, являются продуктом человеческого воображения. Воображение выводит человека за пределы настоящей ситуации, помогает ему яснее увидеть прошлое, ведет его в будущее. Человек может влиять на деятельность разных органов посредством деятельности своего воображения. Его широко используют в экспериментах по самообучению, при создании воображаемых образов в психотерапии.

***Ключевые слова:*** *образование, воображение, концепция, мышление, интеллект, технология развития, фундаментальное*

**Summary.** Imagination attracts attention as one of the higher mental functions. A person does not rely only on his memory in training and work. He approaches his activity creatively, changes the ideas in his memory, combines them in a new order, creates new copies and acts. The creation of the new is first realized in an ideal way, in an idea, and then it is realized in a material, practical way. It is the process of imagination to combine and change one's own ideas in an ideal way and create new copies on this basis.

With the help of imagination, a person creates something, plans his activity and controls it. It can be said that the material and spiritual values created by mankind are the product of human imagination. Imagination takes a person beyond the present situation, helps him to see the past more clearly, leads him to the future. A person can influence the activity of different organs through the activity of his imagination. It is widely used in self-training experiments, in the creation of imaginary images in psychotherapy.

***Key words:*** *education, imagination, concept, thinking, intelligence, development technology, fundamental*

Azərbaycanda həyata keçirilən islahatlar, xüsusilə təhsil sahəsində görülən işlər onun yenidən qurulmasına – yeni təhsil sisteminin formalaşdırılmasına xidmət göstərir. Bu işin uğurla yerinə yetirilməsində təhsilin üzərinə çox ciddi vəzifələr düşür. Yeni təhsil məzmununun yaradılması, texnologiyaların, idarəetmə strukturu və sairənin formalaşdırılması üçün ilkin olaraq tədqiqatların əlaqələndirilməsinə, düzgün planlaşdırılmasına ehtiyacın yaranması aydın şəkildə diqqəti cəlb edir.

XX əsrin sonlarında təhsil konsepsiyası şagirdlərdə təfəkkürün inkişaf etdirilməsi, XXI əsrin əvvəllərində isə yaradıcılıq problemi formalaşmağa başladı. Professor Əbdül Əlizadə bu problemi “təhsil konsepsiyasında yeni bir mərhələ – təxəyyülün inkişafı mərhələsi” adlandırdı. Çünki tədris prosesində keçirilən müasir dərsin məzmununda koqnitiv proseslərlə yanaşı kreativ və yaradıcılıq prosesləri də təzahür etməyə başlamışdı.

Psixoloji tədqiqatların nəticələrinə görə, təxəyyülün inkişafı hamıda eyni səviyyədə olmur. Bununla belə təxəyyülü güclü olan insanlar başqalarını, təbiətdə və cəmiyyətdə baş verən hadisələri daha yaxşı anlaya bilirlər. Ona görə də şagird təxəyyülünün inkişafı və tərbiyəsi bu günki müasir dərsin əsas problemlərindən biri kimi çox əhəmiyyətlidir.

Uşaq təxəyyülü əsasən nağıllardan başlayır: öz inkişafının ilk mərhələlərində nağılda olan obrazları asanlıqla mənimsəyə bilir. Dünyanı və özünün dünyəvi mənzərəsini bilavasitə nağılvari əks etdirdiyi ifadə vasitələri tədricən inkişaf edir. Uşaq artıq fəaliyyət sahəsinin öz “dilində” ifadə etdirdiyi danışığında məntiq həddinə çatanda təxəyyüldə əsas keyfiyyət dəyişiklikləri əmələ gəlir. Təxəyyül reallığı formalaşanda ifadə vasitələrinin səmti dəyişir və onlar ixtisaslaşmağa meyl edir. Bu psixoloji pedaqogikada yeni konsepsiyadır və Azərbaycanda bu konsepsiya professor Əbdül Əlizadənin nəzəri-metodoloji axtarışları əsasında formalaşmışdır.

Psixologiyada təxəyyül yeni obrazların yaradılması kimi qəbul edilir. Professor Əbdül Əlizadə problemlə əlaqədar qeyd edir ki, “təxəyyülün mahiyyətini araşdırmaq üçün yeni elmi konsepsiyalar meydana çıxmışdır. Həmin konsepsiyalara görə, təxəyyül psixi bir proses kimi tamı hissədən əvvəl görməyi və eyni zamanda funksiyanı bir əşyadan başqasına keçirməyi nəzərdə tutur”.

Təxəyyülü inkişaf konsepsiyasında güclü fenomen hesab edən A. Eynşteyn qeyd edirdi: “Mən, intuisiya və təxəyyülə inanıram. Təxəyyül bilikdən önəmlidir, çünki bilik məhduddur, təxəyyül isə dünyada nə varsa, hamısını əhatə edir”. Təxəyyül tərəqqinin stimuludur və tərəqqinin mənbəyidir. Təxəyyül klassik psixologiyada idrak prosesi kimi mənalandırılıb və öyrənilib. Müasir psixologiyada isə təxəyyülün əvvəlki dövrlərdə açıqlanmamış önəmli sirləri - kreativ proses kimi, yaradıcılıq prosesi kimi psixoloji sirləri, necə deyərlər, kəşf olunub. A. Eynşteynə görə, “təxəyyül kəşf yoludur” başqa sözlə, əsrin Nobel münasibətlərinə gedən yol qeydsiz-şərtsiz təxəyyüldən başlayır”.

Psixoloq Jan Piaje eksperimental tədqiqatları əsasında müəyyən etmişdir ki, 7-8 yaş arasında uşağın koqnitiv strukturunda mental aktlar üstünlük təşkil edir. Uşaq bu yaş dövründə şeylərin mahiyyətini anlamağa başlayır: onlar haqqında “fikirləşə” bilir. Fikirləşə bilməyəndə ritorikaya meyl edir, dərsdə sadəcə əzbərçilik edir, lazım olanda müəllimə sual verə bilmir...

Pedaqoji psixologiyanın tədqiqatçısı T. Edisonun gəldiyi qənaətə görə, “Sivilizasiyanın başlıca məqsədi insanlara, bizim misalımızda

fikirləşməyi öyrətməkdir" – dünya psixologiyasının başlıca parafrazalarından biri də budur. Bu məqsədlə T. Edisonun tərəfdarları məktəbdə şahmat dərsləri (və ya treninqləri) təşkil etməyi məsləhət görürdülər.

Klassik psixologiyada yeni obrazların yaradılması təxəyyül prosesi kimi qəbul edilirdi. Həmin dövrdə yaradıcı təfəkkür fenomeni kəşf olunması ilə əlaqədar olaraq təxəyyül psixologiyasında da yeni istiqamətlər yaranmağa başladı. Artıq problem yeni psixoloji dairədə - təxəyyül və təfəkkür dairəsində öyrənilirdi. Əbdül Əlizadə bu yeni istiqaməti "fikri obrazdan hissi obraza gedən yol yaradıcı təxəyyül forması" kimi qiymətləndirirdi.

Əbdül Əlizadənin fikrincə, kreativlik sərhədlərində təfəkkür təxəyyüllə qarşılıqlı əlaqədədir. Təxəyyül bütün adamlarda eyni səviyyədə inkişaf etmir. Ancaq bir cəhət dəqiq məlumdur: təxəyyülü güclü olduqca insanlar başqa insanları, təbiət və cəmiyyət hadisələrini daha yaxşı anlayırlar. Məsələnin belə qoyuluşu, təfəkkürlə bahəm təxəyyülün inkişafını dərsin başlıca problemlərindən birinə çevirir.

Psixologiyada psixi proses kimi qavrayış, hafizə və təfəkkür prosesləri arasında aralıq mövqedə olan təxəyyül varlığı konkret obrazlı şəkildə əks etdirir. Təxəyyül obrazları beyində gedən fizioloji proseslərin nəticəsində yaransa da, bu obrazlar yarandıqdan sonra orqanizmdə gedən digər fizioloji proseslərə təsir edir.

Professor Əbdül Əlizadə əsərlərində qeyd edir ki, "yaradıcı təfəkkür təxəyyülün özülündə əmələ gəlir. İnsanın dünyaya yaradıcı münasibəti bilavasitə təxəyyüllə şərtlənir". Təfəkkürün yaradıcılıq potensialı ancaq bu sahədədir. Məsələnin belə qoyuluşu müasir məktəbdə təfəkkür - təxəyyül fenomenlərini şagirdlərdə qarşılıqlı əlaqədə inkişaf etdirməyi tələb edir.

Psixoloji-pedaqoji ədəbiyyatlarda verilən məlumata görə, Eynşteyn orta məktəbdə çox çətinliklə oxuyurdu. Müəllimlərin bir çoxu onu, məsuliyyətsiz, tənbəl hesab edirdilər. O, dərslərdə fikri dağınıq, dalğın halda iştirak edir, mütəmadi olaraq intizamı pozmağa səy göstərirdi. Psixoloqlar onun dərslərini pis oxumasının səbəblərini araşdırdılar və nəticədə məlum oldu ki, müəllimlər şagirdin ona verilən suallara konkret cavab vermədiyinə görə əsəbiləşirlər. Eynşteyn müəllimlərin suallarına cavab vermək əvəzinə onlara yersiz görünən "müxtəlif əlavə suallar" verirdi. Bu gün tədris prosesində sual texnologiyasının müasirləşməsi problemi xüsusilə aktualdır. Dərsdə şagirdlərin az sual verməsi faktının müəllimlərin sual texnologiyası problemi ilə əlaqələndirilən müxtəlif səbəblər göstərilir.

Pikasso əsərlərində qeyd edirdi ki: "Mən əvvəl Rafael kimi şəkil çəkirdim, ancaq uşaqlar kimi şəkil çəkməyi öyrənmək üçün mənə bir ömürlük həyat lazım oldu". Çünki uşaqların özünəməxsus koqnitiv üslubları var və onu kəşf edən müəllim öz sahəsində praktik psixoloq hesab edilə bilər. U. Kreynin fikrinə görə isə: "Əgər biz həddindən artıq uşaqlara təsir göstəririksə, onlara özümüzün vacib hesab etdiyimiz şeyləri öyrədiriksə, uşaqları öz kəşflərini etmək imkanından məhrum edirik".

Sokrat öz dərslərini müəllimin şagirdlə əməkdaşlığı şəraitində, dialoq üzərində qurmağa səy göstərirdi. Sokratın bu metoddan istifadə edərkən tələbələrin dərsin gedişində yeni bilikləri "kəşf" etməsini sübut etdi.

Beləliklə, Sokrat metodunun tətbiqinin müəllimlə-şagirdin əməkdaşlığına əsaslandığından keçirilən dərs yeni məzmun (analiz və sintezə kəsb edir. Analiz və sintez proseslərindən səmərəli istifadə şagirdlərdə mükəmməl idrak fəallığı yaradır. Şagirdlər idrak fəallığı yollarına yiyələndikcə şagirdlərin təfəkkürü daha da inkişaf edir, onların nitqləri səlisləşir, müstəqil fikirləri əhəmiyyətli dərəcədə artır..

Məktəbdə fənn müəllimləri dərs prosesində şagirdlərdə təxəyyülü inkişaf etdirmək üçün müxtəlif tapşırıqlardan, psixoloqlar isə bu məqsədlə şagirdlərin yaş və fərdi xüsusiyyətlərini nəzərə alaraq müxtəlif metodlardan istifadə edirlər. Hər bir yaş dövründə bu üsuldan uğurla istifadə etmək mümkündür. Şagirdlərin yaradıcı təxəyyülü inşa yazıda və rəsmdə, müxtəlif məzmunlu oyunlarda, təmrinlərdə, yarışlarda özünəməxsus çalarlarla təzahür edir. Təcrübəli müəllim onları vaxtında görür, ayırd edir və qiymətləndirir.

Bu gün müasir təhsilimizin qarşısında uşaqlarda təfəkkürün, təxəyyülün, intellektin və şəxsiyyətin formalaşması vəzifəsini yerinə yetirməli, şagird müəllimlər tərəfindən təlim prosesində fikri qabiliyyətlərin və bacarıqların formalaşmasına istiqamətləndirilməlidir.

R.C. Kollivuda görə isə müasir psixologiyada təxəyyül nəzəriyyəsi incəsənət prinsipləri

kimi araşdırılır və onun inkişaf treninqlərinin sistemli öyrənilməsi müasir pedaqoji psixologiyanın əsas problemi kimi nəzərdən keçirilir.

Nəticəni kamillik və mənəviyyat zirvəsində yer tutan elm xadimi, gözəl pedaqoq, psixoloq, professor Əbdül Əlizadənin təhsilimizin gündəlik tələblərinə cavab verən dəyərli və gözəl fikirləri ilə bitirmək istəyirəm: "Təfəkkür, intellekt və təxəyyül! Bizim fikrimizcə, müasir təhsil nəzəriyyəsi və təcrübəsi XXI əsrdə ancaq və ancaq bu fundamental psixoloji bünövrə əsasında uğurla inkişaf edə bilər və inkişaf edir. Müasir pedaqoji psixologiyada "Kəşf yolu ilə öyrənmə" konsepsiyası formalaşmışdır. Təcrübəli müəllimlər təxəyyülün inkişafı texnologiyasını məhz bu konsepsiyanın parametrləri ilə araşdırırlar".

**Problemin aktuallığı.** Təhsil konsepsiyasında təxəyyül inkişafı mərhələsinin psixoloji xüsusiyyətlərinin əsas təzahürlərini müəyyənləşdirmək, müasir pedaqoji psixologiyanın elmi-nəzəri tələbləri səviyyəsində həmin problemlərin təhlilini verməkdən ibarətdir.

**Problemin elmi yeniliyi.** Təhsil konsepsiyasında təxəyyül inkişafı mərhələsinə psixoloji təsir göstərən amillərin təhlili, şagirdlərdə idrak proseslərinin təfəkkürlə birlikdə təxəyyülün inkişafını dərsin başlıca problemlərindən birinə çevrilməsi prinsiplərinə yaxından bələd olmağa köməklik göstərmək yollarını müəyyənləşdirməkdən ibarətdir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri, psixoloq və pedaqoqlar istifadə edə bilər.

**Ədəbiyyat:**


1. Bayramov, Ə.S. Psixologiya. / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. – Bakı: Çinar-Çap, – 2002, – 623 s.
2. Qədirov, Ə.Ə. Yaş psixologiyası. / Ə.Ə. Qədirov. – Bakı: Maarif, – 2002. – 386 s.
3. Əlizadə, Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. / Ə.Ə. Əlizadə – Bakı: Pedaqogika, – 2004. – 432 s.
4. Əlizadə, Ə.Ə. Pedaqoji psixologiya. I kitab. / Ə.Ə. Əlizadə, H.Ə. Əlizadə. – Bakı: ADPU, – 2010, – 319 s.
5. Əliyev, R.İ. Tərbiyə psixologiyası. / R.İ. Əliyev. – Bakı: Nurlan, – 2006. – 210 s.
6. Гуревич, П.С. Психология и педагогика: Учебник. / П.С. Гуревич. – М.: Юрайт, – 2013, – 479 с.
7. Реан, А.А. Детская психология. / А.А. Реан. – СПб: Прайм –ЕВРОЗНАК, – 2008. – 350 с.
8. Хилько, М.Е. Возрастная психология. / М.Е. Хилько. – М.: Юрайт, – 2013. – 200 с.


**E-mail:** gulnare.alixanova@mail.ru

**Rəyçilər:** *psixol.elm.dok., prof.* **R.İ. Əliyev,**
*ped.ü.fəls.dok., dos.* **Q.V. Rəhimova**
**Redaksiyaya daxil olub:** 09.10.2023

*UOT 159.9.*

***Yeganə Baxış qızı Əskərova***
*psixologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*Orcid id:0000-0002-0590-9630*

# YENİYETMƏ YAŞLI UŞAQLARIN "MƏN" KONSEPSİYASININ PSİXOLOJİ MAHİYYƏTİ

***Егяна Бахыш гызы Аскерова***
*доктор философии по психологии, старший преподаватель*
*Азербайджанского государственного педагогического университета*

# ПСИХОЛОГИЧЕСКАЯ ПРИРОДА ПОНЯТИЯ ВНУТРЕННЕГО «Я» ПОДРОСТКОВ

***Yegana Bakhish Askarova***
*doctor of philosophy in psychology*
*head teacher of Azerbaijan State Pedagogical University*

# THE PSYCHOLOGICAL NATURE OF THE CONCEPT OF THE "INNER SELF" OF ADOLESCENT CHILDREN

**Xülasə.** "Mən" obrazının əsasını insanın özü haqqında bilikləri təşkil edir. Lakin bu biliklər insan üçün heç də adi xarakter daşımır. Onlar insanın özünə münasibətini ifadə edir. Mən – obrazın psixoloji baxımdan əhəmiyyəti də məhz bundan ibarətdir. Mən – obraz mürəkkəb hadisədir. Mən – obrazının formalaşması dialektik prosesdir. O, müxtəlif amillərlə şərtlənir. İnsanda özü haqqında təsəvvürlərinin formalaşmasında hərəkət və görmə duyğulan mühüm rol oynayır. Lakin "Mən – obraz"ın formalaşmasının əsas mənbəyini başqa adamlar – yaşlılar, həmyaşıd oğlan və qızlar təşkil edirlər. İnsan başqa adamlar vasitəsilə kişilik, qadınlıq, mənəvi gözəllik və s. haqqındakı etalon və stereotiplərə yiyələnir, başqa adamları qiymətləndirməyi öyrənir. Uşağın motivasiya-tələbat sahəsinin inkişafı onu əhatə edən adamlarla ünsiyyətin özünün xüsusiyyətləri ilə fərqlənir. Əgər uşağın yaşlılarla ünsiyyəti emosional baxımdan fəsadlıdırsa, sevinc bəxş etmirsə, qəm-kədər gətirirsə, uşaqda yeni motivlər əmələ gəlmir, şəxsiyyətin düzgün tərbiyəsi mümkün olmur. Uşaq şəxsiyyətinin formalaşmasında, valideyn-uşaq münasibətlərinin qurulmasında nəsillərin təcrübəsindən, xalqın hikmət dünyasından istifadə etməyin əhəmiyyəti və faydası şəksizdir.

***Açar sözlər:*** *yeniyetmə, şəxsiyyət, ailə tərbiyəsi, ünsiyyət, özünüdərketmə, münasibət, davranış, motivasiya*

**Резюме.** В основе образа внутреннего «Я» лежат знания человека о себе. Однако для человека эти знания совсем не обыденны. В этом психологическом значении «образа – Я» выражается отношение человека к самому себе. Самооценка – сложное явление. Формирование образа «Я» является диалектическим процессом, определяющимся различными факторами. В формировании самооценки человека чувство движения и зрение играют важную роль. Однако основным источником формирования «образа-Я» являются другие факторы, такие как пожилые люди, мальчики и девочки того же возраста. Человек приобретает мужественность, женственность, душевную красоту и т. д. Через других людей он усваивает стандарты и стереотипы о себе, приобретая навыки ценить других людей. Развитие мотивационно-потребностной сферы ребенка различается в зависимости от особенностей общения с окружающими его людьми. Если общение ребенка со старшими эмоционально вредно, если это не приносит радости, а наоборот, печаль, у ребенка не формируются новые мотивы и воспитание личности бывает неправильным. Важность и польза использования опыта поколений и мировой народной мудрости в формировании личности ребенка, установлении отношений между детьми и родителями неоспоримы.

***Ключевые слова***: *подросток, личность, семейное воспитание, общение, самосознание, отношение, поведение, мотивация*

**Summary.** The basis of the image of "Inner Self" is a person's knowledge about himself. However, the knowledge is not at all ordinary for a person. They express a person's attitude towards himself. This is the psychological significance of the "Inner Self" and it's a complex phenomenon. The formation of the image of the "Inner Self" is a dialectical process. It is determined by various factors. In the formation of a person's self-image the sense of movement and vision play an important role. However, the main source of the formation of the "Self-image" is other people - the elderly, boys and girls of the same age. A person acquires masculinity, femininity, spiritual beauty, etc. through other people, while learns standards and stereotypes about himself, learns to appreciate other people. The development of the child's motivation-demand field differs with the characteristics of communication with the people around him. If the child's communication with the elderly is emotionally harmful, if it does not bring joy, if it brings sadness, new motives are not formed in the child, and the proper education of the personality is not possible. Indisputable,the importance and benefit of using the experience of generations and the world of people's wisdom in the formation of a child's personality and the establishment of parent-child relations.

***Key words:*** *adolescent, personality, family education, communication, self-awareness, attitude, behavior, motivation*

"Özünüdərketmə – "Mən" konsepsiya ilə eynilik təşkil edib fərdin özü haqqındakı təsəvvürlərinin az və ya çox dərəcədə dərk olunmasından ibarət olan nisbi, təkrar olunmaz sistemdir" (4 s. 475). Özünüdərketmə ("Mən" konsepsiya) bütöv, lakin daxili ziddiyyətlərdən azad olmayan sistemdir.

1993-cü ildə Moskvada nəşr olunmuş, təkmilləşdirilmiş və yenidən işlənmiş psixologiya lüğətində özünüdərketməyə aşağıdakı kimi tərif verilir: "Özünüdərketmə insanın öz fikir və arzularına, emosiya və yaşantılarına, eləcə də öz davranışının dərk olunmuş münasibətidir" (5, s. 230).

Rus psixoloqu I.S. Kon göstərir ki, "Şüurlu "Mən"in təşəkkül və formalaşması mərhələsi, eləcə də onun komponentlərinin təşəkkül və təzahür mərhələsi yeniyetməlik və gənclik yaşı dövrü hesab edilir" (2, s. 145). Yeniyetmənin orqanizmində baş verən psixofizioloji dəyişikliklər münasibətlər sferasının yeniləşməsi, özünə və başqalarına münasibətin dəyişməsi və s. onların davranış və rəftarının yenidən qurulması, şəxsi "mən"də yeni protensial imkanların, keyfiyyətlərin dərk edilməsinə ciddi təsir göstərir.

Professor Ə. Əlizadə uşağın şəxsiyyət kimi formalaşmasının birinci dövrünün məktəbəqədər yaş dövründə baş verdiyini göstərir. O qeyd edir ki, bu dövrdə uşaq həm özünü, həm də insani münasibətləri, həm də ətraf aləmdə baş verənləri mənimsəyir.

I.S. Kon yazır ki, bioloji cins öz-özlüyündə insanı kişi və ya qadın etmir. Bu prosesin baş verməsi üçün ilk növbədə bioloji xüsusiyyətlər, sosioloji və psixoloji cəhətlərlə tamamlanmalıdır. Fərd özünün cinsi məxsusluğunu dərk etməli, müəyyən etalon və stereotipləri qavramalıdır. Yəni özünün cinsi mənsubluğunu diferensiasiya etməlidir. Bu diferensiasiya "Mən-obraz"ın, şəxsiyyət üçün vacib olan özünün cinsi mənsubluğunun əsasını təşkil edir (3, s. 33). "Mən" obrazının yaradılması E. Fromm, A. Maslou, Karl Rocers kimi Amerika psixoloqlarının ən diqqətə layiq elmi nəzəriyyələrindən biridir, onların fikrincə bir neçə "mən" obrazı mövcuddur:

1) Real "Mən"
2) İdeal "Mən"
3) Digərlərin gözündə olan "Mən".

Psixoloqlar deyir ki, bu 3 "Mən" obrazı üst-üstə düşməlidir və ancaq bu halda insanın normal inkişafından danışmaq olar. İdeal "Mən" real "Mən"dən, başqalarının gözündə olan "Mən" real "Mən"dən fərqlənirsə, insan bir saxtakarlıq hiss edir, özünə hörmət edə bilmir və bu onun normal inkişafına mane olur. Bizdə yaranan gərginlik, təlaş, özünə inamsızlığın da səbəbi, çox vaxt məhz bu üç "Mən"in arasındakı uyğunsuzluqdur. "Mən" obrazının əsasını insanın özü haqqında bilikləri təşkil edir. Lakin bu biliklər insan üçün heç də adi xarakter daşımır. Onlar insanın özünə münasibətini ifadə edir. Mən – obrazın psixoloji baxımdan əhəmiyyəti də məhz bundan ibarətdir. Mən-obraz mürəkkəb hadisədir. "Mən – obrazı"nın formalaşması dialektik prosesdir. O, müxtəlif amillərlə şərtlənir. İnsanda özü haqqında təsəvvürlərin formalaşmasında hərəkət və görmə duyğulan mühüm rol oynayır. İnsanın özünü qavramasının təsirli vasitəsi kimi güzgünün əhəmiyyətini qeyd etməmək olmaz. Lakin "Mən-obraz"ın formalaşmasının asas mənbəyini başqa adamlar – yaşlılar, həm-

yaşıd oğlan və qızlar təşkil edirlər. İnsan başqa adamlar vasitəsilə kişilik, qadınlıq, mənəvi gözəllik və s. haqqındakı etalon və stereotiplərə yiyələnir, başqa adamları qiymətləndirməyi öyrənir (1, s.232).

Prof. Ə.Ə. Əlizadə şəxsiyyətin psixoloji cəhətdən inkişafında məktəbəqədər yaş dövrünün əhəmiyyətini xüsusi qeyd edir. Göstərir ki, bu dövrdə başlıca xüsusiyyətlərdən biri də məqsədin motivə çevrilməsindan ibarətdir. O yazır: "Uşağın motivasiya-tələbat sahəsinin inkişafı onu əhatə edən adamlarla ünsiyyətin özünün xüsusiyyətləri ilə fərqlənir. Əgər uşağın yaşlılarla ünsiyyəti emosional baxımdan fəsadlıdırsa, sevinc bəxş etmirsə, qəm-kədər gətirirsə, uşaqda yeni motivlər əmələ gəlmir, şəxsiyyətin düzgün tərbiyəsi mümkün olmur". Uşaq şəxsiyyətinin formalaşmasında, valideyn-uşaq münasibətlərinin qurulmasında nəsillərin təcrübəsindən, xalqın hikmət dünyasından istifadə etməyin əhəmiyyəti və faydası şəksizdir.

Prof Ə. Əlizadə şəxsiyyətin formalaşmasında ailə tərbiyəsi prosesində cinsi fərqlərə diqqət yetirilməsinin vacibliyini göstərir və bu zaman valideynlərin uşaqlara münasibəti və ünsiyyətinin, davranışının əhəmiyyətli təsirə malik olduğunu göstərir. Kiçik yaşlarından atası ilə kifayət qədər ünsiyyət imkanına malik olmayan oğlanlar sonralar çox vaxt öz atalıq vəzifələrini icra etməkdə çətinlik çəkirlər. Atasız tərbiyə olunan oğlanlar isə əlverişli şəraitdə ya qadın davranış tipini mənimsəyir, ya da kişi davranışı haqqında yanlış təsəvvürlər formalaşır. Atasız tərbiyə olunmuş qızlarda da kişilik haqqında birtərəfli təsəvvürlər nisbətən asanlıqla əmələ gəlir. Bu isə nəticə etibarilə qadın rollarının mənimsənilməsinə mənfi təsir göstərir.

H.Ə. Əlizadə isə ailə üzvlərinin sayının uşaq şəxsiyyətinin formalaşmasına özünəməxsus şəkildə təsir etdiyini yazır və göstərir ki, ailənin həyatında onun hər bir üzvünün, o cümlədən hər bir uşağın öz yeri var. Professor H. Əlizadə qeyd edir ki, "Ailədə uşaqların sayı azaldıqca onda özünəməxsus sosial inkişaf şəraiti yaranır, onun xüsusiyyətləri təkcə ər-arvad münasibətlərində deyil, həm də ata-ana, valideyn övlad, bacı-qardaş münasibətlərində əks olunmağa başlayır. Müəyyən edilmişdir ki, çoxuşaqlı ailədə böyüyən uşaqlarda kommunikativ keyfiyyətlər daha çox inkişaf edir. Onlar kiçik yaşlarından öz sevinc və kədərlərini bacı-qardaşları ilə bölüşməyi, özlərinin davranış və rəftarlarında başqa adamın mənafeyini nəzərə almağı, qarşılıqlı surətdə qayğı və kömək göstərməyi öyrənir, qonşu uşaqlar və s. ilə asanlıqla ünsiyyətə girirlər."

Təkuşaqlı ailələrdə isə valideynlər uşağın bütün problemlərini öz üzərinə götürür, hətta uşaq üçün yoldaşı da özləri seçirlər. Belə uşaqların tərbiyəsində və şəxsiyyətinin inkişafında bir sıra çətinliklər meydana çıxır. Çoxuşaqlı ailələrdən fərqli olaraq, bacı-qardaşsız böyüyən uşaqlarda qarşılıqlı yardım, qarşılıqlı hörmət və s. keyfiyyətlər zəif inkişaf edir. Onlar əslində təkliyə öyrənir, müxtəlif sosial qruplarda, o cümlədən sinifdə şəxsiyyətlərarası münasibətlərdə çox vaxt passiv mövqe tutur, ictimai faydalı fəaliyyətdən asanlıqla yayınırlar.

Mənlik şüurunun formalaşmasına ətrafdakı adamların qiymətləri və yeniyetmələrin həmyaşıdlar qrupundakı statusu, real "Mən" ilə ideal "Mən"in qarşılıqlı münasibəti va fərdin öz hərəkətlərini qiymətləndirilməsi təsir göstərir.

Şəxsiyyətin malik olduğu nisbi sabit "Mən" obrazı, çox vaxt onda əvvəlki nəsillərdən və valideynlərdən əxz olunmuş modellər üzrə formalaşır. Onun vasitəsilə insan özünü ətraf aləmdən, yəni öz "Mən"ini, "qeyri-mən"dən ayırır, özünün fiziki, sosial; psixi və mənəvi keyfiyyətlərini qiymətləndirir, sosial həyata şüurlu münasibət bəsləməyə başlayır ki, bu əsasda da onun "Mən konsepsiyası" formalaşır. "Mən" fenomenində bir-birinə paralel olan iki meyli müşahidə etmək olar: onlardan biri fərdin digər insanlarla emosional ümumiliyə can atmasında, digəri isə öz unikallığın qoruyub saxlamaq arzusunda, müstəqilliyə, azadlığa can atmaqda, öz şəxsi ləyaqətini qoruyub saxlamaqda ifadə olunur. Fərdin mənlik şüuru funksional və genetik cəhətdən bir-biri ilə bağlı olan bir sıra funksiyaları yerinə yetirir. Bunlara fərdin özü haqqında informasiyanın əldə edilməsi, özünə emosional qiymətləndirmə münasibəti və davranışın özünütənzimi daxildir.

Yeniyetməlik yaşı uşaqlıq yaşı dövrləri içərisində ən çətin və mürəkkəb dövr hesab olunur. Böyük Ukrayna pedaqoqu V.A. Suxomlinski bu dövrü obrazlı olaraq "vətəndaşın doğulması dövrü" adlandırmışdır. O, qeyd edirdi ki, yeniyetməlik illərinə daxil olmaq elə bil insanın

ikinci dəfə doğulmasıdır. Birinci dəfə canlı varlıq, ikinci dəfə vətəndaş, artıq təkcə ətraf aləmi deyil, həm də öz-özünü görən, fəal düşünən, fəallıq göstərən şəxsiyyət doğulur. Yeniyetməlik dövründə təzahür edən mənfi xüsusiyyətlər keçici xarakter daşıyır.

Bu yaş mərhələsində xarakterin əlamətləri, şəxsiyyətlərarası münasibətlərin əsas formaları stabilləşir, mənəviyyatın, sosial yönəlişliyin təməli möhkəmlənir, şəxsi özünütəkmilləşdirmə cəhdləri – özünüdərketmə, özünütəsdiqetmə və özünüifadə formalaşır. Bu keyfiyyətlərin formalaşmasında uşağın daxil olduğu yaşıdları qrupunun böyük rolu vardır. Bu sosial qurumlar yeniyetmənin şəxsiyyət məzmunlu mənəvi dəyərlərinin təşəkkülünü, adamlara qarşı seçici münasibətinin, ünsiyyət mədəniyyətinin formalaşmasını təmin edir.

Bu deyilənlərdən heç də belə yanlış qənaətə gəlmək olmaz ki, yeniyetməlik dövrü nə isə "şikəst", "əlil" bir yaş dövrüdür. Əksinə, yeniyetməlik yaşı fəallıq, coşqun ehtiraslar, qaynayan enerji, böyük arzu və ideallar dövrüdür. Yeniyetmənin coşub-çağlayan həyatını düzgün məcraya yönəltmək, onun təlimi və tərbiyəsinin təşkilində, idarə edilməsində qeyd olunan fizioloji və psixoloji xüsusiyyətləri nəzərə almaq olduqca vacibdir. Tədqiqatlar sübut edir ki, yeniyetmənin həmyaşıd uşaqlarla, xüsusilə yaxın yoldaşları və dostları ilə ünsiyyəti sadəcə olaraq təlim fəaliyyəti və məktəbin hüdudları ilə məhdudlaşmır, yeni maraq, məşğələ və münasibətlər dairəsini əhatə edərək onun üçün həyatın son dərəcə əhəmiyyətli olan müstəqil sahəsinə çevrilir. Yeniyetmə üçün yoldaşlarla ünsiyyət hətta o dərəcədə əhəmiyyət kəsb edir ki, onunla müqayisədə təlim ikinci plana keçir, doğma adamlarla ünsiyyətin rolu xeyli azalır. Bu cəhəti, adətən ilk dəfə ana hiss edir. O görür ki, oğlu və ya qızı artıq nə isə öz həyatı ilə yaşayır, öz sevinci və kədəri haqqında az danışır və ya heç danışmır, evdən küçəyə can atır. Bu baxımdan uşaq şəxsiyyətinin formalaşmasında, valideyn-uşaq münasibətlərinin qurulmasında nəsillərin təcrübəsindən, xalqın hikmət dünyasından istifadə etməyin əhəmiyyəti və faydası danılmazdır.

**Problemin aktuallığı**. Uşağın motivasiya-tələbat sahəsinin inkişafı onu əhatə edən adamlarla ünsiyyəti özünün xüsusiyyətləri ilə fərqlənir. Əgər uşağın yaşlılarla ünsiyyəti emosional baxımdan fəsadlıdırsa, sevinc bəxş etmirsə, qəm-kədər gətirirsə, uşaqda yeni motivlər əmələ gəlmir, şəxsiyyətin düzgün tərbiyəsi mümkün olmur. Uşaq şəxsiyyətinin formalaşmasında, valideyn-uşaq münasibətlərinin qurulmasında nəsillərin təcrübəsindən, xalqın hikmət dünyasından istifadə etməyin əhəmiyyəti və faydası şəksizdir. Bu baxımdan yeniyetmə yaşlı uşaqlarda "Mən" anlayışı və onun pedaqoji-psixoloji ədəbiyyatda qoyuluşu kimi vacib bir mövzuya həsr olunması məqalənin aktuallığını şərtləndirir.

**Problemin elmi yeniliyi.** Elmi yenilik onunla bağlıdır ki, məqalədə "Mən" anlayışının mahiyyəti ilə bağlı görkəmli psixoloqların yanaşmaları diqqətə çatdırılır, özünüdərketmə sosial-psixoloji problem kimi nəzərdən keçirilərək ayrı-ayrı mərhələlərinin səciyyəvi cəhətləri göstərilir və bu istiqamətdə aparılmış müxtəlif tədqiqatların nəticələri təhlil olunur.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən ali və orta ixtisas məktəblərin müəllimləri, tələbə və magistrantlar, eləcə də praktik psixoloqlar yararlana bilərlər.

## Ədəbiyyat:


1. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Psixologiya. / Ə.S. Bayramov. – Bakı, 1989. – 540 s.
2. Кон И.С. Категория Я в психологии Психологический журнал, – М.: 1981, Т2, № 3, – s 56-65.
3. Кон И.С. Какими они себя видят. – М.: Знание, – 1978. – 96 с.
4. Психологический словарь, Под. Общ. Ред. А.В. Петровского, Политзад, – 1990. – 494 с.
5. Психологический словарь, Под. ред. В.П. Зинченко, Б.Г. Мещерякова, Педагогика. Пресса, – 1999. – 440 с.


**E-mail:** y.askerova@inbox.ru
**Rəyçilər:** *psix.ü.fəls.dok.,dos.* **N.T. Rzayeva,**
*ped.ü.fəls.dok.,dos.* **S.Q. Həsənli**
**Redaksiyaya daxil olub:** 21.11.2023

*UOT 159.9.*

***Raziyə Elxanovna Quliyeva***
*psixologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*https://orcid.org/0000-0002-4762-6778*

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN YARADICILIĞININ İNKİŞAFINDA MÜƏLLİMİN ROLU

***Разия Эльхановна Кулиева***
*доктор философии по психологии*
*Институт образования Азербайджанской Республики*

# РОЛЬ УЧИТЕЛЯ В РАЗВИТИИ ТВОРЧЕСТВА МЛАДШИХ ШКОЛЬНИКОВ

***Raziya Elkhanovna Guliyeva***
*doctor of philosophy in psychology*
*Institute of Education of the Republic of Azerbaijan*

# THE ROLE OF THE TEACHER IN THE DEVELOPMENT OF CREATIVITY OF YOUNG SCHOOLCHILDREN

**Xülasə.** Məqalədə kiçikyaşlı məktəblilərdə yaradıcılığın inkişafında müəllimin rolu araşdırılmışdır. Qeyd edilmişdir ki, müəllim təkcə yaradıcı təfəkkürün inkişafını deyil, həm də hər bir ibtidai sinif şagirdinin yaradıcı potensialının hərtərəfli inkişafı üçün şərait yaratmaqdadır ki, bu da nəticədə ahəngdar yaradıcı şəxsiyyətin formalaşmasına kömək edir. Bu tədqiqatın məqsədi müəllimlərin öz peşəkar fəaliyyətlərində kiçikyaşlı məktəblilərin yaradıcılıq potensialını yüksək səviyyədə reallaşdırmağa istiqamətləndirmək və tədris prosesinin səmərəliliyini artırmaqdır.

***Açar sözlər:*** *yaradıcılıq, müəllim, kiçikyaşlı məktəbli, yaradıcı müəllim, təlim prosesi*

**Резюме.** В статье рассматривается роль учителя в развитии творческих способностей младших школьников. Было отмечено, что учитель создает условия не только для развития творческого мышления, но и всестороннего развития творческого потенциала каждого ученика начальной школы, что в конечном итоге способствует формированию гармоничной творческой личности. Цель данного исследования – направить учителей на реализацию творческого потенциала юных школьников на высоком уровне в их профессиональной деятельности и повышение эффективности учебного процесса.

***Ключевые слова:*** *творчество, учитель, ученик начальной школы, творческий учитель, процесс обучения*

**Summary.** The article examines the role of the teacher in the development of creativity in young schoolchildren. It was noted that the teacher creates conditions not only for the development of creative thinking, but also for the comprehensive development of the creative potential of each elementary school student, which ultimately helps to form a harmonious creative personality. The purpose of this study is to direct teachers to realize the creative potential of young schoolchildren at a high level in their professional activities and to increase the efficiency of the teaching process.

***Key words:*** *creativity, teacher, elementary school student, creative teacher, learning process*

Hər bir dövr təlim-tərbiyə prosesində yeni prioritetlər müəyyən edir. Lakin bu tələbləri həyata keçirən subyekt dəyişməz olaraq qalır. Bu cəmiyyətin təhsil sistemi və müəllimidir. Çünki məhz müəllim gələcək nəsli yetişdirən, formalaşdıran şəxsdir. Q.S. Altşullerin fikrincə, ənənəvi təhsil konsepsiyası – materialı mexaniki yadda saxlanmasına əsaslanır. Müəllimlərin ək-

səriyyəti materialı qavrayan, onunla iş aparmağı bacaran şagirdlər yetişdirirlər. Yalnız müəllimlərin az qismi şagirdləri materiala yaradıcı yanaşmağı öyrədir. Yaradıcı şəxslərə məhz bu cür müəllimlər lazımdır [1].

**Yaradıcılıq anlayışı.** Yaradıcılıq psixologiya, estetika və təhsil kimi bir çox sahələrdə geniş şəkildə tədqiq edilən çoxşaxəli fenomendir. Yaradıcılıq, mövcud bilik, bacarıq və təcrübələrin birləşməsi yolu ilə yeni və dəyərli ideyalar, həllər və ya məhsullar yaratmaq bacarığı kimi başa düşülə bilər. Bu tərif yaradıcılıq prosesində iştirak edən koqnitiv, emosional və motivasiya komponentlərini də əhatə edir. Qrant və Sandberqə [12] görə, yaradıcılıq vahid xüsusiyyətə malik deyil, daha çox yaradıcı nəticələr əldə etmək üçün unikal üsullarla qarşılıqlı əlaqədə olan müxtəlif idrak prosesləri və şəxsiyyət xüsusiyyətlərinin birləşməsidir. Bundan əlavə, Silva [19] yaradıcılığın dinamik, çoxşaxəli xarakterini qeyd edir və yaradıcılıq qabiliyyətlərini öyrənərkən, inkişaf etdirərkən geniş spektrli amilləri nəzərə almağın zəruriliyini vurğulayır. Eyni zamanda Qlaveanu yaradıcılığın sosial, maddi və psixoloji amillərlə qarşılıqlı əlaqədə olması ilə yanaşı onun sosial-mədəni perspektivini açıqlamışdır. Bu perspektiv yaradıcılığın təkcə fərdi xüsusiyyətlərdən asılı olmadığını, onun sosial-mədəni amillərin də təsirinə məruz qaldığı fikrini vurğulayır. Nazarov [16] yaradıcılığı nəzəri və praktik fəaliyyətin məhsulu kimi şərh edən innovasiya ilə sıx bağlı olduğunu bildirir. Yaradıcılıq və innovasiya arasındakı bu əlaqə daha sonra Kuznetsova [14] tərəfindən tədqiq edilib. O, bəzi sənaye sahələrində innovasiya amilinin xarici iqtisadi təsirinə diqqət yetirərək, innovasiya tətbiqi məsələlərinin idarə edilməsində yaradıcılığın rolunu vurğulayır.

Təhsil və yaradıcılıq arasındakı əlaqəni araşdırarkən, yaradıcılığın çoxşaxəli təbiətini və onun təhsilin praktik sahələrinə təsirini nəzərə almaq vacibdir [15] Mumford və Gustafson tədqiqatlarında yaradıcılığın təhsil mühitinə inteqrasiyasının vacibliyini vurğulayaraq, yaradıcılıq tədqiqatlarının mərkəzində sosial cəhətdən əhəmiyyətli məhsulların olduğunu qeyd edir. Bundan əlavə, Collard və Looney yaradıcılığın təhsil çərçivələrinə daxil edilməsi üçün təhsil siyasətində "yaradıcılıq" və "innovasiya" kimi terminlərin müəyyənləşdirilməsinin zəruriliyini bildirir [9].

Təhsildə yaradıcılıq yalnız təlim iştirakçılarının yaradıcı təfəkkürünün inkişaf etdirilməsi üçün deyil, həm də onların təlim fəaliyyətinə yaradıcı yanaşmasını inkişaf etdirməkdən ibarətdir [13]. Kaplan müəllim hazırlığında təhsil proqramlarına yaradıcılığın inteqrasiyasının əhəmiyyətini vurğulayır. Bu proqram yaradıcılıq nəzəriyyələrinin tətbiq etmək imkanlarını artırır [13]. Eynilə, Rotarun fikrincə, ibtidai sinif şagirdlərində fərqli düşüncə və yeni ideyaların yaranmasını təşviq etmək yaradıcılığı stimullaşdıran amillərdəndir [18]. Bu yanaşmada şagirdlərin kiçik yaşlarda yaradıcılığın inkişafının əhəmiyyəti, müəllimin isə pedaqoji təcrübəyə yaradıcılığın inteqrasiyası bacarığının zəruriliyi qeyd edilir.

Yaradıcılığın təşviqində pedaqoqların rolu əhəmiyyətli bir iş sahəsidir. Ripkiyə görə, təhsil müəssisələrində müəllim yaradıcılığının əsasını problem həll etmək bacarığı, pedaqoqlar arasında yaradıcılığın inkişaf etdirilməsi kimi məsələlərin vacibliyi təşkil edir [18]. Bundan əlavə, Pentang və digər tədqiqatçılar müəllim təhsili kontekstində yaradıcılığın əhəmiyyətini vurğulayaraq, gələcək müəllimlər üçün yaradıcı təfəkkür bacarıqlarının inkişaf etdirilməsinin əhəmiyyətini bildirir [17].

XX əsrin ikinci yarısından etibarən təhsil və yaradıcılıqla bağlı araşdırmalar artmağa başlayıb və bu kontekstdə bir çox ölkələr öz kurikulumlarında təkmilləşdirmələr aparıblar. Hətta, İngiltərədə yaradıcılıq fənni rəsmi olaraq həm məktəb proqramına, həm də 3-5 yaşlı uşaqlar üçün kurikuluma daxil edilib [3].

Kiçikyaşlı məktəblilərin yaradıcılığının inkişafı təlim fəaliyyətinin vacib hədəflərindən birinə çevrilməkdədir. Bu tendensiya dünyada güclü iqtisadiyyat və yeni texnoloji həllər yaradacaq işçiləri yetişdirmək ehtiyacından yaranmışdır. Günümüzdə sosial inkişaf zəminində kadr yaradıcılığının əhəmiyyəti artmaqdadır.

İcbari təhsil, xüsusən yaradıcılığın inkişafında senzitiv dövr hesab edilən kiçikyaşlı məktəblilərin yaradıcılığının formalaşdırılmasında mühüm rol oynayır. Bu zaman ən böyük məsuliyyət müəllimlərin üzərinə düşür. Müəllimlər şagirdlərə yaradıcı şəxsiyyət xüsusiyyətlərini və münasibətlərini aşılamaq və onlara yaradıcı dü-

şünmə və yaradıcı problem həll etmə bacarıqlarını öyrətmək istiqamətində işlər görməlidirlər.

Lakin günümüzdə müəllimlərin hər bir fəaliyyət və davranışı təlim proqramı ilə müəyyən edilib. Təlim proqramında müəllimin şagirdə fərdi yanaşması nəzərə alınmayıb. Müəllimlərin özlərini inkişaf etdirmə tərzi, sinifdə fənni tədris edərkən istifadə etdikləri strategiyalar, metodlar, üsullar və hətta cümlələr tədris planı ilə təyin olunduğundan, "yaradıcı müəllim"in formalaşması mürəkkəbləşir. Yəni yaradıcı müəllimin formalaşması üçün ən böyük maneə "təlim proqramlarının məhdudlaşdırıcı quruluşu" olduğu qeyd edilə bilər.

Ənənəvi dərslərdə yaradıcılığın aktivləşdirilməsi – adətən müəllimin şəxsi təşəbbüsü ilə baş verir. Təəccüblü deyildir ki, adi dərs proqramında müəllimin şagirdlərə verdiyi sualların arasında yada salmaq, göstərmək, söyləmək, izah etmək, təsvir etmək, sübut etmək və s. ilə bağlı hər cür suala rast gəlmək mümkündür. Lakin nəyi isə təsəvvür etmək və ehtimal etmək tələbini özündə ehtiva edən sual, demək olar ki, heç vaxt səslənmir. D. Bernal qeyd edirdi ki: "Ənənəvi təlim istedadlı üçün xüsusilə zərərlidir; yenilik üçün edilən istənilən cəhd qınanırsa, bu zaman ideyaların yeni birləşmələrini yaratmaq qabiliyyətinə o qədər təsir göstərilə bilər ki, nəticədə bu qabiliyyət tamamilə itirilmiş ola bilər" [3].

Kahramanoğlu qeyd edir ki, problem əsaslı, layihə əsaslı təlim və cəlbedici tədris strategiyaları şagirdlərin yaradıcı düşünmə bacarıqlarını inkişaf etdirə bilər. Bu tədris strategiyaları sinifdə şagirdlərin yaradıcı düşünmə bacarıqlarının dəstəklənməsi məsələlərini də aktuallaşdırır [4].

Araşdırmalar göstərir ki, müəllimlər məktəb mühitini uşaqların maraq, qabiliyyət, bacarıq və ehtiyaclarına uyğun təşkil edə bilmir, onların yaradıcılığını üzə çıxaracaq fəaliyyətləri təşkil etməkdə çətinlik çəkirlər [6]. Müəllimlər şagirdlərin yaradıcı fəaliyyətə təşviq etmək üçün müvafiq tədris strategiyalarından istifadə etməlidirlər. Məsələn, şagirdləri fəal iştirakçıya çevrilməsi üçün onları problem həlli və elmi axtarış prosesində istiqamətləndirmək vacibdir.

Uşaq yaradıcılığının inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən bir çox tədqiqatlarda müəllim amili xüsusi əhəmiyyət kəsb edir. Belə ki, şagirdləri fəal dərs mühitinə cəlb etmək üçün müəllim şəxsiyyəti şagirdlərdə yaradıcılığının inkişafına mane olan amillərin fərqində olmalı və təlimə yaradıcı yanaşmalıdır. Bu zaman müəllimin şəxsi və peşə keyfiyyətləri, motivasiya və şəxsi ustanovkaları mayak rolunu oynayır. L.B. Yermolayeva – Tominanın fikrincə, müəllimin dərs prosesində aşağıdakılara diqqət yetirməsi daha məqsədəuyğundur [2]:

1. Uşaqların yaradıcı fəallığının təzahürünə diqqət və həssaslıqla yanaşmaq. Bunun üçün müəllim, ilk növbədə, uşaqlara özlərinin yaradıcı ideyalarını ifadə etməyə imkan verməli və həssas dinləyici olmalıdır. O, həmçinin şagirdə özünü və kreativliyini dərk etməyə kömək etməlidir. Bu uşaqları anlamaqda valideynlərə də yardım göstərilməlidir. Yaradıcı uşaqlar üçün əlverişli mühitin yaradılması uşağın nəinki özünün sosial statusunun, eləcə də sinifdəki bütün şagirdlərin "dəyər istiqamətlərinin" dəyişməsinə səbəb olur. Nəticədə yaradıcı təfəkkürün nüfuzu artır ki, bu da öz növbəsində yaradıcı qabiliyyətlərin inkişaf etdirilməsinə təsir göstərir.

2. Müəllim şagirdlərə münasibətdə qərəzli olmamalıdır. Yəni şagirdlərin hər birində yaradıcı qabiliyyət potensialını görmək lazımdır.

3. Müəllimlər uşaqların yaradıcı təşəbbüslərini yalnız sinifdə verilən xüsusi tapşırıqlar zamanı deyil, həm də istənilən digər fəaliyyət zamanı görməlidir. Şagirdlərin xüsusi bacarıqlarının nümayişinə təşviq edilməsi onlarda müstəqillik və kreativliklə səciyyələnən fərdi fəaliyyət üslubunun formalaşmasına imkan yaradır. Qruplara təqdim edilən fərdi tapşırıqların planlaşdırılması ilə bu cür nəticəyə nail olmaq mümkündür.

4. Digər ciddi tələb şagirddə yüksək özünüqiymətləndirmə bacarığının formalaşdırılmasıdır. Bu zaman şagirdlərin yaradıcı nailiyyətlərinin qiymətləndirilməsi müəyyən ümumi meyarlarla deyil, xüsusi həvəsləndirmə-stimulverici formalarla aparılmalıdır. Əsas məsələ uşağın görülmüş işdən zövq alması, sevinc hissi yaşaması və qiymətləndirmə fokusunda özünün məqsədə yönəlməsini görməkdir.

5. Növbəti tələb müəllimin özünün kreativliyinin tərbiyə olunmasından ibarətdir. Şagirdlərin yaradıcı qabiliyyətlərini inkişaf etdirmək üçün müəllimin özü yaradıcı şəxsiyyət olmalı, tədrisdə ətalətin, şablonun, formallığın qarşısını almaqda çətinlik çəkməməlidir.

Yaradıcı müəllim təlim prosesinə fərqli fikirlər, vasitələr gətirərək problemləri həll etməyi bacaran, mühitə tez uyğunlaşan və şagirdlərin gözləntilərinə cavab verən insandır. Bununla yanaşı, o, maraqlı və stimullaşdırıcı öyrənmə mühitini formalaşdırır. Yaradıcı müəllim, təlim prosesini əvvəlcədən zehnində planlaşdıraraq şagirdləri üçün səmərəli öyrənməni təmin edir. Dərsin məzmununu şagirdlərinə maraqlı etmək üçün daima yeniliklər axtarır və hər bir fəaliyyəti motivasiyaedici bir mühitə çevirir. Eyni zamanda o, şagirdləri yaradıcı düşünməyə və davranmağa təşviq edərək onların yaradıcı ola biləcəklərini göstərir. Bütün bu davranışlar, cansıxıcı sinif iqlimini əyləncəli bir sinif mühitinə çevirməklə şagirdlərin öyrənmək istəyini artırır. Yaradıcı müəllim şagirdlər üçün nümunəvi olan və onlarla eyni səviyyədə qalaraq səmərəli ünsiyyət quran, şagirdləri mütəmadi olaraq həvəsləndirən və fərqli öyrənmə mühitləri yaratmağa hazır olan insandır. Yaradıcı müəllim hər bir şagirdi orijinal insan kimi qəbul edir və buna uyğun davranır. O, şagirdi sərbəst hiss etməyə, davranmağa təşviq edir, dərs zamanı xoşbəxt və həyəcanlı olur. Həmçinin hər bir şagirdə eyni cür yanaşarkən, müvəffəqiyyətli olanları da mükafatlandırmağı unutmur və onlarla ünsiyyətdə olur.

İstedadlı şagirdlərin təhsil modellərində də yaradıcılığı inkişaf etdirmək əhəmiyyətli məsələlərdəndir. Müəllimlərin istedadlı şagirdləri yaradıcılığa təşviq etməsi vurğulanır [5]. Bu baxımdan "yaradıcı müəllim" məsələsinin yaxın zamanda həm istedadlıların təhsilində, həm də ənənəvi təhsildə aktuallaşacağı gözlənilir.

Müəllimlik yalnız sosial və fiziki cəhətdən deyil, həm də intellektual, emosional inkişafı hədəfləyən nəzəri və praktik yönümlü peşədir. Yaradıcı elementlərdən istifadə edərək şagirdlərdə bu inkişaf istiqamətlərini formalaşdıran müəllim, bütün yanaşmalarında və şagirdlərlə münasibətlərində çevik və həssasdır. Eyni zamanda, "yaradıcı müəllim" yaradıcılıq anlayışı haqqında məlumatlılığı artırmaq üçün səy göstərir.

Müəllim-şagird qarşılıqlı əlaqəsi pedaqoji münasibətlərin açarı hesab olunur. Qandini və digərləri Recio Emilia məktəblərində yaradıcı fəaliyyətin dəstəklənməsi çərçivəsində uşaqlar və müəllimlər arasında müntəzəm olaraq söhbətlər təşkil etdilər. Müntəzəm aparılan dialoqlar, əməkdaşlıq mədəniyyətini dəstəkləsə də, lakin yaradıcılıq üçün ən əlverişli vəziyyətin bu dialoqların şəxsiyyətlərarası münasibətlər zəminində konfliktlərin müzakirəsi, fikirlərin, davranışların müqayisəsi istiqamətində olduğu görüldü [11].

Kiçikyaşlı məktəblilərin yaradıcılığının inkişafı sağlam müəllim-şagird münasibətindən, həmçinin şagirdlərin həmyaşıdları ilə əməkdaşlıq imkanları ilə sıx əlaqəlidir [7]. Dilon və digərləri, məktəb binasının xarici görünüşünü dəyişmək üçün peyzaj memarları və ibtidai sinif şagirdlərinin birgə çalışdığı layihədə müşahidələr aparmışlar. Onlar müəyyən etmişlər ki, peyzaj memarları ilə ibtidai sinif şagirdləri arasındakı əməkdaşlıq sinif otağından deyil, daha çox açıq havada baş verir. Açıq havada baş verən əməkdaşlıqda müşahidə olunan digər xüsusiyyət də, böyük məktəblilərin özlərini kiçik məktəblilərə həm müəllim, həm də tədqiqatçı kimi yanaşmaları idi [10].

Şagirdlərin yaradıcılığının inkişafında müəllimin peşəkarlıq səviyyəsi və şəxsi keyfiyyətləri mühüm rol oynayır. Müəllim düzgün davranış qaydalarına sahib biri olmalı və yaxşı idarəetməni bacarmalıdır [7, s. 8].

**Nəticə və təkliflər.** Yaradıcılığın inkişafını təmin edən bir çox amillər vardır. Bu məqalədə müəllimin yaradıcı yanaşmasının şagird yaradıcılığının inkişafına təsiri araşdırılmışdır. Yaradıcılığın təhsil praktikasına inteqrasiyası – pedaqoqların hazırlanması, şagirdlərdə yaradıcılığın inkişaf etdirilməsi, yaradıcılığın öyrənmə və təlim prosesinə əsas komponenti kimi daxil edilməsi məsələləri təhsil siyasətinin yeni istiqamətlərini müəyyənləşdirir. Çünki yaradıcılıq idrak prosesləri, şəxsiyyət xüsusiyyətləri və ətraf mühitin təsirlərinin birləşməsini özündə ehtiva edən mürəkkəb və dinamik bir prosesdir. Yaradıcılığa təsir edən müxtəlif amilləri müəyyənləşdirmək təhsil müəssisələrində yaradıcılıq qabiliyyətlərini təşviq etmək və inkişaf etdirmək üçün vacibdir.

Aşağıda qeyd edilən bəzi təkliflər şagirdlərdə yaradıcılığın dəstəklənməsində mühüm rol oynayır.

1. Yaradıcı müəllim şagirdlərdə özünənəzarət bacarıqlarını formalaşdırmalı və onlar üçün müstəqil öyrənmə şəraitini təmin etməlidir.

2. Müəllim şagirdləri məlumatlar arasındakı yeni əlaqələri müəyyən etməyə, birləşdirməyə, xəyal etməyə, problemin fərqli həll yollarını tapmağa, proqnozlaşdırmağa, yeni fikirlər

irəli sürməyə və həmin fikirləri fərqli sahələrə yönləndirməyə təşviq etməlidir.

3. Yaradıcı müəllim situasiyadan asılı olaraq qərarını, qiymətləndirməni təxirə sala bilməlidir. Konkret nəticələri söyləyərək və ya həll yollarını açıqlayaraq şagirdlərdə kəşfetməni məhdudlaşdırmamalıdır.

4. Yaradıcı müəllimin şagirdlərin başqalarının emosiyalarını anlaması, sosial və şəxsiyyətlərarası problemləri dərk etməsi, cəmiyyətin dəyərlər sistemini anlaması və s. üçün bu istiqamətdə müvafiq işləri görməsi məqsədəuyğundur.

5. Yaradıcı müəllim şagirdin müvəffəqiyyətsizlik və məyusluq hallarının dəf edilməsi istiqamətində ona dəstək olmalıdır.

**Problemin aktuallığı.** Kiçikyaşlı məktəblilərdə yaradıcılığın inkişafında müəllimin rolunun aktuallığı şəxsiyyət kimi formalaşmaqda olan şagirdlərdə təkcə biliklərin deyil, həm də müasir cəmiyyətə uğurlu adaptasiyaya kömək edən bacarıqların inkişaf etdirilməsi ilə vurğulanır. Sürətlə dəyişən dünyada yaradıcılıq innovasiyaların və mürəkkəb problemlərin həllinin açarıdır. Yaradıcı inkişafın vasitəçisi rolunu oynayan müəllim çevik təfəkkürün və problemlərin həllinə yaradıcı yanaşmanın formalaşmasında fəal iştirak edir ki, bu da uşaqların gələcək uğurunda və cəmiyyətdə özünügerçəkləşdirməsində özünü göstərir.

**Problemin yeniliyi.** Məqalədə təlim prosesində məktəblilərin yaradıcı şəxsiyyət kimi formalaşmasında rol oynayan müəllimin fəaliyyətinin mühüm aspektləri nəzərdən keçirilib. Müəllim hazırlığında təhsil proqramlarına yaradıcılıq nəzəriyyələrinin daxil edilməsi və tətbiq imkanlarının artırılması müasir təhsilin tələblərindən biri kimi göstərilib.

**Problemin praktik əhəmiyyəti.** Məqalədən müəllimlər, psixoloqlar, gənc tədqiqatçılar faydalana bilər.

**Ədəbiyyat:**


1. Альтшуллер, Г.С. Творчество как точная наука / Г.С. Альтшуллер. – М: Советское радио, – 1979. – 179 с.
2. Мусийчук, М.В. Практикум по развитию креативности личности / М.В. Мусийчук. – Магнитогорск: Магнитогорский государственный педагогический институт, – 1994. – 48 с.
3. Argun, Y. Okul öncesi dönemde yaratıcılık ve eğitimi / Y. Argun. – Ankara: Anı Yayıncılık, – 2012. – 168 s.
4. Kahramanoglu, R. (2019). Öğretmenlerin öğretim programi okuryazarliğina yönelik yeterlik düzeyleri üzerine bir inceleme. Journal of International Social Research, 12(65), 827-840.
5. Sak, U. Yaratıcılık gelişimi ve eğitimi / U.Sak. – Ankara: Ayrıntı basınevi, – 2020. – 211 s.
6. Yuvacı, Z. and Dağlıoğlu, H. (2018). Okul öncesi eğitim alan çocukların ve bulundukları sınıf ortamının yaratıcılık düzeyleri arasındaki ilişkisinin incelenmesi. Erken Çocukluk Çalışmaları Dergisi, 2(2), 234-256.
7. Addison,N. L.Burgess, J.Steers, J.Trowell Understanding Art Education: Engaging reflexively with practice Routledge, London (2010)
8. Collard, P. and Looney, J. (2014). Nurturing creativity in education. European Journal of Education, 49(3), 348-364.
9. Dillon, P. A.Craft, P.Best, A. with Rigby, K.Simms Turning peases west inside out: Flexible educational environments for developing possibilities and pedagogies Creative Partnerships Durham Sunderland (2007)
10. Gandini, L. Hill, L. Cadwell, L.Schwall, C. (Eds.), In the spirit of the studio: Learning from the Atelier of Reggio Emilia, Teachers' College Press, New York (2005)
11. Grant, A. and Sandberg, S. (2016). Originals: how non-conformists move the world. Choice Reviews Online, 53(09), 53-4016-53-4016.
12. Kaplan, D. (2019). Creativity in education: teaching for creativity development. Psychology, 10(02), 140-147.
13. Kuznetsova, N. (2022). External economic effect of the innovation factor of creative industries. Management Theory and Studies for Rural Business and Infrastructure Development, 44(2), 167-175.
14. Mumford, M. and Gustafson, S. (1988). Creativity syndrome: integration, application, and innovation. Psychological Bulletin, 103(1), 27-43.
15. Nazarov, M. (2020). The role of innovation in scientific creation. The American Journal of Social Science and Education Innovations, 02(09)

16. Pentang, J., Bacangallo, L., Buella, R., Rentasan, K., & Bautista, R. (2022). Creative thinking and problem-solving: can preservice teachers think creatively and solve statistics problems? Studies in Technology and Education, 1(1), 13-27.
17. Rotaru, R. (2020). Stimulating primary school children's creativity. Revista Romaneasca Pentru Educatie Multidimensionala, 12(4), 431-439.
18. Silva, O. (1969). Creativity: flow and the psycology of discovery and invention. Linhas Críticas, 8(15), 308-315.

**E-mail:** guliyeva.raziya@gmail.com
**Rəyçilər:** *psixol.ü.fəls.dok.* **İ.H. Sultanova,**
*psixol.ü.fəls.dok.* **A.A. Hümbətova**
**Redaksiyaya daxil olub:** 28.11.2023

*UOT 159.9.*

***Ayşən Fəxrəddin qızı İsmayılova***
*Mingəçevir Dövlət Universitetinin*
*Pedaqogika və psixologiya kafedrasının müəllimi*
*Orcid: 0000-0002-9815-0757*

***Nərgiz Nazim qızı Niftəliyeva***
*Mingəçevir Dövlət Universitetinin*
*Pedaqogika və psixologiya kafedrasının müəllimi*
*Orcid id: 0009-0002-9735-2055*

# ŞƏXSİYYƏT – PSİXOLOGİYA VƏ SOSİAL ANTROPOLOGİYANIN MODELİ KİMİ

***Айшен Фахреддин гызы Исмаилова***
*преподаватель кафедры Педагогики и психологии*
*Мингячевирского государственного университета*

***Наргиз Назим гызы Нифталиева***
*преподаватель кафедры Педагогики и психологии*
*Мингячевирского государственного университета*

# ЛИЧНОСТЬ КАК МОДЕЛЬ ПСИХОЛОГИИ И СОЦИАЛЬНОЙ АНТРОПОЛОГИИ

***Ayşen Fakhraddin Ismayilova***
*teacher of the Pedagogy and psychology department of*
*Mingachevir State University*

***Nargiz Nazim Niftaliyeva***
*teacher of Pedagogy and psychology department of*
*Mingachevir State University*

# PERSONALITY AS A MODEL OF PSYCHOLOGY AND SOCIAL ANTHROPOLOGY

**Xülasə.** Müasir dövrə qədərki zamanlara nəzər saldıqda şəxsiyyətin kimliyi daha çox onun doğulduğu cəmiyyətdə doğulduğu statuslar ətrafında müəyyənləşirdi. Dünyaya gəldiyi andan etibarən onun nə olduğu və necə olması ilə bağlı hər şeyi mühit müəyyən edirdi. Fərd ona verilən rol çərçivəsində formalaşıb və ölənə qədər bu çərçivədə görülürdü. Onun yaşamaqdan başqa bir çox alternativi yox idi. Modernləşmə ilə sonradan əldə oluna biləcək statuslar insanın şəxsiyyətini təyin edən əsas amilə çevrilib. Sözlərdən əlavə, şəxsiyyət sosial həyatı, mədəniyyəti, geyim, qeyri-verbal ünsiyyət forması olan məkan, istifadə olunan əşyalar, yemə və içmə vərdişləri, aksesuarlar və zinət əşyaları ilə formalaşır və təmsil olunur. Bu, şəxsiyyət anlayışını iqtisadiyyatdan sosiologiyaya, psixologiyadan antropologiyaya, sosiologiyadan hüquqa qədər bir çox elm sahəsi ilə əlaqəli edir. Şəxsiyyətin bu çoxölçülü quruluşu və müxtəlif elm sahələrinin hər bir ölçü ilə məşğul olması şəxsiyyəti mürəkkəb və olduqca mübahisəli bir mövzuya çevirir.

Sosial antropologiyada şəxsiyyət sosial və mədəni reallığı ilə bağlı öz anlayışını ifadə edir. Başqa sözlə, fərdin özünü necə təyin etməsi, mənsub olduğu qrup tərəfindən necə formalaşması kimi elementlərdən ibarətdir.

Psixologiyada insan şəxsiyyət kimi qiymətləndirilərkən onun sosial tərəfi ön plana çəkilir. Psixologiyada şəxsiyyət fərdin obyektiv fəaliyyətdə və ünsiyyətdə əldə etdiyi və sosial münasibətlərin şəxsiyyətdə təmsil olunma dərəcəsini xarakterizə edən sosial keyfiyyətə aiddir.

***Açar sözlər:*** *şəxsiyyət, sosial antropologiya, mədəniyyət, qrup, fəaliyyət, ünsiyyət*

**Резюме.** Когда мы смотрим на времена, предшествовавшие современной эпохе, личность человека в основном определялась статусом в обществе, в котором он родился. С того момента, как он пришел в мир, все о том, кем он был, определялось его окружением. Индивид формировался в рамках отведенной ему роли и рассматривался в этих рамках до самой смерти. У него не было другого выбора, кроме как жить. В условиях модернизации статусы, которые можно получить позже, стали основным фактором, определяющим личность человека. Фактор личности стал более актуальным по мере того, как эпоха становилась более современной. Помимо слов, личность формируется и репрезентируется социальной жизнью, культурой, одеждой, невербальными формами общения, пространством, используемыми вещами, привычками в еде и питье, аксессуарами и украшениями. Это делает концепцию идентичности актуальной для многих областей науки: от экономики до социологии, от психологии до антропологии, от социологии до права. Эта многомерная структура личности и тот факт, что каждое измерение изучается в разных областях науки, делают личность сложной и весьма противоречивой темой. В социальной антропологии идентичность выражает понимание социальной и культурной реальности. Другими словами, оно состоит из таких элементов, как то, как человек определяет себя, как его формирует группа, к которой он принадлежит. В психологии, когда человека оценивают как личность, на первый план выходит его социальная сторона. В психологии личность обозначает социальное качество, которое приобретает личность в предметной деятельности и общении, и характеризует степень выраженности социальных отношений в личности.

***Ключевые слова:*** *личность, социальная антропология, культура, группа, деятельность, общение*

**Summary.** If we look at the times before the modern era, the identity of the person was mostly defined around the statuses he was born in the society where he was born. From the moment he came into the world, everything about what he was and how he was was determined by his environment. The individual was formed within the framework of the role assigned to him and was seen within this framework until his death. He didn't have much of an alternative but to live. With modernization, the statuses that can be obtained later have become the main factor that determines a person's personality. The personality factor became more relevant as the era became more modern.

In addition to words, personality is formed and represented by social life, culture, clothing, non-verbal forms of communication, space, objects used, eating and drinking habits, accessories and jewelry. This makes the concept of identity relevant to many fields of science, from economics to sociology, from psychology to anthropology, from sociology to law. This multidimensional structure of personality and the fact that different fields of science deal with each dimension make personality a complex and highly controversial topic.

In social anthropology, identity expresses one's understanding of social and cultural reality. In other words, it consists of elements such as how an individual defines himself, how he is formed by the group he belongs to.

In psychology, when a person is evaluated as a personality, his social side comes to the fore. In psychology, personality refers to the social quality that an individual acquires in objective activity and communication and characterizes the degree of representation of social relations in personality.

***Key words:*** *personality, social anthropology, culture, group, activity, communicatio*

İnsanın sosial mahiyyətinin öyrənilməsinə ən böyük töhfə vermiş elmi fənlər arasında sosial antropologiyanı, psixologiyanı, o cümlədən sosial psixologiyanı və sosiologiyanı xüsusi qeyd etmək lazımdır. Onların hər birinin fənn spesifikliyi və tədqiqat metodologiyası ilə müəyyən edilən şəxsiyyət anlayışına öz yanaşması var.

Bu yanaşmalar arasındakı əsas fərq belədir: antropoloji yanaşma lap əvvəldən insanın təbiətinin və mədəniyyətdə universal və konkret olaraq insani mövcudluq yolu kimi ifadə olunan həyat formalarının öyrənilməsinə yönəlmişdir. İnsanın psixoloji təhlili cəmiyyətin inkişafı, emosiyaların, hisslərin, idrak və digər psixi proseslərin məcmusunu əhatə edən onun “daxili dünyasının” öyrənilməsinə yönəlir. Sosioloji yanaşma isə öz növbəsində, insanı bir fərd kimi və onun sosial mühitlə münasibətlər sistemində təmsil olunan institusional formaları öyrənməyə yönəlmişdir.

Amma elə bir elmi bilik sahəsi var ki, orada bu fərq öz mənasını itirərək öz yerini insan təbiətinə kompleks baxışa verir. Söhbət təbiət və ictimai elmlərin tərkib hissələrini öz strukturunda birləşdirən azsaylı insan elmlərindən biri olan antropologiyadan gedir. İnsana antropoloji baxış bütövlükdə və kompleks yanaşma ilə seçilir.

Müasir antropologiya mədəniyyətdə insanı öyrənən, insan varlığının müxtəlif aspektlərini açan bir sıra elmlərdəndir. Beynəlxalq ünsiyyətdə antropologiya bu gün ən çox antropologiyanın sosial-mədəni sahələrinə istinad edir. Müasir antropologiya insan haqqında sosial varlıq kimi çıxış edir. İnsan varlığının müxtəlifliyini öyrənərək, fəlsəfi, bioloji, linqvistik, sosial-mədəni və mədəni-psixoloji tədqiqatların geniş panoramasını təqdim edir. O, insan inkişafına həm gündəlik davranış strategiyalarını, həm də regional sosial-mədəni təcrübələri daxil edən perspektivdən baxır. Qlobal proseslər və yerli problemlər, planetar kimlik və bu dünyanı sözün əsl mənasında burada və indi dəyişən transmilli qarşılıqlı əlaqə axını hesab edir.

Cəmiyyət hər birinin müxtəlif maraqları və ehtiyacları olan fərdlərin birliyindən başqa bir şey deyil. Bu kontekstlərdə, əgər cəmiyyət yaşamaq istəyirsə, üzvlərinin fərdi maraqlarını bütövlükdə cəmiyyətin gözləntiləri ilə tarazlaşdırmağa nail olmalıdır. Buna nail olmaq üçün cəmiyyət mədəni standartlara riayət etməyi mükafatlandırır. Bir çox hallarda bu mükafatlar sosial təsdiqin müxtəlif formaları kimi görünür. [5, s.135]

Mövcud sosial-mədəni dəyişikliklərin əsas xüsusiyyətləri, məsələn, hərəkətlilik, çeviklik, axıcılıq, axın vəziyyəti, mümkün olan məkan, müasir şəxsiyyət psixologiyasının diskurslarına nüfuz edir. Yeniləşmə və metodoloji axtarışların gizli ümumi elmi hərəkatı psixologiya problemlərini yenidən düşünən, fərdi inkişafın təhlilində müasirliyin sosial-mədəni dinamikasını nəzərə alan, kontekstuallıq və keçidliliyi nəzərə alaraq insanı və dünyanı dərk edən çox spesifik yanaşmalarda özünü göstərdi.

Şəxsiyyət psixologiyasında antropoloji diskurs metodoloji yenilənmə vasitələrindən yalnız biridir. Sosial antropoloji baxış təkcə mövcud normativlikdən kənara çıxan həyat və düşüncə tərzlərinin öyrənilməsinə, həm də mövcud tədqiqat paradiqmasının diqqət mərkəzinə düşməyən dəyişikliklərin aspektlərini kəşf etməyə imkan vermir. Eyni zamanda şəxsiyyət psixologiyasında antropoloji yanaşma metodoloji, ümumi humanitar və çox xüsusi tədqiqat problemlərinin həllinə kömək edir. Çünki, ümumbəşəri qanunlar axtarışına meylli olmasına baxmayaraq, şəxsiyyətə və onun həyat dünyasına müraciət edərək, psixologiya elmi çox vaxt etnoqrafik təsvirlərin insanın bütün həyatını onun varlığının kortəbii axınlarında tutmağa kömək etdiyi nadir hallarla məşğul olur. Antropoloji diskurs tədqiqatın makro və mikro səviyyələrini birləşdirərək antinomiyaların həllinə kömək edir, insan həyatındakı dəyişkənliyi və sabitliyi vurğulayır, panoramik görmə qabiliyyətini itirmədən, detallara nəzər salmağa imkan verir.

Ədəbiyyatlarda insanların həyat dünyasına diqqət yetirən iki antropologiyaya rast gələ bilərik: sosial antropologiya və mədəni antropologiya. İki terminin mövcudluğuna baxmayaraq, müasir antropoloqlar cəmiyyəti və mədəniyyəti bir-birindən təcrid olunmuş iki fenomen kimi öyrənməyin kifayət qədər çətin, daha doğrusu, qeyri-mümkün olduğunu qəbul edirlər. Buna baxmayaraq, sosial və mədəni antropologiya arasındakı fərq alim-antropoloqun müəyyən bir akademik ənənəyə və ya elmi məktəbə mənsubluğunun əlaməti olaraq qalır. Bu sahədə alimlər tərəfindən işlənib hazırlanmış ən mühüm mövzular arasında mədəniyyət, böyüklərin fəaliyyəti üçün uşaqlığın əhəmiyyətinin təhlili, mədəniyyət tipini müəyyən edən konkret şəxsiyyət tipidir.

Sosial antropologiya elmi keçmiş və indiki cəmiyyətlərdə yaşayan insanların müxtəlif aspektlərini öyrənir. İnsanların mədəni və fiziki quruluşunu araşdıran antropologiya bəşər tarixinin ən qədim dövrlərini işıqlandırmağa kömək edir. Bu elmin məqsədi insanları mədəni, sosial və bioloji müxtəlifliklərində dərk etməkdir. Bəşəriyyət yaranandan bəri icmaların müxtəlif şərtlərə necə uyğunlaşdığını, bu uyğunlaşma formalarının necə inkişaf edib dəyişdiyini, müxtəlif qlobal hadisələrin necə çevrildiyini görməyə və göstərməyə çalışır.

Mədəniyyət və şəxsiyyətin mədəniyyət antropoloqları milli xarakterin formalaşmasına təsir edən iki amil kimi mədəni model və uşaq tərbiyəsi təcrübəsini adlandırdılar. Sonuncu böyük diqqət çəkdi, çünki ilk illərdə öyrənmə nümunələrinin zamanla təsirini davam etdirdiyinə inanılır. Şəxsiyyətin əsas quruluşunu və milli xarakter strukturunu əvvəlcədən müəyyən edən təhsil təcrübələridir.

İnsanın yer üzünün istənilən yerində yaşamaq azadlığı onun fiziki quruluşuna, davranışına və mədəniyyətinə köklü şəkildə təsir edib. Beləliklə, bütünlüklə tək bir növə aid olmasına baxmayaraq, indiki insanlar bir çox heyvan nö-

vündən fərqli fiziki quruluşa malikdirlər. Eynilə, insan mədəniyyətləri və dilləri hər yerdə geniş şəkildə oxşardır, lakin təbiətdəki və fiziki mühitdəki fərqlər, digər qruplarla əlaqə və hər bir insan qrupuna xas olan tarixi hadisələr daim təəccüblü mədəni və dil fərqlərinə səbəb olur.

Mədəniyyətin daxili ardıcıllığı yalnız fərdin problemlərin öhdəsindən gəlmək qabiliyyətinin yüksəldiyi dərəcədə davam etdirilə bilən bir məsələ idi. Bu baxımdan problemli mədəniyyət elementləri zaman keçdikcə ya dəyişərək, ya da başqa bir forma çevrilərək bu daxili ardıcıllığın bərpasına xidmət edəcək şəkildə mövcud ola bilər. [2. s. 54]

Sosial antropologiya etnik antropologiyanın nailiyyətləri əsasında inkişaf edir. Sosial antropologiya insanın onun əhatəsində olduğu mədəniyyətlə qarşılığını öyrənir. Ümumilikdə mədəniyyət anlayışını bilmədən onun funksiyasını, istiqamətini, rolunu qiymətləndirmədən insanın mədəniyyətlə qarşılıqlı təmasını düzgün səciyələndirmək olmaz. İnsan mədəniyyətdən kənarda deyil, fərd mədəniyyətin daşıyıcısıdır. Hansısa mədəniyyəti təmsil edən eyni zonada mədəniyyəti yaradan da elə insanın özüdür. Deməli sosial varlıq kimi insan həm öz daxilində hansısa mədəniyyəti daşıyır. Eyni zamanda müəyyən mədəni mühitdə fəallıq göstərir. Sosial antropologiya məhz fərdin əhatə olunduğu mədəniyyətlə münasibətini öyrənir. Məhz buna görə də bu elmin əsas açar termini “mədəniyyət”dir. Mədəniyyət anlayışı çox aspektlidir. O həm tarixi, dini, fəlsəfi mənada izah olunur. Mədəniyyətin insanın yaratdığı maddi və mənəvi nemətlərin məcmusudur. Mədəniyyət insanların birgə fəaliyyətinin ümumi məcmusudur. Bu birgə fəaliyyətdə həm neqativ, həm də pozitiv hadisələr olur. Tədqiqatçılar mədəniyyət və sivilizasiya anlayışlarını bir-birindən fərqləndirirlər. Sivilizasiya konkret zaman kəsiyində insanın fəaliyyətini əhatə edir. Bu fəaliyyətdə mütərəqqi proseslərlə yanaşı, demoqrafik partlayışlar, müharibələr, kütləvi qırğınlar və s. fəlakətlər də başlayır. Lakin, ekoloji problemlərin qabardığı müasir sivilizasiyalardan fərqli olaraq mədəniyyət yalnız mütərəqqi prosesləri nəzərdə tutur. Beləliklə, mədəniyyət termini insanın birgə fəaliyyətinin bir tərəfini pozitiv təcrübəsini ifadə edir. Sosial antropologiyanın tədqiqat obyekti müəyyən sosial və təbii əhatədə götürülmüş insan təşkil etsə də, sosial mühit əslində sosioloji birliklərlə öyrənir və sosial insanın müəyyən sosial qruplara, təbəqə və siniflərə bölünmüş halda tədqiq edir. Bu mənada sosial antropologiyanın açar kateqoriyası cəmiyyətdir. Sosial antropologiyanın tədqiqat obyektinə coğrafi şəraitdə daxildir. Çünki, hər hansı bir mədəniyyət müəyyən coğrafi mühitdə formalaşır. Məsələn, sərt şimal iqlimində yaşayan etnosun yaşayış evləri, geyim tipləri, bununla bağlı dini görüşləri isti cənubda yaşayan xalqlardan tamamilə fərqlənir.

Bununla belə, status və rol anlayışları şəxsiyyətin özünün mahiyyətini – insanın bir fərd kimi sərbəst, müstəqil və məsuliyyətli fəaliyyət göstərmə qabiliyyətini, yəni status-rol məhdudiyyətlərindən və normativ tənzimləmələrdən kənara çıxmaq qabiliyyətini əhatə etmir.

İnsanın sosial həyatda yeri təsadüfən, doğuşla, şəraitlə ona verilə, təyin oluna bilər. İnsanın həyatda yerini öz iradəsinə və azad, şüurlu seçiminə görə özü seçmək, tapmaq, fəth etmək olar. Bu vəziyyətdə, subyektin həyatda mövqeyini seçməsindən, şəxsi müqəddəratını təyin etməsindən danışırlar. Vəzifə insanın bir fərd kimi ən bütöv xüsusiyyətidir. Şəxsiyyət həyatda, cəmiyyətdə, mədəniyyətdə öz yerini sərbəst, müstəqil və məsuliyyətlə müəyyən edən şəxsdir. Buna görə də şəxsiyyət tamamilə sosial-mədəni formalaşmadır. Şəxsiyyət özünü sərbəst müəyyən edən, mədəniyyət məkanında və tarix dövründə öz mövqeyini inkişaf etdirmiş subyektdir.

Ancaq başqaları ilə münasibətlərdə birdəfəlik mövqe tutmaq mümkün deyil. Mövcudluğun hər anında azad və müstəqil seçim ehtiyacı, başqaları və özü qarşısında öz hərəkətlərinə görə məsuliyyət daşımağın qaçılmazlığı yenidən yaranır. Ona görə də şəxsiyyət birdəfəlik formalaşmış keyfiyyət, vəziyyət, struktur və ya səviyyə deyil. Şəxsiyyət hərəkət tərzidir, varlıq tərzidir, hərəkət predmetidir.

Deməli, insan hər dəfə özünü bir şəxsiyyət kimi təsdiq etməli, məktəb yaşından tutmuş qocalığa kimi öz mövqelərini seçməli və müdafiə etməlidir. Şəxsiyyət insan varlığının spesifik bir yoludur, lakin məcburi deyil. Bir insan fərdi şəkildə yaşamaya bilər: o, məsələn, fərdi, subyektiv şəkildə, mənəvi üstünlükləri və hərəkətləri ilə yaşaya bilər.

Hər bir fərd öz mədəniyyəti ilə inteqrasiya olunmuş və cəmiyyət tərəfindən mənimsənilmiş

şəxsiyyətini yaradır. Hər bir cəmiyyətdə fərdi düşüncə, davranış və münasibətdə ümumi oxşarlıq və ardıcıl inteqrasiya baş verir.[1, s.102]

İnsan bəşər mədəniyyətində mövcud olan mənfi norma və dəyərlər üzərində özünü təsdiq edə bilər. Ona görə də şəxsiyyətə yalnız müsbət işarə ilə baxmaq olmaz. Bu, xüsusilə tarixi şəxsiyyətlər adlanan əsərlərdə özünü büruzə verir. Onların arasında çoxlu qəhrəmanlar və mütərəqqi şəxsiyyətlər, eyni zamanda çoxlu bədxahlar və qaranlıq şəxsiyyətlər var.

Fərd elə bir insandır ki, ona bənzər başqaları ilə münasibətdə, konkret sosial icmalar çərçivəsində müəyyən funksiyaları yerinə yetirir, öz fəaliyyətində sosial əhəmiyyətli xassələri və keyfiyyətləri həyata keçirir. Ona görə də şəxsiyyət anlayışı həm təbiətinə, həm mahiyyətinə, həm də xarakterinə görə sosial-fəlsəfi məna daşıyır.

Aydındır ki, hər bir insanın özünəməxsus dəyəryönləri, davranış motivləri, sosial münasibətləri, maraqları və s. Ancaq yalnız onların arasında əksər insan qruplarına xas olan tipikləri müəyyən etməklə müəyyən cərəyanların hərəkətlərini, qanunauyğunluqların mövcudluğunu aşkar etmək mümkündür ki, bu da öz növbəsində müəyyən nəticələr çıxarmağa və həm nəzəri, həm də praktik xarakterli tövsiyələr verməyə imkan verir.

Şəxsiyyət məkanı insanın sosial davranışının, hərəkətlərinin məkanıdır, yəni şəxsiyyət hərəkətlər vasitəsilə təzahür edir və formalaşır. İnsana sərbəst, müstəqil və məsuliyyətli seçim aktını həyata keçirməyə, öz mövqeyini müdafiə etməyə imkan verən hərəkətləri yerinə yetirmək imkanı verən şəxsiyyətin psixoloji formalaşması subyektivliyin xüsusi səviyyəsini və xüsusi strukturunu təşkil edir. Bu baxımdan, insanın subyektivliyi, qabiliyyətləri və psixi həyatının mexanizmləri fərdin psixoloji formalaşmalarına onların xüsusi ilkin şərtləri kimi daxil edilir.

Şəxsiyyətin formalaşması prosesində insan bir neçə mərhələlərdən keçir: uyğunlaşma (inkişafın ilkin mərhələlərində) – sosial dəyərlərin, qayda və davranış normalarının nisbətən konfliktsiz mənimsənilməsi prosesləri ilə əlaqələndirilir; fərdiləşdirmə – genetik olaraq müəyyən edilmiş şəxsiyyət amillərinin inkişafı baş verir; fərdi xüsusiyyətlərin və sosial normaların inteqrasiyası.

Geniş mənada insan şəxsiyyəti biogen, sosiogen və psixogen elementlərin ayrılmaz birliyidir.

Şəxsiyyətin sosial "ölçüsü" insanın böyüdüyü və iştirak etdiyi icmaların mədəniyyətinin və quruluşunun təsiri ilə müəyyən edilir. Şəxsiyyətin ən mühüm sosiogen komponentləri onun müxtəlif icmalarda (ailə, məktəb, həmyaşıdlar qrupu) yerinə yetirdiyi sosial rollar, eləcə də subyektiv mən, yəni başqalarının özümüz haqqında təsəvvürlərindən yaradılmış özümüz haqqında təsəvvürlər toplusudur.

Şəxsiyyətin mahiyyəti insanın digər insanlarla münasibətlərindəki mövqeyinin və mövqeyinin öyrənilməsində, onun həyat məqsədlərində və onların arxasında duran motivlərdə, ümumi məqsəd və vəzifələrə münasibətdə davranış üsullarında və fəaliyyət vasitələrində aşkar edilir.

Şəxsiyyət anlayışı mövqe anlayışı və bununla bağlı sosial rol və sosial status anlayışları ilə sıx bağlıdır. Rol, müəyyən bir sosial qrupun strukturunda bir insanın gözlənilən davranışına uyğun gələn bir proqramdır və bu, onun cəmiyyətin həyatında verilmiş, sərbəst olmayan bir şəkildə iştirakıdır. Vəziyyət müəyyən edilmiş sosial münasibətlər sisteminə daxil olan bir insanın davranışını təsvir edir, burada ona fəaliyyət yeri və metodu, bir növ normativ davranış təyin olunur. Status sistemində həmişə münasibətlərimizi və hərəkətlərimizi tənzimləyən normalar mövcuddur.

Antropoloqlar həmişə qeyri-institusional reallığın dərin qatlarına nüfuz edərək müxtəlif sosial-mədəni hadisələrin köklərini axtarırlar ki, bunlar da diffuz, strukturdan əvvəlki və əsasən şüursuz xarakter daşıyır. Müəyyən bir sosial təşkilatın xarici fasadının arxasında insanların sinkretik əlaqəli hərəkətləri, təcrübələri və zehni hərəkətlərinin təcrid olunmuş komplekslərini kəşf etməyə çalışırlar.

Bununla belə, şəxsiyyətin formalaşdığı və inkişaf etdiyi obyektiv mövcud mədəni formaların təhlili onun təbiətini başa düşmək üçün kifayət deyil. Bir sıra antropoloqların fərdin yaşadığı cəmiyyətin mədəni kontekstindən asılı olaraq dəyişən psixoloji strukturunun öyrənilməsinə müraciət etmələrinin səbəbi də budur.

Beləliklə, şəxsiyyətin öyrənilməsinə antropoloji yanaşma koqnitiv mənada, bir tərəfdən, fərdin formalaşdığı obyektiv mövcud həyat formalarının inteqrasiyasına, digər tərəfdən, şəxsiyyətin mədəni cəhətdən müəyyən edilmiş struktur və tipoloji xüsusiyyətlərinə yönəldilmişdir.

Ümumiyyətlə, sosial antropologiya fərd daha doğrusu, fərdin ümumi varlığı prizmasından öyrənir. Buna görə də o, müəyyən etnik qrupun və ya icmanın həyatında mədəni universalların təzahürü ilə maraqlanır. Digər elmlərdən fərqli olaraq, antropologiya şəxsiyyətin inkişafının bütün sosial-mədəni kontekstini nəzərdən keçirir və sosiologiyadan fərqli olaraq mədəniyyətin simvolik təbəqələrində kök salmış psixikanın dərin strukturlarının öyrənilməsini əhatə edir.

Şəxsiyyət sosial anlayışdır, insanda fövqəltəbii və tarixi olan hər şeyi ifadə edir. Şəxsiyyət anadangəlmə deyil, mədəni-sosial inkişaf nəticəsində yaranır.

Uşaq doğulduğu gündən valideynlərin statusu və vəziyyətindən, iqtisadi, siyasi və hüquqi mövqeyindən, peşəsindən, təhsilindən və s.-dən asılı olaraq müəyyən ictimai mühitdə formalaşır. Ailənin maddi və mənəvi həyat səviyyəsində əmələ gələn kəskin dəyişikliklər şəxsiyyətin formalaşması şəraitinə bilavasitə təsir göstərir. [3, s.133]

Şəxsiyyət xüsusiyyətləri ilə bağlı nəticələr bu şəbəkəni təşkil edən digər insanların davranışlarının proqnozlaşdırıla bilməsini təmin etmək və sosial dünyanı başa düşülən etmək üçün yüksək funksional bir mənbədir. Şəxsiyyəti təkamül nöqteyi-nəzərindən tədqiq edən psixoloqlar qeyd edirlər ki, şəxsiyyətin əsas xüsusiyyətlərini başa düşmək və ayırd etmək səyi sosial qarşılıqlı əlaqəni asanlaşdırmaq və tənzimləmək funksiyasına malikdir. [4, s. 73]

Beləliklə, psixologiyada şəxsiyyət inkişaf etmiş vərdişlər və üstünlüklər, psixi münasibət və ton, sosial-mədəni təcrübə və qazanılmış biliklər, insanın gündəlik davranışını və cəmiyyət və təbiətlə əlaqələrini müəyyən edən psixofiziki xüsusiyyətlərin və xüsusiyyətlərin məcmusu, arxetipidir. Bəzi hallarda şəxsiyyət müxtəlif vəziyyətlər və sosial qarşılıqlı əlaqə qrupları üçün hazırlanmış "davranış maskalarının" təzahürünün nəticəsi kimi başa düşülür.

Bu gün elmdə "şəxsiyyət" sözü insanın xüsusi keyfiyyəti və ya xüsusiyyəti deməkdir. Şəxsiyyət bir insanı onun sosial əlaqələri və münasibətləri, yəni digər insanlarla münasibətləri baxımından xarakterizə edir. Nəticə etibarı ilə şəxsiyyət anlayışı insanın özünəməxsus mövcudluğunu ifadə edir – cəmiyyətin üzvü, müəyyən sosial qrupun nümayəndəsi kimi. Şəxsiyyət psixologiya və sosial antropoloji prinsipin həyata keçirilməsinin yeni versiyasında, insanın psixoloji bilik sistemində formal qnoseoloji quraşdırmanın öhdəsindən gəlməyə, insana yeni rasional yanaşma qurmaq cəhdinə çevrilmişdir. Şəxsiyyət amilinin formlaşmasında qrupların, mədəniyyətin, daxil olduğu cəmiyyətin və ünsiyyət sferasının rolu danılmazdır. Şəxsiyyət tədqiqatına çoxlu sayda yanaşma var. Bu, hər hansı bir təcrübənin yalnız müəyyən bir sahəyə aid olduğu bir sahədə tamamilə təbiidir, obyektin özünün mürəkkəbliyi ilə hər hansı müqayisədən tamamilə kənardır. Şəxsiyyəti struktur vasitəsilə və ya fizioloji reaksiyaları nəzərə almaqla və ya şəxsiyyətin əqli, fiziki aspektlərinin əlaqəsi ilə nəzərdən keçirmək imkanı var.

Əvvəlcə yalnız təbii psixi funksiyaları ehtiva edən doğulmuş fərd zaman keçdikcə cəmiyyətə qoşulduqca ictimailəşir yəni, şəxsiyyətə çevrilir. Bununla yanaşı, sosial-mədəni mühit şəxsiyyətin inkişafını qidalandıran, onun rollarını, dəyərlərini, sosial normalarını aşılayan mənbədir. İşimizdə müəyyən etdik ki, şəxsiyyət sosial və antropoloji cəhətdən şərtlənən, təbiətcə sosial əlaqələrdə və münasibətlərdə özünü göstərən, insanın mühüm əhəmiyyət kəsb edən əxlaqi hərəkətlərini müəyyən edən psixoloji xüsusiyyətləri sistemində qəbul edilən bir insandır.

**Problemin aktuallığı.** Şəxsiyyət problemi elmin müxtəlif sahələrində çalışan alim və mütəfəkkirlərin illərlə diqqət mərkəzində dayanan mühüm problemlərdən biri olmuş və müasir dövrdə də öz aktuallığını saxlamaqdadır. Müasir psixologiyada şəxsiyyət, onun fəallığı, formalaşması, strukturu kimi məsələlər, ümumiyyətlə şəxsiyyət anlayışının mahiyyəti barədə müxtəlif fikirlər irəli sürülür. Bu bir daha həmin problemin mürəkkəb və çətin olduğunu təsdiq edir. Psixologiyada və sosial antropologiyada insan şəxsiyyət kimi qiymətləndirilərkən onun sosial tərəfi ön plana çəkilir. Şəxsiyyət amili dövr müasirləşdikcə daha da aktuallaşmağa başlayıb.

**Problemin elmi yeniliyi.** Şəxsiyyət sosial və antropoloji cəhətdən şərtlənən, təbiətcə sosial əlaqələrdə və münasibətlərdə özünü göstərən, insanın mühüm əhəmiyyət kəsb edən əxlaqi hərəkətlərini müəyyən edən psixoloji xüsusiyyətləri sistemində qəbul edilən bir insandır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə qeyd olunan fikirlər ali təhsil məktəblərində dərs deyən müəllimlər və geniş ictimaiyyət üçün aktualdır.

**Ədəbiyyat:**


1. Atatürk Üniversitesi. Sosyal Antropoloji / Atatürk Üniversitesi. – Erzurum, – 2012. – 311 s.
2. Aydın, S. Antropoloji. / S. Aydın, Y.S. Erdal. – Anadolu Üniversitesi, – 2007. – 258 s.
3. Bayramov, Ə. Psixologiya / Ə. Bayramov. Ə. Əlizadə. – Bakı, – 2009. – 620 s.
4. Karakelle, S. Psikoloji / S. Karakelle. – İstanbul Üniversitesi, – 2016. – 254 s.
5. Haviland, W. Kültürel antropoloji / W. Haviland., H. Prin., D. Walrath , McBride B., – İstanbul, – 2008. – 442 s.


**E-mail:** ismayilzade_omer@mail.ru
nniftelieva@list.ru
**Rəyçilər:** *ped.ü.fəls.dok,* **S.Ə. Məmmədov,**
*ped.ü.fəls.dok,* **K.H. Cabbarova**
**Redaksiyaya daxil olub:** 18.09.2023

*UOT 159.9.*

***Sona İbrahim qızı Əliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*Orcid: 0000-0002-2696-4292*

# AZƏRBAYCAN AİLƏSİNDƏ QARŞILIQLI MÜNASİBƏTLƏRİN ETNOPSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Сона Ибрагим гызы Алиева***
*старший преподаватель*
*Азербайджанского государственного педагогического университета*

# ЭТНОПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ВЗАИМООТНОШЕНИЙ В АЗЕРБАЙДЖАНСКОЙ СЕМЬЕ

***Sona Ibrahim Aliyeva***
*head teacher of Azerbaijan State Pedagogical University*

# ETHNOPSYCHOLOGICAL CHARACTERISTICS OF MUTUAL RELATIONS IN THE AZERBAIJANI FAMILY

**Xülasə.** Ailə ictimai – tarixi hadisədir. Ailə münasibətləri cəmiyyətdə bərqərar olmuş ictimai münasibətlərlə bilavasitə bağlıdır. Cəmiyyət dəyişdikcə, ailə də dəyişir və inkişaf edir. Ailə həyatının vektoru bilavasitə ailə münasibətləri ilə şərtlənir. Onların araşdırılması ailə psixologiyasının önəmli problemi kimi diqqəti cəlb edir. Ailə həyatının sosial-psixoloji effektləri, hər şeydən öncə, ailə konfliktləri məhz ailə münasibətləri zəminində əmələ gəlir və inkişaf edir. Tarixi inkişafın bütün mərhələlərində ailə cəmiyyətin maddi həyat şəraiti ilə üzvi surətdə əlaqədar olmuşdur. Azərbaycan psixologiyasında ailə münasibətləri ailə həyatının başlıca problemi kimi dəyərləndirilir və müxtəlif aspektlərdə araşdırılır.
***Açar sözlər:*** *ailə, münasibətlər, cəmiyyət, konflikt, ünsiyyət, ictimai*

**Резюме.** Семья – это общественно-историческое событие. Семейные отношения напрямую связаны с общественными отношениями, сложившимися в обществе. Вместе с обществом меняется и семья. Вектор семейной жизни определяется непосредственно семейными отношениями. Их исследование привлекает внимание как важная проблема семейной психологии. Социально-психологические последствия семейной жизни, прежде всего, семейные конфликты возникают и развиваются на основе семейных отношений. На всех этапах исторического развития семья была органически связана с материальными условиями жизни общества. В азербайджанской психологии семейные отношения оцениваются как основная проблема семейной жизни и исследуются в различных аспектах.
***Ключевые слова:*** *семья, отношения, общество, конфликт, общение, общественный*

**Summary.** Family is a social-historical event. Family relations are directly related to social relations established in society. As society changes, so does the family. The vector of family life is determined directly by family relations. Their investigation attracts attention as an important problem of family psychology. Social-psychological effects of family life, first of all, family conflicts arise and develop on the basis of family relations. At all stages of historical development, the family was organically connected with the material living conditions of the society. İn Azerbaijani psychology, family relations are valued as the main problem of family life and are investigated in various aspects.
***Key words:*** *family, relationships, society, conflict, communication, public*

Ailə problemlərinin tədqiqi, onların qloballaşan ictimai-siyasi, sosial-psixoloji proseslər zəminində öyrənilməsi xüsusi aktuallıq kəsb edir. Ailə həyatı mürəkkəb və çoxcəhətlidir –

ailə həyatı psixologiyasının əsas paradiqmalarından biri belədir. İkinci paradiqmaya görə, ictimai-siyasi, sosial-psixoloji faktorlar bilavasitə ailə-nikah münasibətlərinin mahiyyətinə və məzmununa həlledici təsir göstərir.

Azərbaycan psixologiyasında ailə münasibətləri ailə həyatının başlıca problemi kimi dəyərləndirilir və müxtəlif aspektlərdə araşdırılır.

Ötən əsrin 90-cı illərində Azərbaycan məktəblərində "Ailə həyatının psixologiyası və etikası" fənni tədris olunmağa başlanılmışdır. Bu illərdə Ə.Əlizadə və A. Abbasovun "Ailə" dərsliyində ailə münasibətləri sistemli nəzərdən keçirilir. Ə.Ə. Əlizadənin "Azərbaycan etnopsixologiyasına giriş" (Bakı, 2003) monoqrafiyasında ailə münasibətlərinin etnopsixoloji məsələləri maraqlı materiallarla araşdırılmışdır.

L. Cabbarovanın "Tənhalıq halətinin fəsadları və profilaktikası", K. Şiriyevanın "Azərbaycanın cənub zonasında ailə konfliktləri", V.N. Əliyevin ekstremal şəraitdə davranışın xüsusiyyətləri kimi tədqiqatlarında ailə münasibətləri özünəməxsus bir fonda – ailə konfliktləri fonunda araşdırılır.

Ailənin yaranmasında 2 nəfər – ər və arvad iştirak edir. Ər və arvadın şəxsi səadəti, gələcək ailənin, uşaqların xoşbəxtliyi, ümumiyyətlə, onların bir şəxsiyyət kimi necə formalaşmalarından asılıdır.

Ailədə ər-arvad orta hesabla 32-40 il birgə ömür sürür. Azərbaycan respublikasında – uzunömürlülər diyarında 100 ildən artıq birlikdə ömür-gün sürmüş xoşbəxt adamlar da vardır. Hər bir gənc bilməlidir ki, kiminlə ailə qurur, yaşayır, onun hansı xüsusiyyətləri vardır?

Ər və arvadın bir-birinə uyuşması özünün bir mühüm xüsusiyyətinə görə başqa adamlar arasındakı uyuşmadan fərqlənir: o, adətən məhəbbət hissinə əsaslanır. Ailə inkişaf etdikcə, ər-arvadın münasibətləri də mürəkkəbləşir. Onların bir-birinə uyuşmasında müxtəlif amillər mühüm rol oynamağa başlayır. İnsan həyatının çox mühüm hissəsi ailədə – həyat yoldaşı, uşaqlar və qohumlarla ünsiyyətdə keçir. Ailənin çoxcəhətli vəzifələri də ailə üzvlərinin ünsiyyəti formasında həyata keçirilir. Ailədə ünsiyyətin müxtəlif istiqamətləri fərqləndirilir: ərin arvadla, ananın uşaqlarla, bacının qardaşla, nənənin nəvələrlə ünsiyyəti.

Ailə nədir? Müasir ensiklopediyalarda və lüğətlərdə ailəyə aşağıdakı təriflər verilir:

Azərbaycan Sovet Ensiklopediyası (I cild, Bakı, 1976, səh.187): Ailə – nikah, yaxud qan qohumluğuna əsaslanan kiçik qrupdur. Ailə üzvləri bir-birinə məişət birliyi, mənəvi cavabdehlik və qarşılıqlı köməklə bağlıdır.

Fəlsəfə üzrə ensiklopedik lüğət (M., 1983, səh.602); Ailə nikah, yaxud qan qohumluğuna əsaslanan kiçik qrupdur. Onun üzvləri bir-birilə məişət birliyi, qarşılıqlı məsuliyyət və qarşılıqlı köməklə bağlıdır.

Nəzərdən keçirdiyimiz təriflərdə ailəni səciyyələndirən iki mühüm xüsusiyyət – a) məişət birliyi, b) özünəməxsus münasibətlər sistemi, qarşılıqlı cavabdehlik, məsuliyyət və kömək qeyd olunur. Bu xüsusiyyətlər qarşılıqlı əlaqədədir, ailəni xarakterizə edərkən onları birlikdə nəzərdən keçirmək lazımdır. Özünün bu xüsusiyyətinə görə ailə bütün digər kiçik qruplardan (məsələn, dostlar dəstəsindən, yataqxanada eyni otaqda yaşayan adamlardan, birlikdə işləyən manqa üzvlərindən və s.-dən) fərqlənir.

Ailədə cinslər və cinsi tələbatdan irəli gələn münasibətlər əxlaqi-psixoloji münasibətlər formasında özünü göstərir. Biz bu münasibətləri ümumi şəkildə qarşılıqlı cavabdehlik, məsuliyyət və kömək kimi xarakterizə etdik. Müasir ailədə baş verən keyfiyyət dəyişiklikləri, birinci növbədə, ərlə arvadın, valideynlərlə uşaqların qarşılıqlı münasibətlərində öz əksini tapmışdır. Vaxtilə "əli pulla oynayan", "evə qazanc gətirən", "qaz vurub qazan dolduran" kişilərə çox vaxt şıltaqlığı da, kobudluğu da bağışlayırdılar. Ailənin əmin-amanlığı, xoşbəxtliyi də əsasən var-dövlətlə ölçülürdü. Müasir ailə üçün "var-dövlət", "ev-eşik" və s. məqsəd deyil, vasitədir. Halbuki bu günki ailə ər-arvad arasında, valideynlərlə uşaqlar arasında mənəvi münasibətlərə daha böyük məna verir. Ailə münasibətlərində psixoloji münasibətlər daha mühüm rol oynayır. Ərin də, arvadın da, uşaqların da şəxsiyyətinə böyük tələblər verilir.

Ailə ictimai-tarixi hadisədir. Ailə münasibətləri cəmiyyətdə bərqərar olmuş ictimai münasibətlərlə bilavasitə bağlıdır. Cəmiyyət dəyişdikcə, ailə də dəyişir və inkişaf edir.

Zəriflik, diqqət, mehribanlıq ər-arvad münasibətlərinin çox mühüm cəhətidir. Onlar həmişə bir-birlərindən diqqət və həssaslıq gözlə-

məli, bir-birini düzgün başa düşməyə çalışmalı, təmkinli və qayğıkeş olmalıdır. Ailə təkcə ərlə arvad arasındakı münasibətdən ibarət deyildir, onun çox mühüm sahəsi valideynlərlə övladlar arasındakı münasibətlərlə bağlıdır. İlk uşağın doğulması ilə ər və arvad ata və anaya çevrilirlər. Onların münasibətlərində yeni məna çaları əmələ gəlir: ailənin bütün sonrakı həyatı məhz bu zəmində inkişaf edir. Sosioloqların fikrincə, ailəni kişi-qadın münasibəti deyil, ana-uşaq münasibəti, deməli ata-uşaq, ata-ana münasibətləri yaradır.

Bəziləri belə güman edirlər ki, ər-arvadlıq ittifaqı məhz birinin digərini itaətdə, qorxu altında saxlamasından ibarətdir. Lakin qorxu və itaət insan münasibətlərinin həqiqi azadlığı, qadının yüksəlməsi və inkişaf etməsi, öz istedadını göstərməsi üçün lazımi şərait olmadığı zaman yaranır. Qorxu müəyyən vaxta qədərdir. Cəmiyyətin kiçik özəyi – ailə yaranarkən o, pis müttəfiqdir.

Ər-arvadlığı möhkəmlədən mənəvi əsaslar arasında məhəbbətlə yanaşı, kişi və qadın ləyaqətinə hörmət mühüm rol oynayır. Məhəbbət insan ləyaqətinə hörmət edilən yerdə yaranır və yaşayır. Ər-arvadlıq borcuna nisbətən ailə borcu daha geniş anlayışdır. O, analıq-atalıq (valideynlik), oğulluq-qızlıq, bacılıq-qardaşlıq, nənəlik-babalıq borcu ilə əlaqədardır. Uşaqların nənə və babaları ilə münasibətlərində bu mənəvi keyfiyyətlərə yiyələnməsinə, ailə – ata-ana, baba-nənə, bacı-qardaş qarşısında borcunu düzgün başa düşməsinə, ona səmimi surətdə əməl etməsinə xüsusi diqqət yetirilməlidir.

Ailə kollektivində uşaqlarla ünsiyyətin rolu əvəzedilməzdir. Ana və ata, eləcə də nənə və baba, bacı və qardaşla ünsiyyətin psixoloji mənası daha böyükdür. Uşağın bir şəxsiyyət kimi inkişafının özülü də bu söhbətlər vasitəsilə qoyulur.

Uşaqlar ana və ata vasitəsilə təbiət və cəmiyyət hadisələri haqqında təsəvvürlərə və anlayışlara yiyələnir, başqa adamları, özlərini qiymətləndirmək meyarlarını mənimsəyirlər. Burada uşaqların ana-ata ilə yanaşı bacı-qardaşları, nənə-babaları ilə ünsiyyətinin rolunu da xüsusi qeyd etmək lazımdır.

Ailə kollektivdir. Özünəməxsus mənəvi həyatı vardır. Bu həyatı, uşaqları qorumaq, həyat yoldaşını yaşatmaq, onu məzmunlu və mənalı etmək deməkdir. Daxili funksiyalar bununla əlaqəlidir ki, ailə, sosial qrup olaraq, təşkilat şəklində fəaliyyət göstərir və bir sıra vəzifələri icra edir: təsərrüfat-məişət, tərbiyəvi, istehlak və idarəetmə.

*Cəmiyyətdə* ailə münasibətlərinin tarixi formaları müxtəlif olmuşdur. Bu formaların təbii və sosial tərəflərinin ifadə tərzi də bir-birindən fərqlənmişdir. İnsan birliyinin ilkin formalarından biri olan ailə özündə bilavasitə fərdi və kollektiv başlanğıcları birləşdirir, bununla da sosial ideallarin və davranışın meyarının mənbəyi kimi çıxış edir. Ailə uşağın dünyagörüşünü formalaşdırır, onun əxlaqının, mənəvi aləminin sosial mədəni özəyini yaradır. O, tarixi ənənələrin vacib ünsürlərindən biri olaraq, yeni nəsildə şüur stereotipləri, davranış və hərəkət qaydaları haqqında təsəvvürlər yaradır, sosial təcrübəni nəsildən nəslə ötürür.

Sosial-fəlsəfi fikir tarixində ailə problemi həmişə maraq doğurub. Məsələn "Kitabi-Dədə Qorqud" eposunda türk xalqlarının ailə-nikah münasibətlərinin təsviri mühüm yer tutur: 7-9-cu əsrləri əhatə edən bu eposda ailə, kişi-qadın münasibətləri, valideyn, övlad, ailə və cəmiyyət haqqında çox maraqlı ideyalar irəli sürülmüşdür. Bu ideyalarda həm ümumbəşəri, həm də real milli-etnik, o cümlədən dini, hüquqi, məişət problemləri öz əksini tapmışdır. Burada o dövrün ailə münasibətlərini həm konkret, real hadisələrin təsvirində, həm də ayrı-ayrı qəhrəmanların öyüd nəsihətlərində öyrənmək olur. Bu münasibətlərin əsasını həm də dini təsəvvürlər (şəriət) təşkil etmişdir.

Böyük şair, mütəfəkkir N. Gəncəvi ailənin cəmiyyətdə rolunu yüksək qiymətləndirirdi; onun məişət-istehlak və tərbiyəvi funksiyasından bəhs edən şair eyni zamanda insanlarda yüksək əxlaqi, ümumbəşəri keyfiyyətlərin aşılanması yollarını axtarıb göstərmişdir. Nizami öz əsərlərində həm də cəmiyyətdə qadınların rolunu yüksək qiymətləndirmişdir.

Görkəmli şair, filosof M. Füzuli feodal rejiminin sosial ədalətsizliyinə qarşı çıxış etmiş, əmək bölgüsünə uyğun cəmiyyətin sosial strukturunda baş verən prosesləri təhlil edib, cəmiyyətin inkişaf qanunları, qadınların cəmiyyətdə rolu, sülh və müharibə, dövlət siyasəti, ailə haqqında ibrətli fikirlər irəli sürmüşdür. Füzulinin məhəbbət aləmində kişi və qadın arasındakı sevgidən bəhs edilir: şairin təsvirində məhəbbət – azadlıq, ədalətlilik və müstəqillik deməkdir, çünki əsil məhəbbət insanları cəhalətdən, feodal

zülmündən uzaqlaşdırır, daha mükəmməl olmağa imkan yaradır.

Görkəmli filosof, astronom N. Tusi ailədə sosial funksiyaların yerinə yetirilməsində sosial mühiti qiymətləndirərkən, yazmışdı: "İnsan yaşamaq üçün öz əzəli, təbii ehtiyaclarını ödəməlidir, bunun üçün də cəmiyyətdə birləşməli, fəaliyyət göstərməlidir". Cəmiyyətdə insanın təbii sığınacağı ailədir. Ailədə həm nəsil artırılır, həm də ev-eşik qorunub saxlanılır, həm də ailə üzvləri lazımi tərbiyə alır. Tusi, ailənin yaranmasında adət-ənənə, idarəçilik vərdişlərinin, sosial psixoloji mühitin rolunu xüsusi olaraq qeyd edirdi. O, ailədə idarəetmə funksiyasının icrasında əsas rolu ailə başçısına aid edir. Ev sahibi ailənin maddi təminatına, vacib məsələlərin həllinə, tərbiyə işlərində mükafatlandırma və cəzalandırma, əmək bölgüsünün təşkilinə cavab verməlidir. Tusi münasibətlərin idarəetmə baxımından tənzimlənməsi problemlərini də nəzərdən keçirmiş, məişət-istehlak funksiyasının vacibliyindən bəhs etmişdir. Bu funksiyaların ən vacib olduğunu sayan Tusi onların həyata keçirilməsi yolunu yüksək əxlaqi dəyərlərə əsaslanmaqda görürdü.

Digər görkəmli filosof S. Urməvi etik məsələlər sırasında ailə münasibətlərinin struktur və idarəolunması problemlərini də araşdırmışdır. Ailə üzvləri bir-birilə qarşılıqlı məsuliyyət və hörmət şəraitində davranmalıdırlar. Tərbiyə sosiallaşma prosesində ailə, müəllim və mühitin rolunu qeyd edən filosof hesab edirdi ki, ictimai münasibətlərin iştirakçısı olan hər bir şəxs öz fəaliyyətində dil, təfəkkür və triadasından vəhdət halında istifadə etməlidir.

Tarixin bütün dövrlərində ailə ictimai inkişafın əsas xüsusiyyətlərini özündə əks etdirmişdir, ictimai fikir isə bu xüsusiyyətləri ifadə etməyə çalışmışdır. Məsələn, İ. Kant "Kişi və qadınlarda gözəllik və əzəmət" əsərində qadınlarda gözəl olan xüsusiyyətlərin sırasında incəliyi, yumşaqlığı, dostluqda sədaqətliliyi, üzügülərliyi, zarafatcıllığı, gözəlliyə, bəzəyə, zərifliyə meyilli olmasını qeyd edirdi.

**Problemin aktuallığı.** Ailə problemlərinin araşdırılması və onların ictimai-siyasi, sosial-psixoloji proseslər zəminində öyrənilməsi xüsusi aktuallıq kəsb edir. O, cəmiyyətin ilkin özəyidir. Ailə fəal bir başlanğıcdır. Cəmiyyət aşağı pillədən yuxarı pilləyə doğru inkişaf etdikcə, o da aşağı formadan yüksək formaya keçir.

**Problemin elmi yeniliyi.** Ailə münasibətləri sosial psixologiyanın çox mürəkkəb problemlərindən biridir. Elmi yenilik onunla bağlıdır ki, məqalədə onlar konkret material əsasında işıqlandırılır. Bu materiallar ailə psixologiyasını yeni faktlarla zənginləşdirir.

**Problemin tətbiqi əhəmiyyəti.** Məqalədən gənclərin ailə həyatına hazırlanması proqramlarında, ailədaxili münasibətlərin profilaktikasında, ailələrin möhkəm təməllər üzərində qurulması üçün həyata keçirilən tədbirlər sistemində istifadə edilə bilər.

**Ədəbiyyat:**


1. Ailə həyatının etika və psixologiyası üzrə müntəxəbat / Ə.Ə. Əlizadə, A.N. Abbasov. – Bakı: Maarif, – 1989, – 232 s.
2. Azərbaycanda qadınlar və kişilər. – Bakı: Səda, – 2004. – 221 s.
3. Bayramov Ə.S. Etnik psixologiya. – Bakı, – 1996.
4. Babayev N.H. Babam-nənəm, atam-anam və biz. – Bakı: Azərnəşr, – 1988.
5. Əlizadə Ə.Ə. Azərbaycan etnoqrafiyasına giriş. – Bakı, – 2003.
6. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etno – psixoloji əsasları. – Bakı: Araz, – 2000, – 196 s.


**E-mail:** sonasi83@mail.ru
**Rəyçilər:** *ped.ü.fəls.dok.* **Y.B. Əskərova,**
*ped.ü.fəls.dok.* **S.H. Əlizadə**
**Redaksiyaya daxil olub:** 18.09.2023

UOT 159.9.

**Mətanət Valeh qızı Əliyeva**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Bakı Dövlət Universiteti*
*Orcid -0000-0001-7510-964X*

## YENİYETMƏLƏRDƏ BÖHRAN HALLARI ZAMANI PSİXOLOJİ YARDIMIN ROLU

**Матанат Валех гызы Алиева**
*докторант по программе доктора философии*
*Бакинский государственный университет*

## РОЛЬ ПСИХОЛОГИЧЕСКОЙ ПОМОЩИ ВО ВРЕМЯ ПОДРОСТКОВОГО КРИЗИСА

**Matanat Valeh Aliyeva**
*doctorial student in the program of doctor of philosophy*
*Baku State University*

## THE ROLE OF PSYCHOLOGICAL HELP DURING ADOLESCENT CRISIS

**Xülasə.** Məqalədə yeniyetmələrdə psixoloji böhran zamanı psixoloji dəstək məsələləri araşdırılmışdır. Yeniyetməlik dövrü psixoloji böhran dövrü kimi xarakterizə olunur. Bu dövrdə psixoloji böhran yaşayan yeniyetmələr müxtəlif çətinliklərlə qarşılaşır və bu baxımdan psixoloji dəstək xüsusi aktuallıq kəsb edir. Tədqiqatlar göstərir ki, yeniyetməlik dövründə psixoloji dəstək alanlar digər yeniyetmələrə nisbətən bu dövrü daha rahat keçirir və psixoloji baxımdan daha sağlam olurlar.
***Açar sözlər:*** *Yeniyetməlik dövrü, psixoloji böhran, psixoloji dəstək, psixoterapiya, psixokorreksiya*

**Резюме.** В статье исследуются вопросы психологической поддержки во время психологического кризиса у подростков. Подростковый возраст характеризуется как период психологического кризиса. В этот период подростки, переживающие психологический кризис, сталкиваются с различными трудностями, и в связи с этим особенно актуальна психологическая поддержка. Исследования показывают, что те, кто получает психологическую поддержку в подростковом возрасте, переживают более спокойный и психологически здоровый период, чем другие подростки
***Ключевые слова:*** *подростковый возраст, психологический кризис, психологическая поддержка, психотерапия, психокоррекция*

**Summary.** In the article, issues of psychological support during a psychological crisis in adolescents are investigated. Adolescence is characterized as a period of psychological crisis. During this period, adolescents experiencing a psychological crisis face various difficulties, and in this regard, psychological support is especially relevant. Studies show that those who receive psychological support during adolescence have a more relaxed and psychologically healthy period than other adolescents.
***Key words:*** *Adolescence, psychological crisis, psychological support, psychotherapy, psych correction*

Hər bir yaş dövrünün özünəməxsus psixoloji xüsusiyyətləri, problemləri vardır. Müəyyən yaş dövrlərinin özü ilə gətirdiyi xüsusiyyətləri, psixi dəyişiklikləri bilmək həmin yaş dövrünü keçirən insanları düzgün anlamağa və uyğun yanaşmağa imkan yaradır. Belə psixoloji vəziyyətlərdən biri böhran vəziyyətidir. Böhran-insanın öz daxili aləmi və ətraf mühitə narazılığından doğan uzunmüddətli ruhi vəziyyətidir və o insan üçün ən fundamental, həyat üçün əhəmiyyətli olan dəyərlərə və tələbatlar sferasına təsir edir, güclü emosional həyəcanla müşayiət olunur və

insanın daxili həyatında dominantlıq edir. Yeniyetmə yaşının böhran probleminə müxtəlif baxışlar mövcuddur. Müxtəlif psixoloji məktəblər və istiqamətlər XIX əsrin ortalarından başlayaraq yeniyetməlik yaş dövrünün böhran problemini tədqiq etmişlər. Psixoloji məsləhət və psixoterapiya vasitəsi ilə yeniyetmələrin bu dövrdə rastlaşdıqları bir çox problemləri aradan qaldırmaq mümkündür [3, s. 1139]. Yeniyetməlik dövründə psixoloji dəstək şəxsin gələcək həyatında müsbət fonda çox rol oynaya bilər. Belə ki, bu dövrdə əksər yeniyetmələr böhran dövrünü çətin keçirir. Onları üzləşdikləri bir çox problemlər narahat edir. Sosial qorxuları artır, cəmiyyətdə mövqe əldə etmək onlar üçün vacib məsələlərdən birinə çevrilir. Ailə ilə ən çox problemlər də məhz bu dövrdə yaşanır. Bu baxımdan psixoloji dəstək təkcə yeniyetmələrlə deyil, paralel şəkildə ailələrlə də aparılır. Əhatəli psixoloji konsultasiyada yeniyetmə və ailə ilə ayrılıqda görüş təşkil olunmalıdır. Yeniyetmənin yaşantısına və üzləşdiyi çətinliklərə təsir etməsinə bağlı olaraq digər ailə üzvləri də bu görüşlərə daxil edilə bilər [1, s. 62]. Yeniyetməlik öz xüsusiyyətlərinə görə fərqli baxış tələb edir. Yeniyetmələrlə işləyən psixoloq – konsultantlar, təməl olaraq fərqli müraciət edən – psixoloq münasibəti qurmalı, yeniyetməlik dövründə müraciət edənin xüsusiyyətlərini və ehtiyaclarını nəzərə almalı və ünsiyyəti artıran xüsusi strategiya və bacarıqlardan istifadə etməlidirlər . İlk növbədə yeniyetmələrə ediləcək müdaxilələrdə valideynlər, müəllimlər və bəzi böyüklər söz sahibidirlər. Bununla belə, böyüklər psixoloq tapmaqda, bu prosesdə öz məqsədlərini müəyyənləşdirməkdə, göstərilən xidmətin haqqını ödəməkdə və prosesin nə vaxt bitəcəyi məsələsində söz sahibidirlər. Yeniyetmələr prosesdə müraciət edən kimi iştirak etsələr də, bu, həmişə onların psixoloji yardım almaqda istəkli olmaları demək deyil. Çünki çox zaman onlar psixoloq – konsultanta valideynləri və ya digər yaxınları tərəfindən gətirilirlər.

Yeniyetmələrlə işləyən konsultantlar, böyüklərdən fərqli olaraq, yeniyetmənin həyatı haqqında məlumatları valideynlərindən və müəllimlərindən alırlar. Onun problemləri və ya güclü tərəfləri haqqında bu məlumatlar adətən bir-biri ilə çox uyğun gəlmir. Yeniyetmənin özünü ifadə etməsi isə fərqindəlik səviyyəsi fərqli olur. Valideynlərin yeniyetmənin həyatı ilə bağlı verdiyi məlumatlar onların öz həyat stressləri və ya müxtəlif problemlərinə görə yeniyetməni müxtəlif istiqamətdə lazımınca müşahidə edə bilməmələri ilə məhdudlaşır. Valideynlər tərəfindən yeniyetmə övladlarının davranışları və onların səbəbləri haqqında verilən məlumatlar onların mədəni olaraq aid olduqları qrupla bağlı dəyərləri, standartları, vərdişləri və sosial idealları ilə şərtlənir. Bir sözlə, yeniyetmələrə psixoloji yardım yeniyetmələrin həyatında fərqli baxışları, məqsədləri və motivasiyaları olan bir çox böyüklərlə münasibətdə olmağı tələb edir [1, s. 64].

Qeyd edək ki, bir tərəfdən, yeniyetmələrlə işləyən psixoloq – konsultant valideynlər və digər böyüklərlə davamlı münasibətdə olmalıdır, digər tərəfdən bu dövr yeniyetmələr üçün müstəqillik hissinin inkişafının ən vacib olduğu həyat dövrüdür. S. Curtis yeniyetmələrin müstəqil olmaq üçün daha çox çalışdıqlarını və muxtariyyət əldə etmək və şəxsiyyəti formalaşdırma yolunda daha çox risk alma ehtimallarının artdığını ifadə etmişdir. Uşaqlardan fərqli olaraq, yeniyetmələr davranışlarında və sosial münasibətlərində ailələrindən daha az asılıdırlar. Onların ailələri ilə münasibətləri daha çox azadlıq axtarışına çevrilir. Bu kontekstdə, yeniyetmə müraciət edənlər ailələrini psixoloji konsultasiya prosesinə daxil etmək istəməyə bilərlər. Onların bu istəklərinə hörmət edilməlidir. Çünki ailənin prosesə cəlb edilməsi onların inkişaf edən fərdiliyinə kölgə sala bilər. Bununla belə, konsultant yeniyetməyə ailəni prosesə fiziki cəlb etməsə də onlarla təmasda olduğunu ona ifadə etməlidir [6, s. 417].

Yeniyetmə tədqiqatlarını özündə birləşdirən meta-təhlil araşdırmaları nəzərdən keçirildikdə, ortaya çıxan nəticələrdən biri fərdi konsultasiya üçün istifadə edilən üsulların təsirlərinin bir-birindən fərqlənməməsidir. Luborskinin fikrincə, əsas konsultant bacarıqlarının konsultasiyanın nəticələrinə təsiri otuz faiz təşkil edir. İstifadə olunan üsulların nəticəyə təsiri yüzdə on beşdir. Bu da digər faktorlara görə əsas konsultasiya bacarıqlarının digər amillərlə müqayisədə nə qədər vacib olduğunu ortaya qoyur. Bu çərçivədə yeniyetmə ilə ünsiyyət qurmaq və prosesi sağlam şəkildə davam etdirmək üçün prosesdəki müraciət edən – konsultant əlaqəsi və konsultantın əsas bacarıqları əhəmiyyətlidir.

Qeyd edək ki, yeniyetmənin inkişaf xüsusiyyətlərini nəzərə almaq psixoloji yardımın

effektivliyini artırır. Yeniyetmələr valideynlərindən asılı olmamaq və öz şəxsiyyətlərini əldə etmək üçün mübarizə aparırlar. Bu dövrdə onların özünüdərketmə və empatiya bacarıqları inkişaf edir, yaxın münasibətlərə və dostluqlara açıq olurlar. Yeniyetmələr müxtəlif qruplarda sosiallaşır və bir-birindən öyrənirlər. Bu səbəbdən həmyaşıdlar bir dəstək mənbəyi olaraq çox əhəmiyyətlidir, yeniyetmələrlə işləyərkən qrupla psixoloji konsultasiya əhəmiyyətli bir kömək mənbəyidir və unikal bir öyrənmə mühiti yaradır. Bu dövrdə özünüdərketmə və empatiya yenicə inkişaf edir və yaxın münasibətlər və dostluqlar yaratmağa imkan verir. Həmyaşıdlar son dərəcə əhəmiyyətli bir dəstəkdir. Onlar resurs mənbəyinə çevrilirlər, ona görə də qrupla psixoloji konsultasiya mühüm seçim halına gəlir. Ortaq problemlər, bunların universal olduğunu göstərir və müzakirəyə və bir çox narahatedici məsələlərlə bağlı problemlərin həllinə imkan verir. Müstəqillik uğrunda mübarizələrində onlar tez-tez hakimiyyətə müqavimət göstərirlər. Yeniyetmələr bir-birinə kömək etməkdə böyüklərdən daha üstündürlər. Koqnitiv cəhətdən bir-birinə yaxın olduqları üçün bir-birlərinin problemlərini daha yaxşı başa düşürlər. Qrup üzvləri öz fikirlərini ifadə edərkən özlərini tamamilə azad hiss edirlər, çünki onlar bilirlər ki, qrupdakı hər kəs eyni emosiya, düşüncə və davranış meyllərinə malikdir [8, s. 7].

Yetkinlərlə münasibət xaricində həmyaşıdları ilə yaxşı şəxsiyyətlərarası təcrübə, onların həyatını bir az daha asanlaşdıra bilər. Bu təcrübəni ən yaxşı, səmərəli bir qrup işi təmin edə bilər. Qrup bir neçə psixoloji funksiyaya malikdir. Qrup təcrübəsi yeniyetmənin özünü tanıması, normallıq hissini inkişaf etdirməsi, ona böyüklərdən asılı olmadığı hissini yaşatması və cinsi kimliyini qazanmasına dəstək olması və s. təsirləri səbəbi ilə əhəmiyyətlidir [2, s. 141].

Corey və Corenin fikrincə, yeniyetmə qrupları yeniyetmələrin ziddiyyətli emosiyalarını başa düşmələri və təcrübə etmələri üçün, bu mücadiləni edən tək insan olmadıqlarını görmələri, dəyişməyə qərar verdikləri dəyərlər haqqında açıq suallar verə bilmələri, həmyaşıdları və böyüklərlə necə ünsiyyət qurmağı öyrənmələri, model olan liderdən bəzi şeylər öyrənmələri baxımından əlverişlidir. Bununla yanaşı, yeniyetmələr bu prosesdə öz düşüncələrini kəşf etmələri, alternativ həll yolları tapmaları və öz həyatları ilə bağlı nəzarət hissini qazanmaları da mümkündür.

Qrupla psixoloji konsultasiyada müzakirələr və onlar haqqında rəylərin olması, eqosentrizmin (mən mərkəzlilik) qırılması və reallığın yoxlanması digər mühüm qazanclardır. Ümumiyyətlə, həmyaşıdlar böyüklərdən daha çox bir-birlərinə inanarlar. Yaxşı qurulmuş bir qrup, yeniyetmə üçün böyüklərdən eşitdiyi zaman vecinə almadığı və yaşıdlarından eşitdiyi zaman özünə yeni imkanlar verən mesajları ehtiva edir. Heç kimin özündəki kimi problemlərinin olmadığını və ya öz valideynlərinin dünyanın ən pis valideynləri olduğunu düşünən yeniyetmələr üçün qrup yaşantısı əvəzolunmazdır.

Yeniyetmələrlə psixoloji konsultasiya prosesində bizə nəticəylə bağlı və qrup prosesi ilə bağlı kiçik məlumatlar da vacibdir. Yeniyetmələrlə qrup işində, fərdi psixoloji konsultasiyada olduğu kimi, valideynlərin bir şəkildə prosesdə iştirak etməsi vacibdir. Yetkinlik yaşına çatmayan yeniyetmələr işləyərkən qrup üzvlərinin seçilməsi mərhələsində ailələri məlumatlandırmaq və qrupda iştirak etmələri üçün ailələrin razılığı tələb olunur [9, s. 367].

Qrupla əlaqəli ən vacib dəyişənlər yaş, cins, problem və qrupun böyüklüyüdür. İnkişaf problemi ilə bağlı çalışan mütəxəssislərinin fikrincə, eyni yaş qrupları funksionaldır. Problemin növü və problemin ciddiliyi qrupun formalaşması ilə bağlı başqa bir məsələdir. Bir çox praktiklər, əgər problemin xüsusiyyəti qrup prosesini asanlaşdırarsa, fokus qruplara (boşanma, münaqişələrin idarə edilməsi, zorakılıq) üstünlük verərlər. Seansın müddəti yaşa, qrupun növünə və kontekstinə görə dəyişir. Yeniyetmələrdə seans 90 dəqiqəyə qədər davam edə bilər. Yeniyetmə qrupları ümumiyyətlə qısa müddətli olur və orta hesabla 10 seans davam edir [9, s. 370]. Böyük qruplarından bir çox terapevtik amil məlumdur. Bununla belə, yeniyetmə qrupları və uşaq qrupları ilə bağlı tədqiqatlar məhduddur. Shechtman, Bar El və Hadar və Yalomun fikrinə görə, katarsis və şəxsiyyətlərarası öyrənmə qrup üzvlərində ən çox yayılmış amillərdir. Əsas amillərdən biri də sosiallaşmadır. Sosiallaşma yeniyetmələrin inkişaf ehtiyaclarına dayanır. Dəstək aldığı həmyaşıdları ilə sosiallaşan yeniyetmələr səmimi münasibətlər qurmağı öyrənə bilirlər [9, s.368].

Qeyd edək ki, psixoloji xidmət yalnız psixoloji konsultasiya və terapiya ilə məhdudlaş-

mır. Vacib məqamlardan biri yeniyetmələrin düzgün psixoloji maarifləndirilməsidir. Qeyd edək ki, burada xüsusilə, məktəb psixoloqlarının rolu böyükdür. Yeniyetmələrlə silsilə şəkildə görüşlərin keçirilməsi və psixoloji böhran haqqında onların maarifləndirilməsi çox vacibdir. Qeyd etmək lazımdır ki, psixoloji böhran vəziyyətlərində məsuliyyət, əsas yük insanın öz üzərinə düşür. Özü də həyatında heç bir şeyi dəyişdirmək, konkret bir şey etmək istəməsə də, yardım kifayət etməz, təsirsiz və faydasız ola bilər.

K. Rocersə görə, hər bir insan hörmətə layiq olan, irəliləməyə çalışan aktiv varlıqdır. Özünə müəyyən hədəflər qoymağı və onlara nail olmağı bacarır və bunun üçün bütün resurslara sahibdir. Lakin insanın fitri potensialını reallaşdırması, əlindəki resurslardan istifadə etməsi üçün müəyyən şərait lazımdır və bəzən - lazımı resursları tapmaqda köməklik. Beləliklə, bir insanın özü böhran vəziyyəti daxil olmaqla problemləri həll edə bilər, bunun üçün bütün lazımi istedadlara və resurslara sahibdir (lakin bundan hələ istifadə edə bilməyi bacarmaya bilər). İstər psixoloji məsləhət prosesində, istərsə də psixoloji mariflәndirmədə psixoloqların vəzifəsi, insanı öz resursları ilə əlaqələndirmək, mövcud vasitə arsenalında konstruktiv modelləri birlikdə axtarmaq və ən əsası bu mövcud vasitələrdən hələ istifadə etmədiyi yerdə necə istifadə etməyi öyrətməkdir. Burada özünüdəstək üsullarını bilmək çox vacib məsələlərdəndir [9, s. 455].

Böhran vəziyyətindəki bir insana üç səviyyəli təsirdən (davranış, koqnitiv və emosional) danışdığımız üçün, özünədəstəyin göstərilməsi hər üç səviyyəni, xarakteri əhatə edən kompleks olmalıdır.

**Özünüdəstəyin istiqamətləri**

| Davranış səviyyəsi | Koqnitiv səviyyə | Emosional səviyyə |
|---|---|---|
| • Travmatik vəziyyətlərdə davranışın yeni metodlarına yiyələnmək<br>• Sosial dəstəyin axtarışı<br>• Böhrandan çıxış proqramının həyata keçirilməsinə dair konkret hərəkətlərin alqoritmi (hazırlanması və əməl olunması)<br>• Səhhətin qayğısına qalma<br>• Böhran və ya digər çətin həyat vəziyyətini yaşayan yaxın adamların qayğısına qalmaq<br>• Aktiv həyat tərzi, ünsiyyət. Çətin vəziyyətə düşmüş insanlara dəstək. | • Resursların inventarizasiyası.<br>• Real hədəflərin qoyulması<br>• Məqsədin dəyişdirilməsi<br>• Həyatda baş verən hadisələrin məsuliyyətini öz üzərinə götürmək (internallıq)<br>• Səmərəli düşüncələrin təhlili.<br>• Özünüinandırmaq formulası<br>• İnam.<br>• Pozitiv bitmiş vəziyyətlərin təhlili, artıq mövcud olan və işləyən uğur strateqiyalarının müəyyən olunması. | • Uğurun əldə olunması üçün motivasiyanın formalaşması<br>• Özünü qəbul etmə. Şəxsi neqativ emosiyaların qəbul olunması<br>• Mənfi emosiyaların öhdəsindən gəlmə bacarığı<br>• Özünü sevindirmək, həzz vermək imkanından istifadə etmək<br>• Uşaqlara, qocalara, zəif insanlara və dəstəyə ehtiyacı olanlara pozitiv həyat tərzinin nümayişi.<br>• Çətin vəziyyətlərin öhdəsindən gəlməsində pozitiv təcrübəsi olan uğurlu insanlarla ünsiyyət qurmağa çalışın. |

***Şəkil 1. Özünüdəstəyin istiqamətləri***

D. Qrinberqin təklif etdiyi stress modelinə uyğun olaraq, həyatımızda ortaya çıxan, uyğunlaşmalı olduğumuz müəyyən həyat vəziyyəti, stress vəziyyəti kimi qəbul edilə bilər. Travmatik vəziyyətin koqnitiv olaraq qiymətləndirilməsi onu stressli, mənfi kimi qəbul olunmasına, narahatlıq diskomfort hiss edəcəyimizə gətirib çıxara bilər. Özünü qəzəb, qorxu, qıcıq kimi göstərə bilən fizioloji həyəcana səbəb olur. Tənəffüs tezliyi, əzələ gərginliyi, qan təzyiqi artır və s. Bu vəziyyət uzun müddətlidirsə, o xəstəlik, iş qabiliyyətinin azalması, ailədə və işdə qarşıdurmalarla nəticələnə bilər [10].




***Şəkil 2. Qrinberqin stress modeli***

Beləliklə, həyat vəziyyətinin stressə səbəb olub-olmayacağı insanın koqnitiv qiymətləndirməsindən asılıdır. Eyni vəziyyət bir insan üçün stresli, lakin başqası üçün normal bir hal ola bilər. Hətta, fərqli vaxtlarda eyni insan üçün eyni vəziyyət bir halda stresli ola bilər, digərində isə yox. Bu o deməkdir ki, vəziyyətin koqnitiv qiymətləndirməsi həm insanın özünəməxsus xüsusiyyətləri, həm də kontekstlə (ailə mühiti, işdəki vəziyyət) bağlıdır. Bu vəziyyətdə özünə dəstək, hər zaman parlaq, müsbət məqamları necə tapmağı öyrənməsi lazım olan şəxs tərəfindən dəyişiklik ilə ifadə olunacaq. Psixoloji konsultasiyanın bir istiqaməti də müraciət edənlərə bu mövzuda dəstək olmaqdır.

Ümumilikdə nəticə olaraq qeyd edək ki, psixoloji böhran yaşayan yeniyetmələrə bu yaş dövrünün xüsusiyyətləri və yeniyetmənin bu dövrdəki ehtiyacları nəzərə alınmaqla fərdi və qrup psixoloji konsultasiya xidmətləri vacibdir. Bu dövrü az problemlə keçən yeniyetmələr daha sağlam sosial münasibətlər qurur, daha sağlam emosional dünyaya sahib olurlar, özləri haqqında daha real qavrayışlara malikdirlər və s. Müasir dünyada yeniyetmələr arasında zorakılıq, maddə istifadəsi və silahdan istifadə hallarının nə qədər artdığını nəzərə alsaq, böyüklər (valideynlər, müəllimlər və s.) yeniyetmələrin davranışlarına daha həssas yanaşılmalıdır [7, s. 44]. Bu dövrdə problemlərlə üzləşən yeniyetməni ilk öncə yaşadığı ailə, təhsil aldığı məktəb və əhatəsi dəstəkləməlidir. Ailələr uşaqlara düzgün yanaşmalı, onları dəstəkləməli, psixoloji gərginlik və problemlər zamanı ehtiyac olduqda mütəxəssisə müraciət edilməlidir. Yeniyetmələrin fiziki və psixoloji sağlamlığının təmin edilməsi gələcək sağlam cəmiyyətin təmin edilməsi deməkdir.

**Problemin aktuallığı.** Müasir dövrdə psixoloji böhran hallarının şəxsiyyətin inkişafının yaş, cins və s. xüsusiyyətləri ilə bağlı araşdırılması psixologiya elmi üçün çox aktual məsələlərdəndir. Xüsusilə, yeniyetməlik dövründə böhran hallarının qaçılmaz olduğunu nəzərə alaraq, bu dövrdə böhran yaşayan yeniyetmələrin psixoloji vəziyyətini araşdırmaq və psixoloji yardım məsələlərini tədqiq etmək çox önəmlidir.

**Problemin elmi yeniliyi.** Məqalə çərçivəsində psixoloji böhran zamanı yeniyetmələrdə rast gəlinən problemlər və bu problemlərin psixokorreksiya məsələləri yer almışdır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən əldə olunan ümumiləşdirmə və nəticələr praktik fəaliyyətlə məşğul olan mütəxəssislər, eyni zamanda şəxsiyyət və yaş və inkişaf psixologiyası üzrə aparılan araşdırmalarda faydalı ola bilər.

**Ədəbiyyat:**


1. Rüstəmov, E. Təhsildə Psixoloji Xidmətin əsasları (məktəb psixoloqları üçün vəsait). / E. Rüstəmov, M. Əliyeva, M. Allahverdiyeva. – Bakı, – 2021, – 275 s.
2. Rimas Kuçyunas, Psixoloji məsləhətin əsasları, m:akademik layihə. – 1999. – 240 s.
3. Kaplan&Sadock, Davranış bilimleri/Klinik Psikiyatri, XI baskı, Güneş tıp kitabevleri. – 2006. – 4856 s.
4. Bakırcıoğlu, R. (2011). Çocuk ve Ergende Ruh Sağlığı. Ankara: Anı Yayıncılık.
5. Bloomquist, Michael L. ve V.Schenell, Steven. Helping children with aggression and conduct problems: Best practices for intervention. – New York: Guilford Press, – 2002.
6. Curtis, S. (1992). Promoting health through a developmental analysis of adolescent risk behavior. Journal of School Health, c.9, s.62, s.s. 417-420.
7. Cepeda, Claudio ve Gotanco, Lucille. Clinical manual for the psychiatric interview of children and adolescents. s.l.: American Psychiatric Publishing, – 2017. – s. 1-53.
8. Egbochuku, E.O & Aihie, N.O. (2009). Peer group counselling and school influence on adolescents' self-concept, Journal of Instructional Psychology, 36, 1-10.

9. Kincade, E. A., & Kalodner, C. R. (2004). The Use of Groups in College and University Counseling Centers. In J. L. DeLucia-Waack, D. A. Gerrity, C. R. Kalodner, & M. T. Riva (Eds.), *Handbook of group counseling and psychotherapy* (pp. 366-377). Sage Publications Ltd. https://doi.org/10.4135/9781452229683.n26
10. https://www.researchgate.net/figure/Greenbergs-Stress-Model-Greenberg-2012_fig1_365877101

**E-mail:** matanat.a@psixologiyainistutu.az
**Rəyçilər:** *prof.* **R.F. İbrahimbəyova,**
*psixol.ü.fəls.dok.* **T.R. Musayeva**
**Redaksiyaya daxil olub:** 16.10.2023

# *İNKLÜZİV TƏHSİL MƏSƏLƏLƏRİ*
# *ВОПРОСЫ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ*
# *INCLUSIVE EDUCATION ISSUES*

*UOT 376*

***Nailə Tofiq qızı Hüseynova***
*pedaqogika elmləri doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*ORCID 0000-0001-6353-5588*

## XÜSUSİ MƏKTƏBLƏRDƏ TƏLİM METODLARI VƏ TƏHSİL PROSESİNİN TƏŞKİL EDİLMƏSİ FORMALARI

***Наиля Тофиг гызы Гусейнова***
*доктор педагогических наук*
*Азербайджанский государственный педагогический университет*

## МЕТОДЫ ОБУЧЕНИЯ И ФОРМЫ ОРГАНИЗАЦИИ ОБРАЗОВАТЕЛЬНОГО ПРОЦЕССА В СПЕЦИАЛЬНЫХ ШКОЛАХ

***Naila Tofig Huseynova***
*doctor of pedagogical sciences*
*Azerbaijan State Pedagogical University*

## TEACHING METHODS AND FORMS OF ORGANIZING THE EDUCATIONAL PROCESS IN SPECIAL SCHOOLS

**Xülasə.** Təlim prosesinin təşkilinin sinif-dərs forması digərləri qarşısında üstünlüyü bundadır ki, müəllimin və şagirdlərin fəaliyyət vaxtı ciddi şəkildə limitlənmişdir, tədris idrak prosesinin qənaətli təşkili baş tutur, fərdi-kollektiv fəaliyyətə şərait yaradılır. Sinif-dərs təlim sisteminin əsas komponenti dərs hesab olunur.

***Açar sözlər:*** *təlim metodları, fəaliyyət, şagird, yeni biliklər, xüsusiyyət, xüsusi məktəb, texniki təlim vasitələri*

**Резюме.** Преимущество классно-урочной формы организации учебного процесса перед другими состоит в том, что время деятельности учителя и учащихся строго ограничено, учебно-познавательный процесс организуется экономно, создаются условия для индивидуальной и коллективной деятельности. Урок считается основным компонентом классно-урочной системы обучения.

***Ключевые слова:*** *методы обучения, деятельность, обучение, новые знания, специальная, специальная школа, технические средства обучения*

**Summary.** The advantage of the class-lesson form of organizing the educational process over others is that the activity time of teachers and students is strictly limited, the educational and cognitive process is organized economically, and conditions are created for individual and collective activity. The lesson is considered the main component of the classroom-based teaching system.

***Key words:*** *teaching methods, activities, training, new knowledge, special, special school, technical teaching aids*

**Aktuallıq:** Müəllimlərin təcrübi fəaliyyətinin öyrənilməsi və ümumiləşdirilməsinin əsasında təlim metodlarının seçiminə müəyyən yanaşma yaranmışdır. Seçim ilk növbədə tədris prosesinin vəziyyəti və onun gedişatının şərtləri ilə müəyyən olunur. Təlim metodunun seçimi bunlardan asılıdır: {1}

- müasir didaktikaya müvafiq təhsil məqsədindən;
- öyrənilən fənnin xüsusiyyətlərindən, onun məzmunundan;
- materialın öyrənilməsi üçün ayrılan vaxtdan;
- şagirdlərin yaş xüsusiyyətlərindən;
- şagirdlərin hazırlıq səviyyəsindən;
- müəllimin nəzəri və təcrübi hazırlığından, onun şəxsi keyfiyyətlərindən.

T.A. İlyina və T.İ. Şamova təlimin didaktik məqsədi nəzərə alınmaqla metodların təsnifini vacib hesab edir:

- yeni biliklərin çatdırılması metodları;
- yeni biliklərin mənimsənilməsi metodları;
- bacarıq və vərdişlərin möhkəmlənməsi və işlənilməsi metodları;
- TTV (texniki təlim vasitələri) ilə iş metodları;
- proqramlaşdırılmış təlim metodları;
- problemli-axtarış metodları;
- müstəqil iş metodları;
- nəzarət və özünə nəzarət metodları.

Korreksiya didaktikası üçün bütöv yanaşma nəzərə alınmaqla metodların təsnifi xüsusi əhəmiyyət kəsb edir. Belə təsnifat özündə üç metod qrupunu qeyd etmişdir (Y.K. Babanskinin təsnifatına əsasən). {2}

I qrup – tədris-idrak fəaliyyətinin təşkili və həyata keçirilməsi metodları. Bu metodlar qrupu özündə bunları birləşdirir:

- sözlü, görüntülü və təcrübi (dərs məlumatının ötürülməsi və qavranılması – bilik mənbəyi);
- induktiv və deduktiv (intellektual fəaliyyət);
- reproduktiv və problem-axtarış (təfəkkürün inkişafı);
- müəllimin rəhbərliyi altında şagirdlərin müstəqil işi.

II qrup – stimullaşdırma və nəzarət metodları.

III qrup – nəzarət və özünə nəzarət metodları.

V.A. Onişukun təklif etdiyi təlim metodları təsnifatı maraq təşkil edir. Təsnifatın əsası kimi müəllif müəllim və şagirdlərin fəaliyyəti növlərini götürmüşdür. Bunlara növbəti təlim metodları aiddir:

- kommunikativ;
- idrak;
- islahat;
- sistemləşdirici;
- nəzarət.

Yuxarıda təklif olunmuş təsnifatlara baxaraq, qeyd etmək olar ki, əqli geriliyi olan uşaqların idrak fəaliyyətinin, xüsusilə təfəkkür və nitqinin inkişaf qüsurları hər hansı bir təsnifatı və ya yanaşmanı tamamilə istifadə etməyə imkan vermir. {3}

Uyğun olaraq, korreksiya təlim sistemində sözlü, görüntülü, təcrübi təlim metodlarından geniş istifadə olunur. Biliklərin şagirdlərə ötürülməsi hekayə, izah, kitabla işin köməyi ilə həyata keçirilir.

Hekayə – olanların, hadisələrin müəllim tərəfindən parlaq, emosional ifadəsidir. O zamanla davamedici deyil, şagirdin fikrinə, onun hisslərinə təsir edir. Hekayələr pedaqoji və bədii olaraq bölünür. Pedaqoji bədiidən bununla fərqlənir ki, burada bədii hekayənin yalnız bəzi üsullarından istifadə olunur. Hekayələr konkret pedaqoji situasiyada istifadə nəzərə alınmaqla qruplara bölünür: hekayə-təsvir, hekayə-şərh, hekayə-çıxış.

Söz-biliyin mənbəyidir. Müəllimin nitqinə bir sıra tələblər qoyulur:

- fonetik və məntiqi tərəfdən qüsursuzluq;
- aydınlıq, ifadəlilik, dəqiqlik;
- sonluqların dəqiq tələffüzü, vurğuların düzgünlüyü;
- tempin yavaşlığı;
- şagirdlərin başa düşməsi üçün asanlıq.

Sözlü metod kimi kitablarla iş nadir hallarda istifadə olunur, lakin xüsusilə 1-4-cü siniflərdə böyük əhəmiyyətə malikdir, belə ki, uşaqlar ilk dəfə düzgün, ifadəli, sürətli oxu eşidirlər, bu uşaqlar üçün oxu nümunəsidir. Mətn həcmcə kiçik olanda və şagirdlər onu oxuduqda müəllimin suallarına cavab verə bilərsə onlara müstəqil oxumaq təklif olunur. Ürəyində oxuduqda seçici yanaşmaq vacibdir, belə ki, intellekt pozulması olan uşaqların əksəriyyəti özünü bu növ fəaliyyətə hazırlaya bilmir.

İzah əsasən söhbətlə təqdim olunur. Bu elə metoddur ki, onun vasitəsi ilə şagirdlər müəllimin suallarına cavab verir. Buna görə də söhbətlər giriş, söhbət-məlumat və yekun olaraq bölünür. Söhbətlərdən dərsin müxtəlif mərhələlərində müxtəlif məqsədlərlə istifadə olunur. Söhbət-

lər çox vaxt əşyaların nümayişi, şagirdlərin müstəqil işi ilə müşayiət olunur. Söhbətin aparılması üçün müəllim ciddi hazırlaşmalıdır:

- dərsin mövzusunu, onun məqsədini müəyyən etmək;
- material toplamaq;
- söhbətin növünü təyin etmək;
- suallar düşünmək lazımdır.

Sualların qoyulması üçün məzmun və forma aşağıdakı kimi olmalıdır:

- formalaşdırmanın dəqiqliyi və düzgünlüyü;
- məzmunun asanlığı;
- verilən suallar arasında əlaqə;
- onların forması və formalaşmasının müxtəlifliyi;
- sual bir neçə sualdan ibarət olmamalıdır;
- sual şagirdlərin fərdi imkanlarına uyğun olmalıdır.

Müəllim şagirdlərin suallara verdikləri cavabların quruluşuna, uşaqların özlərinin suallarının formalaşmasına xüsusi diqqət ayırmalıdır.

Söhbət metodları təlim prosesində təhsil və korreksiya-tərbiyə məsələlərini uğurla həll etməyə kömək edir.

Əyani metodlar (nümayiş, ekskursiya, müstəqil müşahidə) müstəsna əhəmiyyət daşıyır, belə ki, onların istifadəsi prosesində tədris materialının qavranılması şagirdlərin həqiqətləri bilavasitə həssaslıqla mənimsəməsinə söykənərək baş verir. Obyektləri müşahidə üçün təyin edərkən müəllim fikirləşməlidir:

- onların şagirdlərdə təzahür nəticələrini;
- hər bir uşağın öyrənməsinin təşkilini.

Nümayiş uşaqların hadisələrlə, proseslərlə, obyektlərlə onların təbii hallarında əyani-həssas tanış olmasından ibarətdir. Bu metod unikaldır, belə ki, öyrənilən hadisələrin, onların daxili xüsusiyyətlərinin dinamikasının aydınlaşmasına xidmət edir. Əyani obyektlərin nümayişi zamanı adətən xarici görünüşünü təsvir edirlər (böyüklüyü, forması, rəngi, tərkib hissələri, onların qarşılıqlı münasibəti). Simvolik əyani vəsaitlərin tətbiqi (çertyojlar, qrafiklər, sxemlər) xüsusi məktəblərdə məhduddur, belə ki, şagirdlərin əksəriyyəti belə əyanilik növünü anlamır.

Müstəqil müşahidə perseptiv təcrübə kimi şagirdlərin özləri tərəfindən təşkil olunur. Müşahidə – müxtəlif vəziyyətlərdə müəyyən plan üzrə həyata keçirilən (məktəbyanı ərazidə, kabinetdə, canlı guşədə, ekskursiyada) genişləndirilmiş məqsədyönlü qavrayış prosesidir. Şagirdlər əşyaları təbii şəraitdə görürlər. Belə halda əyani vəsait sanki şagirdin təcrübi fəaliyyəti ilə birləşir, onu düşünməyə, təsvir etməyə, müzakirə etməyə ruhlandırır. Xüsusi məktəbində əyani vəsait seçimi və istifadəsinə bir sıra tələblər qoyulur:

- nümayiş etdirilən obyekt müəyyən ölçüdə, rəngdə, müvafiq formada, uşaqların hər tərəfdən görə biləcəyi şəkildə olmalıdır;
- müəllim dərs üçün hansı növ əyani vəsait seçmək lazım olduğunu, onu dərsin hansı mərhələsində istifadə etməyin daha yaxşı olduğunu təyin etməlidir;
- müəyyən sayda əyani vəsait seçmək vacibdir, belə ki, əyani vəsaiti uşaqlara yalnız göstərmək deyil, onlarla həm də işləmək lazımdır;
- əyani vəsaitləri ardıcıl nümayiş etdirmək lazımdır;
- sözlü təsvirlərdən istifadə etmək vacibdir ki, bu şagirdlərin əşyanın ayrı-ayrı xüsusiyyətlərini müəyyən etmələrinə kömək edir.

Ekskursiya da həmçinin əyani metodlara aiddir. Onların əhəmiyyəti bundan ibarətdir ki, uşaqlar əşyaları təbii şəraitdə öyrənirlər.

Uşaqları ekskursiyaya hazırlamaq lazımdır. Uşaqlar hansı əşyaları öyrənəcəklərini bilməli, ekskursiyanın məqsədini dəqiq təsəvvür etməlidirlər. Ekskursiya keçirilməzdən əvvəl aydınlaşdırmaq lazımdır ki, uşaqlar müşahidə edəcəkləri əşya, hadisə haqqında bilirlər.

Əyani təlim metoduna texniki təlim vasitələrindən (TTV) istifadə aiddir. Burda müasir təlim texnologiyaların vasitəsi ilə, şagirdlərə hadisələrin inkişaf dinamikasını göstərmək olar (vulkan püskürməsi, tumurcuqların açılması, meyvələrin yetişməsi və s.). TTV istifadəsinə tələblər:

- öyrənilən əşyanı müşahidə etmək mümkün olmadıqda, TTV-dən məqsədyönlü istifadə;
- şagirdlərin əqli inkişaf xüsusiyyətlərini və bilik səviyyəsini nəzərə almaq vacibdir;
- filmləri mövzunu öyrəndikdən sonra şagirdlərin biliklərini möhkəmləndirmək məqsədilə göstərmək daha yaxşıdır;
- səsi bağlamaqla filmdən fraqmentlər göstərmək məqsədəuyğundur, şərhləri müəllim verir;
- şagirdlərin nəyə fikir verməli olduqlarına diqqət çəkərək, filmin məzmunu ilə qismən tanış etmək olar.

Təcrübi metodlar. Təcrübi metodlara şifahi və yazılı tapşırıqlar, laboratoriya işləri, emalatxanalarda, məktəbyanı sahədə iş, proqramlaşdırılmış təlim elementləri aiddir. Təcrübi metodlar şagirdlərə öyrədilən materialı daha dərindən anlamağa və başa düşməyə, bacarıq və vərdişləri formalaşdırmağa kömək edir. Bilik mənbəyi elə şagirdlərin fəaliyyəti hesab olunur. Bu qrup metodlardan istifadə əsasən böyük mövzu və ya onun ayrı-ayrı hissələrini öyrənildikdən sonra ümumiləşdirici-təkrar və yoxlama-hesabat dərslərində baş tutur.

Tapşırıqların yerinə yetirilməsi öyrənilən materialın təkrarlanmasını, onun möhkəmlənməsini təmin edir. Tapşırıqlar (yazılı, şifahi) – fəaliyyətlərin daha müvəffəqiyyətli yadda saxlanılması, biliklərin keyfiyyətinin yüksəldilməsi məqsədilə təşkil olunmuş təkrarı özündə birləşdirir. Bu metodun dəyəri ondadır ki, o bacarıq və vərdişlərin müvəffəqiyyətlə formalaşmasını təmin edir. Xüsusi, törəmə və şərh verilmiş tapşırıqlar ayrılır.

Yazı, hesab, oxu təlimi zamanı intellektual inkişaf pozulması olan uşaqlar hər növ tapşırıqdan istifadə edirlər. Lakin xüsusi növdən daha çox istifadə olunur, belə ki, bu tapşırıqlar çox sayda təkrarlamağı nəzərdə tutur. Törəmə tapşırıqlardan daha gec hallarda istifadə olunur, ona görə ki, bu tapşırıqlar onların variativ yerinə yetirilməsini təmin edir və daha əvvəl formalaşmış vərdişlərin möhkəmlənməsinə istiqamətlənmişdir. Şərh verilmiş tapşırıqlar ana dili, riyaziyyat (şərh verilmiş yazı) üzrə yerinə yetirilməsi zamanı istifadə olunur. Güclü şagirdlər müəllimin nəzarəti altında onların yerinə yetirilməsinə şərh verir.

Tapşırıqlar şifahi və yazılı ola bilər. İstifadə edilən tapşırıqların səmərəli olması üçün onlar müəyyən tələblərə cavab verməlidirlər: {4}

- şagirdlər üçün asan və əlçatan olmalı;
- həcmcə və mövzuca kiçik olmalı;
- şagirdlərin idrak fəaliyyəti xüsusiyyətlərini və onlarda bacarıq və vərdişlərin formalaşma dərəcəsi nəzərə alınmalı;
- çətinlik səviyyəsinin tədricən artması ilə müəyyən ardıcıllıqda təqdim olunmalıdır.

Təcrübi işlər metod kimi şagirdlərin yeni biliklər əldə etməsinə yönəlmişdir. Şagirdlər konkret təcrübələrin aparılması şəraitində yaradıcılıq xarakterli tapşırıqlar yerinə yetirir, təcrübi vərdişlərini möhkəmləndirir, ölçür, hesablayır, əldə olunan nəticələri əvvəldən olanlarla müqayisə edirlər. Təcrübi işlər təcrübi tapşırıqların həlli zamanı, əldə olunmuş biliklərin tətbiqinə, nəzəriyyə və təcrübə arasında əlaqə yaratmağa istiqamətlənmişdir. {5}

Dərsin gedişatı, hansı ki, burada təcrübi iş aparılır, dəqiq quruluşa malikdir:

- müəllimin izahı;
- göstərmək (təlimat vermək);
- tapşırığı yerinə yetirməyin ilk cəhdləri;
- işlərin yerinə yetirilməsi;
- müəllim tərəfindən nəzarət;
- şagirdlərin hesabatı.

Müstəqil işlər – bu şagirdlərin xüsusi fəaliyyət növüdür. Şagirdlər qarşıda duran işi yerinə yetirməyə hazır olmalıdırlar. Müstəqil işlərin növbəti növləri ayrılır: nümunə üzrə müstəqil işlər, reproduktiv, variativ və yaradıcı işlər. Konkret tapşırıq formasından istifadə iki əsas faktorla şərtlənir:

- uşaqların müstəqil işə hazırlığı ilə;
- müstəqil işin konkret məzmununa görə şagirdlərin bilik səviyyəsi ilə.

Son zamanlarda intellekt pozulması olan uşaqların təlim sistemində müstəqil işlərdən biri proqramlaşdırılmış təlim elementlərinin istifadəsidir. Bu metodun mahiyyəti: {1}

- çox sayda şagirdin müstəqil fəaliyyətə qoşulması;
- şagirdlərin konkret fənn üzrə imkanları nəzərə alınmaqla tapşırıqların variativliyi;
- müəllim tərəfindən operativ nəzarət imkanları;
- özünə nəzarət, müstəqillik vərdişlərinin inkişafıdır.

Bu metodun çatışmazlıqları da var:

- nitq ünsiyyəti məhdudlaşmışdır;
- müstəqil işin vaxtını həmişə azaltmaq olmur;
- təfəkkürün inkişafı vasitəsi kimi nitqin korreksiya əhəmiyyəti azalır.

Təlim formaları dedikdə müəllimlər və şagirdlərin müəyyən sıra və rejimlə həyata keçirilən uzlaşmış fəaliyyətinin xarici ifadəsi nəzərdə tutulur. Onlar didaktik sistemin inkişafı ilə yaranır və təkmilləşir:

1) Şagirdlərin sayına görə – qrup və fərdi məşğələlər;

2) Tədris yerinə və müəssisənin növünə görə – məktəbəqədər (məşğələlər), məktəb (dərs-

lər, emalatxanada işlər, məktəbyanı sahədə), məktəb xarici (ekskursiyalar, ev məşğələləri, tədbirlərdə);

3) Dərs məşğələsinin müddətinə görə:

- ✓ dərs (40-45dəqiqə);
- ✓ fərdi və qrup xarakterli korreksiyaedici məşğələləri (MFT, loqoped məşğələləri 15 dəqiqədən 25 dəqiqəyə qədər);
- ✓ uzadılmış qrup sistemində iş (özünü hazırlamaq) (60 dəqiqədən 90 dəqiqəyə qədər).

4) Tədris prosesi istiqamətinə, məqsədlərinə və tapşırıqlarına görə – fərdi inkişafetdirici məşğələləri, psixomotorikanın və sensor proseslərin inkişafı üzrə məşğələlər, oyun terapiyası və s.

Xüsusi məktəbdə tədris prosesinin təşkilinin sinif-dərs forması, adi məktəblərdən fərqli olaraq, növbəti xüsusiyyətləri ilə xarakterizə olunur:

- – hər dərs konkret fənn üzrə aparılır;
- – şagirdlər heyəti çox vaxt müxtəlif yaşlılardan ibarət olur, məktəb təliminə hazırlıq səviyyəsi isə fərdi xarakter daşıyır;
- – dərs sistemi xüsusi olaraq, bu növ müəssisə üçün hazırlanmış tədris planı və proqramı əsasında həyata keçirilir;
- – dərsdə müxtəlif növ və formada idrak fəaliyyətindən istifadə etmək vacibdir;
- – təlim müəllim-defektoloqun simasında pedaqoji rəhbərlik altında həyata keçirilir.

**Problemin elmi yeniliyi.** Qeyd olunduğu kimi uşaqların təlim sistemində müstəqil işlərdən biri proqramlaşdırılmış təlim elementləridir. Təcrübi işlər metod kimi şagirdlərin yeni biliklər əldə etməsinə kömək edir. Tapşırıqların yerinə yetirilməsi öyrənilən materialın təkrarlanmasını, onun möhkəmlənməsini təmin edir.

**Problemin praktik əhəmiyyəti:** Təlim prosesinin təşkilinin sinif-dərs forması digərləri qarşısında üstünlüyü bundadır ki, müəllimin və şagirdlərin fəaliyyət vaxtı ciddi şəkildə limitlənmişdir, tədris idrak prosesinin qənaətli təşkili baş tutur, fərdi-kollektiv fəaliyyətə şərait yaradılır. Sinif-dərs təlim sisteminin əsas komponenti dərs hesab olunur. Korreksiya didaktikası üçün bütöv yanaşma nəzərə alınmaqla metodların təsnifi xüsusi əhəmiyyət kəsb edir.

**Ədəbiyyat:**

1. Hüseynova, N.T. – Xüsusi pedaqogikanın müasir problemləri, dərs vəsaiti / N.T. Hüseynova, M.Ş. Məlikov. – Bakı: ADPU, – 2018.
2. Hüseynova, N.T. Oliqofrenopedaqogika, dərslik / N.T. Hüseynova. – Bakı: ADPU, – 2023.
3. Граборов А.Н., Кузьмина Н.Ф., Новик Ф.М – Олигофренопедагогика. – М., 1941.
4. Мозговой, В.М. – Основы олигофренопедагогики: учеб. пособие для студ. сред. учеб. Заведений. / В.М. Мозговой, И.М. Яковлева, А.А. Еремина. – М.: Издательский центр «Академия», – 2010.
5. Пузанов, Б.П. Обучение детей с нарушениями интеллектуального развития: Олигофренопедагогика. / Б.П. Пузанов. – М., 2000.

**E-mail:** nailyahuseyn72@gmail.com
**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **S.R. Aslanova,**
*ped.ü.fəls.dok.* **S.N. İsgəndərova**
**Redaksiyaya daxil olub:** 23.10.2023

*UOT 376*

***Elmira Mahmud qızı Kərimova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun aparıcı elmi işçisi*
*https://orcid.orq/0000-0003-1378-8472*

# SAĞLAMLIQ İMKANLARI MƏHDUD UŞAQLARIN TƏHSİLİ MÜƏLLİMLƏRİN VƏ VALİDEYNLƏRİN GÖZÜ İLƏ
## (aparılan sorğuların nəticələrinin təhlili əsasında)

***Эльмира Махмуд гызы Керимова***
*доктор философии по педагогике,*
*ведущий научный сотрудник Института образования Азербайджанской Республики*

# ОБУЧЕНИЕ ДЕТЕЙ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ ЗДОРОВЬЯ ГЛАЗАМИ УЧИТЕЛЕЙ И РОДИТЕЛЕЙ
## (на основе анализа результатов проведенных опросов)

***Elmira Mahmud Karimova***
*doctor of philosophy in pedagogu,*
*leadinq scientific worker at the Institute of Education of the Repablic of Azerbaycan*

# TEACHING CHILDREN WITH DISABILITIES THROUGH THE EYES OF TEACHERS AND PARENTS
## (based on analysis of survey results)

**Xülasə.** Sağlamlıq imkanları məhdud uşaqların həyata inteqrasiyasında olan çətinliklərin öyrənilməsi ilə əlaqədar 2023-cü ilin may-iyun aylarında Bakı şəhərinin 10 xüsusi məktəb və internat-məktəbində anket sorğuları keçirilib. Sorğuda iki sosial qrupun nümayəndələri iştirak ediblər: müəllimlər (500 müəllim) və sağlamlıq imkanları məhdud uşaqların valideynləri (300 valideyn). Bu iki sosial qrupun seçilməsi həmin respondentlərin təhsil prosesinin iştirakçısı olması və xüsusi təhsilin tətbiqi prosesində onların maraqlarına toxunulması ilə bağlıdır. Bu məqalədə alınan nəticələrin təhlili və xüsusi təhsilin tətbiqində olan problemlər öz əksini tapıb. Eyni zamanda təhlil prosesində üzə çıxan problemlərin əsasında xüsusi təhsil sisteminin inkişafı və təkmilləşdirilməsi yollarını və istiqamətlərini müəyyən etmək mümkündür.
***Açar sözlər:*** *sağlamlıq imkanları məhdud uşaqlar, xüsusi təhsil, xüsusi təhsil sisteminin təkmilləşdirilməsi, inteqrativ təhsil, respodent, sorğu, nəticələrin təhlili*

**Резюме.** Анкетные исследования были проведены в 10 интегративных (специальных) школах и школах-интернатах города Баку в мае-июне 2023 года в связи с изучением трудностей интеграции в жизнь и общество детей с ограниченными возможностями здоровья. В опросе приняли участие представители двух социальных групп: педагоги (500 учителей) и родители детей с ограниченными возможностями здоровья (300 родителей). Выбор этих двух социальных групп связан с тем, что все респонденты являются участниками образовательного процесса и их интересы в первую очередь учитываются в процессе внедрения специального образования. В данной статье были проанализированы полученные результаты, а также отражены проблемы специального образования. При этом на основе выявленных проблем можно определить пути и направления развития и усовершенствования системы специального образования.
***Ключевые слова:*** *дети с ограниченными возможностями здоровья, специальное образование, усовершенствование системы специального образования, интегративное образование, респодент, опрос, анализ результатов*

**Summary.** Questionnaire surveys were conducted in 10 integrated (special) schools and boarding schools of Baku in May-June 2023 in connection with the study of difficulties in the integration of children with limited health opportunities into life. Representatives of two social groups participated in the survey: teachers (500 teachers) and parents of children with disabilities (300 parents). The choice of these two social groups is related to the fact that all respondents are participants in the educational process and that their interests are primarily addressed in the process of applying special education. In this article, the obtained results were analyzed, and the problems in the application of special education were reflected. At the same time, it is possible to determine the ways and directions of development and improvement of special education on the basis of the revealed problems.

***Key words:*** *children with disabilities, special education, improvement of the special education system, integrative education, respondent, survey, analysis of results*

Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2020-ci il tarixli 2306 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nın 5.3.3-cü bəndinin "Sağlamlıq imkanları məhdud uşaqların həyata inteqrasiyasında çətinliklərin öyrənilməsi" ilə bağlı 2023-cü ilin may ayında Bakı şəhərinin 10 inteqrativ (xüsusi) məktəb və internat-məktəbində Tİ-nin Psixologiya və xüsusi təhsil şöbəsinin əməkdaşları tərəfindən anket sorğuları keçirilib. Sorğuda iki sosial qrupun nümayəndələri iştirak ediblər: müəllimlər (500 müəllim) və sağlamlıq imkanları məhdud uşaqların valideynləri (300 valideyn). Bu iki sosial qrupun seçilməsi bütün respondentlərin təhsil prosesinin iştirakçısı olması və inteqrativ təhsilin tətbiqi prosesində, ilk növbədə, onların maraqlarına toxunulması ilə bağlıdır. Qeyd etdiyimiz kimi, sorğuda 500 müəllim və 300 valideyn iştirak etmişdir. Valideynlərin orta yaşı 39,3 yaş, müəllimlərin isə 44 yaş təşkil etmişdir. Müəllimlərin orta pedaqoji stajı 18,5 il, xüsusi təhsildə iş stajı isə 14,9 il təşkil etmişdir.

İlk növbədə qeyd edək ki, sorğuda iştirak edən müəllimlərin 77,6% (388 nəfər) ali təhsillidir və onların xüsusi məktəbdə işlədiyi müddət orta hesabla 14,9 il təşkil edir. Valideynlər arasında ali təhsillilərin sayı 23,3% (70 nəfər), orta təhsillilərin sayı isə 74,3% (223 nəfər), natamam orta təhsilli 2% (6 nəfər) təşkil etmişdir, 1 nəfər təhsilsizdir.

Müəllimlərin və valideynlərin xüsusi təhsilə olan münasibətini, onların problemlərini, bu prosesə olan nəzər nöqtəsini, nəyi gözlədiyini və s. araşdırıb konstruktiv nəticələr əldə etmək üçün sorğuda alınan nəticələrin təhlili müqayisəli şəkildə aparılmışdır.

Bu baxımdan çox vacib və, bəlkə də, xüsusi məktəblərin gələcək taleyinə təsir göstərə bilən əsas sual hər iki sorğuda eyni formada qurulan "Sizcə, sağlamlıq imkanları məhdud uşaqlar harada təhsil almalıdır?" sualıdır. Bu suala cavabda müəllimlər və valideynlər həmrəylik göstərib: müəllimlərin 90% (450 cavab) və valideynlərin 84,5% (255 cavab) xüsusi məktəbləri seçiblər. Ümumtəhsil məktəbin xüsusi siniflərində uşaqlarının təhsil almasını istəyən valideynlər 6,6% (20 cavab), müəllimlərdən isə belə təhsil quruluşuna müsbət cavab verənlər isə 6,02% (31 cavab) təşkil etmişlər. Bu sualla əlaqədar valideynlər şifahi bildirmişlər ki, əsas səbəb uşaqların ümumtəhsil məktəbinin proqramının öhdəsindən gələ bilməyəcəkləri və problemli uşaqlara neqativ münasibətin olmasıdır.

Lakin burada qeyd etməliyik ki, bu cür problemlərlə uşaqlar xüsusi məktəbdə də qarşılaşır. Belə ki, "Valideyn kimi, hansı problemlərlə qarşılaşırsınız?" sualına 37% (111 cavab) başqalarının uşağa qarşı nəzakətsiz davranışını və aqressivliyini, 30,5% (107 cavab) isə təhsildə çətinlikləri göstərmişlər. Yəni, valideynlərin ümumtəhsil məktəbin xüsusi siniflərinə olan münasibəti qismən əlverişli sosial-mədəni şəraitin olmaması və belə təhsil forması haqqında müsbət məlumatların azlığı ilə əlaqədardır.

Sağlamlığında problemləri olan uşaqların ümumtəhsil məktəbinin siniflərində təhsili ilə bağlı məktəb müəllimlərinin mövqeyi daha aydındır (6,02% lehinə – 31 cavab). Ümumilikdə uşaqların sosial və təhsil inteqrasiyasına müsbət münasibət bəsləyən müəllimlər müxtəlif psixofiziki statuslu uşaqların birgə təhsili zamanı qarşılaşacaq bir çox problemlərə diqqət yetirirlər. Bununla belə, müəllimlər ən çox cəmiyyətdə atipik insanlara mənfi münasibətin olmasını, atipik uşağın dövlət məktəbində tədrisi üçün uyğunlaşdırılmış xüsusi təhsil proqramlarının olmamasını, inteqrasiya məsələlərində ümumtəh-

sil məktəbin müəllimlərinin psixoloji və pedaqoji səriştəsizliyini qeyd etmişlər.

Daha bir eyni formada verilən suala cavablarda müəllimlər və valideynlər, demək olar ki, həmrəy olmuşlar. Əvvəlcədən qeyd edək ki, "Sizcə, son 5 ildə müəllimlərin sağlamlıq imkanları məhdud uşaqların inteqrativ təhsilinə münasibəti necə dəyişib?" sualına cavab verərkən, valideynlər bu prosesə müəllimlərin bəslədiyi münasibəti, müəllimlər isə öz münasibətini bildirmişlər. Belə ki, müəllimlərin 70,8% (359 c.), valideynlərin isə 67,6% (203 c.) bu prosesin yaxşılığa doğru dəyişməsini qeyd etmişlər. Müəllimlər eyni zamanda sağlamlıq imkanları məhdud uşaqların təlim nəticələrinə öz münasibətini bildirərək, onları uğurlu – 60,16% (308 c.) və orta – 37,2% (186 c.) kimi qiymətləndirmişlər.

Müəllimlər də "Sizcə, son 5 ildə valideynlərin sağlamlıq imkanları məhdud uşaqların inteqrativ təhsilinə münasibəti necə dəyişib?" sualına cavab verərkən valideynlərin bu prosesə bəslədiyi münasibəti müsbətə doğru dəyişməsini qeyd ediblər – 56,6% (283 c.). Müəyyən dərəcədə cavablarda müəllimlərin və valideynlərin həmrəyliyini dövlətin təhsil inteqrasiyası təcrübəsini dəstəkləməsi ilə, cəmiyyətdə sağlamlıq imkanları məhdud insanlara münasibətin tədricən müsbətə doğru dəyişməsi ilə izah etmək olar.

Xüsusi təhsili belə yüksək qiymətləndirdikləri fonda onu da qeyd etməliyik ki, inklüziv təhsil haqqında sorğuda sual olmasa da, həm müəllimlərin, həm də valideynlərin əksəriyyəti bu təhsil formasına şifahi olaraq neqativ münasibət bildirmişdir. Valideynlərin belə münasibətini biz yuxarıda "Sizcə, sağlamlıq imkanları məhdud uşaqlar harada təhsil almalıdır?" sualına cavablarının təhlilində göstərmişik. Müəllimlərin isə skeptik yanaşmasının səbəbini mühafizəkarlıqla, qismən də inklüziv şəraitdə peşə fəaliyyətlərinin çətinləşməsilə, yaradıcı özünü ifadə edə bilməməklə və s. çətinliklər ilə izah edə bilərik.

Bilavasitə təhsilin tətbiqi və təşkili ilə bağlı suallar da sorğuda yer alıb, çünki təhsil texnologiyalarının tətbiqi yolunda müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması ilkin vəzifələrdən biridir. Dörd alt sualdan ibarət "Sizcə, sağlamlıq imkanları məhdud uşaqların təhsilində səmərəliliyi artırmaq üçün nəyə ehtiyac var?" sualına müəllimlərin 78,6% (393 c.) tədris prosesinin müasir maddi-texniki və proqram metodik təchizatını; 40,14% (207 c.) sinifdə psixoloqun, tyutorun, əlavə müəllimin olmasını; 30,38% (169 c.) kadr hazırlığının təkmilləşdirilməsini; 30,72% (188 c.) isə maaşların artırılmasını qeyd etmişlər.

Müəllim və valideyn sorğularında daha iki əks sədalı sual var. Belə ki, "Uşağınızın təhsil ehtiyacı üçün nə tələb olunur?" sualına valideynlərin 55,2% (176 c.) fərdi təlim proqramlarını göstərib. Müəllimlər isə "Tədris materialının uyğunlaşdırılmasında hansı işləri vacib hesab edirsiniz?" sualına cavab verərkən tapşırıqların fərdi variantlarının hazırlanması və verilməsini qeyd ediblər – 53,2% (266 c.). Faiz nəticələrindən göründüyü kimi, həm valideynlər, həm də müəllimlər bu məsələni aktual və vacib hesab edirlər.

Baxmayaraq ki, "Sizcə, sağlamlıq imkanları məhdud uşaqların təhsilində səmərəliliyi artırmaq üçün nəyə ehtiyac var?" sualını cavablandırarkən müəllimlərin 30,38% (169 c.) kadr hazırlığının təkmilləşdirilməsini qeyd etmişlər, bu cavablar başqa bir sualın cavabı ilə dissonans yaratmış olur. Belə ki, "Sağlamlıq imkanları məhdud uşaqlarla işləmək üçün pedaqoji-psixoloji təkmilləşmə kursuna ehtiyacınız varmı?" sualına müəllimlərin 40,14% (270 c.) qəti "Xeyir, pedaqoji-psixoloji hazırlığım *məni* qane edir" cavab verərək subyektiv fikir bildirmişlər. Fikrimizcə bu, müəllimlərin öz ixtisaslarını təkmilləşdirməsində və şagirdlərinin nailiyyətlərini artırmaqda maraqlı olmaması və müəllimlərin dediklərinə görə, motivasiyanın aşağı olması (müəllimlərin maaşının az olması, mükafatların olmaması və s.) ilə izah olunur. Müəllimlərin 27,2% (136 c.) isə "Bəli, pedaqoji-psixoloji təkmilləşmə kursuna ehtiyacım var" cavabı vermişdir. Lakin onu da qeyd edək ki, müəllimlərin cavablarından məlum oldu ki, onlar ozünütəhsilə də diqqət yetirirlər. Belə ki, "Sağlamlıq imkanları məhdud uşaqlarla iş üçün materialları haradan əldə edirsiniz?" sualına 50,7% (285 c.) mühazirələri, seminarları, təlimləri; 47,8% (239 c.) digər mənbələri, əsasən İnterneti, göstərmişlər.

Müəllimlərin sağlamlıq imkanları məhdud uşaqların və valideynlərin öz uşağının daha çox nəyə ehtiyac duyduğunda da fikirlər, demək olar ki, üst üstə düşüblər, bu da uşağın problemini hər iki tərəfin düzgün qiymətləndirməsindən xəbər verir. Belə ki, "Məktəbdə ən çox kiminlə əmək-

daşlıq edirsiniz?" sualına müəllimlərin 60,76% (338 c.) fənn müəllimini; 50,86% (293 c.) müəllim-loqopedi; 40,9% (245 c.) psixoloqu; 20,9% (146 c.) müəllim-defektoloqu qeyd etmişlər. Valideynlərin əksəriyyəti "Uşağınızın təhsil ehtiyacı üçün nə tələb olunur?" sualına cavab verərkən 70,6% (228 c.) loqopedi, psixoloqu, sosial işçini birlikdə qeyd edib. "Təhsil müəssisəsində uşağınız hansı mütəxəssisdən dəstək alır?" sualına isə valideynlərin 70,96% (239 c.) fənn müəllimini; 50,3% (151 c.) loqopedi; 20,7% (81 c.) müəllim-defektoloqu göstərmişlər.

Xüsusi təhsil sağlamlıq imkanları məhdud uşaqlara müəyyən həcmdə biliklərlə yanaşı cəmiyyətdə adaptasiya olunmaq üçün əmək və kommunikativ bacarıqları da aşılamalıdır. Belə ki, "Uşağınızın təhsilindən hansı nəticəni gözləyirsiniz?" sualına cavablarında valideynlərin 60% (180 c.) gələcək həyat üçün vacib olan bilik və bacarıqlara yiyələnməni, 55% (175 c.) ünsiyyət bacarıqlarına yiyələnməni, 50,73% (173c.) cəmiyyətə adaptasiya üçün həyatı bacarıqlara yiyələnməni göstərmişlər. Uşaqlarının gələcəyindən narahat olan valideynlər əksər halda "Uşağınızın gələcəyini necə planlaşdırırsınız?" sualına cavab verərkən uşaqlarının peşə təhsili almasında maraqlı olduqlarını bildiriblər – 40,13% (124 c.).

Xüsusi təhsilin inkişafı üçün vacib olan "İnteqrativ təhsilin məqsədlərinin vacibliyi baxımından aşağıdakıları 1-5 bal aralığına görə qiymətləndirin" təklifində müəllimlərin ümumi həmrəyliyi heyran edir, çünki onlar bütün təklif olunan bəndləri: təhsil proqramının mənimsənilməsini, uşağın sosiallaşmasını, uşağın inkişafına ümumi dəstəyi, uşağın inkişafındakı pozulmalarının korreksiyasını hərəsini orta hesabla 4 balla, yəni qənaətbəxş qiymətləndiriblər.

Sağlamlıq imkanları məhdud uşağı olan ailələrin ən mühüm problemi uşağın müalicəsi və reabilitasiyası, dərman preparatlarının, texniki reabilitasiya avadanlıqları və ortopedik vasitələrin alınması üçün zəruri olan maliyyə vəsaitinin olmaması və ya çatışmazlığıdır. Bu baxımdan "Ailənizin hazırki maddi (iqtisadi) vəziyyətini necə qiymətləndirirsiz?" sualına valideynlərin 65,3% (196 c.) "orta", 27% (81 c.) "pis" və 7,66% "yaxşı" yazaraq, cavab vermişdir. Fikrimizcə, bu cavablar vəziyyəti düzgün əks etdirmir, çünki pis, orta və yaxşı maddi vəziyyətin kriteriləri sualda açıqlanmayıb və nəzərə alınmayıb.

Valideynlər arasında sorğunun keçirilməsində bir məqsəd də onların ailələrinin sosial-iqtisadi vəziyyəti və qarşılaşdıqları çətinliklər və problemlər haqqında fikirlərini aşkar etmək idi. Onlar əsasən çətinliklər kimi aşağıdakıları qeyd etmişlər:

- sosial xidmətlər və göstərilən yardımların çatışmazlığı;
- müxtəlif xəstəlikləri olan sağlamlıq imkanları məhdud uşaqlar üçün müvafiq təhsil formaları haqqında məlumatın azlığı;
- cəmiyyətin sağlamlıq imkanları məhdud uşaqlara münasibətin hələ də tam pozitiv olmaması və s.

Yaxşı bilirik ki, sağlamlıq imkanları məhdud uşaqların təhsilinin əsas 3 məqsədi var. Bunlar:

- təhsil məqsədləri: təhsil proqramının mənimsənilməsi, uşaqların müəyyən həcmdə bilik, vərdiş və bacarıqlara yiyələnməsi;
- tərbiyə məqsədləri: ali dəyərlərin formalaşdırılması, davranış nümunələrinin təkmilləşdirilməsi, uşaqlarda ünsiyyət bacarıqlarının mənimsənilməsi, sosial aktivliyin inkişafı, gələcək həyata hazırlıq və s.;
- korreksiya məqsədləri: xüsusi pedaqoji və psixoloji metodlarla uşaqda psixi proseslərin və emosional-iradi sferanın inkişaf etdirilməsi, birinci və ikinci dərəcəli çatışmazlıqların korreksiyası və kompensasiyası və s.

Sorğular bu məqsədlərin həyata keçirilməsində problemlərin olduğunu göstərdi, məsələn, tədris proqramının uyğunlaşdırılması, tədris materiallarının əldə edilməsi, təkmilləşdirmə məsələləri, müasir maddi-texniki və proqram – metodik təchizat və s. Lakin bu problemlər təkcə sağlamlıq imkanları məhdud uşaqların valideynlərinin və müəllimlərin problemi deyil. Bu cür problemlər hamımıza toxuna bilər, onlar hamımızın problemidir.

Xüsusi təhsil sistemi hər uşaq üçün onun imkan və qabiliyyətlərinə uyğun kompleks tibbi-psixoloji-pedaqoji korreksiya şəraiti yaratmalıdır. Bu zaman əsas vəzifə inkişafın pozulması nəticəsində yaranmış çatışmazlıqları kompensasiya etmək, əlilliyin mümkün qədər qarşısını almaq, orqanizmin salamat funksiyaları və imkanları sayəsində uşağa normal mühitdə, cəmiyyətdə yaşamağı öyrətməkdir.

Sağlamlıq imkanları məhdud uşaqların keyfiyyətli təhsilini təmin etmək, onların uşaq hüquqlarını həyata keçirmək yalnız dövlətin, cəmiyyətin və ailənin birgə səyləri nəticəsində mümkündür. Xüsusi təhsilin vəzifələrinin həlli və sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə uğurlu inteqrasiyası cəmiyyətin nə dərəcədə sağlam və mədəni olmasının göstəricisidir.

**Problemin aktuallığı.** Məlum olduğu kimi, respublikada ildən ilə inteqrasiyalı (inklüziv) təhsilli məktəblərin sayı artır. Təhsil prosesinin qurulmasına inteqrativ yanaşma sağlamlıq imkanları məhdud uşaqlarla inkişaf qüsurları olmayan uşaqlar arasında məsafəni azaltmağa imkan verir, onların sosiallaşmasına və cəmiyyətə inteqrasiyasına kömək edir. Bununla belə, bütün uşaqlar ibtidai məktəbdən başlayaraq inteqrativ təhsillə əhatə oluna bilməz. Onlardan bəziləri inkişaf qüsurlarına görə ya xüsusi təhsillə əhatə olunur, ya da təlimin ibtidai əsaslarını xüsusi məktəbdə almalıdırlar. Xüsusi təhsil sağlamlıq imkanları məhdud uşaqların potensial imkanlarını nəzərə alaraq, müəyyən kateqoriyadan olan problemli uşaqları inteqrativ təhsilə hazırlayır.

**Problemin elmi yeniliyi.** Respublikada 70 mindən artıq sağlamlıq imkanları məhdud uşaq qeydə alınıb. Və bütün dünyada olduğu kimi, bizdə də onların sayı ildən ilə artır. Və sirr deyil ki, məktəb yaşlı sağlamlıq imkanları məhdud uşaqların hamısını inklüziv təhsilə cəlb eləmək mümkün deyil. O zaman, illərlə qurulan və misilsiz təcrübəsi olan xüsusi təhsil sistemimiz mütləq təkmilləşərək, dəyişməli, qorunub saxlanılmalı və yaşamalıdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə keçirilən sorğuların nəticələrinin təhlili əsasında yazılıb. Təhlildə xüsusi təhsilin problemləri, uğurları və s. əksini tapıb. Bu baxımdan məqalə həm mütəxəssislər, həm də uşaqların valideynləri üçün məlumatlandırıcı olacaq.

## Ədəbiyyat:


1. Актуальные проблемы интегрированного обучения // Сб. материалов Междунар. науч.-практ. конф. по проблемам интегрированного обучения лиц с ограниченными возможностями здоровья, 29-31 янв. 2001 г. / ред. Н.Н. Малофеев [и др.]. – М.: Права человека, – 2001.
2. Алейникова С.А. Отношение педагогов и родителей к интегрированному обучению детей с нарушенным слухом / С.А. Алейникова, М.М. Маркович, Н.Д. Шматко // Дефектология. – № 5. – 2005. – с. 3-19.
3. Александрова М.В. Продуктивное взаимодействие педагогов как фактор развития школы : дис. ... канд. пед. наук / М.В. Александрова. – М., 2003. – 167 с.
4. Ананьев Б.Г. О психологических эффектах социализации / Б.Г. Ананьев // Человек и общество: проблемы социализации индивида: ученые записки / под ред. Б.Г. Ананьева, Л.И. Спиридонова. – Л. : Изд-во ЛГУ, 1971. – Вып. 9. – с. 144-150.
5. Афасижев Т.Н. Гуманизация образования / Т.И. Афасижев, А.К. Тхакушинов // Социологические исследования. – 1995. – №5. – с. 110-112.
6. Байбородова Л.В. Взаимодействие школы и семьи / Л.В. Байбородова. – Ярославль: Академия развития, 2003. – 214 с.
7. Богданова Л.Р. Пути интеграции учащихся коррекционной школы / Л.Р. Богданова // Источник. – 2001. – № 2. – с. 8-12.


**E-mail:** ema.umudova@mail.ru
**Rəyçilər:** *psixo.ü.fəls.dok.* **R. Quliyeva,**
*ped.ü.fəls.dok.* **S. İsgəndərova**
**Redaksiyaya daxil olub:** 16.10.2023

*UOT 376*

***Könül Bayram qızı Qurbanova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Xüsusi təhsil kafedrasının müəllimi*
*ORCID 0009-0005-6664-7266*

# NİTQ PATOLOGİYALARININ ETİOLOGİYASI VƏ POZULMALARIN YARANMASININ SOSİAL-PSİXOLOJİ SƏBƏBLƏRİ

***Кёнуль Байрам гызы Гурбанова***
*преподаватель кафедры Специального образования*
*Азербайджанского государственного педагогического университета*

# ЭТИОЛОГИЯ РЕЧЕВЫХ ПАТОЛОГИЙ И СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ПРИЧИНЫ ПОЯВЛЕНИЯ РАССТРОЙСТВ

***Konul Bayram Khurbanova***
*teacher of Special education department of*
*Azerbaijan State Pedagogical University*

# ETIOLOGY OF SPEECH PATHOLOGIES AND SOCIO-PSYCHOLOGICAL CAUSES OF DISORDERS

**Xülasə.** Nitq insanlar arasında kommunikasiya və əlaqələr sisteminin aparıcı qüvvəsidir. Nitq sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətimizə adaptasiyası üçün əvəzedilməz rola malikdir. Nitq pozulmaları, onların yaranma səbəbləri mövzunun aktuallığını təmin edir. Nitq qüsurlarının yaranmasının əsas 2 səbəbi var. Orqanik və sosial-psixoloji. Orqanik səbəblərə bətndaxili dövrdə doğuş zamanı və ya doğuşdan sonra beynin inkişafdan qalması və zədələnməsi, nitq orqanlarının müxtəlif cür orqanik pozğunluqları aiddir.
***Açar sözlər:*** *nitq, pozulma, etiologiya, sosial-psixoloji səbəblər*

**Резюме.** Речь является движущей силой системы общения между людьми. Речь играет незаменимую роль в адаптации людей с ограниченными возможностями к нашему обществу. Речевые нарушения и причины их возникновения обеспечивают актуальность темы. Выделяют две основные причины дефектов речи. Органические и социально-психологические. К органическим причинам относятся недоразвитие и поражение головного мозга во внутриутробном периоде или после рождения, различные органические нарушения органов речи.
***Ключевые слова:*** *речь, нарушение, этиология, социально-психологические причины*

**Summary.** Speech is the driving force of the communication and communication system between people. Speech has an indispensable role for the adaptation of people with disabilities to our society. Speech disorders and the causes of their occurrence ensure the relevance of the topic. There are 2 main causes of speech defects. Organic and social-psychological. Organic causes include underdevelopment and damage of the brain during the intrauterine period or after birth, and various organic disorders of the speech organs.
***Key words:*** *speech, disorder,etiology, socio-psychological reasons*

Nitq patologiyasının müxtəlif səbəblərini nəzərdən keçirərkən, hər yaş mərhələsində anormal inkişafın ümumi qanunauyğunluqlarını və nitq inkişafının qanunauyğunluqlarını nəzərə alaraq, qüsurun baş vermə prosesini təhlil etməkdən ibarət təkamül-dinamik yanaşma istifadə olunur. Uşağı əhatə edən şəraiti də xüsusi olaraq öyrənmək lazımdır. Uşaq nitqinin patologiyasının əsas səbəblərini qısaca xarakterizə edək. Bu, fetal inkişafın perinatal, doğuş və postnatal dövrlərində zərərli amillərin hərəkətidir.

**Perinatal patologiya** hamiləlik dövründə, fetusun inkişafı dövründə zərərli amillərə məruz qalma nəticəsində baş verir: Doğuş patologiyası – doğuş zamanı zərər və ağırlaşmalar; Postnatal patologiya – doğuşdan sonra müxtəlif zərərli amillərin təsiri; Perinatal patologiya.

Hamiləliyin patologiyası. Ən ağır nitq qüsurları 4 həftədən 4 aya qədər olan dövrdə dölün inkişafı pozulduqda baş verir. Danışıq patologiyasının meydana gəlməsinə hamilə qadınların toksikozları, viral infeksiyalar (ARVI, qrip), ananın endokrin xəstəlikləri, travma və psixotravmalar (sinir stressi), Rh amilinə görə, qan uyğunsuzluğu, əlverişsiz ginekoloji tarix (düşmələr, abortlar) kimi amillər səbəb ola bilər. Dölün inkişafının pozulması hamiləlik dövründə dərmanlar, ionlaşdırıcı şüalanma, vibrasiya, alkoqolizm və siqaret istifadəsi ilə əlaqədar baş verə bilər.

Doğuşun patologiyası və ağırlaşmaları. Mamalıq patologiyası (dölün düzgün təqdim edilməməsi, çoxlu hamiləlik, polihidramniozlar, amniotik mayenin vaxtından əvvəl boşalması, dar çanaq, uzun və ya sürətli doğuş) doğuş zamanı asfiksiyaya (və ya hipoksiyaya) səbəb ola bilər.

Sinir sisteminin perinatal patologiyasında aparıcı yeri intrakranial doğuş travması və asfiksiya tutur. Asfiksiya – tənəffüs çatışmazlığı səbəbindən beyinə oksigen tədarükünün olmamasıdır. Hipoksiya isə oksigen aclığı deməkdir. Asfiksiya və kəllədaxili doğuş travması kəllədaxili qanaxmaya və sinir hüceyrələrinin ölümünə səbəb olur. İntrakranial qanaxmalar beyin qabığının danışma sahələrini tuta bilər ki, bu da beynin danışma mərkəzlərinin zədələnməsinə səbəb olur.

Beyin zədələnməsinin məruz qalma vaxtından və lokalizasiyasından asılı olaraq müxtəlif növ nitq qüsurları meydana gəlir. Məsələn, motor nitq analizatorunun mərkəzi üzvi zədələnməsi varsa, dizartriya meydana gəlir. Bu zaman nitq aparatının əzələlərinin innervasiyası pozulur (dodaq, dil, udlaq və s.). Nəticədə iflic, parez kimi ağır patalogiyalar yarana bilir. Ananın və dölün qanının uyğunsuzluğu (Rhesus münaqişəsi və ya qan qrupunda münaqişə). Rhesus və ya qrup antikorları, plasentaya nüfuz edərək, fetusun qırmızı qan hüceyrələrinin parçalanmasına səbəb olur. Nəticədə eritrositlərdən mərkəzi sinir sistemi üçün zəhərli bir maddə, dolayı bilirubin ayrılır. Onun təsiri altında beynin kortikal hissələri, eşitmə nüvələri təsirlənir ki, bu da eşitmə qabiliyyətinin pozulması ilə birlikdə nitqin səs yaradan tərəfinin spesifik pozğunluqlarına səbəb olur.

**Postnatal patologiya.** Uşağın həyatının ilk illərində müxtəlif xəstəliklər: tez-tez yoluxucu viral xəstəliklər, meningo-ensefalit, erkən mədə-bağırsaq pozğunluqları yarana bilər ki, bu zaman nitq pozulmalarının yaranma ehtimalı olduqca böyükdür. Beyin sarsıntısı ilə müşayiət olunan kəllə travması. Beyin qabığının ayrı-ayrı sahələrinin keyfiyyətcə yetişməməsi miras alındıqda əlverişsiz irsi meyl yaranır. Bu hallarda nitq pozğunluqları sinir sisteminin ümumi pozğunluğunun yalnız bir hissəsini təşkil edir və intellektual və motor çatışmazlığı ilə birləşir.

Valideyn alkoqolizmə meylli olması prenatal dövrdə fetal ölüm, vaxtından əvvəl doğuş, asfiksiya, həmçinin həyatın ilk illərində uşaqlarda daha yüksək xəstələnmə və ölüm hallarının yaranmasına gətirib çıxarır. Uşaqlarda ümumi fiziki zəiflik, OHP təzahürü ilə zehni inkişafın ləngiməsi, diqqət, yaddaş, görmə, eşitmə və qavrayışın funksiyasının pozulmasına gətirib çıxarır. Artan diqqət dağınıqlığı, eyni zamanda aşağı idrak fəaliyyəti, şəxsi yetkinlik - bütün bunlar öyrənmə çətinliklərinə səbəb olur. Dölün inkişafı dövründə zərərli amillərə məruz qalma beyinə kəskin şəkildə ifadə edilən minimal üzvi ziyana səbəb olur. Bunlar MMD olan uşaqlardır – minimal beyin disfunksiyası. Onlar diqqət, yaddaş, motor pozğunluqları, müxtəlif nitq pozğunluqları ilə xarakterizə olunur. Ananın hamiləlik dövründə spirt, narkotik və tütün məmulatlarından istifadə etməsi. Elm fiziki, nitq və əqli inkişafda geriliyi ehtiva edən alkoqol embrion sindromunu təsvir etmişdir. Nikotin uterusda və plasentada qan dövranı proseslərinə mənfi təsir göstərir, bu da amin turşularının anadan dölə daşınmasının yavaşlamasına səbəb olur.

Təhlükəli istehsalatda iş (həddindən artıq fiziki güc, zərərli kimyəvi maddələrlə təmas, ultrabənövşəyi şüalara məruz qalma, ionlaşdırıcı şüalanma). Hamiləlik dövründə ananın sinir sisteminin psixi vəziyyətinin özəlliyi (stress, uzunmüddətli depressiya, sosial stress, iqtisadi və maddi çətinliklər). İrsi meyl, genetik anomaliyalar. Nitq pozğunluqları həmişə irsi olmasa da, belə bir ehtimalı istisna etmək olmaz. Həyatın ilk illərində uşağın məruz qaldığı xəstəliklər (in-

feksion virus xəstəlikləri, neyroinfeksiyalar, beyin zədələri və qançırlar, xroniki xəstəliklər).

**Sosial-psixoloji səbəblər.** Uşağın nitqinin inkişafında bir sıra sosial-psixoloji səbəblər də təsir edir. Bu səbəblər nəticəsində uşaqda nitq ləngiməsi baş verə bilir. Bu səbəblər aşağıdakılardan ibarətdir:

1. nitq mühiti düzgün qurulmaması; 2.başqaları ilə şifahi ünsiyyətin çatışmazlığı (yoxluğu); 3.uşağın nitqinə diqqətsizlik; 4.pedaqoji laqeydlik; 5.ailədə ikidillilik; yanlış tərbiyə üsulları, ailədə emosional-iradi sferanın pozulmasına, müxtəlif affektiv pozğunluqlara - nevrozlara və nəticədə nitq neqativizminə səbəb olan yanlış münasibətlər.

Sosial-psixoloji səbəblər ikinci dərəcəli səbəblərdir. Əsas səbəblər uşağın inkişafının prenatal, doğuş və postnatal dövrlərində olur. Və sonrakı amillər yalnız bu səbəbləri daha da gücləndirir. Bu səbəblərin hər biri və çox vaxt onların birləşməsi nitqin müxtəlif aspektlərinin pozulmasına səbəb ola bilər. Göstərdiyimiz bütün səbəb və bu səbəblərin bir-birinə qovuşması nitqin müxtəlif tərəflərinin pozulmasını şərtləndirir.

Nitq qüsurlarını yaradan səbəbləri araşdırarkən nitq qüsurları ilə mühafizə edilmiş analizator və onların funksiyaları arasındakı münasibətləri nəzərə almaq lazımdır. Onlar korreksiya təlimində kompensasiya üçün əsas mənbə təşkil edirlər. Uşaqların inkişafından geri qalmasının erkən aşkar edilməsi birinci növbədə "yüksək risqli" ailələrdə aparılır. «Yüksək risqli» ailələrə aşağıdakılar aiddir.

1. Artıq bu və ya digər qüsurlu uşağın olduğu ailələr: 2. Valideynlərdən birində və ya hər ikisində əqli gerilik, şizofreniya, eşitmə qüsuru olan ailələr; 3. Hamiləlik dövründə anaların ağır toksikoz (doğuşdan sonra) kəskin yoluxucu xəstəliklər keçirdiyi ailələr; 4. Uşaqların bətndaxili oksigen aclığı, doğuşdan sonra asfiksiya, zədə və ya neyroinfeksiya keçirtmiş, həyatının ilk aylarında kəllə-beyin travmaları almış ailələr.

Nitq inkişafının pozulmasının profilaktikası da uşaqların dispanzerizasiyası böyük rol oynayır. Bundan əlavə məktəbin və ailənin də nitq qüsurlarını aradan qaldırmaq və qarşısını almaqda rolu böyükdür. Buna görə də uşaq müəssisələri və ailə qarşısında duran əsas vəzifə uşağın nitqini inkişaf etdirmək və onun vasitəsilə sözün ən geniş mənasında ümumi mədəniyyətini yüksəltməkdir. Bu vəzifənin öhdəsindən gəlmək üçün uşaqlarda müşahidə edilən nitq qüsurları pedaqoji vasitələrlə korreksiya edilməli və qarşısı alınmalıdır. Göstərmək lazımdır ki, nitq qüsurları hər hansı amorf, qrup olmayıb, müxtəlif forma, xüsusiyyətlərə və xüsusi kliniki əlamətlərə malik olan anomaliyadır.

**Problemin aktuallığı.** Nitq pozulmalarının etiologiyasını və sosial-psixoloji səbəbləri araşdırmaq.

**Problemin elmi yeniliyi.** Nitq qüsurlarının korreksiya-reabilitasiyası işlərində problemin etiologiyasını, yaranma səbəblərini araşdırmaq vacibdir.

**Problemin praktik əhəmiyyəti.** Uşaqlarda müşahidə F edilən nitq qüsurları pedaqoji vasitələrlə korreksiya edilməli və qarşısı alınmalıdır. Korreksiya reabilitasiya istiqamətləri müəyyənləşdirilməli və buna uğun pedaqoji proses qurulmalıdır.

**Ədəbiyyat:**


1. Hüseynova, N. Loqopediya. Dərslik. / N. Hüseynova. – Bakı, 2018.
2. Loqopediyanın nəzəri əsasları. – Bakı, 1999.
3. Hüseynova N., Rustəmova L. Xüsusi pedaqogika. – Bakı, 2006.
4. Баттерворт Дж., Харрис М. Принципы психологии развития: пер. с англ. – М.: Когито-Центр, – 2000. – 350 с.
5. Волкова, Л.С. Логопедия. 3-е изд. / Л.С. Волкова, С.Н. Шаховская. – М.: Владос, – 1999. – 678 с.


**E-mail:** konulqurban91@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok.* **S.N. İsgəndərova,**
*ped.ü.fəls.dok.dos.* **S.R. Aslanova**
**Redaksiyaya daxil olub:** 09.10.2023

*UOT 376*

***Nigar Adil qızı Paşayeva***
*Azərbaycan Dillər Universitetinin müəllimi*
*https://orcid.org/ 0000-0001-2345-6789*

## GÖRMƏ MƏHDUDİYYƏTLİ ŞAGİRDLƏRLƏ İŞİN TƏŞKİLİNDƏ AİLƏ-MƏKTƏB ƏMƏKDAŞLIĞI

***Нигяр Адиль гызы Пашаева***
*преподаватель Азербайджанского университета языков*

## СОТРУДНИЧЕСТВО СЕМЬИ И ШКОЛЫ В ОРГАНИЗАЦИИ РАБОТЫ С УЧЕНИКАМИ С НАРУШЕНИЕМ ЗРЕНИЯ

***Nigar Adil Pashayeva***
*teacher of Azerbaijan University of Languages*

## COOPERATION OF FAMILY AND SCHOOL AND ORGANIZATIONAL WORK WITH VISUALIZED STUDENTS

**Xülasə.** Məqalədə görmə məhdudiyyətli şagirdlərlə işin təşkilində ailə-məktəb əməkdaşlığının əlaqələndirilməsi, əməkdaşlıq formalarının ümumiləşdirilməsi, görmə məhdudiyyətli uşaqların səciyyəvi xüsusiyyətlərinin müəyyənləşdirilməsi öz əksini tapmışdır. Eləcə də görmə məhdudiyyətli şagirdlərdə tam və qismən görmənin əlamətlərini səciyyələndirilmiş, görmə məhdudiyyətli şagirdlərlə təlim mühitinin təmin olunması prinsipləri ümumiləşdirilmişdir.

***Açar sözlər:*** *görmə məhdudiyyəti, prinsiplər, əməkdaşlıq, təlimin təşkili*

**Резюме.** В статье отражены вопросы сотрудничества семьи и школы в организации работы со слабовидящими учащимися, обобщение форм сотрудничества, выявление характерных особенностей слабовидящих детей. Также охарактеризованы признаки полного и частичного зрения у слабовидящих учащихся, обобщены принципы обеспечения образовательной среды для слабовидящих учащихся.

***Ключевые слова:*** *нарушения зрения, принципы, сотрудничество, организация обучения*

**Summary.** The article reflects the cooperation of family and school in organizing work with visually impaired students, generalizing the forms of cooperation, identifying the characteristic features of visually impaired children. The signs of full and partial vision in visually impaired students are also characterized, and the principles of providing an educational environment for visually impaired students are generalized.

***Key words:*** *visual impairment, principles, cooperation, organization of training*

Görmə məhdudiyyətli uşaqlar təlimdə bir sıra çətinliklərlə üzləşir. Bunun üçün müxtəlif təlim metodlarından, təlim resurslarından istifadə etməklə yanaşı əməkdaşlıq və dəst də effektiv təlimin təşkilini təmin edir.

Görmə məhdudiyyətli şagirdlərin səciyyəvi xüsusiyyətləri, onların günlük həyatlarında və təhsil prosesində fərqlilik yaradır. Bu xüsusiyyətlər nəzəri və təcrübi baxımdan şagird nailiyyətlərinə və potensiallarına təsir göstərir.

Görmə məhdudiyyətli insanlarda görmə məhdudiyyəti tam görmə itkisi, qismən görmə itkisi ilə müşahidə olunur.

Tam görmə itkisi: Hər iki gözdə görmə duyğusu yoxdur. Əsasən anadangəlmə və hər hansı bir qəza səbəbindən baş verə bilər.

Qismən görmə itkisinə aşağıdakılar daxildir:

- İşıq qavrayışı olan uşaqlar. Bu uşaqlar yalnız işığı görürlər, yəni işığı qaranlıqdan ayırırlar. Düzgün proyeksiya ilə işıq qavrayışı olan uşaqlar işığın istiqamətini düz-

gün müəyyən edə bilir, yanlış proyeksiya ilə işıq qavrayışı olan uşaqlar işığın haradan gəldiyini göstərə bilmirlər

- İşıq və rəng qavrayışı olan görmə məhdudiyyətli uşaqlar, həm işığı qaranlıqdan, həm də rəngləri fərqləndirirlər.
- İnsan üzün qarşısında əlinin hərəkətlərini görür, yaxın məsafədə isə obyektlərin rənglərini, konturlarını, siluetlərini ayırd edə bilir.
- Periferik görmə itkisi olanlar ətrafdakı obyektləri, hadisələri mərkəzi görmə ilə görməyə başlayır.
- Gecə görmə itkisi olan şəxslər gündüz gördüklərini yadda saxlamaqla gecə bundan istifadə edirlər [14, 18].

Bu səciyyəvi xüsusiyyətlərdən irəli gələrək görmə məhdudiyyətli şagirdlərin təlim məlumatlarını yadda saxlaması üçün fərqli metodlardan istifadə edilməlidir. Görmədən anlamaq və yadda saxlamaq əsasən toxunma və təmas əsasında mümkündür. Valideyn, müəllim və təhsil müəssisəsinin rəhbərləri belə xüsusiyyətlərə sahib olan şagirdlərin təlim prosesini təşkil etmək üçün birgə əməkdaşlığı təmin etməlidir.

Görmə məhdudiyyətli uşaqlar üçün təlim mühiti aşağıdakı **prinsiplər** əsasında təşkil olunmalıdır.

**Əlaqə və ittifaq:** görmə məhdudiyyətli uşaqların öyrənmə prosesində qarşılıqlı əlaqələrin qurulması. Müəllim-şagird-valideyn ittifaqı öyrənmə motivasiyası yaradır.

**Görmə məhdudiyyəti-fərqli tələblər:** Hər bir şagirddə görmə məhdudiyyəti fərqli olduğundan öyrənmə üçün fərqli üsullardan istifadə olunmalıdır.

**Əməliyyat təcrübələri:** görmə məhdudiyyətli uşaqlar müxtəlif alətlərlə və cihazlarla tanış olmaqla praktik bacarıqlarını inkişaf etdirilməlidir.

**Əlaqələnən texnologiya:** görmə məhdudiyyətli şagirdlərin təhsil mühitini daha maraqlı və əyləncəli edəcək texnologiyalardan istifadə. Məsələn, səsli və mətn tanıma proqramları, taktiki oyunlar və s.

**Tərəfdaş dəstəyi:** maraqlı tərəflərin iş birliyi şagirdlərin əməliyyat təcrübələrini daha effektiv etməsinə dəstəkdir.

**Müstəqil yaradıcılıq və problem həlli:** görmə məhdudiyyətli uşaqlar öz problemlərini həll etməyə və öz yaradıcılıq potensiallarını inkişaf etdirməyə sövq edilməlidir.

**Əyləncə və mədəni tədbirlər:** Şagirdlər üçün səyahətlər, əyləncəli tədbirlər və s. təşkil olunmalıdır.

**Düzgün rəhbərlik və təlim:** müəllimlər görmə məhdudiyyətli uşaqlara rəhbərlik edəcək və dəstəkləyici təlim proqramları təklif etməlidir [18, 20].

Bu prinsiplər ailə və məktəb əməkdaşlığını təmin edəcək.

"Əlilliyin müəyyən olunması meyarları"nın təsdiq edilməsi və "Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına dair Əsasnamə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin (2015) qərarına əsasən görmə məhdudiyyətli insanların I, II və III qrup əlilliyinin müəyyən edilməsi aşağıdakı kateqoriyalara əsasən müəyyənləşdirilir:

- özünəqulluq bacarığı;
- sərbəst hərəkətetmə bacarığı;
- istiqamətseçmə bacarığı;
- ünsiyyət bacarığı;
- davranışına nəzarətetmə bacarığı;
- öyrənmə bacarığı;
- əmək fəaliyyəti bacarığı [4, 12].

Bu kimi səciyyəvi xüsusiyyətlər görmə məhdudiyyətli şagirdlərin təliminin təşkilində vacib amillərdəndir. Çünki, inklüziv təhsildə təlimin təşkilini müəllimlər uşaqların ehtiyaclarına uyğun həyata keçirməlidir.

Görmə məhdudiyyətli şagirdlərin təliminin təşkilində valideynlər öz uşaqlarının təhsil perspektivlərinin inkişafına daha çox dəstək olmalıdır. Valideynlər, uşaqlarının təlim və tərəqqisini tənzimləmək, dəstəkləmək üçün əhəmiyyətli rol oynayır. Bu baxımdan görmə məhdudiyyətli şagirdlərin valideynlərinin maarifləndirilməsi önəmlidir. Bunun üçün valideynlər aşağıdakı məsələlərə diqqət yetirməlidir:

– görmə məhdudiyyətinin təsirini anlamaq, onların müstəqil hərəkət etmələrini və təhsil almalarını təmin etmək;
– uşaqların təhsil imkanlarını araşdırmaq;
– uşaqları evdə dərs hazırlamağa təşviq etmək;
– uşaqları tələb olunan texnoloji resurslarla təmin etmək.
– uşağın sosiallaşmasında özgüvən yaratmaq və s. [17, 21]

Valideynlər övladlarının mövcud təhsil alma durumunu, təhsil yeniliklərini izləməli, təhsilə sahib olmalarını dəstəkləməlidirlər.

Görmə məhdudiyyətli şagirdlərin tədris prosesində daha effektiv nəticələr əldə etməsi üçün ailə-məktəb əməkdaşlığı təhsil müəssisələri tərəfindən tənzimlənməlidir. Ailə-məktəb əməkdaşlığı yolları aşağıdakı kimi təqdim olunur:

*Müəllimlərin ailələrlə əlaqəsi:* ailələr haqqında ümumi məlumat.

*Tədris materiallarının paylaşılması:* ailələr uşaqlarının təlim nəticələrinə dair müntəzəm məlumat əldə etməlidir.

*Təcrübə paylaşımı:* Müəllimlər görmə məhdudiyyətli şagirdlərin ailələrinə öyrənmə təcrübəsi haqqında məlumatlar, metodik dəstək verməlidirlər ki, ailələr evdə onları dəstəkləyə bilsin.

*Tələbələrin günlük izlənilməsi (video-kamera, kamera):* Ailələrə şagirdlərin tədris prosesini gündəlik izləmələri üçün şərait yaradılmalıdır.

*İndividuallaşdırılmış təlim proqramı:* Görmə məhdudiyyətli şagirdlər üçün individual təlim planları və dəstək tədbirləri müəyyənləşdirilməlidir. Şagirdlər öz zəifliklərini anlamalı, öz potensiallarını dəyərləndirməlidir.

*Şagirdlərə valideyn dəstəyi:* Şagirdlərə hər zaman valideyn tərəfindən dəstək verilməli və təlim motivasiyası yaradılmalıdır.

*Dəstəkləyici görüşlər:* Şagirdlərin inkişafını müzakirə etmək üçün təşkilatlanmış görüşlər həyata keçirilməlidir.

Ailə-məktəb əməkdaşlığı görmə məhdudiyyətli şagirdlərin daha yaxşı öyrənmə təcrübəsinə yiyələnməsinə, daha yaxşı nailiyyətlər əldə etməsinə şərait yaradacaq.

Görmə məhdudiyyətli uşaqların ailələri ilə məktəb əməkdaşlığının formaları aşağıdakı kimidir:

1. Ailə və məktəb qrupları. Sosial şəbəkələr üzərindən qruplar yaratmaq. Ailələrə məlumatlar vermək, müzakirələr açmaq.

2. Müşavirələr və tədbirlər. Ailə və uşaqlar məktəbə dəvət olunur və təlimçilər uşaqların nailiyyətlərini və problemlərini araşdırır.

3. Ailə məsləhətçiləri və rəhbərlər. Ailə məsləhətçiləri və rəhbərlər ailələrlə görüşür, görmə məhdudiyyətli uşaqların təhsilinə necə dəstək olacaqlarına dair maarifləndirici söhbətlər aparır.

4. Ailə təlimləri. Təcrübəli məsləhətçilər tərəfindən ailələr üçün təlimlər təşkil olunur. Ailələr öyrənmə təcrübəsini daha yaxşı mənimsəyir.

5. Ailələrin təşkilatlara dəvəti. Ailələrin məktəbdə iştirakını, layihələrə təşviqini və məktəb qurumlarında iştirakı tənzimlənir.

6. Məlumat günü. Şagirdlərin tərəfdaşlığı ilə təşkil olunan tədbirlərdə uşaqların təhsili ilə tanış olmaq, təkliflər verilir, təkliflər dinlənilir [22].

Qeyd olunan əməkdaşlıq formaları görmə məhdudiyyətli şagirdlərin təhsildə uğur qazanmaları üçün ailə və məktəbin birgə fəaliyyətini təmin edəcək.

Aparılan araşdırmalar nəticəsində görmə məhdudiyyətli uşaqların təliminin təşkilində ailə-məktəb əməkdaşlığının önəmli cəhətləri nəzəri təcrübələr əsasında öz təsdiqini tapmışdır. Tam görmə itkisi və qismən görmə itkisi risk qrupuna daxil olan şagirdlərin təhsil perspektivinin inkişafında uşaqların səciyyəvi xüsusiyyətləri ailə və məktəb əməkdaşlığı nəticəsində tənzimlənməlidir. Bunun üçün: əlaqə və ittifaq; görmə məhdudiyyətli-fərqli tələblər; əməliyyat təcrübələri; əlaqənin texnologiyası; tərəfdaşlıq dəstəyi; müstəqil yaradıcılıq və problem həlli; əyləncə və mədəni tədbirlər; düzgün rəhbərlik və təlim; əməliyyat təcrübəsi kimi prinsiplər nəzərə alınmalıdır.

Görmə məhdudiyyətli şagirdlərin valideynləri övladlarını təhsilə təşviq etməli, onları texnoloji resurslarla təmin etməlidir. Eləcə də, müəllimlər şagirdlərin təlim nəticələrinə dair ailələri daim məlumatlandırmalı, individuallaşdırılmış təlim proqramı tərtib etməli, şagirdlərin dəstəklənməsi üçün valideynlərdə motivasiya yaratmalıdır. Bunun üçün müşavirələr və tədbirlər keçirilməli, ailə məsləhətçiləri və rəhbərləri görüşdürülməli, ailə təlimləri təşkil edilməli, ailələri təşkilatlara dəvət edilməli, məlumat günü təyin edilməli, ailə və məktəb qrupları yaradılmalıdır. Bu əməkdaşlıq formaları effektiv təlim prosesi ilə nəticələnəcək, şagirdlərin təhsildə uğur qazanmalarına təkan verəcək.

Tədqiqatın nəticələri bir daha onu deməyə əsas verir ki, inklüziv təlimin təşkilində nəzəri biliklər araşdırmalı, görmə məhdudiyyətli şagirdlərlə təlim mühitinin yaradılmasında yeni texnologiyalarının tətbiqi imkanları genişləndirilməlidir. Ailə-məktəb münasibətlərinin mahiyyəti istiqamətində maarifləndirici tədbirlər həyata keçirilməlidir ki, bu da görmə məhdudiyyətli şagirdlərdə təlim motivasiyasının

və təlim səmərəliliyinin yüksəlməsini təmin edəcək.

**Problemin aktuallığı.** Görmə məhdudiyyətli şagirdlərin təhsilə cəlb olunması və sosiallaşması hər zaman aktuallıq kəsb etmişdir.

**Problemin elmi yeniliyi.** Görmə məhdudiyyətli şagirdlərin ailə və məktəb əməkdaşlığının nəzəri aspektlərinin tədqiqi.

**Problemin praktik əhəmiyyəti.** Gənc tədqiqatçılar, müəllimlər və ailələr üçün məlumat bazasıdır.

**Ədəbiyyat:**


1. Azərbaycanda yalnız bir məktəb görmə məhdudiyyətli uşaqlara təhsil verir. URL: https://sputnik.az/20220405/azerbaycanda-yalniz-bir-mekteb-gorme-mehdudiyyetli-usaqlara-tehsil-verir---resm-440839340.html
2. Beynəlxalq Gözdən Əlillər Günü. URL: https://az.wikipedia.org/wiki/ Beyn%C9%99lxalq_G%C3%B6zd%C9%99n_%C6%8Flill%C9%99r_G%C3%BCn%C3%BC
3. Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısının və evdə təhsilin təşkili Qaydalarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. URL: https://e-qanun.az/framework/1724
4. “Əlilliyin müəyyən olunması meyarları”nın təsdiq edilməsi və “Əlilliyin və sağlamlıq imkanlarının məhdudluğunun müəyyən olunması meyarlarına dair Əsasnamə”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin (2015) qərarı. URL: https://e-qanun.az/framework/49623
5. Görmə imkanları məhdud uşaqlar üçün yeni sosial reabilitasiya mərkəzləri yaradılacaq. URL:https://sosial.gov.az/media/xeberler/2472
6. Xüsusi təhsil müəssisələri haqqında Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı. URL: https://e-qanun.az/framework/1725
7. “İnklüziv təhsilin təşkili Qaydası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı. URL: chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/https://edu.gov.az/uploads/NK/2023/NK-qerar-No43.pdf
8. İnklüziv təhsil (Məlumat kitabçası). chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj /https://static.inkluzivtehsil.edu.az/book/files/M%C9%99lumat%20kitab%C3%A7as%C4%B1.pdf
9. İnklüziv təhsilə cəlb olunan şəxslərlə işin aparılması. URL: chrome-extension:/ /efaidnbmnnnibpcajpcglclefindmkaj/https://www.kvalifikasiya.edu.az/modullar/Inkluziv_Tehsile_Celb_Olunan_Shexslerle_Ishin_Aparilmasi.pdf
10. İnklüziv təhsilin əhatə dairəsinin genişləndirilməsi barədə Azərbaycan Respublikası Təhsil nazirinin əmri. URL: https://edu.gov.az/az/umumi-tehsildoc/inkluziv-tehsilin-ehate-dairesinin-genislendirilmesi-barede-azerbaycan-respublikasi-tehsil-nazirinin-emri
11. Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında Azərbaycan Respublikasının Qanunu. URL: https://e-qanun.az/framework/4353
12. “I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. URL: https://president.az/az/articles/view/32738
13. “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı URL: https://e-qanun.az/framework/37269
14. Aile eğitim rehberi: görme engelli çocuklar. URL:chrome-extension:// efaidnbmnnnibpcajpcglclefindmkaj /https://www.aile.gov.tr/media/5632/gorme-engelli-cocuklar-aile-egitim-rehberi-link-indirmek-icin-tiklayiniz.pdf
15. Биктуганов Ю.И. Взаимодействие педагога с семьей и общественностью [Текст] : учеб. пособие / Ю. И. Биктуганов ; Урал. гос. пед. ун-т. – Екатеринбург [б. и.], 2016. – 148 с. https://core.ac.uk/download/pdf/132623399.pdf
16. Будаева Н.А. Разработка и оформление индивидуального образовательного маршрута. URL: https://spbschool553.com/%D1%80%D0% B0%D0%B7%D1%80% D0%B0%D0%B1%D0%BE%D1%82%D0%BA%D0%B0-%D0%B8-%D0%BE%D1%84%D0%BE%D1%80%D0%BC%D0%BB%D0%B5%D0%BD%D0%B8%D0%B5-%D0%B8%D0%BD%D0%B4%D0%B8%D0%B2%D0%B8% D0%B4%D1%83 %D0%B0%D0%BB%D1%8C/
17. Взаимодействие семьи и школы при обучении детей с ОВЗ в процессе инклюзивного образования. URL: https://solncesvet.ru/opublikovannyie-materialyi/vzaimodeystvie-semi-i-shkoly-pri-obuch/

18. Горшкова, Т.В. Организация взаимодействия образовательного учреждения с родителями, воспитывающими детей с ограниченными возможностями здоровья / Т.В. Горшкова. – Текст: непосредственный // Образование и воспитание. – 2016. – № 5 (10). – с. 126-127. – URL: https://moluch.ru/th/4/archive/48/1701/
19. Классификация нарушений зрения. URL: https://68cdo.ru/children/?page _id=2387
20. Мастюкова Е.М., Московкина А.Г. Семейное воспитание детей с отклонениями в развитии: Учеб. пособие для студ. высш. учеб. заведений / Под ред. В.И.Селиверстова. – М.:Гуманит. изд. центр ВЛАДОС, 2003. – 408 с. https: //specialviewportal.ru/uploads/21.Mastyukova_ Ye.M._Semeynoye_vospitaniye_detey_s_otloneniyami_v_razvitii.pdf
21. Развитие системы взаимодействия «школа – семья» в условиях инклюзивного образования. URL: https://cyberleninka.ru/article/n/razvitie-sistemy-vzaimodeystviya-shkola-semya-v-usloviyah-inklyuzivnogo-obrazovaniya
22. Сотрудничество школы и семьи при реализации программы инклюзивного образования. URL: https://cyberleninka.ru/article/n/sotrudnichestvo-shkoly-i-semi-pri-realizatsii-programmy-inklyuzivnogo-obrazovaniya


**E-mail:** pasayevanigar718@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **N.E. Zeynalova,**
*ped.ü.fəls.dok., dos.* **V.P. Bəşirov**
**Redaksiyaya daxil olub:** 20.11.2023

*UOT 376*

***Səadət Nəsrəddin qızı Ələkbərova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*https://orcid.org/0009-0003-0194-1304*

# DİQQƏT ƏSKİKLİYİ VƏ HİPERAKTİVLİK SİNDROMLU UŞAQLAR VƏ ONLARIN VALİDEYNLƏRİNİN PROBLEMLƏRİ

***Саадат Насреддин гызы Алекбарова***
*преподаватель Азербайджанского государственного педагогического университета*

# ПРОБЛЕМЫ ДЕТЕЙ С СИНДРОМОМ ДЕФИЦИТА ВНИМАНИЯ И ГИПЕРАКТИВНОСТИ И ИХ РОДИТЕЛЕЙ

***Saadat Nasreddin Alakbarova***
*teacher at Azerbaijan State Pedagogical University*

# PROBLEMS OF CHILDREN WITH ATTENTION DEFICIT HYPERACTIVITY SYNDROME AND THEIR PARENTS

**Xülasə.** Diqqət Defisitliyi və Hiperaktivlik Sindromu (DDHS) davamlı diqqətsizlik, hiperaktivlik və impulsivlik nümunələri ilə xarakterizə olunan neyroinkişaf pozulmasıdır. Bu məqalə DDHS olan uşaqların və onların valideynlərinin qarşılaşdıqları çoxşaxəli çətinliklərdən bəhs edir. DDHS olan uşaqlar daha çox akademik performans, sosial qarşılıqlı əlaqə və emosional tənzimləmə ilə mübarizə aparırlar. Diqqətsizlik onların diqqətini tapşırıqlara yönəltməsini çətinləşdirir, nəticədə akademik müvəffəqiyyətsizlik və məyusluq yaranır. Hiperaktivlik və impulsivlik sosial problemləri daha da mürəkkəbləşdirir, həmyaşıdların çətinliklərinə və gərgin münasibətlərə səbəb olur. Bu çətinliklər onların özünə inamını aşağı sala və ümumi inkişafına mane ola bilər. DDHS-nin mürəkkəbliklərini başa düşmək, uşaqların və onların valideynlərinin üzləşdiyi problemlərin həlli, təsirə məruz qalmış fərdlərin və onların ailələrinin həyat keyfiyyətini yaxşılaşdıra biləcək hərtərəfli strategiyaların hazırlanması üçün çox vacibdir.

***Açar sözlər:*** *Diqqət Defisitliyi və Hiperaktivlik Sindromu (DDHS), diqqətsizlik, hiperaktivlik, impulsivlik, akademik performans, valideynlik problemləri*

**Резюме.** Синдром дефицита внимания с гиперактивностью (СДВГ) – это расстройство нервного развития, характеризующееся стойкими проявлениями невнимательности, гиперактивности и импульсивности. В этом реферате обсуждаются многогранные проблемы, с которыми сталкиваются дети с СДВГ и их родители. Дети с СДВГ часто испытывают трудности с успеваемостью, социальным взаимодействием и эмоциональной регуляцией. Невнимательность мешает им сосредоточиться на задачах, что приводит к неуспеваемости и разочарованию. Гиперактивность и импульсивность еще больше усугубляют социальные проблемы, приводя к трудностям со сверстниками и напряженным отношениям. Эти трудности могут подорвать их самооценку и помешать их общему развитию. Понимание сложностей СДВГ и решение проблем, с которыми сталкиваются дети и их родители, имеют решающее значение для разработки комплексных стратегий, которые могут улучшить качество жизни пострадавших людей и их семей.

***Ключевые слова:*** *СДВГ (синдром дефицита внимания с гиперактивностью), невнимательность, гиперактивность, импульсивность, академическая успеваемость, родительские проблемы*

**Summary.** Attention Deficit Hyperactivity Disorder (ADHD) is a neurodevelopmental disorder characterized by persistent patterns of inattention, hyperactivity, and impulsivity. This abstract discusses the multifaceted challenges faced by children with ADHD and their parents. Children with ADHD often struggle with academic performance, social interactions, and emotional regulation. Inattention makes it difficult for

them to focus on tasks, resulting in academic underachievement and frustration. Hyperactivity and impulsivity further compound social challenges, leading to peer difficulties and strained relationships. These difficulties can erode their self-esteem and hinder their overall development. Understanding the complexities of ADHD and addressing the challenges faced by children and their parents is crucial for developing comprehensive strategies that can improve the quality of life for affected individuals and their families.

***Key words:*** *ADHD (Attention Deficit Hyperactivity Disorder) Inattention, hyperactivity, impulsivity, academic performance, Parenting challenges*

DDHS, Diqqət Əksizliyi və Hiperaktivlik Sindromu kimi bilinir, uşaqlar və yeniyetmələr arasında yayılmış bir nevroloji, davranış və diqqət problemlərini təsvir edir. Bu təsnif olunmuş psixi təzahürlər bir çox fərqli şəkildə ifadə edilə bilər, lakin əsasən üç əsas kateqoriyaya ayrılır:

**Diqqət əskikliyi:** Bu, bir insanın diqqətini toplamaq və saxlamaqda çətinlik yaşadığı vəziyyətləri təsvir edir. DDHS-ə sahib insanlar daha çox hər hansı bir işə diqqətlərini yönəltməkdə çətinlik çəkir, diqqətini asanlıqla dağıdır və əvəzində başqa fikirlərlə və vəziyyətlərlə məşğul olur.

**Hiperaktivlik:** Hiperaktivlik, yüksək enerji səviyyəsi və istirahətsizlik tərəqqi etdirən davranışları ifadə edir. Bu, ən çox uşaqlarda müşahidə olunur, ancaq böyüklərdə də, hiperaktivlik simptomları müşahidə olunur.

**İmpulsivlik:** İmpulsivlik, fikirləri düşünmədən əməl etmək və davranışları planlaşdırmaqda çətinlik çəkməklə əlaqədar problemləri ifadə edir. Bu, insanların yanılmış qərarlar verməsi və davranışlarını düşünmədən nümayiş etməsi kimi halları əhatə edir.

Diqqət defisiti hiperaktivlik sindromu uşaqlıq yaş dövründə görünən mürəkkəb psixonevroloji simptomların iştirak edə bildiyi yeniyetməlik və böyük yaşlara qədər davam edə bilən pozulmadır. Əvvəllər bu xəstəlik tam araşdırılmamışdı. 5% uşaqlar diqqət defisiti hiperaktivlikdən əziyyət çəkir. Oğlan uşaqlarında xəstəliyin görünmə tezliyi yüksəkdir. Diqqət defisiti hiperaktivlikdən əziyyət çəkən uşaqlarda əzici travmaların görünmə faizi yüksəkdir.

Bətndaxili dövrdə beyinin inkişaf anomaliyası, alkoqol, nikotin, kokain, anemiya, hipotiroidizm əskikliyinin olması diqqət defisiti hiperaktivliyə yol açır. Yarımçıq doğulma, hipoksik işemik ensefalopatiya, meningit, ensefalit nəticəsində də DDHS yaranır. Doğumdan sonrakı dövrdə virus meningiti, ensefalit, beyin travması, dəmir əskikliyi, tiroid disfunksiyası və epilepsiya diqqət defisiti hiperaktivlik ilə əlaqəli sosial faktorların önə çıxması önəmli rolu var. Yarımçıq doğulma, düşük doğuşların sayı diqqət defisiti hiperaktivliyin önə çıxmasına zəmin yaradır. Ananın siqaret çəkməsi, alkoqol qəbulu da dünyaya gətirdiyi uşağı risk altına salır. Yetərli yuxunun olmaması, dəmir əskikliyi də DDHS yaranmasına səbəb olur. Sink əskikliyinin də diqqət əksikliyi ilə əlaqəli olduğu deyilir. Belə uşaqlara sinking verilməsi yararlı olduğu araşdırılıb.

Diqqət əksikliyi hiperaktivlik uşaqlarda psixonevroloji problemlərin bir parçası ola biləciyi kimi, klinik tutmalara, altda yatan nevroloji problemlərə və ya epilepsiya dərmanlarına bağlı olaraq yarana bilər.

DDHS-nin səbəbləri sosial deyil, bioloji xarakter daşıdığı sübut edilmişdir. Bununla belə, DDHS olan bir uşaq ailəyə təsir etdiyi kimi, valideynlər uşaqda DDHS əlamətlərinin dinamikasına böyük təsir göstərirlər.

Diqqət əksikliyi hiperaktivliyi izləyən (komorbid) pozulmalar.

| | |
|---|---|
| Davranış pozulmaları | 30-40% |
| Qarşı gəlmə pozulmalar | 35-65% |
| Touret sindrom | 20% |
| Öyrənmə pozulması | 20-35% |
| Depressiya | 25-35% |
| Epilepsiya | 20-30% |

Öyrənmə çətinliyi, diqqət defisiti hiperaktivliyi izləyən əsas əlamətdir. Oxuma və hesablama zəifdir. Aqressivlik diqqət defisiti hiperaktiv pozulmasından əziyyət çəkənlərin yarısında görünür. Bu uşaqlar yeniyetməlik dövründə müalicə almadıqda siqaret və narkotikdən istifadə etməyə meyllidir. Bu cür uşaqların 20% tiklər də görünür.

Hiperaktivliklə və ya hiperaktivliksiz diqqət çatışmazlığı pozulması uşaqlıqda başlayan neyroinkişaf pozulmasıdır (uşaqlıq DDHS) düzgün müalicə edilmədikdə, yeniyetməlik dövründə və hətta yetkinlik dövründə ciddi nəticələrə səbəb ola bilər. Uşaqlarda və böyüklərdə DDHS simptomları ciddi diqqət problemləri (xüsusilə mo-

noton, vaxt aparan və ya zəif motivasiya edən fəaliyyətlər zamanı) və həddindən artıq aktivlik (hiperaktiv uşaqlarda) ilə xarakterizə olunur. Uşaqlarda və yeniyetmələrdə diqqət çatışmazlığı hiperaktivliyi pozulması (uşaqlarda DDHS və yeniyetmələrdə DDHS), eləcə də uşaq və yeniyetmələrdə hiperaktivlik olmadan diqqət çatışmazlığı pozulması (uşaqlarda DD və yeniyetmələrdə DD) müvafiq olaraq mövcud və ya hiperaktivlik əlamətlərinin olmaması. Hər iki halda, pozulma DDHS olan uşağın və ya yeniyetmənin akademik və sosial həyatına mənfi təsir göstərir, məktəb performansını azaldır və həmyaşıdları ilə dostluq münasibətlərinə təsir göstərir.

Buna görə də DDHS olan uşaqlar üçün Cognitiv təlimi diqqət, planlaşdırma və əl-göz koordinasiyası kimi uşaqlıq DDHS-dən ən çox təsirlənən koqnitiv qabiliyyətlərin inkişafına diqqət yetirir. DEHB olan uşaqlar üçün Cognitiv məşqlərinin məqsədi pozulmuş idrak qabiliyyətlərini gücləndirmək və diqqət çatışmazlığı əlamətlərini azaltmaqdır. Beləliklə, təlim DEHB-dən əziyyət çəkən uşaq və ya yeniyetmənin gündəlik həyat keyfiyyətini yaxşılaşdırmaq, onun akademik performansını və psixososial inkişafını yaxşılaşdırmağa kömək etmək məqsədi daşıyır. Bundan əlavə, diqqət çatışmazlığı hiperaktivlik pozuqluğu (DDHS) olan uşaqlar üçün fəaliyyətlər uşaqlıq DDHS üçün müntəzəm müalicəyə əla əlavədir.

Nəzərə alın ki, Cognitiv təlim DDHS-ni müalicə etmir, lakin bu pozulmada pozulmuş idrak qabiliyyətlərini yaxşılaşdırmağa kömək etməklə adi DEHB müalicəsinə böyük fayda verə bilər.

"Yuxu pozulması, motor və nitq fəaliyyəti, uşaqların impulsiv hərəkətləri" – bütün bunlar yalnız DDHS olan bir uşağın olduğu ailədə valideyn-uşaq münasibətlərinin pozulmasına deyil, həm də həyat yoldaşları arasında münaqişələrə, boşanmalara, anaların depressiyasına səbəb ola bilər. Bundan əlavə, başqalarının uşaq böyüdə bilməməkdə günahlandırdığı, həmçinin DDHS olan uşaqlarla qarşılıqlı əlaqənin xüsusiyyətləri haqqında məlumatı olmayan yorğun valideynlər çox vaxt fiziki cəzaya, şifahi təcavüzə (təhqirlərə) müraciət edirlər ki, bu da vəziyyəti daha da ağırlaşdıra bilər.

Ailədə əsas problem həm bu diaqnozu olan uşaqla valideynlər arasında, həm də uşaqla onun qardaş və bacıları arasında qarşılıqlı əlaqənin xüsusiyyətləridir. Üstəlik, DDHS olan uşağın ailədəki hərəkətlərinin dağıdıcı xarakteri çox vaxt psixoloqun təkcə DDHS olan uşağa deyil, həm də ona yaxın olan insanlara psixoterapevtik yardım göstərmək məcburiyyətində qalmasına səbəb olur. Valideynlər daha çox DDHS diaqnozu qoyulmuş bir oğlan və ya qızın müxtəlif davranış təzahürlərinə, emosional partlayışlarına necə cavab verməli olduqları barədə suallar verirlər; evdə başqa bir "fırtına" dan sonra gücü necə bərpa etmək olar; hiperaktiv uşaq və digər ailə üzvləri arasında necə "bufer" olmaq olar.

Ailədəki münasibətləri və öz vəziyyətini necə tənzimləməyi öyrənmək üçün DDHS-nin təbiətini və uşağın davranışının xüsusiyyətlərini dərk etməli və anlamalıdır.

Dəqiq diaqnoz düzgün müalicə deməkdir ki, bu da öz növbəsində uşağın məktəb fəaliyyətini yaxşılaşdırmaq üçün açardır.

Uşağın həm anadangəlmə eşitmə itkisi, həm də DDHS olduğu halda, eşitmə itkisi adətən yeni doğulmuş uşaqların audioloji müayinəsi və daha aydın klinik mənzərə sayəsində ilk dəfə diaqnoz qoyulur. Ümumiyyətlə, eşitmə itkisi daha obyektiv meyarların olması səbəbindən DDHS ilə müqayisədə daha asan diaqnoz qoyulur. Bəzi testlərdə eşitmə itkisi diaqnozu qoyularkən xəstənin iştirakı ümumiyyətlə tələb olunmur, DEHB diaqnozu qoyularkən xəstə daha çox iştirak edir, çünki Demək olar ki, bütün diaqnostik proses onun davranış reaksiyalarını, psixoloji vəziyyətini və daxili hisslərini ("sual-cavab" formatında) qeyd etməyə əsaslanır, bu da subyektivliyin böyük bir hissəsini təqdim edir.

Uşaq sadəcə müəllimi eşitmirsə, tərifinə görə o, məktəb tapşırıqlarını düzgün yerinə yetirə bilməyəcək və kənardan onun sadəcə kifayət qədər çalışqan və diqqətli olmadığı görünür. Bütün bunlar düzgün olmayan diaqnoza səbəb ola bilər – eşitmə itkisi əvəzinə DDHS.

Əgər uşağa eşitmə itkisi diaqnozu qoyulubsa, lakin təyin edilmiş müalicə və korreksiya-edici tədbirlər məktəb fəaliyyətinə müsbət təsir göstərməyibsə, bu, DDHS varlığını göstərə bilər. Bu vəziyyətdə DDHS-nin xüsusi diaqnozunu aparmaq lazımdır. Üstəlik, hər iki halda (həm eşitmə itkisi, həm də DDHS ilə) uşağa danışma terapiyası yardımı göstərilir.

Uşaqda eşitmə itkisi və ya DDHS və ya hər ikisi olmasından asılı olmayaraq, uğurlu müalicənin açarı düzgün və vaxtında diaqnozdur. Bu patoloji şərtlərin hər hansı birinə ən kiçik bir şübhə olduqda, eşitmə itkisi diaqnozu qoymaq üçün eyni zamanda bir audioloqa və DDHS diaqnozu qoymaq üçün pediatr və ya nöropsikiyatristə müraciət edin.

DDHS-adətən uşaqlarda və böyüklərdə fərqli şəkildə özünü göstərir. Diqqət əskikliyi pozulması olan uşaq və yeniyetmələr adətən sinifdə diqqət yetirməkdə böyük çətinlik çəkirlər. Bu tez-tez diqqəti yayındıran şeylər son nəticədə dərslərinizə və performansınıza mənfi təsir göstərir. Digər tərəfdən, hiperaktiv uşaqlar və yeniyetmələr motor davranışlarını idarə etməkdə çətinlik çəkirlər, buna görə də onlar daha aydın fiziki fəaliyyət nümayiş etdirirlər. Bu onlara sakit oturmağa imkan vermir. Narahatlıq və həddindən artıq aktivlik digər sinif yoldaşlarını narahat edir, sosial qarşılıqlı əlaqəni çətinləşdirir.

- Koqnitiv qabiliyyətlər
- Planlaşdırma

Məqsədə çatmaq üçün lazımi hərəkətləri seçmək, müvafiq qaydada qərar vermək, hər bir tapşırığa lazımi idrak resurslarını təyin etmək və müvafiq fəaliyyət kursunu qurmaq bacarığı. DDHS olan uşaqlar və yeniyetmələr daha nizamsız olurlar, bu da onların həm məktəb performansına, həm də sosial münasibətlərinə mənfi təsir göstərə bilər.

**Əl-göz koordinasiyası.** Əllərin və gözlərin eyni vaxtda istifadəsini tələb edən fəaliyyətləri yerinə yetirmək bacarığı. DDHS olan uşaqlar və yeniyetmələr daha çox özlərinə və həmyaşıdlarına daha yöndəmsiz görünürlər.

**Fokuslanmış Diqqət.** Beynimizin bu fiksasiya müddətindən asılı olmayaraq, hədəf stimula diqqəti saxlamaq qabiliyyəti. Tipik olaraq, DDHS olan uşaqlar və yeniyetmələr sinifdə və ya evdə böyük çətinlik çəkirlər.

Əvvəla, heç də bütün valideynlər övladına qoyulan diaqnoza və övladının qeyri-münasib davranışının səbəbinin itaətsizlik və inadkarlıq deyil, onun fizioloji xüsusiyyətləri olduğuna dərhal inanmır.

Bir çox valideynlər, xüsusən də analar, övladının qohumlarının və dostlarının sözləri ilə desək, "özünü necə layiqli aparacağını" bilmədiyi üçün daimi günahkarlıq hissi keçirir. Uşaq bağçasında, məktəbdə, nəqliyyatda, mağazalarda və klinikalarda həmişə "idarəolunmaz" uşağı və onun necə təhsil alacağını bilməyən valideynlərini qınayan, dərhal vəziyyəti yaxşılaşdırmaq üçün bir çox reseptlər verəcək "xeyirxahlar" olacaq.

"Valideynlər stress altındadırsa, özlərini günahkar, ümidsiz hiss edirlərsə, onların ətraflarında həm fiziki, həm də mənəvi cəhətdən onlara kömək edəcək insanları tapmaq lazımdır. Əks təqdirdə, bir çox analar (yəni problemin bütün yükü onların üzərinə düşür) depressiya təhlükəsi ilə üzləşir və tibbi yardım tələb edir. Bəzən gün ərzində fiziki cəhətdən yorğun olan analar (uşağa nəzarət etməli, bütün ev işlərini görməli və DDHS olan uşaqla başqaları arasında yaranan bütün münaqişələri həll etməli olduğu üçün) gecələr kifayət qədər yata bilmirlər (uşaqlar). DDHS ilə tez-tez az və narahat yatırlar), axşamlar emosiyalarınızı cilovlaya bilmirlər. Və sonra axşam saatları ailə rifahı atmosferi əvəzinə xaos, qışqırıqlar və mübahisələr hökm sürür. Buna görə də ataları hiperaktiv uşaqların tərbiyəsinə cəlb etmək çox vacibdir, onlar anaya dəstək (həm mənəvi, həm də fiziki) verə və oğlu və ya qızı ilə əlaqə qura bilər. Bundan əlavə, ekspertlər qeyd edirlər ki, DEHB olan uşaqlar atalarla ünsiyyətdə olanda özlərini daha sakit aparırlar.

Dəstək qrupuna nənə və babalar da daxil ola bilər, ancaq bir şərtlə ki, onlar ailədə qəbul edilmiş qayda və qanunları dəstəkləsinlər. Ancaq çox vaxt DDHS olan uşaqların və xüsusilə yeniyetmələrin ilk "qurbanı" olan nənə və babalar olur. Çox yumşaq olduqları üçün nəvələrinin onları manipulyasiya etməsinə icazə verirlər. Və bu diaqnozu olan uşaqların xüsusiyyətlərini başa düşməmək və bəzən müasir uşaqların və ümumiyyətlə yeniyetmələrin həyat tərzini rədd etməklə səbəb olduğu əsassız sərtlik göstərməklə, "narahat" nəvələrin aqressiv partlayışlarına və etirazlarına səbəb ola bilər .

Buna görə də, DDHS olan uşaqları olan ailələrdə bütün ailə üzvlərini sindromun xüsusiyyətləri haqqında məlumatlandırmaq və uşağın müəyyən hərəkətlərinə cavab vermək üçün vahid təhsil xəttini inkişaf etdirmək çox vacibdir. Həm valideynlər, həm də nənə və babalar DDHS olan uşağın xüsusi yanaşma tələb etdiyini başa düşməlidirlər. Hər hansı bir uğurlu təlim texnikası bütün digər uşaqlar və ya nəvələrlə

uğurla işləsə belə, bu sindromu olan bir uşaq üçün tamamilə qəbuledilməz ola bilər. Buna görə də, hər bir halda, sindromun ağırlıq dərəcəsindən, müşayiət olunan şərtlərin mövcudluğundan asılı olaraq, böyüklər problemi həll etmək üçün təkrar-təkrar yeni, bəzən əvvəlkindən tamamilə fərqli bir yol axtarmağa məcbur olurlar.

Beləliklə, hiperaktiv uşaq böyüdən valideynlərin aşağıdakı əsas problemləri müəyyən edilə bilər:

- emosional tükənmə və fiziki yorğunluq,
- mənfi duyğuları saxlaya bilməmək,
- səbirsizliklərinə görə günahkarlıq hisslərinin tez-tez sınanması və vəziyyəti düzəltməməsi,
- öz müəllimlik qabiliyyətlərinə inamsızlıq,
- cəmiyyətdən aqressiv hücumların gözlənilməsi (təhsilçilər, müəllimlər, valideynlər, kənar müşahidəçilər),
- Ailə üzvləri arasında münasibətlərdə çətinliklər: qardaşlar və bacılar, valideynlər və uşaqlar, babalar və nənələr və nəvələr.

**Məktəbəqədər təhsil müəssisəsində valideynlərlə işin** aşağıdakı əsas formalarını ayırd etmək olar:

- Vizual məlumatlar – müxtəlif plakatlar, daşıyıcılar, stendlər.
- Təqdimat valideyn iclasında.
- Şəxsi məsləhətləşmə.
- Valideynlər üçün müxtəlif mühazirələr və təlimlər, asudə vaxt keçirmələri.

Valideyn-müəllim iclasında psixoloqun təqdimatı adətən ümumi vaxtın 10-15 dəqiqəsini alır. Əsas vəzifə, çıxış zamanı valideynlərin psixoloqun fəaliyyəti ilə bağlı narahatlığını aradan qaldırmaqdır.

**Şəxsi məsləhətləşmə.** Bu formaya 30-45 dəqiqəlik xüsusi keçirilən iclas, səhər və ya axşam 5-10 dəqiqəlik qısa müzakirələr daxildir. Təcrübə göstərdiyi kimi, pedaqoji yanaşma – söhbət zamanı psixoloq dərhal valideynlə uşaqla bağlı məsələləri müzakirə etməyə başladıqda, çox təsirli deyil. Valideyn bu yanaşmanı xeyirxahların növbəti tövsiyəsi kimi qəbul edir və adətən buna məhəl qoymağa hazırlaşır. Şəxsi psixoterapevtik konsultasiya prinsipi əsasında söhbət qurmaq daha çox şey verir – təhlükəsizlik və inam. Bu isə gələcək əməkdaşlıq üçün əsas ola bilər.

Valideynlər üçün mühazirələr, təlimlər, asudə vaxtlar – valideynlərlə qeyri-adi effektiv iş. Valideynlərlə belə məşğələlərin mövzuları çox müxtəlif ola bilər: valideynlər üçün inkişaf psixologiyası üzrə mühazirələr, uşaqlarla ünsiyyət üzrə təlimlər, emosiyaların idarə olunması üzrə təlimlər, uşaqlarla asudə vaxtını necə keçirmək və ondan həzz almaq və s.

Amma bu işdən yalnız o zaman istifadə oluna bilər ki, artıq etimad yaranıb və psixoloqun fəaliyyəti haqqında başqa idarələr, pedaqoqlar və müdafiələr və ən yüksək qiymətləndirmələr olsun. Valideynləri belə bir qrupa cəlb etmək çətindir. Ancaq bu uğur qazanarsa, siz insanlarla həmrəyliyiniz qazanarsınız və başqa insanlarla uşaqlara fərdi və qruplara imkan verdiyindən daha çox şey təklif edirsiniz.

Beləliklə, sadalanan formalardan hiperaktiv uşaqları olan valideynlərlə işləmək üçün ən əlçatan və təsirli olan şəxsi məsləhətləşmədir.

Əsas nəticələr aşağıdakılardır:

DDHS olan uşaqların valideynləri ilə işləməyin ən təsirli üsulları bunlardır:

- məlumat,
- hiperaktiv uşaqların davranışlarını düzəltməyə yönəlmiş xüsusi təlimlər,
- valideyn dəstək qrupları.

DDHS olan uşaqların valideynləri, bir qayda olaraq, daim mənfi təcrübələr yaşayırlar: başqalarına və uşaqlarına qarşı aqressiya, günahkarlıq, iqtidarsızlıq, özünə şübhə. Bu təcrübələr emosional və fiziki tükənməyə, tez-tez depressiyaya səbəb olur.

Hiperaktiv uşaqların valideynləri ilə uğurlu iş formaları psixoterapevtik konsultasiya və xüsusi valideyn təlimi prinsiplərinə əsaslanan şəxsi məsləhətləşmələrdir.

Hiperaktivlik, uşaqlar üçün də valideynlər üçün böyük bir çətinlik yarada bilən kompleks bir məsələdir. Hiperaktiv uşaqların valideynləri üçün bir çox müşküllər yarada bilər. Hiperaktiv uşaqlar və onların valideynlərinin üzləşə biləcəyi bəzi yayılmış problemlər:

**1. Uşaqlarda davranış problemləri:** Hiperaktiv uşaqlar genlə bağlı diqqətləri yüksək olmadığı üçün davranış problemləri yaşayır. Bu, dərs zamanı tədqiq edilən və ya digər uşaqlarla və valideynlərlə müşahidə edilən tərəfindən daha çox çıxır. Valideynlər, uşaqlarının davranışlarına nəzarət etməyə çalışarkən çətinlik çəkə bilərlər.

**2. Təlim problemləri:** Uşaqların dərsə fokuslanmağı çətin ola bilər və bu, öyrənmə prosesini məhdudlaşdıra bilər.

**3. Valideyn-uşaq əlaqələri:** Hiperaktiv uşaqların əvvəllərə görə daha çox tənqidi tələbləri ola bilər və valideynlərin səbir və anlayışla yanaşmağa ehtiyacı var. Uşağın davranışlarını düzəltməyə çalışarkən valideynlərin uşağa dəstək verməsi və onu qoruyan və təşviq edən bir mühit yaratması vacibdir.

**4. Gündəlik planlama:** Hiperaktiv uşaqların valideynləri üçün günlük həyatı tənzimləmək və rutinləşdirmək daha çox səbir istəyir. Buna əlavə olaraq, uşağın həyatında fiziki fəaliyyətlərin yeri və aktivlikləri düzgün təşkil etmək gərəkdir.

**5. Yatmadan əvvəl problemləri:** Hiperaktiv uşaqların bir çoxu yatmadan əvvəl sükut və sakinlik qurmaqda çətinlik çəkir. Valideynlər, uşağın rahat yatmasına kömək edəcək yatma rutini yaratmağa çalışmalıdırlar.

**6. Profesional dəstək tələbi:** Bəzən valideynlər, uşaqlarının hiperaktivlik tənqidi alması və uyğun tibbi müalicəyə çıxmağı tələb edə bilərlər. Psixiatr və ya psixoloqdan tibbi müayinə və müalicə almaq önəmlidir.

Valideynlər üçün ən önəmli məqamlardan biri, uşağın hiperaktivliyini anlamaq və müalicə üçün uyğun tədbirləri almaq üçün profesionallardan yardım almaqdır. Hiperaktiv uşaqların valideynləri, bu prosesdə səbir, anlayış və dəstək göstərməlidirlər.

**Problemin aktuallığı.** DDHS- li uşaqların son zamanlar daha çox artım faizinin müşahidə olunması və təlim prosesində yaranan çətinliklər mövzunu aktuallaşdırır. DDHS-nin, onun neyrobioloji əsaslarının, erkən aşkarlanmasının, dəqiq diaqnozun və müxtəlif müalicə üsullarının, o cümlədən davranış müdaxilələri və dərman vasitələrinin dərk edilməsində tədqiqatlar və irəliləyişlər illər ərzində inkişaf etmişdir. Bundan əlavə, DDHS-nin idarə edilməsində psixososial müdaxilələrin, məktəbdə yerləşdirmənin və ailə dəstəyinin rolu ön plana çıxmışdır.

**Problemin elmi yeniliyi.** Məqalədə DDHS-li uşaqların yaranma səbəbləri kimi bioloji amillərində rol oynadığı araşdırılmışdır. Həmçinin valideynlərə DDHS-li uşaqlarla təlim istiqamətləri təhlil edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** DEHB olan uşaqlar daha çox sosial qarşılıqlı əlaqə və münasibətlərlə mübarizə aparırlar. Sosial bacarıqları öyrədən və həmyaşıdları arasında anlayışı və empatiyanı inkişaf etdirən müdaxilələr onların sosial inteqrasiyası və uzunmüddətli uğurları üçün çox vacibdir. Buna görə valideynlər bu cür uşaqlarla işləmək təcrübəsi olan xüsusi psixoloq, defektoloq və müəllimlərlə əməkdaşlıq etməlidir. Bu baxımdan məqalə həm peşəkarlar, həm də DDHS-li uşaqların valideynləri üçün maarifləndirici olacaq.

**Ədəbiyyat:**


1. Чутко, Л.С. (2013). Внимание с дефицитом и гиперактивностью: особенности течения, диагностика и коррекция [Attention deficit and hyperactivity: features, diagnosis, and correction]. Инновационная наука, 12, 24-26.
2. Ананьев, В.А., & Бузников, В. И. (2015). Актуальные проблемы дефицита внимания и гиперактивности у детей и подростков [Current issues of attention deficit and hyperactivity in children and adolescents]. Практическая медицина, 4(90), 17-21.
3. Петелин, В.В., & Чайковская, Е.В. (2014). Особенности психосоциального адаптирования детей с синдромом дефицита внимания и гиперактивности [Features of psychosocial adaptation of children with attention deficit hyperactivity disorder]. Практическая медицина, 3(80), 22-25.
4. Голованова, О.Г., & Полегенько, И.С. (2016). Структура самооценки у подростков с синдромом дефицита внимания и гиперактивности [Self-esteem structure in adolescents with attention deficit hyperactivity disorder]. Современные проблемы науки и образования, 5, 232.
5. Кучер, Е. В., & Жарикова, А.С. (2018). Психолого-педагогическое сопровождение детей с синдромом дефицита внимания и гиперактивности [Psycho-pedagogical support for children with attention deficit hyperactivity disorder]. Вестник Российского университета дружбы народов. Серия: Психология и педагогика, 22(2), 234-241.


**E-mail:** saadat.akperova@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **S.R. Aslanova,**
*ped.ü.fəls.dok.* **S.N. İsgəndərova**
**Redaksiyaya daxil olub:** 10.10.2023

*UOT 376*

***Səməngül Tacəddin qızı Abdullayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*ORCİD 0000 0001 5089 4821*

## İNKLÜZİV TƏHSİL GÜNÜN TƏLƏBİDİR

***Саменгуль Таджаддин гызы Абдуллаева***
*преподаватель Азербайджанского государственного педагогического университета*

## ИНКЛЮЗИВНОЕ ОБРАЗОВАНИЕ – ПОТРЕБНОСТЬ ДНЯ

***Samangul Tajaddin Abdullayeva***
*teacher of Azerbaijan State Pedagogical University*

## INCLUSIVE EDUCATION IS THE NEED OF THE DAY

**Xülasə.** Məqalədə inklüziv təhsilin mahiyyəti, onun prinsipləri, inklüziv təhsildə tətbiq olunan prinsiplər və metodlardan bəhs edilir. Bundan əlavə məqalədə inklüziv təhsildə fərqli təlim ehtiyacları və öyrənmə çətinlikləri olan şəxslər üçün differensial təlimin imkanlarından istifadənin vacibliyi haqqında danışılır.
***Açar sözlər:*** *təhsil, mədəni, xüsusiyyət, əlillik, ünsiyyət*

**Резюме.** В статье речь идёт о сущности инклюзивного образования, о принципах и методах, применённых в инклюзивном образовании. Кроме этого в статье рассказывается о необходимости применения методов и возможностей дифференцированного образования для обучающихся с различными образовательными потребностями и трудностями в обучении.
***Ключевые слова:*** *образование, культурный, особенность, инвалидность, общение*

**Summary.** The article discusses the essence of inclusive education, its principles, principles and methods applied in inclusive education. In addition, the article talks about the importance of using differentiated learning opportunities for people with different learning needs and learning difficulties in inclusive education.
***Key words:*** *educational, cultural, characteristic, disability, communication*

İnklüziv təhsil – təhsil prosesinin elə bir növüdür ki, burada fiziki, psixi, intellektual, mədəni-etnik, dil və digər xüsusiyyətlərindən asılı olmayaraq bütün uşaqların yaşadıqları ərazidə heç bir ayrı-seçkiliyə məruz qalmadan əlilliyi olmayan yaşıdları ilə eyni ümumtəhsil məktəblərində təhsil almaları nəzərdə tutulur. Bununla bərabər, həmin təhsil müəssisələrinin öyrənənlərin xüsusi təhsil ehtiyaclarını nəzərə alaraq onlara sosial dəstəyin göstərilməsini təmin etməsi vacib şərtlərdəndir. Deməli, inklüziv təhsil – özünəməxsus inkişaf xüsusiyyətləri olan uşaqların ümumtəhsil məktəbinin onlar üçün ayrılmış xüsusi qrupunda deyil, fərqli xüsusiyyətləri olan uşaqların yaşıdları ilə eyni sinifdə təhsil almasıdır.

Uşaqların xüsusi təhsil ehtiyacları onların imkanlarının ümumi qəbul edilmiş ictimai-sosial tələbatlara, müvəffəqiyyət üzrə məktəb normativlərinin, cəmiyyətin müəyyən etdiyi ünsiyyət və davranış normalarına uyğun gəlməməsi zamanı meydana çıxır. Uşaqların bu xüsusi təhsil ehtiyacları məktəbdən onlara əlavə, yaxud da xüsusi material, proqram və xidmətlərin təqdim olunmasını tələb edir.

İnklüziv təhsil istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə həyata keçirilən təhsil islahatlarındakı proseslərin ayrılmaz hissəsinə çevrilən və daim inkişafda olan bir konsepsiya olmaqla insan hüquqları prinsipinə əsaslanır. İnsan Hüquqları Konvensiyasına görə, dövlətlər elə bir təhsil sistemi qurmalıdır ki, təhsilalma hüququ hər bir uşağın insan hüququ olaraq qorunsun və təmin edilsin.

Əlilliyi olan uşaqların ümumtəhsil məktəblərinə uğurlu inteqrasiyası məktəb mühitində və bütövlükdə təhsil sistemində mühüm dəyişik-

liklər tələb edir. Həmin dəyişikliklər məktəblərdə xüsusi şəraitin yaradılmasını, əlilliyi olan uşaqlar üçün təlim proqramlarının və materiallarının işlənib hazırlanmasını, təlimin metod və strategiyalarının diferensiallaşdırılmasını və hətta qiymətləndirmə standartlarının dəyişməsini tələb edir. Bütün şagirdlərin keyfiyyətli təhsilə yiyələnməsi üçün imkan və şəraitin yaradılması zəruridir və bu, inklüziv təhsil konsepsiyasının əsasını təşkil edir. İnklüziv təhsil "Hər kəs üçün təhsil" məqsədinə nail olmaq üçün əsas prinsip və strategiyalardan biri hesab olunur. Bunun üçün aşağıdakı bəzi fəaliyyətlərin zəruriliyi ön plana çəkilir:

- Qaydalara riayət edilməsi və bütün şagirdlərin tədrisin yüksək pillələrinədək keyfiyyətli təhsil almaq hüququna malik olması;
- Dövlətin əvəzolunmaz missiyası və məsuliyyəti, həmçinin onun lazımi maliyyələşdirmə, şərait və imkanları təmin etmə vəzifəsi əsasında təhsilin bir ictimai rifah kimi təbliğ edilməsi;
- Keyfiyyətli təhsilə yiyələnmək hüququnun təmin edilməsi. Bunun üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi;
- Şagirdlərin və onların təhsil almasında maraqlı olanların qanuni tələblərinin həyata keçirilməsi.

İnklüziv təhsilin aşağıdakı prinsiplərə istinad etməsi özü də xüsusi əhəmiyyətə malikdir:

1. İnsanın dəyəri onun qabiliyyət və nailiyyətlərindən asılı deyildir;
2. Hər bir kəs hiss etmək və düşünmək qabiliyyətinə malikdir;
3. Hər kəs ünsiyyət hüququna malikdir və o dinlənilməlidir;
4. Bütün insanlar bir-birinə lazımdır;
5. Həqiqi təhsil yalnız real münasibətlərin kontekstində mövcud ola bilər;
6. Bütün insanlara öz həmyaşıdlarının dəstək və dostluğu lazımdır;
7. Bütün şagirdlərin inkişafı onların bilik və bacarıqlarından asılıdır;
8. İnsanların müxtəlifliyi həyatın bütün sahələrini inkişaf etdirir.

İnklüziv təhsil məktəbəqədər, orta, peşə və ali təhsil mərhələlərini ehtiva edir. Bununla o, əlilliyi olan və müxtəlif təhsil ehtiyaclarına malik uşaqların davamlı təhsilinin və inkişafının təmin olunmasına xidmət edir.

Fərqli qabiliyyət və maraqlara, eləcə də öyrənmə xüsusiyyətlərinə malik şagirdlərə eyni anlayış və bacarıqları dərs üçün ayrılmış məhdud vaxt çərçivəsində öyrətmək asan iş deyil. Təlimin təşkili zamanı müəllim aşağıdakılara riayət edərsə, daha çox uğur əldə etməsi mümkün olar:

- Şagirdlər üçün sinifdə emosional təhlükəsiz mühitin yaradılması;
- Şagirdləri dərs prosesinə cəlb etmək məqsədi ilə müxtəlif metodlardan istifadə;
- Qarşılıqlı hörmət və anlaşmanın təmin edilməsi;
- İdman dəqiqələri;
- Əlilliyi olan uşaqların olan şagirdlərin dərs prosesinə hazırlanması.

Bundan başqa inklüziv sinifdə dərs deyən müəllim diferensiallaşdırılmadan istifadə edə bilər. Diferensial və fərdi yanaşma prinsipi şagirdin fərdi xüsusiyyətlərini, inkişaf pozğunluğunun spesifik xüsusiyyətlərini nəzərə alaraq münasib təlim şərtlərinin yaradılmasına hədəflənir. Diferensiasiya bütün şagirdlərin ehtiyaclarını qarşılamaq üçün – şagirdlərin nə öyrəndiyinə (məzmun), informasiyanı necə mənimsədiklərinə (informasiyanın emalı), bilik və bacarıqlarını necə nümayiş etdirmələrinə (nəticə) və tədrisin harada və kiminlə baş tutmasına (təlim mühiti) dəyişiklik etməklə hazırlanmış öyrətmə metodudur. Diferensiasiya təlim reseptlərindən ibarət toplu deyil. Əslində bu, şagirdlərin sinifdə lazımi təlim təcrübəsi qazanması üçün öyrətmə və öyrənmə haqqında müəllimin düşünmək tərzidir. Diferensial təlimi tətbiq edən müəllim inklüziv təhsilə cəlb olunmuş uşağın psixofizioloji fərdiliyini, onların qavrama xüsusiyyətlərini, anlama səviyyələrini, dərketmə, təfəkkür növlərini bilir və işini bütün bu sadalananlara uyğun qurur. Müəllim nəzərə almalıdır ki, cəmiyyət üçün bütün uşaqlar dəyərlidir, uşaqların fərqli və müxtəlif olmasının pedaqoji prosesdə aradan qaldırılması vacib olan maneələr deyil, əksinə, ona şərait yaradan resurslar kimi qəbul edilməlidir. Uşaqlar üçün müəssisədə şərait və mühitin yaxşılaşdırılması vacibdir və s.

Təlim prosesinin təşkili üçün aşağıdakı metodlardan istifadə etmək olar: Vizual metodlar inklüziv sinifdə dərsin başlanğıc mərhələsində istifadə edilir. Yazı lövhəsi vizual metodun dayağı olur..

Praktik metodlar. Dərs praktik metodlar əsasında formalaşır. Öyrənmə prosesində praktik metodlar uşaqlarda müəyyən edilmiş elementlərin öyrənilməsinə, bilik və bacarıqların formalaşdırılmasına xidmət edir.

Şifahi metodlar: bu metodlardan istifadə idrak fəaliyyətini aktivləşdirməyə, düşüncəni formalaşdırmağa və yaranmış çətinliyə tez reaksiya verməyə şərait yaradır.

Layihə metodu interaktiv metodlardan biridir və öyrənmə prosesinin ayrılmaz hissəsidir. Layihə metodundan istifadə təcrübəsi göstərir ki, birlikdə öyrənmək yalnız asan və maraqlı deyil, həm də daha səmərəlidir.

İnklüziv sinifdə təlim zamanı diferensiallaşmadan istifadə etmək də öz səmərəsini verir. Təlimin diferensiallaşdırılması bütün uşaqların eyni olduğunu zənn edərək bütün sinfə ənənəvi təlimin əvəzinə konkret uşağın və ya kiçik uşaq qrupunun təlim ehtiyaclarına diqqət yetirməkdir. Təlimdə müəllimlər ilə uşaqlar əməkdaşdırlar. Diferensial təlim zamanı öyrənənlərin fərdi xüsusiyyətləri nəzərə alınmalı, tapşırıqlar üzərində iş stress, həyəcan və gərginlik yaranmadan aparılmalıdır. Öyrənilən mövzunun mürəkkəbliyindən asılı olaraq ev tapşırığı aydın şəkildə izah edilməli, bütün sinfə və ya fərdi şəkildə verilir.

Diferensial təlimi tətbiq etmək üçün müəllim aşağıdakı fəaliyyətləri həyata keçirməlidir:

Təhsildə çətinliyi olan öyrənənlərin yeni məfhum və anlayışları başa düşməsi üçün obyektlərdən istifadə etməli, mətn və tapşırıqları müxtəlif səviyyələrdə hazırlamalı, əlavə təqdimata ehtiyacı olan uşaqlar üçün dərsi yenidən izah etməli, təlim məqsədlərinin müəyyənləşdirilməsində öyrənənlərin iştirak etməsini təmin etməli və s. İnklüziv təhsildə əlilliyi olan uşaqların təlimdə digər uşaqlarla bərabər şəkildə iştirak etməsini təmin etmək məqsədilə müəllim müxtəlif strategiyalardan istifadə etməlidir.

**Problemin aktuallığı.** İnklüziv təhsilin inkişafı dünyanın bir çox ölkələrinin təhsil siyasətinin əsas prioritetlərindəndir və ümumiyyətlə, hər hansı bir ölkənin təhsil sisteminin beynəlxalq prinsip və standartlara uyğunlaşdırılması məqsədini daşıyır. Dünyanın bir çox ölkələrində xüsusi qayğıya ehtiyacı olan uşaqlar digər yaşıdları ilə birlikdə ümumtəhsil məktəblərində təhsil alır və uşaq bağçalarına gedirlər. Son illərdə inklüziv təhsilin həyata keçirilməsi ilə bağlı ölkəmizdə də bir sıra işlər görülmüş və görülməkdədir. Bu gün ali məktəblərdə bir fənn kimi inklüziv təhsilin tədris edilməsi də buna bariz nümunədir. Məqalədə inklüziv təhsilin mahiyyəti və prinsipləri və s. məsələlərə toxunulur.

**Problemin praktik əhəmiyyəti.** İnklüziv təhsil dedikdə uşaqların məktəbəqədər müəssisələrdə, orta ümumtəhsil müəssisələrində dərs alması prosesi nəzərdə tutulur ki, bunun da xüsusi tələbləri var. Təlim metodikasına müvafiq olaraq inklüziv təhsil uşaqlara qarşı hər hansı formada ayrı-seçkilik edilməsinin qarşısını alır, müxtəlif nevroloji və ya psixi xəstəlikləri olanlara belə mükəmməl şəkildə təhsil almaq, uğur qazanmaq imkanı verir.

**Problemin elmi yeniliyi.** Məlum məsələdir ki, "inklüziv təhsil" anlayışı təhsilimizdə yenidir və müəllimlərin inklüziv tədrisin bir çox aspektlərini əhatə edərək yeni bacarıqları sinif təcrübəsinə inteqrasiya etmələri üçün pedaqoji dəstəyə ehtiyacları olur. Məqalədə inklüziv siniflərdə təhsilə cəlb edilən şagirdlər üçün keyfiyyətli təhsilin təmin olunması məqsədilə əlilliyi olan şagirdlərin sinifdə davranışı, adaptasiyası, sinif yoldaşları ilə ünsiyyəti, o cümlədən akademik nailiyyətləri və təlim zamanı yaşanan çətinliklərin həlli yönündə müvafiq məsələlərə diqqət yetirilir, keyfiyyətli inklüziv təhsili təmin etmələri üçün müəllimlərə müəyyən metod və üsullardan istifadə etmək məsləhət görülür.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli sərəncamı ilə təsdiq edilmiş "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət proqramı"
2. İnklüziv siniflərdə təlimin təşkili. Oxu materialı – RİİB 2018
3. İnklüziv təhsil Məlumat kitabçası – RİİB 2018


**E-mail:** semengul.abdullayeva@gmail.com
**Rəyçilər:** *ped.ü.fəls.dok.* **M.Ş. Məlikov,**
*ped.ü.fəls.dok., dos.* **Q.Q. Əzizov**
**Redaksiyaya daxil olub:** 20.11.2023

UOT 37.0

**Reyhan Tapdıq qızı Hacızadə**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*orcid.org/ 0000-0002-2287-2905*

# XÜSUSİ MƏKTƏBLƏRDƏ TEXNOLOGİYA FƏNNİNİN TƏDRİSİNDƏ SƏCİYYƏVİ CƏHƏTLƏR

**Рейхан Тапдыг гызы Гаджизаде**
*преподаватель Азербайджанского государственного педагогического университета*

# ОСОБЫЕ АСПЕКТЫ В ПРЕПОДАВАНИИ ПРЕДМЕТА ТЕХНОЛОГИИ В СПЕЦИАЛЬНЫХ ШКОЛАХ

**Reyhan Tapdiq Hajizader**
*teacher of Azerbaijan State Pedagogical University*

# SPECIAL ASPECTS OF TRAINING TECHNOLOGY IN SPECIAL SCHOOLS

**Xülasə.** Məqalə xüsusi məktəblərdə texnologiya fənninin tədrisi zamanı şagirdlərin idrak fəallığının yüksəldilməsinin səmərəli yollarına həsr edilmişdir. Müəllim, şagirdlərin idrak fəaliyyətinin təşkili zamanı bəzi xüsusiyyətləri nəzərə almalı, onların bilik və bacarıqlara yiyələnmələri üçün özunəməxsus şərait yaratmalıdır. Təlim elə təşkil edilməlidir ki, müstəqil, yaradıcı düşünmək və işləmək üçün imkan yaransın.

***Açar sözlər:*** *xüsusi məktəb, texnologiya, idrak fəallığı, korreksiya pedaqogikası, inklüziv təhsil*

**Резюме.** Статья посвящена эффективным способам повышения познавательной активности учащихся при обучении технологии в специальных школах. Учитель должен учитывать некоторые особенности при организации познавательной деятельности учащихся, создавать им специальные условия для приобретения необходимых знаний и умений. Обучение должно быть организовано таким образом, чтобы была возможность мыслить и работать самостоятельно и творчески.

***Ключевые слова:*** *специальная школа, технология, познавательная деятельность, коррекционная педагогика, инклюзивное образование*

**Summary.** The article is devoted to effective ways to increase the cognitive activity of students when teaching technology in special schools. The teacher must take into account some features when organizing the cognitive activity of students, create special conditions for them to acquire the necessary knowledge and skills. Training should be organized in such a way that there is an opportunity to think and work independently and creatively.

***Key words:*** *special school, technology, cognitive activity, correctional pedagogy, inclusive education*

Təlim prosesi ətraf aləmin dərk olunmasına kömək edir. Şagirdin (tələbənin) öyrənmə yolu bir çox cəhətdən idraka əsaslanır. Bunu sxematik olaraq belə ifadə etmək mümkündür: Təlim yolu: qavrama → anlama → möhkəmlətmə → tətbiqetmə.

Göründüyü kimi, təhsilalanın öyrənmə yolu idrak yoluna müvafiqdir. Qavrama idrak yolundakı canlı müşahidə ilə, anlama mücərrəd təfəkkürlə, tətbiqetmə isə praktika ilə bağlıdır. Lakin öyrənmə və elmi idrak prosesləri eyni deyildir. Öyrənmə prosesi öz məqsədi, təşkili qaydası, müddəti, praktikanın rolu, möhkəmlətmə ehtiyacı, müəllimin rəhbərliyinin zəruriliyi ilə elmi idrak prosesindən fərqlənir. Təlim prosesində müəllim şagirdlərin idrak fəaliyyətini təşkil edərkən bu xüsusiyyətləri nəzərə almalı, onun tədricən elmi idraka yaxınlaşması üçün şərait yaratmalıdır. Təlim elə təşkil edilməlidir ki, öyrənən müşahidələr aparsın, faktlar toplasın. Onları mücərrəd təfəkkürdə təhlil etsin, fikri əməliyyatlar aparsın, problemləri həll etsin. Nəzəri

biliklərini həyata və çalışmalara tətbiq etsin, müstəqil, yaradıcı düşünmək və işləmək bacarıqlarına yiyələnsin.

Xüsusi məktəblərdə təlim prosesində, o cümlədən texnologiya üzrə məşğələlərdə elə şərait yaradılmalıdır ki, şagird nəinki məzmunu yadda saxlasın, eyni zamanda həm də o, fəaliyyət üsulunu görə bilsin. Müəllimin səyi nəticəsində ona nail olunur ki, kiçikyaşlı məktəbli bilik almaq imkanı ilə yanaşı bilik və məlumatları özü toplamağı, əldə etməyi bacarsın. Bu zaman sinif müəllimi şagirddən ötrü sadəcə müəllim deyil, onun imkanlarının təhrikedicisi kimi çıxış edir.

Buna görə də əsas şərt xüsusi məktəblərdə əlilliyi olan kiçikyaşlı məktəblinin marağına səbəb olacaq inkişafetdirici texnologiyalardan, metod və priyomlardan, vasitələrdən faydalanmaqdır. İdrak fəallığının və idrak marağının inkişaf etdirilməsinin səmərəli yolları da diqqət mərkəzində dayanmalıdır. Şəxsi təcrübəsi şagirddən ötrü ətraf aləmin dərk olunmasının ən mühüm yoludur. Bu zaman texnologiya dərslərində daha çox əməli işlərlə məşğul olmalıdır. Uşaqların əməli işlərinin təşkili texnologiyası geniş-təlim xarakterli məna kəsb edir. İlk növbədə onlarda idrak qabiliyyətinin ahəngdar inkişafı mühüm vəzifə kimi qarşıda durur [1, s. 6 ].

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzası ilə təsdiqini tapan "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda əsas istiqamətlərdən biri məhz ölkəmizdə inklüziv təhsilin inkişaf etdirilməsindən ibarətdir.

İnklüziv təhsil isə korreksiya pedaqogikasını yaratmadan, inkişaf etdirmədən, formalaşdırmaq və təkmilləşdirmək mümkün deyil. Hazırda korreksiya pedaqogikası görməsində, eşitməsində əqli inkişafında problemləri olan uşaqlarla yanaşı, autik uşaqların da təhsili, təlim və tərbiyəsi ilə məşğul olan pedaqogika sahəsi kimi inkişaf etməyə başlamışdır [2, s. 9].

İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları bir çox bölmələri özündə ehtiva edir. Bura daxilıdır.

- insan hüquqlarına əsaslanan inklüziv təhsil;
- əməkdaşlıq;
- inklüziv sinif təcrübəsinin yaradılması;

Qeyd olunan proqram üzrə müəllim hazırlığı şagirdlərin ibtidai siniflərdə inklüziv təhsil sahəsində uşaqların idrak fəallığını təmin etmək olar. Bu zaman müəllim hər bir fənn üzrə xarici aləmlə bağlı inklüziv təhsildə uşağı əhatə edən idrak prosesinə maraq yaratmaq olar.

Əslində, istər valideynlər, istər fənn müəllimləri, istər tərbiyəçilər, istərsə də bu sahədə çalışan mütəxəssislər daha çox nikbinlik prinsipindən istifadə etməlidirlər. Çünki əlilliyi olan uşaqların hər birinin özünə məxsus müsbət cəhətləri olur.

Bir tədqiqatçı kimi, biz bu proqramların dinləyicisi kimi yüksək fəallıqla yanaşı onun praktik tətbiqinə səy göstərmişik. İbtidai siniflərdə təhsil alan əlilliyi olan şagirdlər texnologiya fənninə xüsusi maraq göstərmək məntiqi idrak keyfiyyətcə yeni ən yüksək mərhələni nümayiş etdirir. Uşaqlarda texnologiyadan emal texnologiyaları və vasitələri ilə bağlı anlayışların mənimsənilməsinə maraq artır. Proses iki istiqamətdə baş verir. İnklüziv təhsildə əvvəlcə qazanılan anlayışlar dərinləşdirilir, dürüstləşdirir, daha yüksək səviyyəyə qalxır. Daha sonra yeni anlayışlar meydana gəlir, bu da onların mühakimələr, əqli nəticələr formalaşmasına səbəb olur. İnklüziv təhsilin mahiyyəti və müəllimin öyrənmə üslubunun başa düşməsi bu işdə önəmlidir. İdrak fəallığının səmərəli olması aşağıdakı cəhətlərin modellər üzrə dərk olunması vacibdir.

Müəllim pedaqoji prosesdə həmin cəhətlərə nail olmalıdır. Bura daxildir inklüziv təhsilin hər uşağın əsas hüququndan biri olması; pedaqoji prosesdə öyrənənin davamlı fəaliyyəti; öyrənmənin məktəbdə baş verməsi; öyrənmənin sosial və aktiv fəaliyyəti (öyrədən və öyrənənin birgə iştirakı, biliklərin aşılanmasından daha çox konsepsiyaların praktik tətbiqi); təlimçilərin bələdçiliyi.

Şagirdlərin texnologiyadan idrak fəallığında inklüzivliyin təmin edilməsinin prinsip kimi müəllim tərəfindən tələbat və ehtiyaclarının müəyyən edilməsidir. Diaqnostik qiymətləndirmə zamanı texnologiyadan müxtəlif fəaliyyətlər vasitəsilə bu iş həyata keçirilir. Bilmək lazımdır ki, texnologiyadan idrak fəallığı zamanı şagirdlər heç də ilk məşğələdə öz xüsusiyyətlərini daxili aləmini, fərdi xüsusiyyətlərini büruzə verməyə hazır olmurlar. Bunun üçün də xüsusi məktəblərdə ibtidai siniflərdə müəllim hər bir şagirdə diqqət göstərməli və həssaslıqla yanaşmalıdır.

Xüsusi məktəblərdə texnologiya fənninin tədrisi zamanı kiçik yaşlı məktəblilərdə idrak

fəallığının inkişaf etdirilməsi üçün aşağıdakı bacarıqlara yiyələnmələri vacibdir:

– problemi görə bilmək bacarığı;
– fərziyyə irəli sürmək bacarığı;
– sual verə bilmək bacarığı;
– müşahidə etmə bacarığı;
– nəticəyə gələ bilmək bacarığı.

Uşaqlarda təfəkkürün inkişaf səviyyəsinin, idrakı fəallığının, ümumiləşdirmə, təhlil, tərkib, konkretləşdirmə qabiliyyətlərinin və bununla bağlı fikri əməliyyatların tətbiqi məqsədilə bir sıra metodikalardan istifadə etmək olar. Xüsusi məktəblərdə texnologiya dərslərində hər bir şagirdin hansı sindromdan asılı olmayaraq müəllim nəzarəti altında sərbəst işləmək, fikir yürütmək, müzakirə etmək imkanları yaratmaq çox vacibdir. Hər bir sindromun məzmun xarakteristikasına görə, ümumi emosional vəziyyəti, sosial stress həyəcanı, özünümüdafiə qorxusu, özünü başqalarına təqdim etməsinə mane olan neqativ emosional həyəcan vəziyyəti, uşağın əldə etdiyi nəticələrin başqaları tərəfindən əhəmiyyətliliyinin dərk olunmasının doğurduğu həyəcan və müəllimlərlə münasibətlərdə yaranan qorxu və problemləri vardır [3, s. 298]. Bunları aradan qaldırmaq üçün texnologiya dərslərinin daha səmərəli, əlverişli və əyləncəli təşkil olunması zəruri hesab olunur. Xüsusi məktəblərdə apardığımız tədqiqatlar zamanı texnologiya dərslərində şagirdlər əməli işlərinin təşkili, tərtibi, nümayişi müasir üsullarla dərslərin keçirilməsi nəyinki praktik bacarıqlarının inkişaf etməsini, həmçinin əhval-ruhiyyələrində də müsbət dəyişikliklər baş verməsi aydın görülür.

Bu gün müasir təlim texnologiyaları, interaktiv təlim metodları, fəal təlim metodları tələb edir ki, məktəbimiz beynəlxalq standartlara uyğun olsun, təhsil sistemimiz dünya təhsilinə inteqrasiya olunsun, qloballaşma dövründə təhsilin, elmin və texnikanın ən yeni, imkanlarından istifadə edərək əlilliyi olan uşaqlar da müəyyən bilik və bacarıqlara yiyələnsin. Şagirdlərin tədqiqatçılıq və yaradıcılıq qabiliyyəti, hər şeydən öncə, təlim prosesində təşəkkül tapır. Bu proseslər nə qədər məqsədəuyğun, sistemli qurularsa, şagirdin bacarığı, istedadı bir o qədər tez özünü büruzə verər və sürətlə inkişaf etmiş olar. Deməli, hər bir şagirdin daxili dünyası ilə ilk olaraq müəllim tanış olmalıdır. O, şagirdin həm tədqiqatçılıq bacarığını düzgün müəyyənləşdirməli, həm də ona fərdi yanaşaraq bu qabiliyyətinin inkişafında düzgün istiqamət verməklə yardım göstərməlidir. Səriştəli və pedaqoji ustalığa malik müəllim şagirdin düşüncə tərzində, tədqiqatçılıq marağında böyük dönüş yarada bilər, ona düzgün istiqamət verə bilər.

**Problemin aktuallığı.** Xüsusi məktəblərdə texnologiya dərslərinin səciyyəvi təşkili kiçikyaşlı məktəblilərin idrak fəallığının və bacarıqlarının inkişafı təmin olunur.

**Problemin yeniliyi.** Məqalədə xüsusi məktəblərdə ibtidai sinif şagirdlərinin idrak fəallığı diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə gənc tədqiqatçılar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**


1. Ağayev Ş.O. İbtidai siniflərdə şagirdlərlə əməli işlərin təşkili texnologiyaları. – Bakı, 2011.
2. Sadıqov, F.B. Korreksiya pedaqogikası / F.B. Sadıqov – Bakı: Maarif, – 2018. – 300 s
3. Nuriyev, S. Təhsildə sosial-psixoloji xidmət. / S. Nuriyev, D. İbrahimova. – Bakı: Elm və təhsil, – 2016. – 638.


**E-mail:** reyhan.hacizad@mail.ru
**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **Ş.O. Ağayev**,
*ped.ü.fəls.dok.* **G.T. Eminova**
**Redaksiyaya daxil olub:** 16.10.2023

UOT 376

**Сария Матлаб гызы Мамедова**
*учитель начальных классов образовательного комплекса № 132-134 г. Баку*

# НЕКОТОРЫЕ АКТУАЛЬНЫЕ ЗАДАЧИ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ

**Səriyyə Mətləb qızı Məmmədova**
*Bakı şəhəri 132-134 nömrəli təhsil kompleksinin ibtidai sinif müəllimi*
*https://orcid.org/0009-0002-5814-6443*

# İNKLUZİV TƏHSİLİN BƏZİ AKTUAL MƏSƏLƏLƏRİ

**Sariya Matlab Mammadova**
*teacher of the educational complex No. 132-134 of Baku city*

# SOME IMPORTANT ISSUES OF INCLUSIVE EDUCATION

**Резюме.** В настоящее время инклюзивное образование находится в центре внимания общественности. Большинство педагогов считают, что инклюзивное образование предназначено только для детей с особыми потребностями, то есть детей с умственными или физическими недостатками. Конечно, это так, но не полностью. Так как современное понимание инклюзивного образования показывает, что данное образование является одним из видов образования для всех, ведь у всех детей есть свои особые потребности. С этой точки зрения каждый педагог является участником инклюзивного образования.
***Ключевые слова:*** *инклюзивное образование, учитель, дети с особыми потребностями, школа*

**Xülasə.** Hazırda inklüziv təhsil ictimaiyyətin diqqət mərkəzindədir. Pedaqoqların əksəriyyəti inklüziv təhsilin yalnız xüsusi qayğıya ehtiyacı olan, başqa sözlə, əqli və ya fiziki qüsurlu uşaqlar üçün olduğunu düşünür. Əlbəttə, bu doğrudur, amma tam deyil. Çünki inklüziv təhsilin müasir anlayışı göstərir ki, inklüziv təhsil hamı üçün təhsil növlərindən biridir, çünütün uşaqların öz xüsusi ehtiyacları var. Bu baxımdan hər bir müəllim inklüziv təhsilin iştirakçısıdır.
***Açar sözlər:*** *inklüziv təhsil, müəllim, xüsusi ehtiyacı olan uşaqlar, məktəb*

**Summary.** Nowadays inclusive education is in the center of attention of education public. The majority of educators think that inclusive education is only for the children with special needs, in other words children with mental or physical disabilities. Of course, this is true but not completely. Because modern understanding of inclusive education indicates that inclusive education is a type of education for all because every all the children have their own special needs. From this point of view, every teacher is the participant of inclusive education.
***Key words:*** *inclusive education, teacher, children with special needs, school*

В настоящее время Азербайджан совершенствует систему образования, используя образовательные принципы самых передовых стран мира, проводит содержательные и структурные изменения. Наиболее актуальным становится инклюзивное образование, направленное не только на традиционные образовательные достижения, но и на обеспечение полноценной социальной жизни, наиболее активное участие в коллективе всех его членов, в том числе и детей с особыми потребностями. Образование лиц с ограниченными возможностями здоровья является одним из приоритетных направлений деятельности системы образования Азербайджана. Усилия государства сосредоточены на том, чтобы в рамках модернизации образования создать обучающую среду, обеспечиваю-

щую доступность качественного образования для всех лиц с ограниченными возможностями здоровья с учетом особенностей их психофизического развития и состояния здоровья, то есть организовать инклюзивное образование. В основе инклюзивного образования положены принципы, исключающую любую дискриминацию детей, обеспечивают равное отношение ко всем людям, создают особые условия для детей с ограниченными возможностями здоровья. Образование детей с ограниченными возможностями здоровья предусматривает создание для них психологически комфортной коррекционно-развивающей образовательной среды, обеспечивающей адекватные условия и равные с нормально развивающимися детьми возможности для получения образования в пределах образовательных стандартов, лечение и оздоровление, воспитание.

Инклюзивное образование является одной из относительно новых идей образования, которая находится в центре внимания учителей, а также национальной общественности. Хотя отношение к данному образовательному формату неоднозначное, неоспоримым фактом является то, что инклюзивное образование проверено и одобрено во многих странах мира. Скептическое отношение к инклюзивному образованию в основном связано с тем, что понятия инклюзии неоднозначны. Иными словами, представления о «ребенке с особыми потребностями» не уходят далеко от стандартных подходов. Под «особой заботой» подразумевается, в основном отношение, проявляемое к людям с физическими или умственными недостатками. Несомненно, это неоспоримый факт. Однако согласно современным представлениям о воспитании каждый человек нуждается в особой заботе, так как каждый человек обладает уникальные потребностями и интересами. Эти потребности и интересы более ярко проявляются в образовательной среде. Именно по этой причине каждый учитель без исключения является участником процесса инклюзивного образования. Ведь в каждом классе есть ученики, имеющие трудности в обучении и таких учеников не мало. Актуальность инклюзивного образования как в мире, так и в нашей стране, объясняется тем, что в него входят наряду с детьми, у которых сразу заметна задержка интеллектуального развития, также дети, у которых психическое развитие совершенно нормальное, но они отстают в процессе обучения. В процессе работы, все учителя сталкиваются с учениками, которые умственно, физически и социально развиты, но отстают в учебе и испытывают трудности с усвоением учебного материала. Причина этого не всегда в лени ученика. Во многих случаях причиной является специфическое нарушение развития учебных навыков. К сожалению, некоторые учителя не знают об этом специфическом нарушении, иными словами, о «невидимых особых потребностях», в которых учащиеся вовсе не виноваты, но из-за которых страдают. Такие дети испытывают комплексы по поводу своего расстройства, у них могут возникать депрессивные расстройства, эмоциональный срыв, агрессивность и неврозы. Все это не способствует социальной адаптации, и может вызывать ряд проблем с социализацией. При расстройствах развития экспрессивного письма или дисграфии у учеников возникают затруднения с овладением письмом – они не могут правильно изучить правописание и выразить свои мысли. Причины такого состояния остаются неизвестными, однако существуют предположения, что развитию заболевания способствует генетическая предрасположенность. Нарушения такого рода обычно проявляются в младших школьных классах, такие ученики могут совершать ошибки в простейших словах, забывать о точках в конце предложений. Если нарушение не лечить, то оно сохранится и в старшем возрасте. Такие дети страдают от своего расстройства, у них возникают проблемы со сверстниками и учителями, они могут впадать в депрессии и оказывать желание изолироваться от всех.

Поскольку такие дети с трудом осваивают новые знания и опасаясь строгого порицания со стороны учителя, отказываются от участия в активном обучении, то принцип инклюзивности образования остается невыполненным.

Инклюзивной школе нужен такой учитель, который должен отвечать современным требованиям, быть образованным специалистом, творческой личностью, осознавать и реализовывать новые технологии в образовании, создавать необходимые условия для развития или компенсации, коррекции отстающих психических функций ребенка, способствовать формированию психологического базиса для становления учебной деятельности в целом и каждого школьного навыка в отдельности, добиваться высоких результатов в своей профессиональной деятельности. Процесс внедрения инклюзивного образования в Азербайджане в настоящее время сталкивается с рядом проблем, связанных как со сложностями организации инклюзии внутри самих образовательных учреждений, так и с социальными препятствиями.

В «Международной статистической классификации болезней и проблем, связанных со здоровьем» Всемирной организации здравоохранения (ВОЗ) указано: Специфические расстройства развития учебных навыков – это расстройства, характеризующиеся нарушением нормальных показателей приобретения учебных навыков, начиная с ранних стадий развития. Такие нарушения не являются следствием отсутствия возможности получать образование, умственной отсталости, а также не связаны с приобретенной травмой или предшествующим заболеванием головного мозга.

Специфические расстройства развития школьных навыков классифицируются по клиническим проявлениям. В зависимости от доминирующего нарушения выделяют:

- *Дислексию.* Расстройство чтения проявляется неузнаванием букв, неумением соотносить их графическое отображение со звучанием.
- *Дисграфию.* Нарушение письма относят к расстройству спеллингования. Проявляется трудностями кодировки звуков в графический символ. Ребенок не осваивает начертание, написание букв.
- *Дискалькулию.* Нарушение счетного навыка проявляется неумением сосчитать по прямому и обратному порядку, выполнить арифметические действия.
- *Смешанное асстройство.* Выявляются различные сочетания дислексии, дисграфии, дискалькулии.

При дислексии затруднено узнавание слов, понимание предложений. Дети с трудом различают отдельные буквы, не всегда могут определить начало и конец предложения. Нарушено запоминание названий букв, соответствующих звуков. При чтении ребенок переставляет буквы в слове, слова в предложении. Затруднено воспроизведение слов по буквам. Постепенно чтение формируется, но не имеет интонации. Озвученный текст остается не понятым, оперирование полученной информацией невозможно.

Расстройство спеллингования чаще всего проявляется нарушением письма. Дети не способны произносить слова по слогам, писать без ошибок. Определяется нарушения чередования букв, трудности в разделении слова на приставку, суффикс, окончание. Навык чтения, понимание прочитанного в норме. Имеются затруднения в выражении мыслей, построении монолога.

Письменная и устная речь с большим количеством грамматических, смысловых ошибок, но фонетически развита нормально.

При нарушении счета определяются трудности овладения арифметическими операциями, прямым и обратным счетом. Ребенок плохо запоминает последовательность арифметических операций, не понимает вербальные и зрительные символы. Слуховые, вербальные способности сохранны, но запомнить таблицу умножения, простые формулы очень тяжело.

Специфические расстройства развития школьных навыков в отсутствии своевременной коррекции осложняются вторичными эмоциональными и поведенческими отклонениями. Дети осознают свое неумение, стараются избегать ситуаций, где требуется применение чтения, счета или письма. Они тревожно реагируют на замечания взрослых, боятся насмешек со стороны сверстников. Тяжелые случаи характеризуются выраженной агрессивностью, нарушениями норм морали, правил поведения. Сопутствующими проблемами становятся прогулы уроков, плохая успеваемость по всем предметам.

Как указано в классификации ВОЗ, эти виды нарушений не являются следствием умственной отсталости. В данном случае на учителей ложится особая ответственность, так как родитель, не знающий об специфических нарушениях, жалуется на отставание своего ребенка в обучении. Вот почему учителя должны применять как можно больше различных методов и стратегий в процессе обучения, чтобы удовлетворить потребности всех учащихся. Кроме того, в классе могут быть учащиеся и с различной степенью проблем интеллектуального развития, нарушениями поведения, синдромом аутизма, синдромом Дауна, синдромом дефицита внимания, с гиперактивностью, с нарушениями слуха и речи и др. В таких случаях учителя, в первую очередь, должны проявить терпение. Следует категорически избегать поспешности, угрожающего и осуждающего отношения. В противном случае ситуация может осложниться. Невозможно найти идеальный метод, способный удовлетворить потребности учащихся с разным уровнем способностей и интересов. Но можно преодолеть эту трудность. Для этого достаточно сделать учебный процесс во многих случаях насыщенным и интересным.

Таким образом, инклюзия – это процесс развития предельно доступного образования для каждого в доступных школах и образовательных учреждениях, формирование процессов обучения с постановкой адекватных целей всех учеников, процесс ликвидации различных барьеров для наибольшей поддержки каждого учащегося и максимального раскрытия его потенциала.

**Актуальность статьи.** Актуальность темы данного исследования связана с тем, что инклюзивное образование как процесс развития общего образования предполагает реализацию доступности образования для всех категорий детей, а именно возможность адаптации к различным потребностям детей с особыми образовательными потребностями.

**Научная новизна статьи.** В стремительно развивающейся мировой системе образования возрастает место и значение инклюзивного образования. Инклюзивная образовательная среда характеризуется системой ценностного отношения к обучению, воспитанию и личностному развитию детей с особыми образовательными потребностями.

**Практическая значимость статьи.** Создаются представления о становлении инклюзивного образования в нашей стране, а также о новых подходах к инклюзивному образованию в мире.

**Литература:**


1. Программа развития Организации Объединенных Наций: Учебное пособие по развитию человеческого потенциала. – Баку, 2014.
2. The Salamanca Statement And Framework for Action on Special Needs Education. Adopted by the World Conference on Special Needs Education: Access And Quality Salamanca, Spain, 7-10 June 1994
3. Малярчук Н. Н. Готовность учителя к работе в условиях инклюзивного образования // Вестник ТГУ. – 2015. № 4. – с. 9.
4. Четверикова Т. Ю. Инклюзивное образование как педагогический феномен // В мире научных открытий. – 2014. № 11. – с. 328


**E-mail:** sariya514@mail.ru
**Рецензенты:** *док.фил.по пед.* **И.Б. Амиралиева,**
*док.фил.по пед.* **Л.А. Мамедли**
**Redaksiyaya daxil olub:** 27.11.2023

# HƏRBİ PEDAQOGİKA
# ВОЕННАЯ ПЕДАГОГИКА
# MILITARY PEDAGOGY

UOT 371

**Amil Seydəmir oğlu Dadaşov**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*fəlsəfə doktoru proqramı üzrə doktorantı,*
*Heydər Əliyev adına Hərbi İnstitutun baş müəllimi*
*https://orcid.org/0000-0002-9379-0798*

## AZƏRBAYCAN RESPUBLİKASINDA HƏRBİ – MÜHƏNDİS TƏHSİLİ TARİXİNİN – PEDOQOJİ TƏHLİLİ

**Амиль Сейдемир оглы Дадашов**
*докторант по программе доктора философии*
*Института образования азербайджанской республики,*
*старший преподаватель Военного Института имени Гейдара Алиева*

## ПЕДАГОГИЧЕСКИЙ АНАЛИЗ ИСТОРИИ ВОЕННО – ИНЖЕНЕРНОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Amil Seydamir Dadashov**
*doctoral student in the program of doctor of philosophy of the*
*Institute of Education of the Republic of Azerbaijan,*
*senior lecturer at the Military Institute named after Heydar Aliyev*

## PEDAGOGICAL ANALYSIS OF THE HISTORY OF MILITARY – ENGINEERING EDUCATION IN THE REPUBLIC OF AZERBAIJAN

**Xülasə.** Məqalə hərbi-mühəndislik təhsili sistemində silahlı qüvvələrin müdafiə imkanlarının və hazırlığının formalaşdırılması problemindən bəhs edir. Göstərilir ki, hərbi mühəndislik təhsili, hərbi personalı hərbi kontekstdə mühəndislik problemlərini həll etmək üçün lazımi bilik və bacarıqlarla təchiz edir. Məqalədə Azərbaycan Respublikasında hərbi-mühəndis təhsilinin tarixi problemləri, həmçinin onun 1990-cı illərin əvvəllərindən başlayaraq son dövrlərə qədərki inkişafı təhlil edilmişdir. Əsas mərhələləri, kurikulumun təkamülünü, xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyət dövrləri daxil olmaqla həmçinin xidməti nizamnamə və təlimatları tədqiq etməklə, bu təhlil Azərbaycanda hərbi-mühəndislik təhsilini formalaşdıran pedaqoji aspektlərə dair fikirlər verməyə çalışır.

***Açar sözlər:*** *hərbi təhsil, milli ordu, mühəndislik təhsili, təhsilin tarixi, pedaqoji təhlili, texnoloji təkmilləşmələr, pedaqoji texnologiyalar, pedaqoji innovasiyalar*

**Резюме.** В статье рассматривается проблема формирования обороноспособности и подготовки Вооруженных Сил в системе военно-инженерного образования. Показано, что военно-инженерное образование вооружает военнослужащих необходимыми знаниями и навыками для решения инженерных задач в военных условиях. В статье анализируются исторические проблемы военно-инженерного образования в Азербайджанской Республике, а также его развитие с начала 1990-х годов до новейшего времени. Анализируя основные этапы, эволюцию учебной программы, периоды работы специальных учебных заведений, а также уставы и инструкции службы, данный анализ пытается дать представление о педагогических аспектах, формирующих военно-инженерное образование в Азербайджане.

***Ключевые слова:*** *военное образование, национальная армия, инженерное образование, история образования, педагогический анализ, технологические усовершенствования, педагогические технологии, педагогические инновации*

*Amil Seydəmir oğlu Dadaşov*

**Summary.** The article deals with the problem of forming the defense capabilities and training of the armed forces in the system of military-engineering education. Military engineering education is shown to equip military personnel with the necessary knowledge and skills to solve engineering problems in a military context. The article analyzes the historical problems of military engineering education in the Republic of Azerbaijan, as well as its development from the beginning of the 1990s to recent times. By examining the main stages, the evolution of the curriculum, the periods of operation of special educational institutions, as well as the service regulations and instructions, this analysis tries to provide insights into the pedagogical aspects that shape military engineering education in Azerbaijan.

***Key words:*** *military education, national army, engineering education, history of education, pedagogical analysis, technological improvements, pedagogical technologies, pedagogical innovations*

Azərbaycan Respublikasında həyata keçirilən təhsil islahatlarına dair direktiv və proqram xarakterli sənədlərdə hərbi təhsilin inkişaf etdirilərək təkmilləşdirilməsi beynəlxalq tələblərə uyğun olaraq modernləşdirilməsi günün ən müasir və ən aktual problemlərindən hesab olunur. Hərbi təhsil müəssisələrində təhsilin isə ən mühüm tərkib hissələrindən olan hərbi mühəndislik təhsili müharibə şəraitində yaşayan ölkələr üçün daha önəmli sayılır. Mühəndislik təhsilinin önəmi yeni mühəndis kadrların işğaldan azad edilmiş bölgələrin təmizlənməsi və bərpa quruculuq işlərində icra edilən hər tərəfli mühəndis vəzifələridir.

Müstəqilliyin ilk illərində Azərbaycan öz silahlı qüvvələrinin və milli kadrlar hazırlayan hərbi təhsil müəssisələrinin qurulmasında çoxsaylı çətinliklərlə üzləşdi. Hərbi-mühəndislik təhsili sistemi özünün yeni yaranma mərhələsinə qədəm qoymuşdu. Ölkənin inkişaf edən müdafiə ehtiyaclarını ödəmək üçün ixtisaslaşdırılmış müəssisələrin yaradılmasına zəruri ehtiyac duyulurdu. Bunun üçün Silahlı Qüvvələrin inkişaf etdirilməsi çox vacib idi. Bu dövrdə Azərbaycan Silahlı Qüvvələri infrastrukturun inkişafı, müdafiənin dərinliyində mühəndis işləri üzrə möhkəmlənmə, minatəmizləmə əməliyyatları və döyüş mühəndisliyi vəzifələrini həll etməyə qadir olan mühəndis bölmələrinin formalaşdırılmasına diqqət yetirdi [1].

Hərbi mühəndislərə artan tələbatı ödəmək üçün Azərbaycanda ixtisaslaşdırılmış hərbi təhsil müəssisələri yaradıldı. Bunlara Bakı Ali Birləşmiş komandanlıq məktəbi nəzdində yaradılmış hərbi mühəndis kafedrası, Silahlı Qüvvələrin Akademiyasının hərbi mühəndis hazırlığı kafedrası, Təlim və Tədris mərkəzinin Hərbi Mühəndis hazırlığı kafedrası, Azərbaycan İnşaat Mühəndisləri İnstitutu və Azərbaycan Politexnik İnstitutunun Xüsusi fakültələri hərbi-mühəndislik təhsili vermək üçün yaradılmış qurumlar arasında idi. Bu qurumlar nəzəri bilikləri praktiki tətbiqlə birləşdirərək hərbi tələblərə uyğunlaşdırılmış mühəndislik təcrübəsini inkişaf etdirməyi hədəfləyirdi. O zamanlar Azərbaycanın hərbi-mühəndis təhsili sistemi sovet modelinin təsiri altında idi. Lakin zaman keçdikcə tədris planı Azərbaycan Silahlı Qüvvələrinin xüsusi ehtiyaclarına cavab vermək üçün təkmilləşdirildi. Hərbi mühəndislərin praktiki bacarıqlarını artırmaq üçün ilkin olaraq ixtisaslaşdırılmış mütəxəssislərlə təlim toplanışları keçirilməklə kurslara cəlb edildi. Beləliklə döyüş mühəndisliyi, tikinti mühəndisliyi, minatəmizləmə əməliyyatları və hərbi mühəndislik təminatı üzrə kadr hazırlığı təlim sistemləri yaradıldı.

Azərbaycanda hərbi-mühəndislik təhsilində tətbiq edilən pedaqoji yanaşmalar zaman keçdikcə təkmilləşməyə başladı. Belə ki, dərslərin təşkilinin ümumi prinsipləri və alqoritmi, mühazirə, seminar, qrup və praktiki məşğələlər, təhsilalanların müstəqil işi haqqında məlumatlar, bütün növ dərslərin təşkili, dərs vaxtının bölüşdürülməsi və məşğələnin aparılmasına dair gənc professor-müəllim heyətinə tədris məşğələlərinə hazırlıq və onun təşkili prosesində köməklik üçün yeni tövsiyələrdə yer aldı [2].

Əvvəlcə təlim metodlarına uyğun olan mühazirələr, seminar məşğələləri, təşkil olundu. Sonra isə dərsliklərə və laboratoriya işlərinə əsaslanan məşğələlərə. Bununla belə, praktiki bacarıqlara tələbat artdıqca daha çox praktiki öyrənməyə doğru keçid baş verdi. Sahə məşqləri, simulyasiya təlimləri və təcrübələr kurikulumun ayrılmaz komponentlərinə çevrilərək tələbələrə nəzəri biliklərini real dünya ssenarilərində tətbiq etməyə imkan verdi [3].

Azərbaycanda müstəqilliyin ilk dövründən hazırki zamana qədər xüsusi təyinatlı ali hərbi təhsil müəssisələrinin pedaqoji kadr hazırlığında müxtəlif çətinliklər mövcud olub. Hərbi pedaqoji

fəaliyyətin əsas xüsusiyyəti kimi gənc professor-müəllim heyəti ilə yanaşı təcrübəli pedaqoqlarında peşəkar hazırlıqlarının daimi artırılması istiqamətində bu fəaliyyətin təkmilləşdirilməsi və inkişaf etdirilməsi zəruri vəzifələrdəndir. Belə ki, milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüs və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü, silah və hərbi texnikanı mükəmməl bilən mütəxəssis kadrların hazırlanması tələbləri qarşısında müəllim heyəti hərbi elmi biliklərinin artırılması və bu istiqamətdə daima pedaqoji tələblərə müvafiq hazır olmalıdır [4].

Mühəndislik təlimi üzrə xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin pedaqoji fəaliyyətinin əsas mərhələləri müxtəlif dövrlərdə fərqli yanaşmalarla tətbiq edilib.

Xüsusi təyinatlı hərbi təhsil müəssisələrinin mühəndislik təlimi üzrə fəaliyyətlərinin öyrənilməsinin bəzi çətinliklərinin olmasına baxmayaraq, ümumi olaraq, hərbi mühəndis təhsilinin pedaqoji fəaliyyəti (cədvəl 1), əsasən, illərə görə yeddi inkişaf istiqamətləri üzrə təkmilləşdirilməsi səmərəli həyata keçirilib.

***Cədvəl 1.***
***Azərbaycanda Hərbi-Mühəndislik Təhsilinin əsas inkişaf istiqamətləri***

| İl | Əsas inkişaf istiqamətləri |
|---|---|
| **1991** | Mövcud institutlarda hərbi mühəndislik üzrə fakültələrin yaradılması |
| **1995** | Xüsusi hərbi mühəndislik kurslarının təqdim edilməsi |
| **2000** | Texnologiyaların genişləndirilməsi üçün müəllimələrin hazırlanması |
| **2005** | Xarici orduların hərbi təhsil müəssisələrilə əməkdaşlıq çərçivəsində müxtəlif sahələrdə təcrübə proqramlarının təşkil edilməsi |
| **2010** | Hərbi təşkilatlarda praktiki təlimlər və staj proqramlarının tətbiqi |
| **2015** | Müasir mühəndislik proqramları və simulyasiya alətlərinin daxil edilməsi |
| **2020** | Kibertəhlükəsizlik və rəqəmsal müharibə yetərliklərinə fokuslanma |

2000-ci illərin əvvəllərindən Azərbaycan hərbi mühəndislik təhsili sisteminin modernləşdirilməsində mühüm nailiyyətlər əldə olundu. Azərbaycan Milli Ordunun hərbi Akademiyasında Mühəndislik üzrə fakültənin inkişafı və infrastrukturun yeniləşdirilməsində davamlı təkmilləşdirmələr özünü göstərdi. Bunlarla yanaşı silahlı qüvvələrin təhsil müəssislərinin xüsusi yeni proqramlar, o cümlədən xüsusi simulyasiya təlimləri, geoməkan kəşfiyyatı, hərbi mühəndis təminatı üzrə partlayıcı sursatların zərərsizləşdirilməsi və mülki-hərbi əməkdaşlıq üzrə ixtisaslaşdırılmış kurslar təqdim etdi [5]. Bu əlavələr müasir müharibənin inkişaf edən tələblərinə cavab vermək və mühəndis heyətinin müxtəlif ssenarilərə hazırlığını təmin etmək məqsədi daşıyırdı.

Bundan əlavə, Azərbaycanda hərbi mühəndislik təhsilinin inkişafında beynəlxalq əməkdaşlıq mühüm rol oynamışdır. NATO və digər ölkələrlə tərəfdaşlıq mübadilə proqramları, birgə təlimlər və təlim kursları üçün imkanlar yaratdı. Bu əməkdaşlıq biliklərin ötürülməsini, qabaqcıl texnologiyalarla tanış olmağı və hərbi mühəndislik təhsilində ən yaxşı təcrübələrin öyrənilməsini asanlaşdırdı.

Silahlı qüvvələrin müasir tələblərə artan tələbatını təmin etmək və yeni texnologiyanın hərbi kadrlara mənimsənilməsi istiqamətində hərbi təhsil müəssisələrində təlimin yeni mərhələsinin tətbiqinə yol açdı. Nümunəvi pedaqoji yanaşmalar interaktiv təlim metodlarını, müasir texnologiyalardan istifadəni və layihə əsaslı öyrənməni özündə birləşdirərək inkişaf etməyə davam etdi. Tənqidi təfəkkürün, liderlik bacarıqlarının və uyğunlaşma qabiliyyətlərinin inkişafına diqqət yetirildi. Kibertəhlükəsizlik və informasiya texnologiyaları kimi fənlərin inteqrasiyası mühəndislərin rəqəmsal mühitdə yaranan problemlərini həll etdi.

Azərbaycan hərbi-mühəndislik təhsili sistemini gücləndirmək üçün beynəlxalq əməkdaşlığa da qoşulub. NATO və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq bilik mübadiləsinə, kurikulumun hazırlanmasına və fakültə hazırlığına kömək etmişdir. Belə əməkdaşlıqlar azərbaycanlı hərbi-mühəndis tələbələri və pedaqoqları üçün

bu sahədə qabaqcıl təcrübə və qlobal təcrübədən faydalanmaq üçün imkanlar yaratmışdır [6].

NATO ilə inteqrasiya və Texnologiyanın inkişafı Azərbaycanın xüsusi təyinatlı təhsil müəssisələrinin hərbi-mühəndislik təhsilinin formalaşmasında həlledici rol oynamağa başladı. Kompüter dəstəkli dizayn (KDD), coğrafi informasiya sistemləri (GİS) və virtual reallıq (VR) simulyasiyalarının inteqrasiyası mühəndislik təliminin effektivliyini artırdı. Bu texnoloji vasitələr tələbələrə simulyasiya edilmiş mühitdə praktiki bacarıqları inkişaf etdirməyə, tənqidi düşünmə, problem situasiya və qərar qəbul etmə bacarıqlarını inkişaf etdirməyə imkan verdi [5]. Azərbaycanda hərbi-mühəndislik təhsilinin tarixi əhəmiyyətli irəliləyişlər göstərsə də, onun gələcək inkişafı üçün hələ də həll edilməli olan vəzifələr vardır.

Bu çətinliklərdən bəzilərinə aşağıdakılar daxildir:

*Fakültələrin inkişafı:* Fakültələrin inkişafı deyəndə, inkişaf etmiş ölkələrdə mövcud olan Hərbi İnstitutların fakültələrinin örnək fəaliyyət istiqamətləri nəzərdə tutulur. İxtisaslar üzrə yeni fakültənin yaradılması hərbi-mühəndislik təhsilinin uğuru üçün çox vacibdir. Bacarıqlı təlimatçıları cəlb etmək və saxlamaq üçün davamlı peşəkar inkişaf proqramları üzrə təşviqləri həyata keçirilə bilər. Beynəlxalq institutlarla əməkdaşlıq isə fakültə mübadiləsi proqramlarını asanlaşdıraraq, biliklərin ötürülməsinə və müxtəlif pedaqoji yanaşmalara rəvac verilməsinə şərait yarada bilər.

*Texnoloji təkmilləşdirmələr:* Texnologiya sürətlə irəliləməyə davam etdikcə, hərbi-mühəndislik təhsilinin ən son alətlər və texnikalarla daim yenilənməsi baş verəcək. Müasir avadanlıq, proqram təminatı və simulyasiya texnologiyalarına müntəzəm investisiyalar praktiki təlimin effektivliyini artıracaq və tələbələrin real dünya çağırışlarına hazır olmasını təmin edəcək.

*Kurrikulumun uyğunlaşması:* Hərbi-mühəndislik təhsilinin kurikulumu davamlı olaraq qiymətləndirilməli və inkişaf edən müdafiə ehtiyaclarına uyğunlaşdırılmalıdır. Hərbi ekspertlər, sənaye mütəxəssisləri və digər maraqlı tərəflərlə müntəzəm məsləhətləşmələr kurikulumun aktuallığını və hərbi sektorda yaranan mühəndislik tələblərinə cavab verməsini təmin edə bilər.

*Tədqiqat və innovasiya*: Hərbi-mühəndislik təhsili müəssisələrində tədqiqat və innovasiyaların təbliği və təşviqi hərbi texnologiya və mühəndis hazırlığı üzrə problemlərin həllərində irəliləyişlərə töhfə verə bilər. Tədqiqat mərkəzlərinin yaradılması, akademiya(hərbi institutlar) ilə sənaye arasında əməkdaşlığın gücləndirilməsi o cümlədən tədqiqat nəşrləri, layihələri üçün stimulların təmin edilməsi tələbələr və müəllimlər arasında innovasiya mədəniyyətini stimullaşdıra bilər.

*Beynəlxalq əməkdaşlıq:* Gələcəkdə uzunmüddətli, davamlı beynəlxalq əməkdaşlıq Azərbaycanda hərbi-mühəndislik təhsilinin səmərəli fəaliyyətini genişləndirə bilər. Birgə tədqiqat layihələrində, mübadilə proqramlarında və beynəlxalq konfranslarda iştirak etmək bilik və təcrübə mübadiləsini və müxtəlif təhsil sistemləri və təcrübələri ilə tanış olmağı asanlaşdıra bilər. Bu beynəlmiləlləşmə Azərbaycan hərbi mühəndislərinin qlobal dünyagörüşünü artıracaq və mədəniyyətlərarası anlaşmanı gücləndirəcək.

Azərbaycanda hərbi-mühəndis təhsilinin gələcək perspektivləri ümidvericidir. Silahlı qüvvələrin modernləşdirilməsi üzrə davam edən öhdəliklər, təhsil infrastrukturunun və kurikulumların təkmilləşdirilməsi ilə birlikdə akademik heyətin yüksək peşəkarlıq fəaliyyətini təmin etmək və qabaqcıl hərbi mühəndislik işçi qüvvəsini inkişaf etdirmək əzmini nümayiş etdirir.

Azərbaycan Respublikasında hərbi-mühəndislik təhsilinə rəhbərlik edənlər bu təhsilin müasir tələblərə cavab verən kadrların hazırlığında ən nümunəvi modelini yaratmaq üçün davamlı səylər nümayiş etdirirlər. Onilliklərin pedaqoji mərhələlərində Azərbaycan, Bakı Ali Birləşmiş komandanlıq məktəbi, Politexnik İnstitutu və İnşaat mühəndisləri institutunda başladığı ilk vaxtlardan hazırki Milli Müdafiə Universitetindəki modernləşdirmə təşəbbüslərinə qədər mülki və hərbi mühəndislərin hərtərəfli təhsilini təmin etməyə çalışıb [7]. Əsas pedaqoji yeniliklər əhəmiyyətli vəzifələrin icrası nəticəsində, fənlərarası öyrənmə və texnologiyanın inteqrasiyası, kurikulumun və tədris metodlarının formalaşmasında həlledici rol oynamışdır.

Azərbaycan müdafiə qabiliyyətini inkişaf etdirməyə və gücləndirməyə davam etdikcə, hərbi-mühəndislik təhsili onun silahlı qüvvələrinin təməl daşı olaraq qalacaq. Tarixi trayektoriyanı və pedaqoji yanaşmaları təhlil etməklə biz əldə edilmiş texniki tərəqqini qiymətləndirə və daha da təkmilləşdirə bilərik.

**Nəticə**. Azərbaycan Respublikasında hərbi-mühəndis təhsilinin tarixinin pedaqoji təhlili onun müstəqilliyinin ilk illərindən bu günə qədər mühüm təkamülü üzə çıxarır. İxtisaslaşmış müəssisələrin yaradılması, kurikulumun təkmilləşdirilməsi, praktiki təlimlərin inteqrasiyası, texnoloji irəliləyişlər və beynəlxalq əməkdaşlıqlar möhkəm hərbi-mühəndislik təhsili sisteminin inkişafına kömək etmişdir. Bu sistem hərbi mühəndisləri Azərbaycan Silahlı Qüvvələrinin üzləşdiyi mühəndislik problemlərini həll etmək üçün lazımi bacarıq və biliklərlə təchiz edir. Azərbaycan silahlı qüvvələrini müasirləşdirməyə davam etdikcə, hərbi-mühəndislik təhsilində pedaqoji yanaşmalar milli müdafiənin gələcək tələblərinə cavab vermək üçün innovativ texnika və texnologiyaları əhatə etməklə daha da inkişaf edəcək.

**Problemin aktuallığı.** Azərbaycan Respublikasında hərbi mühəndislik təhsilinin tarixi sovet dövründən ilhamlanmış modeldən daha yeni, praktik və interaktiv yanaşmaya doğru dinamik pedaqoji təkamül nümayiş etdirir. Buda dissertasiya işinin mövzusunu daha da aktuallaşdırır.

**Problemin elmi yeniliyi.** Azərbaycan Respublikasında hərbi-mühəndis təhsilinin tarixinin pedaqoji təhlili onun müstəqilliyinin ilk illərindən bu günə qədər mühüm təkamülü üzə çıxarır. İxtisaslaşmış müəssisələrin yaradılması, kurikulumun təkmilləşdirilməsi, praktiki təlimlərin inteqrasiyası, texnoloji irəliləyişlər və beynəlxalq əməkdaşlıqlar möhkəm hərbi-mühəndislik təhsili sisteminin inkişafında səmərəli olmuşdur. Bu sistem hərbi mühəndisləri Azərbaycan Silahlı Qüvvələrinin üzləşdiyi mühəndislik problemlərini həll etmək üçün lazımi bacarıq və biliklərlə təchiz etməsi, mühəndislik üzrə kadrların hazırlanmasında mühüm rol oynayır. Bu tədqiqatın məqsədi ölkənin müdafiə sahəsindəki əldə olunan müstəsna nailiyyətlərinə diqqət yetirərək, Azərbaycan Respublikasında hərbi – mühəndis təhsilinin tarixi aspektlərinin təhlil etməkdir.

**Problemin praktik əhəmiyyəti**. Problemim məzmunu, orada yer alan fikirlər, əsas elmi ideyalar və tədqiqatın nəticələri hərbi ali təhsil müəssisələrinin bakalavriat, magistratura pilləsində təhsil alan tələbələr, doktorantlar və hərbi institutun müəllimləri üçün xüsusi əhəmiyyət kəsb edir.

### Ədəbiyyat:


1. Azərbaycan Respublikası Müdafiə Nazirliyi. Mühəndis qoşunları hissə və bölmələrinin döyüş hazırlığı proqramı. – Bakı: Hərbi nəşriyyat, – 2007. – 360 s.
2. Piriyev, H.K., Həmidov, M.P., Həşimov, E.Q. Hərbi təhsildə təlim metodları. Metodik vəsait // – Bakı: Hərbi nəşriyyat, – 2017, – 52 s.
3. Sadıqov, F.B. Ümumi pedaqogika. / F.B. Sadıqov. – Bakı: Maarif, – 2023, – 852 s.
4. Piriyev, H.K., Həşimov, E.Q., Talıbov, Ə.M. Xüsusi təyinatlı ali təhsil müəssisələri üçün pedaqoji kadr hazırlığının bəzi məsələləri / Hərbi bilik. – 2014, № 4, – s. 3-9
5. Ağayev, Ş.O., Talıbov, Ə.M., Həşimov, E.Q. Hərbi təhsildə müasir pedaqoji texnologiyalar. Fənn proqram // – Bakı: Hərbi nəşriyyat, – 2016, – 28 s.
6. Həşimov, E.Q.NATO ölkələrində hərbi təhsilin konseptual əsasları / Hərbi bilik. – 2010, № 6,
7. https://mod.gov.az/az/azerbaycan-ordusunun-herbi-elm-ve-tehsil-sistemi-326/


**E-mail:** amilodas@gmail.com

**Rəyçilər:** *ped.elm.dok., prof.* **F.B. Sadıqov,**
*biol.ü.fəls.dok.,* ***Q. Əliyev***
**Redaksiyaya daxil olub:** 17.10.2023

# *AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATIN TƏDRİSİ METODİKASI*
# *МЕТОДИКА ПРЕПОДАВАНИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА И ЛИТЕРАТУРЫ*
# *METHODS OF TEACHING AZERBAIJANI LANGUAGE AND LITERATURE*

*UOT 372.8*

***Aygün Rahil qızı Əzizova***
*Salyan şəhər 2 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi*
*https://orcid.org/0009-0004-8953-6561*

## AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATI DƏRSLƏRİNDƏ PROBLEM ƏSASLI TƏLİMİN YARADILMASI VƏ ONUN MAHİYYƏTİ

***Айгюн Рахиль гызы Азизова***
*учитель Азербайджанского языка и литературы*
*полной средней школы №2 города Сальяны*

## СОЗДАНИЕ И СУЩНОСТЬ ПРОБЛЕМНОГО ОБУЧЕНИЯ НА УРОКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА И ЛИТЕРАТУРЫ

***Aygun Rahil Azizova***
*the teacher of Azerbaijani language and literature*
*of secondary school No. 2 in Salyan city*

## CREATION OF PROBLEM-BASED LEARNING IN AZERBAIJAN LANGUAGE AND LITERATURE LESSONS AND ITS ESSENCE

**Xülasə.** Tədrisə problemli yanaşma təhsil prosesinin bütün mərhələlərində məktəblilərin biliklərini mənimsəmə şüurunu və gücünü artırmaq, uşaqların təfəkkürünü inkişaf etdirmək, ətrafdakı reallığa öz fəal münasibətini inkişaf etdirmək üçün böyük potensiala malikdir. Problem əsalı öyrənmə və ya problemin həlli aktı yeni öyrənmə üsulu deyil. Tarix boyu Problemli Tədris Strategiyasının primitiv nümunələrini görmək mümkündür. Aristoteldən başlayaraq, Sokrata qədər uzanan bir istifadə yolu diqqətimizi çəkir. Sokrat ilk çağda bu üsuldan ən səmərəli şəkildə istifadə etmişdir. Problem əsaslı öyrənmə, problemin həllini gətirdiyi üçün yüksək səviyyəli zehni bacarıqlar tələb edən öyrənmə nəzəriyyəsidir.

***Açar sözlər:*** *problemli təlim, motivasiya, maraq, şagird, problem əsaslı öyrənmə, bacarıq, vərdiş, ziddiyyət*

**Резюме.** Проблемный подход в обучении создает большие возможности для повышения осознанности и способности усваивать знания школьников на всех этапах образовательного процесса. Он также способствует формированию мышления детей, развивает их активное отношение к окружающей действительности. Проблемное обучение, или акт решения проблем, не является новым способом обучения. На протяжении всей истории можно увидеть примитивные примеры стратегии проблемно-ориентированного обучения. Начиная с Аристотеля и заканчивая Сократом, наше внимание привлекает способ употребления. Сократ наиболее эффективно использовал этот метод в ранние века. Проблемное обучение — это теория обучения, которая требует умственных навыков высокого уровня, поскольку предполагает решение проблем.

***Ключевые слова:*** *проблемное обучение, мотивация, интерес, ученик, обучение на основе проблемы, умение, навык, противоречие*

**Summary.** The problem-based approach to teaching has a great potential to increase the awareness and power of acquiring knowledge of schoolchildren at all stages of the educational process, to develop children's thinking, to develop their active attitude to the surrounding reality. Problem-based learning, or the act of problem solving, is not a new way of learning. Throughout history, primitive examples of the Problem-Based Learning Strategy can be seen. Starting from Aristotle and extending to Socrates, a way of usage draws our attention. Socrates used this method most effectively in the early ages. Problem-based learning is a learning theory that requires high-level mental skills because it involves problem solving.

***Key words:*** *problem-based learning, motivation, interest, learner, problem-based learning, skill, habit, conflict*

Problemli təlim – "zehni əməliyyatların məntiqi (təhlil, ümumiləşdirmə və s.) və şagirdlərin axtarış fəaliyyətinin qanunauyğunluqları (problemli vəziyyət, idrak marağı, ehtiyac) nəzərə alınmaqla qurulan təlim və təlim üsullarının tətbiqi qaydaları sistemidir. Ona görə də bu, hər şeydən çox şagirdin təfəkkür qabiliyyətinin inkişafını, əqidəsinin formalaşmasını təmin edir. Problemli təlimin mahiyyəti müəllimin məktəblilərin təlim-tərbiyə işində problemli situasiyaları təşkil etməsindən və təhsil problemlərini, tapşırıqlarını və suallarını həll etməklə yeni biliklərin əldə edilməsində onların idrak fəaliyyətini idarə etməsindən ibarətdir. Bu bilik əldə etmək üçün axtarış yoludur. Tədrisə problemli yanaşma təhsil prosesinin bütün mərhələlərində şagirdlərin biliklərini mənimsəmə şüurunu və gücünü artırmaq, onların təfəkkürünü inkişaf etdirmək, ətrafdakı reallığa öz fəal münasibətini inkişaf etdirmək üçün böyük potensiala malikdir.

Problemli öyrənmənin məqsədləri asağıdakılardır:

1. Şagirdlərin təfəkkür və yaradıcılıq bacarıqlarının inkişafı;

2. Şagirdlərin fəal axtarış və müstəqil problem həlli yolu ilə əldə etdikləri bilik və bacarıqları mənimsəməsi, nəticədə bu bilik və bacarıqlar ənənəvi təlimdən daha güclüdür;

3. Şagirdlərdə qeyri-standart problemləri görə, yarada və həll edə bilən fəal yaradıcı şəxsiyyətin yetişdirilməsi;

4. Təhsilin bütün iştirakçılarının motivasiyasının öyrənilməsi, əldə edilmiş bilikləri yeniləmək, möhkəmləndirmək və ümumiləşdirmək bacarığı, yeni biliklərin müstəqil qurulması;

5. Müzakirə mədəniyyətinin mənimsənilməsinə, öz dəyər mühakimələrini ifadə etmək və öz nöqteyi-nəzərini mübahisə etmək bacarığına, təhsil fəaliyyətinin özünü qiymətləndirmə və özünü təhlil etmə bacarıqlarının formalaşmasına kömək etmək və problemə vahid baxış yaratmaq.

6. Müstəqil fəaliyyət bacarıqlarının, kollektiv iş bacarıqlarının, kollektiv icmanın inkişafı.

Problemli təlim zamanı müəllim şagirdlərin tədris və idrak fəaliyyətini elə təşkil edir ki, faktların təhlili əsasında onlar təhsil çətinliklərini müstəqil həll etməyə, nəticə və ümumiləşdirmələr aparmağa, qaydalar formalaşdırmağa, əldə etdikləri bilikləri tətbiq etməyə çalışsınlar. Bəzi hallarda müəllim yalnız şagirdlərin marağını oyatmaqla yanaşı, problemi və ya tapşırığını özü həll edir, digərlərində isə onların həlli üçün uşaqların müstəqil işinə rəhbərlik edir. Nəticədə məktəblilərdə zehni fəaliyyət, biliklərin ötürülməsi, diqqət, təxəyyül, iradə, fərziyyələr irəli sürmək və sübut etməklə müstəqil bilik əldə etmək və əqli fəaliyyətin yeni yollarını tapmaq bacarığı formalaşır.

Lev Tolstoy deyirdi: "Bilik yalnız yaddaşla deyil, düşüncələrinin səyi ilə əldə edildikdə bilikdir".

Problemli təlimdə şagirdlər problemli situasiyada müəllimin izahatını qavramaqla, öyrəndiklərini müstəqil təhlil etməklə, fərziyyələr irəli sürməklə və onları sübut etməklə, habelə onların düzgünlüyünü yoxlamaqla təhsil problemlərini formalaşdırır və həll etməklə bilik və zehni fəaliyyət metodlarına yiyələnirlər.

Hazırda problemli təlim təhsilin məzmununda, yeni dərsliklərdə və kurikulumlarda öz əksini tapır. Azərbaycan dili və ədəbiyyatı fənni üzrə müasir dərsliklər şagirdlərin düşünərək oxumaq, dərsliklərlə müstəqil işləmək bacarığını inkişaf etdirmək üçün mühüm vasitədir, problemli suallar və tapşırıqlar mənbəyidir.

Dərsliklə işləyərkən şagirdlərin idrak müstəqilliyini inkişaf etdirmək üçün onlara mətndəki əsas, vacib şeyləri vurğulamağı öyrətmək mütləqdir. Materialı çeşidləmək, məlumat və problemli

suallara cavab vermək, plan, tezislər, qeydlər tərtib etmək. Məktəblilərə əqli inkişafına, onların idrak müstəqilliyinin formalaşmasına kömək edən və müstəqil işin təhsil prosesində yeri genişləndikcə getdikcə daha çox zəruri olan özünü idarə etməyi və özünü yoxlamağı öyrətmək çox vacibdir.

Problemli vəziyyətdə şagirdin məhsuldar idrak fəaliyyətinin müəyyən bir ardıcıllığı vardır: Problemli vəziyyət – problem – onun həlli yollarının tapılması – problemin həlli.

Problemli vəziyyətin yaranmasından problemin həllinə qədər zehni hərəkətlərin tam dövrü bir neçə mərhələdən ibarətdir:

1. problemli bir vəziyyətin ortaya çıxması;
2. çətinliyin mahiyyətini dərk etmək və problemin formalaşdırılması;
3. təxmin etmək və ya fərziyyələr irəli sürməklə və fərziyyəni əsaslandırmaq yolu ilə həll yolu tapmaq;
4. hipotezin sübutu;
5. problemin həllinin düzgünlüyünün yoxlanılması.

Problemli vəziyyətlərin yaradılması üçün bir çox metodik üsullar var:

- müəllim şagirdləri ziddiyyətə gətirir və onları özləri həll etmək üçün bir yol tapmağa dəvət edir;
- praktik fəaliyyətdə ziddiyyətlərlə üzləşir;
- eyni məsələyə fərqli baxışlar təqdim edir;
- sinfi fenomeni müxtəlif mövqelərdən nəzərdən keçirməyə dəvət edir;
- şagirdləri situasiyalardan müqayisə, ümumiləşdirmə, nəticə çıxarmağa, faktları müqayisə etməyə həvəsləndirir;
- ümumiləşdirmə, əsaslandırma, konkretləşdirmə, əsaslandırmanın məntiqi üçün konkret suallar qoyur;
- problemli nəzəri və praktiki vəzifələri müəyyən edir.

Dərslərimdə problemli vəziyyətlər yaratmaq üçün aşağıdakı üsullardan istifadə edirəm:

– Şagirdləri ziddiyyətə gətirirəm və onları həll etmək üçün bir yol tapmağa dəvət edirəm;
– Şagirdləri situasiyadan müqayisə, ümumiləşdirmə, nəticə çıxarmağa, faktları müqayisə etməyə;
– Ümumiləşdirmə, əsaslandırma, dəqiqləşdirmə, əsaslandırma məntiqi üçün xüsusi suallar verirəm;
– Mətn əsasında tədqiqat tapşırıqları verirəm.

Beləliklə, məsələn, Azərbaycan dili dərslərində yeni materialı izah edərkən mən şagirdlərin qarşısına problem qoyuram, şagirdlərlə birlikdə bu problemin həlli alqoritmi hazırlanır, bundan sonra şagirdlər müstəqil olaraq düzgün həll yollarını axtarır və seçimlərini qiymətləndirirlər. Materialın problemli təqdimatı, şagirdləri onlar üçün mümkün həll yollarının tapılmasına cəlb etməklə, onların fəallığını daim artırır, biliklərin daha yaxşı mənimsənilməsinə və praktiki tətbiqinə kömək edir.

Problemli vəziyyətlərin yaradılması qaydaları:

1. Problemli vəziyyət yaratmaq üçün şagirdlərə praktiki və ya nəzəri tapşırıq verilməlidir ki, onun həyata keçirilməsi yeni biliklərin kəşf edilməsini və yeni bacarıqların mənimsənilməsini tələb edir, burada ümumi qanunauyğunluqdan, ümumi fəaliyyət üsulundan və ya fəaliyyətin həyata keçirilməsinin ümumi şərtlərindən danışmaq olar.

2. Tapşırıq şagirdin intellektual imkanlarına uyğun olmalıdır. Problemli tapşırığın çətinlik dərəcəsi tədris materialının yenilik səviyyəsindən və onun ümumiləşdirmə dərəcəsindən asılıdır.

3. Öyrənilən material izah edilməzdən əvvəl problem tapşırığı verilir.

4. Eyni problemli vəziyyətə müxtəlif növ tapşırıqlar ola bilər.

5. Müəllim şagirdə verilən praktiki tapşırığı yerinə yetirməməsinin səbəblərini və ya müəyyən faktların ona izah edilməsinin mümkünsüzlüyünü göstərməklə çox çətin problemli situasiyaya rəhbərlik edir.

**Problemin aktuallığı.** İlk növbədə mövzunun aktuallığını üzə çıxarmaq, öyrənilməsi zərurətini mərkəz mövqeyə gətirmək üçün problemli vəziyyətin yaradılması əsasdır. Problemli vəziyyətin gərginlik dərəcəsi müəllimin fantaziyasından, şagirdlərlə ünsiyyət qurmaq bacarığından, vəziyyətdən çıxmaq üçün manevr etmə cəhdlərinin çevikliyindən, sərbəstliyindən, işgüzarlığından və s. şəxsi amillərdən asılıdır.

**Problemin elmi yeniliyi.** Cəmiyyətin müasir inkişaf mərhələsində təhsil izahlı və illüstrativ üsullardan kənara çıxaraq yeni yanaşmalar axtarır. Yaradıcı təfəkkürün inkişafı və müəllim və şagirdin subyekt-subyekt münasibətindən irəli gələn şüurlu fəaliyyət kimi təfəkkür mədəniyyətinin formalaşdırılması kimi pedaqoji vəzifələr ön plandadır.

**Problemin praktik əhəmiyyəti**. Motivasiya yaradarkən müəllimin məqsədi şagirdlərin idrakı

fəallığını artırmaq, tədris olunan fənnə və öyrəniləcək dərsin məzmununa maraq yaratmaq, şagirdin müstəqil tədqiqat və axtarış aparmaq üçün açılan imkanı qiymətləndirmək həvəsini oyatmaqdır.

**Ədəbiyyat:**


1. Ümumtəhsil səviyyəsində yeni dövlət proqramları (kurikulumları). – Bakı, 2013
2. Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. – Bakı: Pedaqogika, – 2004.
3. İnteqrativ kurikulum: Mahiyyəti və nümunələr. Müəllimlər üçün vəsait (müəllif qrupu). – Bakı, 2005 (İREX təşkilatının xətti ilə).
4. H. Araslı. Azərbaycan ədəbiyyatı: Tarixi və problemləri. – Bakı: Bilik nəşriyyatı, – 1991.
5. Məmmədzadə, R.H. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi / R.H. Məmmədzadə. – Bakı: Müəllim, – 2010.


**E-mail:** ezizoovaaygun@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **A.X. Hacıyev,**
*ped.ü.fəls.dok.* **Ə.Ə. Gərayev**
**Redaksiyaya daxil olub:** 17.11.2023

## *RİYAZİYYATIN TƏDRİSİ METODİKASI*
## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ МАТЕМАТИКИ*
## *METHODS OF TEACHING MATHEMATICS*

*UOT 372.851*

***Musa Tapdıq oğlu Rzayev***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
*https://orcid.org/0000-0002-5141-177X*

***Fidan Üzeyir qızı Hacıyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitet*

# KOMPLEKS ƏDƏD ANLAYIŞININ MƏKTƏB RİYAZİYYAT TƏLİMİNDƏ VERİLMƏ ÜSULLARI

***Муса Тапдыг оглы Рзаев***
*старший преподаватель Азербайджанского государственного педагогического университета*

***Фидан Узеир гызы Гаджиева***
*Азербайджанский государственный педагогический университет*

# МЕТОДИКА ОБУЧЕНИЯ ПОНИМАНИЮ КОМПЛЕКСНЫХ ЧИСЕЛ В ШКОЛЬНОМ ОБУЧЕНИИ МАТЕМАТИКЕ

***Musa Tapdıq Rzayev***
*senior lecturer at Azerbaijan State Pedagogical University*

***Fidan Uzeyir Hajiyev***
*Azerbaijan State Pedagogical University*

# METHODS OF TEACHING THE UNDERSTANDING OF COMPLEX NUMBERS IN SCHOOL MATHEMATICS TRAINING

**Xülasə.** Məktəb riyaziyyatı təlimində öyrənilən ədədlərdən biri də kompleks ədəd anlayışıdır. Kompleks ədəd anlayışı son dövrlərdə fənn kurikulumuna daxil edildiyi üçün bu anlayışın araşdırılması vacib amillərdən biridir. Məqalədə ədəd anlayışı və onun genişləndirilməsi yolları ətraflı şəkildə şərh edilmişdir. Kompleks ədədlərin daxili və xarici strukturu nümunələr əsasında araşdırılıb. Məqalədə verilən nümunələr praktik təcrübəyə əsaslanmışdır.

***Açar sözlər:*** *kompleks ədəd, ədəd anlayışı, funksiya, çoxluq, riyazi əməl, münasibət, cins və növ, ardıcıllıq, limit, kəmiyyət, tənlik, koordinat oxu*

***Резюме:*** Одним из чисел, изучаемых в школьной математике, является понятие комплексных чисел. Концепция комплексных чисел в последнее время была включена в учебную программу по предметам, это является одним из важных факторов для изучения этой концепции. В статье подробно описано понятие числа и способы его расширения. На основе примеров исследовано внутреннее и внешнее строение комплексных чисел. Примеры, основаны на практическом опыте.

***Ключевые слова***: *комплексное число, понятие числа, функция, множество, математическое действие, связь, род и вид, последовательность, предел, количество, уравнение, ось координат*

***Summary:*** One of the numbers studied in school mathematics education is the concept of a complex number. The concept of complex numbers has become an important topic to explore, especially since it was recently included in the subject curriculum. The article provides a detailed explanation of the concept of numbers and methods of its expansion. The internal and external structures of complex numbers have been investigated based on examples. The examples provided in the article are based on practical experience.

***Key words:*** *complex number, concept of number, function, set, mathematical operation, relationship, genus and species, sequence, limit, quantity, equation, coordinate axis*

Məktəb riyaziyyat təlimində ədəd anlayışının konsentrlər üzrə verilməsi mühüm əhəmiyyət kəsb edir. Ədəd anlayışının genişləndirilməsi riyaziyyat elminin inkişafı ilə əlaqədardır. Belə ki, əvvəllər insanlar ədəd haqqında təsəvvürləri fikrən formalaşdırmaq üçün çöplərdən, daşlardan, iplərə düyün vurmaqdan və s. istifadə etmişlər. Sayma haqqında təsəvvürlər tam formalaşdıqdan sonra, ədədlər üzərində hesab əməllərinin öyrənilməsinə zərurət yaranmışdır. Yaranan zərurət ədədlərin daha da genişləndirilməsinə səbəb yaradırdı.

Qeyd etmək lazımdır ki, ədəd anlayışının riyaziyyat elminə daxil edilməsi iki səbəbdən irəli gəlmişdir:

1) İnsanların yaşayış tərzləri- riyaziyyatın yaranması və inkişafını zəruri etmişdir;

2) Riyaziyyat elminin daxili strukturunun ödənilməsi və bununla da riyaziyyatın inkişaf etdirilməsi.

Orta ümumtəhsil məktəblərinin riyaziyyat təlimində ədəd anlayışının genişləndirilməsi zamanı müəyyən tələblər gözlənilməlidir ki, bunları araşdırmaq üçün aşağıdakı nümunəni nəzərdən keçirək.

Tutaq ki, hər hansı $A$ ədədlər çoxluğu verilmişdir və bu çoxluğu $B$ ədədlər çoxluğu qədər genişləndirmək lazımdır. Bunun üçün aşağıdakı hallara diqqət yetirək:




1)   ədədlər çoxluğu $B$ ədədlər çoxluğunda alt çoxluq olmalıdır. Yəni   $\subset B$

2) $B$ çoxluğuna daxil olan əsas münasibətlərə və əməllərə verilən təriflər, eyni zamanda $A$ çoxluğunun elementləri üçün bu çoxluğu genişləndirənə qədər tətbiq edilən əməl və münasibətlərə verilən təkliflərlə üst-üstə düşməlidir.

3) Verilmiş   çoxluğunda müəyyən məhdudiyyətlə yerinə yetirilən əməl (və ya yerinə yetirilməsi mümkün olmayan əməl) eyni zamanda $B$ çoxluğunda da yerinə yetirilən əməl olmalıdır.

4) Genişləndirilmiş   ədədi çoxluğunun genişləndirildiyi $B$ ədədi çoxluğu arasında elə $C$ aralıq çoxluq olmalıdır ki, bu çoxluq ilk üç tələbi ödəsin.

Riyaziyyatda təcrübi xarakterli elə məsələlərə təsadüf edilir ki, bu məsələlərin həlli yeni növ ədədin daxil edilməsini zəruri edir.

Üçüncü tələb gozlənilmədikdə bu tip məsələləri həll etmək mümkün olmur və nəticədə ədədi çoxluğun genişləndirilməsinin əsas məqsədlərindən biri aşkar şəkildə görünmür. Beləliklə, üçüncü tələbin müəyyən məqsəd daşıdığı aydın olur.

Məsələ 1. Natural ədədlər çoxluğunda çıxma əməli həmişə mümkün deyil mühakiməsini nəzərdən keçirək.

$N$ natural ədədlər çoxluğunu $Z$ tam ədədlər çoxluğuna qədər genişləndirsək, onda çıxma əməlinin yerinə yetirilməsi həmişə mümkün olar. Deməli, $Z$ tam ədədlər çoxluğunun qurulmasında məqsəd heç bir məhdudiyyət olmadan çıxma əməlinin yerinə yetirilməsinin həmişə mümkün olması zərurətini aydınlaşdırmaqdır.

Məsələ 2. Tam ədədlər çoxluğunda bölmə əməlinin yerinə yetirilməsi həmişə mümkün deyil.

Əgər $Z$ tam ədədlər çoxluğunu $Q$ rasional ədədlər çoxluğuna qədər genişləndirsək, yəni tam ədədlər çoxluğu ilə kəsr ədədlər çoxluğunu birləşdirsək, sıfıra bölmə əməlindən başqa (sıfıra bölmənin mümkün olmadığına görə) bölmə əməlinin yerinə yetirilməsi həmişə mümkün olar. Deməli, tam ədədlərin rasional ədədlər çoxluğuna qədər genişləndirilməsində əsas məqsədlərdən biri bölmə əməlinin yerinə yetirilməsinin (sıfıra bölməkdən başqa) həmişə mümkün olmasıdır.

Bu ardıcıllığı $Q$ rasional ədədlər çoxluğunun $R$ həqiqi ədədlər çoxluğuna genişləndirilməsi üçün izah edək.

$Q$ rasional ədədlər çoxluğunun $R$ həqiqi ədədlər çoxluğuna tamamlanmasının əsas məqsədlərindən biri ədədi ardıcıllığının limitinin varlığı və müsbət ədədlər üzərində kökalma əməlinin yerinə yetirilməsinin həmişə mümkün olmasıdır. Çünki, hesabi kvadrat kök alma anlayışı mənfi olmayan ədədlər üzərində öyrənilir. Buradan da aydın olur ki, kompleks ədədlər çoxluğu heç bir məhdudiyyət qoymadan kökalma əməlinin yerinə yetirilməməsi deməkdir.

Yuxarıda qeyd edilən dördüncü tələbə əməl edilmədikdə ədəd anlayışının genişləndirilməsi prosesində bir sıra mürəkkəb nəzəri və təcrübi məsələlərin həlli ilə qarşılaşmalı oluruq.

Aparılan araşdırmanın nəticəsi olaraq, ədəd anlayışını aşağıdakı üsullardan istifadə edərək genişləndirilməsi nəzərdə tutulur:

a) $B$ çoxluğu $A$ çoxluğundan təcrid olunmuş şəkildə qurulur, sonra $B$ çoxluğunun 1-4 tələblərinin ödənildiyi müəyyən edilir.

b) Məlum $A$ ədədlər çoxluğu yeni $C$ çoxluğu ilə 1-4 tələblərini ödəyən $B = A \cup C$ çoxluğuna tamamlanır.

Yuxarıda aparılan mühakimələr kompleks ədədlərin yaranması ilə yekunlaşdırıldı. Kompleks ədədlərin yaranması XVI- XVII əsrlərə təsadüf edilir. Belə ki, bu dövrdə bir sıra alimlər bəzi tənliklərin həllində çətinliklərlə rastlaşırdılar, yəni $x^2 + 4 = 0$ tənliyinin həqiqi ədədlər çoxluğunda həllinin olmadığını müəyyən etdilər.

Ona görə də Hind riyaziyyatçıları həqiqi kökü olmayan kvadrat tənlikləri həlli olmayan tənliklər adlandırdılar və onları etinasız buraxdılar. XVI əsrə qədər digər ölkələrin alimləri də tənliklərin həqiqi olmayan köklərinin izahını verə bilmədikləri üçün onları yalan köklər elan etdilər. Onu da qeyd edək ki, kvadrat tənliklərin həlli ilə hələ qədim vavilonlular və yunanlar da məşğul olmuşlar. Lakin onlarda mənfi ədəd anlayışı olmadığına görə yalnız müsbət köklərlə kifayətlənmişlər. Kvadrat kök və mənfi ədəd anlayışları ilk dəfə Hind alimlərində formalaşdığından onlar kvadrat tənliklərin həlli zamanı birinci olaraq xəyali köklərlə qarşılaşmışlar. Yalnız orta əsr Avropa riyaziyyatçıları cəbri aparatların köklərlə və simvolların təkmilləşdirilməsi istiqamətində bir sıra mühüm nailiyyətlər əldə etməyə başladılar.

XVI-XVII əsr riyaziyyatçılarının kompleks köklərə baxışları müxtəlif idi. Bəziləri onu “xəyali”, bir çoxları “saxta”, “əhəmiyyətsiz” və s. adlandırırdılar. Dekart özünün analitik həndəsəsini yaradarkən belə köklərə xüsusi yer verirdi. O yazırdı: “Əgər çevrə parabolanı heç bir nöqtədə kəsmirsə və ona toxunmursa, bu o deməkdir ki, tənliyin nə həqiqi, nə də yalan kökləri vardır”. Bu köklərin hamısı “təsəvvür olunan”dır.

“Yalan” köklər dedikdə Dekart mənfi kökləri, “təsəvvür olunan” adı altında isə kompleks kökləri nəzərdə tuturdu. Onu da qeyd edək ki, həqiqi ədədləri ədəd oxunun parçaları ilə eyniləşdirən Dekart hesab edirdi ki, kompleks ədədlərin heç bir real izahını vermək mümkün deyil və onlar əbədi olaraq ancaq “təsəvvür olunan”, yaxud “xəyali” olaraq qalacaqlar.

Maraqlıdır ki, belə baxışlara o dövrün Nyuton və Leybnis kimi dahi riyaziyyatçıları da tərəfdar çıxırdılar. XVII əsrdə yalnız Vallis özünün “Cəbr, tarix və praktik trakt”ında xəyali ədədlərin həndəsi izahının mümkünlüyünü göstərməklə, hətta hazırda həqiqi ox adlandırdığımız düz xəttə perpendikulyar düz xətlərin köməyilə bu ədədlərin toplanması və çıxılması əməllərini də izah etməyə cəhd göstərmiş, lakin hələ xəyali vahid anlayışı daxil edilmədiyindən onu başa çatdıra bilməmişdir. Ancaq bu cəhd düz bir əsr kölgədə qaldı və demək olar ki, unuduldu.

Beləliklə, əvvəllər kvadrat tənliklərin həlli ilə meydana çıxan ədədlər öz inkişafı gedişində həqiqi və sırf xəyali ədəd anlayışlarını ümumiləşdirərək kompleks ədəd kimi yeni bir anlayışla əvəz edildi. Bu şəkildə ədədlər üçün də əvvəlcədən məlum olan əməl qanunları öz gücündə qalırdı.

Kompleks ədəd anlayışının inkişaf prosesi digər bir çox riyazi anlayışların təkamülü üçün də xarakterikdir.

Beləliklə, qeyd edə bilərik ki, kompleks ədədlər çoxluğunda bir sıra məsələlərin həlli üçün imkanlar genişlənir və gələcək nəslin inkişafına təkan verir.

**Problemin aktuallığı.** Orta ümumtəhsil məktəblərinin riyaziyyat təlimində tətbiq edilən fənn kurikulumunu nəzərə alaraq kompleks ədəd anlayışının daxil edilməsi, verilmə üsullarında müxtəlif təlim metodlarından istifadə və fəndaxili anlayış əlaqələri əsasında tədrisi şagirdlərin nəzəri materialın dərindən dərk edilməsinə müsbət təsir göstərir.

**Problemin elmi yeniliyi.** Riyaziyyat təli-mində müasir təlim metodlardan istifadə edərək kompleks ədədlər və onlar üzərində əməllərin öyrədilməsi şagirdlərin elmi-praktik vərdişlərinin yüksəldilməsinə, onların gələcək təhsillərini uğurla həyata keçirməsinə və yaxud mənimsəmənin optimallığını təmin etməyə müsbət təsir edir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə, orta məktəb müəllimləri, magistrlər, şagirdlər və tələbələr üçün faydalıdır.

**Ədəbiyyat:**


1. Hüseynov, Ə.Ə. Ehtimal nəzəriyyəsi və riyazi statistika / Ə.Ə. Hüseynov, S.Y. Qasımov – Bakı: Çaşıoğlu, – 2006. – 420 s.
2. Məmmədov Ə.M. Ehtimal nəzəriyyəsi. – Bakı, 1981. – 48 s.
3. Rumşinski Z. Ehtimal nəzəriyyəsinin elementləri. – Bakı, 1982. – 167 s.
4. Şahbazov, Ə.Ə. Ehtimal nəzəriyyəsi və riyazi statistika. / Ə.Ə. Şahbazov. – Bakı: Maarif, – 1973. – 277 s.
5. Vəliyev B. Ehtimal nəzəriyyəsi nədir? – Bakı, 1967. – 86 s.
6. Горяинов В.Б. Математическая статистика. – М.: Изд-во МГТУ им. Баумана, – 2002. – 125 с.
7. Соколов, Г.А. Математическая статистика. / Г.А. Соколов, И.М. Гладких – М.: Экзамен, – 2004. – 245 с.
8. Гарисови, О.Б. Основы математической статистики. Учебное пособие. / О.Б. Гарисови, Т.Ф. Хромова, А.Е. Шиболкин. – М.: Издательство: МСХА, – 2004. – 316 с.


**E-mail:** fidansuleymanova0016@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **N.B. Nəsirov,**
*ped.ü.fəls.dok.* **C.N. Abdullayeva**
**Redaksiyaya daxil olub:** 18.10.2023

UOT 372.851

**Əhməd Nüsrət oğlu Məmmədov**
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Bakı Qızlar Universitetinin dosenti,*
*https//orcid (0009-0004-4475-9681)*

# RİYAZİ ANALİZ KURSUNDA ÇOXDƏYİŞƏNLİ FUNKSİYANIN ŞƏRTİ VƏ MÜTLƏQ EKSTREMUMLARININ ÖYRƏNİLMƏSİNDƏ KONTRMİSALLARDAN İSTİFADƏ

**Ахмед Нусрат оглы Мамедов**
*доктор философии по педагогике,*
*доцент Бакинского университета для девушек*

# ИСПОЛЬЗОВАНИЕ КОНТРОПРИМЕРОВ ПРИ ИЗУЧЕНИИ УСЛОВНЫХ И АБСОЛЮТНЫХ ЭКСТРЕМАЛЬНЫХ МАТЕМАТИЧЕСКИХ ФУНКЦИЙ В КУРСЕ МАТЕМАТИЧЕСКОГО АНАЛИЗА

**Ahmed Nusrat Mammadov**
*doctor of philosophy in pedagogy*
*associate professor of Baku Girls' University*

# USING COUNTEREXAMPLES IN THE STUDY OF CONDITIONAL AND ABSOLUTE EXTREMA OF A MULTIVARIABLE FUNCTION IN A MATHEMATICAL ANALYSIS COURSE

**Xülasə.** Təqdim olunan iş Ali pedaqoji məktəblərin Riyazi analiz kursunun ən fundamental bölmələrindən birinə həsr olunub: Çoxdəyişənli funksiyaların diferensial hesabı. Bu bölmədə funksiyanın şərti və mütləq ekstremumlarının öyrənilməsində qurulan kontrmisallardan istifadə metodlarından bəhs olunur. Bu bölmədə teorem və təkliflərdə ekstremumların tədqiqində mütləq və şərti ekstremumları arqumentlərin əlavə şərt daxilində (rabitə tənliyini ödəməklə) ekstremumların tapılması və istiqamətdə qurulan kontrmisallar tələbələrin yaradıcılıq imkanlarının artırılmasında, yeni yaranan anlayışların düzgün dərk olunmalarında mühüm rol oynayır. Müəllif belə hesab edir ki, Riyazi analizin digər mövzularında da kontrmisallardan istifadə çox faydalıdır.
***Açar sözlər:*** *Şərti ekstremum, mütləq ekstremum, rabitə tənliyi, Laqranj funksiyası, kontrmisal*

**Резюме.** Представленная работа посвящена одному из наиболее фундаментальных разделов курса математического анализа вузов: Дифференциальному исчислению функций многих переменных. В этом разделе обсуждаются методы использования контрпримеров при исследовании условных и абсолютных экстремумов функции. В этом разделе при исследовании экстремумов в теоремах и предложениях важную роль в повышении креативности играют абсолютные и условные экстремумы аргументов, нахождение экстремумов в пределах дополнительного условия (путем удовлетворения уравнения.
***Ключевые слова:*** *условный экстремум, абсолютный экстремум, уравнение связи, функция Лагранжа, контрпример*

**Summary.** The presented work is dedicated to one of the most fundamental sections of the Mathematical analysis course of Higher Pedagogical Schools: Differential calculus of multivariable functions. In this section, methods of using counterexamples are discussed in the study of conditional and absolute extrema of the function. In this section, in the study of extremums in theorems and propositions, the absolute and conditional extremums of the arguments, finding extremums within the additional condition (by satisfying the communication equation) and counterexamples built in the direction play an important role in increasing the creativity of students and in the correct understanding of new concepts. The author believes that the use of counterexamples is very useful in other topics of mathematical analysis.
***Key words:*** *Conditional extremum, absolute extremum, communication equation, Lagrange function, counterexample*

Məlum olduğu kimi, riyazi analiz kursunda çoxdəyişənli funksiyanın ekstremumlarını taparkən, yəni bu məsələ araşdırılarkən arqumentlər üzərinə heç bir əlavə şərt qoyulmurdu. Lakin elə məsələlər (tətbiqi məsələlər) var ki, orada arqumentləri əlavə şərtlərin ödənməsi halında həmin çoxdəyişənli funksiyanın ekstremumlarının tapılması məsələsi ortaya çıxır.

Tutaq ki,

$u(x,y) = x^2 + y^2$ (1)

funksiyasının arqumentləri $3x + y = 1$ əlavə əlaqə (rabitə) şərtini ödəyən ekstremumunu tapmaq tələb olunur. Yəni, $u(x,y) = x^2 + y^2$ funksiyasının ekstremumunu bütün müstəvidə deyil, $3x + y = 1$ düz xətti üzərində axtarılır.

Bu məqsədlə $3x + y = 1$ tənliyindən $y$ dəyişənini tapıb (1) funksiyasında $y$-in yerinə yazaq:

$y = 1 - x$

olduğundan

$u(x, 1-3x) = x^2 + (1-3x)^2 = 10x^2 - 6x + 1$ (2)

Göründüyü kimi baxılan məsələ $u(x, 1-3x) = 10x^2 - 6x + 1$ (2) funksiyasının şərtsiz ekstremumunun tapılmasına gətirilir:

$$u'_x = 20x - 6 = 0$$

Buradan $2(10x - 3) = 0, x = \frac{3}{10}$ stasionar nöqtəsində $u''_{xx}$= 20 > 0 olduğundan birdəyişənli funksiyanın ekstremumunun tapılması üçün II kafi şərtə əsasən $x = \frac{3}{10}$ nöqtəsində $u(x, 1-3x)$ funksiyası minimum qiymətini alır.

$$u_{min}\left(\frac{3}{10}\right) = \left(\frac{3}{10}\right)^2 + \left(1 - \frac{9}{10}\right)^2 = \frac{9}{100} + \frac{1}{100} = \frac{1}{10}$$

Beləliklə, $u(x,y) = x^2 + y^2$ funksiyası $3x + y = 1$ əlavə əlaqə şərti daxilində $x = \frac{3}{10}, y = \frac{1}{10}$ olduğundan $M\left(\frac{3}{10}, \frac{1}{10}\right)$ nöqtəsində $u_{min}(M) = u_{min}\left(\frac{3}{10}, \frac{1}{10}\right) = \frac{1}{10}$ şərti ekstremuma malikdir.

$u(x,y) = x^2 + y^2$ funksiyası heç bir əlavə şərti ödənməməsi halında şərtsiz ekstremumunu tapaq. $du(x,y) = 0 \Leftrightarrow \begin{cases} \frac{\partial u}{\partial x} = 0 \\ \frac{\partial u}{\partial y} = 0 \end{cases}$ buradan $\begin{cases} 2x = 0 \\ 2y = 0 \end{cases}$ sistemini alırıq.

Burada $\frac{\partial u}{\partial x}$ və $\frac{\partial u}{\partial y}$ ifadələri $u(x,y)$ funksiyasının uyğun olaraq x-ə və y-ə görə xüsusi törəmələridir.

Bu nöqtədə funksiyanın ekstremumunu tapaq.

$$a_{11} = \frac{\partial^2 u}{\partial x^2} = 2 \; a_{22} = \frac{\partial^2 u}{\partial y^2} = 2 \; a_{12} = \frac{\partial^2 u}{\partial x \partial y} = 0$$

Deməli (0,0) nöqtəsi verilmiş funksiyanın stasionar nöqtəsidir.

$\Delta = a_{11}a_{22} - a_{12}^2 = 4 - 0 = 4 > 0 \; a_{11} > 0 \; (a_{22} > 0)$ olduğundan, (0,0) nöqtəsində verilmiş funksiya şərtsiz minimum qiymət alar, yəni

$$u_{min}(0,0) = 0$$

şərtsiz minimumdur.

İndi isə $u = f(x,y,z)$ üçdəyişənli funksiyasına baxaq. Tutaq ki, bu funksiya diferensiallanandır və $x, y, z$ arqumentləri $\varphi(x,y,z) = 0$ (3) əlavə əlaqə şərtini ödəyir. (3) tənliyinə əlaqə tənliyi deyilir.

**Tərif.** Tutaq ki, koordinatları (3) əlaqə tənliyini ödəyən $M_0(x_0, y_0, z_0)$ nöqtəsi verilmişdir. $M_0(x_0, y_0, z_0)$ nöqtəsinin hər hansı ətrafında bütün $M(x,y,z)$ nöqtələri üçün $f(x,y,z) < f(x_0,y_0,z_0)$ $(f(x,y,z) > f(x_0,y_0,z_0))$ bərabərsizliyi ödənərsə, onda deyirlər ki, $u = f(x,y,z)$ funksiyası $M_0(x_0,y_0,z_0)$ nöqtəsində şərti maksimuma (minimuma) malikdir.

Yəni $u = f(x,y,z)$ funksiyası ekstremumun bütün $R^3$ koordinat fəzasında deyil, $\varphi(x,y,z) = 0$ səthi üzərində axtarılır. Başqa sözlə, verilən funksiyanın $\varphi(x,y,z) = 0$ səthi üzərinə düşən nöqtəsinə baxılır.

$\varphi(x,y,z)$ tənliyindən $z$ dəyişənini $x$ və $y$ vasitəsilə ifadə etmək, yəni $z = \Psi(x,y)$ olarsa, $z$-in bu ifadəsini (3)-də nəzərə alsaq

$u = f(x, y, \Psi(x,y))$ (4)

mürəkkəb funksiyasını almış olarıq.

Beləliklə, $u$ funksiyasının (3) əlaqə tənliyini ödəyən ekstremumu $f(x,y,\Psi(x,y))$ mürəkkəb funksiyasının adi (şərtsiz) ekstremumu ilə eyni olacaq. Bundan əvvəlki misalda da belə etmişdik.

Bu üsul bir çox hallarda səmərəli olmur. Bəzi hallarda əlaqə tənliyində $z$-i $x$ və $y$ vasitəsi ilə tapmaq olmur. Məsələn, $xyz - \ln(xy) - e^z = 0$ tənliyində $z$-i tapmaq çətinlik yaradır.

Məhz elə bu səbəbdən şərti ekstremumu Laqranjın təklif etdiyi üsulla tapmaq asan olur. Sadəlik xatirinə bu üsulla üçdəyişənli funksiya halı üçün verək. Tutaq ki, $u = f(x, y, z)$ funksiyası və $\varphi(x, y, z) = 0$ (3) əlavə əlaqə şərti verilib. Bu əlavə şərt daxilində üçdəyişənli funksiyanın ekstremumunun (şərti ekstremumu) tapılması məsələsinə baxaq. Fərz edək ki, verilmiş funksiyanın hər hansı $M_0(x_0, y_0, z_0)$ nöqtəsində ekstremumu var. Tutaq ki, $\varphi(x, y, z) = 0$ tənliyi $z$ funksiyasını $x$ və $y$-in qeyri-aşkar funksiyası kimi təyin edir. Qeyd etdiyimiz kimi $u = f(x, y, \Psi(x, y))$ mürəkkəb funksiyasının şərtsiz ekstremumu var. Onda zəruri şərtə əsasən həmin nöqtədə onun tam diferensialı sıfıra bərabər olar, yəni

$$\frac{\partial f(x_0,y_0,z_0)}{\partial x}dx + \frac{\partial f(x_0,y_0,z_0)}{\partial y}dy + \frac{\partial f(x_0,y_0,z_0)}{\partial z}dz = 0 \quad (5)$$

burada $dx, dy, x$ və $y$ dəyişənlərinin artımı, $dz$ isə $z = \Psi(x, y)$ funksiyasının tam diferensiallıdır.

(3)-də $z$-in əvəzinə $\Psi(x, y)$ yazsaq, onda (3) tənliyi $x$ və $y$-ə nəzərən eynilik, yəni

$$\varphi(x, y, \Psi(x, y)) = 0 \quad (6)$$

olar.

Sonuncu bərabərliyin sol tərəfinin tam diferensialı $x = x_0, y = y_0$ olduqda sıfıra bərabər olur:

$$\frac{\partial \varphi(x_0,y_0,z_0)}{\partial x}dx + \frac{\partial \varphi(x_0,y_0,z_0)}{\partial y}dy + \frac{\partial \varphi(x_0,y_0,z_0)}{\partial z}dz = 0 \quad (7)$$

(7)-in hər tərəfini hər hansı $\lambda \in R$ həqiqi ədədinə vuraq, (5)-lə tərəf-tərəfə toplasaq:

$$(f'_x(x_0, y_0, z_0) + \lambda\varphi'_x(x_0, y_0, z_0))dx + \left(f'_y(x_0, y_0, z_0) + \lambda\varphi'_y(x_0, y_0, z_0)\right)dy + \left(f'_z(x_0, y_0, z_0) + \lambda\varphi'_z(x_0, y_0, z_0)\right)dz = 0 \quad (8)$$

Burada λ ədədini elə seçək ki, $dz$-in qarşısında vuruq sıfıra bərabər olsun. Yəni

$$f'_z(x_0, y_0, z_0) + \lambda\varphi'_z(x_0, y_0, z_0) = 0$$

Onda (8) bərabərliyində

$$f'_x(x_0, y_0, z_0) + \lambda\varphi'_x(x_0, y_0, z_0) = 0 \quad (9)$$

$$f'_y(x_0, y_0, z_0) + \lambda\varphi'_y(x_0, y_0, z_0) = 0 \quad (10)$$

$M_0(x_0, y_0, z_0)$ nöqtəsinin koordinatları $\varphi(x, y, z) = 0$ əlaqə tənliyini ödədiyindən $\varphi(x_0, y_0, z_0) = 0$ (11) (Ona görə də (9), (10), (11) bərabərliklərindən $x_0$, $y_0, z_0$ və $\lambda$ kəmiyyətlərini tapa bilərik).

Sonuncu bərabərliklər onu göstərir ki, $x_0$, $y_0, z_0$ və $\lambda$ kəmiyyətlərinin tapılması üçün

$$\phi(x, y, z) = f(x, y, z) + \lambda\varphi(x, y, z) \quad (12)$$

funksiyasını düzəltməklə (buna Laqranj funksiyası deyilir) $\phi(x, y, z)$ funksiyası $x, y$ və $z$ dəyişənlərinə nəzərən xüsusi törəmələrini sıfıra bərabər etmək və onlara $\varphi(x, y, z) = 0$ əlaqə tənliyini əlavə edib alınan

$$\begin{cases} \phi'_x(x, y, z) = 0 \\ \phi'_y(x, y, z) = 0 \\ \phi'_z(x, y, z) = 0 \\ \varphi(x, y, z) = 0 \end{cases} \quad (13)$$

sistemini həll etmək lazımdır. Bu sistemdən elə $x, y$ və $z$ nöqtəsini tapmaq olar ki, bunlar da verilən funksiyanın şərti ekstremumu olar.

Əvvəlcədən $\phi(x, y, z) = f(x, y, z) + \lambda\varphi(x, y, z)$ funksiyası götürməklə $x, y$ və $z$-ə nəzərən xüsusi törəmələri tapaq. (13) sistemini qurub həll etsək, onda belə sual yaranar: Bu funksiyaya nə ehtiyac var. Haradan bu funksiyanın qurulmasına ehtiyac yaranır? Və s.

Qeyd edək ki, bu üsul istənilən sayda ($n > 3$) dəyişənindən asılı funksiyalar üçün də tətbiq oluna bilər.

Şərti ekstremumun varlığı və onun xarakteri Laqranj funksiyasının ikinci tərtib diferensialının yəni, $d^2\phi$-in işarəsindən asılıdır. $d^2\phi > 0$ olarsa, $(x_0, y_0, z_0)$ nöqtəsində verilən funksiya şərti minimum, $d^2\phi < 0$ olarsa, $(x_0, y_0, z_0)$ nöqtəsində verilən funksiya şərti maksimum qiymətini alır, burada

$$d^2\phi = \left(\frac{\partial\phi}{\partial x}dx + \frac{\partial\phi}{\partial y}dy + \frac{\partial\phi}{\partial z}dz\right)^2 \phi$$

Sadəlik xatirinə ikidəyişənli funksiya halına baxaq: $u = f(x, y)$ (1) $\varphi(x, y) = 0$ (3) əlaqə tənliyini ödəyən ekstremumu tapmaq üçün Laqranj funksiyası

$\phi(x, y) = f(x, y) + \lambda\varphi(x, y)$ qurulur.

$$\begin{cases} \phi'_x = \frac{\partial f}{\partial x} + \lambda\frac{\partial\varphi}{\partial x} = 0 \\ \phi'_y = \frac{\partial f}{\partial y} + \lambda\frac{\partial\varphi}{\partial y} = 0 \\ \varphi(x, y, z) = 0 \end{cases} \quad (15)$$

zəruri şərti ödənir.

Tutaq ki, (15) sisteminin həllərindən biri $x_0$, $y_0$ və $\lambda$ ədədləridir. Onda $M_0(x_0, y_0)$ nöqtəsi $u = f(x, y)$ funksiyası şərti ekstremum üçün stasionar nöqtə olar. Həmin nöqtədə funksiya ekstremum (şərti) qiymət ala da bilər, almaya da bilər. Bunu yoxlamaq üçün ya $d^2\phi$-in işarəsini yoxlamaq ($d^2\phi > 0$ olduqda şərti minimum, $d^2\phi < 0$ olduqda şərti maksimum) lazımdır, yaxud aşağıdakı kafi şərtə əsasən araşdırmaq olar:

$$\Delta = -\begin{vmatrix} 0 & \varphi'_x(x_0,y_0) & \varphi'_y(x_0,y_0) \\ \varphi'_x(x_0,y_0) & \Phi''_{xx}(x_0,y_0) & \Phi''_{xy}(x_0,y_0) \\ \varphi'_y(x_0,y_0) & \Phi''_{xy}(x_0,y_0) & \Phi''_{yy}(x_0,y_0) \end{vmatrix}$$




Bu determinant müsbətdirsə, yəni $\Delta > 0$ isə $M_0(x_0,y_0)$ nöqtəsi şərti minimuma, determinant mənfidirsə, yəni $\Delta < 0$ isə $M_0(x_0,y_0)$ nöqtəsində funksiya şərti maksimuma malikdir.

Fərz edək ki, $D$ oblastında təyin olunmuş $n$ dəyişənli $f(x_1,x_2,\dots.x_n)$ funksiyası $\varphi_i(x_1,x_2,\dots.x_n)=0, i=1,2,\dots.k$ əlaqə tənliklərini ödəyir (Məsələn, $\varphi_1(x_1,x_2,\dots.x_n)=0$, $\varphi_2(x_1,x_2,\dots.x_n)=0$, $\varphi_k(x_1,x_2,\dots.x_n)=0$, $M_0(x_1^0,x_2^0,\dots x_n^0)\in D$). D oblastı qapalı oblastdır.

$M_0(x_1^0,x_2^0,\dots x_n^0)$ nöqtəsi əlaqə tənliyini ödəyir və $f(x_1,\dots.x_n)$ funksiyasının şərti ekstremumudur.

Aşağıdakı iki təklif əsasında bu məsələ həll olunur:

1. $f(x_1,x_2,\dots.x_n)$ və $\varphi_i(x_1,x_2,\dots.x_n)=0, i=1,2,\dots.k$ funksiyası $M_0(x_1^0,x_2^0,\dots x_n^0)$ nöqtəsinin müəyyən ətrafında kəsilməz xüsusi törəmələri var (bütün arqumentlərə nəzərən).

2. $\left\|\frac{\partial\varphi_i}{\partial x_j}\right\|$ matrisinin $i=1,2,\dots.k, j=1,2,\dots.n, M_0$ nöqtəsində ranqı k-ya bərabərdir, yəni $M_0$ nöqtəsində bu matrisin elementlərindən düzəldilmiş k tərtibli determinantlardan heç olmasa biri sıfırdan fərqlidir.

Qeyd edək ki, Laqranjın təklif etdiyi üsul (şərti ekstremum) üçün I və II şərtlərin hər ikisi eyni zamanda ödənməlidir. Onlardan biri ödənmədikdə ekstremumun varlığı haqqında heç nə demək olmur.

Aşağıdakı misallara baxaq.




**Misal 1.** Koordinat başlanğıcından $y^2=(x-1)^3$ kubik parabolasına qədər ən qısa məsafəni, başqa sözlə, $f(x,y)=x^2+y^2$ funksiyasının $\varphi(x,y)=(x-1)^3-y^2=0$ şərtini ödəyən minimumunu tapaq.

Həndəsi olaraq aydındır ki, $f(x,y)=x^2+y^2$ funksiyası kubik parabola üzərində yerləşən $M(1,0)$ nöqtəsində minimum qiymət alır.

Lakin Laqranj üsulu ilə bu nöqtəni tapmaq olmur.

Belə ki, $\varphi'_x(x_0,y_0)=\varphi'_x(1,0)=\varphi'_y(1,0)=0$ bununla da II şərt ödənmir. Ona görə də şərti ekstremumun tapılması üçün Laqranj üsulunu bu halda tətbiq etmək olmur. Bunu nəzərə almadan

$$\Phi(x,y)=f(x,y)+\lambda\varphi(x,y)$$

$$\Phi(x,y)=x^2+y^2+\lambda((x-1)^3-y^2)$$

$$\begin{cases}\Phi'_x(x,y)=2x+3\lambda(x-1)^2=0\\ \Phi'_y(x,y)=2y-2\lambda y=0\\ \varphi(x,y)=(x-1)^3-y^2=0\end{cases}$$

Burada $x=1$ olduqda birinci bərabərlik ödənmir.

Lakin yuxarıda qeyd olunduğu kimi $M(1,0)$ nöqtəsində $f(x,y)=x^2+y^2$ funksiyasının $y^2-(x-1)^3=0$ tənliyini ödəyən ekstremumu (minimum) var.

**Misal 2.** $f(x,y)=(y-x^3)(y-3x^3)$ funksiyası bütün həqiqi oxda təyin olunub kəsilməz diferensiallanandır. Funksiyanın sıfırları: $y=x^3, y=3x^3$

Bu əyrilər arasında verilən funksiya mənfi, onların xaricində isə müsbətdir.

Belə ki, $f(0,0)=0$ (0,0) nöqtəsinin ətrafında funksiya mənfi və müsbət qiymətlər alır. Ona görə də (0,0) nöqtəsində $(OX)$ oxuna

toxunur. Bu nöqtədən keçən hər hansı düz xətt ((0,0) nöqtəsinin ətrafında) üzərində funksiya müsbətdir. Ona görə də (0,0) nöqtəsindən keçən hər hansı düz xətt üzərində funksiyanın ciddi minimumu var.

**Misal 3.** $f(x,y) = (x - y^2)(2x - y^2)$ funksiyasının (0,0) nöqtəsində bu nöqtədən keçən hər hansı düz xətt üzərində minimumu var və $f_{min} = 0$ . Buna baxmayaraq verilmiş funksiyanın (0,0) nöqtəsində ekstremumu yoxdur. Doğurdan da, (0,0) nöqtəsində funksiya artır.

$$\Delta f(0,0) = 2\Delta x^2 - 3\Delta x\Delta y^2 + \Delta y^4$$
$$= \left(\Delta y^2 - \frac{3\Delta x}{2}\right)^2 - \frac{\Delta x^2}{4}.$$

$\Delta x = 6t^2, \Delta y = 3t \ (t > 0)$ və $\Delta x = 0, \Delta y > 0$ olduqda müxtəlif işarəlidir.

Ona görə də $f(x,y)$ funksiyası $M_0(x_0, y_0)$ nöqtəsində hər hansı düz xətt boyunca ekstremum qiymət alması, məsələn minimum qiymət alması funksiyanın həmin nöqtədə minimum qiymət alması üçün kafi deyil.

İndi isə mütləq ekstremum barədə.

Fərz edək ki, $f(x_1, x_2, \dots . x_n)$ funksiyası qapalı məhdud $D$ oblastında təyin olunub və bu oblastda onun xüsusi törəmələri sonludur. $f(x_1, x_2, \dots . x_n)$ funksiyasının bu oblastda ən böyük (ən kiçik) qiymətini tapmaq üçün onun bu oblastın daxilində bütün stasionar nöqtələrini tapmaq və bu nöqtələrdə funksiyanın qiymətləri ilə funksiyanın $D$ oblastındakı sərhədlərindəki ən böyük (ən kiçik) qiymətləri ilə müqayisə edib, bu qiymətlərdən ən böyüyü bu funksiyanın həmin $D$ oblastında ən böyük, ən kiçiyi isə onun bu oblastda ən kiçik qiyməti olar.

Elə funksiyalar göstərmək olar ki, bu qaydanı mütləq ekstremumun tapılması üçün tətbiq etmək olmaz.

**Misal 4.** $z = \sqrt{x^2 + y^2}$ funksiyası qapalı, məhdud $D: x^2 + y^2 \leq 1$ dairəsində təyin olunub, $M_0(0,0)$ nöqtəsində xüsusi törəmələri yoxdur. Doğurdan da, $(ox)$ oxu üzərində $y = 0, z(x, 0) = \sqrt{x^2} = |x|$bu funksiyanın isə $x = 0$ nöqtəsində törəməsi yoxdur. Ona görə də (0,0)-da $z'_x$ yoxdur. Həmçinin göstərmək olar ki, $M_0(0,0)$ nöqtəsində $z'_y$ yoxdur. Buna baxmayaraq, bu nöqtədə funksiyanın ciddi minimumu var.




**Misal 5.** $f(x,y) = \sqrt[3]{x^2 + y^2}$ funksiyası $D: x^2 + y^2 \leq 1$ qapalı məhdud oblastda (0,0) nöqtəsində sonsuz xüsusi törəməsi var. Bu funksiyaya $(ox)$ oxu üzərində, yəni $y = 0$ düz xəttində baxsaq $f(x, 0) = \sqrt[3]{x^2}$,

$f'_x(x, 0) = \frac{2}{3\sqrt[3]{x}}$ (0,0)-da $f'_x(0,0) = \infty$, həmçinin $(oy)$ oxu üzərində $x = 0$ olduğundan $f(0, y) = \sqrt[3]{y^2}$, $f'_y(0, y) = \frac{2}{3\sqrt[3]{y}}$ (0,0) nöqtəsində $f'_y(0,0) = \infty$.

Lakin funksiyanın (0,0) nöqtəsində minimumu var (həmçinin göstərmək olar ki, (0,0) nöqtəsində verilən funksiyanın ciddi minimumu var).

**Misal 6.** Göstərin ki, $z = (y - x^3)(y - 3x^3)$ funksiyası $(OXY)$ müstəvisi üzərində özünün ən kiçik və ən böyük qiymətini almır. Lakin bu funksiya müstəvinin koordinat başlanğıcından keçən istənilən düz xətti üzərində özünün ən kiçik qiymətini alır.

$f(x,y) = (y - x^3)(y - 3x^3)$ funksiyasının (0,0) nöqtəsində lokal ekstremumu yoxdur. (0,0) nöqtəsinin ixtiyari ətrafında $(0, c)$ kimi nöqtələri var.

$f(0, c) = c^2 > 0$. Məsələn, $(b, 2b^2)$ nöqtəsində isə $(b \neq 0)$ (bu nöqtədə (0,0) ətrafında) funksiya$f(b, 2b^2) = (2b^2 - b^2)(2b^2 - 3b^2) = b^2 \cdot (-b^2) = -b^4 < 0$.




$f(x, y)$ funksiyasına $(ox)$ oxu üzərində baxsaq, $y = 0$ götürsək: $y = 3x^2 = 0 \Rightarrow x = 0$ nöqtəsində mütləq minimumu var.

$(oy)$ oxu üzərində baxsaq, $x = 0$ götürsək:

$f(x, y) = y^2 > 0$. $y = 0$ -da mütləq minimum olar.

Nəhayət, $y = m \cdot x$ düz xətti üzərində baxsaq (koordinat başlanğıcından keçən) $0 < |m| < +\infty$.

Onda $f(x, mx) = g(x) = (mx - x^2)(mx - 3x^2) = m^2x^2 - 4mx^3 + 3x^4$

$f'(x, mx) = 2m^2x - 12mx^2 + 12x^3 = 0 \Rightarrow x = 0$

Və $g'(0) = 0, g''(0) = 2m^2 > 0$ olduğundan ikinci kafi şərtə görə, $g(x)$ funksiyasının $x_0 = 0$ nöqtəsində minimumu var.

Təcrübələr onu qeyd etməyə imkan verir ki, təlim prosesində lazım gəldikcə kontrmisallardan istifadə olunduqda, bu tələbələrin yaradıcılıq imkanlarının artırılması, onlarda Riyazi analizə olan maraqların yüksəldilməsində və təlimin səmərəliliyinin artırılması baxımından faydalıdır.

**Problemin aktuallığı.** Çoxdəyişənli funksiyanın ekstremumunun tapılması məsələsi Riyazi analiz kursunda tətbiq nöqteyi-nəzərindən ən aktual mövzulardan biridir. Lakin elə tətbiqi məsələlər var ki, orada arqumentlərin əlavə olaraq müəyyən şərtləri ödəməsi halında funksiyanın ekstremumlarının tapılması məsələsi diqqəti cəlb edir. Bu istiqamətdə praktik məsələlərin həllində kontrmisallar əhəmiyyətli rol oynayır.

Məqalədə qurulmuş kontrmisallar bu baxımdan əhəmiyyət kəsb edir ki, Laqranjın təklif etdiyi üsul I və II şərtlərin (bu şərtlər məqalədə qeyd olunub) hər ikisinin eyni zamanda ödəndiyi hallarda tətbiq olunur. Onlardan biri ödəmədikdə şərti ekstremumun varlığı haqqında heç nə demək olmur.

Qurulan kontrmisallar təlimin səmərəliliyinin artırılmasında tələbələrdə yeni anlayışların formalaşmalarında çox əhəmiyyətlidir.

**Problemin elmi yeniliyi.** Təlim prosesində kontrmisallardan riyazi analizə dair bilik və bacarıqların inkişaf etdirilməsində müəyyən təkliflərin tərsinin doğru olmadığını, təkliflərdəki şərtlərin birinin ödənmədiyi, yaxud digər şərtlərlə əvəz edildikdə hökmün doğru olmadığını göstərmək lazım gəldikdə istifadə olunur. Bu da təlim prosesinin faydalı sonluqla nəticələnməsi baxımından anlayışların mənalarının düzgün açılması baxımından əhəmiyyətlidir. Göstərilən istiqamətdə konkret nümunələr göstərməklə yeni təklifləri ümumi halda isbat etməyə ehtiyac qalmır.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Ali pedaqoji məktəblərin Riyazi analiz kursunda təlim prosesində kontrmisallardan istifadə ideyası bir çox məqsəd daşıyır. Riyazi analiz kursunda kontrmisallardan istifadə olunduqda yaranan yeni anlayışlar düzgün mənimsənilir, tələbələrin müstəqil düşünmək qabiliyyətləri inkişaf edir, fənnə olan maraqları artır. Və digər mövzularda da belə misalların qurulmasına həvəs və maraq artır ki, bu da gələcək Riyaziyyat müəllimlərinin formalaşmasında, təhsilin digər pillələrində təhsillərini davam etdirmələrində mühüm əhəmiyyət kəsb edir.

## Ədəbiyyat:


1. Фихтенгольц, Г.М. Курс дифференциального и интегрального исчисления т.2. / Г.М. Фихтенгольц. – Москва, 1970.
2. Кудрявцев, Л.Д. Курс математического анализа т.2. / Л.Д. Кудрявцев – Москва, 1981.
3. Гельбаум, Б. Контрпримеы в анализе. / Б. Гельбаум, Дж. Олмстед. – Москва: “Мир” – 1967.
4. Musayev V.M. Çoxdəyişənli funksiyanın diferensial və inteqral hesabı. – Bakı, 2009.
5. Demidoviç, B.P. Riyazi analizdən məsələ və misallar. / B.P. Demidoviç – Bakı, 2003.
6. Davıdov, N.A. Riyazi analizdən məsələlər. / N.A. Davıdov, P.P. Korovkin, V.N. Nikolski. – Bakı, 2010.


**E-mail:** ehmedmammedov1962@gmail.com
**Rəyçilər:** *ped.elm.dok. prof.* **H.H. Əhmədov,**
*riy.ü.fəls.dok. dos.* **R.H. Şirinov**
**Redaksiyaya daxil olub:** 12.12.2023

## *FİZİKANIN TƏDRİSİ METODİKASI*
## *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ФИЗИКИ*
## *METHODS OF TEACHING PHYSICS*

*UOT 372.853*

***Rasim Rəşid oğlu Abdurazaqov***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*ORCİD İd: 0000-0002-6801-4893*

***Zamira Qabil qızı Kiçibəyova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*ORCİD İd: 0009-0006-1183-7932*

# VIII SİNİF ÜZRƏ FİZİKADAN QİYMƏTLƏNDİRMƏ STANDARTLARININ MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

***Расим Рашид оглы Абдуразагов***
*доктор философии по педагогике, доцент*
*Институт образования азербайджанской республики*

***Замира Габиль гызы Кичибекова***
*Азербайджанский государственный педагогический университет*

# ОПРЕДЕЛЕНИИ СТАНДАРТОВ ОЦЕНИВАНИЯ ПО ФИЗИКЕ ДЛЯ VIII КЛАССА

***Rasim Rashid Abdurazagov***
*doctor of philosophy in pedagogy, associate professor at the Institute of Education of the Republic of Azerbaijan*

***Zamira Gabil Kichibekova***
*Azerbaijan State Pedagogical University*

# DETERMINING ASSESSMENT STANDARDS IN PHYSICS FOR GRADE VIII

**Xülasə.** Fənn üzrə qiymətləndirmə standartları məzmun standartlarının hansı səviyyədə reallaşdırıldığını yoxlamaqla şagirdlərin təlim nəticələrində baş vermiş dəyişiklikləri müəyyən edir. Lakin apardığımız araşdırmalardan məlum oldu ki, ümumtəhsil müəssisələrinin üçün fizikadan təhsil proqramında (kurikulumunda) qiymətləndirmə standartları yer almayıbdır. Ona görə də, məqalədə fizikadan məzmun standartlarının qiymətləndirilmə sxeminin müəyyən edilməsinin nəzəri və praktik əsaslarını VIII sinif fizika kursunun 1.1.1.-standartı nümunəsində işlədik.
***Açar sözlər:*** *məzmun standartı, qiymətləndirmə standartı, VIII sinif, təlim nəticələri*

***Резюме.*** Стандарты оценивания по предмету определяют изменения, произошедшие в результатах обучения обучающихся, путем проверки уровня реализации стандартов содержания. Однако в результате наших исследований выяснилось, что программа (куррикулума) по физике для общеобразовательных учреждений не включает оценочные стандарты. Поэтому в статье мы проработали теоретические и практические основы определения схемы оценивания содержательных стандартов по физике на примере стандарта 1.1.1 курса физики VIII класса.
***Ключевые слова:*** *содержательный стандарт, стандарт оценивания, VIII класс, результаты обучения*

**Summary.** The assessment standards for the subject determine the changes that have occurred in the learning outcomes of the students by checking the level at which the content standards are realized. However, from our investigations, it became clear that the physics education program (curriculum) for general educational institutions did not include assessment standards. Therefore, in the article, we worked out the theoretical and practical basis of determining the assessment scheme of content standards from physics on the example of standard 1.1.1 of the VIII grade physics course.

***Keywords:*** *content standard, evaluation standard, VIII grade, learning outcomes*

Hər bir fənn kurikulumunda olduğu kimi, fizikadan da məzmun standartları, təlim strategiyalarıyla yanaşı, siniflər üzrə reallaşdırılan təlim nəticələrinin, qazanılan bilik və formalaşdırılan bacarıqların qiymətləndirilməsi məqsədilə müvafiq qiymətləndirmə standartları da öz əksini tapmalıdır. Lakin apardığımız araşdırmalardan məlum oldu ki, ümumtəhsil müəssisələrinin üçün fizikadan təhsil proqramında (kurikulumunda) qiymətləndirmə standartları yer almayıbdır [1].

Qeyd edək ki, qiymətləndirmə standartları məzmun standartlarının hansı səviyyədə reallaşdığını yoxlamaqla şagirdlərin təlim nəticələrində baş vermiş dəyişiklikləri müəyyən edir. Bu zaman uyğun ölçü alətləri vasitəsilə bütün maraqlı tərəflərin razılığı əsasında müvafiq siniflər üzrə milli səviyyədə yekun qiymətləndirmə (böyük summativ, imtahan) keçirilir, nəticələr təhlil olunmaqla qazanılan bilik və formalaşdırılan bacarıqlar dəyərləndirilir.

Qiymətləndirmə standartlarının təyin edilməsində kurikulumun tələblərinə uyğun metoda daha çox üstünlük verilir. Bu metoda görə:

- qiymətləndirmə standartları milli kurikulumda əks olunmuş nailiyyətlərə (nəticələrə) uyğun hazırlanır və faktiki olaraq sagirdlərin nəyi bacardıqlarına dair ölçmələrə deyil, mütəxəssis mühakimələrinə əsaslanır;
- bütün məktəblərin, müəllimlərin təmsil olunduğu orqanların və digər maraqlı tərəflərin müzakirələri əsasında standartlara düzəlişlər edilir və arzu olunan nailiyyət səviyyələrinə dair ortaq fikir yaranır.

Qiymətləndirmə standartları 4 səviyyə (rubrik) üzrə qiymətləndirmə sxemləri (QS) şəklində hazırlanır. QS xüsusi növ qiymətləndirmə şkalasıdır və iki əsas məsələni əhatə edir:

– Mən nəyi qiymətləndirməliyəm (obyekt, məzmun, aspekt, tərəf, xüsusiyyət, xarakteristika və s.)?
– Aşağı, orta və yuxarı nailiyyət səviyyələrinin xüsusiyyətlərini necə müəyyənləşdirmək olar?

QS şkalası Benjamin Blumun (1913-1999) idraki taksonomiyasının [3] səviyyələrinə uyğun olaraq şagirdin idrak fəaliyyəti piramidasının (şəkil 1) oturacaqdan zirvəsinə doğru olmaqla I səviyyə ən aşağı, IV səviyyə isə ən yüksək idrak pilləsini əks etdirir. Adətən, I və II səviyyə orta idrak fəaliyyəti nümayiş etdirən şagirdlər, III və xüsusi ilə IV səviyyə isə daha istedadlı şagirdlər üçün nəzərdə tutulur.

Qeyd edək ki, QS-lər qiymətləndirmənin daha ədalətli, obyektiv, etibarlı və ardıcıl həyata keçirilməsinə imkan verir, tədrisin səmərəliliyi ilə bağlı müəllimləri faydalı məlumatlarla təmin edir və tələb edir ki, hər bir müəllim müvafiq şərtlər üzrə öz meyarlarını müəyyənləşdirsin. QS-lər şagirdin təlim nəticələrini qiymətləndirmək üçün müəllimin sərf etdiyi vaxtı azaldır, keyfiyyət səviyyələri vasitəsilə müxtəlif bacarığa malik sagirdlərin təhsil aldığı sinifləri nəzərə almağa şərait yaradır.

QS-lər fəaliyyətin qiymətləndirilməsi zamanı istifadə olunan meyarlarla bağlı şagirdlərin məlumatlandırılmasını, onların təlim nəticələrinin necə ölçüləcəyini və onlardan nələrin tələb olunduğunu aydın göstərməklə konkret məqsəd və tələbləri (meyarları) müəyyən edir. QS-lər şagird işlərinin keyfiyyətini daha yaxşı qiymətləndirməklə təlim prosesində irəliləyişlərin qiymətləndirilməsi üçün çərçivə təyin edir, işlərin keyfiyyəti ilə bağlı əks tərəfə məlumat verməsini təmin edir.




***Şəkil 1. İdrakı fəaliyyətin mərhələləri (səviyyələri) – Blum taksonomiyası.***

Məlumdur ki, formativ QS-ləri mahiyyət etibarı ilə iki növə ayrılır [2; 4]:




*Holistik QS* – təlim prosesində məqsədlərə görə müəyyən olunmuş bacarıqların ayrı-ayrılıqda qiymətləndirilməsi yolu ilə şagirdin inkişaf səviyyəsinin qısa müddətdə ümumi şəkildə dəyərləndirilməsidir. Qısa müddət ərzində həyata keçirildiyi üçün bu qiymətləndirmə “sürətli qiymətləndirmə” də adlanır. “Holistik” sözü latın mənşəlidir və lüğəti mənası “ümumi”, “bütöv”, “tam” deməkdir. Bu növ qiymətləndirmə şagirdin işi ilə bağlı ümumi təəssürat yaradır və əksər hallarda fəaliyyət səviyyələrini əks etdirən 4-5 ballıq şkalaya əsaslanır.

Holistik qiymətləndirməyə nümunə olaraq təmayüllü VIII sinifdə “Xüsusi istilik tutumu” mövzusunun təlim nəticələrinin qiymətləndirilməsi rubrikinin formalaşdırılmasını göstərmək olar (cədvəl 1).

Mövzu üzrə müəyyən olunmuş təlim nəticələrindən göründüyü kimi, holistik qiymətləndirmə meyarları “şərhetmə”, “düsturyazma”, “izahetmə”, “hesablama”, “dəyərləndirmə”, “məsələ qurma və həlletmə”dir. Bu halda “Xüsusi istilik tutumu” mövzusu üçün holistik qiymətləndirmə rubriki səviyyələr üzrə müəyyənləşdirilə bilər (bax: cədvəl 2).

***Cədvəl 1.***
*VIII sinif fizika kursunda "Xüsusi istilik tutumu" mövzusunun təlimi prosesində müəyyən dərəcədə reallaşdırılması nəzərdə tutulan standartlar və gözlənilən təlim nəticələri.*

| VIII sinif: Dərs № 13/Mövzu: XÜSUSİ İSTİLİK TUTUMU | |
|---|---|
| **Alt Standartlar** | 1.1.1. İstilik və elektromaqnit (elektrik) hadisələrini və onların başvermə səbəblərini şərh edir.<br>1.1.2. İstilik və elektromaqnit (elektrik) hadisələrinə aid məsələlər qurur və həll edir.<br>1.1.5. İstilik hərəkəti və elektrik hadisələrinin qanunauyğunluqlarına aid topladığı məlumatları şərh edir.<br>2.1.1. Maddələri fiziki xassələrinə görə fərqləndirir.<br>2.2.3. İstilik hərəkəti və elektrik qarşılıqlı təsirinə dair məsələ qurur və həll edir.<br>3.1.1. İstilik və elektrik hadisələrinə aid ölçü cihazlarından istifadə edir.<br>3.1.2. İstilik və elektrik hadisələrinə uyğun fiziki kəmiyyətləri ölçür, hesablamalar aparmaqla nəticələri təqdim edir. |
| **Təlim Nəticələri** | • İstilik miqdarının cismin hazırlandığı maddədən asılılığını şərh edir.<br>• İstilik miqdarının asılı olduğu fiziki kəmiyyətlər arasındakı əlaqə düsturunu yazır.<br>• Cismin xüsusi istilik tutumunun fiziki mahiyyətini izah edir.<br>• Cismin xüsusi istilik tutumunu məlum fiziki kəmiyyətlərlə əlaqə düsturuna əsasən hesablayır.<br>• Cismin xüsusi istilik tutumunun ədədi qiymətinin yoxlanmasına aid sadə təcrübələrlə aparır, nəticələrini dəyərləndirir.<br>• Cismin xüsusi istilik tutumunun təyininə aid müxtəlif xarakterli və məzmunlu məsələlər qurur və həll edir. |

***Cədvəl 2.***
*VIII sinif fizika kursunda "Xüsusi istilik tutumu" mövzusu üçün səviyyələr üzrə qiymətləndirmə rubriki.*

| Meyarlar | I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|---|
| **Şərhetmə** | İstilik miqdarının cismin hazırlandığı maddədən asılılığını formal şərh edir. | İstilik miqdarının cismin hazırlandığı maddədən asılılığını anlayaraq şərh edir. | İstilik miqdarının cismin hazırlandığı maddədən asılılığını təhlil aparmaqla şərh edir. | İstilik miqdarının cismin hazırlandığı maddədən asılılığını analiz-sintez aparmaqla şərh edir. |
| **Düsturyazma** | İstilik miqdarının asılı olduğu fiziki kəmiyyətlər arasındakı əlaqə düsturunu əzbərləyərək yazır. | İstilik miqdarının asılı olduğu fiziki kəmiyyətlər arasındakı əlaqə düsturunu anlayaraq yazır. | İstilik miqdarının asılı olduğu fiziki kəmiyyətlər arasındakı əlaqə düsturunu təhlil əsasında yazır. | İstilik miqdarının asılı olduğu fiziki kəmiyyətlər arasındakı əlaqə düsturunu dəyərləndirərək yazır. |
| **İzahetmə** | Cismin xüsusi istilik tutumunun fiziki mahiyyətini anlamadan izah edir. | Cismin xüsusi istilik tutumunun fiziki mahiyyətini anlayaraq izah edir. | Cismin xüsusi istilik tutumunun fiziki mahiyyətinə münasibət bildirərək izah edir. | Cismin xüsusi istilik tutumunun fiziki mahiyyətini analiz-sintez aparmaqla izah edir. |
| **Hesablama** | Cismin xüsusi istilik tutumunu məlum fiziki kəmiyyətlərlə əlaqə düsturuna əsasən yalnız qrup fəaliyyəti zamanı hesablayır. | Cismin xüsusi istilik tutumunu məlum fiziki kəmiyyətlərlə əlaqə düsturuna əsasən anlayaraq hesablayır. | Cismin xüsusi istilik tutumunu məlum fiziki kəmiyyətlərlə əlaqə düsturuna əsasən təhlil aparmaqla hesablayır. | Cismin xüsusi istilik tutumunu məlum fiziki kəmiyyətlərlə əlaqə düsturuna əsasən sintez etməklə hesablayır. |

| | | | | |
|---|---|---|---|---|
| **Dəyərləndirmə** | Cismin xüsusi istilik tutumunun ədədi qiymətinin yoxlanmasına aid sadə təcrübələrlə aparır, nəticələrini qrup müzakirəsi əsasında dəyərləndirir. | Cismin xüsusi istilik tutumunun ədədi qiymətinin yoxlanmasına aid sadə təcrübələrlə aparır, nəticələrini müstəqil dəyərləndirir. | Cismin xüsusi istilik tutumunun ədədi qiymətinin yoxlanmasına aid sadə təcrübələrlə aparır, nəticələrini analiz etməklə dəyərləndirir. | Cismin xüsusi istilik tutumunun ədədi qiymətinin yoxlanmasına aid sadə təcrübələrlə aparır, nəticələrini qiymətləndirməklə dəyərləndirir. |
| **Məsələ qurma və həlletmə** | Cismin xüsusi istilik tutumunun təyininə aid müxtəlif xarakterli və məzmunlu sadə məsələlər qurur və həll edir. | Cismin xüsusi istilik tutumunun təyininə aid müxtəlif xarakterli və məzmunlu orta çətinlik dərəcəli məsələlər qurur və həll edir. | Cismin xüsusi istilik tutumunun təyininə aid müxtəlif xarakterli və məzmunlu ortadan yüksək çətinlik dərəcəli məsələlər qurur və həll edir. | Cismin xüsusi istilik tutumunun təyininə aid müxtəlif xarakterli və məzmunlu yüksək çətinlik dərəcəli məsələlər qurur və həll edir. |

*Analitik QS* – şagirdlər üçün nəzərdə tutulan konkret bacarıqların qabaqcadan planlaşdırılmaqla uzun müddət ərzində ardıcıl izlənilməsi və qiymətləndirilməsidir. Analitik qiymətləndirmənin başlıca xüsusiyyətləri aşağıdakılardır:

- analitik qiymətləndirmə əsasən sorğular və testlər əsasında aparılır;
- o, şagirdin ayrı-ayrı fəaliyyət sahələri üzrə qiymətlərini müəyyənləşdirir;
- qiymətləndirmədə ya beş (5), yaxud da on (10) ballıq şkaladan istifadə edilir;
- şagirdlərin fəaliyyəti ardıcıl qiymətləndirilməklə onların nailiyyətləri haqqında daha ətraflı məlumat əldə edilir;
- analitik qiymətləndirməyə uzun müddətli zaman tələb olunur.

Analitik qiymətləndirməyə nümunə olaraq VIII sinifdə məzmun standartının ölçü aləti kimi keyfiyyət xarakterli qrafik məsələni göstərmək olar.

Ölçü aləti (məsələ). Şəkil 2-də qalay və qurğuşunun temperatur-zaman qrafiki verilmişdir.

I sual. Qurğuşun qrafikin AB, qalay isə DE hissəsində maddənin hansı aqreqat halındadır? (1 bal)

II sual. Niyə qrafikdə DE parçası AB parçasından aşağıda yerləşir? (2 bal) III sual. Hansı maddə daha gec əridi? (1 bal)

IV sual. Hansı maddə əriməyə daha tez başladı? (1 bal)

V sual. Qurğuşun və qalayın ərimə temperaturları necə °C-dir? (1 bal)

VI sual. Qurğuşun və qalayın ərimə temperaturlarını kelvinlə necə ifadə etmək olar? (2 bal)

VII sual. Qrafikin uyğun olaraq BC və EF hissələri nəyi göstərir? (2 bal)

Bu tip tapşırıqlardan müntəzəm istifadə etməklə şagirdlərdə qrafikoxuma bacarıqlarının analitik ölçülməsi və qiymətləndirilməsinin izlənməsini cədvəl 3-dəki kimi göstərmək olar.




*Şəkil 2.*

***Cədvəl 3.***
*Şagirdlərin qrafikoxuma bacarıqlarının analitik qiymətləndirilmə nümunəsi*

| Göstəricilər | Fizika | | |
|---|---|---|---|
| | Oktyabr | Noyabr | Dekabr |
| Şagirdlərin sayı | | | |
| Çox yaxşı | 5 (20,8%) | 6 (25,0%) | 8 (33,3%) |
| Yaxşı | 7 (29,2%) | 8 (33,3%) | 8 (33,3%) |
| Orta | 8 (33,3%) | 4 (16,7%) | 5 (20,8%) |
| Zəif | 4 (16,7%) | 6 (25,0%) | 3 (12,5%) |
| Cəmi | 24 | 24 | 24 |

Qiymətləndirmə standartları hazırlanarkən aşağıdakı amillərə diqqət yetirilir:

- fənnin məzmunun standartlarının xüsusiyyətlərini, və fənnin özünəməxsus səciyyəsindən asılı olaraq əsas standartlarının hər birinə ayrılıqda olmaqla, bəzi hallarda isə qrup halında bir qiymətləndirmə sxemi tətbiq edilə bilər. Məsələn:




- fənnin məzmun standartları fənn üzrə təlim məqsədlərini ümumi deyil, dəqiq və müfəssəl ifadə edirsə, bu halda alt standartın hər birinə ayrılıqda 4 səviyyədə qiymətləndirilmə rubriki tətbiq edilə bilər. Məsələn, fizikadan VIII sinfin məzmun standartları fənnin təlim məqsədlərini ümumi şəkildə ifadə etdiyindən qiymətləndirmə standartlarını aşağıdakı sxemə uyğun müəyyən etmək olar:




Yuxarıdakıları nəzərə alaraq VIII sinif fizika fənni üzrə qiymətləndirmə standartlarının müəyyənləşdirilməsinə nümunə olaraq həmin sinfin 1.1.1. məzmun standartının qiymətləndirmə sxemini göstərmək olar (bax: cədvəl 4).

Cədvəl 4. VIII sinif fizika fənni üzrə qiymətləndirmə standartının müəyyənləşdirilmə nümunəsi.

| **1. Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar.** | |
|---|---|
| Məzmun standartları | Qiymətləndirmə standartları |
| **1.1. Fiziki hadisələrə dair bilik və bacarıqlar nümayiş etdirir.** | **Fiziki hadisələrə dair bilik və bacarıqlarının nümayiş etdirməsinə dair qiymətləndirmə sxemi.** |
| 1.1.1. İstilik və elektromaqnit (elektrik) hadisələrini və onların baş vermə səbəblərini şərh edir. | İstilik və elektromaqnit (elektrik) hadisələrini və onların baş vermə səbəblərini dəyərləndirərək şərh edir.<br>İstilik və elektromaqnit (elektrik) hadisələrini və onların baş vermə səbəblərini təhlil əsasında şərh edir.<br>İstilik və elektromaqnit (elektrik) hadisələrini və onların baş vermə səbəblərini anlayaraq şərh edir.<br>İstilik və elektromaqnit (elektrik) hadisələrini və onların baş vermə səbəblərini anlamadan şərh edir. |

Beləliklə, tədqiqatımızın yeniliyi – ümumi təhsil səviyyəsi üçün qiymətləndirmə standartlarının təyininə dair təkmilləşdirilmiş metod, praktik əhəmiyyəti isə – VIII sinif fizika fənni üzrə qiymətləndirmə standartının müəyyənləşdirilmə nümunəsi əsasında təkcə fizika deyil, ümumtəhsil müəssisələrinin bütün digər fənləri üçün də qiymətləndirmə standartlarının 4 səviyyədə hazırlanıb tətbiq oluna bilməsidir.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün fizika fənni üzrə təhsil proqramı (kurikulumu. VI-XI siniflər. – Bakı, 2013. – 80 s.
2. Mehdiyeva N.B. Formativ qiymətləndirmə vasitələri // Kurikulum, – 2018, cild 11, № 4, – s.23-31.
3. Benjamin S Bloom. Taxonomy of educational objectives. Book 1. Cognitive Do-main. -Нью-Йорк, Лонгманс, Грин, – 1956, – p.112.
4. Апанович В.В., Александров Ю.И., Знаках В.В. Конструирование блоков ана-литических и холистических задач и их эмприческая проверка // Вопросы психологии, – 2022, № 66 (4), – с. 142-154.


**E-mail:** r.abdurazaqov@arti.edu.az
zamirakicibekova@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **N.L. Axundov,**
*ped.ü.fəls.dok., dos.* **D.Z. Əliyeva**
**Redaksiyaya daxil olub**: 07.11. 2023

*UOT 372.853*

***Cüməli Kərim oğlu Qəniyev***
*texnika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Texniki Universitetinin*
*Mühəndis fizikası və elektronika kafedrasının dosenti*
*ORCİD: 0009-0000-5012-8350*

***Ramil Rəşadət oğlu İbrahimov***
*Azərbaycan Texniki Universiteti*

# FOTOLYUMİNESSENSİYA VƏ ANTİSTATİK XASSƏLİ YÜKSƏK TƏZYİQLİ POLİETİLEN MODİFİKASİYALARIN XÜSUSİ HƏCMİ ELEKTRİK MÜQAVİMƏTİNİN TEMPERATURDAN ASILILIĞININ TƏDQİQİ

***Джумали Керим оглы Ганиев***
*доктор философии по технике, доцент*
*кафедры Инженерной физики и электроники*
*Азербайджанского технического университета*

***Рамиль Рашадат оглы Ибрагимов***
*Азербайджанский технический университет*

# ИССЛЕДОВАНИЕ ТЕМПЕРАТУРНОЙ ЗАВИСИМОСТИ УДЕЛЬНОГО ОБЪЕМНОГО ЭЛЕКТРИЧЕСКОГО СОПРОТИВЛЕНИЯ ФОТОЛЮМИНЕСЦЕНИРУЮЩЕЙ И АНТИСТАТИЧЕСКОЙ КОМПОЗИЦИИ НА ОСНОВЕ ПОЛИЭТИЛЕНА ВЫСОКОГО ДАВЛЕНИЯ

***Jumali Kerim Ganiyev***
*doctor of philosophy in technique, associate professor*
*of the department of Engineering physics and electronics at*
*Azerbaijan University of Technology*

***Ramil Rashadat Ibrahimov***
*Azerbaijan Technical University*

# INVESTIGATION OF THE TEMPERATURE DEPENDENCE OF THE SPECIFIC VOLUME ELECTRICAL RESISTANCE OF PHOTOLUMINESCENSOR AND ANTISTATIC COMPOSITIONS BASED ON HIGH PRESSURE POLYETHYLENE

**Xülasə.** İşdə fotolyüminisensiya və antistatik xassəli yüksək təzyiqli polietilen modifikasiyalarının xüsusi həcmi dielektrik nüfuzluğunun temperaturdan asılılığı tədqiq edilmişdir. Göstərilmişdir ki, YTPE-nin tərkibinə 3 kütlə % nisbətində naftalan nefti əlavə edildikdə onun xüsusi elektrik müqaviməti $5{,}35 \cdot 10^{14}$ Om·m-dən $1{,}2 \cdot 10^{-3}$m-ə qədər azalır. Xüsusi müqavimətin temperaturdan asılılığı mono xarakteri ilə yüksək keçirici polimer kompozitlərin analoji asılılığından fərqlənirlər. JPTE-nə nisbətən kompozitlərin xüsusi müqaviməti daha kiçik temperaturlardan başlayaraq azalır.

***Açar sözlər:** YTPE, naftalan nefti, xüsusi həcmi elektrik müqaviməti*

**Резюме.** В данной работе изучены температурные зависимости удельного объемного электрического сопротивления фотолюминесценции антистатической полимерной композиции на основе полиэтилена высокого давления. Показано, что при добавки в ПЭВД 3масс% нафталановой нефти его

удельный объёмное сопротивление уменьшается от $5{,}35\cdot10^{14}$ Ом·м$^{-1}$ до $12\cdot10^{3}$ Ом·м$^{-1}$. При низких температурах относительно ПЭВД удельное объемное электрическое сопротивления у полимерной композиции уменьшается.

***Ключевые слова:*** *УТРЕ, нафталиновое масло, удельное объемное электросопротивление*

**Summary.** In this work, the temperature dependence of the specific volumetric electrical resistance of the photoluminescence of an antistatic polymer composition based on high-pressure polyethylene is studied. It is shown that when adding 3 mass% of naphthalene oil to PEVD, its specific volume resistance decreases from $5{,}35\cdot10^{14}$ Ом·м$^{-1}$ to $12\cdot10^{3}$ Ом·м$^{-1}$. At low temperatures, relative to PEVD, the specific volume electrical resistance of the polymer composition decreases.

***Key words:*** *UTPE, naphthalene oil, specific volumetric electrical resistance*

Polimer kompozitləri və polimer örtüklərinin alınmasında istifadə olunan istiqamətləndirilmiş tədqiqatlar içərisində fotolüminessensiya üsulu əvəzsizdir. Qeyd etmək lazımdır ki, aşqarlı polimerlərdə fotolüminessensiya prosesinin fotosunu çəkməklə, kiçik ölçülü dispers fəzanın sərhəddini və onun yerini müəyyən etmək mümkündür. Bu işdə 15803-00 markalı yüksək təzyiqli polietilen (YPTE) əsasında alınmış fotolüminessensiya və antistatik xassəyə malik polimer modifikasiyaları alınmış və tədqiq edilmişdir.

İlkin maddə olan JTPE-ə əsasən mexaniki qarışdırma yolu ilə 0,1~0,5 kütlə% naftalan nefti (ntn) əlavə edilmişdir. Sonra isə ЛРП-700 markalı sənaye qurğusunda dənəvari JTPE və kompozisiyalardan bircins təbəqələr formalaşdırılmışdır. Alınmış təbəqələrdən diametri $4\cdot10^{-2}$ olan disk şəkilli nümunələr kəsilmiş və onların hər iki üzünə diametri $3\cdot10^{-2}$m olan Al-elektrodlar preslənmişdir. Nümunələrin qalınlığı $(1\cdot1{,}2)\cdot10^{-4}$m olmuşdur. Nümunələrin müqavimətini ölçmək üçün onlar qızdırıla bilən xüsusi kameradakı paslanmayan poladdan hazırlanmış dairəvi elektrodlar arasında yerləşdirərək E6-13A tipli teraommetr cihazına birləşdirilir. Dielektrik nüfuzluğu (ε) isə P-589 tipli cihazla 1 khs tezliyində yuxarıda təsvir edilən konstruksiyada elektrik tutumunu ölçməklə hesablanmışdır. Hər iki parametr 293-423K temperaturlar intervalında və kameranın qızdırılma sürəti $\beta=0{,}025$K·san$^{-1}$ olduqda ölçülmüşdür. [1-3]

Şəkil 1-də JPTE+0,3 kütlə% HTH kompozisiya üçün $(\rho_v)$ $5{,}2\cdot10^{14}$ Om·m-dən $1{,}15\cdot10^{13}$Om·m-ə qədər azalması müşahidə olunmuşdur.




***Şəkil 1.*** *YTPE-nin xüsusi həcmi elektrik müqavimətinin HTH əlavəsinin kütlə faizindən asılılığı.*

Şəkil 2-də isə alınmış kompozitlərin xüsusi həcmi elektrik müqavimətinin temperaturdan asılılığı $[\lg\rho_v=f(T)]$ verilmişdir. Bu asılılıqdan görünür ki, nümunələrin xüsusi müqavimətləri müəyyən temperatura qədər sabit qalır, sonra isə monoton olaraq azalmağa başlayır. Komponentlərdə $\rho_v$-nin azalması JTPE-ə nisbətən daha kiçik temperaturda baş verir. Bütün hallarda bu azalma monoton xarakteri ilə yüksək elektrik keçiriciliyinə malik polimer kompozitlərin analoji asılılığından kəskin fərqlənir (həmin kompozitlərdə 10-20 $^0$C intervalında) $\rho_v$-nin bir neçə tərtib böyüməsi, bundan sonra isə bir o qədər də kəskin düşməsi müşahidə edilir.



***Şəkil 2.** YTPE və onun kompozisiyalarının xüsusi həcmi elektrik müqavimətinin temperaturdan asılılığı.*

Elmi ədəbiyyatda [4-5] analoji işlər, yəni əlavələrin poliolefinlərin fiziki-mexaniki istilik, elektrik və başqa xassələrinə təsiri haqqında kifayət qədər məlumat var. Bu işlərin analizi göstərir ki, əlavələr polimerlərin bir çox xassələrini dəyişdirir.

Qeyd etmək lazımdır ki, bu tədqiqatlar əsasən, çox dar konsentrasiyalar diapazonunda aparılmışdır. Bununla yanaşı geniş konsentrasiyalar diapazonunda, az miqdarda əlavələrlə xüsusi diqqət yetirməklə, aparılan tədqiqatlar polimerlərin hissələrinin dəyişməsinin tam mənzərəsini verə bilər. Kristallaşan poliolefinlərlə əlavələrin daxil edilməsi polimerlərin üst molekulyar strukturuna əhəmiyyətli təsir göstərir. Bu zaman poliolefinlərdə sferolitlərin ölçüləri onların morfologiyası və paylanması geniş intervalında dəyişir.

Beləliklə, göstərilmişdir ki, optimal tərkibli (JTPE+0,3 kütlə% HTH) polietilen modifikasiyasının xüsusi elektrik müqavimətinin temperatur asılılığının monoton xarakteri ilə yüksək keçirici polimer kompozitlərin analoji asılılığından fərqlənir. Belə ki, əlavəsiz JTPE-nə nəzərən, onun əsasında alınan polimer modifikasiyalarının xüsusi həcmi elektrik müqavimətinin daha kiçik temperaturlarda müşahidə olunur. Müəyyən edilmişdir ki, JTPE-nin dielektrik nüfuzluğunun istifadə olunan HTH əlavəsinin kütlə faizdən asılılığı qeyri monoton xarakter daşıyır.

**Problemin aktuallığı.** Lüminessensiya fiziki hadisə kimi özünün çoxsahəli və mühüm texniki tətbiqlərinə görə mühüm əhəmiyyətə malikdir. Fotolüminessensiya hadisəsinin gələcək perspektiv inkişafı onun əsasında yeni fotospektrometrlərin yaradılması tələbini qarşıya qoyur. Polimer kompozitlərin və polimer örtüklərinin alınmasında istifadə olunan istiqamətlənmiş tədqiqatlar içərisində fotolüminessensiya üsulu aktual və əvəzsizdir.

**Problemin yeniliyi.** Bu işdə, effektiv fotolüminessensiya və antistatik xassəsi ilə fərqlənən yeni polimer kompozisiya materialı alınmışdır və onların kompleks şəkildə fiziki xassələri tədqiq olunmuşdur.

**Problemin praktik əhəmiyyəti.** Bu işdə, effektiv fotolüminessensiya və antistatik xassəsi ilə fərqlənən yeni polimer kompozisiya materialı alınmışdır və onların kompleks şəkildə fiziki xassələri tədqiq olunmuşdur.

## Ədəbiyyat:


1. Шевченко В.Г. основы физики полимерных композиционных материалов. – Москва, 2012, – 99 с.
2. Слуцкер А.И. 2003. Журнал технический физики 78(II) 71-74.
3. Э.М. Годжаев, А.А. Абдурагимов, Ф.Ш. Керимов, С.И. Сафарова. Исследование электрической прочности модифицированного ПЭВД при одновременном воздействии механических и электрических силовых полей. АзТУ Журнал Научные труды, фундаментальной науки, – Баку, 2018. – с.56-59.
4. Нестеров А.А., Макаров А.Е., Москалев В.А., Вахрушева Ю.Н. Электрические свойства композиционных материалов на основе натурального графита и полиэтилена. Журнал Современное проблемы науки и образований. – Пермь, 2014. №6, – с.156.
5. Власов С.В., Кандырин Л.Б., Кулезнов В.Н. и др. Основы технологии переработки пластмасс. – М.: «Химия», – 2004. – с.25.


**E-mail:** ibrahimovramil3003@gmail.com

**Rəyçilər:** *ped.elm.dok., prof.* **H.H. Əhmədov,**
*ped.ü.fəls.dok., dos.* **N.L. Axundov**
**Redaksiyaya daxil olub:** 31.10.2023

***KİMYANIN TƏDRİSİ METODİKASI***
***МЕТОДИКА ПРЕПОДАВАНИЯ ХИМИИ***
***METHODS OF TEACHING CHEMISTRY***

*UOT 372.854*

***Mütəllim Məhərrəm oğlu Abbasov***
*pedaqogika elmləri doktoru*
*orcid: 0009-0003-3736-55-64*

***Sara Mütəllim qızı Abbaszadə***
*kimya elmləri doktoru*
*Neft-Kimya Prosesləri İnstitutunun aparıcı elmi işçisi*

***Mətanət Sərxan qızı Nuriyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi*
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*orcid: 0009-0000-7461-9912*
*orcid: 0009-0009-9344-7496*

# ŞAGİRDLƏRİN KİMYADAN ƏLDƏ ETDİKLƏRİ BİLİK VƏ BACARIQLARIN QİYMƏTLƏNDİRİLMƏSİNDƏ MÜƏLLİMİN MÜŞAHİDƏSİNİN ƏHƏMİYYƏTİ

***Муталлим Мухаррам оглу Аббасов***
*доктор педагогических наук*

***Сара Муталлим гызы Аббасзаде***
*доктор химических наук*
*ведущий научный сотрудник Института Нефтехимических процессов*

***Матанат Сархан гызы Нуриева***
*преподаватель Азербайджанского государственного педагогического университета,*
*диссертант по программе доктора философии*

# ЗНАЧИМОСТЬ НАБЛЮДЕНИЙ УЧИТЕЛЯ ПРИ ОЦЕНИВАНИИ ЗНАНИЙ И УМЕНИЙ, ПОЛУЧЕННЫХ УЧАЩИМИСЯ ПО ХИМИИ

***Mutallim Muharram Abbasov***
*doctor of pedagogical sciences*

***Sara Mutallim Abbaszadeh***
*doctor of chemical sciences*
*leading researcher at the Institute of Petrochemical Processes*

***Matanat Sarkhan Nurieva***
*lecturer at the Azerbaijan State Pedagogical University,*
*doctorial student in the program of doctor of philosophy*

# THE SIGNIFICANCE OF TEACHER OBSERVATIONS IN ASSESSING THE KNOWLEDGE AND SKILLS OBTAINED BY STUDENTS IN CHEMISTRY

**Xülasə.** Məqalədə kimyəvi kinetikaya aid mövzuların tədrisində müəllimin müşahidəsi ilə şagirdlərin əldə etdikləri yeni biliklərinin praktik və laboratoriya işlərinə tətbiq etmələri zamanı eksperimental bacarıq

və vərdişlərinin yoxlanılması metodları ön plana çəkilmişdir. Məqalədə həmçinin şagirdlərdə mövzu ilə əlaqədar prosedural və konseptual biliklərin inkişaf etdirilməsi istiqamətində onların biliklərinin düzgün qiymətləndirilməsi məqsədilə kontrol praktiki işlərin əhəmiyyətindən bəhs olunur.
***Açar sözlər:*** *praktik məşğələ, laboratoriya məşğələsi, ev eksperimenti, kimyəvi maddə, filtr, modelləşdirmə*

**Резюме.** В статье на первый план выдвигаются методы проверки экспериментальных умений и навыков учащихся при применении ими новых знаний в практической и лабораторной работе под наблюдением учителя при преподавании тем, связанных с химической кинетикой. Также в статье повествуется о важности контрольных практических работ с целью правильного оценивания знаний учащихся в целях развития процессуальных и понятийных знаний, связанных с предметом.
***Ключевые слова:*** *практическое занятие, лабораторное занятие, домашний эксперимент, химическое вещество, фильтр, моделирование*

**Summary.** The article highlights methods for testing the experimental skills of students when they apply new knowledge in practical and laboratory work under the supervision of a teacher when teaching topics related to chemical kinetics. The article also talks about the importance of practical tests in order to correctly assess students' knowledge in order to develop procedural and conceptual knowledge related to the subject.
***Key words:*** *practical lesson, laboratory lesson, home experiment, chemical substance, filter, modeling*

Hal-hazırda kimyəvi bacarıq və vərdişlərə müxtəlif ədəbiyyatlarda aşağıdakılar aid edilir:

1) Laboratoriyadakı müxtəlif cihazlar, ləvazimatlarla davranma, maddələrin təyini və alınması əsasında təcrübələr icra etmək bacarığı – praktik bacarıq və vərdişlər;

2) Planın tərtibi, suallara cavab vermək, təcrübələrin və sxemlərin təsviri, hesabatlar hazırlamaq – bacarıq və vərdişlərin qeydə alınması (fiksasiyası);

3) İntizamlılıq, iş vaxtına qənaət, təmizlik, laboratoriya avadanlıqları ilə ehtiyatlı davranma – əməyin təşkili bacarığı və vərdişi.

Müəllim müşahidəsi altında şagirdlərin praktik və laboratoriya işlərinin yerinə yetirdiyi zamanın eksperimental bacarıq və vərdişlərin yoxlanılması, eləcə də kinofilmlərin və diapozitivlərin nümayişi, ekskursiya aparılır. Müəllim laboratoriya jurnalında şagirdlərin icra etdikləri praktik iş və laboratoriya təcrübələrinin nəticələrini daimi olaraq qeyd edir. Laboratoriya jurnalında şagirdlərin səhvləri və müvəffəqiyyətləri də müəllim tərəfindən qeyd olunmalıdır.

Müəllimin müşahidəsi müddətində şagirdlərin müstəqil işlərinə hökmən fərdi yanaşmanın lazım olduğunu qeyd etmək lazımdır. Müəllim müşahidəsinin məqsədi – yalnız şagirdin bacarıq və vərdişlərinin, mənimsədikləri biliyin yoxlanılması deyil, eləcə də tədris müddətində onlara kömək etməkdir.

Müəllimin zəif oxuyan uşaqları müşahidə etməsi xüsusi əhəmiyyətə malikdir. Yaxşı, diqqətlə təşkil edilmiş müşahidənin aparılması zəif biliyə malik şagirdlərə düzgün pedaqoji təsir edir, yalnız onların biliyində müşahidə edilən əskikləri aradan qaldırmır, eləcə də onlarda kimya fənninə marağı artırır.

Şagirdlərin praktik bacarıq və vərdişlərinin qazandıqları biliyin üzə çıxarılması üçün şagirdlərin müstəqil işlərinin bir neçə növünün əhəmiyyətini aydınlaşdıraq.

Şagirdlərin müstəqil işlərinin icra edilməsi müddətində yoxlama. Bacarıq və vərdişlərin, qazanılmış biliyin yoxlanılması üçün dərsdə şagirdlərin kitabla müstəqil işləməsi xüsusi əhəmiyyətə malik olur.

Şagirdlərin əldə etdikləri biliyin yoxlanılması üsullarından biri suallara cavab verməsi və oxuduğunu müstəqil olaraq çertyojların, şəkillərin, sxemlərin, qrafiklərin və planın müstəqil olaraq tərtib olunmasına əsaslanır.

Praktik işlərin və laboratoriya təcrübələrinin qiymətləndirilməsi və yoxlanılması müəllimin müşahidəsi əsasında şagirdlərin işi icra etmələri və suallara cavablarına görə aparılır.

Şagirdlərin əldə etdikləri bacarıq, biliyin praktik iş zamanı yoxlanılmasının böyük əhəmiyyəti vardır. Laboratoriya təcrübələrin, praktik məşğələlərin başlıca məqsədi qazanılmış bacarıq və vərdişlərin, mənimsənilmiş biliyin möhkəmləndirilməsidir. Nəzərə almaq lazımdır ki, şagirdlərin icra etdikləri praktik işlər barədə hesabatı evdə yazılmağa icazə verilməlidir. Ona görə ki, şagirdlər praktiki işləri əsasən müstəqil yerinə yetirmirlər.

Şagirdin icra etdiyi praktiki işə qiymət verilməsi müəllimin müşahidəsi və şagirdin praktik iş barəsində hesabat əsasında aparılmalıdır. Baxmayaraq ki, praktiki işin gedişi müddətində qüsurların şifahi olaraq tutulması əhəmiyyətlidir, lakin həmişə nəzərdə tutulan məqsədə çatmır, çünki yaddan çıxa bilər. Əksər kimya müəllimləri müxtəlif praktik işlər üzrə bacarıqlar sırası işləyib hazırlayır. Praktiki işin icrası müddətində bu bacarıqları müşahidə edərək qeyd edir. Müəllim özünün dəftərində şagirdin spirt lampasını söndürməyi, filtr hazırlamağı bacarmasını, spirt və ya qaz lampasından kimyəvi maddənin düzgün qızdırmamasını, dəmir ştativdən istifadə edə bilməməsini, kimyəvi maddə ilə düzgün davranma qaydalarını bilmədiyini qeyd edir.

Müəllim müşahidəni asanlaşdırmaq və müşahidəyə ayrılan zamanı qənaət etməyə imkan verən müşahidə nəticələrini qeyd etməyi təşkil etməkdən ötəri müxtəlif sxemlərdən istifadə edir. Onlardan birini göstərərək:

1) Şagirdin adı və soyadı.

2) Praktik işi əvvəlcədən evdə hazırlaşmasını.

3) Praktiki işin yerinə yetirilməsi texnikasını.

4) Praktik iş üzrə hazırladığı hesabatın keyfiyyəti.

5) Təmizlik, ehtiyatlılıq şəklində ümumi əmək mədəniyyəti.

Müəllim müşahidə zamanı hansı şagirdlərin qiymətləndirəcəyini əvvəlcədən seçir və praktiki işin gedişi zamanı onların icra etdikləri praktik işi daha dərindən müşahidə edir, dərsin bitdiyi zaman onların iş dəftərlərini yığıb və icra edilmiş praktik işin keyfiyyətinə diqqət yetirərək öz dəftərində onları qiymətləndirir.

Şagirdlərin əldə etdiyi bacarıq, vərdişlərin və biliyin yoxlanılması və qiymətləndirilməsində kontrol praktik işin əhəmiyyəti daha böyükdür. Ona görə də onları fərdi tapşırıq formasında təşkil etmək xüsusən əhəmiyyətlidir, o da hər bir şagirdin işini qiymətləndirməyə imkan yaradır. Belə qiymətləndirmə yuxarı sinif şagirdlərində kimyaya daha çox maraq yaradır, lakin bu cür qiymətləndirmədən aşağı sinif şagirdləri üçün də istifadə etmək olardı. Kontrol praktika işi qiymətləndirərkən yalnız iş barədə hesabatın məzmunu deyil, praktik işin aparılması keyfiyyəti nəzərə alınmalıdır.

Kimyəvi maddələrin alınması, eksperimental tapşırığın həlli və s. praktik işin məzmunu ola bilər. Kontrol praktik işi yerinə yetirmək üçün şagirdlər xüsusi maraq göstərirlər. Kontrol işlərin məqsədi detallardan cihaz quraşdırmaq, təchizat materiallarını sərbəst yoxlamaq, laboratoriya təcrübələrini aparmaq, eksperimental məsələni həll etmək bacarığını yoxlamaqdır.

Müəllim sinifdə praktik iş zamanı bütün şagirdləri praktik iş müddətində müşahidə edir.

Müşahidəni qeyd etmək üçün müəllim öz dəftərində praktik işin icrası müddətində tətbiq edilən formanı təklif etmək olar. Kontrol iş zamanı aparılan müşahidə çox diqqətli olmalıdır.

Təklif olunur ki, kontrol praktik işlərin icra edilməsin zamanı sinif şagirdlərinin hamısının işinə ümumi müsahibədən başqa 6-9 şagirdin yerinə yetirdiyi işə xüsusi nəzarət etmək lazımdır.

Praktik işlərin ümumi qiymətinə şagirdlərin hesabatlarının yoxlanması zamanı praktik bacarıq və vərdişlər üzrə aldıqları qiymət də daxildir.

Şagirdlərin praktik bacarıq və vərdişlərinin üzə çıxarılması üçün 5-7 şagirdin ayrıca qiymətləndirilməsi daha düzgün olardı.

Kimya kabinetində şagirdlərin növbəti praktik işləri icra etməsi zamanı praktiki iş həyata keçirmək üçün başqa şagirdləri seçməli və müəllim onların icra etdikləri işləri müşahidə etməsi məqsədə müvafiqdir. Bəzi növbəti praktik işlərdə zəif oxuyan şagirdləri qiymətləndirmək üçün daha az sayda yaxşı oxuyan şagirdləri müşahidə etmək mümkündür.

Şagirdin evdə yerinə yetirmiş praktiki işin nəticəsində aldıqları biliyin yoxlanılması məqsədəmüvafiqdir. Şagirdlərin müstəqil iş növlərindən biri də evdə praktik işdir. Evdə praktik işlərin həyata keçirilməsi məcburi deyildir, lakin şagirdləri kimyaya marağı artırmaq üçün onu şagirdlərə təklif etmək olar.

Evdə praktik işlərə kolleksiyaların, cədvəllərin, sxemlərin hazırlanması, cihazların konstruksiyasının və s. aid edilə bilər.

Evdə praktik işlərin yeni yetirilməsi üçün tələb olunan reaktivlər və zəhərli və yanıcı olmamalıdır və işə başlamamışdan öncə müəllim tərəfindən şagirdə verilməlidir.

Evdə yerinə yetirilmiş praktik işlərin nəticələri şagird tərəfindən hesabat formasında qeydə alınmalıdır.

Evdə praktik işləri icra edilməsini yoxlamaq və müşahidə etmək üçün aşağıdakı kontrol yoxlama formalarından istifadə etmək olar: şəkillərə, cihazlara, sxemlərə baxış, dərsin gedişi zamanı bir-iki şagirdin praktik iş aparılan cihazı nümayiş etdirməsi, qısa yazılı hesabatların yoxlanılması, şagirdlərin sərbəst olaraq hazırladıqları cihazlarla praktik işin icra edilməsi, kimya dərslərində modellərdən kolleksiyalardan istifadə edilməsi.

Evdə icra edilən praktik işlərin icranın nəticələrinin qeydə alınması mənimsənilmiş biliyin yoxlanılması zamanı fərdi yanaşmanı tətbiq etmək üçün mühüm əhəmiyyətə malikdir. Kimyaya marağı olan şagirdləri üzə çıxarmaq üçün müəllimə kömək edir, müəllimə şagirdlərin qazandıqları bacarıq, vərdişlər və biliyi qiymətləndirməyə şərait yaradır.

Ekskursiya zamanı toplanmış materiallar əsasında şagirdlərin mənimsədiyi biliyin yoxlanılması ekskursiyadan sonrakı dərsdə həyata keçirilməsi daha doğru olar. Qiymətləndirilmə aparılacaq dərsə kimi şagirdlər ekskursiya materiallarını mütləq formaya salmalı və müəllimin verdiyi suallara cavab hazırlamalıdırlar. Müəllim tərəfindən aparılan sorğu-sual yalnız şagirdlərin əldə etdiyi nəzəri biliyi yoxlamalı, həm də şagirdlərin ekskursiya materialını necə mənimsədiyini müəyyən etməlidir. Ekskursiya materiallarına əsasən yazılı hesabat sinif lövhəsində çəkilmiş cədvəl, sxem həm də ekskursiya edilmiş istehsal sahəsi üzrə yaradılmış model, kolleksiya əsasında hazırlanmalıdır.

Şagirdlərin ekskursiya zamanı kimyadan əldə etdikləri bilik, kimyanın müəyyən bir mövzusunun dərk edilməsi üçün mütləq istifadə edilməlidir və onu praktikada həyata keçirməlidir. Ekskursiyanın hesabatını aparmaq və ekskursiyanın nəticələrinə görə şagirdlərin mənimsədiyi biliyi yoxlamaq yalnız sinifdən kənar işlərdə həyata keçirilməsi daha doğru olardı. Ekskur-siyanın nəticələrinə əsasən şagirdləri fərdi yoxlamadan başqa şagirdlərlə müvafiq konfrans keçirmək lazımdır.

Ümumtəhsil məktəblərinin kimya kabinetlərində aparılması mümkün olmayan praktik işləri kinofilmlər və diapozitivlərin köməyi ilə nümayiş etdirmək olar və bu zaman yoxlamanı həyata keçirmək mümkündür. Fərdi tapşırıqlardan da biliyin yoxlanılmasında istifadə etmək olar. həm nəzəri, həm də praktik xarakterli müxtəlif müstəqil işlərdən müəllim tədris praktikasında istifadə edə bilər. Şagirdlərin mənimsədikləri bilik, bacarıq və vərdişləri tam yoxlamağa, onların fərdi xüsusiyyətlərini nəzərə almaqla tərtib edilmiş tapşırıqlar imkan verir, zəif oxuyan şagirdlərin biliyindəki əskiklikləri aradan qaldırmağa şərait yaradır.

Əsas tapşırığa fərdi tapşırığı əlavə kimi vermək daha düzgün olar. Dərsin mövzusunun məqsədi və məzmunundan asılı olaraq fərdi tapşırıqlar şagirdin bilik səviyyəsinə əsasən dərsdə və ya evdə icra edilə bilər. İstənilən fərdi işi icra etmək üçün vaxt ayrılmalıdır. Fərdi tapşırıqları icra edən zaman şagirdlərin bilik səviyyəsini, onların kimyaya marağını və praktik iş görmək qabiliyyətini nəzərə almaq lazımdır. Zəif oxuyan şagirdlərdəki biliyin əskiklikləri aradan qaldırılmaqdan ötəri onlara təkrar tapşırıqlar vermək daha doğru olardı. Sərbəst işləməyə bacarığı olmayan şagirdlərə müəllimin aşağıdakı məsləhətləri və köməyi lazımdı, tapşırığın həlli planını vermək, laboratoriya təcrübələrində işin aparılma ardıcıllığını söyləmək, praktik işi və ya laboratoriya təcrübəsini icra etmək üçün lazım olan nəzəri hissənin yerini dərslikdə göstərmək. Belə şagirdlərə dərslikdə mövzu üzrə oxunacaq materiallar əsasında konspekt yazmağa müəllim kömək etməlidir.

**Problemin aktuallığı.** Kimyəvi kinetikaya aid mövzuların tədrisində şagirdlərin aktiv idrak fəaliyyətlərinin təmin edilməsi ilə əldə etdikləri yeni biliklərin yeni situasiyalarda düzgün tətbiq etmə bacarıqlarının inkişaf etdirilərək bu bacarıqların dəqiq yoxlanılması və qiymətləndirilməsi metodlarının müəyyən edilməsidir.

**Problemin elmi yeniliyi.** Mövzu ilə əlaqədar yeni metodların hazırlanması və tövsiyələrin verilməsi.

**Problemin praktik əhəmiyyəti.** Şagirdlərin mövzu ilə əlaqədar eksperimental bacarıq və vərdişlərinin yoxlanılması istiqamətində düzgün qiymətləndirmə vasitələrinin hazırlanması ilə bağlı verilən tövsiyələrdən metodika sahəsində tədqiqat aparanlar faydalana bilərlər.

**Ədəbiyyat:**

1. M.M. Abbasov, V.M. Abbasov, V. Əliyev, G. Quliyeva, N. Abışov 7-ci siniflər üçün Kimya dərsliyi. – Bakı: Aspoliqraf, – 2018. – s.6-10
2. Zülfüqarova A.V. Ümumtəhsil məktəblərində kimyadan eksperimentlərin təşkili və həyata keçirilməsi yolları // Kimya məktəbdə. – 2017, № 4. – s. 94-97
3. Zülfüqarova A.V. Kimya fənninin tədrisində praktik metodların tətbiqi // Azərbaycan məktəbi. – 2017, №4. – s. 58-62

**E-mail:** metanet.nuriyeva91@gmail.com
mutellimabbasov57@gmail.com
sara.abbaszade578@gmail.com
**Rəyçilər:** *kimya.ü.fəls.dok., dos.* **R.M. Ağayeva,**
*kimya.ü.fəls.dok., dos.* **G.G. Şəfaqətova**
**Redaksiyaya daxil olub:** 10.10.2023

*UOT 372.854*

***Nigar Yasin qızı Babayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi,*
*kimya üzrə fəlsəfə doktoru*
*ORCİD İD:0000-0001-8954-7210*

***Aynur Muxram qızı Cəlilova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ŞAGİRDLƏRDƏ PRAKTİK BACARIQ VƏ VƏRDİŞLƏRİN İNKİŞAF ETDİRİLMƏSİNİN ÜSULLARI

***Нигяр Ясин гызы Бабаева***
*старший преподаватель Азербайджанского государственного педагогического университета,*
*доктор философии по химии*

***Айнур Мухрам гызы Джалилова***
*Азербайджанский государственный педагогический университет*

# СПОСОБЫ РАЗВИТИЯ ПРАКТИЧЕСКИХ УМЕНИЙ И НАВЫКОВ УЧАЩИХСЯ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

***Nigar Yasin Babayeva***
*head teacher of Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in chemistry*

***Aynur Mukhram Jalilova***
*Azerbaijan State Pedagogical University's*

# STRATEGIES TO HELP STUDENTS IN SECONDARY SCHOOLS ACQUIRE USEFUL SKILLS AND HABITS

**Xülasə.** Göstərilmişdir ki, çətin proses olan kimyəvi biliklərin mənimsənilməsi şagirdlərin diqqət və iradəsinin, intellektual imkanlarının, kimyəvi eksperimentə aid praktiki bacarıq və vərdişlərinin səfərbərliyə alınmasını tələb edir. Qeyd olunmuşdur ki, kimyanın öyrənilməsi rolunu oynayan mənimsənilmiş kimya dili üç komponentdən ibarət olmaqla vaxta, enerjiyə qənaət vasitəsidir və kiçik həcmli faktik materialla daha çox bilik vermə prosesi həyata keçirilir.

***Açar sözlər:*** *kimyəvi bilik, praktiki bacarıq, vərdiş, intellektual imkan, kimya dili*

**Резюме.** В статье отмечено, что освоение химических знаний, являющееся сложным процессом, требует мобилизации внимания и воли учащихся, а также интеллектуальных возможностей, практических умений и навыков, связанных с химическими экспериментами. Было указано, что освоенный язык химии, играющий роль при ее изучении, состоит из трех компонентов. Является средством, экономящим время и силы, а процесс передачи большего количества знаний осуществляется с использованием небольшого количества фактического материала.

***Ключевые слова:*** *химические знания, практические умения, навыки, интеллектуальные возможности, язык химии*

**Summary.** Research indicates that acquiring chemical knowledge is a challenging endeavour that necessitates the focus and determination of students, as well as their intellectual capacity and practical skills and habits pertaining to chemical experiments. It was observed that the learned chemical language, which

serves as a study aid for chemistry, has three parts, saves time and energy, and allows for the dissemination of greater knowledge with a minimal quantity of factual information.

***Key words:*** *chemical knowledge, practical skill, habit, intellectual ability, chemical language*

Şagirdlərdə praktik bacarıq və vərdişləri inkişaf etdirərək, aşağıdakı bacarıqları formalaşdırmaq olar: müxtəlif məlumat mənbələrindən istifadə edərək məlumat toplamaq, onları sistemləşdirmək, müqayisə etmək, təhlil etmək, ümumiləşdirmək, bilikləri praktiki məsələlərlə möhkəmləndirmək. Həm dərsdə, həm də dərsdən kənar vaxtlarda müstəqil fəaliyyətlər təşkil etmək və şagirdlərin, kimyanın öyrənməsinə marağının formalaşmasına yönəltmək müəllimin vəzifəsidir. Çətin proses olan biliklərin mənimsənilməsi şagirdlərin intellektual imkanlarını, diqqət və iradəsini səfərbərliyə almağı tələb edir. Kimyanın tədrisində şagirdlərin zehni fəaliyyətlərinin inkişaf etdirilməsində müasir təlim texnologiyalarından istifadə edilməsi, şagirdlərdə praktik bacarıq və vərdişlərin inkişaf etdirilməsi ön plana keçir. Şagird dərketmə prosesində əvvəllər əldə etdiyi biliklərdən yaradıcılıqla istifadə edir. Zehni fəaliyyətlərin inkişaf etdirilməsi və biliklərin əldə edilməsi bir-biri ilə bağlı proseslərdir. Kimyanın tədrisinin əsas prinsipləri kimyadan məlumatlı və davametdirici (inkişafetdirici) funksiyaların həyata keçirilməsidir. Kimyanın əsas anlayış və qanunlarının seçilməsi kimyadan faktiki materialın yadda saxlanılması yükünü azaldır. Bunun nəticəsində az miqdarda faktiki materialla daha çox bilik vermək prinsipi həyata keçirilir.

Orta məktəblərdə tədris prosesində şagirdlərin mənimsədikləri materialları düzgün anlamaq və ifadə etmək bacarığının inkişaf etdirilməsi ən vacib məsələlərdən sayılır. Bu cəhətdən kimya elminin özünəməxsus simvolik dilə malik olmasını burada qeyd etmək məqsədəuyğun hesab olunur (1). Məlumdur ki, kimya fənni bütün digər elm sahələri ilə ən geniş əlaqəsi olan elm sahəsidir. Belə ki, həm canlı orqanizmlərə aid olan elm sahələrində, həm də qeyri-üzvi aləmi əhatə edən tədqiqatlarda kimyanın simvolik dilinin tətbiqi nəticələrindən istifadə olunur (2). Ümumi halda kimya dili, kimyanın simvolik dili dedikdə kimyanın əsas kateqoriyaları (xassə, tərkib, quruluş), qanun və qanunauyğunluqları, anlayışları, əsas kimyəvi terminlər, kimyəvi işarə, kimyəvi formul, reaksiya, tənlikləri və s. başa düşülür. Kimyəvi nomenklatura, yəni kimyəvi maddələrin adlandırılması üsulu kimya dilini (eləcə də digər təbiət elmləri dillərini) adi dillərdən fərqləndirən əsas amildir. Başlıca fərqli cəhət isə kimya dilinin yazılı formasının onun şifahi formasına nisbətən çox-çox vacib və zəngin olmasıdır. Təsadüfi deyil ki, KFTMM üzrə magistratura ixtisaslaşmasında “Təfəkkürün inkişafında kimya dilinin rolu” fənni ayrıca olaraq keçilir.

Ümumtəhsil məktəblərində təbiət elmlərinin tədrisi təbiətə aid sistemli biliklə yanaşı, biliklərin mənimsənilməsi yollarını da göstərir. Təbiət elmlərinin tanınmış alimləri şagirdlərə təqdim etdikləri bilikləri mənimsəmələri üçün onlardan zehni fəaliyyət tələb olunur. Başqa sözlə, şagirdlər mənimsədikləri bilikləri yenidən kəşf etmiş olur və onun sevincini yaşayır. Ona görə də kimyadan təlim prosesi şagird üçün maraqlı olur. Şagirdin məqsədyönlü fəaliyyəti onun səmərəli fəaliyyətinə təkan vermiş olur. Zehni fəaliyyətlə mənimsəmə prosesində yadasalma, dərketmə əsasında yeni elmi fikrin yaradılması və onun üzərində müxtəlif tədqiqatlar aparılması həyata keçirilir. Problemli yaradıcı məsələlərin həlli prosesində şagirdə tam müstəqillik verilir, onun əldə etdiyi biliklər əsasında yeni, daha səmərəli həll üsulu irəli sürməyi təklif edilir. Şagirdlərdə məsələ həll etmək bacarıqları formalaşdıqdan sonra onlar təklif olunan məsələlərlə yanaşı yeni məsələlər də tərtib edə bilərlər. Şagird problemli-yaradıcı məsələləri həll edərkən səbəb-nəticə əlaqələrindən başqa ona məlum olmayan yeni əlaqə formalarını da müəyyən edir, daha doğrusu, yeni biliyi özü tərtib etmiş olur. Bu da şagirdin zehni fəaliyyətinin piki hesab olunur (3)

Şagirdlərin idrak fəaliyyətlərinin daim yüksəldilməsi, onların yaradıcılıq qabiliyyətlərinin daim inkişaf etdirilməsi, kimyaya aid tədris materialının mənimsənilməsində fəallıq və müstəqilliyin artırılması qarşıdakı əsas vəzifələrdir. Kimya tədrisində şagirdlərin tədqiqatçılıq fəaliyyəti aşağıdakı mərhələlərlə həyata keçirilir:

1. Hadisələrin müşahidə olunması;
2. Metodoloji və dünyagörüşü səviyyəsində analiz;

3. Fərziyyə və ya müddəanın müəyyən olunması;

4. Metodikanın hazırlanması;

5. Eksperimentin qiymətləndirilməsi.

Kimya təhsilində tədqiqatçılıq fəaliyyəti şagirdlərin həqiqəti dərk etmələrinin real yoludur (3). Kimya fənninin tədrisinə müəllimin şifahi nitqi, müəllimin sxem, cədvəl, model, stend və s. üzərində izahı, şagirdlərin kitab üzərində işi, formul və kimyəvi tənlik düzəltmək üzərində çalışmalar yerinə yetirməsi, təcrübələr aparmaları, müxtəlif hesablama məsələləri həll etmələri daxil edilə bilər(4). Yuxarıda qeyd olunanlar, təhsilimizin inkişafını təmin etməklə yüksək nəticələrin əldə edilməsində böyük rol oynayır. Nəticədə, müəllim kimyanın tədrisi prosesində yeni metod və vasitələrdən düzgün istifadə etməklə, fəal dərsi ümumi, sistemli şəkildə yuxarıda qeyd edilmiş məqsədə, yəni şagirdlərə tam, konkret, dərin, aydın, dəqiq, sistemli möhkəm və həqiqi bilik vermək məqsədinə nail ola bilər. Beləliklə, cəmiyyətimizin gələcək qurucuları olan şagirdlərin dərketmə qabiliyyətini inkişaf etdirmək, əldə edilmiş bilikləri praktikaya tətbiq etmək bacarığını aşılamaq müəllimlərimizin əsas vəzifələrindən biridir.

**Problemin aktuallığı.** Orta ümumtəhsil məktəblərində tədris prosesində şagirdlərin mənimsədikləri materialları düzgün anlamaq və ifadə etmək bacarığının inkişaf etdirilməsi ən vacib məsələlərdən sayılır.

Tədris prosesində kimya dilindən istifadə etmək və onu müxtəlif hallarda tətbiq etmək bacarığı yalnız kimyanın əsaslarının mənimsənilməsinin deyil, həm də şagird təfəkkürünün inkişafının meyarıdır. Kimya dili ilə həyata keçən bütün əməliyyatlar intellektual sayılır. İşarələrin müqayisəsi, ümumiləşdirilməsi, sistemləşdirilməsi, şərhi kimya dilinə malik olmanın əsasını təşkil edir. Mənimsənilmiş dil eksperimentlərin planlaşdırılması, kimyəvi problemlərin həlli, maddələrin xassələrinin və reaksiya istiqamətlərinin tapılması, onların məhsullarının modelləşdirilməsi üzrə məhsuldar fəaliyyəti həyata keçirməyə imkan verir. Kimya dili əsasında müstəqil axtarışı həyata keçirməklə, şagirdlər yaradıcı fəaliyyətə, kimyanın problemli idrakına cəlb edilirlər.

**Problemin elmi yeniliyi.** Məqalədə orta ümumtəhsil məktəblərində kimya fənninin tədrisində tətbiq olunan kimya dilinin dərindən öyrənilməsinin şagirdlərdə idrak fəaliyyətinin və tədqiqatçılıq bacarıqlarının inkişafına, tədris prosesinin intensivləşdirilməsinə, dərslərin səmərəliliyinin artırılmasına, dərsin keyfiyyət və məhsuldarlığının yüksəldilməsinə təsiri vurğulanmışdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalə doktorant, dissertant, magistrant və gənc müəllimlər üçün faydalı ola bilər.

## Ədəbiyyat:


1. Məmmədova A.Z., Bəndəliyeva R.V., Şadlinskaya G.V. Tədris prosesində kimya dilinin rolu və əhəmiyyəti // Kimya məktəbdə, 2017, № 4
2. Babayev Y.N., Babayeva N.Y. Kimya dili təfəkkürün inkişafının didaktik şərti kimi. H. Əliyevin 100 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları. – Gəncə, 05-06 may 2023, II hissə, – s. 89-94
3. Петухова Ю.Г. Исследовательская деятельность на уроках химии // Школьная педагогика, 2017, № 1, – с. 77-79
4. Данилова А.Г. Как организовать и провести урок – исследование // Химия в школе. 1999, № 7, – с. 21-26



**E-mail:** babayevanigar1979@gmail.com
aynurcelilova82@gmail.com



**Rəyçilər:** *kim.ü.fəls.dok.,dos.* **G. G. Şəfaqətova,**
*kim.ü.fəls.dok., dos.* **G.V. Şadlinskaya**
**Redaksiyaya daxil olub:** 10.10.2023

# *BİOLOGİYANIN TƏDRİSİ METODİKASI*
# *МЕТОДИКА ПРЕПОДАВАНИЯ БИОЛОГИИ*
# *METHODS OF TEACHING BIOLOGY*

*UOT 372.857*

***Rauf Lütfəli oğlu Sultanov***
*biologiya elmləri doktoru, professor*
*Azərbaycan Dövlət Pedaqoji Universitet*
*https:orcid.org/0000-00002-8934-3055*

***Lalə Elxan qızı Əbdürrəhmanova***
*Azərbaycan Dövlət Pedaqoji Universitet*

## MƏKTƏBİN 6-9 SİNİFLƏRİNDƏ İNSAN SAĞLAMLIĞI İLƏ ƏLAQƏDAR VALEOLOJİ BİLİKLƏRİN TƏDRİSİNDƏ MÜƏLLİMİN PLANLAŞDIRMA BACARIĞININ İNTERAKTİV METODLARLA TƏDRİSİNİN İMKAN VƏ YOLLARI

***Рауф Лютфали оглы Султанов***
*доктор биологических наук, профессор*
*Азербайджанский государственный педагогический университет*

***Лала Эльхан гызы Абдуррахманова***
*Азербайджанский государственный педагогический университет*

## ВОЗМОЖНОСТИ И ПУТИ УМЕНИЯ УЧИТЕЛЯ ПЛАНИРОВАТЬ ПРЕПОДАВАНИЕ ВАЛЕОЛОГИЧЕСКИХ ЗНАНИЙ, СВЯЗАННЫХ СО ЗДОРОВЬЕМ ЧЕЛОВЕКА, В 6-9 КЛАССАХ ОБЩЕОБРАЗОВАТЕЛЬНОЙ ШКОЛЫ ИНТЕГРАТИВНЫМИ МЕТОДАМИ

***Rauf Lutfali Sultanov***
*doctor of biological sciences, professor*
*Azerbaijan State Pedagogical University*

***Lala Elkhan Abdurrahmanova***
*Azerbaijan State Pedagogical University*

## POSSIBILITIES AND WAYS OF TEACHING THE TEACHER'S PLANNING SKILLS WITH INTERACTIVE METHODS IN THE TEACHING OF VALEOLOGICAL KNOWLEDGE RELATED TO HUMAN HEALTH IN THE 6-9TH GRADES OF THE SCHOOL

**Xülasə.** Məqalədə məktəbin 6-9-cu siniflərində insan sağlamlığı ilə bağlı valeoloji biliklərin tədrisini inteqrativ metodlardan istifadə etməklə müəllimin planlaşdırması imkanları və yolları müəyyən edilmişdir. Biologiyaya aid valeoloji biliklərin tədrisində inteqrativ metodlardan istifadə etməklə müəllimin insan sağlamlığı ilə bağlı valeoloji bilikləri öyrətmək bacarığının planlaşdırılması imkanları və yolları aşkar edilir.
***Açar sözlər:*** *valeoloji bilik, müəllimin planlaşdırma bacarığı, inteqrasiya ,insan sağlamlığı*

**Резюме.** В статье определены возможности и пути умения учителя планировать преподавание валеологических знаний, связанных со здоровьем человека, в 6-9 классах общеобразовательной школы интегративными методами. Путем использования интегративных методов в преподавании ва-

леологических знаний, связанных с биологией, раскрыты возможности и способы навыков планирования учителя при преподавании валеологических знаний, связанных со здоровьем человека.

***Ключевые слова:*** *валеологические знания, навыки планирования учителя, интеграция, здоровье человека*

**Summary.** In the article, the opportunities and ways of the teacher’s planning skills in teaching valeological knowledge related to human health in the 6-9 grades of the school with integrative methods are defined. By using integrative methods in the teaching of valeological knowledge related to biology, the possibilities and ways of the teacher’s planning ability in teaching valeological knowledge related to human health were investigated.

***Key words:*** *valeological knowledge, teacher's planning skills, integration, human health*

Məqalədə məktəbin 6-9 siniflərində insan sağlamlığı ilə əlaqədar valeoloji biliklərin inteqrativ metodlarla tədrisində müəllimin planlaşdırma bacarığının imkan və yolları müəyyənləşdirilmişdir.

Burada biologiyanın tədrisində inteqrativ metodlardan istifadə etməklə insan sağlamlığı ilə əlaqədar valeoloji biliklərin öyrədilməsi prosesində müəllimin planlaşdırma bacarığının imkan və yolları araşdırılmışdır.

Valeoloji biliklərin planlaşdırılma əsasında dərsin məqsədləri müəyyən edilir. Müəllim insan sağlamlığı ilə əlaqədar mövzuların tədrisində məqsədlərin reallaşmasına yararlı olan təlim strategiyaları seçir. Müəllim dərsin planlaşdırılması ilə əlaqədar onun strategiyalarını həyata keçirilməsi üçün müvafiq resursları müəyyənləşdirir və əldə edir.

Kurikulumun standartlarının tələblərinə məqsədəuyğun şəkildə nail olunması üçün insan sağlamlığı ilə əlaqədar valeoloji biliklərin tədrisində müəllim təlim prosesinə sistemli yanaşmalı və fəaliyyətini düzgün qurmağı bacarmalıdır. Valeoloji biliklərin tədrisinin səmərəliliyinin ən mühüm şərtlərindən biri keçiriləcək dərsin düzgün və məqsədyönlü planlaşdırılmasıdır. Fəal dərsin yaradıcı xarakterinə baxmayaraq, onun uğuru ilk növbədə müəllimin planlaşdırma bacarığından asılıdır. İnsan sağlamlığına dair mövzuların biologiya ilə əlaqəli tədrisində ilk növbədə müəllimin dərsin bütün mərhələlərinin öncədən düzgün ölçülüb-biçilməsi bacarığından asılıdır.

Müəllimin valeoloji biliklərin tədrisi ilə əlaqədar planlaşdırma bacarığı yüksək olduqda dərsin keçirilməsi zamanı az əziyyət çəkir. Dərsin keçirilməsi ilə əlaqədar hazırlıq üçün az vaxt sərf edir və onun keyfiyyəti yüksəlir. Dərsin səmərəli keçirilməsini təmin edən ən başlıca amil müəllimin planlaşdırma bacarığıdır. Planlaşdırma bacarığı yüksək olan müəllim valeoloji biliklərin məqsədlərini və istiqamətlərini düzgün müəyyənləşdirə bilir.

Təlimin məqsədlərinin düzgün müəyyənləşdirilməsinin müxtəlif yolları mövcuddur. Birincisi insan sağlamlığı ilə əlaqədar valeoloji biliklərin öyrənilməsində müəllimin planlaşdırma bacarığının fəaliyyəti öyrədici, inkişafetdirici və tərbiyəediciyönlü olmalıdır. Müəllimin valeoloji biliklərin tədrisi ilə əlaqədar olaraq planlaşdırma bacarığının ikinci ən əsas xüsusiyyəti insan sağlamlığı ilə əlaqədar idrak sahəsində əldə olunan nəticələrin səviyyəsi üzrə B. Blumun taksonomiyasının tələblərinə uyğun olaraq (bilik, anlama, tətbiq, analiz, dəyərləndirmə və yaratmaq) idrak sahəsində əldə olunan nəticələrin səviyyəsinin müəyyənləşdirilməsi bacarığının formalaşmasından asılıdır.

Müəllimin valeoloji biliklərə dair planlaşdırma bacarığı ilə əlaqədar üçüncü əsas xüsusiyyətlərindən biri idrak proseslərinin səviyyəsi üzrə hafizənin və təfəkkürün müxtəlif (məntiqi, tənqidi, yaradıcı) növləri üzrə təlimin məqsədlərinin düzgün müəyyənləşdirilməsidir. Müəllimin planlaşdırma bacarığı təlimin məqsədlərinin müəyyən edilməsi ilə əlaqədar onun bilik səviyyəsindən asılıdır. Müəllim tədris prosesində təlim məqsədlərinin hər hansı fəaliyyət istiqamətinə daha çox üstünlük verməlidir. Ona görə müəllimin planlaşdırma bacarığı təlimin məqsədlərini onun bütün təsnifat istiqamətləri üzrə inkişafından asılıdır.

Müəllim insan sağlamlığı ilə əlaqədar valeoloji biliklərin tədrisi prosesində planlaşdırmada təlim modellərini öyrədici, inkişafetdirici, tərbiyəedici funksiyaları və fəal dərsin əsas əlamətlərini nəzərə almalıdır. Pedaqoji prosesdə hər iştirakçının öz nöqteyi-nəzərinin olması dialoq, fikri fəallıq, fərdi yaradıcı münasibət, seçim azlığı, uğur si-

tuasiyanın yaradılması və özünütəhlil, özünü qiymətləndirmə (refleksiya) fəal dərsin əlamətləridir.

Valeoloji biliklərin planlaşdırılmasında ən məsuliyyətli məqamlardan biridə mövzuların ilə əlaqədar tədqiqatın aparılması mərhələsi üçün istifadə olunan metod və texnikaların düzgün seçimidir. Bu zaman mövzuya uyğun olaraq onun məqsəd və fəaliyyəti üzrə seçim edilməli və meyarlar dəqiqləşdirilməlidir. Bu müəllimin düzgün seçimi onun planlaşdırma üzrə bacarığının formalaşdırılması qabiliyyətindən asılıdır.

Fəal dərsin ən mühüm və mürəkkəb mərhələsindən biri motivasiyadır (cəlbolunma). Dərsin bütün sonrakı gedişi məhz motivasiyanın nə dərəcədə uğurlu yaradılması və həyata keçirilməsindən asılıdır. Burada müəllimin planlaşdırma bacarığı yüksək olduqda dərsin keyfiyyəti yüksəlir.

Valeoloji biliklərin tədrisi prosesində müəllim planlaşdırma zamanı 4 əsas məqama cavab axtarmalıdır. Nə öyrədilməli, necə öyrədilməli, hansı şəraitdə və nəticələri necə qiymətləndirmək olar?. Burada müəllimin planlaşdırma bacarığından asılı olaraq dərsin bu əsas məqamları ilə əlaqədar seçimin əhəmiyyəti böyükdür.

Müəllim valeoloji biliklərin biologiya ilə əlaqəli tədrisində təlim materialının məzmununa müvafiq metod və texnikaların seçimində diqqətli olmalıdır. Burada mövzudan asılı olaraq inteqrasiya metodundan istifadə olunmalıdır. Valeoloji biliklərin tədrisi fənlərarası inteqrasiya metodundan istifadə edilməsi qarşıya qoyulan məqsədə nail olmaq üçün əlverişli şərait yaradır.

Valeologiya elm sahəsi fənlərarası və fəndaxili biliklərin inteqrasiyası vasitəsilə formalaşan bilik mənbəyidir. İnteqrasiya strategiyadır, onun dəyəri biliklərarası mövzuların əlaqələndirilməsinə alınan nəticələrlə ölçülür.

Valeologiya inteqrativ elm olduğu üçün onun hər bir mövzusu inteqrasiyanın prinsipləri əsasında tədris olunmalıdır. İnsan sağlamlığı ilə əlaqədar valeoloji biliklərin tədrisi müəllimin planlaşdırma bacarığından asılıdır. Valeologiyaya dair biliklərin inteqrasiya prinsiplərinə düzgün seçim ilə yanaşılması və onun tətbiqi fənnin tədrisinin keyfiyyətini yüksəldir.

Valeoloji biliklərin tədrisi prosesində fənlərarası və fəndaxili inteqrasiyanın reallaşdırılması prosesində iki əsas əlaqə formasından istifadə edilir: məntiqi valeoloji əlaqələr və metodiki valeoloji əlaqələr.

Valeoloji biliklərin tədrisi prosesində formalaşan müəllimin planlaşdırma bacarığını ümumi məntiqi, tədris-indormasiya, təşkilati idraki bacarıq vərdişlərinə aid etmək olar. Müəllimin planlaşdırma üzrə xüsusi bacarıq və vərdişləri valeologiya fənninin daxili planında formalaşır.

Valeologiya fənninin tədrisi prosesində fənlərarası və fəndaxili əlaqələrin rolu olduqca böyükdür. Müəllimin valeoloji biliklərin tədrisi ilə əlaqədar planlaşdırma bacarığından istifadənin əsas yolları təlimin öyrədici, inkişafetdirici və tərbiyəedici məqsədlərinə nail olmaqdan keçir.

Müəllim fənlərarası və fəndaxili inteqrativ əlaqələrdən istifadə edərək şagirdlərin valeoloji biliklərə dair elmi dünyagörüşünü formalaşdırır, onun inkişafına kömək edir, məntiqi təfəkkürü inkişaf etdirir, bilikdə formalizmin aradan qaldırılmasına və onun möhkəmliyinin təmin olunmasınaköməklik edir.

Valeologiya fənninin tədris edən müəllimin planlaşdırma bacarığının əsas vəzifəsi şagirdləri tədrisi idraki vasitələrlə silahlandırmaqdan, bu vasitələrə yiyələnməyin yollarını öyrətməkdən ibarətdir. Bütün bu işlərin əsası məktəblərdə şagirdlərlə, ali məktəblərdə isə hər bir müəllimin tələbə, magistr olduğu dövrdə qoyulmalıdır.

Ona görə də məktəblərdə valeoloji bilikləri inteqrativ metodlarla tədris etdikdə təlim prosesi təkmilləşir, fənlər arasında qarşılıqlı əlaqə və asılılıq dərinləşir. Müəllimin planlaşdırma bacarığı sayəsində inteqrasiya metodundan düzgün istifadə etməklə şagirdlərdə insan sağlamlığı haqqında tam təsəvvür formalaşdırılır, valeoloji biliklərin əlaqələndirilməsi üçün şərait yaradılır.

**Problemin aktuallığı.** Şagirdlərdə inteqrativ bacarıqlar, valeoloji bilik və vərdişlərin aşılanması dövrümüzdə biologiya və digər fənn müəllimlərinin başlıca vəzifələrindən biridir. Bunun üçün müəllimin əsas silahı onun planlaşdırma bacarığı hesab olunur.

**Problemin elmi yenilikləri.** Məqalədə müəllimin planlaşdırma bacarığının, fəndaxili və fənlərarası inteqrasiyanı həyata keçirmək qabiliyyətinin valeoloji biliklərin tədrisində əhəmiyyəti göstərilir.

**Problemin praktik əhəmiyyəti:** Ümumtəhsil məktəblərində çalışan fənn müəllimləri, ali məktəb tələbələri və magistrları valeoloji biliklərin tədrisi prosesində istifadə edə bilərlər.

**Ədəbiyyat:**

1. Bayramov Q.H. Sağlamlığa təsir göstərən amillərin təhlili. // "Tədris prosesinin təkmilləşdirilməsinin pedaqoji və psixoloji problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları, Naxçıvan: 2011. – s.80-81
2. Sultanov R.L. Təhsilalanların sağlamlığının qorunmasında və mühafizə edilməsində pedaqoji valeologiyanın imkanları. // – Bakı: Bakı Qızlar Universitetinin Elmi əsərləri, 2020, № ), – s. 178-181.
3. Sultanov R.L. Ətraf mühitdə insan sağlamlığının qorunmasında valeoloji biliklərdən istifadənin imkan və yolları. // -Bakı: Humanitar elmlərin öyrənilməsinin aktual problemləri, – 2021, № 1, – s.258-260.

**E-mail:** rsultanov@bk.ru
**Rəyçilər:** *biol.elm.dok., prof.* **M.Ş. Babayev,**
*ped.ü.fəls.dok., dos.* **A.X. Hacıyev**
**Redaksiyaya daxil olub:** 21.11.2023

**İmran Musa oğlu Kazımov**
*biologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*baş müəllimi*

**Zeynəb İlqar qızı Məmmədova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Orcid:0009-0000-9437-2603*

# MƏKTƏB BİOLOGİYA KURSUNUN TƏDRİSİNDƏ KEYS TEXNOLOGİYASININ TƏTBİQİNİN SƏMƏRƏLİ YOLLARI

**Имран Муса оглы Казимов**
*доктор философии по биологии*
*старший преподаватель*
*Азербайджанского государственного педагогического университета*

**Зейнаб Ильгар гызы Маммедова**
*Азербайджанский государственный педагогический университет*

# ЭФФЕКТИВНЫЕ ПУТИ ПРИМЕНЕНИЯ КЕЙС-ТЕХНОЛОГИИ В ПРЕПОДАВАНИИ ШКОЛЬНОГО КУРСА БИОЛОГИИ

**Imran Musa Kazimov**
*doctor of philosophy in biology*
*senior lecturer of the Azerbaijan State Pedagogical University*

**Zeyneb Ilqar Mammadova**
*Azerbaijan State Pedagogical University*

# WAYS OF FERMING UNIVERSAL SKILLS BY APPKYING CASE-TECHNOLOQIY IN TECHING SCHOOL

**Xülasə.** Tədqiqat işində ümumtəhsil məktəblərində tədris iştirakçılarının müxtəlif növ təlim bacarıqlarını mənimsənilməsinə imkan verən, keys-metodunun biologiya dərslərində tətbiqinin səmərəli yolları araşdırılır.
***Açar sözlər:*** *məktəb biologiya kursu, öyrədici Keys-situativ metodla tədris, müxtəlif növ universal təlim fəaliyyəti*

**Резюме.** В научно-исследовательской работе исследуются эффективные способы применения кейс-метода на уроках биологии, что позволяет обучать участников освоению различных видов учебных навыков в общеобразовательных школах.
***Ключевые слова:*** *школьный курс биологии, образовательный кейс-ситуационный метод обучения, различные виды универсальной учебной деятельности*

**Summary.** The paper examines the features of the methodology for the appellation ofa case-method that can be effectively used in biology lessons in the system of basic general education in the process of mastering by students universal educational actions of various types.
***Key words:*** *school biology course, educational case, situation a teachinq methods*

Hazırda Respublikamızın ümumtəhsil məktəblərində təlim-tədris prosesinin keyfiyyətini yüksəltmək məqsədi ilə həyata keçirilən tədbirlər içərisində, təlim materialının təqdim olun-

ma səviyyəsinin təkmilləşdirilməsi, müstəsna əhəmiyyət kəsb edir. Bu isə, fənnin xüsusiyyətini, dərslərin məqsədlərinə müvafiq təlim nəticələrinin reallaşdırılmasını təmin edən, metod seçiminin düzgün təşkilindən çox asılıdır. Odur ki, hər metod üsul və priyomların mövcud imkanlarının öyrənilməsi və biologiyanın tədrisində məqsədyönlü tətbiqinin öyrənilməsi aktual problemlərdəndir.

Son illərdə istər ali və istərsə də, ümumtəhsil məktəblərində fənn müəllimləri tərəfindən təlim prosesində situativ metodların tətbiqinə, daha çox maraq göstərilir. Bu qəbildən olan və növlərinə görə özündə bir sıra üsulları, priyomları cəmləşdirən keys-texnologiyasıdır (2, s).

Keys (ingiliscə "case" – hadisə, vəziyyət) hər hansı bir praktik problemin həlli yollarının kollektiv və ya fərdi axtarışını tələb edən çox funksiyalı texnologiyadır. Elmi-pedaqoji mənbələrdə onun ilk olaraq 1870-ci ildə ABŞ-nın Harvard qanun məktəbində tətbiqinə dair məlumat verilmişdir. Belə ki, müəllimlər təlim prosesinə standart yanaşmanı dəyişərək, hüquq fakültəsinin tələbələrinin innovativ texnologiyalara müraciət etmişlər. Bu texnologiya mahiyyət etibarilə problemli situasiyanın qurulmasına əsaslanır. Ən optimal çıxış yolunu isə tələbələr fərdi və ya kollektiv şəkildə müəyyənləşdirirlər (8). Verilən tapşırıqda təsvir edilmiş situasiya real faktiki hüquqi materiala əsaslanır və maksimum dərəcədə ona uyğun formada tərtib edilir.

İlk mərhələdə bu texnologiya digər təhsil müəssisələrindən geniş miqyasda istifadə edilməmişdir. XX-ci əsrin 20-ci illərindən başlayaraq keys metodunun tətbiqi ilə tərtib edilmiş metodik vəsaitlər işlənmişdir (5). Bu hadisə sonradan bütün dünyada təhsilin inkişafına öz təsirini göstərmişdir. RF-da isə keys metodu XX-ci əsrin 90-cı illərindən başlayaraq təhsil sisteminin müxtəlif sahələrində tətbiq edilir. Bu metodun təhsil sistemində tətbiqi ilə bağlı pedaqoq alimlərin uyğunlaşmasına onilliklər sərf edilmişdir. Ona görə də, keys metodu ilə orta məktəblərdə tədrisin təşkilinə XX-ci əsrin əvvəllərindən təsadüf edilir. Bu gün ümumtəhsil məktəblərində fənlərin tədrisində keys-metodu ilə tapşırıqların işlənməsi imkanları daha genişdir. Çünki, bu sahə üzrə nəşr edilmiş monoqrafiyalar, elmi-metodiki dərslik və dərs vəsaitlərin olması imkan yaradır. Mövcud mənbələrdə əsasən humanitar fənlərə aid olan keys tapşırıqları üstünlük təşkil edir. Biologiyanın tədrisində tətbiqinə dair məhdud sayda elmi-metodik əsərlərə rast gəlinir (7, s. 8).

Keys-metodu ilə hazırlanan tapşırıqlar bioloji hadisə və proseslərin bu və ya digər formada əlamətlərini özündə ehtiva edir. Mətn və ya elektron formada tədqiq edilir. Ona görə də, fənn müəllimləri gündəlik planlaşdırmanı aparan zaman təlim materialına müvafiq (problemli) situativ təlim tapşırıqları da tərtib etməlidir. Bu tip tapşırıqları çətinlik dərəcəsi nəzərə alınmalı, mətni aydın olmalıdır. Digər tərəfdən, keys-metodu əsasında hazırlanan tapşırıqların fərdi və ya qrup şəklində icra edilməsi də, müəyyənləşdirilməlidir. Onların cavablandırılmasının yalnız bır doğru həlli yolu olmalıdır ki, şagirdlərin mətndə verilən situasiyada ən doğru variantı tapmış olsunlar (4,5). Əks təqdirdə, təqdim edilə situativ tapşırıqların dolğun şəkildə təsviri, təqdim edilən problemli situasiyaya dair şagirdləri əlavə məlumatlarla yüklənməsinə səbəb olur. Odur ki, tərtib edilən situativ tapşırıqlar nəzəri biliklərin, praktik bacarıqların mənimsədilməsi məqsədi ilə müxtəlif fəaliyyət növlərini əhatə etməlidir. Onların doğru-düzgün cavablandırılması isə, bir və ya bir neçə mərhələli ola bilər. Belə ki, ilk mərhələdə keys-tapşırığının mətninə müvafiq şərtləri şagirdlər tərəfindən analiz edilməlidir. Tapşırıqda verilən problemlə bağlı bioloji biliklərə dair uyğun elmi-praktiki məlumatlar qruplaşdırılmalıdır. Praktik situasiyanın analizinə əsaslanaraq nəticə çıxardıqdan sonra, şagirdlər öz şəxsi fikirlərini formalaşdırmalı və təlim prosesində iştirak edən digər yoldaşları ilə tapşırığın həlli yollarını müzakirə etməlidir.

Məlumdur ki, təlim tapşırıqlarının əsasən bir cavabı olur və onun yerinə yetirilməsinin bir doğru yolu vardır. Keys tapşırıqları bu tip tapşırıqlardan bir neçə həlli yollarının olmasına və doğru cavab əldə etmək üçün alternativ üsulların çoxluğuna görə fərqlənir.

Pedaqoji-Psixologiya elmi və aparılan praktiki təcrübələr onu göstərir ki, təlim-tədris prosesində keys-texnologiyasının tətbiqi, şagirdlərdə öyrənmək üçün motivasiyanın yüksəlməsinə səbəb olur. Digər tərəfdən fənnə dair biliklərin öyrənilməsinədə onların sərbəst yanaşmasını stimullaşdırır və praktiki bacarıqların formalaş-

dırılmasına imkan yaradır. Onlar müxtəlif mənbələrdən alınan informasiya materialları üzərində sərbəst işləyə bilirlər. Keys metodu ilə tədrisi təşkili təlim materialının sistemli şəkildə mənimsədilməsinə əsaslanır. Şagirdlərdə analitik təfəkkürün, yaradıcılıq qabiliyyətinin, kommunikativ bacarıqların formalaşmasına müsbət təsir göstərir. Bu metodla tədrisin təşkili şagirdlərə fərdi və kollektivlə iş zamanı özünə nəzarət qaydalarını mənimsəyirlər.

Təlim-tədris prosesində iştirakçılarda mükəmməl mənimsənilməsini təmin edən bir innovativ vasitə kimi keys- texnologiyasından məqsədyönlü istifadə, fənn müəllimləri üçün gündəlik planlaşdırmanın aparılmasında uyğun keys-tapşırıqlarının hazırlanmasını tələb edir. Belə ki, biologiyanın tədrisində təlim nəticələrinin reallaşdırılmasında, xüsusilə fəsillər üzrə ümumiləşdirici dərslərin keçirilməsində və summativ qiymətləndirmələrə hazırlıq məqsədi ilə bu metodun tətbiqi əhəmiyyət daşıyır.

**Keys texnologiyasının növlərinə görə funksiyaları**




Cədvəldən göründüyü kimi, keys-texnologiyasının biologiyanın tədrisində tətbiqi, fənn kurikulumunda məzmun xətləri üzrə verilən təlim nəticələrinin reallaşdırılmasında müstəsna əhəmiyyət daşıyır. Belə ki, təlim prosesinin müxtəlif mərhələlərində, o cümlədən tədris materialının xüsusiyyətindən asılı olaraq tətbiq etmək mümkündür (1, s. 6)

Seçilən mövzu üzrə hazırlanan keys tapşırıqları təlim-tədris prosesində bir sıra fəndaxili əlaqələrin formalaşdırılmasının qiymətləndirilməsinə imkan verir:

– təlim prosesində şagirdlərin bioloji hadisələr arasında əlaqələrin qurulmasına istiqamətləndirir, qarşılıqlı əlaqələrin xarakterik cəhətlərini aşkar edir, müxtəlif bioloji hadisələrin baş vermə səbəbləri müəyyənləş-

dirilir, vacib olan bioloji məlumatları müxtəlif mənbələrdən əldə etməyə cəlb edir, həmçinin şəkil, cədvəl, sxem və qrafiklərdən istifadə bacarıqlarının formalaşdırılmasını stimullaşdırır;

- təlim fəaliyyətinə mütəmadi olaraq universal yanaşma şagirdlərin üsul və priyomları mənimsədir, nəticə etibarı ilə tədqiq edilən situativ tapşırıqların həlli üçün metod seçimini asanlaşdırır, həmçinin özünə nəzarəti və özünüqiymətləndirməni təmin edir;
- fənn müəllimi və sinif yoldaşları ilə problemin həlli yollarını müqayisəli təhlil etməklə, müzakirəsi zamanı şagirdlərin öz şəxsi fikirlərinin dəqiqləşdirilməsi, onlarda kommunikativ bacarıqları inkişaf etdirir.

**Problemin aktuallığı.** Biologiyanın tədrisində təlim materialının keys-metodunun tətbiqi ilə təqdimatı, mənimsəmə faizinin yüksəlməsinə müsbət təsir göstərir.

**Problemin yeniliyi.** Keys-texnologiyasının növlərinə görə funksiyalarının metodik imkanları araşdırılmış və biologiyanın tədrisində tətbiqinin səmərəli yolları göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalənin pedaqoqlar, doktorant və dissertantlar, magistrantlar, biologiyanın tədrisinin müasir problemləri sahəsində tədqiqat aparan şəxslər, xüsusilə də, fənn müəllimləri üçün faydalı olacağı düşünülür.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün: Biologiya fənni üzrə Təhsil proqramı – Kurikulumu ( Vl-Xl siniflər) ARTN, – Bakı., 2013. – 69 s.
2. Bayramova L. Kurikulum və Pedaqogika / Ali məktəb tələbələrinin semestr imtahanları, müəllimlərin işə qəbulu və sertifikasiyası üçün nəzərdə tutulan vəsait. – Bakı, 2014. – s. 156-172.
3. Ümumi təhsil kurikulumunun əsasları üzrə təlim. "İştirakçılar üçün təlim vəsaiti". – Bakı: Mədəd Azərbaycan. – 2014, – s.40-49.
4. Голубчикова, М.Г. Кейс-технологии в профессиональной подготовке педагога: учебное пособие / Голубчикова М.Г., Харченко С.А. – Иркутск., – 2012. – 116 с.
5. Красикова Е.Н., Калашова А. С. Кейс-метод как инновационный метод обучения в дополнительном профессиональном образовании // Сборник трудов по проблемам дополнительного профессионального образования. – №: 29. – 2016. – с. 211-218.
6. Kərimov C.R. Biologiya (Yeni proqram-fənn kurikulumu əsasında tərtib olunmuş dərs vəsaiti). – Bakı: Zərdabi nəşr. – 2021. – 272 s.
7. Савельева М.Г. Педагогические кейсы: конструировании и использование в процессе обучения и оценки компетенций студентов: учебно-методическое пособие. – Ижевск, 2013. – 94 с.
8. Евтюгина А.А. Коммуникация и метод Case-study в профессиональном образовании // Научно-технические ведомства Санкт-Петербургского государственного политехнического университета. Гуманитарные и общественные науки. – N: 4.(160). – 2012. – с.60-65.7.
9. Bull S.S., Breslin L.T., Wrigiht E. E., Black S. R., Levine D., Santelli J. S. Case-study: an edch case study of HIV prevention research on Facebook: the just/ us study // Journal of Pediatrinc Psychology. T. 36. N:10. 2011. – P. 1082-1092.


**E-mail:** i_kazimov2017@mail.ru

**Rəyçilər:** *biol.elm.dok., prof.* **R.L. Sultanov,**
*ped.ü.fəls.dok., dos.* **X.Q. İbrahimova**
**Redaksiyaya daxil olub:** 04.12.2023

# COĞRAFİYANIN TƏDRİSİ METODİKASI
# МЕТОДИКА ПРЕПОДАВАНИЯ ГЕОГРАФИИ
# METHODS OF TEACHING GEOGRAPHY

UOT 372.891

**Təranə Mehman qızı İsmayılova**
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun*
*Təlimin nəzəriyyəsi və metodikası şöbəsinin böyük elmi işçisi*
*https://orcid.org/0000-0003-1122-9006*

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ COĞRAFİYA TƏLİMİNİN MÖVCUD PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

**Тарана Мехман гызы Исмаилова**
*старший научный сотрудник отдела теории и методики обучения*
*Института образования азербайджанской республики*

## СОВРЕМЕННЫЕ ПРОБЛЕМЫ ПРЕПОДАВАНИЯ ГЕОГРАФИИ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ И СПОСОБЫ ИХ РЕШЕНИЯ

**Tarana Mehman Ismayilova**
*Institute of Education of the Republic of Azerbaijan*
*senior researcher of the department of Theory and methodology of training*

## CURRENT PROBLEMS OF GEOGRAPHY TEACHING IN GENERAL EDUCATION SCHOOLS AND THEIR SOLUTIONS

**Xülasə.** Alimlər – coğrafiyaçılar, müəllimlər və metodistlər vurğulayırlar ki, coğrafi təhsilin əsas məqsədi coğrafi savadlılıq və əhalinin arasında coğrafi mədəniyyətin formalaşmasının artırılmasıdır. Məktəbdə coğrafiya fənni təbiət və ictimai elmlər sahəsində təhsilin məzmununun inteqrasiyası vəzifəsini uğurla yerinə yetirə bilən azsaylı akademik fənlərdən biridir. Tarix, Azərbaycan dili və ədəbiyyatı, coğrafiya fənləri şagirdlərin ənənəviliyini formalaşdıran əsas akademik fənlərdir. Bunlar, ilk növbədə, vətənpərvərliyin üzərində qurulduğu dövlət və siyasi dəyərlərdir. Bu baxımdan orta məktəbdə coğrafiya əsas və qabaqcıl fənn kimi öyrənilməlidir.
***Açar sözlər:*** *coğrafi təhsilin problemləri, tədrisin çatışmazlıqları, məktəbdə coğrafiya, coğrafi mədəniyyət*

**Резюме**. Ученые – географы, учителя и методисты подчеркивают, что основная цель географического образования – повышение географической грамотности и формирование географической культуры среди населения. Предмет география в школе – один из немногих учебных предметов, способных успешно выполнить задачу интеграции содержания образования в области естественных и социальных наук. История, азербайджанский язык и литература, география являются основными учебными предметами, формирующими традиционализм учащихся. Это, прежде всего, государственные и политические ценности, на которых строится патриотизм. В связи с этим географию следует изучать как основной и углубленный предмет в средней школе.
***Ключевые слова:*** *проблемы географического образования, недостатки преподавания, география в школе, географическая культура*

**Summary.** Scientists – geographers, teachers and methodologists emphasize that the main goal of geographic education is to increase geographic literacy and the formation of geographic culture among the population. The subject of geography at school is one of the few academic subjects that can successfully fulfill the task of integrating the content of education in the field of natural and social sciences. History,

Azerbaijani language and literature, and geography are the main academic subjects that shape students' traditionalism. These are, first of all, state and political values on which patriotism is built. In this regard, geography should be studied as a basic and advanced subject in high school.

***Key words:*** *problems of geographical education, shortcomings of teaching, geography at school, geographical culture*

Hazırda müasir məktəb şəraitində tədris metodları təhsilin məqsədlərindəki dəyişikliklər, sistem-fəaliyyət yanaşmasına əsaslanan yeni nəsil Təhsil Standartlarının tətbiqi ilə əlaqəli bir dövrdən keçir. Bütün bu hallar tədris metodları sahəsində yeni pedaqoji tədqiqatların aparılmasını, müasir tədris və informasiya texnologiyalarının işlənib hazırlanması və tədris prosesində tətbiqi ilə bağlı təlim və tərbiyənin innovativ vasitələri, forma və metodlarının axtarışını tələb edir. Müasir təhsil bu gün orta məktəb məzunlarının informasiya axınında naviqasiya qabiliyyəti ilə bağlı yeni tələblərlə üzləşir; yaranan problemləri yaradıcı şəkildə həll etmək; əldə edilmiş bilik, bacarıq və bacarıqları praktikada tətbiq etmək kimi bacarıqların şagirdlərdə formalaşdırılması əsas vəzifələrdəndir.

Tədris fənlərinin geniş aspektində coğrafiyanın təhsil sistemində özünəməxsus yeri var. Müasir coğrafi problemlər məktəb coğrafiyasında çox zəif işıqlandırılır, ona görə də coğrafiyanın məzmununu ciddi və əsaslı şəkildə yeniləmək lazımdır.

Əsas problemlərdən biri də tədris-metodik kompleksdə vahid standartın olmamasıdır. Müasir bazar şəraitində dərsliklərə keçid müəllim və şagirdlərin oriyentasiyasının pozulmasına, bir təhsil pilləsindən digərinə keçid zamanı fasiləsizliyin olmamasına, tədris materialının əhəmiyyətli bir hissəsində təqdim olunan tədris materialının keyfiyyətinin aşağı düşməsinə səbəb olmuşdur.

Başqa bir problem, müasir şagirdlərin daha rasional olması və buna görə də həyatda deyil, universitetlərə daxil olarkən faydalı olacaq fənləri intensiv şəkildə öyrənməsidir. Lakin coğrafiya o fənlərdən biri deyil. Universitetlərdə iqtisadi-coğrafi ixtisasların əsasını təşkil etməli olan elm nədənsə onlar tərəfindən tamamilə diqqətdən kənarda qalır. Baxmayaraq ki, məncə, menecerə sosial elmlərdən daha çox coğrafiya lazımdır. Pedaqoji universitetə xüsusi ixtisas üzrə daxil olanda da biz coğrafiya yox, eyni sosial elmlər görürük.

Elmi-texniki tərəqqi, rəqəmsal inqilab elektron yaddaş daşıyıcılarının yaranmasına və istənilən məlumatı, o cümlədən coğrafi məlumatı dərhal əldə etmək imkanına gətirib çıxardı. İnternet, elektron xəritələr, GPS naviqasiyası və s. İnternetə daxil olaraq Yerin müxtəlif əraziləri haqqında məlumat axtara bildiyiniz halda, nə üçün quru yazılmış coğrafiya dərsliklərini öyrənmək və kağız atlaslara baxmaq lazımdır.

Təhsilin müasirləşməsi şəraitində müəllimlərin peşəkar bacarıqlarına tələblər artır. Tələblərdən biri də tədrisin təşkili formalarının müxtəlifliyinə baxmayaraq, tədris prosesinin əsasını təşkil edən dərsin təkmilləşdirilməsidir. Ənənəvi dərslər yeni nəslin təhsil standartları ilə bağlı əsaslı dəyişikliklər tələb edir. Dərsin səmərəli olmasının əsas şərtlərindən biri sinifdə bütün şagirdlərin məhsuldar tərbiyəvi fəaliyyətlə məşğul olması, onlara müstəqil biliklərə yiyələnməyə öyrədilməsi və müstəqil iş vərdişlərinin aşılanmasıdır. Müasir coğrafiya dərsinin əsasını sistemli-fəal yanaşma təşkil edir. Müəllimin vəzifəsi təkcə tədris materialını təqdim etmək və öyrənilən məzmunu yoxlamaq deyil, həm də müxtəlif coğrafi məlumat mənbələri ilə şagirdlərin fəaliyyətini təşkil etmək, idrak tapşırıqlarını formalaşdırmaq və təhsil problemlərinin həllinə kömək etmək, qarşılıqlı əlaqə vəziyyətləri yaratmaqdır.

Məktəb coğrafiyasının problemli vəziyyəti müasir təhsildə boşluqlar görən müəllimləri və ictimaiyyəti birləşməyə vadar edir. Coğrafiyanın təhsildə öz layiqli yerini tutması üçün fənnin gənc nəsil, o cümlədən böyüklər üçün əhəmiyyəti məsələlərini tənzimləmək lazımdır; coğrafiya ibtidai, ümumi təhsil və orta ixtisas təhsili müəssisələrində məcburi fənn olmalıdır; coğrafiya ali məktəblərdə icbari imtahanların siyahısına daxil edilməlidir (xüsusən də ona birbaşa aidiyyəti olan ixtisaslar üzrə); Coğrafiya müstəqil fənn olmalıdır.

Məktəb coğrafiyasının dəyəri ondadır ki, şagirdlərdə Yer kürəsinin canlılar planeti kimi hərtərəfli, sistemli və sosialyönlü ideyasını formalaşdıran ideoloji xarakterli yeganə məktəb fənnidir. Bu həm də onları elmi biliyin xüsusi metodu kimi ərazi yanaşmasına təqdim edən yeganə fəndir. Şəxsiyyətin formalaşmasında coğ-

rafi biliklərin dəyəri coğrafi təhsilin ümumi məqsədini formalaşdırmağa imkan verir.

Coğrafiya dərslərində hansı kompetensiyaları inkişaf etdirmək olar:

- Dəyər-semantik səriştələr həyata münasibət formalaşdırır, dəyər prinsiplərini düzgün təyin edir;
- Ümumi mədəni kompetensiyalar etnik qrupların, ailə və sosial dəyərlərin, müxtəlif xalqların adət-ənənələrinin və həyat tərzinin öyrənilməsi ilə formalaşır;
- Tədris və idrak kompetensiyaları şagirdin sinifdə və dərsdənkənar fəaliyyətində, ekskursiyalar zamanı xarici aləmdən biliklər əldə etdikdə, faktları spekulyasiyadan ayırmağı öyrəndikdə, statistik məlumatlardan istifadə etdikdə formalaşır;
- İnformasiya səriştələri müasir media və informasiya texnologiyalarına yiyələnməyi nəzərdə tutur. Məsələn, dərs və ya dərsdənkənar tədbir üçün təqdimat yaradın, kosmosdan öyrənilən ərazilərin şəkillərini göstərmək və təhlil etmək;
- Kommunikativ səriştələr ünsiyyət prosesində formalaşır, o cümlədən başqaları ilə qarşılıqlı əlaqə üsulları haqqında biliklər, komandada işləmək bacarıqları, müxtəlif sosial rolların mənimsənilməsi və s.

Coğrafiya müəllimləri yeni tədris metodları və formaları axtarmalı olurlar. Tədris prosesi müəllimlər üçün heç də az əhəmiyyət kəsb etmir. Hal-hazırda müəllimlər müasir texnologiyaları inkişaf etdirir və sonradan təhsil prosesinə tətbiq edirlər. İstənilən nəticəni əldə etmək və ya ona yaxınlaşmaq üçün çox vaxt informasiya innovasiyalarından istifadə etmək zəruri olur.

Coğrafi biliklər tətbiqi xarakter daşıyır. Nəticə etibarı ilə onlardan vətəndaş fəaliyyətinin müxtəlif sahələrində istifadə oluna bilər.

Məktəb coğrafiyası şagirdlərdə Yer kürəsinin canlılar planeti kimi bütöv, hərtərəfli, sistemli qavrayışını formalaşdıran ideoloji xarakterli bir fənndir. Bu fənnin əhatə dairəsi təbii və sosial obyekt və hadisələri əhatə edir, ona görə də coğrafiyanın tədrisinin məqsədləri xüsusilə genişdir. Ümumiyyətlə, coğrafi təhsilin məqsədi şagirdlərin coğrafi bilik və bacarıqların tam sistemini, habelə onların müxtəlif həyat vəziyyətlərində tətbiqi imkanlarını mənimsəməkdən ibarətdir. Məktəb coğrafiyasının şagird şəxsiyyətinin formalaşmasına verdiyi töhfə, şəxsiyyətin fəaliyyətinin insan və təbiət arasındakı münasibətlər sistemində ən vacib amil olduğu zaman təbiət və cəmiyyət arasında qarşılıqlı əlaqənin hazırkı mərhələsi ilə müəyyən edilir. Onu dövrün tələblərinə və ölkənin inkişafının çağırışlarına uyğunlaşdırmaq üçün təhsilin məzmununun əhəmiyyətli dərəcədə yenilənməsi zəruridir. Bu problemin həllinin əsas şərti ümumi təhsilin dövlət standartının tətbiqidir.

Hazırda coğrafiya 2004-cü il dövlət standartının federal komponentində ibtidai məktəbdə təhsil üçün məcburi olaraq müəyyən edilmiş bir sıra akademik fənlərdən biridir. Təhsilin əsas məzmunu, fənn üzrə tələbələrin hazırlanmasına dair tələblər və bu tələblərin yerinə yetirilməsinə nəzarət təlimin aparıldığı təhsil müəssisəsinin və ya ərazidən, onun profilindən asılı deyildir. Coğrafiya dərs zamanı məqsəd qoyma, planlaşdırma, düşünmə və özünə hörməti inkişaf etdirmək imkanı verən akademik fəndir.

Praktik iş coğrafiyanın öyrənilməsi prosesinin tərkib hissəsidir. Praktik işlərin yerinə yetirilməsi nəzəri bilikləri praktikada tətbiq etmək bacarığının formalaşmasını təmin edir, fiziki xəritələrin, statistik materialların oxunması, təhlili və müqayisəsi kimi həyati bacarıqlarla təchiz olunur. Praktik iş məktəblilərə zəhmətkeşliyi aşılamağa, müstəqilliyi inkişaf etdirməyə kömək edir. Proqramda nəzərdə tutulmuş praktiki işlər sisteminin tamamlanması məktəblilərə kartoqrafik, müqayisəli tarixi, geoekoloji, geosistemik yanaşma və metodları mənimsəməyə kömək edir. Didaktik məqsədə görə bütün praktiki işlər tədris (təlim), müstəqil (yaradıcı) və yekun (qiymətləndirici) bölünür. Müvafiq proqram üzrə tədris vaxtının 20%-dən çoxu praktiki işlərə ayrılmır. Müəllim tərəfindən təlim və yaradıcılıq işinin yerinə yetirilməsi seçmə qaydada qiymətləndirilir.

Coğrafiya fənninin tədrisində müvəffəqiyyətlər hər şeydən əvvəl müəllimin elmi hazırlığından asılıdır. Təcrübə göstərir ki, coğrafiya müəllimin ali təhsil müddətində yiyələndiyi biliklər hər gün artan tələblərini ödəyə bilməz. Digər tərəfdən coğrafiya elminin təbiətindən irəli gələn bir cəhət dəyişkənlik müəllimdən müntəzəm olaraq öz məlumatını artırmağı, təbiətdə və cəmiyyətdə baş verən yenilikləri təlim materialı ilə əlaqələndirməyi tələb edir. Bu vəzifə pedaqoji iş stajından asılı olmayaraq bütün coğra-

fiya müəllimlərin qarşısında durur. Hələ dərs ili başlamazdan əvvəl müəllim məktəbdə coğrafiya proqramının ümumi istiqamətdə yeniliklərlə tanış olmalı və kursun sinif üzrə ayrı-ayrı bölmələri üzərində dərindən işləyib kursun mövzularını planlaşdırmalıdır. Müəllim kursun planını tutmazdan əvvəl ədəbiyyat əldə etməli, istifadəsi zəruri olan əyani vəsait növlərini nəzərdən keçirməli, çatışmayan vəsait haqqında fikirləri məktəbin rəhbərliyi ilə həll etməlidi. Müəllim coğrafiya kursu üzərində plan işləyib hazırlayarkən proqramda, dərslikdə digər materiallarla birlikdə müşavirə materialları da əldə rəhbər tutulmalıdır. Sinif üzrə coğrafiya kursu iki müddətə: ya yarımillər üzrə, ya da illik planlaşdırmaq olar. Müəllim bu planı təqvim planı adlandırır. Təqvim planında proqram bölmələrə, mövzulara, dərslərə (saatlara) ayrılmaqla təqvimləşdirilir. Planda həm də müvafiq mövzuların tədrisində formalaşması, yaradılması nəzərdə tutulan ümumi və fərdi coğrafiya məvhumları qeyd edilməlidir. Planda həm də ayrı-ayrı mövzunun keçirilməsi ilə əlaqədar olaraq praktik iş, müşahidə, təcrübə və ekskursiyalar göstərilməlidir. Bütün sinif üçün iş şəraitindən asılı olaraq müəyyən dəyişikliklərin aparılması mümkündür. Hər bir müəllim gələcək dərsə hazırlaşarkən proqram, dərslik, əlavə ədəbiyyat, müxtəlif məcmuələr, elmi kütləvi kitabçalar və məqalələr, bədii əsərlərdən istifadə edərək dərs planı tərtib edilir. Bu həm də gündəlik adlanır. Dərs planında sinifdə coğrafiya dərslərinin mövzusu, dərsin məqsədi, dərsin təchizi, dərsdə istifadə ediləcək metod və üsullar göstərilir. Planın əsas hissəsində keçilən dərs materiallarının təkrarı və yeni dərsin izahına həsr edilir. Müəllim mövzunun xüsusiyyətini və əyani vəsaitlərinin növünü nəzərə alaraq dərsi necə təşkil edəcəyi, hansı üsul və metoddan istifadə edəcəyi aydın nəzərə çarpmalıdır. Planda mövzunun başlıca vəzifələri və onları şagirdlərə mənimsətməyin əsas yolları öz əksini tapmalıdır. Proqram bölmələrinə uyğun olaraq bəzən bir mövzuda bir neçə dərs seçmək olar. Belə ki, müəllim belə bir mövzu üzrə dərsə hazırlaşarkən, dərs sistemini müəyyən etməli və dərslə əlaqəli sürətdə metodik cəhətlərini işləməlidir.

**Problemin aktuallığı.** Coğrafiyanın əhatə dairəsi təbii və sosial obyekt və hadisələri əhatə edir, ona görə də coğrafiyanın tədrisinin məqsədləri xüsusilə genişdir. Ümumiyyətlə, coğrafi təhsilin məqsədi şagirdlərin coğrafi bilik və bacarıqların tam sistemini, habelə onların müxtəlif həyat vəziyyətlərində tətbiqi imkanlarını mənimsəməkdən ibarətdir.

**Problemin elmi yeniliyi.** Coğrafiyanın xüsusi vəzifəsi yaşadığımız ölkə haqqında hərtərəfli məlumat əldə etmək və eyni zamanda Yer kürəsinin digər bölgələrinin təbiətindəki oxşar və fərqli cəhətləri göstərməkdir. Coğrafiyanın şüurlu mənimsənilməsi üçün yeganə məqsədəuyğun vasitə şagirdlər tərəfindən əzbərləmə deyil, uşaqlarda tədqiqat qabiliyyətini inkişaf etdirən birbaşa müşahidə və müstəqil zehni işidir.

**Problemin praktik əhəmiyyəti**. Məktəb coğrafiyasının şagird şəxsiyyətinin formalaşmasına verdiyi töhfə, şəxsiyyətin fəaliyyətinin insan və təbiət arasındakı münasibətlər sistemində ən vacib amil olduğu zaman təbiət və cəmiyyət arasında qarşılıqlı əlaqənin hazırkı mərhələsi ilə müəyyən edilir. Onu dövrün tələblərinə və ölkənin inkişafının çağırışlarına uyğunlaşdırmaq üçün təhsilin məzmununun əhəmiyyətli dərəcədə yenilənməsi zəruridir. Bu problemin həllinin əsas şərti ümumi təhsilin dövlət standartının tətbiqidir.

## Ədəbiyyat:


1. "Təhsil Haqqında" Azərbaycan Respublikasının Qanunu. – Bakı: Hüquq ədəbiyyatı, – 2009.
2. Ümumtəhsil səviyyəsində yeni dövlət proqramları (kurikulumları). – Bakı, 2013
3. Orta məktəbdə coğrafiya təliminin metodikası. – Bakı: Maarif, – 1978.
4. Seyfullayeva, N. və Əliyeva. E. Coğrafiya fənni üzrə təlimin təşkili formaları və üsulları. – Bakı, 2009.
5. Бардин, К.В. Как научить детей учиться. / К.В. Бардин. – Москва: Просвещение, – 1987. – 112 с.
6. Загвязинский В.И., Гильманов А. Управление качеством образования: Методич. рекоменд. – Тюмень, 2009. – 16 с.
7. Барсов, Н.П. Очерки русской исторической географии. География начальной летописи / Н.П. Барсов. – М.: Издательство Юрайт, 2019. – 218 с.


**E-mail:** teraneler@mail.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok.* **A.X. Hacıyev,**
*ped.ü.fəls.dok.* **Ə.Ə. Gərayev**
**Redaksiyaya daxil olub:** 18.10.2023

# *XARİCİ DİLLƏRİN TƏDRİSİ METODİKASI*
# *МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНОСТРАННЫХ ЯЗЫКОВ*
# *METHODS OF TEACHING FOREIGN LANGUAGES*

*UOT 372.881.111.1*

***Fəridə Məşi qızı Hüseynova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Ümumi pedaqogika kafedrasının baş müəllimi*
*ORCID ID: https://orcid.org/0000-0002-0250-3467*

## İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ QİYMƏTLƏNDİRMƏNİN NƏZƏRİ ƏSASLARI

***Фарида Маши гызы Гусейнова***
*доктор философии по педагогике,*
*старший преподаватель кафедры Общей педагогики*
*Азербайджанского государственного педагогического университета*

## ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ОЦЕНИВАНИЯ ПРИ ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

***Farida Mashi Huseynova***
*doctor of philosophy in pedagogy, senior lecturer at the department of General pedagogy of Azerbaijan State Pedagogical University*

## THE THEORETICAL BASIS FOR ASSESSMENT IN ENGLISH LANGUAGE TEACHING

**Xülasə.** Məqalənin məqsədi ali təhsildə ingilis dili bilik və bacarıqlarının qiymətləndirilməsində yeni elmi-nəzəri yanaşmalar və prinsiplərdən bəhs edir. Tədqiqat məqaləsi dil qiymətləndirməsində nəzəri yanaşmaların praktikada zəif tətbiqinə istiqamətlənib. Məqalədə ingilis dili üzrə bilik və bacarıqların yeni nəzəri mülahizələrə əsasən qiymətləndirilməsində yeni perspektivlər araşdırılır. Araşdırılan sahələr ingilis dilinin müxtəlif məqsədlər öyrənilməsi onun səviyyələrini müəyyən etməyə imkan verir və qiymətləndirmənin rolunu zəruri edir.
***Açar sözlər:*** *qiymətləndirmə, dil səviyyələri, nəzəri prinsiplər, konseptual yanaşma*

**Резюме.** Цель статьи – обсудить новые научно-теоретические подходы и принципы оценивания знаний и навыков английского языка в высших учебных заведениях. В исследовательской статье основное внимание уделяется слабому применению теоретических подходов в оценке языка на практике. В статье рассматриваются новые перспективы оценки знаний и навыков английского языка на основе новых теоретических соображений. Направления исследования позволяют определить различные уровни владения английским языком и делают необходимой роль оценивания.
***Ключевые слова:*** *оценивание, языковые уровни, теоретические принципы, концептуальный подход*

**Summary.** The purpose of the article is to discuss new scientific-theoretical approaches and principles in the assessment of English language knowledge and skills in higher education. The research article focuses on the poor application of theoretical approaches in language assessment to practice. The article examines new perspectives in the assessment of English language knowledge and skills based on new theoretical considerations. The researched areas allow to determine the different levels of learning the English language and make the role of assessment necessary.
***Key words:*** *assessment, language levels, theoretical principles, conceptual approach*

## 1. Giriş. Qiymətləndirmə nəzəriyyələri

Xarici dil üzrə bilik və bacarıqların qiymətləndirilməsi ətrafında bir çox suallar müəllimlər, tədqiqatçılar və mütəxəssislər tərəfindən araşdırılır, linqvistik və psixoloji paradiqmalardan olan yeni baxışlar və çoxsaylı metodik yanaşmalar haqqında müxtəlif fikirlər müzakirə olunmaqdadır.

Xarici ədəbiyyatında qiymətləndirmədə üç perspektiv *"biheyvirist"*, *"koqnitiv"*, *"konstruktivist"* nəzərəiyyələrlə əlaqələndirirlər. Böyük Britaniya təhsilində dil bacarıqlarının qiymətləndirilməsi bəzən *"biheyvirist"*, *"konstruktivist" və "sosio-mədəni" və ya "aktivist"* nəzəriyyələrinə uyğun gəlir.




***Şəkil 1. Təlim və qiymətləndirmə nəzəriyyələri***

70-ci illərdə *davranış* nəzəriyyəçilərinin (Pavlov, James Watson, B.F. Skinner və Thorndike) fikirlərinə görə bəzi müasir müəllimlərin təlim keçdiyi dövrlərdə dominant nəzəri perspektiv olaraq davranış modifikasiyası tədris proqramlarında, eləcə də gündəlik təcrübədə tətbiq olunmağa başladı. Bu nəzəriyyədə peşəkar dil bilmə eyni zamanda davranış səviyyəsini də müəyyən edirdi. Bu nəzəriyyələrə görə təlim mühiti müəyyənedici amil kimi, xarici stimullara şərti cavab verməli, mükafatlandırma, tərif və ya cəzalandırma güclü üsullar kimi tətbiq edilirdi.

*İdrak nəzəriyyəsi*, dil bacarıqlarını səthi səviyyəli düşüncələrdən, məlumat, proseslər üzrə qiymətləndirir, dərin strukturlar, sxemlər üzərində mexanizmlərin dəyişilməsinə, taksonomik quruluşa malik olaraq geniş idrak sisteminin mövcud olduğunu irəli sürür. Nəzəriyyəyə əsasən dil bilikləri üzrə koqnitiv test zehni funksiya ilə bağlı problemləri yoxlanılır, biliklərin beyin düşüncələri ilə necə emal etməsini göstərilir. Bu məqsədlə, test sadə suallara cavab verməyi və sadə testləri yerinə yetirməyi əhatə edirdi. Test həmçinin koqnitiv skrininq testi və ya koqnitiv qiymətləndirmə adlanır. Koqnitiv qiymətləndirmə fərdin öyrənmə ilə bağlı güclü və çətinliklərinin profilini verir, çünki o, idarə olunan şəkildə həmin anda necə davrandıqlarının şəklini təqdim edir (şəkil 1).

*Konstruktivist modeldə* tələbələr öz öyrənmə prosesində fəal iştirak etməyə cəlb olunurlar. Bu model 5 mərhələdən ibarət olaraq iştirak etməyi, kəşf etməyi, izah etməyi, işlətməyi və qiymətləndirməyi həyata keçirir. Müəllim daha çox vasitəçilik edən, sövq edən və tələbələrin öyrənmələrini inkişaf etdirməyə və qiymətləndirməyə kömək edən bir vasitəçi kimi fəaliyyət göstərir. Bu zaman müəllim öyrənənləri dilin istifadəsində oxuyub-anlamaya, proqnozlaşdırmağa, izah etməyə, mübahisə etməyə, öz fikirlərini müdafiə etməyə təşviq edir. Bu baxımdan tələbə mərkəzli qarşılıqlı əlaqədən istifadə edən konstruktivist yanaşma ənənəvi müəllim mərkəzli yanaşmanı təkzib edir.

*Sosiomədəni nəzəriyyə* üzrə qiymətləndirmə cəmiyyətin fərdi inkişafa verdiyi töhfələrə baxan psixologiyanın yeni bir sahəsi kimi sosial davranışları yoxlayır və formalaşdırır. Bu nəzəriyyə 1990-cı illərdən təhsil mühitində qabarıq şəkildə özünü büruzə verir və eləcə də sosiallaşmada tətbiq oluna bilər.

Sosiomədəni öyrənmə nəzəriyyəsi təlim olaraq öyrənənlərin düşündüklərini və öyrənmə üçün qiymətləndirməyə nail olmaqda çətinlikləri həll etməyə kömək edə bilər. Öyrənmə üçün qiymətləndirmə səriştə əsaslı təhsil proqramlarının həyata keçirilməsində ən cəlbedici motivasiya üsulu kimi qeyd olunur. Qiymətləndirmədə *"mədəniyyət"* mövzusu üzrə multikultural bilik-

lərin qazanılması səviyyəsi yoxlanılır. Buraya ingilis dilli ölkələrin sosial davranışı və normaları, qanunları, adət və ənənələri, mərasimlər, dil, inanclar və dəyərləri, incəsənət və mətbəx həyatı daxildir. Burada qiymətləndirmənin əsas məqsəd və məzmunu standartlaşdırılmış testlərə mədəni əsərlər kimi baxmaq və ünsiyyətdə istifadə etməkdir (şəkil 1).

*Sosial aktivizm nəzəriyyəsi* konstruktivizm düşüncələrin məhsulu kimi meydana gələrək təlimdə birgə öyrənmə fəaliyyətlərini sosial mühitdə reallaşdırır.

Burada tələbələrin problemin həllində taktika və strateji yol seçməsi bacarığı, praqmatik fəallığı və axıcı nitqi, inandırma bacarığı qiymətləndirilir. Kontekstual xarakter daşıyan aktivizm nəzəriyyəsi qiymətləndirmənin tətbiqində ən çox nəzərə alınan bacarıqları dəyərləndirir. Buraya praqmatik girişdə söz seçimi, strateji davranış nümayişi, bədən dili, jest və mimikanın düzgün istifadəsi, informasiyanın ötürülməsi yollarını seçməsi, təqdimat bacarıqları və s. fəal davranışların qiymətləndirilməsi daxildir (şəkil 1).

## 1. Qiymətləndirmənin konseptual məqsədi və vasitələri

Məlumdur ki, inkişaf etmiş cəmiyyətlərdə olduğu kimi xarici dil, xüsusilə də ingilis dili müəyyən bir qrup öyrənənlərin ehtiyaclarını ödəmək üçün ən yaxşı və ən uyğun vasitədir. Bu məqsədlə, tədris metodunun inkişafına diqqət yetirən dil tədrisi və öyrənmə sahəsi ortaq ünsiyyət məqsədlərinə çatmaq üçün ingilis dilindən səmərəli istifadəni gözləntiyə çevirir. Bu baxımdan mövcud şəraitdə müxtəlif məqsədlər üçün ingilis dilinin yüksək səviyyədə istifadəsi daha geniş əhatə dairəsinə daxil olub iqtisadiyyat, mədəniyyət, turizm, tibb, hüquq, maliyyə və ya aviasiya kimi sahələrə də təsir etməyə başlamışdır. Buna uyğun olaraq, ingilis dilinin hansı səviyyədə öyrənilməsi və qiymətləndirilməsi sahəsinə olan ehtiyaclar fərqli baxışlardan təhlil edilərək daha dərin anlayış və nəzəri yanaşmaların araşdırılmasını tələb edir. Digər məqsəd olaraq, dil sahələri müəyyən dil bacarıqlarının uyğun səviyyədə olmasını tələb edir və bu tələbin yerinə yetirilməsinin elmin nəzəri mahiyyətinin şərhi dilin tədrisində yalnız *qiymətləndirmə* konsepsiyası ilə ilə ölçülülr. Bu konsepsiya dilin öyrənilməsini əlaqəli şəkildə onun tətbiqi metodikası ilə izah edir. Buna əlavə olaraq, qiymətləndirmə əsasında müəyyən edilən səviyyə öyrənənlərə səmərəli ünsiyyət qurmaq və peşəkar fəaliyyət göstərməsi üçün bir ölçü meyarına çevrilir.

Qiymətləndirmənin konseptual məqsədi həm müəllim və həm də öyrənənlərə baza bilik və bacarıqlara nail olmaq üçün yol xəritəsi təsvirini yaradır. Universitetlərdə xarici dil kurikulumun planlaşdırılmasında kompleks bacarıqlar bu xəritədə nəzəri dinamik xətti üzrə vacib bacarıqlar kimi təqdim edilir. Öyrənmə mühitinə gəldikdə, bu nəzəriyyələr tələbələrin bacarıq səviyyəsinə uyğun olaraq gözlənilən bacarıqları əldə etməkdə iyerarxiyaya əsaslanır. Sübut olunmuşdur ki, qiymətləndirmə zamanı bu baza biliklərin nəzərə alınması bir çox hallarda müsbət nəticə verir və burada dilin hansı şəkildə qazanılması üçün qiymətləndirmənin təsirini izah etmək üçün müəllimin rolu təlimatları düzgün şərh etməkdir. Çox zaman qeyri-spesifik tərif və səhvlərin düzəldilməsi şəklində olan müsbət rəy, stimul və cavab arasında əlaqə yaratmaq üçün istifadə olunur. Burada proqram vasitəsilə onların irəliləyiş sürətinə görə fərdi olaraq ən yaxşı şəkildə öyrədilməsi nəzərdə tutulur.

Hattie (2012) qeyd edir ki, qiymətləndirmə öyrənənlərə və müəllimlərə öyrənmə məqsədinə diqqət yetirməyə kömək edir və tələbələrə *"mükəmməlliyin"* nə olduğunu anlamağa, dili təkmilləşdirmək üçün məsuliyyətli olmağa və irəliləyişlərini planlaşdırmağa kömək edir. Buradan aydın olur ki, qiymətləndirmə və öyrənməni inteqrasiya olunmuş tam bir prosedurdur. Tədqiqatçı alim qeyd edir ki, təlim məqsədlərinin aydınlaşdırılması və tələbə öyrənməsi ilə bağlı rəylər tədris və təlim strategiyalarının işlənib hazırlanmasına birbaşa təsir edəcək. Hattinin təhlilində *əks əlaqə* (feedback) güclü təsir vasitəsi kimi tələbə nailiyyətlərinə müsbət təsir göstərən ən unikal vasitə kimi dəyərləndirilir. Əks əlaqədə müəllim dil bilik və bacarıqlarının qazanılması sahəsində əldə olunan irəliləyşləri necə tənzimləmək yollarını izah etməsi çox böyük əhəmiyyət kəsb edir. Əks əlaqənin vacibliyi bir də onunla izah olunur ki, müəllimlər öz tədrislərini effektiv şəkildə dəyişdirmək üçün tələbələrdən məlumatlara ehtiyac duyurlar.

Mülahizələr qeyd edir ki, dilin qiymətləndirilməsi hər hansı bir dildə istifadəçinin dil biliyinin ölçüsüdür. Təlim prosesində aparılan qiy-

mətləndirmə tələbələrin öyrəndiklərinin hansı səviyyədə olması, necə başa düşmələri, müəllimin təlimat və dəyərləndirmə qərarları haqqında olan bir mexanizmdir. Öyrənmənin qiymətləndirilməsi müəllimlərdən öyrənənlərin aldığı biliklərlə bağlı mühakimə yürütməyi və tələbələrin bildikləri barədə müəllimlərlə və öz həmyaşıdları ilə ünsiyyət qurmağı tələb edir. Bu, standartlara istinad edilən təlim planında da bir çərçivə yarada bilər.

Uilyam (Wiliam, D.) qeyd edir ki, qiymətləndirmə daha sonra üç mərhələdən ibarət bir dövrə, *sübutların əldə edilməsi, sübutların şərh edilməsi, yeni fəaliyyətə keçmə* kimi qəbul edilir. Buradan belə qənaətə gələ bilərik ki, qiymətləndirmə üç fazadan ibarət bir bir prosesdir. Buna zidd olaraq, bəzi tədqiqatlar iddia edir ki, qiymətləndirmə dövründə iştirak edən hər bir öyrənənə məlumatdan istifadə etmək o qədər də tam aydın deyil və qiymətləndiricilər və istifadəçilərlə bağlı qeyri-müəyyənlik yaranır.

Qiymətləndirmə nəzəriyyələri dil bacarıqlarının qiymətləndirilməsini mürəkkəb bir sistem kimi dinləmə və danışma, oxu, yazı fəaliyyətlərini interaktiv şəkildə yerinə yetirməklə dəyərləndirir. Buna baxmayaraq, nümunələrdən məhdud şəkildə istifadə olunsa da, bilik və bacarıqları haqqında geniş nəticə çıxarıla bilmir. Dilin qiymətləndirilməsini Baçman (2004) *"sistemli və əsaslı şəkildə əsaslandırılmış prosedurlar"* adlandıraraq dil bacarıqları haqqında məlumat toplamaq kimi müəyyən etmişdir.

Son tədqiqatlar dil bilik və bacarıqlarının qiymətləndirilməsini sosial konstruktivist öyrənmə nəzəriyyələri ilə əlaqələndirir. Bu yanaşmanı təsvir edən P. Blək və D. Uilyamın (Paul Black və Dylan Wiliamın) irəli sürülən nəzəri fikirləri daha çox təsirli olmuşdur. Mövzunu başa düşmək üçün istifadə edilən zehni modellər və fərziyyələr mürəkkəblik xarakteri daşıdığından qazanılan biliklər əvvəlki təcrübələr nəticəsində qurulur və sonda keyfiyyət anlayışı ilə əvəz olunur.

Qiymətləndirmənin nəzəri bazası təkmilləşdirmə yollarını bu formatda təklif edir:

- öyrənənlərə uğur qazanmaq üçün nə etməli olduqlarını dəqiq başa düşməyə kömək etmək
- kifayət qədər düşünmə vaxtı da daxil olmaqla məhsuldar sinif müzakirəsini təşviq etmək
- bütün tələbələrin öz anlayışlarını ifadə etmələri üçün imkanların yaradılması
- tələbələrin öyrənmələrini davam etdirmələrinə və digər tələbələrlə müqayisə etmələrinə kömək edən rəyin təmin edilməsi, sonra onlara həmin rəy əsasında hərəkət etmələrinə imkan yaratmaq
- öyrənənləri özünüqiymətləndirməyə cəlb etmək və onların bir-birləri üçün öyrənmə resursları olmalarına imkan yaratmaq.

Təlim prosesində müəllimlər və şagirdlər arasında qarşılıqlı əlaqə mühüm əhəmiyyət kəsb edir. Qiymətləndirmə növü olaraq *formativ və summativ* qiymətləndirmənin təsviri ənənəvi hala gəlib, lakin bu kontekstdə qeyd etmək lazımdır ki, *"formativ"* və *summativ"* terminləri qiymətləndirmələri təsvir etmir. Bəzən eyni qiymətləndirmə kimi həm formativ, həm də yekun olaraq summativ qiymətləndirmə məlumatların istifadə olunduğu təsvirlərdir. Bundan əlavə, alimlər qeyd edirlər ki, dil biliklərinin qiymətləndirilməsində "formativ qiymətləndirmə" nin effektiv istifadəsində 0,4 və 0,7 standart kənarlaşmalar arasında artaraq, tələbələrin öyrənmə sürətinin 50-70 faiz artmasına bərabər olur (Wiliam, 2018, s. 38). Qiymətləndirmənin nəzəri mahiyyəti əsasən öyrənənləri üç səviyyədə istiqamətləndirməyi təklif edir:

1) Qiymətləndirmə öyrənənin harada, nəyi necə bildiyini müəyyən edir.

Burada dərsin məqsədləri və uğur meyarlarının bölüşdürülməsi öyrənənlərə nəyi hədəflədiklərini və bu məqsədlərə çatmaq üçün nə etməli olduqlarını görməyə kömək edir.

2) Qiymətləndirmə öyrənənin hazırda hansı səviyyədə olmasını göstərir. Burada mövcud dil bilik və bacarıqlarının seçilmiş texnikalarla inkişaf dinamikası inkişaf edir. Təlim zamanı aparılan sorğu-sual müəllimlərə fərdlərin və qrupların dərs zamanı nələri öyrəndiyini ölçməyə kömək edərək həm müəllimin, həm də tələbələrin istifadə edə biləcəyi öyrənmə sübutlarını yaradacaq.

3) Qiymətləndirmə öyrənənlərin məqsədlərə nail olmasını. Müəllimlər bundan əvvəlki məlumatlardan istifadə edərək istifadə edirlər onlar haqqında seçimləri məlumatlandırmağı öyrənməyin sübutu bir sinif və ya ayrı-ayrı tələbələrlə sonra edəcək.

4) Müstəqil təhsil alma zamanı dili öyrənmələri ilə bağlı qərarlar qəbul etmək üçün əvvəlki nəticələrdən istifadə edilir.

Son zamanlar dil bacarıqlarının qiymətləndirilməsi vasitələrinin tətbiqi dilçilikdə geniş müzakirə olunan mövzudur. Müşahidələrə görə, ənənəvi qiymətləndirmə vasitələri ingilis dilinin tədrisində təcrid olunub və tələbələrin maraqlarına və universitet səviyyəsində dil tapşırıqlarının analitik qiymətləndirilməsinə cavab vermir. Dil müəllimləri universitet səviyyəsində ingilis dilinin keyfiyyətli tədrisinə nail olmaq üçün qiymətləndirmə şkalası və rubrikalarının hazırlanmasının vacibliyi haqqında geniş məlumat verirlər. Məlumat toplamaq üçün sorğular, yarımstrukturlaşdırılmış anketlər və test suallarından istifadə edilmişdir. Nəticələr göstərir ki, dil müəllimləri qiymətləndirməyə gəldikdə bir sıra çətinliklərlə üzləşirlər. Praktiklik, tələbələrin qorxusu, imtahan dizaynı, inzibati ehtiyaclar və müəllimlərin peşəkar öhdəlikləri kimi bir çox amillər bu çətinliklərə görə günahlandırıla bilər. Müəllimlər dilin qiymətləndirilməsinə mənfi təsir göstərən problem və problemləri həll etmək üçün ənənəvi üsullara üstünlük verirlər. Bu hal isə yorucu mənzərə və monoton imtahan modeli təsirini bağışlayır.

Ədəbiyyat nümunələri bir sıra müasir nəzəriyyələrə əsaslanan üsullardan istifadə edirlər. Buraya daha çox istifadə olunan çoxseçimli testlərdən əlavə, esselər, portfoliolar, şifahi müsahibələr, müşahidələr və introspeksiya daxil olmaqla müxtəlif mənbələrdən əldə edilə bilər. Beləliklə, dilin qiymətləndirilməsinin əsas məqsədi tədris və öyrənmə proseslərini, eləcə də nəticələrini təsvir etmək, imtahan verənlərin performansını müqayisə etmək üçün *"ümumi meyar"* təmin etmək və yüksəliş, məşğulluq və immiqrasiya ilə bağlı qərarları məlumatlandırmaqdır (Hughes, 2010).

**Problemin aktuallığı.** Fənn üzrə təlim nəticələrinin qiymətləndirilməsinin əsas vəzifələrindən biri tələbələrin tədris və təlim fəaliyyətinin keyfiyyətinin yüksəldilməsidir [10, s. 9]. Azərbaycan Respublikasında təhsil konsepsiyasının həyata keçirilməsi müasir təhsil prosesində qiymətləndirmə metodlarında davamlılıq problemləri üzrə tədqiqatları yeniləyir.

**Problemin elmi yeniliyi.** Ali təhsildə xarici dil sahəsində keyfiyyətin təmin olunması üçün müasir qiymətləndirmə nəzəriyyələrinin vacibliyi araşdırılmış və ingilis dilinin tədrisində metodik yolları araşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə tədqiqatın nəticələri ali pedaqoji təhsil müəssisələrində ingilis dilinin tədrisi praktikasında istifadə oluna bilər. Bundan əlavə, praktiki tətbiqlərdən universitetlərdə ingilis dilinin tədrisi metodikası kurslarında istifadə edilə bilər.

**Ədəbiyyat:**


1. Белова Е.Е., Гаврикова Ю.А. Современный подход к обучению чтению на английском языке // Проблемы современного педагогического образования. – 2018. № 59-3. – с. 80-83
2. Гальскова, Н.Д., Гез Н.И. Теория обучения иностранным языкам. Лингводидактика и методика. – М.: Издательский центр «Академия», – 2006. – 336 с.
3. Bachman, L. F. Building and supporting a case for test use. Language Assessment Quarterly, 2(1), – 2005. 1-34.
4. Black, P. and Wiliam, D. Assessment and Classroom Learning. Assessment in Education: Principles, Policy &Practice, 5(1), 1998. 7-74.
5. Gardner, J. Assessment and Learning (2nd Edn). – London: SAGE Publications Ltd. 2012, – p.11-46
6. Hattie, J. and Clarke, S. *Visible learning: Feedback*. Abingdon, – UK: Routledge. – 2019. – 142 p.
7. Hughes, G. Identity and belonging in social learning groups: the value of distinguishing the social, operational and knowledge-related dimensions. British Educational Research Journal, 36, no. – 2010 1: – 47- 63.
8. Skinner, B. F. "Behaviourism, Skinner On." Oxford Companion to the Mind. – New York: Oxford University Press. – 1987. – p.12- 34


**E-mail:** feridehuseynova21@gmail.com
**Rəyçilər:** *ped.elm.dok., prof.* **D.Ə. İsmayılova,**
*ped.ü.fəls.dok., dos.* **İ.A. Cavadov**
**Redaksiyaya daxil olub:** 23.11.2023

*UOT 372.881.116.11*

***Афаг Аллахверди гызы Садыгова***
*доктор философии по педагогике, доцент*
*Азербайджанский государственный университет культуры и искусств*

# О РОЛИ ИННОВАЦИЙ ПРИ ОБУЧЕНИИ РКИ

***Afaq Allahverdi qızı Sadıqova***
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
*https://orcid.org/0009-0007-6770-2460*

# RUS DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİNDƏ İNNOVASİYANIN ROLU

***Afag Allahverdi Sadıgova***
*doctor of philosophy in pedagogy, associate professor*
*Azerbaijan State University of Culture and Arts*

# ABOUT THE ROLE OF INNOVATION IN TEACHING RFL

**Резюме.** В статье анализируется процесс обучения с применением новых информационно-коммуникационных технологий и их влияние на этот процесс. При организация учебного процесса с применением интерактивных методов, развивающие коммуникативных умений и навыков учащихся, необходимо учесть важности выбора подходящего интерактивного метода или приема в зависимости от возраста учащихся и уровня их знаний и знать методологические основы его использования в учебном процессе, а также следует учитывать сложность и коммуникативную значимость представленного языкового материала, который является необходимым для формирования коммуникативных компетенций.

***Ключевые слова:*** *информационно-коммуникационные технологии, учебный процесс, языковой материал, интерактивные методы, коммуникативные компетенции*

**Xülasə.** Məqalədə yeni informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə tədris prosesinin təşkili və onların bu prosesə təsiri təhlil edilir. Şagirdlərin ünsiyyət bacarıqlarını inkişaf etdirən interaktiv metodlardan istifadə etməklə tədris prosesini təşkil edərkən şagirdlərin yaşından və onların bilik səviyyəsindən asılı olaraq uyğun interaktiv metod və ya texnikanın seçilməsinin vacibliyini nəzərə almaq, onun tədris prosesində istifadəsinin metodoloji əsaslarını, həmçinin kommunikativ səriştələrin formalaşması üçün zəruri sayılan təqdim olunan dil materiallarının mürəkkəbliyini və kommunikativ əhəmiyyətini bilmək lazımdır.

***Açar sözlər***: *informasiya-kommunikasiya texnologiyaları, tədris prosesi, dil materialı, interaktiv metodlar, kommunikativ kompetensiyalar*

**Summary.** The article analyzes the learning process using new information and communication technologies and their impact on this process. When organizing the educational process using interactive methods that develop the communication skills of students, it is necessary to take into account the importance of choosing a suitable interactive method or technique depending on the age of the students and the level of their knowledge and to know the methodological basis of its use in the educational process, and one should also take into account the complexity and the communicative significance of the presented language material, which is necessary for the formation of communicative competencies.

***Key words:*** *information and communication technologies, educational process, language material, interactive methods, communicative competencies*

В образовании применяются многочисленные методики, технологии, педагогические приемы. Главной проблемой современной методики является проблема комплекс-

ного развития коммуникативной деятельности учащихся при обучении русскому языку как иностранному. Обучение русскому языку учащихся, живущих в среде другого языка, требует нового подхода, который отличается от существующих методических систем преподавания русского языка.

В последние годы всех учителей волнует вопросы методики проведения нестандартных уроков, отличие их от обычных уроков. Для того, чтобы повысить научно-практический уровень урока нужно использовать самые последние достижения науки. Такой урок должен опираться ещё на последние достижения педагогики и психологии. Современный урок должен опираться на процесс сознания коэффициента личности (то есть должны сформироваться мышление, память, чувство и фантазия). При этом ученик должен быть субъектом учебно-воспитательного процесса, то есть учитель должен работать по интерактивному методу.

Для достижения ожидаемого результата важное значение имеет организация учебного процесса и применение интерактивных методов в этом процессе. К таким методам относятся: диаграмма Венна, Инсерт, ЗХУ (Знаю – Хочу знать – Узнал), ролевая игра, мозговой штурм, кластер, метод проектов и другие. Для формирования творческих способностей у учащихся предлагается использовать на уроках русского языка как иностранного такие приёмы и средства, как проведение ролевых игр, выполнение занимательных заданий: смекалки, головоломки, ребусы, кроссворды, вызывающие познавательную активность у учащихся. При представлении языкового материала следует учитывать его сложность и коммуникативную значимость, необходимость для формирования речевой компетенции. Применение этих методов в учебном процессе развивает коммуникативные умения и навыки учащихся.

Появление и распространение новых технологий и сопровождающие этот процесс новые явления в процессе познания – необходимость в приобретении свежей информации, реформируют процесс обучения и следовательно, в учебный процесс во всё большей мере вовлекаются информационно-коммуникативные технологии, имеющие ряд преимуществ – оживление и активность уроков, превращение учебного процесса в более интересную, живую дискуссию, необходимой при обучении русскому языку как иностранному. Учитель должен осознавать важность выбора подходящего интерактивного метода или приема в зависимости от возраста учащихся и уровня их знаний и знать методологические основы его использования в учебном процессе.

За последние несколько лет в мире происходят такие события, которые подтолкнули многие сферы деятельности к принятию совершенно новых глобальных решений и поиску новых подходов, в том числе и к выработке нестандартных путей реализации целей в сфере образования, а также дало импульс для перехода в новый дистанционный формат образования. За два года пандемии появилась не только потребность в дистанционной связи учителей с учениками, но также в применении и усовершенствовании образовательного процесса с помощью информационных и коммуникативных технологий, которое стало требованием времени. Все эти происходящие события дали возможность накопиться опытом в этом направлении и перешли на совершенно новую ступень, в результате чего система образования перенесла все программы в онлайн, и стала внедрять интерактивные платформы в процесс обучения.

Внедрение интерактивных платформ в процесс обучения русскому языку как иностранному позволяет учащимся испробовать свои идеи, реализовать свой потенциал знаний в учебном процессе. Эффективность этих платформ зависит от обеспечения технологическими устройствами школ, использование которых помогают усовершенствованию образовательного процесса. Информационные и коммуникативные технологии – это не только требование времени, но уже и неотъемлемая часть современного образования. Эффективность организации учебного процесса с применением информационных и коммуникационных технологий зависит от обеспечения технологическими устройствами школ, наличия хорошего интернет-сигна-

ла и компетенций педагогов в сфере компьютерных технологий.

Интернет-ресурсы играют важную роль в жизни каждого из нас. Применение современных информационно-коммуникационных технологий на уроках русского языка как иностранного является эффективным и необходимым средством обучения, с помощью которого предоставляется доступ к аутентичным материалам и значительному числу учебных ресурсов в текстовом, аудио- и видео форматах; у учащихся появляется возможность осуществлять коммуникацию с носителями изучаемого языка и культуры, что необходимо в условиях отсутствия языковой среды.

Популярен в качестве учебного интернет-ресурса подкасты. Слово подкаст от английского podcast, означает передача аудио- и видеоконтента, где обсуждают разные темы один или несколько ведущих. Подкасты позволяют прослушивать, просматривать, создавать и распространять аудио- и видеопрограммы в интернете. Использование учебных подкастов при изучении русского языка как иностранного (дикция четкая, лексические формы хорошо выверены, учащиеся слушают «живую» русскую речь) помогают формированию необходимых речевых компетенций и речевого этикета.

Наглядность, интерактивность и динамичность подачи информации, представленной в виде мультимедийных продуктов, способствуют сделать процесс обучения более интересным, увлекательным и познавательным, повысив усвоения учебного материала на более высокий уровень.

Еще одним наглядным способом закрепления изученной темы является выполнение учащимися презентаций. По заданной учителем теме учащиеся готовят слайды. Основным требованием к оформлению презентации является небольшой текст, позволяющий учащимся больше говорить, а не читать и, соответственно в дальнейшем объем материала увеличивается, сложность возрастает. В каждой изучаемой теме есть вопросы, вокруг которого возможна дискуссия. Выступление по конкретному вопросу за определенное количество времени развивает речевые навыки и повышает мотивацию к изучению русского языка.

Не менее важным является использование на уроках метода проектов, достоинствам которого относятся: высокая коммуникативность учащихся, участвующие в создании и озвучивании проекта; повышение мотивации обучения путем осознания учащимися личной ответственности за выполнение проекта; создание прочной языковой базы и активизация самостоятельности мышления у учащихся; стимулирование учащихся в речевом общении. Эффективности метода проектов можно добиться с помощью следующих видов: информационных – учащиеся готовят сообщение на предложенную тему; игровых – учащиеся разыгрывают ситуации; творческих – учащиеся переводят определенный текст; сценарные – разработка учащимися и учителем программы внеклассного мероприятия.

Одним из таких мероприятий является учебная экскурсия, которая в свою очередь делится на реальные – личное посещение культурных объектов, и виртуальные – в классе учащимся предоставляется возможность виртуально посетить изучаемый объект, позволяющие получить достаточное впечатление о нем. При виртуальной экскурсии наглядность обеспечивается с помощью мультимедийной презентации. Во время экскурсии учащиеся знакомятся с природой, историей, экономикой и культурой региона, способствующие формированию социокультурной, лингвокультурологической и лингвострановедческой компетенций у учащихся.

При правильной организации проектной работы у учащихся формируются разные коммуникативные компетенции, расширяется кругозор, они получают удовольствие от общения с другими людьми и культурами и вместе со всеми этими у них появляется уверенность в себе общаться в различных ситуациях.

При обучении русскому языку следует активизировать все виды речевой деятельности, используя при этом инфографики для раскрытия темы, задания на аудирование (записи с высказываниями), конструирование те или иные ситуации общения, различные кейсы для групповых проектов (метод

конкретных ситуаций – обучающиеся должны исследовать ситуацию, разобраться в сути проблем, предложить возможные решения и выбрать лучшее из них).

Использование различных видов иллюстраций в процессе обучения русскому языку как иностранному, выполняя дополняющую, познавательную, воспитательную, эстетическую функцию, помогают ярче передать смысл текста, образы, подчеркнуть важность тех или иных событий, имеющихся в тексте. Иллюстрация от латинского слова illustration, означающее освещение, наглядное изображение, то есть изображение, сопровождающее, дополняющее и наглядно разъясняющее текст: рисунки, гравюры, фотоснимки, схемы, фотографии, графики, чертежи.

Иллюстрации помогают дополнить и сделать более наглядной информацию, которая заключена в тексте. Иллюстрации к текстам в учебниках не только помогают пониманию и восприятию текста, но и знакомит учащихся с русской культурой отражающие культурные особенности той или иной эпохи, мировоззрение людей, передает сложный мир человеческих чувств и характеров. Иллюстрация стимулирует к познанию и прочтению текста и помогает понимать события и описание тех или иных явлений, создавая образное представление, раскрывает сюжет текста.

Применение иллюстраций эффективно как способ беспереводной семантизации лексики. Для успешного усвоения разной грамматической темы будет эффективным использование иллюстрации различных типов, в том числе диафильмы, мультфильмы.

Считаем, что использование в процессе работы над мультфильмом различных приемов, обеспечивающие реальное общение в учебной обстановке: беседа, дискуссия, составление диалогов и рассказов, ролевые игры. Видеокадры пейзажных зарисовок помогают закрепить словесные образы о природе в сознании обучающихся. Мультфильмы помогают создать проблемную ситуацию на учебных занятиях, что способствует активизации навыков говорения, а также формированию у учащихся лингвистической и экстралингвистической компетенций, а также адаптации учащихся в русскую языковую среду.

Использование наглядных средств помогает расширению лексического запаса, закреплению правильного произношения, изучению грамматического строя речи, связной речи учащихся, а также помогает развитию их познавательной деятельности, повышению мотивацию учащихся к обучению. Наглядность, представленная в виде анимации, активизирует внимание, усиливает восприятие учебной информации, повышает эмоциональный фон, мотивацию к учению, формирует способы познания мира, собственной деятельности, развивает творческие способности у учащихся.

Отдельную сложность вызывает у учащихся аспект говорения, так как для многих возможность совершить ошибку является страшным и им трудно перебороть себя. Чтобы одолеть страх можно использовать такие виды речевой деятельности, как монологическую и диалогическую речь. Аспект письма очень важен для полноценного изучения русского языка, поэтому для развития письменной речи учащимся предлагается записывать небольшой текст под диктовку учителя или написать маленький текст поздравления и пожелания. В конце подводится итог урока и желательно проводить его в виде интерактивной игры (квеста).

Квест, как особая форма творческой работы, раскрывает возможности личности, усиливает мотивацию за счет возникновения эффекта новизны и индивидуализации образовательного процесса, повышает результативность самостоятельной работы. Игра начинается с жеребьевки (участники разделяются на команды, выбирают капитана и придумывают название); затем на экране показывают определенное слово и команды должны придумать как можно больше своих слов на каждую букву. По разным темам можно провести такие интерактивные игры: конкурс на отгадки загадок (соревнуются по две команды, всего есть три возможности на неправильный ответ); конкурс по теме кино (участники отвечают на вопросы по фильмам). В конце подводится итоги квеста, объявляется команды-победители и присуждается им шуточные номинации.

Все задания квеста должны быть составлены на материалах существующего учебного курса, здесь проверяется степень их освоенности. В то же время командная работа, элементы соревновательности повышает мотивацию изучения русского языка у учащихся и развитию их речевых навыков и умений, а также они не расстраиваются при совершении ошибок и радуются успехам, тем самым у них появляется уверенность в себе, которая очень важна при обучении русскому языку. Применение этих интерактивных методов и средств развивает коммуникативные способности учащихся, активизирует их языковые и речевые навыки, способствует расширению лексического запаса, систематизации лексики по тематическому и грамматическому принципам, совершенствует умения и навыки во всех видах речевой деятельности.

Значительное увеличение количества речевых заданий, коммуникативная направленность учебных материалов, активное применение в учебном процессе средств наглядности для семантизации материала на всех уровнях, также для закрепления и активизации их в речи повысит эффективность процесса обучения русскому языку как иностранному.

Коммуникативная направленность обучения русскому языку как иностранного требует применения учебных методов и приёмов, которые связаны между собой. Для достижения успешных результатов необходимо создать все условия для обеспечения коммуникативной направленности и формирование у обучаемых речевых компетенций.

**Актуальность проблемы.** Применение новых информационно-коммуникационных технологий в процессе обучения РКИ помогают развитию и совершенствованию коммуникативных компетенций у учащихся.

**Научная новизна**. Исследование проблемы с аспекта обучения РКИ в азербайджанской школе.

**Практическая значимость.** Будет полезным материалом при организации современного урока РКИ.

**Литература:**


1. Азимов Э.Г. Русский язык в интернете: лингвистический и дидактические аспекты. Русский язык и литература в Азербайджане. №4, 2011, Баку, с.38-42.
2. Алиева Д.А. Роль интерактивного обучения на занятиях по русскому языку. Русский язык и литература в Азербайджане. №3, 2007, с. 74.
3. Щукин А.Н. Методика преподавания русского языка как иностранного. – М., 2019. – 470 с.


**E-mail:** afaq.sadiqova@mail.ru
**Рецензент:** *док.пед.наук, ркоф.* **Г.Г. Ахмедова,**
*док. филос. по пед., доц***. Я.К. Алхасов**
**Redaksiyaya daxil olub:** 06.12.2023

*UOT 372.881.111.1*

***Nərminə Soltan qızı Quliyeva***
*Azərbaycan Dövlət İqtisad Universitetinin baş müəllimi*
*https://orcid.org/0000-0002-5090-9699*

***Xavər Dadaş qızı Hacıyeva***
*filologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət İqtisad Universitetinin dosenti*
*https://orcid.org/0000-0002-1a690-1298*

***Çimnaz Tapdıq qızı Səlimova***
*Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi*
*https://orcid.org/0000-0002-0530-4535*

# İNGİLİS DİLİ FAKÜLTƏLƏRİNİN TƏLƏBƏLƏRİNDƏ LEKSİK BACARIQLARIN FORMALAŞDIRILMASI YOLLARI

***Нармина Солтан гызы Гулиева***
*старший преподаватель*
*Азербайджанского государственного экономического университета*

***Хавяр Дадаш гызы Гаджиева***
*доктор философии по филологии,*
*доцент Азербайджанского государственного экономического университета*

***Чимназ Тапдыг гызы Салимова***
*преподаватель*
*Азербайджанского государственного экономического университета*

# СПОСОБЫ ФОРМИРОВАНИЯ ЛЕКСИЧЕСКИХ НАВЫКОВ У СТУДЕНТОВ ФАКУЛЬТЕТОВ АНГЛИЙСКОГО ЯЗЫКА

***Narmina Soltan Guliyeva***
*senior teacher of*
*Azerbaijan State Economic University*

***Khavyar Dadash Hajiyeva***
*doctor of philosophy in philology,*
*associate professor of Azerbaijan State Economic University*

***Chimnaz Tapdıq Salimova***
*teacher of*
*Azerbaijan State Economic University*

# WAYS FOR FORMING LEXICAL SKILLS IN ENGLISH-SPEAKING FACULTIES STUDENTS

**Xülasə.** Məqalədə qeyd olunur ki, metodik və psixoloji ədəbiyyat araşdırmaları göstərir ki, ötən əsrin son illərində xarici dillərin öyrənilməsi və öyrədilməsi prosesində leksik yanaşmaya üstünlük verilməsi geniş vüsət almışdır. Psixoloqlar və metodistlər sözlərin məna daşıyıcıları anlayışını tədrisə daxil edərək onların

yoxluğu mühitində heç bir kommunikasiya baş tutmayacağına əminlik gətirmişlər. Hər iki sahə mütəxəssisləri dil öyrənənlərin kommunikativ fəaliyyətlərinin fərdi xarakter daşımasını, onların xarici dillərə yiyələnmələrində meyl, maraq və qabiliyyətlərinin nəzərə alınmasını və nəticədə bu fəaliyyətin sosial xarakter almasını əsas tutaraq müxtəlif fikirlər, mülahizələr və konkret iş üsulları təklif etmişlər.

***Açar sözlər:*** *kommunikativ, leksik, ingilis dilinin tədrisi*

**Резюме.** В статье отмечается, что исследования методической и психологической литературы показывают, что в последние годы прошлого века предпочтение лексического подхода в процессе изучения и преподавания иностранных языков получило широкое распространение. Психологи и методисты ввели в обучение понятие слова как носителя смысла, следя за тем, чтобы без них не было никакого общения. Специалисты обеих областей предлагали различные идеи, соображения и конкретные методы работы, основанные на индивидуальном характере коммуникативной деятельности изучающих язык, учете их склонностей, интересов и способностей в овладении иностранными языками и, как следствие, социальной природы этого процесса. активность.

***Ключевые слова:*** *коммуникативный, лексический, преподавания английского языка*

**Summary.** First of all, it should be noted that methodical and psychological literature studies show that in the last years of the last century, preference for the lexical approach in the process of learning and teaching foreign languages has become widespread. Psychologists and methodologists introduced the concept of words as carriers of meaning into teaching, making sure that no communication would take place in the absence of them. Specialists of both fields proposed various ideas, considerations and specific work methods based on the individual nature of the communicative activities of language learners, the consideration of their tendencies, interests and abilities in acquiring foreign languages, and as a result, the social nature of this activity.

***Key words:*** *communicative, lexical, English language teaching*

Tələbələrin leksik bacarıqlara yiyələnməsi prosesi ayrı-ayrı sözlərin deyil, onların müxtəlif mənalarda işlənməsi xüsusiyyətlərinin nəzərə alınması ilə xarakterizə olunur.

Leksik bacarıqların formalaşdırılmasına dair məqbul saydığımız bəzi fikirlərin şərhinə ehtiyac duyduğumuz üçün haqqında məlumat verdiyimiz yeddi prinsipin xüsusiyyətləri barədə ətraflı məlumat vermək istərdik.

C. Koadi və M. Hallander onları aşağıdakı kimi xarakterizə etmişlər. Birinci prinsip: sözlərin məna çalarlarınauyğun öyrənilməsi. Sözlərin, onların birləşmələrinin, leksik vahidlərin kommunikasiya prosesinə tətbiqinin əsasmı bu sözlərin malik olduğu yaxın mənalarının tələbələr tərəfindən səmərəli şəkildə qavranılması təşkil edir, ingilis dilində leksik materialın tədrisinin ən mühüm aspekti tələbələrin fəaliyyət zamanı müstəqilliyini təmin etməkdir. Burada əsas məsələ, aşağı kurslarda ingilis dilində leksik materialın təlimi prosesinin kommunikativyönlü şəkildə təşkil edilməsi, təlimin məqsədyönlü, sistemli, mərhələli şəkildə həyata keçirilməsi, istifadə edilən leksik vərdişlərin aşılanmasının təcrid edilmiş şəkildə deyil, interaktiv şəkildə təşkil edilməsi proseslərinin tənzimlənməsidir.

İkinci prinsip: tələbələrin öyrənməli olduqları işlək sözlərin miqdarı, 3000 ümumi sözdən (common wörds) hansılarının tələbələrin ehtiyaclarına uyğun seçilməsi. C. Koadi və M. Hollander xüsusi tədqiqatlar və eksperimentlər əsasında müəyyənləşdirmişlər ki, ixtisası dil olan fakültələrdə tələbələrin 3000 işlək leksik vahidi tam mənimsəməsi onların ingilis dilində ünsiyyət prosesində həmsöhbət kimli çıxış etməsinə imkan yaradır .

Problemi araşdıran tədqiqatçılar qeyd edirlər ki, ingilis dilində danışan, eşidib- anlayan, yazan və oxuyan şəxs müxtəlif xarakterli, məzmunlu və üslublu mətnlərdə reseptiv və reproduktiv mənimsəniləcək sözlərin təqdim etdikləri məlumatı adekvat şəkildə qəbul etməyə və müəyyən dərəcədə özününküləşdirməyə çalışaraq qrafik simvollarla işləmək məcburiyyətində olurlar. Bu zaman onların lüğət ehtiyatının həcmi qənaətbəxş olarsa, mətndə olan leksik, struktur və kulturoloji mənanın anlaşılması prosesi uğurlu hesab edilə bilər.

Üçüncü prinsip: leksik materialın məqsədli öyrənilməsi üçün şəraitin yaradılması. Tədqiqatçıların fikrincə, hazırlıqlı, bir növ professional hesab edilən oxucu üç növ məlumat əldə etmiş olur. Birincisi, səs və simvolların məcmusu

olan qrafonik məlumat. Güman edilir ki, tələbələr artıq bu növ məlumata yiyələnmişlər. Burada əsas diqqət tələbələrə tələffüz vərdişlərinin lazımi səviyyədə aşılanmasına yönəldilməlidir. İkinci növ məlumat dilin qrammatik strukturlarının daşıdığı sintaktik məlumat adlanır. Ana dilinin qrammatik qayda və normalarına yiyələnmiş dil daşıyıcıları nitq fəaliyyəti növlərinə uyğun əldə edilmiş bilikləri tətbiq edirlər. Üçüncü növ məlumat isə semantik məlumatdır. Oxuyarkən və ya dinləyərkən semantik mənanı tam şəkildə anlamaq üçün tələbə həm leksik, həm də qrammatik xarakterli mənanı adekvat şəkildə başa düşməyi bacarmalıdır.

Tədqiqatçılar (C. Koadi, I.S. Nation, T. Paribaxt) leksik materialın məqsədli şəkildə öyrənilməsi prosesində tərcümənin də rolunu xüsusi qeyd etmişlər. Onlar sübut etmişlər ki, leksik bacarıqların inkişaf etdirilməsi üçün ana dilində sözlərin məna çalarları assosiativ olaraq xarici dilə köçürülür. Yadda saxlanılan söz mənaları ikinci dildə fikrin ifadəsi üçün yardımçı olur. (3)

Digər tədqiqatçılar (C. Çannel, R. Atkinson, N. Ellis) .naməlum sözlərin tədrisi üçün ingilis dili müəllimlərinə aşağıdakı məsələlərin diqqət mərkəzində saxlanmasını tövsiyə edirlər (46):

Tələbələr sözlərin formalarından daha çox onların işlənməsinə ehtiyac duyurlar. Onlar sözlərin səslənməsini (tələffüzünü) eşitməyə daha çox həvəs göstərirlər. İngilis dilində leksik bacarıqların yaradılması prosesində qarşıya çıxan ilkin linqvistik problemlər sırasında omonimlik, sinonimlik və çoxmənalılıq mühüm yer tutur.

İngilis dilində sözlərin məna çalarları bir qayda olaraq, mətn daxilində anlaşılır. Məsələn, “yellow” sözü ayrılıqda işləndikdə rəng mənasını verir, lakin müxtəlif kontekstlərdə bu söz “paxıl, şübhəli, sensasiyalı, mənəviyyatca pozğun ” mənalarında işlənə bilir.

Mətn daxilində işlənən qrammatik strukturların da kontekstə görə anlaşılması önəmlidir: The horse stopped to drink, The horse stopped drinking. Lakin, heç də həmişə kontekst konkret olaraq bir sözün (onun mənasının) başa düşülməsinə yardım etmir. Məsələn, *I need socks that will wear. I need socks that will not wear.* Bu misallarda kontekst “wear” sözünün mənasının aydınlaşmasına kömək edə bilmir.

Bu zaman birbaşa sözün mümkün anlaşılma variantlarına müraciət edilir. Aydındır ki, heç kəs cırılan corab almaq istəməz. Bu mənada birinci cümlədə “wear” – “davamlı istifadəyə yararlı”, ikinci nümunədə isə “istifadədən korlanma” mənalarım ifadə edir.

Qeyd etmək lazımdır ki, çoxmənalı sözlərin tədrisində yarana biləcək linqvistik problemlərdən biri də dilöyrənənlərin sözlərin ehtiva etdiyi mənalarını kontekstə uyğunlaşdıra bilməmələridir. To give smb. one’s head – kiməsə diqqət (qaygı) göstərmək, not to give smb. one ’s head – kiməsə “baş qoşmamaq”, to hold up one ’s head – başım dik tutmaq və s. kimi birləşmələrdə “head” sözü məcazi mənalarda məna çalarları kəsb etmişdir, ingilis dilində sözləri, söz birləşmələrini və idiomlan öyrənərkən tələbələr sözün ilkin mənalarından fərqli olaraq onun təqdim etdiyi digər mənaları da mənimsəməlidirlər.

Leksik bacarıqlara yiyələnmə prosesində öyrəniləcək sözlərin miqdarı da mütəxəssislərin diqqət mərkəzindədir.

Sözlərin öyrənilməsi prosesi tədris üsullarından çox razılıdır və imkan daxilində xarici dil, eyni zamanda əşya əyaniliyindən geniş istifadə olunmalıdır.

Yeni öyrəniləcək sözlər artıq mənimsənilmiş sözlərlə əlaqəli tədris olunmalıdır. Cümlə nümunələri, nitq hissələri, açar sözlər bu işdə yardımçı ola bilər.

Dördüncü prinsip: söz bilgilərinin (world knowledge) genişləndirilməsi üçün' şəraitin yaradılması.

P. Prins hesab edir ki, xarici dildə bir sözün mənasını bilmək (tərcümə etmək) onun müvafiq situasiyada işlənməsinə hələ tam zəmanət, vermir. O, sübut etmişdir İd, söz bilgiləri heç qrammatik strukturları, affıks və suffıksləri, sözönülərini reseptiv və ya produktiv şəkildə öyrənmək də deyil. Reseptiv söz bilgisi o deməkdir ki, tələbələr oxu və eşidib-anlama prosesində sözləri, söz birləşmələrini və frazeoloji birləşmələri tanıya bilirlər, produktiv söz bilgisi isə o deməkdir ki, tələbələr onları yazıda və danışıq aktında sərbəst işlədə bilirlər.

Müəllif yazar: “Elaboratiorı involves exparıding the connections between what I the learrıers älready know and new information” (2, s.49). Bu fikrin açması ondan ibarətdir ki, tələbələr yeni sözü və ya sözləri yeni informasiyanın qəbulu zamanı artıq öyrəndikləri sözlərlə əlaqələndirməyi bacarmalıdırlar.

P. Prins göstərir ki, tələbələrin söz bilgisini dərinləşdirmək üçün aşağıdakı əməliyyatlar həyata keçirilməlidir:

- sözləri kateqoriyalara görə seçmək;
- sözləri semantik qruplara görə müəyyənləşdirmək;
- sözdüzəltmə əməliyyatlarını öyrənmək;
- sözlərin sinonim və antonimlərini bilmək;
- söz ağacları və xəritələri tərtib etmək;
- sözləri müxtəlif sütunlarda düzgün qruplaşdırmaq;
- sözlərin verilmiş mətnlərdə işlənmə variantlarım müəyyən etmək.(3)

Beşinci prinsip: öyrənilmiş sözlərin danışıq dilinə gətirilməsinə şəraitin yaradılması.

Öyrənilmiş sözlərin canlı danışıq dilinə gətirilmə, bu o deməkdir ki, tələbələr onlara tanış olan, onların mənimsədiyi qrammatik strukturlar və. leksik vahidlər əsasında sərbəst danışa bilirlər, ünsiyyət yaratmaq imkanına malik olurlar. İ.S.P.Nation göstərir ki, sözlərin və söz birləşmələrinin oxu, yazı, eşidib-anlama -və danışıq prosesinə cəlb olunması məqsədyönlü xarakter daşımalı, hər bir fəaliyyət növü üzrə bacarıqların formalaşdınlmasmda əsas rol oynamalıdır .

Altıncı prinsip: söz mənalarının kontekstdən tapılması.

Söz mənalarının kontekstdən tapılması bir strategiya olaraq çox çətin fəaliyyət formasıdır. İ.S.P. Nation uzun müddət apardığı eksperimentlər nəticəsində belə bir qənaətə gəlmişdir ki, bu işin müvəffəqiyyətli həlli üçün tələbələr müəyyən bir mətndə sözlərin 95%-ni əvvəlcədən mənimsəməli olmalıdırlar. Digər bir tədqiqatçı P. Kelli də hesab edir ki, bu fəaliyyət növü bütün hallarda uğurlu nəticə verməsə də, tələbələrin dilöyrənmədə ümumi bacarıqlarının yaradılmasına yardım göstərir. Bu metodik iş üsulu səbir, təmkin və məşq tələb edir. İ.S.P.Nation və C.Koadinin tədqiqatlarında söz mənalarının kontekst vasitəsilə anlaşılması beş mərhələli iş üsuluna əsasən həyata keçirilir. Naməlum sözün təmsil etdiyi nitq hissəsinin müəyyənləşdirilməsi. (2)

Mətnin nəzərdən keçirilməsi və mümkün halda sadələşdirilməsi. Mətnin ətraflı təhlil edilməsi, onun leksik və qrammatik çətinliklərinin müəyyənləşdirilməsi. Yeni sözün birləşmələrdə və cümlələrdə işlənmə variantının öyrənilməsi.

Yeni sözün mənasının tapılması. Mənası anlaşılan sözün forma və mənasının düzgünlüyünün yoxlanılması.

Yeddinci prinsip: müxtəlif-lüğətlərdə işin təşkili və tələbələrə lüğətlərdən istifadə qaydalarının öyrədilməsi. Bu prinsipin tədris prosesinə daxil edilməsi demək olar ki, bütün tədqiqatçılar tərəfindən müsbət qiymətləndirilir. F. Nayt göstərir ki, xarici dilin öyrədilməsi (tədrisi) metodikası ilə yanaşı sərbəst öyrənmə strategiyaları da dilöyrənmədə vacib amildir.

Biz yuxanda qeyd etmişdik ki, lüğətin tədrisi prosesində tələbələri müstəqil fəaliyyətə sövq edən strategiyalardan istifadəyə həvəsləndirmək məqsədəuyğun hesab edilir ki, bura başlıca olaraq lüğətlərdən istifadə, morfoloji və kontekstual təhlil daxildir.

Lüğətlər tələbələri müəyyən bir sözün çox sayda mənalan ilə tanış edərək kontekstdə uyğun gələnini seçməyə imkan verir. Təkdilli lüğətlər sözün izahım xarici dildə verdiyi üçün dilin mənimsənilməsini asanlaşdıran söz birləşmələrinin öyrənilməsində faydalı hesab olunur.

İkidilli lüğətlər isə oxu zamanı anlama bacarığını inkişaf etdirsə də, bu lüğətlərdən davamlı olaraq istifadə tələbələrin yeni sözləri müxtəlif kontekstlərdə işlətmə bacarığının inkişaf etdirilməsinə mane ola bilər.

Hazırda kodlaşdırılmış lüğətlər də öz səmərəsini verməkdədir. Bu lüğətlərdə sözlər əlifba sırası ilə deyil, mənaya görə qruplaşdırılır və onların sintaktik, praqmatik istifadəsi öz əksini tapır.

Xarici dilləri tədris edən müəllimlər yaxşı bilirlər ki, kommunikativ təlimi təşkil edən əsas prinsiplərdən biri məhz interaktivlik prinsipidir. Hər hansı xarici dilin, xüsusilə də, əsas ünsiyyət statusu əldə etmiş ingilis dilinin öyrənilməsində və öyrədilməsində əsas məqsəd həmin dildən kommunikativyönümlü fəaliyyət üçün istifadə etməkdir (G.C. Hüseynzadə, D. Hayms, S.D. Kraşen).

Başqa bir həqiqəti də vurğulamaq lazımdır ki, dilin aspektləri olan leksika, qrammatika, fonetika, eləcə də, nitq fəaliyyəti növləri olan danışıq, eşidib-anlama, oxu və yazının (yazılı nitqin) öyrənilməsi öz-özlüyündə bir məqsəd kimi çıxış edə bilməz. Bu o deməkdir ki, dilin aspektlərinə və dil bacarıqlarına (vərdişlərinə) yiyələnmədən həmin dildən kommunikativ məqsədlərlə adekvat şəkildə istifadə etmək qabiliyyətinə yiyələnmək qeyri-mümkündür. Bu halda bizim mülahizəmiz ondan ibarətdir ki, leksik bacarıqlar öz-özünə formalaşa bilməz, bu fəaliyyətin müvəffəqiyyətli həlli üçün lazımi baza yaradıl-

malı və həmin bazadan səmərəli, məqsədyönlü istifadə olunmalıdır. Leksik materialların seçilməsində tələbələrin tələbat və ehtiyaclarının, bilik və maraq dairələrinin nəzərə alınması ingilis dilində leksikanın tədrisinin səmərəli şəkildə təşkil edilməsi və uğurlu: nəticələrin əldə edilməsini təmin edən amillərdir.(2)

İngilis dili üzrə tələbələrdə leksik bacarıqların yaradılmasının linqvodidaktik əsaslarını, leksik bacarıqların formalaşdırılmasının psixoloji şərtlərini, bütövlükdə ingilis dilinə yiyələnmə prosesində leksik yanaşmanın rolunu, > ingilis dilində leksik materialın öyrənilmə strategiyalarını və mənimsənilməsini, onların qarşılıqlı əlaqələrini araşdırdıqdan sonra ingilis dili fakültələrinin aşağı kurs tələbələrində leksik bacarıqların formalaşdırılması yolları (üsulları) barədə fikir və mülahizələrimizin şərhinə başlaya bilərik.

Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, biz aşağı kurs tələbələrində leksik bacarıqların yaradılması üçün tanınmış metodist C. Harmerin xarici dil strukturu və onun işlənməsi barədə mövcud konsepsiyasını əsas kimi qəbul etmişik. Müəllif dilöyrənmə prosesində əsas diqqətin dil strukturuna və onun işlənmə formalarına yönəldilməsini təklif etmişdir:

- söz formalarının morfoloji əlamətləri (e.g. the fact that is and am are forms of be, but amn it is not)
- frazaların, budaq cümlələrin və cümlələrin sintaktik əlamətləri (e.g. the rules of question formation or the construction of if – sentences)
- sözlər, onların məna xüsusiyyətləri və leksik-qrammatik əlaqələri (e.g. the fact that enjoy can be followed by an -ing form but not by an infinitive), and collocation rules (e.g. we say even-handed but not even-footed)
- frazaların və cümlələrin daşıdığı məna və funksiyalar
- tələffüz
- orfoqrafiya (30)

Digər tanınmış metodist Penni Ur leksik materialın tədrisi üçün iki suala cavab axtarılmasını qeyd etmişdir:

- lüğət nədir?
- nəyi (nələri) öyrətməli?

Birinci suala cavab verərkən müəllif əksər tədqiqatçılar tərəfindən qəbul olunmuş belə bir fikirlə razılaşır ki, doğurdan da sözlər "danışıq materialıdır", ikinci sualın cavabında isə P.Ur göstərir ki, sözün forması, tələffüzü və yazılışı öyrədilməlidir. Bu prosesdə əvvəlcə sözün ilkin mənası (denotation), sonra məcazi mənası (connotation) və daha sonra düzgün işlətmə yeri təqdim olunur. Söz mənalarının açılışında sinonim və antonimlərdən geniş istifadə olunur (3). ingilis dilində lüğətin tədrisinə dair xüsusi vəsait hazırlamış S. Tomburi yuxanda göstərilən müəlliflərin dilöyrənmə strategiyalarını məqbul hesab etmiş, lakin ingilis dilində sözlərin konkret mövzu ətrafında öyrədilməsini də müsbət hal kimi qiymətləndirmişdir (4).

Deyilənləri nəzərə alıb hesab edirik ki, leksik materialın mənimsənilməsi dedikdə, biz dil haqqında bilikləri psixolinqvistik cəhətdən mənimsəmənin tanıma, bilmə səviyyələrinə müvafiq hesab edirik. Lakin, universitetlərin ixtisası dil olan fakültələrinin tələbələri qarşısında duran tələb öyrənilən dil səviyyəsində müstəqil kommunikasiyaya girmək bacarığına malik olmaqdır. İngilis dilində sözlər, söz birləşmələri haqqında bilik deyil, fikri ifadə etmək, münasibət bildirmək, dili tənqidi düşüncəyə malik olmaq bacarığı səviyyəsində mənimsəmək və nitq aktına qoşulmaq əsasdır.

Göstərilən prosesin həyata keçirilməsi elementar bacarıqlar, bacarıqların vərdişə çevrilməsi, vərdişlərin yaradılması və formalaşdırılması mərhələlərində mümkün olur. Ona görə də, biz leksik bacarıqların yaradılması zəminində aşağıdakı parametrləri vacib sayırıq:

- leksik materialın forma və məna çalarları (leksik sistem);
- leksik materialın struktur çalarları (sintaksis);
- leksik materialın işlənmə çalarları (kommunikasiya). (5)

Təcrübədən bildiyimiz kimi, çox zaman tələbələr kifayət qədər söz ehtiyatına malik olmalarına baxmayaraq onlar öz fikirlərini ingilis dilində sərbəst ifadə edə bilmirlər. Onlar sözləri tələffüz edərkən, cümlədə işlədərkən səhvlər edirlər. Məhz buna görə də, tələbələri şifahi nitq bacarıq və vərdişlərinə yiyələndirmək üçün hələ tədrisin ilkin mərhələsindən onlara fonetika, lüğət və qrammatika sahəsində verilən biliklər praktik məqsədə yönəldilməli, o cümlədən şifahi nitq bacarıq və vərdişlərinin yaradılmasına xidmət etməlidir.

**Nəticə**

Aşağı kurs tələbələrinə leksik bacarıqların aşılanması metodikasının düzgün parametrlərini seçmək üçün ilk növbədə bu prosesdə ortaya çıxan çətinliklərin xüsusiyyətlərini nəzərə almaq lazımdır. Biz onları aşağıdakı kimi müəyyənləşdirməyə çalışmışıq:

- ingilis dilində şifahi nitqin leksik aspektinin tədrisi zamanı tələbələrin rast gəldikləri çətinliklərin böyük əksəriyyət təşkil edən ingilis dili və Azərbaycan dili sistemləri arasında olan fərqlər;
- sözlərin onlara yaxın mənada işlədilən leksik vahidlərdən, sərbəst söz birləşmələrini sabit söz birləşmələrindən və onların frazeoloji vahidlərdən fərqləndirilməsi;,
- idiomların və frazeoloji vahidlərin struktur-məna təsnifatı, birləşə bilən sözlərin semantik xüsusiyyətləri və söz birləşmələrinin kombinə edilə bilmə variantları;
- ingilis və Azərbaycan dillərində məfhum, anlayış və məna müxtəlif dil hadisələri ilə ifadə olunur;
- hər iki dildə sözlərin məna həcminin və çalarlarının müxtəlifliyi.

**Problemin aktuallığı.** Xarici dildə leksik bacarıqların yaradılması, formalaşdırılması və inkişaf etdirilməsi məsələlərinə dair xüsusi tədqiqatlar aparmış bəzi metodistlərin elmi araşdırmaları ilə tanışlıq göstərir ki, leksik materialların təqdimatı və öyrənilməsi, bir neçə yeni yanaşmaların və prinsiplərin tədris prosesinə gətirilməsi sayəsində uğurlu nəticələr əldə edilmişdir.

**Problemin yeniliyi.** Tədqiqat işi ingilis dilini öyrənən azərbaycanlı tələbələrin rast gələ bildiyi problem və çətinlikləri əvvəlcədən proqramlaşdırmaq, proqnozlaşdırmaq və beləliklə, onların qarşısını almaq, ana dilinin mənfi təsirini aradan qaldırmaq, eləcə də, dil-daxili interferensiyanın imkanlarını minimuma endirmək şəraitini yaradır.

**Problemin praktik əhəmiyyəti.** Həm də bu tədqiqat işi çərçivəsində xarici dil tədrisinin interaktiv metodlarının istifadəsinə dair iş sistemindən istifadə ilə bağlı metodiki tövsiyələr təklif edilmişdir.

**Ədəbiyyat:**


1. Bünyatova F., B. Abdulla. Təlim və tərbiyədə interaktiv texnologiya. – Bakı: Ozan, – 2000. – 86 s.
2. Həmzəyev M. Yaş və pedaqoji psixologiyanın əsasları. – Bakı: Maarif, – 2003. – 280 s.
3. Qədimova X.N. İnteraktiv təlim metodları və onların tətbiqi yolları: Metodik tövsiyə. – Bakı, 2003.
4. Veysova. İbtidai və orta məktəblərdə fəal təlim metodlarının tətbiq edilməsi. – Bakı, 2002, – 114 s.
5. Yunusov D.N. Xarici dilin tədrisi: problemlər və mülahizələr. Azərbaycanda xarici dillər 2/2007.


**E-mail:** cinaz.selimova.1962@gmail.com
khavarhajiyeva@gmail.com
**Rəyçilər:** *filol.ü.fəls.dok.* **İ.Y. Qəniyeva,**
*filol.ü.fəls.dok.* **Y.M. Abbasova**
**Redaksiyaya daxil olub:** 10.10.2023

*UOT 372.881.111.1*

***Sahibə Fərman qızı Paşayeva***
*Bakı şəhəri Nərimanov rayonu Evrika özəl*
*tam orta ümumtəhsil məktəbinin ingilis dili müəllimi*
*https://orcid.org/0009-0000-6696-7685*

# AZƏRBAYCANIN BEYNƏLXALQ TƏHSİL SİSTEMİNƏ İNTEQRASİYASI DÖVRÜNDƏ İNGİLİS DİLİ TƏDRİSİNİN METODİKİ PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

***Сахиба Фарман гызы Пашаева***
*учитель английского языка частной общеобразовательной школы*
*«Эврика» Наримановского района гор. Баку*

# МЕТОДОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА И ИХ РЕШЕНИЯ В ХОДЕ ИНТЕГРАЦИИ АЗЕРБАЙДЖАНА В МЕЖДУНАРОДНУЮ СИСТЕМУ ОБРАЗОВАНИЯ

***Sahiba Farman Pashayeva***
*English teacher at the private general education school "Eureka"*
*of Narimanov district of Baku city*

# METHODOLOGICAL PROBLEMS OF ENGLISH LANGUAGE TEACHING AND THEIR SOLUTIONS DURING THE INTEGRATION OF AZERBAIJAN INTO THE INTERNATIONAL EDUCATION SYSTEM

**Xülasə.** Müasir cəmiyyətdə xarici dillərin öyrənilməsi müxtəlif profilli mütəxəssislərin peşəkar hazırlığının ayrılmaz tərkib hissəsinə çevrilir və peşəkar yüksəliş, xarici tərəfdaşlarla əlaqələrin genişləndirilməsi məsələlərinin uğurlu həlli onların dil hazırlığının keyfiyyətindən çox asılıdır. Nəticə etibarilə, məktəb xarici dildə müəyyən səviyyədə bilik səviyyəsini təmin etmək üçün nəzərdə tutulmuşdur ki, bu da onun universitet və aspirantura təhsili zamanı, eləcə də müstəqil şəkildə davam etdirilməsinə imkan verə bilər. Tədrisin uğuru əsasən xarici dil müəlliminin iş metodikasından, onun konkret təhsil problemlərinin həlli kontekstində müxtəlif müasir metodlardan istifadə etmək bacarığından asılıdır.

***Açar sözlər:*** *ingilis dili, inteqrasiya, məktəb, dünya, şagird, metodika, problem, tədris, bilik, bacarıq*

**Резюме**. В современном обществе изучение иностранных языков становится неотъемлемой частью профессиональной подготовки специалистов различного профиля, и успешное решение вопросов профессионального роста и расширения связей с зарубежными партнерами во многом зависит от качества их языка, обучения. В результате школа призвана обеспечить определенный уровень знаний по иностранному языку, который может позволить продолжить его во время обучения в университете и аспирантуре, а также самостоятельно. Успех обучения во многом зависит от методики работы учителя иностранного языка, его умения использовать различные современные методы в контексте решения конкретных образовательных задач.

***Ключевые слова:*** *английский язык, интеграция, школа, мир, ученик, методика, проблема, обучение, знания, умения*

**Summary.** In modern society, the study of foreign languages becomes an integral part of the professional training of specialists of various profiles, and the successful resolution of the issues of professional advancement and expansion of relations with foreign partners depends greatly on the quality of their language training. As a result, the school is designed to provide a certain level of knowledge in a foreign language, which can allow it to be continued during university and postgraduate studies, as well as

independently. The success of teaching mainly depends on the working methodology of the foreign language teacher, his ability to use various modern methods in the context of solving specific educational problems.

***Key words:*** *English language, integration, school, world, student, methodology, problem, teaching, knowledge, skill*

Azərbaycanın beynəlxalq təhsil məkanına inteqrasiyası və dil fənlərinə artan tələbat şagirdlər üçün fənlərarası əlaqələri, multimedia texnologiyalarını, ənənəvi və innovativ bilikləri nəzərə alaraq müvafiq kompetensiyaları əldə etməyə imkan verən linqvistik təlim sisteminin yaradılması zərurətinə səbəb olmuşdur. Müxtəlif fəaliyyət sahələrində (iqtisadi, siyasi, mədəniyyətlərarası, miqrasiya) inteqrasiya prosesləri, eləcə də dünya birliyinin yeni üzvlərinin ingilisdilli mühitə daxil olması bu fənnin tədrisini yeni səviyyəyə qaldırır.

Ünsiyyət problemi və xarici dillərin tədrisi metodologiyasında yeni tendensiyaların müəyyən edilməsi qarşıda duran vəzifələrdəndir.

Linqvistik təlim metodları daim təkmilləşdirilir, kommunikativ və sosial-mədəni kompetensiyaların formalaşmasından bəri beynəlxalq ünsiyyət və peşəkar situasiyalarda adekvat qarşılıqlı fəaliyyət üçün əsas yaradır. Hər hansı bir təhsil proqramında səmərəli öyrənmə üçün yanaşmaların təfərrüatlılığı və seçiciliyi zəruridir və müasir ingilis dilinin geniş istifadə olunan biznes terminologiyasının metodoloji aspekti kifayət qədər öyrənilməyib və dilçilərin diqqətinə ehtiyacı vardır.

İnteqrasiya prosesləri şagirdlərin dil fənləri, intensiv metodlar, multimedia və distant təhsil üçün motivasiyasını əhəmiyyətli dərəcədə artırır. İnteqrasiya həm də multikultural cəmiyyətdə naviqasiya qabiliyyətini nəzərdə tutur, ona görə də ingilis dilinin öyrənilməsi prosesi qrammatik, leksik və linqvistik materialları əhatə edən çoxölçülü hesab edilməlidir.

Azərbaycanın dünya birliyinə inteqrasiyası dövründə ənənəvi və innovativ tədris metodlarını birləşdirən dil bacarıqlarının əldə edilməsinə sistemli yanaşma tələb olunur. Linqvistik fəaliyyətin təşkilinin səmərəli üsulları fikrimizcə, aşağıdakılardır:

- təkmilləşdirməyə yönəlmiş ünsiyyət üsulları;
- praktik dil bacarıqları;
- oxu, dinləmə və qrammatik bacarıqları möhkəmləndirməyə kömək edən ənənəvi üsullar;
- yüksək istifadəyə yönəlmiş innovativ metodlar;
- təhsildə texnologiyalar və müstəqil distant iş;
- test tapşırıqlarının yerinə yetirilməsi və linqvistik təlim proqramlarının mənimsənilməsi üzrə tələblər və s.

İnteqrasiya proseslərinin tətbiqi Azərbaycan təhsilində islahatlarla üst-üstə düşdü. Linqvistik təhsildə keçid mərhələsinin çətinlikləri ənənəvi və innovativ metodların qarşı durması ilə əlaqəli olduğu ortaya çıxdı.

Təhsilin deqradasiyasının qarşısını yalnız həm ənənəvi, həm də innovativ metodların sistematik şəkildə tətbiqi və onlardan bütün növ öyrənmə və biznes fəaliyyəti üçün linqvistik dəstək ilə istifadə etməklə əldə etmək olar. Buna görə də istənilən səriştə səviyyəsində linqvistik təlim oxu, yazma, danışma və dinləmə bacarıqları kimi məcburi komponentləri ehtiva etməlidir.

Ənənəvi ümumtəhsil məktəbi ümumi linqvistik təlimin aşağıdakı üsullarına əsaslanır:

- əsas elementin müəyyən edilməsi və vurğulanması (vurğu və identifikasiya)
- lüğət vahidlərinin, açar sözün digər komponentlərlə birləşməsinin müqayisəsi;
- irəliləmə və ya aktuallaşdırma – normanın müqayisəsi
- dil və mətndə sözlərin konkret istifadəsi;
- əvəzetmə və transformasiya – forma və məzmunun adekvatlığını yoxlamaq üçün düzgün sözün seçilməsi;
- müqayisəli təhlil – lüğətin tərifləri və açar sözlərə uyğunluq xüsusiyyətləri;
- leksik vahidlərin təcrid olunmuş və kontekst formasında birbaşa müşahidəsi (müşahidə);
- mənasını müəyyən etməyə imkan verən kontekstual kontekstdən istifadə edən leksik vahid;
- açar sözün transformasiyası və müxtəlif parafraz üsullarının axtarışı (reformulyasiya, yenidən ifadə, açar sözün transformasiyası);
- polisemantikanın identifikasiyası ilə mətnin kontekstoloji təhlili leksik vahidlər (polisemiya);

- denotativ və konnotativ kateqoriyalardan (denotasiya və konnotasiyadan) istifadə etməklə ifadələrin müqayisəsi;
- audio-vizual assosiasiyalar;
- leksik vahidlərin və sintaktik strukturların tezlik xüsusiyyətlərinin təhlili (leksik təhlil);
- dilin qrammatik quruluşunun elementlərinin sintezi (sintezi);
- xarici sözlərin assosiativ əzbərlənməsi (assosiasiya üsulu)

Dünya birliyinə inteqrasiya, ilk növbədə, bütün səviyyələrdə ünsiyyət (beynəlxalq, gündəlik, turistik, işgüzar, mədəni) kommunikativ səriştəlik peşəkar səriştənin tərkib hissəsidir, onun strukturunda ən mühüm alt sistemlərdən biridir. Xarici dillərin praktiki mənimsənilməsi dil onun kommunikativ oriyentasiyasını artırmaqla sıx bağlıdır, o cümlədən:

- işgüzar ünsiyyət lüğətinin dərindən öyrənilməsi, ilk növbədə iqtisadi və hüquqi terminologiya;
- dilin mədəni aspektləri (sosial-mədəni məsələlərdən xəbərdar olmaq);
- işgüzar yazışmalar aparmaq və sənədləri düzgün tərtib etmək bacarığı;
- danışıqlar prosesində iştirak etmək, müqaviləni rəsmi üslubda tərtib etmək və hər şeyi aydın şəkildə ifadə etmək bacarığı.

Təəccüblü deyil ki, kommunikativ metod birinci yeri tutur, həm də ümumi linqvistik təlimin ənənəvi üsulları arasında yer tutmaq və fərdi yanaşma da daxil olmaqla innovativ texnikalar multimedia texnologiyalarından istifadə edərək öyrənmə, burada kommunikativ səriştə öz davranışına nəzarət etmək bacarığı kimi təzahür edir. İki komponentinin – dinləmə və danışmanın həyata keçirilməsi prosesində ünsiyyət bacarıqları və şifahi ifadə bacarıqları əldə edilir. Tədqiqatçılar yekdilliklə bildirirlər ki, bütün təlim şəraiti üçün tamamilə düzgün və effektiv metod yoxdur və öyrənmənin xüsusiyyətlərini nəzərə alaraq müxtəlif yanaşmaları, prinsipləri və müxtəlif metodların elementlərini birləşdirmək lazım olduğu qənaətinə gəlirlər. Bir şəraitdə təsirli olan digər təlim şərtlərində tamamilə əks nəticə verə bilər.

**Problemin aktuallığı.** Xarici dillərin tədrisi metodologiyası qeyri-ana dilin tədrisi prosesinin qanunları və onu optimallaşdırmaq üçün bu prosesə təsir etmək yolları haqqında biliklər sistemidir. Xarici dilin tədrisi metodikası xarici dilin tədrisinin qanunauyğunluqlarını açır və əsaslandırır.

**Problemin elmi yeniliyi.** Xarici dillərin tədrisi metodologiyası bir sıra digər elmlərlə – əsas və əlaqəli elmlərlə əlaqələndirilir. Əsas elmlərə fəlsəfə, pedaqogika, psixologiya, psixolinqvistika, dilçilik, ünsiyyət nəzəriyyəsi və s. daxildir. Metodologiyada onların tədqiqatının səmərəliliyini və etibarlılığını təmin etmək vasitəsi kimi əlaqəli elmlərin məlumatlarından istifadə olunur.

**Problemin praktik əhəmiyyəti**. Metodologiya üçün dilçiliklə əlaqə mühüm və zəruridir. Təlimin mövzusu dil materialından istifadə edərək nitq fəaliyyətinin öyrədilməsidir. Dilçilik müəyyən bir dilin əsas sistem xassələrini təsvir edir, onları konkret tədris modellərinin işlənib hazırlanmasında metodologiya tərəfindən fəal istifadə olunan qaydalarda formalaşdırır.

**Ədəbiyyat:**

1. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu. – Bakı: Hüquq ədəbiyyatı, – 2009.
2. Ümumtəhsil səviyyəsində yeni dövlət proqramları (kurikulumları). – Bakı, 2013.
3. Əlizadə, Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. / Ə. Əlizadə. – Bakı: Pedaqogika, – 2004.
4. İnteqrativ kurikulum: Mahiyyəti və nümunələr. Müəllimlər üçün vəsait (müəllif qrupu). – Bakı, 2005. (İREX təşkilatının xətti ilə)
5. Məmmədzadə, R.H. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. / R.H. Məmmədzadə. – Bakı: "Müəllim" nəşriyyatı, – 2010. – 170 s.
6. Бардин, К.В. Как научить детей учиться. / К.В. Бардин. – Москва: Просвещение, – 1987. – 112 с.

**E-mail:** sahibapahayeva@mail.ru
**Rəyçilər:** *ped.ü.fəls.dok.* **S.Ş. Tağıyeva,**
*ped.ü.fəls.dok.* **Ə Ə. Gərayev**
**Redaksiyaya daxil olub:** 10.10.2023

*UOT 372.881.111.1*

***Ülviyyə Murad qızı Məmmədova***
*Mingəçevir Dövlət Universitetinin müəllimi*
*https://orcid.org/0000-0002-1991-342X*

# İBTİDAİ SİNİFLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİ ZAMANI TƏTBİQ OLUNAN MÜASİR METODLAR VƏ ONLARIN ƏHƏMİYYƏTİ

***Ульвия Мурад гызы Мамедова***
*преподаватель Мингечевирского государственного университета*

# СОВРЕМЕННЫЕ МЕТОДЫ И ИХ ЗНАЧЕНИЕ ПРИ ОБУЧЕНИИ АНГЛИЙСКОМУ ЯЗЫКУ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Ulviyya Murad Mammadova***
*teacher at Mingachevir State University*

# MODERN METHODS AND THEIR SIGNIFICANCE AT ENGLISH CLASSES IN ELEMENTARY SCHOOL

**Xülasə.** Məqalədə xarici dillərin öyrənilməsinin yeni və effektiv metodlarının yaradılması, o cümlədən bu metodların tədris prosesində istifadəsi məsələləri müzakirə olunur. Xarici dil mədəniyyətinin öyrənilməsinin məqsədi kimi önə çəkilməsi bu məqsədə ən effektiv və rasional şəkildə nail ola biləcək yeni metodoloji sistemin yaradılması zərurətini ortaya qoyur. Xüsusi vurğulanır ki, informasiya texnologiyalarının və müasir təlim metodlarının tətbiqi yeni materialın tez bir zamanda başa düşülməsi üçün yardımçı ola bilər.
***Açar sözlər:*** *öyrətmə metodları, ingilis dili, təlim, dil öyrətmə, bacarıqlar*

**Резюме.** В статье рассматриваются вопросы создания новых и эффективных методов изучения иностранных языков, в том числе применения этих методов в процессе обучения. Пропаганда иноязычной культуры как цели обучения поставила вопрос о необходимости создания новой методической системы, которая могла бы достичь этой цели наиболее эффективным и рациональным способом. Подчеркивается, что использование информационных технологий и современных методов обучения может помочь вам быстро понять новый материал.
***Ключевые слова:*** *методы обучения, английский язык, преподавание, преподавание языков, умения*

**Summary.** The article deals with the creation of new and effective methods of learning foreign languages, including the use of these methods in the learning process. The promotion of a foreign language culture as the goal of learning raised the question of the need to create a new methodological system that could achieve this goal in the most effective and rational way. It is emphasized that the use of information technology and modern teaching methods can help you quickly understand new material.
***Key words:*** *teaching methods, English, teaching, language teaching, skills*

Dil insanlar arasında ünsiyyət vasitəsidir. İnsanlar dil vasitəsilə bir-birini başa düşür, öz duyğu və düşüncələrini, hiss və həyəcanlarını ifadə edirlər. Xarici dili öyrənmək, öz düşüncələrini bu və ya digər xarici dildə sərbəst ifadə etmək, oxuduğu ədəbiyyatı, dinlədiyi mətni anlamaq, elmi müzakirələrdə iştirak etmək kimi bacarıqlara yiyələnməyi müsbət dəyərləndirmək lazımdır. Hər hansı bir xarici dili öyrənməklə şagirdlər xarici aləmə daxil olur, başqa ölkələrin dilini, tarixini, zəngin mədəni irsini, bir-birindən dəyərli ədəbiyyat nümunələrini müxtəlif ölkələrə tanıtmaq bacarığına yiyələnirlər.

Dil öyrənmə anlayışı yarandığı gündən dillərin asan öyrənilməsi yolları araşdırılır. Bununla bağlı bir çox fikirlər və mülahizələr irəli

sürülsə də, bəzən bu fikirlər ziddiyyətlə qarşılaşmışdır. Məlum məsələdir ki, istənilən bir dilin öyrədilməsinin əsas məqsədi ilk olaraq öyrənənlərə sərbəst şəkildə fikir yürütmək qabiliyyətini aşılamaqdır. Buna baxmayaraq, bu sahədə saysız-hesabsız təşəbbüslər həyata keçirilsə də, istənilən nəticə əldə edilməmişdir. [1]

İbtidai təhsil səviyyəsində təhsil alan hər bir şagird dilə maraqlı olduqda öyrənməyi sevir. Şagirdlərdə xarici dillərə maraq yaratmaq üçün dərslik və dərs vəsaitlərinin düzgün işlənməsindən başqa, həm də dilin tədrisini düzgün təşkil etmək üçün müxtəlif metodların hazırlanması tələb olunur. Bu cür metodlar şagirdin dilin mənimsənilməsində bacarıqlarının formalaşmasına, müstəqil iş bacarıqlarının qazanmasına , qabiliyyətlərinə daha çox inanmasına, səhv etmək qorxusunun ortadan qalxmasına kömək edir.

Dil dünyanı anlamaq, görmək üçün istifadə olunan ən mühüm ünsiyyət vasitəsidir. Dil hər zaman yenilik tələb edən sahədir. Bir çox müasir texnologiyaların kəşfi, beynəlxalq əməkdaşlıqların arenasının artması, dünyaya inteqrasiyanın sürətlənməsi təbii olaraq dilimizdə müəyyən dəyişikliklərin baş verməsinə səbəb olur. Dünyada 7 minə yaxın dilin olduğu təxmin edilir və bu dillərin çox azı aktiv dillər sırasındadır. Hazırda dünyada ən çox istifadə olunan dil Çin dilidir ki, bu dildən 1 milyard 100 milyona yaxın insan danışır. Ən çox danışılan ikinci dil isə ingilis dilidir. Ümumilikdə bu dildən 1 milyard insan istifadə edir. İngilis dilinin işlənməsinin bu qədər geniş şəkildə yayılması həmin dilin ölkəmizdə də öyrədilməsinə zərurət yaradır. Xarici dillərin, xüsusən də ingilis dilinin tədrisində bir sıra üsul və metodlardan istifadə olunur. [4]

Dövrün tələbinə uyğun olaraq xarici dillərin yeni təlim texnologiyaları ilə tədrisi bütün təhsil müəssisələrində artıq zəruri hal almışdır. Müasir dövrdə ibtidai sinif pilləsində xarici dillərin tədrisi prosesində dil öyrənən məktəblilərə dil, bilik və bacarıqlarının eşidib – anlama, danışıq, oxu və yazı üzrə zəruri xüsusiyyətlərinin aşılanması, həmçinin, onlarda tənqidi düşünmə qabiliyyətlərinin və kommunikativ səriştənin formalaşdırılması xarici dil müəllimlərinin qarşısında duran əsas məqsədlərdəndir. Bununla yanaşı, dövrümüzdə dil öyrənənlərin xarici dildə şifahi ünsiyyət qura bilməsi və həmin dildə informasiya mübadiləsi edə bilməsi mühüm məsələ kimi ön plandadır.

Dünyada mövcud olan bütün təhsil sistemlərinin məqsədi fərdlərin maariflənmiş və məsuliyyətli, ixtisaslı və cəmiyyətə inteqrasiya edə bilən vətəndaşlar kimi yetişməsidir. Eyni zamanda onların müstəqil öyrənmə, çalışma qabiliyyətini inkişaf etdirməkdir. Çünki müasir dünyada özünütəlim, çeviklik, uyğunlaşma, inkişaf və ömür boyu öyrənmə ilə yanaşı yeni bacarıqların və yeni biliklərin yaranmasına gətirib çıxarır. Bu baxımdan öyrənmə könüllü, fərdi konstruksiya hesab olunur. Lakin yalnız deyil, başqaları ilə münasibət, qrup üzvləri də daxil olmaqla, müxtəlif resurslarla zəngin olan mühitlə qarşılıqlı əlaqə kontekstində işləmək vacibdir.

Hal hazırda orta məktəblərdə xarici dillərin tədrisi müasir metodlarla həyata keçirilir. Dilin ənənəvi üsullardan fərqli şəkildə öyrədilməsi və öyrənilməsi, öyrənmə və öyrətməni daha maraqlı, rəngarəng və yaddaqalan prosesə çevirir. Bu zaman dilin tədrisində istifadə olunan audio-video materiallar, şəkillər, animasiyalar, filmlərin nümayişi tədris prosesini canlandırmaqda, şagirdlərdə dərsə həvəs oyatmaqda, dərsi daha maraqlı və başa düşülən etməkdə əvəzsiz rol oynayır.

Öyrənmə fərdin bir hissəsi olduğu və onun yaranmasına kömək etdiyi mühitlə, sosial mühitin qarşılıqlı əlaqələrinin nəticəsidir. Hal-hazırda texnologiyaların sürətli təkamülü həm təhsil müəssisələri üçün nəzərdə tutulmuş təlim yerlərini, həm də rəsmi və ya qeyri-rəsmi mühit imkanlarını artırır. [2] Bu gün ibtidai siniflərdə keçirilən dərslər gündəlik həyatda xarici dilləri öyrənmək və istifadə etmək üçün yeganə yer ola bilməz. Dil bacarıqları dərslərinin tədris planında olan sinifdən kənar saatları da bunu sübut edir. Artıq sinfi tərk etdikdən sonra tədris bitmir, onu smartfon telefonlarda yaradılmış proqramlar sayəsində davam etdirmək mümkündür. Bu innovativ proqramların tədrisə uğurlu tətbiqi müəllimin davamlı araşdırmasından asılıdır. Bir çox metodlar cəmi bir neçə həftə ərzində rəvan öyrətmə vəd etsə də, bir dili tam mənimsəmək adətən daha uzun zaman çəkir. Buna görə də, öyrənmək istəyinin səbəbini müəyyənləşdirmək ən vacib amildir, çünki bu, təhsil almaq, işləmək və ya səyahət etmək üçün ola bilər. Hədəfin düzgün müəyyənləşdirilməsi nəticəyə doğru düzgün istiqamətlənməkdir. Bəs xarici dili daha

səmərəli necə öyrənmək olar? Güclü motivasiya mənbəyi taparaq hədəf dilə qərq olmaq, öyrənərkən bu dildə düşünməyə çalışmaq və bu mexanizmi yaratmaq əsas şərtdir. Bunun üçün müəyyən vaxt ayırmaq, ardıcıl işləmək, qeydlər aparmaq, bu qeydləri öyrənənə qədər nəzərdən keçirmək çox vacib amillərdəndir. İnternet resurslarından məqsədli istifadə: film və serialları orijinal versiyada izləmək dil mühiti və real situasiyalar yaratmağın ən effektiv yoludur.

Müasir metodların həyata keçirilməsində həm müəllim, həm də şagird üçün kompüter və internetin çox böyük əhəmiyyəti vardır. Hazırki tədris prosesini kompütersiz və internetsiz təsəvvür etmək çətindir. Müasir müəllimin qarşısında duran ən vacib amillərdən biri də bu yeni texnoloji vasitələrdən öz dərslərində səmərəli istifadə edə bilməsidir.

1990-cı illərin sonlarından başlayaraq texnologiya yeni inkişaf mərhələsinə qədəm qoydu və kompüterlərdən müstəqil istifadə çox sürətlə artmağa başladı. Bu zamanda sürətli internet bu prosesin daha da inkişafına səbəb oldu. 2014-2020-ci illər üçün Milli Strategiyada informasiya cəmiyyətinin inkişafına dair müəyyən tədbirlər həyata keçirilmiş və elektron resursların inkişaf etdirilməsi qarşıya məqsəd kimi qoyulmuşdur. Hazırda ölkəmizdə xarici dillərin tədrisinin informasiyalaşdırılmasına dair hüquqi baza yaradılmışdır. Bu isə mövcud materialların internet vasitəsi ilə ötürülərək daha əlçatan olmasına imkan yaratmışdır. Ümumiyyətlə, dilin tədrisi prosesini dəstəkləyən elektron tədris materiallarının inkişaf etdirilməsi, xarici dillərin mənimsənilməsi üçün dərs vəsaitlərinin texnoloji inkişafa uyğun müasirləşdirilməsi, mərkəzləşdirilmiş virtual tədris platformasının yaradılması xarici dilin öyrənilməsini əlçatan edir. Bu isə bizə müasir biliklərə yiyələnməkdə və yeniliklərdən xəbərdar olmağa köməklik göstərir.

Müasir dövrdə orta məktəblərin ibtidai sinif pilləsində ingilis dilinin xarici dil kimi tədrisində kommunikativ metod aparıcı yerlərdən birini tutur. Bu metod azyaşlı şagirdlərin ingilis dilində danışaraq xarici dildə ünsiyyət qurmaq bacarıqlarının formalaşdırılmasına xidmət edir. Ən müasir üsullar rol oyunları, layihə əsaslı öyrənmə, təqdimatlar və müzakirələrdir. Bu metod kommunikativ bacarıqları, məntiqi təfəkkür və təhlil, sintez, müqayisə və ümumiləşdirmə kimi müxtəlif intellektual fəaliyyət növlərini inkişaf etdirir. Şagird mərkəzli bu metodlar xüsusilə şagirdləri bilik, bacarıq və strategiyaların əldə edilməsinə daha fəal cəlb etmək üçün olduqca uyğundur. Nəticədə biz başa düşürük ki, interaktiv metodda tədris yalnız hədəf dildə aparılmalıdır. Deməli, müəllimlər onlara yeni xarici dil öyrətmək üçün ana dilindən istifadə etməməlidirlər. Üstəlik, xarici dil öyrənənlərə hər gün dil mühiti yaratmaqla söz bazalarını artırmalıdırlar. [3] Azərbaycanda təhsil sisteminin Avropa standartlarına uyğun şəkildə yenidən qurulması, müasirləşdirilməsi və bu işlərin təşkilində müasir və interaktiv metodlardan istifadə olunmaqla yerinə yetirilməsi prioritet məsələ hesab olunur. Hazırda dünya təcrübəsi göstərir ki, müasir təlim metodları dərsin keyfiyyətini daha da artırır, tələbələr üçün dərsləri maraqlı və cəlbedici edir. Fəal, interaktiv təlim zamanı həm tətbiqi bilik daha da möhkəmlənir, həm də təhsilin məzmunu daha səmərəli və başa düşülən olur. XVIII əsr Fransa maarifçilərinin görkəmli nümayəndəsi, şair, publisist, tarixçi, insan hüquqları müdafiəçisi və filosofu Volterin təbirincə desək: "Çox dil bilmək qalanın bir neçə qapısının açarına sahib olmaqdır". Bu baxımdan dili daha asan və səmərəli şəkildə öyrətmək müasir metodların əhəmiyyətini artırır. [5]

**Problemin aktuallığı.** Hazırda müasir təlim metodları dil öyrənənlərə bilik verməklə yanaşı, həm də onları iradi, əxlaqi, əqli, estetik, mədəni, hüquqi dəyərlər yönümündə inkişaf etdirir. Bu metodların öyrənilməsi və tətbiqi xarici dillərin öyrədilməsi prosesində böyük əhəmiyyət kəsb edir və dil öyrətməni daha da asanlaşdırır.

**Problemin elmi yeniliyi.** İbtidai siniflərdə xarici dillərin müasir metodlar ilə tədrisi təhsilin inkişafının əsas prinsiplərinə uyğundur. İngilis dilinin öyrənilməsinin ən təsirli üsulları, təlim materiallarında avtomatlaşdırılmış bacarıqların formalaşmasına imkan verən üsullardır.

**Problemin praktiki əhəmiyyəti.** Məqalə müasir metodlardan istifadə etməklə ingilis dili dərslərini daha əyləncəli və məhsuldar keçmək istəyən müəllimlər üçün əhəmiyyətli olacaqdır.

**Ədəbiyyat:**


1. "Xarici dilləri tədrisinin aktual problemləri" mövzusunda respublika elmi-praktik konfransının tezisləri. – Bakı: Mütərcim, – 2017.
2. Harmer J. The Practice of English Language Teaching. – London., 2001.
3. Nilson L. (2016). Teaching at its best: A research-based resource for college instructors. JosseyBass
4. Рогова Г.В. Методика обучения иностранному языку на начальном этапе. – М., 2000.
5. https://az.wikipedia.org/wiki/Volter


**E-mail:** mehdiyevaulviyya@gmail.com
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **D.Ə. İsmayılova,**
*ped.ü. fəls.dok., dos.* **S.Ə. Məmmədov**
**Redaksiyaya daxil olub:** 18.10.2023

UOT 372.881.116.11

**Фахрия Фикрет гызы Бабаева**
*учитель начальных классов*
*средней школы № 251 Низаминского района гор. Баку*
*ORCID ID: https://orcid.org/0009-0005-6103-7151*

# НОВЫЕ ПЕРСПЕКТИВЫ ПРЕПОДАВАНИЯ РУССКОГО ЯЗЫКА КАК ИНОСТРАННОГО В СРЕДНЕЙ ШКОЛЕ

**Fəxriyyə Fikrət qızı Babayeva**
*Bakı şəhəri Nizami rayonu 251 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi*

# ORTA MƏKTƏBDƏ RUS DİLİNİN XARİC DİL KİMİ TƏDRİSİNƏ YENİ PERSPEKTİVİLƏR

**Fakhriya Fikret Babayeva**
*primary school teacher of*
*secondary school number 251 of Nizami district of Baku city*

# NEW PERSPECTIVES ON TEACHING RUSSIAN LANGUAGE AS A FOREIGN LANGUAGE IN SECONDARY SCHOOL

**Резюме.** В статье рассматриваются современные педагогические стратегии и методы преподавания русского языка как иностранного в общеобразовательных школах. В последнее время исследования литературы и теоретические соображения в области преподавания русского языка свидетельствуют о том, что роль этого языка как иностранного в общеобразовательной школе усиливается. Известно, что в стране, где русский язык долгое время преподавался как основной, разработана программа преподавания этого предмета как иностранного в азербайджанском секторе. С этой целью в данной статье представлены стратегии применения русского языка как иностранного в школах, новые перспективы и проблемы.
***Ключевые слова:*** *русский язык как иностранный, стратегии обучения, методы и формы*

**Xülasə.** Məqalə ümumtəhsil məktəblərində rus dilinin xarici dil kimi tədrisində müasir təlim strategiyaları və metodlarından bəhs edir. Son vaxtlar rus dilinin tədrisi sahəsində tədqiq olunan ədəbiyyat və nəzəri mülahizələr bu dilin ümumtəhsil məktəblərində xarici dil kimi rolunun gücləndiyini qeyd edir. Məlumdur ki, uzun müddət rus dilinin əsas dil kimi tədris olunduğu bir ölkə kimi, Azərbaycan bu fənnin tədrisini Azərbaycan bölmələrində xarici dil kimi tədris olunması proqramını işləyib hazırlandı. Bu məqsədlə, təqdim olunan məqalə rus dilinin xarici dil kimi məktəblərdə tədrisi problemləri, yeni perspektivlər sahəsində tətbiqi strategiyalarını təqdim edir.
***Açar sözlər:*** *rus dili, xarici dil, təlim strategiyaları, üsul və metodlar*

**Summary.** The article discusses modern pedagogical strategies and methods of teaching Russian as a foreign language in secondary schools. Recently, literature studies and theoretical considerations in the field of teaching the Russian language indicate that the role of this language as a foreign language in secondary schools is increasing. It is known that, as a country where Russian has been taught as the main language for a long time, Azerbaijan has developed a program for teaching this subject as a foreign language in the Azerbaijani sectors. To this end, the presented article presents strategies for using Russian as a foreign language in schools, new perspectives and problems.
***Key words:*** *Russian as a foreign language, teaching strategies, methods and methods*

Русский язык является одним из шести официальных языков Организации Объединенных Наций. На нем говорят около 170 миллионов человек, и он является четвертым языком в мире по распространенности.

Поэтому учителя средних школ необходимы, чтобы помочь учащимся освоить этот глобальный язык в Азербайджане, учитывая его политическое и экономическое положение в мире.

Повышается роль Азербайджана в глобальном информационном обществе, постепенно увеличивается использование русского языка в социальном, экономическом и культурном контекстах. Преподавание русского языка как иностранного повысило его роль во всей сфере образования и позволило признать русский одним из распространенных языков.

Цель статьи – представить способы преподавания русского языка в азербайджанских секторах общеобразовательных школ с использованием различных коммуникативных средств согласно современной методике обучения.

Преподавание русского языка как иностранного в школах, как и других европейских языков, основано на приобретении четырех языковых навыков. Комплексное обучение русскому языку осуществляется, прежде всего, на основе соблюдения принципов организации обучения и одновременно профессионализма преподавателя. Общеизвестно, что простое следование учебнику – не лучший способ гарантировать, что учащиеся сохранят информацию, которую они изучают во время занятий. Преподавание русского языка,как иностранного, считается более эффективной деятельностью в начальных классах.




***Схема 1. Методика преподавания русского языка как иностранного***

Из схемы видно, что обучение русскому языку в начальных классах осуществляется поэтапно, а упомянутые навыки интегративно следуют друг за другом (Схема 1.). Каждый урок должен развивать следующие языковые навыки:

- эффективное понимание на слух
- коммуникативная речь и культура речи
- эффективное чтение и смысл
- издательские способности
- богатый словарный запас
- грамматика
- навыки коммуникации

Занятия современным русским языком в начальных классах должны проводиться на русском языке, причем приоритет следует отдавать использованию соответствующих обращений и фраз, которые используются каждый день. Преподавание русского языка как иностранного комплексно объясняет стратегии его активного использования не только на уроке, но и за его пределами.

Эффективные уроки русского языка должны быть основаны на изучении оригинальных текстов, применении ролевых игр, симуляций, дискуссий и других видов дея-

тельности, чтобы ученик мог выразить свои интересы. Содержание уроков этого типа реалистично и связано с жизнью учащихся.

Организация уроков на основе современных стратегий должна сделать урок увлекательным, использовать различные типы учебных материалов и деятельности для поощрения участия. Кроме того, современные стратегии обучения предусматривают, что обучающие объявляют учащимся цель урока, чтобы учащиеся могли понять, в каком направлении движется урок.

Преподавание русского языка в начальных классах должно быть больше ориентировано на понимание речи на слух и говорение. Сначала мы представляем упражнения и задания для понимания на слух. Чтобы эффективно применить понимание на слух, следует реализовать следующие стратегии обучения:

- Выбор интересных и веселых заданий на аудирование для учителя
- использование онлайн-ресурсов и анимации
- чтение текстов на русском языке и проведение коротких вопросов и ответов
- фонетические звуки и проверка интонации
- сопоставление текстовых символов с изображениями

В начальных классах учащиеся должны продемонстрировать, что они овладели правильным произношением, и продемонстрировать свою способность общаться, используя изученные речевые модели.

Преподавание русского языка как иностранного считается более эффективным видом деятельности в начальной школе. Ученики должны достичь следующих результатов обучения для *понимания на слух* на этом уровне обучения:

- определяет звуки, акцент и интонацию в понятной ему речи;
- определяет содержание небольшого текста, содержащего 3-5 неизвестных слов;
- выбирает предмет по заданным характеристикам по картинкам;
- правильно отвечает на вопросы по содержанию прослушанного текста;
- демонстрирует понимание поставленных задач и инструкций.

Речевые навыки, необходимые ученикам в устной речи, направлены на формирование у них следующих коммуникативных умений:

- соблюдает правила, определенные в произношении слов;
- выражает выученные простые предложения с соответствующей интонацией;
- общается на основе простого речевого этикета;
- демонстрирует, что ожидает последовательности в выражении своих мыслей;
- описывает по картинкам заданные предметы и простые ситуации;
- делает небольшие презентации на основе выученных им слов.

Кроме того, поскольку понимание на слух и говорение интегрированы в преподавании русского языка, учителю также следует комплексно выстраивать стратегию обучения и выбирать перспективные ресурсы для совместного изучения обоих языковых навыков.

При организации образовательного процесса в коммуникативной форме дети выполняют простые запросы, произнесенные на русском языке, легко выбирают и показывают в картинках услышанные предметы и события, учатся дифференцировать услышанные предметы и события по услышанным признакам.

После коммуникативного развития навыков аудирования и разговорной речи в начальных классах можно очень легко развивать чтение и письмо на русском языке. В качестве рецептивного навыка на уроках применяется чтение от чтения слов и фраз по картинкам до небольших текстов на русском языке, как втором иностранном.

С этой целью результаты обучения пониманию прочитанного преподаются в сравнении с родным языком:

- различает и произносит разные звуки изучаемого языка по сравнению с родным языком;
- читает небольшие тексты и объясняет их содержание;
- строит небольшие устные и письменные тексты на основе выученных словосочетаний и моделей;
- определяет значение встречающихся ему новых слов с помощью словаря.

Задания и деятельности для каждого результата обучения подбираются в соответствии с уровнем и возрастными особенностями класса. Для этого мы представляем виды заданий и деятельность, которые будут применяться в начальных классах.

**Задания и деятельность в начальных классах:**

**1. Задания по аудированию**

1) *Слушайте задания и выполняйте их правильно;*

2) *Прослушайте текст и выберите картинки, связанные с текстом;*

3) *Прослушайте текст и ответьте на вопросы;*

4) *Прослушайте текст и запишите основную информацию.*

**1.1. Деятельность по аудированию**

1) *Повторите услышанные слова по кругу по порядку;*

2) *Послушайте друга и дайте короткий ответ;*

3) *Выполните действия после прослушивания текста;*

4) *Слушайте музыку и повторяйте слова.*

**2. Задания по речевым навыкам**

1) *произносите слова в тексте правильно*

2) *составляйте небольшие диалоги из слов и фраз*

3) *составьте диалог по данным картинкам*

4) *используйте и произносите новые слова в предложениях*

5) *опишите данные картинки, используя новые слова;*

**2.1. Деятельность по речевым навыкам**

1) *внимательно слушайте друг друга по кругу и повторяйте новые слова по порядку*

2) *соберитесь в круг и составьте текст с новыми словами*

3) *опишите данные картинки друг другу в парах*

4) *произнесите новое слово, которое заканчивается на каждое слово*

5) *слушайте внимательно и найдите ошибки*

6) *опишите предмет и найдите его название*

**3. Задания по чтению**

1) *Правильно прочитайте данную букву, буквосочетания и слова;*

2) *Правильно прочитайте данные фразы и предложения;*

3) *Прочитайте данный короткий текст с интонацией;*

4) *Ответьте на вопросы по содержанию текста.*

**3.1. Де ятельность по чтению**

1) *Переверните карты лицевой стороной вверх на столе и используйте три слова для начальной буквы*

2) *В парах расположите текст в правильном порядке и прочитайте его.*

3) *Разделите слова данные в тексте по частям речи и вставьте их в таблицу.*

4) *Составьте и прочитайте связный текст по данным картинкам.*

**4. Задания для письменной работы**

1) *Составьте простые предложения из данных слов.*

2) *Составьте и запишите небольшие тексты из картинок*

3) *Посмотрите на картинки и опишите их письменно.*

4) *Внимательно прослушайте текст и запишите основные мысли.*

**4.1. Деятельность по письменной работе**

1) *Прочитайте текст и обратите внимание на правильное написание слов, обращаясь к другой группе.*

2) *Соберите в небольшую ёмкость различные предметы, рассмотрите их один за другим и запишите названия запомнившихся предметов.*

3) *Напишите и презентуйте краткий текст из слов и фраз парами.*

4) *Напишите короткое письмо другу о поездке.*

Как видно из примеров, эти задачи и виды деятельности можно увеличить. Основная цель состоит в том, чтобы ученики могли овладеть русским языком в коммуникативной ситуации. В целях совершенствования русского языка в начальных классах в течение полугодия или всего года, учителям рекомендуется подготовить список слов, словосочетаний и речевых тегов для каждого класса.

**Актуальность проблемы.** Основной целью современных образовательных программ является организация коммуникативной деятельности учащихся по четырем языковым навыкам при обучении русскому языку. Овладение грамматикой и словарным запасом четырех языковых навыков в рамках общения на русском языке способствует более эффективному усвоению этого языка. На уровне начального образования обеспечивается формирование понимания, устной речи, начальных навыков письма, а также формирование и развитие навыков правильного чтения.

**Научная новизна проблемы.** Интерактивное изучение русского языка на уровне начального образования основано на последовательном и систематическом изучении задач и действий, основанных на различных навыках.

**Практическая значимость проблемы**. Практическая значимость проблемы может стать полезным ресурсом для учителей при правильном выборе задач и мероприятий с учетом современной активности учащихся по результатам обучения при обучении русскому языку.

## Литература:

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün xarici dil fənni üzrə təhsil proqramı (kurikulumu) (I-XI siniflər) 2013. – s. 6-22
2. Акишина А.А. Игры на уроках русского языка. – Москва: Русский язык, – 1990. – с. 11-16
3. Крючкова Л.С., Мощинская Н.В. Практическая методика обучения русскому языку как иностранному / – Москва, 2009. – с.16-22
4. Черненко Татьяна Васильевна. Развитие речи как аспект обучения русскому языку иностранцев на продвинутом этапе. 2022. – с. 2-9
5. Mikhailova E.V. Communicative approach in teaching the Russian language. – M.: Linguistics and literary criticism, 2020. – p. 131-139

**E-mail:** faxriyyababayeva@gmail.com
**Рецензенты:** *док. фил. по пед.* **Ф. М. Гусейнова**
**Redaksiyaya daxil olub:** 13.11.2023

# İNFORMATİKANIN TƏDRİSİ METODİKASI
# МЕТОДИКА ПРЕПОДАВАНИЯ ИНФОРМАТИКИ
# METHODS of TEACHING COMPUTER SCIENCE

UOT 372.800.2

**Bahar İsmayıl qızı İsmayılova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*

## PEDAQOJİ-PSIXOLOJİ ASPEKTLƏRİ NƏZƏRƏ ALMAQLA İNTELLEKTUAL OYUNLARIN İNFORMATİKA FƏNNİNİN TƏDRİSİNƏ İNTEQRASİYASI YOLLARI

**Вахар Исмайил кызы Исмаилова**
*докторант по программе доктора философии*
*Институт образования Азербайджанской Республики*

## ПУТИ ИНТЕГРАЦИИ ИНТЕЛЛЕКТУАЛЬНЫХ ИГР В ПРЕПОДАВАНИИ ИНФОРМАТИКИ С УЧЕТОМ ПЕДАГОГИЧЕСКИХ И ПСИХОЛОГИЧЕСКИХ АСПЕКТОВ

**Bahar Ismayil Ismayilova**
*doctor of philosophy in pedagogy*
*Institute of Education of the Republic of Azerbaijan*

## WAYS TO INTEGRATE INTELLECTUAL GAMES INTO THE TEACHING OF INFORMATION SCIENCE, CONSIDERING PEDAGOGICAL AND PSYCHOLOGICAL ASPECTS

**Xülasə.** Məqalədə dərs prosesində şagirdlərin fəallığının, təlimin keyfiyyətinin, biliyin mənimsənilməsi səviyyəsinin artırılması, habelə biliyin qiymətləndirilməsi zamanı qarşıya çıxan çətinliklər, intellektual oyunların dərs prosesinə inteqrasiyasının pedaqoji-psixoloji aspektləri araşdırılır, intellektual oyunların, işgüzar oyunların biliklərə yiyələnmə motivasiyasını artıraraq yüksək keyfiyyətli bilik əldə etməyə effektiv təsiri qeyd olunur, bu istiqamətdə xarici ölkələrin təhsil sistemində istifadə olunan qeyri-standart üsullar nəzərdən keçirilir, problemin həlli ilə bağlı müəyyən təkliflər irəli sürülür.

***Açar sözlər:*** *təhsilin keyfiyyəti, motivasiya, biliyin qiymətləndirilməsi, özünüqiymətləndirmə, tədrisyönlü intellektual oyunlar, işgüzar oyunlar, krossvord*

**Резюме.** В статье исследуется возникающии трудности во время повышение активности студентов в процессе обучения, повышение качество обучения, развития повышения уровни знаний во время внеклассных мероприятиях и оценивания знаний. Отмечается эффект интеллектуальных, бизнес игр, компютерных игр в повышении учебной мотивации и улучшение качества знаний учащихся. Рассматриваются нестандартные методы используемые в системе образования в зарубежных странах. Выдвигаются определенные предложения по поводу решения данной проблемы.

***Ключевые слова:*** *качество образовании, мотивация, оценивания знаний, интеллектуальные игры, деловые игры, компьютерные игры, кроссворд*

**Summary** The article investigates the difficulties arise during the increased activity of students in the learning process, improve the quality of education, the development of increased knowledge during extracurricular activities and knowledge assessment. Also noted that intellectual games, business games are

increasing the quality of students' learning motivation and it effects as getting the best knowledge. In this regard non-standard methods which used on the education system of the foreign countries are reviewed , some suggestions are put forward to solve this problem.

***Key words:*** *the quality of education, incentives, motivation, knowledge assessment, modernization, e-education, intellectual games, business games, crossword*

Müasir dövrün məktəblilərinin rəqəmsal əsrin tələb etdiyi kompetensiyalara (bilik, bacarıq, vərdiş və dəyərlərə) malik olan, davamlı olaraq özünüqiymətləndirmə, özünütəhsillə məşğul olan, biliklərini dərinləşdirən, bacarıqlarını təkmilləşdirən gənclər kimi formalaşması təhsil müəssisələrində təlim prosesinin necə qurulmasından, öyrədici mühitin təşkilindən və s. kimi amillərdən asılıdır.

Məktəblilərin, gənclərin böyük əksəriyyətinin İnformasiya Texnologiyalarından (İT) əsasən oyun, əyləncə məqsədilə istifadə etməsi müasir dövrün aktual problemlərindən biridir və müxtəlif istiqamətli mənfi nəticələrə gətirib çıxarır. Aşağıda informatika dərslərində qarşılaşdığımız bəzi problemlər qeyd olunmuşdur:

- şagirdlərin biliklərə yiyələnmə motivasiyasının, oxuyub-anlama, analiz, sintez bacarıqlarının qənaətbəxş olmaması;
- hər bir şagirdin dərs prosesində mövzuları mənimsəmə faizinin qənaətbəxş olmaması;
- hər bir təhsilalanın özünüqiymətləndirməsində problemlərin olması və s;

Tədris prosesində idrak fəallığını stimullaşdıran problemli situasiyaların yaradılması, şagirdlərin hər bir dərsdə 5-10 dəqiqə də olsa 100% fəallığının təşkil edilməsi, oxuyub-anlama, dərk etmə səviyyəsinin yüksəlməsi üçün dərsdə istifadə olunan üsul və vasitələrin, iş formalarının düzgün seçilməsinin böyük əhəmiyyəti danılmazdır.

Müasir dövrdə şagirdlərin həyati bacarıqlarının inkişaf etdirilməsi məsələsi daha kəskin qoyulur, onlarda problemləri vaxtlnda hiss etmə, çevik, optimal qərarvermə, liderlik xüsusiyyətlərinə malik olma və s. kimi qabiliyyətəri təkmilləşdirmək ön plana çəkilir. Hər bir fənnin tədrisində həm mənimsəmə, həm də diaqnostik, summativ qiymətləndirmə prosesində tədrisyönlü intellektual oyunlardan, kompüter oyunlarından istifadə effektiv nəticələr verir. Xarici ölkələrdə məktəbəqədər təhsil müəssisələrindən başlamış təhsilin bütün mərhələlərində, pillələrində məqsədəmüvafiq şəkildə "Sesame street" materiallarından, tədrisyönlü intellektual oyunlardan, elmi laboratoriyalarda tədqiqatlarla bağlı intellektual kompüter oyunlarından istifadə olunur [4]. Beynəlxalq təcrübədə insanlar təhsil, öyrənmə, tədqiqat prosesini mümkün qədər əyləncəli formada təşkil etməyi sevirlər, çünki əylənərək öyrənmə prosesi maraqlıdır, yorucu deyil, könüllülük prinsipi ilə qurulur və çətin işləri yüksək keyfiyyətlə yerinə yetirmək daha asan olur.

Beynəlxalq təcrübədə təhsil, səhiyyə, ticarət, hərbi və digər sferalarda intellektual oyunlardan, tədrisyönlü kompüter oyunlarından uğurla istifadə olunur və bu formada təhsil, özünütəhsil insanların düsünmə və öyrənmə tərzində, fəaliyyətində çox böyük keyfiyyət dəyişikliklərinə səbəb olur. 15 ildən artıqdır ki, tədrisyönümlü oyunlardan istifadə ilə bağlı beynəlxalq konfranslar, çempionatlar, müsabiqələr keçirilir [5].

Müxtəlif dövrlərdə oyunların fərqli sektorlara təsirinin əsas cəhətləri tədqiq edilmiş, təhsilalanların özünüqiymətləndirməsi, özünütəkmilləşdirilməsi, özünü inkişaf etdirməsi üçün müxtəlif üsul və vasitələr, tədrisyönlü intellektual oyunlar, testlər təcrübədən keçirilmişdir [1-3].

**İntellektual oyunlar, onların növləri, funksiyaları**

İnsanın mədəni həyatında ilk fəaliyyət formalarından biri olan oyunlardan tədris prosesində geniş istifadə olunur. Məktəbəqədər tədris müəssisələrində, ibtidai siniflərdə oyundan istifadə faizi daha çoxdur, V–XI siniflərdə isə azalır. Ona görə də yuxarı siniflərdə məqsədəuyğun şəkildə tədrisyönümlü oyunlardan istifadə olunmaması və ya az istifadə olunması şagirdlərin biliklərə yiyələnmə motivasiyasının, nəticədə mövzuların mənimsənilmə faizinin azalması səbəblərindən biri kimi qiymətləndirilə bilər. Görkəmli pedaqoqların, tədqiqatçıların fikirlərinə görə: "... İntellektual oyun müəyyən bacarıqların formalaşmasına çox böyük təsir etdiyi üçün hava kimi, qida kimi zəruridir" [6], "... İntellektual oyun elə "nərdivandır" ki, onu qalxdıqca insan yaradıcı xüsusiyyətlər qazanır,.." [7], "... hər bir oyun uşaq üçün həyat məktəbi, özünütərbiyə üsuludur..." [8],

Mürəkkəb, hər bir adamın bacarmadığı intellektual oyun fəaliyyəti gəncləri həm də yaşlıları cəlb edir. Ahıl yaşlara qədər bəzi insanlarda intellektual oyunlarla məşğul olmaq tələbatı olur.

İntellektual oyun – düşüncə və yaddaşın tam şəkildə cəlb olunduğu bir fəaliyyətdir. İştirakçı-oyunçuların əqli əməliyyatları isə təqdim olunmuş materialın, tapşırığın müəyyən edilməsi və anlanmasına istiqamətlənmişdir [9]. C.A. Şmakova görə intellektual oyunlar, tədrisyönlü kompüter oyunları sosiallaşma, özünüqiymətləndirmə, özünütəhsil, özünüreallaşdırma, özünüinkişaf etdirmə, psixotreninq və s. kimi funksiyaları yerinə yetirir [10].

Tədris prosesində intellektual oyunları tətbiq etmək üçün müəllim ilk növbədə bu oyunların təsnifatını, hansı oyundan istifadənin nə zaman maksimal effekt verəcəyini bilməli, oyun texnologiyalarından istifadə zamanı şagirdlərin potensialını, psixoloji vəziyyətini və s. nəzərə almalıdır. Dərsdə və dərsdənkənar saatlarda intellektual oyunlardan istifadə zamanı bəzi pedaqoji və psixoloji aspektləri nəzərə almaq vacibdir. Məsələn, oyunun inkişaf dinamikası, sadə oyunlardan mürəkkəb oyun formalarına keçid, fərdi, qrup şəklində, kollektiv fəaliyyət, dialoji ünsiyyət və s. kimi prinsiplərə xüsusi diqqət verilməlidir. Peşəkar fəaliyyətin məzmunu və formalarının modelləşdirilməsi ilə bağlı oyunlar yuxarı sinif şagirdlərini çox maraqlandırır və onlar əzmkarlıqla oyunda qalib gəlməyə çalışırlar. Dərsdə və dərsdənkənar saatlarda təşkil olunan hər bir oyun qalib olmayan uşaqlarda belə müsbət emosional əhval-ruhiyyə yaratmalıdır. Oyun fəaliyyəti zamanı uşaqların ləyaqətini aşağılayan hərəkətlərə qətiyyən yol vermək olmaz

**İbtidai siniflərdə informatika dərsində kompüter oyunlarından istifadə**




Kiçikyaşlı məktəblilərdə biliklərə yiyələnməyə, oyuna, böyük həvəs olur. Onlar tapmacaları, sərgüzəştli hadisələri xoşlayırlar. Bu yaşda uşaqların yaddaşının həcmi artır, idrak prosesləri, nitq, tələffüz sürətlə inkişaf edir. Onlar ciddi və bir tipli işlərdən tez yorulurlar.

İbtidai siniflərdə tədris olunan mövzulara, məqsədə müvafiq olaraq "İnfo-ko" tədris vəsaitindən, "Robotlandiya" [11], yaşlarına uyğun məntiqi oyunlar, rollu oyunlar, rebus, krossvord, şagirdləri ekoloji maarifləndirmək, tullantıları çeşidləmək, təhlükəli tullantıları tanıtmaq məqsədilə "Şən ferma" və s. kimi oyunlardan istifadə effektiv nəticələr verir.

**V-VIII siniflərdə informatika dərslərində intellektual oyunlardan istifadə**

Bu yaşda olan məktəblilər qəhrəmanlığa, fantastik hekayələrə böyük maraq göstərir. Onlar formalizm hallarını xoşlamırlar, müxtəlif situasiyalarda ünsiyyət vərdişlərini mənimsəmə qabiliyyətləri inkişaf edir. Müstəqil olmağa çalışır, ətrafında olanlara tənqidi münasibət bəsləməyi xoşlayırlar, kimisə aşağılayan hallara qarşı barışmaz olurlar. Özlərini yaşından böyük kimi aparmağa çalışır, seçilən biri, lider olmağı arzulayır, həssas, bəzən çox aktiv, hətta intizamsız ola bilirlər. Bu yaşda olan şagirdlərə hörmətlə yanaşma, şəxsiyyətinə toxunmamaq müsbət nəticə verir.

V-VIII sinif şagirdləri əyləncəli tapşırıqlar, krossvord həll etmə, yaratmanı xöşlayırlar. Hər bir şagird potensialına uyğun krossvord həll edə və yarada bildiyinə görə onlar böyük həvəslə krossvordlarla işləyir, dərsdə, dərsdənkənar saatlarda yarış keçirməyi arzulayırlar. Ən zəif şagird belə ilk günlərdə kitabdan, əlavə vəsaitlərdən istifadə edərək, yoldaşlarının köməyi ilə sadə krossvordlar hazırlaya bilir. Bir müddət belə fəaliyyət göstərdikdən sonra artıq müstəqil şəkildə orta səviyyəli krossvordlar hazırlamağa çalışır. Qazandıqları hər bir uğur zəif, orta səviyyəli şagirdləri daha çox sevindirir, onlarda özgüvən hissi, özünə inam yaranır və daha əzmkarlıqla daha maraqlı krossvordlar yaratmağa çalışırlar. Uşaqların hazırladığı krossvordlardan müəllifliyi saxlamaqla başqa siniflərdə istifadə etdikdə önlar özləri ilə qürur duyur və daha məhsuldar işləməyə səy göstərirlər. Kompüter oyunlarında olduğu kimi, şagirdlərin vaxtaşırı daha yüksək səviyyədə fəaliyyət göstərmələri onların söz ehtiyatını, oxuyubanlama bacarıqlarını artırır.

Şagirdləri krosvordlarla bərabər rollu oyunlar, səhnəciklər də çox maraqlandırır. Onlar kompüterin hissələrini, bəzi proqramları öyrəndikdən sonra "Qurğuların mübahisəsi", "Proqramların mübahisəsi" adlı səhnəciklər hazırlayır, kompüterin əsas və köməkçi hissələri, bəzi proqramlar rolunda çıxış edərək hər bir hissənin, proqramın funksyalarından danışır, üstün, fərqli cəhətlərini qeyd edirlər.

Hər bir insanın, eləcə də hər bir şagirdin psixoloji durumu fərqlidir. Bəzi məktəblilərin özünə inamı azdır, dərs zamanı cavablarının səhv ola biləcəyini düşünərək, ətrafındakılardan utanaraq cavab verməkdən imtina edir və bununla da daha passiv vəziyyətə düşürlər. Müstəqil krossvord həll edən və ya hazırlayan, şagird özünüqiymətləndirmə ilə məşğul olur, kitabdan və digər mənbələrdən istifadə edərək özünü yoxlayır, səhvlərini tapır, düzəldir, dəfələrlə bu formada məşq etməklə biliklərini dərinləşdirir, söz ehtiyatını artırır, daha mürəkkəb, çox sözdən ibarət krossvordlar yaratmağa çalışır və nəticədə daha yaxşı oxuyan şagirdlərin sırasında olur. Xarici tədqiqatçılar sübut etmişlər ki, krossvord həlli hər bir insanın, xüsusilə yaşlıların sağlamlığı üçün çox faydalıdır. Buna görə valideyinlərin bu istiqamətdə maarifləndirilməsindən sonra şagirdlər krossvord həlli zamanı ailə üzvlərinin, hətta nənə-babaların da köməyindən istifadə edirlər.

İnteraktiv krossvord həlli zamanı da fərdi kompüter qarşısında əyləşən və ya telefondan istifadə edən şagird səhv edəcəyindən utanmadan tapdığı cavabları kompüterə, telefona daxil edir, səhvlərini anında görür və düzəltməyə çalışır, mənfi emosiyalardan uzaq olur və nəticədə özünə inamı hissi, bilik və bacarıqları artır, təkmilləşir. Bu baxımdan intellektual oyunların, krossvord həllinin hər bir şəxsin müstəqil fəaliyyətində əhəmiyyətini, maksimum effektini heç nə ilə müqayisə etmək mümkün deyil. İnsan özü əziyyət çəkərək, dəfələrlə məşq edərək tapdığı cavabı, həll yolunu heç vaxt unutmur və bu baxımdan krossvord həlli, tədrisyönlü kompüter oyunları çox dərəcədə böyük əhəmiyyətə malikdir. Mövzuları, tədris vahidlərini əhatə edən, müxtəlif səviyyəli tədrisyönümlü krossvordları həll etmə və ya hazırlama hər bir şagirdin dərs boyu fəallığına və obyektiv qiymətləndirilməsinə, şagirdin özünüqiymətləndirməsinə, təkmilləşdirməsinə, özünütəhsilə, kitabla, əlavə materiallarla işləməsinə imkan yaradan, söz ehtiyatını artıran çox az sayda üsullardan biridir.

İntellektual oyunların bir növü olan krossvordun yaradılmasında müxtəlif təyinatlı sualların hazırlanması, istifadə olunması əsas məsələlərdən biridir. Krossvord tərtib etməyə çalışan şagird mövzunu oxuyur, məzmuna uyğun faktoloji, müqayisəedici, ümumiləşdirici, dəyərləndirici suallar hazırlayır, bu sualların cavabını axtarır, tapır və nəticədə məzmunu anlamış və öyrənmiş olur.

Beynəlxalq təcrübədə krossvord həllinə, hazırlanmasına xüsusi diqqət verilir və bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirilir. Bu tədbirlərin təşkilatçılarından biri olan Ümumdünya Krossvord İdman Federasiyası tərəfindən hər il dünya çempionatı keçirilir [12].




***Şəkil 1****. Krossvord həlli üzrə dünya çempionatında müxtəlif ölkələrdən olan qaliblərin sayı*

Buna görə də xarici ölkələrin qabaqcıl təcrübəsini öyrənərək təhsilalanların kompüter aludəçiliyindən tədrisyönlü məqsədlərlə istifadə etmək müasir dövrün ən böyük problemlərindən birinin – yeniyetmə və gənclərin kompüter oyunlarından asılılığının həllində sevindirici nəticələr verə bilər.

**X-XI siniflərdə informatika dərslərində intellektual oyunlardan istifadə**



Yuxarı sinif şagirdləri gələcək fəaliyyətləri üçün peşə seçməyə çalışır və daha çox işgüzar oyunlarla maraqlanırlar. Bu oyunlar hər bir iştirakçını məhsuldar fəaliyyətə cəlb edən güclü psixoloji mühit yaradır, şagirdlərin yaradıcı qabiliyyətinin üzə çıxarılmasına imkan verir, bu da özünüreallaşdıra bildiyi üçün şagirdi motivasıya edir, o yoldaşları ilə yarışmağa həvəsli olur. Hər bir yarış isə öyrənənlərin qalib gəlmək arzusu ilə bilik, bacarıq və vərdişlərinin sürətlə artması, inkişafı deməkdir.

İşgüzar oyun zamanı şagirdlərin problemləri hiss etmə, situasiyanı təhlil etmə, çevik qərar vermə, problemi həlletmə bacarıqları, həyati bacarıqları formalaşır və təkmilləşir. Dərs çox canlı keçir, şagirdlər könüllü olaraq nizam-intizam qaydalarına əməl edir, mövzuların mənimsənilmə faizi yüksəlir. Ruh yüksəkliyi, sevinc, fəallıq, özünüreallaşdırma imkanı, yarış mühiti yaranır, Məsələn, Ms. Excel proqramı ilə işləməyi müəyyən qədər öyrənəndən sonra şagirdlərə rollu oyun şəklində hansısa mağazanın, aptekin sahibi kimi illik hesabat hazırlamağı tapşırmaq olar. Potensialından asılı olaraq şagirdlər fərdi, cütlərlə, qrup şəklində işləyə bilərlər. Tapşırığı həll etdikdən sonra şagirdlər təqdimatla çıxış edir və əvvəlcə öyrənənlərin özləri qiymətləndirmə aparır, sonra isə müəllim prosesi yekunlaşdırır.

"Elektronika mağazasında" adlı rollu oyunda isə şagirdlərdən biri satıcı-İT mütəxəssisi rolunda olur və kompüter almaq istəyən alıcıya (şagirdə) müxtəlif kompüterlərin konfiqurasiyası, əməliyyat sistemləri, antivirus proqramları və s. haqqında məlumat verir. Şagirdlər belə tədrisyönlü oyunları çox sevirlər.

Başqa bir oyunda şagirdlər cizgi filmləri hazırlayan şirkətin işçiləri rolunda qrup şəklində işləyir, müxtəlif proqramlardan istifadə edərək sadə cizgi filmi hazırlayırlar. Sifarişçi rolunda olan şagird-uşaq bağçasının rəhbəri arzuladıqları cizgi filmi haqqında satıcı rolunda olan şagirdə məlumat verir. Şagirdlər şirkət işçiləri olaraq cizgi filmi hazırlayırlar. Bu zaman qrup üzvləri İT mütəxəssisi, səsləndirici, rəssam, dizayner və s. rollarda olur, sonda qimətləndirmə aparılır.

**Problemin aktuallığı.** Gənclərin kompüter oyunlarına alüdəçiliyindən tədrisyönlü məqsədlərlə istifadə edilməsi, təlim keyfiyyətinin yüksəldilməsi üçün bu istiqamətdə tədqiqatların genişləndirilməsinə, İT mütəxəssislərinin birgə fəaliyyətinin təşkilinə ehtiyac vardır.

**Problemin elmi yeniliyi.** İnformasiya Texnologiyaları gündən-günə təkmilləşir, onlardan istifadənin yeni imkanları açılır.Bu da onlardan tədris məqsədli istifadə üçün yeni imkanlar deməkdir. İnformatika fənninin, eləcə də bütün fənlərin tədrisində müxtəlif növ tədrisyönümlü kompüter oyunlarından istifadə bir çox problemlərin tədqiqində xüsusi maraq doğurur və gənc nəsildə İnformasiya Texnologiyalarına yeni yanaşmanın formalaşmasına şərait yarada bilər. Tədrisyönlü kompüter oyunlarının istifadəsi ilə bağlı xarici ölkələrin təhsil sistemində istifadə olunan qeyri-standart üsulları araşdırmaq, müxtəlif sektorlarda istifadə olunan tədrisyönlü kompüter oyunlarının təsnifatını vermək, müəllimlərdə oyun fəaliyyətinin planlaşdırılması və tədrisə inteqrasiyası bacarığının inkişaf etdirilməsi üçün metodlar təklif etməklə biliyin mənimsənilməsi, qiymətləndirilməsi zamanı məqsədyönlü şəkildə, müntəzəm olaraq tədrisyönlü kompüter oyunlarından istifadə etməyə kömək etmək olar.

**Problemin praktik əhəmiyyəti.** İT mütəxəssisləri ilə birgə müxtəlif fənlər üzrə interaktiv krossvordlar**,** şagirdlərin yaş xüsusiyyətlərinə uyğun olaraq işgüzar oyunlar, tədrisyönlü kompüter oyunları hazırlamaq və məqsədəuyğun şəkildə dərs prosesində və dərsdənkənar tədbirlərdə istifadə etmək o qədər də çətin məsələ deyil. Bu vasitələr gənclərin daha çox tədrisyönlü oyunlara maraq göstərməsinə, təhsilalanların, həm də müəllimlərin rəqəmsal əsrin tələblərinə uyğun formalaşmasına kömək edə bilər.

**Ədəbiyyat:**

1. Introduction to Using Games in Education: A Guide for Teachers and Parents. https://scholarsbank.uoregon.edu/xmlui/bitstream/handle/1794/3177/Games.pdf?sequence=1
2. Moral and Intellectual Development Through Play: How to Promote Children's. http://www.uni.edu/coe/regentsctr/publications/Moralandintellect.pdf
3. Development Through Playing Group Games by Rheta DeVries http://www.uni.edu/coe/regentsctr/publications/Moralandintellect.pdf
4. https://en.wikipedia.org/wiki/Sesame_Street).
5. http://www.academic-conferences.org/conferences/ecgbl/
6. Рунова О. Б. «Методики исследования интеллекта», г. Москва, Лань, 2006, 86 с.

7. Шацкий С.Т. Избр. пед. соч.: В 2-х т. Т.2, Москва, Педагогика, 1980, 416 с.
8. Ушинский К.Д. Собр. соч. в 8 т. Т.8. Москва, Лань, 1950, 552 с.
9. https://ru.wikipedia.org/wiki/
10. Шмаков, С.А. Игры учащихся – феномен культуры [Текст] / С.А. Шмаков – М.: Новая школа, 1994, 240 с.
11. http://robotlandia.ru
12. http://www.indiana.edu/%7Eintell/binet.shtml

**E-mail:** bahar_ismayilova @yahoo.com
**Rəyçi:** *AMEA-nın həqiqi üzvü,*
*tex. elm.dok., prof.* **R.M. Əliquliyev**
**Redaksiyaya daxil olub:** 04.12.2023

# *MÜƏLLİMİN ÖZÜNÜTƏHSİLİ*
# *САМООБРАЗОВАНИЕ УЧИТЕЛЯ*
# *TEACHER'S SELF-EDUCATION*

*UOT 371*

**_Nüsrəddin Nadir oğlu Əliyev_**
*fizika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Tibb Universiteti*
*https://orcid.org/0009-0003-5816-9538*

**_Günay Nüsrəddin qızı Hüseynova_**
*Azərbaycan Tibb Universitetinin baş laborantı*

## FİZİKİ METODLA DAMARDA QANIN AXIN SÜRƏTİNİN TƏYİNİ

**_Нусреддин Надир оглы Алиев_**
*доктор философии по физике, доцент*
*Азербайджанский медицинский университет*

**_Гюнай Нусреддин гызы Гусейнова_**
*старший лаборант Азербайджанского медицинского университета*

## ОПРЕДЕЛЕНИЕ СКОРОСТИ ТОКОВОЙ КРОВИ В СОСУДЕ ФИЗИЧЕСКИМ МЕТОДОМ

**_Nusreddin Nadir Aliyev_**
*doctor of philosophy in physics, associate professor*
*Azerbaijan Medical University*

**_Gunay Nusreddin Guseynova_**
*senior laboratory assistant at Azerbaijan Medical University*

## DETERMINING THE VELOCITY OF BLOOD FLOW IN A VESSEL BY PHYSICAL METHOD

**Xülasə.** Məqalədə induksiyası B – olan maqnit sahəsində hərəkətdə olan müxtəlif işarəli elektrik yüklərinə ($Na^+$ və $Cl^-$ – ionlarına) Lorens qüvvəsinin təsirinə baxılıb. Bu ionlara təsir edən Lorens qüvvəsi bir-birinə əks istiqamətlərdə yönəlməsinə əsaslanaraq maqnit sahəsində yerləşdirilmiş damarda qanın hərəkət sürətinin təyini – fiziki metodu göstərilib. Bu isə fizika və biologiya fənləri arası inteqrasiyanın yaranması deməkdir.
**_Açar sözlər:_** *maqnit sahəsi, Lorens qüvvəsi, qanın tərkibi, qanın sürəti, potensiallar fərqi*

**Резюме.** В статье рассмотрено влияние силы Лоренца на электрические заряды разных знаков (ионы $Na+$ и $Cl^-$), движущиеся в магнитном поле с индукцией B-. Определение скорости движения крови в сосуде, помещенном в магнитное поле, основано на том, что сила Лоренца, действующая на эти ионы, направлена в противоположные стороны (показан физический метод). Это означает возникновение интеграции между предметами физики и биологии.
**_Ключевые слова:_** *магнитное поле, сила Лоренца, состав крови, скорость течения крови, разность потенциалов*

**Summary.** In the article, the influence of the Lorentz force on electric charges of different signs (*Na+* and *Cl⁻* – ions) moving in a magnetic field with induction B – was considered. Determination of the speed of blood movement in a vessel placed in a magnetic field based on the fact that the Lorentz force acting on these ions is directed in opposite directions – a physical method is shown. This means the emergence of integration between physics and biology.

***Key words:*** *magnetic field, Lorentz force, blood composition, blood velocity, potential difference*

Orta məktəblərin IX-sinif fizika dərsliyində maqnit sahəsi, maqnit sahəsində cərəyanlı naqilə maqnit sahəsinin təsiri Amper qüvvəsi maqnit sahəsində hərəkətdə olan yüklü zərrəciklərə Lorens qüvvəsinin təsiri hadisələrini ətraflı öyrəndikdən sonra Lorens qüvvəsinin xassələrinə ayrıca nəzər yetirməyi lazım bilirik. Lorens qüvvəsinin müsbət və mənfi elektrik yüklərinə etdiyi təsir qüvvəsi istiqamətcə bir-birinin əksinə yönəldiyini (şəkil 1).




**Şəkil 1.** ***U*** **- potensiallar fərqinin yaranması**

Şagirdlərin Lorens qüvvəsinin bu xassəsindən istifadə etməklə damarda qanın axın sürətini təyin etmək olduğunu şagirdlərin diqqətinə çatdırmaq lazımdır. Belə ki, şagirdlər VIII-sinif biologiya fənnindən "Qan-damar sistemi. Qanın damarlarda hərəkəti" mövzusu haqqında müəyyən qədər təsəvvürə malikdirlər. Məsələnin bu şəkildə qoyulması onlar üçün əlavə maraqlı bilik "porsiyasının" verilməsi, mövzuya belə yanaşma fizika və biologiya fənləri arasında inteqrasiyanın yaradılması deməkdir.

Qan dövranı sistemində damarlarda qanın hərəkət sürətini təyin etmək üçün müxtəlif metodlar vardır [1-3]. Onlardan biri də maqnit sahəsində hərəkətdə olan elektrik yükünün meyl etməsinə əsaslanan fiziki metoddur [1]. Şagirdlərin diqqətinə çatdırmaq lazımdır ki, qanın tərkibində kifayət qədər çox müsbət və mənfi yüklü ionlar var; onlardan natrium və xlor ionlarının konsentrasiyası: – $Na^{+}$*-145 mmol/l;* $Cl^{-}$*125 mmol/l* təşkil edir.

Əgər diametri d-olan arteriyanı induksiyası B-olan maqnit sahəsində yerləşdirilərsə bu zaman birvalentli yüklü ionların (sahə $Na^{+}$ cə $Cl^{-}$ – ionlarının hərəkət sürətinin istiqamətinə perpendikulyardır) hərəkət sürəti istiqamətinə perpendikulyar olan

$$F_L = q\upsilon B \quad (1)$$

Lorens qüvvəsi təsir edərək onların qiymətini yox, istiqamətini dəyişir (burada *q* – ionun yüküdür). Belə ki, qan müsbət və mənfi yüklü ionlardan ibarət elektrik cəhətdən neytral sistemdir. Deməli, hərəkətdə olan qan yüklü zərrəciklər sistemindən ibarət olub $\upsilon_{qan}$ sürəti ilə yerdəyişmə edir. Şəkil 1-də göstərildiyi kimi maqnit sahəsi tərəfindən bu müxtəlif işarəli ionlara təsir edən Lorens qüvvələri bir-birinə əks istiqamətə yönəlib. Ona görə də Lorens qüvvəsinin təsiri altında arteriyanın bir divarı ətrafında müsbət ionlar, digər divarı ətrafında isə mənfi ionlar toplanar ki. Bu halda şaqul boyunca *U* – potensiallar fərqi yaradar (bax şəkil 1). Onun qiyməti $F_L$ – Lorens qüvvəsinin qiyməti və müsbət və mənfi yüklü ionların $\upsilon$ - hərəkət sürəti ilə mütənasibdir. Damarın en kəsiyi boyunca ionların belə paylanması $E = \frac{U}{d}$ intensivliyinə malik elektrik sahəsinin yaranmasına səbəb olur. Burada *d* – arteriyanın diametridir. Arteriyanın divarının bir-birinə əks istiqamətlərində ionların konsentrasiyası artar. Bu hal elektrik sahəsinin yaratdığı $F_{el} = qE$ qüvvəsinin Lorens ($F_L$) qüvvəsi ilə kompensasiya olunduğu ana qədər davam edər. Həmin qüvvələr bərabərləşərkən $F_L = F_{el}$ – şərtindən ionların hərəkət sürəti, yəni qanın arteriyada hərəkət sürəti tapılır:

$$q\upsilon B = qE$$

$$\upsilon_{qan} = \frac{E}{B} = \frac{U}{Bd} \quad (2)$$

Beləliklə, qanın hərəkət sürəti induksiyası *B* – olan maqnit sahəsində yerləşdirilmiş arteriyanın en kəsiyində yaranan potensiallar fərqi (gərginlik) ilə mütənasibdir.




**Şəkil 2. Dəyişən maqnit sahəsindən istifadə edərək *U* - potensiallar fərqinin ölçülməsi**

Deməli, *U* – gərginliyini ölçməklə qanın hərəkət sürətini təyin etmək olar. Bunun üçün dəyişən maqnit sahəsindən istifadə edilir (şəkil 2). Bu zaman dəyişən *U* – gərginliyi yaranır və sonra gücləndirilərək ölçülür.

Beləliklə, əgər arteriya induksiyası *B*-olan maqnit sahəsinə daxil edilərsə qanın hərəkət sürəti arteriyanın divarı enində yaranan *U* – potensiallar fərqi ilə mütənasib olar və (2) ifadəsinə əsasən təyin olunar [2].

**Problemin aktuallığı.** Məqalədə induksiyası B – olan maqnit sahəsində hərəkət edən müxtəlif işarəli ionlara ($Na^+$ cə $Cl^-$ – ionlarına) Lorens qüvvəsinin təsirinə əsasən damarda qanın hərəkət sürətinin təyininin verilməsi şagirdlərin tədqiqatçılıq bacarığının inkişafı və informasiya texnologiyasına marağının artmasında mühüm əhəmiyyət kəsb edir.

**Problemin elmi yeniliyi.** Fizika dərsliyində (IX-sinif) "Maqnit sahəsi, Amper qüvvəsi, Lorens qüvvəsi" materialının tədrisi zamanı biologiya dərsliyində (VIII sinif) "Qan-damar sistemi. Qanın damarlarda hərəkəti" mövzusuna əsasən qanın hərəkət sürətinin təyininə Lorens qüvvəsinin tətbiqi şagirdlərdə fərdi marağın yaranmasına səbəb olur.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Maqnit sahəsində hərəkət edən müxtəlif işarəli ionlara Lorens qüvvəsinin təsirinə əsaslanaraq damarda qanın axın sürətinin təyini orta məktəb fizika kursunda (IX sinif) Lorens qüvvəsinin tətbiqi kimi demək məsləhətdir. Bu mənada məqalənin tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, ondan ümumtəhsil məktəblərində həm fizika və həm də biologiya müəllimləri, tələbə və magistr də istifadə edə bilərlər.

**Ədəbiyyat:**


1. Антонов В.Ф. Физика и биофизика. / В.Ф. Антонов, Е.К. Козлова, А.М. Черныш. – М.: 2012. – 477 с.
2. Ремизов А.Н. Медицинская и биологическая физика. Учебник. / А.Н. Ремизов, А.Г. Максина, А.Я. Потапенко. – М.: 2008. – с. 559.
3. Əliyev N.N. İşıqötürücü optik liflər və onun tibbdə tətbiqi. Dərs vəsaiti. / N.N. Əliyev – Bakı: 2013. –127 s.


**E-mail:** nusreddin.aliyev@mail.ru
**Rəyçilər:** *ped.elm.dok., prof.* **N.İ. Musayev,**
*fiz.ü.fəls.dok., dos.* **Ş.Ş. Əmirov**
**Redaksiyaya daxil olub**: 30.10.2023

UOT 371

**Lalə Səyavuş qızı Əliyeva**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
*0009-0003-0761-9973*

# AZƏRBAYCANDA YERLİ ÖZÜNÜİDARƏETMƏ ORQANLARININ FƏALİYYƏTİNDƏ SƏMƏRƏLİYİN TƏMİN EDİLMƏSİ ÜZRƏ VƏTƏNDAŞ MƏMNUNİYYƏTİ

**Лала Саявуш гызы Алиева**
*Академия государственного управления при Президенте Азербайджанской Республики*

# УДОВЛЕТВОРЕННОСТЬ ГРАЖДАН ПО ОБЕСПЕЧЕНИЮ ЭФФЕКТИВНОСТИ ДЕЯТЕЛЬНОСТИ ОРГАНОВ МЕСТНОГО САМОУПРАВЛЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

**Lala Sayavush Aliyeva**
*Academy of Public Administration under the President of the Republic of Azerbaijan*

# CITIZENS' SATISFACTION WITH ENSURING THE EFFECTIVENESS OF LOCAL GOVERNMENT BODIES IN AZERBAIJAN

**Xülasə.** Xüsusilə son illərdə fəaliyyətin səmərəliliyi, xidmət keyfiyyəti və vətəndaş məmnunluğu kimi anlayışlar yerli özünüidarəetmə orqanlarında xüsusi aktuallıq daşıyır. Bu məqalənin məqsədi yerli özünüidarəetmə orqanlarının göstərdiyi xidmətlərin keyfiyyətinin vətəndaşlara kömək göstərdiyini və bu orqanların fəaliyyət səmərəliyinin təmin edilməsində vətəndaş məmnuniyyəti rolunu təhlil etməkdir. Yerli özünüidarəetmə orqanlarının səmərəliyini aydınlaşdırmaq üçün ilk növbədə səmərəlilik və keyfiyyət anlayışlarının izahı verilməlidir.
***Açar sözlər:*** *yerli özünüidarəetmə, yerli özünüidarəetmə orqanı, səmərəlilik, xidmət keyfiyyəti, vətəndaş məmnuniyyəti*

**Резюме.** Особенно в последние годы особую актуальность в органах местного самоуправления приобретают такие понятия, как эффективность деятельности, качество обслуживания и удовлетворенность граждан. Целью данной статьи является анализ качества услуг, предоставляемых органами местного самоуправления по оказанию помощи гражданам, и роль удовлетворенности граждан в обеспечении эффективности работы этих органов. Для выяснения эффективности работы органов местного самоуправления необходимо прежде всего разъяснить понятия эффективности и качества.
***Ключевые слова:*** *местное самоуправление, орган местного самоуправления, эффективность, качество услуг, удовлетворенность граждан*

**Summary.** Especially in recent years, concepts such as operational efficiency, quality of service and citizen satisfaction have become particularly relevant in local governments. The purpose of this article is to analyze the quality of services provided by local governments to assist citizens, and the role of citizen satisfaction in ensuring the efficiency of these bodies. To determine the effectiveness of local governments, it is necessary first of all to clarify the concepts of efficiency and quality.
***Key words:*** *local government, local government, efficiency, quality of services, citizen satisfaction*

## 1. Yerli özünü idarəetmə orqanlarının fəaliyyət səmərəliyinin başlıca amilləri

Günümüzdə dövlət, ictimai quruluşun fasiləsiz fəaliyyətini təmin edilməsi, ictimai mənafeyə xidmət edən fəaliyyətləri qurmaq, ümumi tələbatları ödəmək, ictimaiyyətin diqqətini cəlb etmək və xidmətlərin səmərəli və verimli şəkildə təmin edilməsi məqsədi ilə mərkəzləşdirilmiş və yerli olmaqla iki prinsip əsasında təşkilatlanmışdır. Bu idarəetmə sistemləri hər ölkədə fərqli

ənənəyə, iqtisadi, tarixi və mədəni əsaslara söykənir. Bu baxmayaraq, demək olar ki bütün ölkələrdə yerli özünü idarəetmə dövlət idarəçiliyi içində əhəmiyyətli bir yerə sahibdir. Müəyyən bir coğrafi sahədə fəaliyyətdə olan, müəyyən imtiyazlara, öz mülkiyyətinə, maddi, texniki və heyət imkanına sahib olan, qərar orqanları yerli seçicilər tərəfindən seçilərək yaradılan yerli özünü idarəetmə orqanları, dövlət idarəçiliyinin təşkilatlanmasında mərkəzi idarəetmənin yanında, yerli ehtiyacların təmin edilməsi üçün məsuliyyət alan qurumlardır.

Yerli özünüidarəetmə orqanları başda abadlıq, su, kanalizasiya nəqliyyat kimi şəhər infrastruktur xidmətləri olmaq üzrə ətraf sağlamlığı, təmizlik, qatı tullantı, təcili yardım, nəqliyyat, qəbiristanlıq, ağaclandırma, mənzil, mədəniyyət, sənət, turizm, idman və sosial yardım olmaq üzrə bir çox yerli xidməti qanuni olaraq yerinə yetirmə imkanının olduğuna görə vətəndaşla bir çox sahədə birə-bir əlaqə və qarşılıqlı təsir içində olurlar. Xalqa yaxın və iştirakçı bir idarəetmə vahidi olma xüsusiyyəti daşıyan bələdiyyələrin təqdim etmiş və yüklənmiş olduqları xidmətlərdən faydalanan vətəndaşların istək və tələbatlarının nə ölçüdə təmin və məmnun edildiyi, tələblərinin nə səviyyədə qarşılandığı mövzusu isə bu quruluşlarının müvəffəqiyyət göstəricilərini meydana gətirir. Bu göstəricilər təkrar seçilmə ehtimallarını doğuran və gələcəyə dair plan və siyasətlərində əhəmiyyət daşıyan amilləri izah edir. Bu çərçivədə yerli özünüidarəetmə orqanlarının quruluş məqsədini və əsas funksiyalarını vətəndaşların ehtiyaclarını qarşılaya bildiyi, reallaşdırdıqları sərmayə və xidmətlərlə vətəndaşların həyat keyfiyyətini və eyni zamanda vətəndaş məmnuniyyətini artıra bildiyi təqdirdə yerinə yetirilmiş olacağı düşünülür.

Günümüzdə vətəndaşın ictimai xidmət anlayışı dəyişməyə başlamışdır. Ənənəvi idarəetmə yanaşmasında dövlət tərəfindən göstərilən dövlət xidmətləri ilə kifayətlənən vətəndaş, indi dövlətdən daha çox xidmət tələb edir və bu xidmətlərin daha yüksək keyfiyyətdə olmasını istəyir. Özəl sektor və dövlətin xidmət göstərilməsi ilə dövlət xidmətlərini istehsal edən dövlət qurumları (bələdiyyə, xəstəxana, məktəb, qubernatorluq, reyestrə və s.) bu günə qədər göstərdikləri xidməti, keyfiyyətli bir xidmətə çevirməli olublar.

Keyfiyyətli xidmət isə vətəndaşın xidməti göstərən qurumlara olan məmnunluq dərəcəsi ilə sıx bağlıdır. Özəl sektor ilə dövlət sektorunun xidmət göstərməsinin müqayisə edilməsi, ictimaiyyətin təzyiqi ilə birlikdə ictimai xidmət göstərən ictimai quruluşları bu günə qədər göstərdikləri xidməti, vətəndaşın istədiyi və məmnun olduğu keyfiyyətli xidmətə çevirmək məcburiyyətində qoymuşdur.

Yerli xidmətlərin icrasında, operativ və səmərəliliyin təmin edilməsində əvəzolunmaz qurumlar kimi qəbul edilən bələdiyyələr, ictimai ehtiyaclarını ödəmək üçün, vətəndaşların istəklərinə həssaslıqla yanaşaraq, təqdim edəcəkləri xidmətlərin keyfiyyətinə üstünlük verərək, vətəndaşları məmnun etməyə çalışırlar.

Yerli özünüidarəetmə orqanlarında səmərəlilik əsas məqsəddən kənar olduğu üçün, uzun müddət dövlət xidmətlərində səmərəlilik meyarı kimi mənfəət amilindən istifadə edilməmişdir. Başqa sözlə, dövlət fəaliyyətinin cəmiyyət üçün göstərdiyi xidmətlərin faydası pulla ölçülə bilməz. Səmərəlilik mahiyyətcə fəaliyyətin giriş və çıxışlarının ədədi olaraq ölçülə bildiyi, yəni xərc və nəticələrin (faydaların) pul ifadəsi ilə ifadə oluna bildiyi zaman sual altında olan bir anlayışdır. Fəaliyyətin "səmərəli" hesab edilməsi üçün;

- Eyni girişlə daha çox çıxış təmin etmək,
- Daha az girişlə eyni çıxışı əldə etmək,
- Çıxışı daxilolma artımından daha yüksək səviyyədə artırmaq lazımdır.

Yerli idarəetmədə səmərəlilikdən ümumiyyətlə, dövlət mənbələrinin israf edilməməsi və yerində istifadə edilməsini, eyni məsrəflə daha çox adama və ya sahəyə xidmət edilməsi və ya eyni xidmətin daha aşağı məsrəflə təqdim edilməsini kimi anlamaq lazımdır. [3, s. 1-13]

Yerli özünüidarəetmə orqanlarında səmərəlilik iqtisadi və sosial itkilərin ən aşağı səviyyədə reallaşması hesabına yaranır və sosial münaqişələrin və itkilərin ən aşağı səviyyədə reallaşmasına uyğun formalaşır. Yerli özünüidarəetmə orqanlarının uğuru resurslardan səmərəli və effektiv istifadə edilməsindən, demokratik idarəetmə fəlsəfəsinin və konsepsiyalarının düzgün dərk edilməsindən, demokratik idarəetmə prinsiplərinin düzgün tətbiqindən asılıdır. Xüsusilə, resurslardan qərəzsiz istifadə yerli özünüidarəetmə orqanlarının uğurlarını artırır. Bunun baş verməsi üçün investisiyalar və planlaşdırma öl-

kənin və yerli yaşayış məntəqəsinin gəlir səviyyəsinə, infrastrukturuna və büdcə şəraitinə uyğun olmalıdır. Bu baxımdan, yerli özünüidarəetmə problemlərinin mövcud imkanlar və üsullarla həll oluna biləcək şəkildə həll edildiyini və məqsədlərin konkret olduğunu başa düşmək kimi müəyyən edilə bilər [5].

Yerli özünüidarəetmə orqanlarında səmərəliliyin artırılması üçün həyata keçirilməli olan işlərin başında kadr islahatları dayanır. Dövlət məmurları ekspertlər arasından seçilməli və onların ən məhsuldar olacağı yerdə işləmələri təmin edilməlidir. Kadrların idarə olunmasına lazımi qayğı və önəm verilməsi yerli özünüidarəetmənin səmərəliyini artırır. Yerli idarəetmənin səmərəliyini artırmaq üçün görülə biləcək digər mühüm tədbir inzibati islahatlardır. İnzibati islahat dedikdə nəzərdə tutulan yerli özünüidarəetmə xidmətlərinin mərkəzi dövlət və yerli idarəetmə orqanları arasında bölüşdürülməsinə yenidən baxılması və hər bir inzibati təşkilat daxilində xidmətlərin ən uyğun xidmət vahidlərinə ötürülməsidir. Yerli hökumət işçilərini siyasi təzyiqlərdən kənarda saxlamaq dövlət məmurlarında vətəndaşlara daha yaxşı xidmət göstərmək üçün maarifləndirmə yaradır. Eyni zamanda idarənin qərəzsizliyinin, yerli idarəetmənin səmərəliliyinin təmin edilməsində təsirli olduğunu deyə bilərik [5, s. 46].

## 2. Vətəndaş məmnuniyyətinin yerli özünü idarəetmə orqanlarında dəyərləndirilməsi

Bələdiyyələrin vəzifə və səlahiyyətlərinə nəzər saldıqda görünür ki, bələdiyyələrin insanın sosial həyatının hər bir mərhələsində vəzifə və məsuliyyətləri vardır. Bu baxımdan qiymətləndirildikdə demək olar ki, fərdlərin yaşadıqları mühitdən və həyat keyfiyyətindən razı olub-olmaması bağlı olduqları bələdiyyənin göstərdiyi xidmətlərin keyfiyyəti ilə sıx əlaqəlidir. Xüsusilə son illərdə xidmət keyfiyyəti və müştəri vətəndaş məmnuniyyəti anlayışı bələdiyyələr üçün çox əhəmiyyətli bir anlayış olaraq ortaya çıxmış və ədəbiyyatda bir çox araşdırmalara işıq salmışdır.

1980-ci illərdən sonrakı dövrdə, ümumi olaraq dünyada fərd, cəmiyyət və dövlət məzmununda bir çox anlayış mənasını itirmiş, fərdlərin gündəlik həyatları başda olmaq üzrə dövlət-vətəndaş əlaqəsi, cəmiyyət təşkilatlarının, xüsusi sektorun və vətəndaş cəmiyyət quruluşlarının quruluşu, işləmə mexanizmləri, əsas qanunları və xidmət anlayışları dəyişmişdir.

1980-1990 illərindəki, minimal dövlət anlayışından tənzimləyici dövlət anlayışına keçilərək yerliləşməyə daha ağırlıq verilməsi əsas müzakirə sahəsi olmuşdur. Hesabatlılıq, demokratik, şəffaf, təxmin edilə bilən və yaxşı idarələşmə prinsiplərinin əsas olduğu bir yerli idarəetmə quruluşunun qurulması üçün yenidən strukturlaşma işləri başladılmışdır. [4, s. 332-346].

Artan əhalinin böyük əksəriyyətinin şəhərlərdə yaşayır olması bələdiyyələrin vəzifə və məsuliyyətlərini artırmaqdadır. Dünyanın bir çox ölkəsində artan ictimai xidmət tələb və istəklərin bələdiyyələr tərəfindən yerinə yetirilməyə başlandığı görülməkdədir. Yerli ehtiyacların yerli seçilmişlər tərəfindən daha yaxşı müəyyən oluna biləcəyi, yerli idarəetmələrin xalqa yaxınlığı ilə mərkəzi idarəetməylə müqayisədə daha iştirakçı, keyfiyyətli, təsirli, şəffaf və qənaətli xidmətlər təqdim edəcəyi düşünülür. [8, s.7] Mərkəzi idarəetmənin yerlərdə təyin edilmiş nümayəndələrinin xalqa nəzərən mərkəzdəki rəhbərlərinə qarşı daha çox məsuliyyət daşıdıqlarına görə, yerli idarəetmələrin ön plana çıxma ehtiyacı vardır. Xalqın təqdim edilən ictimai xidmətlərindən məmnun olmamasının başlıca bu üç səbəbinə baxdığımızda, yerli özünü idarəetmə orqanlarının xüsusi əhəmiyyətini anlamaq mümkündür. Bu səbəblər aşağıdakılardır:

- Səmərə itkinlərinin yaşanır olması,
- Dövlət qurumlarının üçüncü kəslərlə mənfəət əlaqələri içinə girməsi. [8, s. 121-133]

Dövlət idarələri xidmət göstərərkən operativlik prinsipinə diqqət yetirməlidir, əks halda eyni həcmdə resurslarla daha az xidmət göstəriləcək və nəticədə ictimaiyyətdə narazılığa səbəb olacaqdır. Bundan əlavə, dövlət idarələrinin onlara verilmiş resurslardan istifadə etmək səlahiyyətindən sui-istifadə edərək, satınalma zamanı səmərəlilik prinsipindən çıxış etməməklə şəxsi maraq münasibətlərində olduqları müəyyən şəxslərə və qruplara üstünlük vermələri və ya himayədarlıq münasibətlərində olduqları şirkətlərə üstünlük vermələri də əhalinin narazılığına səbəb olur.

Vətəndaşların hansı səbəbdən narazı olması ilə bağlı problemlərin və narazılıqların səbəblərini öyrənilməsi, xidmətlərin ehtiyac və istəklərə uyğun icrası ilə bağlı lazımi tədbirlər görülməsinə şərait yaradır. Şahin K. 2011-ci ildə həyata keçirdiyi tədqiqatında, xidmətin səmərə-

liyini və vətəndaş məmnunluğunu artıran aşağıdakı məqamları qeyd etmişdir:

- Xidmət standartlarının müəyyən edilməsi,
- Dövlət xidmətlərinin göstərilməsində açıqlıq və hesabatlılıq prinsipinin üstünlük təşkil etməsi,
- Vətəndaşların tərcihlərinin müəyyən edilməsi,
- Keyfiyyətin artırılması və maya dəyərinin aşağı salınması,
- Vətəndaşlarla birbaşa məşğul olan kadrlardan faydalanmaq,
- Xidmətlərdə ədalətin və bərabərliyin təmin edilməsi,
- Xidmətlərin göstərilməsində ictimaiyyətin iştirakını təmin etməyə çalışmaq,
- Vətəndaş şikayətlərinin araşdırılması və həlli üçün bölmələrin yaradılmasıdır [10].

Qeyd etmək olar ki, ictimai xidmət motivasiya yanaşmasına uyğun olaraq bələdiyyələrdə aparılacaq araşdırmalar bələdiyyə xidmətləri ilə bağlı vətəndaş məmnunluğunun artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Çünki bu yanaşma ictimai quruluşların inzibati proseslərinə aşağıdakı töhfələri verir.

- Fədakarlıq, başqalarını özündən öndə tutmaq kimi üstün keyfiyyətlərə malik şəxslərin ictimai qurumlarda işə götürülməsi,
- İxtisaslı işçi qüvvəsini bu qurumlarda işləməyə həvəsləndirmək,
- Dövlət bürokratiyasının mənfi cəhətlərini aradan qaldırmaq imkanı yaratmaq,
- Dövlət qurumlarının səmərəlilik səviyyələrinin artırılması,
- Dövlət xidmətlərinin keyfiyyət və kəmiyyət yaxşılaşdırılmasının təmin edilməsi,
- Cəmiyyətin təbəqələrinin dövlət xidmətlərindən ədalətli istifadəsinə töhfə vermək. [2]

Bələdiyyələrin əsas vəzifəsi həyat keyfiyyətini və vətəndaş məmnunluğunu təmin etdikləri investisiyalar və xidmətlərlə artırmaqdır. Bu səbəbdən mövcud ehtiyatlardan daha səmərəli və effektiv istifadə edilməlidir. Bələdiyyələr üçün vətəndaş məmnunluğunu artırmağın əsas yolu ehtiyaclar əsasında keyfiyyətli xidməti göstərmək olduğundan, yerli özünüidarəetmə orqanları vətəndaşların öz səlahiyyətləri daxilində ehtiyaclarına və istəklərinə müəyyən dərəcədə cavab verirlər. Bələdiyyələrin nəyi təmin edə biləcəyinin ölçülməsi, göstərilən xidmətin keyfiyyətinin artırılması və gələcək üçün strateji planlarının qurulması mərhələlərində də böyük əhəmiyyət daşıyır.

Sovet İttifaqının dağılmasından sonra sürətlə institutlaşmaya başlayan Azərbaycan, inzibati dəyişikliklərə ayaq uydurmaq, idarəetmə üslublarını daha demokratikləşdirmək üçün hüquqi, institusional və intellektual sıçrayışlar edir. Xüsusilə yerli səviyyədə Muxtariyyət Şərtlərində nəzərdə tutulan "yerli muxtariyyət" və "yerli iştirak"ın konstitusiya və hüquqi təminatları beynəlxalq struktura inteqrasiya iradəsinin əksi kimi qəbul edilməlidir [10, s. 61]. 2002-ci il avqustun 24-də keçirilən referendumla "Bələdiyyələrin statusunun prinsiplərinin Konstitusiya ilə müəyyən ediləcəyi" qəbul edildi. Bu baxımdan bələdiyyə səlahiyyətləri iki mənbəyə malikdir: Birincisi, Azərbaycan Respublikasının Konstitusiyası; İkincisi isə, Bələdiyyələrin statusu haqqında Azərbaycan Respublikasının Qanunudur [1, s. 212].

Azərbaycan Respublikasında yerli özünüidarəetmə orqanları elə bir sistemdir ki, bu sistem qanun çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil həll etmək üçün qanunu həyata keçirməsinə imkan verir. Bu hüquqlar ümumi, bərabər, birbaşa seçkilər əsasında azad, şəxsi və gizli səsvermə yolu ilə seçilən bələdiyyə üzvlərindən ibarət nümayəndəli kollegial (şəxslər qrupu) orqanlar (bələdiyyələr) və ya vətəndaşların yığıncaqları tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

"Bələdiyyələrin statusu haqqında" qanunun 1-ci maddəsinə əsasən, Azərbaycanda yerli özünüidarəetmə orqanları dövlət idarəetmə sistemindən kənarda olan idarəetmə sistemidir. Azərbaycan təcrübəsində bələdiyyələrin publik hüquqi şəxsləri yoxdur. Amma bələdiyyəyə mərkəzi hökumətin bəzi səlahiyyətlərinin həyata keçirilməsi həvalə edilmişdir. "Bələdiyyələrin statusu haqqında" qanunun 1-ci hissəsində yerli muxtariyyət; "vətəndaşlar tərəfindən təşkil edilən qeyri-hökumət fəaliyyəti" və yerli muxtariyyət kimi müəyyən edilir; müstəqil və azaddır. Bu, mühüm yerli problemləri həll etmək bacarığına malik olan vətəndaşlara dövlət tərəfindən verilən fürsətdir.

Digər tərəfdən, qanunvericiliyə uyğun olaraq bələdiyyələrə öz vəzifələrini yerinə yetirmək üçün məsuliyyət daşıyan və davamlı fəaliyyət

göstərən icra strukturları yaratmaq səlahiyyəti verilmişdir (Bələdiyyələrin statusu haqqında Qanunun 1-ci maddəsi). Bələdiyyə qanunla müəyyən edilmiş hüdudlarda və seçki yolu ilə hakimiyyətə gələn yerli idarəetmə formasıdır. Azərbaycan qanunlarına görə bələdiyyənin öz mülkiyyəti, yerli büdcəsi və seçkili orqanları var.

Azərbaycan Konstitusiyası və bələdiyyə qanunvericiliyi ilə bələdiyyələrə yerli əhəmiyyətli məsələləri müstəqil həll etmək səlahiyyəti verilir. Bələdiyyələr sosial institutlardır və buna görə də cəmiyyətin bütün təbəqələrini əks etdirirlər. Bələdiyyələr cəmiyyətin bütün sosial-iqtisadi problemlərini həll etmək üçün yaradılmışdır. [11, s. 84-87]

